Innovative teaching of the Russian language is the process of learning the theory of language and the development of speech, in which knowledge is acquired simultaneously with skills (linguistic, speech) ensured by a special organization of language learning: with a way of developing speech, special didactic means and a special methodology and technology. In our opinion, the method of innovative teaching ensures the development of students' abilities to acquire knowledge in an active way. We think that the concept of 'learning technologies' includes all the main problems of didactics related to improving the educational process and increasing the efficiency and quality of its organization. As well as in the methodology of teaching foreign languages, it is customary to refer to modern teaching technologies: teaching in cooperation, the method of projects (project technologies), student-centered learning, and intensive teaching methods, the use of technical means (primarily computer and audiovisual technologies).

This article discusses the importance of innovative technologies that play a major role in teaching Russian as a foreign language. In addition to that, the methods of using certain types of modern technologies in practical lectures on Russian as a foreign language with Turkish students will be indicated on specific examples. At the same time, information is provided on the methodology of working with films in teaching Russian as a foreign language.

Key words: innovative technologies, innovative teaching, Russian as a foreign language, educational films, method.

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Filologiya elmləri doktoru, professor Zeynep Bağlan Özer
tərəfindən çapa tövsiyə olunmuşdur

NİGAR HƏSƏNOVA
ŞƏFİQƏ ƏLİYEVA
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimləri
H.Cavid pr.25
nigarshfiqa@gmail.ru

ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ TƏRCÜMƏ PROSESİNDƏ KALKA ÜSULU İLƏ SÖZ YARADICILIĞI
(İngilis və Azərbaycan dilləri materialları əsasında)

. XÜLASƏ

Kalka üsulu ilə söz yaradıcılığı müasir İngilis dilinin leksik-qrammatik sisteminin inkişafının əsas yollarından biri olaraq leksika və söz yaradıcılığı, semantika və tərcüməşünaslıq məsələlərini özündə əks etdirir. Kalka etmə təkcə dilin öz tərkibində qurulmuş dil sistemi kimi anlaşılmır, həm də qarşılıqlı əlaqədə olan dillərin müəyyən elementlərinin struktur semantik uyğunluğunun qanun-qaydaları haqqında elm kimi başa düşülür. Kalka üsulu ilə söz yaradıcılığına müasir Azərbaycan dilində struktur semantik yaranma və tarixi inkişafının məhsulu kimi baxaraq, bu halı sosial amillərin təbii və ya şüuru təsirinə aid etmirik, çünki dilin inkişafına xarici və daxili amillərin təsiri nəzərə alınmalıdır. Kalka etmənin strukturunda əsas vahid kalkadan, kalka etmə sistemində isə kalkayaradan modellərdən ibarətdir. Kalka etmə məsələlərinə aid nəzəriyyənin yaranması və praktik tədqiqi dil əlaqələrinin qanunauyğun inkişafını özündə əks etdirir.

Kalkanın dəqiqliyi onu təşkil edən elementlərin quraşdırılması üsulundan da asılıdır. Kalkanı yaradarkən birinci növbədə alınma sözün tərkib hissələri və elementləri ilə əks olunan əlamətlərin ardıcıllıqla seçilməsinə diqqət yetirilməlidir. Kalkanın dəqiqliyi üçün onun elementlərinin sırası, daha doğrusu, elementlərinin yerləşdirilməsindəki ardıcıllıq böyük əhəmiyyətə malikdir, çünki bu kalkaya verilən tələbatın özündən irəli gəlir. Kalkalar imkan daxilində müvafiq alınma sözlərlə eyni funksiya daşımalı, eyni quruluşda olmasıdır.

Açar sözlər: semantik məna, kalka etmə, leksik – semantik vahidlər, motiviasiya, ön şəkilçilər, fonetik qruluş.

Burada komponentlərin yerləşmə qaydası, hətta sözün ahəngdarlığı əhəmiyyət kəsb edir. Lakin bəzi hallarda ayrı-ayrı elementlərin düzgün ifadə olunmaması, komponentlərin ardıcıl yerləşdirilməməsi, müəyyən sözün qeyri-dəqiq yaranması hallarına yol verilir ki, bu da nöqsan sayılmamalıdır.

Qeyd etmək lazımdır ki, qarşılıqlı əlaqədə olan hər hansı dilin söz yaradıcılığında qrammatik xüsusiyyətlər ayrı-ayrılıqda uyğun gəlmir və buna görə də kalka etmə zamanı ekvivalentlərin yerləşmə qaydası da eyni olmur. Bu müxtəlif

dillərin strukturundakı qanunauyğun hal kimi özünü göstərir. Bununla belə, kalka və onun prototipinin quruluşu ayrı-ayrı dillərdə heç də həmişə bir-birinə uyğun olmur. V.V. İvanov belə kalkaları "quruluşundan asılı olmayan, xarici terminin mənasını açan" kalkalar adlandırır: Bu zaman kalkada mənbə dildəki söz-terminin daxili forması keçə də bilər, keçməyədə bilər. Kalkada xarici terminin mənası təsviri surətdə açılır".(2.-s.232)

Kalka etməni daxili formanın alınması kimi başa düşən tədqiqatçılar sözün və onun prototipinin quruluşuna əsaslanırlar. Nəhz belə olan tədqirdə hər hansı bir dildə olan sözün daxili forması başqa dildə olan prototipin tərəfindən doğurdanda mənimsənilə bilər. Lakin kalkalar heç də həmişə qarşılıqlı əlaqədə olan dilin qrammatik qanun qaydalarının xüsusiyyətlərindən asılı olaraq quruluşu əks etdirə bilmir. Dəqiqlikdən kənara çıxma halları isə müxtəlif leksik-semantik xüsusiyyətlərə malik olan bütün dillərə xasdır. Tədqiqatçıların kalka haqqında dediklərindən o nəticə çıxır ki kalkanın formalaşması üçün söz və ya ifadənin quruluşunu dəqiqliklə almaq zəruri şərtdir. Lakin faktlar göstərir ki, kalka və onun prototipi heç də həmişə uyğun gəlmir. Söz və morfemlərin yerləşmə qaydasında, komponentlərin sayında, birləşmə xüsusiyyətlərində fərqlər nəzərə çarpır ki, bu da dillərin müxtəlif leksik-semantik xüsiyyətlərə malik olması ilə əlaqədardır. Belə olduqda isə, daxili formanın mənimsənilməsindən danışmaq olmaz. M.A Xeqay kalka etmə prosesinin morfologiya və sözyaratma planı üzrə şərh olunmasının doğru olmadığını göstərir. Ona belə gəlir ki, bu cəhət bir dilin daxili formasının başqa dilə verilməsindən ibarətdir.

Bu barədə onun fikrinin əsas mahiyyəti aşağıdakılardan ibarətdir: "Hər bir kalka üçün kalkaedilən söz və ya ifadədən sonuncuların leksik komponentlərinin tərcümə yolu ilə mənimsənilməsində müəyyən mənanın üstünlüyü daha çox əhəmiyyətlidir". Tərcümə prosesində yeni anlayış ifadə edən söz və ifadələr müqabilində ikinci dildə semantil motivasiya mövcud olduğu halda bunlar kalka edilir. Sözün yeni anlayış və mənasını digər dilə çevirmək üçün onun daxili struktur modelləri müəyyən edilmiş olur.

Son zamanlar dilimizə xarici dillərdən ədəbi, texniki siyasi və mətnlərin tərcüməsi ilə əlaqədar olaraq bir çox leksik vahidlər daxil olur. Bu zaman əmələ gələn vahidlərin hər biri dilin öz daxili materialı əsasında yarandığına görə dilin daxili inkişaf qanunları həlledici rol oynayır.Dilin daxili imkanları hesabına zənginləşmə dedikdə buraya leksik və qrammatik yolla zənginləşmə aiddir.Leksik yolla zənginləşmə dilin lüğət tərkibində olan müəyyən sözün mənası genişlənir, söz əvvəllər məxsus olmayan yeni mənalar alır. Qrammatik yolla zənginləşmədə, əsasən, sözdüzəldici şəkilçilər vasitəsi ilə eyni kökdən müxtəlif sözlər yaranır, bir nitq hissəsindən başqa bir nitq hissəsi düzəlir. Mürəkkəb sözlərin yaranmasında sintaktik quruluş mühüm rol oynayır. Kalka etməzamanı tərcümə edilən söz yərcümə edilən dildə eyni mənanı verən söz və ya söz birləşməsi ilə ifadə olunmalıdır. Məs: ingilis dilində "grand-juri" sözünün "böyük juri" kalkasında birinci komponent "grand-

böyük” sözü ilə, ikinci komponent isə tərcümə olunan dildə eyni mənanı verdiyi üçün olduğu kimi saxlanılmışdır. “Candidate of Science” sözünün “Elmlər namizədi” kalkası isə göründüyü kimi söz sırası dəyişməklə kalka olunub. “Supreme court” sözünün “ Ali məhkəmə” kalkasında isə birinci komponent “Supreme-ali” sözü ikinci komponent isə “court-məhkəmə” sözlərinə uyğun olaraq kalka edilmişdir.

Bu misallardan belə nəticəyə gəlmək olar ki kalka zamanı dilin daxili imkanları mühim əhəmiyyət kəsb edir. Müasir dövrdə müxtəlif dillərdəki elmi-kütləvi ədəbiyyatından təsirlənərək onların Azərbaycan dilinə tərcüməsi ilə əlaqədar olaraq dilimizə bir çox söz və terminlər keçmiş və bunların quruluşu kimi formalaşan yeni söz və ifadələr yaranmağa başlamışdı. Dildə kalkalar yeni növlü leksik-qrammatik quruluşuna da öz təsirini göstərir. Bunu Azərbaycan dilində yaranan yeni quruluşlu sintaktik birləşmələrdən aydın görmək olar. Hər hansı bir dildə prototipin quruluşu ilə dəqiq uyğun gələn kalkalarla yanaşı, qismən uyğun gələn sözlər də kalka hesab olunur. Dəqiq kalkalarda bir dilin daxili forması digəri tərəfindən mənimsənilərs, qeyri-dəqiq, qismən uyğun gələn kalkalarda daxili forma tam mənimsənilə bilmir.

Odur ki, kalka etməni daxili formanın mənimsənilməsi kimi başa düşmək, bizcə, əsas meyar ola bilməz. Kalka etmədə dilin daxili materialı əsasında həlledici rol oynayır, sözlərin dilin daxili materialı əsasında yaranır və başqa dilə məxsus sözlərin quruluşu kimi formalaşması nəticəsində yeni söz modeli yaranır.(3-s.69)

V.V. İvanov daxili forma anlayışından çıxış edərək yazır: “Daxili formanın itməsi hər hansı bir dildə hər hansı səsli alınmanın dolaşıqlığıdır. Sözün səs örtüyü həmişə şərti işarədir, lakin o, daxili formanın dərk olunub olunmamasından asılı olaraq sözün mənası ilə sıx əlaqədardır”. Şübhəsiz, daxili formanın üstün tutulması sözün mənasının geniş başa düşülməsi ilə əlaqədardır.Lakin bəzi dilçilər daxili formanı nəzərə aldıqları üçün bu kalka yaratmada struktur struktur modellərin oxşarlığını daha əsas hesab edirlər. Müasir dilçilikdə mübahisəli məsələlərdən biri də kalkaların alınmalara münasibəti məsələsidir. Dilçilikdə bəzən kalka ilə alınmaların eyniləşdirilməsi barədəki fikirlərdə də fikir ayrılığı vardır. Məsələn: A.Y.Matveyev yazır ki, “Kalka alınmanın xüsusi növüdür. Bu sözün bir dildən başqa dilə hərfən və ya morfemlər üzrə tərcüməsidir”. İ.F. Narkeviç kalkaları “tərcümə olunan və semantik alınma” heasb edir. V.V. İvanov alınmaları üç növə bölür, kalkaları isə “birinci növ alınma” hesab edir və mənbə yeni sözün yaranmasını alınma kimi qiymətləndirərək yazır:“Yeni sözün başqa dildə mövcud olan sözün təsiri altında yaranması faktı kalka etməni alınmanın xüsusi növü kimi qiymətləndirməyə imkan verən əlamətlərdən biridir”. İ.V. Arnold yazır: “morfoloji strukturunu və motivləşməni saxlamaqla mənimsəyən dilin öz vasitələri ilə dəqiq ifadə edən xarici söz və ifadənin hərfən tərcümə yolu ilə alınmasına kalka deyilir.Onlar əksinə olaraq L.P. Yefremov kalkalarla alınmalar arasında hədd qoyaraq yazır ki, kalka və alınma müxtəlif dilçilik təzahürləridir...Kalkaetmə zamanı orijinal əşyalılıq mənasını alınmır, yalnız yenidən əmələ gəlir. N.M. Şanskiy qeyd

edir ki kalka etmə zamanı "alınma müşahidə olumur, real nominativ vahid olan sözün özü sözdüzəldici strukturu alınma hesab olunur".

Q.A.Bertaqayev "kalkanı alınma deyil, adaptasiya yəni uyğunlaşma" hesab edir. Kalka etmədə daxili formanı əsas tutan İ.F.Narkoeviç yazır ki, kalka edilmiş alınmanı başqa dilə məxsus lüğət vahidinin müəyyən məna məcmuyu ilə birlikdə daxili formasının alınması kimi müəyyən etmək olar. Kalka və onun orijinalının quruluşundakı uyğunsuzluqları nəzərə alaraq o, kalkaları ilə ayırır: həqiqi kalkalar və analogizmlər. "Kalkalar orijinalın daxili formasının komponentlər üzrə doğru verilməsi ilə... analogizmlər orijinalın daxili formasının komponentlərdən birinin nadir halda birdən artıq modifikasiyası xarakterizə olunur".(4-s.123-128)

Kalka yolu ilə yaranmış söz və ifadələr haqqında olan mülahizələrdə bir çatışmazlıq özünü göstərir ki, bu da onun bir tərəfli başa düşülməsindədir. Bu zaman kalka etmədə bir dilin digərinə təsiri nəzərə alınmır, söz və ifadələrin bu dil vasitəsi ilə mənimsənilməsi bir o qədər nəzərə alınmır.

Ümumiyyətlə, bir dildən başqa dilə keçmə prosesində hər iki tərəfin əlaqəsi vacibdir: a/mənbə dilin təsiri, b/ alınma sözün qəbul olunan dil vasitəsi ilə mənimsənilməsi. Bu tərcümə prosesində, alınma zamanı, yeni dil faktlarına keçmə prosesində zəruridir. Belə olduqda xarici dildən olan müxtəlif tərcümələr arasında fərq qoymaq təbiidir. Alınma sözlərin forma və məzmunca dəyişməsi keçdiyi dilin daxili inkişaf qanunları ilə əlaqədardır. Bu haqda V.V, Vinoqradov yazır ki, dilin inkişsaf qanunlarında onun milli orijinallığı özünü göstərir. Dildə işlənən alınma fonetik şəkli, qrammatik quruluşu və mənası bu dilin daxili inkişaf qanunları əsasında dəyişilir. Azərbaycan dilinin materiallarına əsaslanaraq belə nəticə əldə edilir ki, yarım kalkalarda alınma sözlər arasında bərabərlik qoymaq mümkün deyildir, çünki dildə onların baş verməsi istiqamətləri müxtəlifdir. Əgər yarım kalkaların yaranmasında xarici təsir öz əksini tapırsa, alınma sözlər də başqa dilin müəyyən struktur və semantik təsiri olmur.Onlar kalka prosesi olmadan alınır və dilin fonetik quruluşuna uyğunlaşdırılır.Kalkaların yaranmasının kalka edən dildə uyğun mənaların olması çox mühim şərtlərdən biridir. Dildə belə məna yəni başqa dilə məxsus sözün müqabilində uyğun motiv olduqda kalka etməyə real imkan yaranır.Aydındır ki, müəyyən bir əşyaya onun bu və ya başqa bir elementinə görə ad verilir. Lakin əşyada başqa əlamətlərdə ola bilər. Əgər söz əvvəlki mənaları ilə əlaqəni kəsməmişsə, o zaman p aydın daxili formalı olur. Söz bir ad olmaq etibarı ilə əşya və ya hadisələrin mühim əlamətlərini, mahiyyətini bilavasitə əks etdirməyərək, ancaq əşya və hadisələrlə münasibətdə olanların adını ifadə edir. "Əgər söz yaradıcılığı söz və sözlərlə semantik əlaqəni itirməmişsə, deyirlər ki, o əsaslıdır, onun aydın və parlaq daxili forması vardır".Hər hansı əşyanın bir əlaməti başqa əlamətlərdən fikrən ayrılır və təcrid edilir. Bu zaman ancaq nəzərdə tutulan əlamətin başqa əşyalarla əlaqəsi nəzərdə tutulur. Lakin insan fikri əşyanın əlamətlərinin bütün çoxcəhətliliyi ilə əhatə etməyə qabildir ki, omu da dildə əks etdirir. Məlumdur ki, sözün əsas tərkibi heç bir məzmuna malik olmayaraq dildə yalnız işarə rolu

oynayır. Sözün məzmunu onun daxili cəhətini təşkil etdiyi üçün və sözün ifadə etdiyi məfhum məzmuna malik olduğu üçün dildə məzmunu dərk etmək zəruri hesab olunur.Sözlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi (kalka etmə) və alınmalar dilin lüğət tərkibinin zənginləşməsinin əsasınıtəşkil edir. Söz yaradıcılığında başqa dillərdən kalkalar mühim yer tutur.Tərcümə prosesində leksik vahidlərin yaradılmasında ən geniş istifadə edilən üsullardan biri də kalka yoludur.A.A Reformatski yazır: "Kalka sözün hissələr üzrə tərcümə edilib, sonra həmin hissələrin mexaniki surətdə birləşdirilməsidir" (A.A.Реформатски. Введение в яэыкоэнание. M.1960.стр.106)R.A Budaqov isə kalkaları söz almanın xüsusi bir növü hesab edərək yazır: "Bu müvafiq əcnəbi sözlərin quruluşu kimi formalaşan, lakin onların maddi əsasını almayan sözlərdir" (R.A.Budaqov.Dilçiliyə dair oçerklər. Bakı.Azərnəşr.1956.səh88)

"…Kalkalar sozlmanın xüsusi bir növüdür. Bu müvafiq əcnəbi sözlərin quruluşu kimi formalaşan, lakin onların maddi əsasını almayan sözlərdir" [2. 88]..Kalkaetmə, daha doğrusu, terminin başqa dillərdən süni surətdə tərcümə olunması nəticəsində müəyyən bir termin yaxud termin birləşməsi əvvəl dildə mövcud olmamış yeni məna kəsb edir" [7. 61]Kalketmə başqa bir dilin, yaxud başqa dillərin leksik-semantik və leksik-sintaktik modelini alınması, onları nəzərdə tutulan dilin morfemləri ilə tamamlamaqla yeni sözlər yaradılması, yaxud dilə yeni sintaktik üsulların gətirilməsidir" [8. 188].Bu fikirlərin hamısında ümumi cəhət eynidir, yəni, kalkalar başqa bir dilə məxsus sözlərin, yaxud söz birləşmələrin tərkib hissələrini ana dilinin müvafiq sözləri və söz birləşmələrin ilə dəqiq tərcümə etmək üçün həmin sözlərin modeli üzrə qurulmuş sözlər, yaxud ifadələrdir.Kalka sözü fransız dilində çertyojlardan surət çıxarmaq üçün istifadə edilən yüksək keyfiyyətli şəffaf kağıza, yaxud şəffaflığa vermək üçün yağlar məhlulu ilə, qətranla , mumla doyuzdurulmuş nazik pambıq parçaya deyilir" [9. 272].Dilçilik tarixində isə həmin anlayışın mənası kalka etmək (düzəltmək) sözü kimi qəbul edilmişdir. Kalka sözünün beynəlxalq terminə çevrilməsi onun qəbul edilməsinə səbəb olmuşdur.Dilçilərdən bəzilərinə kalkaları sozalmanın xüsusi növü kimi, bəziləri isə əcnəbi dilə məxsus sözlərin ana dilinə tərcümə edilməsi üsulu kimi izah edirlər.Bu barədə B.M.Jirmunski yazır: " Əcnəbi sözün leksik cəhətdən mənimsənilməsini daha tam formasını tərcümə üsulu ilə alınmalar (kalkalar) təskil edir. Tərcümə üsulu ilə söz alınan zaman ana dili materiallarının köməyi ilə əcnəbi sözün mənası, sözyaratma prinsipləri, semantik quruluşu (necə deyerlər "daxili forması") mənimsənilir.Əslində kalka üsulunu nə sozalma, nə də tərcümə hesab etmək olmaz.

B.M.Jirmunskinin verdiyi təyinat kalkaetmə ilə sozlama arasındakı fərqləri silir. Kalka üsulu ilə yaranan terminlərlə alınma terminlərin ümumi cəhəti yalnız kalkaların "surəti çıxarılan" modellərinin onlardan kənarda, yəni başqa bir dildə olmasıdır.Kalka üsulu ilə terminlər yaradılarkən əsas rolu sözlərin quruluşu oynayır, yəni müəyyən bir dildə sözlər başqa bir dilə məxsus sözlərin quruluşu kimi

formalaşır. Hər hansı bir dildə başqa dilin nəticəsində yeni söz əmələ gəlir Bu üsulla meydana gələn terminlərin dilin öz daxili materialı əsasında yaranır. Məsələn: beşilik (пятилетка), beşilik plan (пятилетнийплан) və.sKalka üsulu müxtəlif dillərdə tətbiq edilən bir üsuludur. Bu üsuldan qohum dillərin qarşılıqlı əlaqəsində də istifadə etmək mümkündür.Hərfi tərcümə prosesində qarşılıqlı təsirdə olan dillərin quruluşunun yaxınlıq dərəcəsi, dilin lüğət tərkibinin, kalka edilən dildəki söz yaradıcılığı priyomlarının inkişaf dərəcəsi, kalkaetmənin baş verdiyi tarixi sərait və.s amillərin mühüm rol oynayır.Lakin hansı dildə kalka olunmasına baxmayaraq kalka üsulunun özündə ümumi cəhətlər vardır ki , bunlar da onun iki əsas planda nəzərdən keçirilməsini tələb edir: a) ümumi dilçilik planında və b) müəyyən dillərin qarşılıqlı əlaqəsinə tətbiq olunması planında [5. 136]

ƏDƏBİYYAT:

1.R.A.Budaqov. Dilçiliyə dair oçerklər. Bakı.Azərnəşr.1956,səh.88

2.Xudiyev N. Azərbaycan ədəbi dilinin sovet dövrü. Maarif nəşriyyatı, B.,1989.,səh.232

3.S.A.Sadıqova. Müasir Azərbaycan ədəbi dilində termin-söz birləşmələri. Bakı,1986,səh.69

4.Dəmirçizadə Ə.M.Azərbaycan dilinin üslubiyyatı.Azərnəşr 1962

5.E “Toward a Science of translating page75 1966

6.Lilova A. 1985, səh 32-33

N.Gasanova,A.SHafiga

WORD CREATIVITY BY CALKA METHOD IN THE TRANSLATION PROCESS IN THE GENERAL LANGUAGE SYSTEM

SUMMARY

This article deals with the word formation with calque. The different concepts of some linguists on this problem have been analyzed here. Keys in the formation of the method word formation with calque are searched. The author analyses the investigations of the linguists concerning with this problem. Besides in the article are determined from different brunches. Examples are taken from different dictionaries. On the basis of the materials of the Azerbaijani and English languages the author studied this problem **часть.** The article deals with generally about the investigation of terms,their use,and the study in the field of sustainable development of a language.Terms constitutes the greatest part of every language vocabulary.Special attention has been given to the loan terms their essences,formation ways,and various scientific theories. It is also the most intensely developing part.In the enrichement process of terminological system the loan terms are playing the crucial role in word formation.The study of loan terms can give very valuable data concerning the interdependence of the history of language and the history of society. Calque is a word or phrase taken from another language but

translated to corresponding English words still retaining the orijinal meaning. Calque contributes to the richness of a target language by avoiding the direct use of foreign words. Calque is a construction, unlike a loan which is a phonetic and morphologic adaptation.In this article the construction and types of calques are analized and various linguists' opinion about the terms and the creation of the loan translation ways are also explained.

Key words: semantic meaning, calquing, lexical – semantic units, motivation, prefix, photenic structure.

Н.Гасанова,Ш.Алиева

СОЗДАНИЕ СЛОВ МЕТОДОМ CALKA В ПРОЦЕССЕ ПЕРЕВОДА В СИСТЕМЕ ОБЩЕГО ЯЗЫКА

РЕЗЮМЕ

Это статья посвящена рол кальки в процессе словообраэование. Раэличные понятис некоторых лингвистов относително данной проблемы были эдесь аналиэирован. Раэличные способы калькирование покаэаны эдесь. Ключи словообраэование с калькированием была исследована. Кроме того, в статье определяются кальки иэ раэных источников. Примеры ьэяты иэ раэлиных толковых словарых. Автор рассмотрел данную проблему на основе материалов Аэербайджанского и Английского яэыков. В статье в основном рассмативаются исследования терминов, их использование и изучение в сфере постоянного развития языка.Термины состовляют огромную цессе обогащения терминологической системы заимствованные термины играют решающую роль при словообразовании. Изучение заимствованных терминов может дать ценные данные относително взаимосвязи истории языка и истории общества.Заимствование – зто слово или фраза, взятая из другого языка, но переведенная на соотвествующее английское слово и все еще сохранившая свое первоначальное значение. .В данной статье анализируются посторение терминов и образавание способов перевода заимствованных слов, раскрывается информация о терминах и об их основнрй значимости, поясняются точки зрения ученых лингвистов о терминах и о способах их создания способом кальки. Помимо зтого, освещаются простые и сложные способы образования калек.

Ключевые слова: семантическое значение, калькирование, лексико – грамматические единиц, префиксы, фонетическая структура.

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru,dosent Yusif Süleymanov
capa tovsiyə etmişdir.

NURİYYƏ RZAYEVA
Azərbacan Texniki Universiteti
Xarici Dillər kafedrasının dosenti
Filologiya üzrə fəlsəfə doktoru
H.Cavid pr.25.
nuriyarza@gmail.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏSDƏR VƏ MƏSDƏR TƏRKİBLİ CÜMLƏLƏRİN LİNGVİSTİK TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ

.

XÜLASƏ

Son illərdə Azərbaycan dili xalqımızın əbədi lideri H.Əliyevin səyi nəticəsində beynalxalq münasibətlər sistemində rəsmi dövlət dili kimi böyük nüfuz qazanmışdır.Azərbaycan dilini nüfuzlu təşkilatlarda işlənməsinə böyük səlahiyyət verilməsi görkəmli dövlət başçısının çoxillik gərgin fəaliyyətinin təzahürüdür.Hazırda ana dilimiz digər rəsmi tanınmış dövlət dilləri ilə yanaşı işlənir,dünya xalqları arasında tanınır.Bu cəhət Azərbaycan dilinin xarici dillərlə müqayisəli şəkildə tədqiqi üçün müəyyən stimul yaradır,müxtəlif sitemli dillər arasındakı ümumı və fərqli cəhətlərin müəyyənləşdirilməsi üçün geniş imkanlar açır.

Araşdırma göstərir ki,müxtəlif sitemli dillərdə felin şəxssiz formaları sisteminin tipoloji təhlilli zamanı struktur-semantik variant və invariantlarını müqayisə etməklə düzgün nəticələr əldə etmək olar.Struktur ,semantik,sintaktik əlamətləri özündə biləşdirən invariant sintaksem ingilis və Azərbaycan dili kimi müxtəlif sistemli dillərdə müxtəlif vasitələrlə ifadə olunur(1-cтр:4). Məqalədə əsasən ingilis və Azərbaycan dillərində məsdər və məsdər tərkiblərin müqayisəli linvqvstik təhlilinə həsr olunub məqalədə həmçinin məsdər tərkiblədə sözlərin semantik-siktaktik əlaqələri izah olunur . Onların struktur – semantik təhlili aparılir,məsdər tərkiblərin şifahi nitqdə və yazılı kontekstdə işlənmə xüsusiyyətləri və işlənmə dairəsi araşdırılır . Məsdər tərkibləri arasəndaki münasibətlər modelleşdirmə və dilçilik ekspermsnti metodlarına əsaslanaraq tədqiq olunur .Belə halda müqaisə edilən qohum olmayan dillərdə eksperiment metodu struktur –semantik əlamətlərin mövcudluğunu aşkara çıxarmaq məksədini güdür .bu hal müxdəlif növ trasformasiyalarda özünü gösdərə bilir və məsdər tərkibləri ,əsdər cəhətləri və eksperiment metodları ingilis və azərbaycan dilləri üçün universal xarakter daşıyir .

Onu qeyd etmək lazımdır ki,müqyisəli təhlil zamanı ingilis dili ilə yanaşı rus dili də aparıcı tədqiqat obyekti kimi araşdırıldıqda səmərəli nəticə əldə etməyə imkan verir.

Açar sözlər: məsdər,İngilis dili,tipoloji,lingvistika,Azərbaycan dili.

Məlumdur ki,Azərbaycan Respublikası dünya dövlətləri arasında iqtisadi,siyasi,elmi-mədəni əlaqələrini genişləmdirir.Hər bur sahədə xüsusən ordu quruculuğumuzun inkişafında xarici dillərə,ələ xüsus,ingilis dilinə böyük ehtiyac duyulur. Xarici dillərin tədrisi vətənimiz üçün strateji əhənmiyyət kəsb edən məsələsidir.Azərbaycan dövləti müstəqil siyasəti yeridən beynalxalq təşkilat təmsil olunur.Beynəlxalq səviyyədə siyasət yeritmək,ideoloji mübarizəyə hazır olmaq,reslikamız ətrafinda yaradıla bilen informasiya blokadasını aradan qaldirmaq baxımından xarici dilləri yüksək səviyyədə bilən milli kadrların hazırlığı ,vətən uğrunda döyüşlərdə silaha sarılmaq qədər vacibdir . hər bir dildə ,o cümlədən xarici dillərdə lazimi səviyyədə danişmaqdan ötrü dillərin müxdəlif aspektlərini mükəmməl bilmek lazimdır.(2-səh:166)

Məqalədə əsasən müxtəlif sistemli dillərdə feilin şəxssiz formalarından biri olan , məsdər və məsdər tərkibləri araşdırılır . Əsas məqsədi isə , müasir ingilis və Azərbaycan dillərində məsdər və məsdər tərkiblərin xüsusiyyətlərinin linqivistik , tipoloji istiqamətdə müqaisəsidir (3-стр:97-106). Məqalənin əsas məqsədi Azərbaycan və ingilis dillərində məsdər və məsdər tərkiblərin spesfik xüsusiyyətlərinin öyrənilməsidir . Həmin məqsədlə bağlı aparılan iş prosesində aşağıdaki vəzifələr qarşıya qoyulmuşdur :

-Müxtəlif sistemli dillərdə məsdər və məsdər tərkiblər formalaşma yollarını şərh etmək ;

-Məsdər və məsdər tərkiblərin strukturu və əlamətlərini araşdırmaq onların əlaqələrini ;

-Nitq məsdər tərkiblərin daxilində baş verən struktur variasiyaları geniş təhlil etmək ;

-Müasir ingilis və Azərbaycan dillərindəki məsdər və məsdər tərkiblərin oxşar və fərqli cəhətlərini müəyyən etmək ;

-Məsdər və məsdər tərkiblərin işlənmə dairələrini nəzərdən keçirmək ;

-Müxtəlif sistemli dillərdə məsdər və məsdər tərkiblərin tərcümə olunma imkanlarını öyrənmək ;

Müasir ingilis və Azərbaycan dillərində məsdər və məsdər tərkiblərin müqaisəli şəkildə öyrənilməsinin əhəmiyyəti qeyd etdiklərimizdən geniş və zəngindir . beləliklə , 20-ci əsrin sonu , 21-ci əsrin əvvəllərində dünyanın dil mənzərəsinə nəzər salsaq , görərik ki , müasir dillər arasında ən geniş yayılan dil ingilis dilidir . İngilis dili , eyni zamanda , dünyanın bir çox ölkələrinin (Böyük Britaniya , Amerika Birləşmiş ştatları , Kanada , Avstraliya , Yeni Zellandiya , Puerto Rika və başqalarının) dövlət dilidir . Yaponiya , Filippin , Çin , Hindistan , Cənubi Afrika və.s. ölkələr də öz dilləri ilə yanaşı , ingilis dilindəndə istifadə edir . İngilis dili Amerika qitəsində yaşayan üç yüz milyondan artiq əhalinin əsas dili İngiltərə , Kanada , Avstraliya və Yeni Zellandiya ana dili səviyyəsindədir . İngilis dili , eyni zamanda , beynəlxalq miqyasda keçirilən konfrans , simpozium , seminarlar dili olmaqla , həm də Birləşmiş Millətlər Təşkilatında iələdilən rəsmi dildir . Dünyanın elə ölkəsi tapılmaz ki , orada ingilis dili öyrənməsinlər . Bu ölkələri bir – birindən

yüzlərlə kilometrlik məsafə , hətta qitələr , okeanlar ayırır . İngilis dilində danışan ölkələrin vətəndaşları başqa – başqa millətlərə , irqlərə mənsub olduğundan onlar dildən istifadə edərkən fonetik qrafik cəhətdən sözləri müxtəlif cür tələfüz edir və müxtəlif şəkildə yazırlar , hətta cümlələrə , ifadələrə də müdaxilə edirlər . Hər bir ölkənin , millətin və irqin tarixi inkişafindan , sosial iqtisadi vəziyyətindən , milli adət - ənənəsindən , fizioloji keyfiyyətlərdən irəli gələn cəhətlər dildə bu və ya başqa şəkildə göstərir.(4-səh:105)

Bütün bunlar dilin çevikliyi,mütəhərrikliyi və s. ingilis dilində müxtəlif ifadə və birləşmələrin yaranmasına səbəb olur.Bu cür məcazi ifadə və birləşmələrin yaranmasının yol və üsulları hazırda ingilis dilşünaslarının da məşğul olduğu vacib məsələlərdəndir. Müasir ingilis və Azərbaycan dillərində məsdər və məsdər tərkiblərinin bir tərəfdən daxil əlamətləri,bir dil sistemində onların milli keyfiyyətləri araşdırılır,digər tərəfdən isə,müxtəlif sistem dillərdəki vəziyyəti.Dillərarası əlaqələrdə mövqeyi işıqlandırılır.Belə bir cəhət isə onların hər bir dildə spesifik xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün konkret faktların aşkara çıxarılmasına kömək edir.

Əsərdə müxtəlif sistemdə dillərə məxsus məsdər və məsdər tərkibli tipoloji cəhətdən təhlil edilmiş,ümumi və fərqli əlamətlər aşkara çıxarılmışdı.Bu baxımdan həmin tədqiqat işini məsdər və məsdər tərkibliər tipologiyasının yaradılmasında ilk addımlardan biri kimi dəyərləndirmək olar.Tədqiqatda qarşılaşdırılan dillərdə məsdər və məsdər tərkiblərinin oxşar cəhətlərinin tipologiyası üzrə çıxarılmışdır,o,elmi yeniliklər dil sistemində məsdər və məsdər tərkiblərin yeri,mövqeyi,məsdər və məsdər tərkiblərdə komponentlərin sabitliyi komponentlərarası sintaktik əlaqələr və s. məsələlərin şərhi ilə bağlı meydana çıxır.Bu məsələlərin təhlili prosesində bir sıra mühüm nəzəri müddəalar irəli sürülmüşdür:

1)müxtəlif sistemli dillərdə məsdər və məsdər tərkibləri formalaşması prosesi öyrenilmiş ;

2)məsdər və tərkiblərin nitqdə işlədilməsi və mətindəki mövqeyinin elmi – nəzəri əsasları müəyyənləşdirilmiş ;

3)məsdər və məsdər tərkiblərin cümlədə yeri və konturla dəqiqləşdirilmiş ;

4)məsdər və məsdər tərkiblərin özünəməxsus işlənmə və müxtəlif dillərə tərcümə vasitələri təhlil edilmiş , perspektiv inkişaf yolları və imkanları şərh olunmuşdur .

Tədqiqatin nəzəri və praktik əhəmiyyəti . Məsdər və məsdər tərkiblərin müxtəlif dillərdə çox zaman öyrənilməsində müəyyən çəyinliklər qarşıya çıxır . Bu cəhətdən hazırda xarici dil öyrənən tələbələr üçün həmin tədqiqatin xüsusi praktik əhəmiyyəti vardır . (5-page:29-34) Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki , müasir ingilis dili Azərbaycan dillərində məsdər və məsdər tərkiblər təsvir edilmiş , bir – birindən uzaq olan və müxtəlif sistemli dillərə məxsus belə tərkibli tipoloji – linqvistik cəhətdən təhlil edilmiş , ümumi və fərqli əlamətlər aşkara çıxarılmışdır Çox zaman müxtəlif sistemli dillərdə məsdər və məsdər tərkibləri tərcümə və təhlil

zamanı müəyyən çətinliklər qarşıya çıxır . Bu cəhətdən hazırda xarici dil öyrənən tələbələr üçün tədqiqatın xüsusi praktiki əhəmiyyəti vardır . Tədqiqatın ayrı – ayrı bölmələrindən , təhlil olunmuş materiallardan və əldə edilmiş elmi nəticələrdən həm xüsusi , həm də ümumi dilçilikdə eləcədə müqayisəli (qarşılaşdırma) istiqamətində aparılan tədqiqatlardan istifadə edə bilər . Tədqiqatımızın nəticələri müvafiq praktik və nəzəri seminarlarda , leksikanın xüsusi kurslarında , tərcümə nəzəriyyəsində , müqaisəli tipologiya fənnində , azərbaycandilli auditoriyada ingilis dilinin tədrisində , tələbələrlə və dilçi aspirantlarla auditoriyadan kənarda təlim prosesində gərəkli material rolunu oynaya bilər .(6-page:112-145) Bu tədqiqat işi ingilis dilini öyrənənlərə , filoloq diplomatlara , tərcüməçilərə , jurnalist və iş adamlarına çətinlik törədə bilən məsdər və məsdər tərkiblərini elmi – praktik şəkildə Tədqiqat işində istifadə olunan müəyyənləşdirmək məqsədi ilə yazılmışdır .

Tədqiqatin mənbələri . Tədqiqat işində istifadə olunan mənbələrə əsasən , aşağıdakılardan ibarətdir :

1.İngilis dilində məsdər və məsdər tərkiblərinin izahına aid ingilis dilçiləri tərəfindən yazılan dilçilik əsərləri (nəzəri və praktik qrammatikaları);

2.Azərbaycan dilində məsdər və məsdər tərkiblərinin izahına aid Azərbaycan dilçilərə tərəfindən yazılan dilçilik əsərləri (nəzəri və praktik qrammatikaları)

3.İngilis dilini tədqiq edən rus dilçilərinin əsərlərində məsdər və məsdər tərkiblərinə münasibət ;

4.Azərbaycan və ingilis dilçilərinin bu mövzuya baxışı və fikirləri ;

5.Azərbaycan və ingilis dillərində bədii ədəbiyyat .

Tədqiqat işinin metodları . Araşdırılan materialın xarakterinə görə qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq , müxtəlif linqvistiq metodlardan istifadə edilmişdir .

Məsdər və məsdər tərkiblərə aid materialin öyrənilməsi üçün müşahidəyə , təsnifə və tədqiq olunan dil faktlarının sintezinə əsaslanan linqvistik – təsviri metoda əsaslanmışıq. Bu tərkiblərin hər iki dildəki oxşar və fərqli cəhətlərini müəyyənləşdirməklə müqayisəli – tarixi və müqayisəli – tutuşdurma metodlarından istifadə edilmişdir . Müqayisəli metodun birinci növü olan müqayisəli – tarixi metodu yalnız qohum dillərə aid olduğu halda müqayisəli – tutuşdurma metodu həm qohum , həm də qohum olmayan dillərə tətbiq edilir. Qohum olmayan dillərin tutuşdurma yolu ilə müqayisəli sürətdə öyrənilməsi qohum dillərin həmin yolla öyrənilməsindən bir neçə cəhətdən fərqlənir . Həmin fərqlərdən ən mühümü qohum olmayan dillərin müqayisəli – tutuşdurma yolu ilə öyrənilməsinin böyük nəzəri əhəmiyyətidir . Qohum olmay an dillərin bu üsul ilə öyrənilməsinin tipoloji dilçilik üçün böyük əhəmiyyəti vardır . Müasir ingilis dili və Azərbaycan dillərinin müqayisəli – tutuşdurma yolu ilə öyrənilməsinin böyük nəzəri əhəmiyyəti özünü burada göstərir ki , qohum olmayan bir dillə müqayisə ana dilində çox müşahidə olunan bir sıra xüsusiyyətləri ortaya çıxarmağa imkan verir . Tədqiqat işində irəli sürülən müddəaları əsaslandırmaq üçün

ingilis və Azərbaycan yazıçılarının əsərlərindən və mətbuat materiallarından nümunələr verilmişdir . Fonetik və digər xüsusiyyətləri ilə başqa nitq hissələrindən əsasli şəkildə seçilir və bu baxımdan böyük əhəmiyyət kəsb edir . Bunları qısaca olaraq aşağıdaki şəkildə ümumiləşdirmək olar (7-page:13-42)

1.Feil morfologiyanın ən mühüm bəhslərindən biridir .Mövcud dilçilik ədəbiyyatında , o cümlədən müasir Azərbaycan dili kitabında feil bəhsi həcm etibarı ilə morfologiyanın təxminən 40% -ni təşkil edir . Digər türk dillərində də vəziyyət bu şəkildədir. 2. Feil çoxkateqoriyalı nitq hissəsidir . Bu kateqoriyalar feildə kompleks şəkildə, toplu şəkildə öz ifadəsini tapır. Feildə təsvir,inkarlıq,zaman, forma,şəxs və kəmiyyət kimi kateqoriyaların varlığı xüsusi və ümumi formalara malik olması buna ən yaxşı sübutdur.Dilimizdəki nitq hissələrinin heç birində bu qədər kateqoriya yoxdur. 3.Feil kateqoriyalarının əksəriyyəti xüsusidir,yəni bunlar yalnız feilə məxsus kateqoriyalardır.Əgər lüğət tərkibində ən çox sözü olan ismin dörd kateqoriyası (hal,mənsubiyyət,kəmiyyət,şəxs-xəbərlər varsa və bunların hamısı ümumi kateqoriya hesab olunarsa,yəni kateqoriyalar isimdən başqa sifətə,saya,əvəzliyə,zərfə də xidmət edirsə,feilə aid kateqoriyaların əksəriyyəti yalnız feiləv xidmət edir. 4.İki nitq hissəsinin əıamətini özündə birləşdirən morfoloji,sintaktik cəhətdən çox zəngin və spesifik xüsusiyyətlərə malik olan bəhsində tədris edilən məsdər (feil-isim),feili bağlama (feil-zərf),feili sifət(feil-sifət) feildən törəmişdir.Başqa nitq hissələrinin heç birindən biri böyük bəhslər formalaşmamışdır. 5.Feil dilimizin milli orijinallığı,ən qədim ünsürlərinin başqa nitq hissələrinə nisbətən daha yaxşı mühafizə edib saxlayır.Feillərdə çoxmənalılıq,onda məskən salan hər bir məna neçə-neçə əsrlərin yadigarıdır. 6.feillərdə omonim,sinonim və antonimlərin yaranması yolları başqa nitq hissələrindən əsaslı şəkioldə fərqlənir.Əgər başqa nitq hissələrində omonim,sinonim və antonimlərin böyük bir qismi alınma sözlərin hesabına yaranırsa ,feillərdə belə bir xüsusiyyət yoxdur.Burada onlar yalnız dilin, dildəki feillərin öz daxili imkanları hesabına, xüsusən çoxmənalılığın hesabına yaranır. 7.Feilin xarakterik xüsusiyyətlərindən,onu başqa nitq hissələrindən fərqləndirən cəhətlərindən biri də odur ki,feillərin əksəriyyəti çoxmənalıdır,rəngarəng mənalara malikdir. 8.Azərbaycan dilinin lüğət tərkibinin zənginləşməsində feil müstəsna rol oynayır.Əvvəla,feil çox söz ehtiyyatına malik olan nitq hissələrindən biridir. İkincisi,feil düzəldən şəkilçi olduqca çoxdur. 9.Frazeoloji birləşmələrin əmələ gəlməsində,məcaziləşmə yolu ilə lüğət tərkibinin zənginləşməsində də feillər xüsusi rol oynayır. 10.Feil predikativlik , xəbərlik xüsusiyyətinə malik olmağı ilə bütün nitq hissələrindən fərqlənir buna gorə də qrammatik cəhətdən baş nitq hissələrindən daha az asılı olur.

Ədəbiyyat:

1)Ворно , М.А.Кашина, Е.М.Машиневискя, В.А.Поторова.Лексиколоия английского языкка.Ленинград, 1955.стр.4.

2)N.Məmmədov. Azərbaycan dilçliyinin nəzəri əsasları.Bakı,1968.səh166.

3)В.Н.Ярцева.Становление и развитие современного английского языка.Москва.1962 г.стр97-106

4)Ə.Dəmirçizadə.Müasir Azərbaycan dili.Bakı,1984.Elm nəşriyyatı.səh:105.

5) English (United States) at Ethnologue (18th ed., 2015) page:29-34.

6)"Unified English Braille (UEB)". Braille Authority of North America (BANA). 2 November 2016. Retrieved 2 January 2017.page:112-145.

7) Bailey, Richard W. (2012). Speaking American: A History of English in the United States 20th-21st century usage in different cities.page:13-42.

Н.Рзаева

ЛИНГВИСТИЧЕСКО-ТИПОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПРЕДЛОЖЕНИЯ ИНФИНИТИВА НА АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

В статье рассматриваются различные виды иноринитива на английском и на азербайджанском языках, анализируются роль и значение часть речи а также исследуются личные и безличные формы глаголов и их спряжение в настоящим, будущем и прошедшим временах.

В статье также рассматриваются разновеуностиглаголов с инфитивным сосдиненый, их употребление в проектых и сложнах ируложенях а также анализируются различные виды инориитива в английском и азербайджанском единиц языках.В статье рассматривается проблема политического дискурса на материале англоязычных текстов.Возникновением политического дискурса обрашается внимание на изучение проблем полтического дискурса как лингвистического исследования.Анализируются свойства лексических политического дискурса. Также затрагиваются жанры политического дискурса и их использование в полити ческих процессах. В статбе рассматривается стратегия политического дискурса, а также проявление роли адресанта и адресата,которые считются его основными категориями. Сопоставляются различные точки зрения на вопрос о дискурсе вообще и политическом дискурсе в частности. Разграничиваются понятия текст и дискурс и определяются принципы описания фактического материала.С целью манипуляции в политическом дискурсе описываются способы использования языковых средств и их возможности влиять на аудиторию. Основное внимание обращается в основном такие лингвистические особенности политического дискурса как функционирование эвфемизмов,метафор,спортивных терминов, личных местоимений и слов положительными и отрицательными значениями.

В статье также освещаются лингвистические и экстралингвистические факторы в политическом дискурсе.

Ключевые слова: Инфинитив, Английский язык, типология, языкознания, Азерб. язык.

N.Rzaeva

LINGUISTICAL TYPOLOGICAL FEATURES OF LINFINITIF AND LINFINITIF SENTENCES IN ENGLISH AND AZERBAIJANI LANGUAGES

SUMMARY

The article analyses the different kinds of infinitive in Engilis and Azerbaijani, also analyses the role and meaning of parts of spech in simple and complex sentences, also personal and unpersonel forms of verbs and their changes in present, past and future tense forms.

The article speaks of the various verbs with the infinitivial units and their use in the simpe and compound sentenses, also analyses different kinds of infinitives in Engilish and Azerbaijani.

The article considers the issue of political discourse on the materials of English texts. The article also focuses on the study of political linguistics as a field of research with the appearance of political discourse. Furthermore, characteristics of lexical units related to political discourse are analyzed.

In addition, genres of political discourse and their usage in political processes are touched upon. At the same time , the strategy of the political discourse,as well as its key categories-addresser and addressee and manifestation of their roles on the level of speech acts are emphasized in the article. Along with viewpoints on discourse in general, different points of view and opinions particularly on the pohncal discourse are compared in the article.

It is also attempted to differentiate between the notions like *text* and *discourse* and to define the description principles of the existing(factual) material. How to take an advantage of language devices that are used for manipulation and how to have an impact on the auditorium are also considered in the article.Special attention is paid to the linguistic characteristics of the political discourse,particularly to the functioning of euphemisms, metaphors, sport terms, personal pronouns and words with positive and negative meanings. The role of linguistic and extralinguistic factors in the political discourse are also dealt with in the article.

Key words:Anglais,Infinitif,tipoloji,lingvistic,Azerbaydjanais

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru,dosent Adilə Zeynalova
capa tovsiyə etmişdir.

İRADƏ VƏLİYEVA
KƏMALƏ HÜSEYNOVA
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimləri
H.Cavid pr.25
iradakamala@com.ru

İNGİLİS DİLİNDƏ METAFORIZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ TRANSPOZİTİV İFADƏ ÜSULLARI

Xülasə

Metafora dilin bərpasının ən vacib faktorlarından hesab olunan, əsas semantik transpozisiyalardaıı biridir. Bu, əşya və ya hadisənin daxili və xarici oxşarlığına, eləcə də, əlamətin bənzərliyinə əsaslanan məna köçürülməsidir. Ən geniş yayılmış bu çoxmənalılıq növündə bənzər əşya və hadisələr eyni sözlə adlandırılır. Deməli, metafora bənzərlik üzrə məna köçürülməsidir. Metaforanın ən sadə növü tam xarici bənzərlik əsasında yaranır. Məsələn, 'leg' (ayaq) sözü həqiqi mənada bədən üzvü kimi , metaforik mənada isə a) dayaq; b) axar suyun aşağı hissəsi ; c) son, axır və s. yerində işlədilir. Yaxud 'head' (baş) sözü metaforik olaraq onlarla mənaya malikdir: a) zirvə, təpə, üst; b) bir şeyin çıxıq, yumru təpəsi; c) kənar, qıraq, yan ; d) başlanğıc; e) hörmətli yer ; f) səbəb və s. Bir çox hallarda, canlılar cansız əşyaya məxsus əlamətlərlə səciyyələndirilir (cansızdan canlıya məna intiqalı): cold water- cold person ; sharp knife- sharp word və s. Bəzən də cansızlar canlılara məxsus əlamətlərlə səciyyələndirilir: qəzəbli adam- qəzəbli dalğa; adam gəlir-səs gəlir,

İbtidai insan subyekti obyektdən tam fərqləndirə bilmirdi. Onun nəzərində xarici dünya ilə öz şəxsi 'məni' bir vəhdət təşkil edirdi. İnsan özünü obyektiv aləmdən, kollektivdən ayırıb fərqləndirə bilmirdi. Təsadüfi deyil ki, 'mən' sözünün sonralar meydana çıxdığı göstərilir. Dünya dillərində əvvəlcə 'biz' anlayışını bildirən sözlər yaranmış, sonralar 'mən' məhfumu əmələ gəlmişdir. Əslində müxtəlif metaforik intiqalların ilkin səbəbi bununla əlaqədardır. İnsan təbiəti canlandırır və ya nitqləndirir.(1-p.125) Sözlərin aktual istifadə olunan mənaları anlaşılmaya və ya tamamilə itə bilər.Dildə şablon və ya qalıqlaşmış metaforaların inkişafına mənşəli bənzətmələr təkan verir.Qalıqlaşmış metaforalar hər bir dilin lüğət sisteminə məxsusdur.Bəzi hallarda sözün əsl mənası ilə alınma mənası itir.Bu cür transpozisiyalarda sözün mənası tamamilə dəyişə bilər,belə ki,sözün ikinci dərəcəli mənası əsas məna ola bilər.Məs;remorse- vicdan əzabı, peşmançılıq, tövbə ;impress-təsir, zərbə;astonish-heyrətlənmək.

Açar sözlər: ***metaforanın təsnifi; yaranma yolları; növləri; sinestetik metafora.***

Metaforik genişlənmə dedikdə,biz obyektin adını və ya təsvirini nəzərdə tuturuq,onun lüğətdən və fikrin inkişafından alınan ədəbi mənasını yox.Bu dilin ifadə gücünü yüksəltməyin əsas semantik yollarındandır.Ən yaxşı metaforalar həcmi ifadə edir.Onlar dilə canlılıq,ifadəlilik verir və xüsusən də oxşarlıq baxımından əhəmiyyətini itirən sözlər üçün bunlar çox vacibdir. Nitqin bütün şəkillərində metaforalardan istifadə müvcuddur.Metafora nümunələri insan və heyvan fəaliyyətinin bütün sferalarında,ağıl və təxəyyülümüzdən,sosial fəaliyyətinin hər bir sahəsindən,həyatın özündən alına bilər.Metaforik aspekt dilin böyük bir hissəsini təşkil edir və dildəki sözlər metaforik olaraq asanlıqla bir-birilə sözlərin digər fikirlər vasitəsilə konteksdə əldə etdikləri məna dərəcələrini göstərir.Məna nəqli ilə bağlı fikirlər hələ Aristotelin zamanında da mövcud olmuşdur.Aristotelə görə metafora verilmiş əşyanın adı ilə onun məxsus olduğu digər bir şeydən ibarətdir.Və metaforadan ilk istifadə ritorik formada olmuşdur: ”The greatest thing is a grift for metaphor.For this alone cannot be learned from others and is a sign of inborn power”(Poetics, XXII)(2-c.33-39)

Metaforanın yığcam məna ifadə etməsidə əsas xüsusiyyətlərdən biridir. Verilmiş nümunələr metaforanın nə olduğunu anlamağa imkan verəcək : *a **ray of hope,** a shade ofdoubt, aflash of **wit,** the light of knowledge, flight of fancy, grain **of truth,** high time , high wind, low spirits, the torments of jealousy, the fountain of **youth,** not a shadow of doubt, **bitter** enemy, loud colours, cold colours, cold **reason** , cold **truth, the thread** of argument, a golden opportunity, a stony c.heart, muscles of **steel,** a stormy discussion* və s. bu cür ifadələrdə biz subyekti ona verilmiş əlamətlərlə təsəvvür edib anlayırıq. Sözlərin mənasının metaforik genişlənməsi demək olar ki , bütün dillərdə mövcuddur. Biz deyə bilmərik ki, metaforaların tarixi qədim insan təkamülünə məxsus ədəbiyyat qədər qədimdir. Amma o dövrlərdə də , ədəbi janrlarda poetik motivlər vermək üçün metaforalardan istifadə edirdilər. Bunun ən sadə nümunəsi isə iynənin dəliyinin onun *"gözü"* və ya *“mişarın dişləri”* və s.adlandınlması ilə başladı. Metaforalar məcazi ifadələrdir : “They had lost faith, the Church had becomc *a broken reed."* (A.Saxton, “the Great Midland “) , “A base, ungenerous wretch who *under the mask of friendship* has undone me. “ (O.Goldmith, “The Vicar of Wakefield”), If the defendant be *friendship of straw* who is to pay the costs, sir?” (Ch. Dickens , “Pickwick Papers”) , “Whatever happens, “ Micheal thought, “ I have got to keep my mouth shut or I shall *be dropping a brick,"* (J.Galsworthy, “The White Monkey”) , "a *ray of hope”. “ to be on the razor-edge”, "the queen of the Adriatic*” (Venice), *“sly puss*” və s. Bütün bu nümunələrdə iki referent var : *the Church- a broken reed, under the mask-friendship, friendship- of straw, dropping- a brick, a ray - hope, to be - razor- edge, queen-of the Adriatic.* Bu nümunələrin hər birində qeyd olunmamış üçüncü bir fikir də var, amma bunu həm deyən , həm də eşidən anlaya bilir. Məsələn, birinci nümunəni götürüb analiz edək: ‘The Church had become *as unreliable as* a broken reed”. Burada üç referent var: The Church, broken reed, unreliable. Üçünçü referent digər ikisinin əlaqəsindən

yaranmışdır. *The Chruch is unreliable and a broken reed is unreliable,* burada əsas ümumi xüsusiyyət kilsənin və qamış çubuğunun etibarsız olmasıdır. Deməli, *The Chruch* və *a broken reed* bir-birilə əlaqəlidir. Bunu da qeyd etmək lazımdır ki, "The Chruch is unreliable " və "a broken reed is unreliable" , bu ifadələr həyatdan götürülmüş real faktlardır. Amma bu ifadə isə real faktlara əsaslanmır: "They had lost faith, the Church had become a broken reed." Buna görə də, metafora bir şeyi izah etmək üçün aktual faktlara əsaslanan fantastik bir vasitədir. Metafora iki fikrə əsaslanır. Əsas fikir heç vaxt qeyd olunmur , amma qarşı tərəf özü bunu anlayır. Bu xüsusiyyəti metaforanı daha da maraqlı edir. Bura da iki referent arasındakı əsas fərq onlar arasında ümumi olan cəhəti tapmaqdır.(3-p.44-49)

Metafora qəribəliyi ilə dinləyicini özünə cəlb edir. Metafora nə qədər qəribə, qeyri-adidirsə, o qədər yaxşıdır. Danışanın fikrinə ifadəlilik qatmaq və dinləyicini bunu anlamağa sövq etmək metaforanın əsas məqsədidir. Metafora mənanın məqsədli köçürülməsidir. Köçürülmə ilkin referent ilə aktual referent arasındakı oxşarlığa əsaslanır. Aktual referent məna köçürülərkən sözün aldığı mənadır. Metaforaların subyekti daha çox isimlərlə ifadə olunmuşdur. Bu ona görədir ki, metaforalar artıq deyilmişdir və iki referentın ümumi xüsusiyyətinə əsaslanır. Bir referentın iki və daha artıq xüsusiyyəti ola bilər. Həmin xüsusiyyətlər bir-birindən fərqli və müxtəlif olmalıdır. Eyni zamanda referentlərin ortaq əlaməti də olmalıdır. G.Stern metaforaları oxşarlıq və digər əlamətlərə görə fərqləndirmişdir.

İsimlər.

1. Bır obyektin adı digərinin yerinə işlənir.

a) Bitki adları, xüsusilə də gül adları görünüşünə görə digər iki referenti əlaqələndirir: snow-drop, crowfoot, larkspur, foxglove, eggplant və s.

b)Heyvan bədən üzvləri gülüş məqsədilə insan bədən üzvü üçün işlənir : 'burun ' üçün beak,bill və s. 'əl' üçün fin,paw və s.

c)Yumor və sarkazm məqsədilə insan bədən üzvləri obyekt adları ilə ifadələnir : baş uçun onion, bean, chump, "ağız" üçün trap, "qann" üçün paunch, crop, craw, maw, gizzard, breadbasket və s.

*d)*Abstrakt bir fikir üçün konkret bir söz işlənə bilər: *The apple* of one's eye"

, "The apple of discord" , "A lump in the throat".

e)Konkret bir fikir üçün konkret bir söz işlənə bilər : "This place is hell ", "Her talk was a proper lecture ".

f) Abstrakt bir fikir üçün abstrakt bir söz işlənə bilər : "Knowledge is light ", "A ray of hope ", "A shade of doubt ", "A flash of wit", "Ebullitions of anger" və s.

g)Konkret bir fikir üçün abstrakt bir ifadə işlənir: "To be the pride of somebody", "To be the glory of the country".

2.Obyekt adlan insan yerinə işlənir :uzun, hündür adamlar üçün *a lamp post*; qonaqlıqda sakit oturan adam üçün *wall flower* ; axmaq adam üçün *a stick*; sərt adam üçün *a poker* və s.

3.Heyvan adları insan üçün işlənə bilər. Belə hallar adətən tamamilə sarkastik mənada işlənir. Bu qrup metaforalarda görünüşdə, keyfiyyətdə və ya hərəkətdə oxşarlıqlar arasına ayırıcı bir xətt qoymaq çətindir. Belə olduqda hər iki hal aynlıqda analiz edilməli və fərqləndirilməlidir. Məs; 'frog' ingilislər tərəfindən fransızlara verilmiş addır, bu fransızların tez-tez qurbağa yeməəsi ilə bağlıdır; 'a lion' qorxusuz və cəsur adamlara deyilir; 'a viper' qərəzli və bədniyyət adamlar üçün işlənir; 'an ass' axmaq insanlar üçün işlənir.(4-p.211)

4.Xüsusi adlar ümumi adlar kimi işlənə bilər. "She is a Venus" ifadəsi "O Venera ilahəsi kimi gözəldir" deməkdir; Ile is a Golİath"- Bibiliyadan götürülmüş ifadədir və möcüzəvi anlam daşıyır; 'A Don Quixote' sadəlöv insanlar üçün işlədilir,bundan başqa müxtəlif situasiyalarda "A Don Juan", "A Penelope", " A Croesus" , "A Judas" , "Apecksniff" və s.

5.Milliyyət adları ümumi isim kimi işlənir. Bu cür metaforalar fəaliyyət və xüsusiyyətdəki oxşarlıqlara görə işlədilir. Məsələn, barbarları ifadə etmək üçün h*un,tartar* , bütün çətinliklərin öhdəsindən gələn insanları *Spartan* adlandırırlar; itaətə gətirilməyən, yabanı adamları isə *Türk* adlandırırlar

6.Yer adlan ümumi isim kimi işlənə bilər: qarmaqarışıq, səs-küylü yerlari *Babel* adlandırmaq olar. Bu söz Bibliyadan götürülmüşdür və bütün dillənn danışıldığı bir yer kimi təsvir olunur; *Mecca* bir şeyin yaranma yeri kimi təsvir olunur; " Copenhagen is the *Venuts* of the North" burada Venus "Adriatikin kraliçası " anlamında işlədilir. Fellər:

To set one's heart on, to hang around, to fly into a rage, to burst into laughtcr, to break a promise.

Sinestetik metaforalar. Sinestetık əlaqə müxtəlif sferalarda olan elementləri birləşdirir. Bu başqalarının təsiri ilə subyektin qəbul etdiyi oxşarlıq sayəsində mümkündür. Bu cür metaforalar daha çox sifətlər arasında, bəzən də isımlər arasında mövcud olur.

Sinestetika şerlərdə istifadə olunan məşhur stilistik vasitələrdən biridir. Şekspirin "Twelfth Nights" əsəri bu poetik vasitə ilə zəngindir:

"lf music be the food of love, play on;
Grve me excess'of it that, surfeiting,
The appeıite may sicken, and so die.
That strain against it had a dying fall.
Oh it came o 'er my ear like the sweet sound,
That breathes upon a bank of violets,
Stealing and giving odour! "

"Merchant of Venice " -dən başqa bir nümunəyə baxaq:

'Here will we sit, and let the sounds of music
Creep in our ears: soft stillness and the night
Become the touches of sweet harmony.
With sweetest touches pierce your mistress ' ear,

And draw her home with music. .

Bəzi sifətlər metaforik olaraq klişe ifadələrdə işlədilir və sinestetikaya yaxınlaşır: warm reception, buming question, an easy mind, a high mind, an honest penny, a strong point, a weak point, a thin excuse, running water, small talk və s.

Qeyd olunduğu kimi, qeyri-adi metaforalar dinləyiciyə güclü təsir edir, onu həyəcanlandırır və söhbəti maraqlı edir. Lakin bir neçə dəfə istifadədən sonra onun əvvəlki təsiri qalmır. Yavaş- yavaş öz emosionallığını itirərək , adi stilistik vasitəyə çevrilir. Belə ki, metaforik söz və ifadələrin davamlı istifadəsi onları adi söz səviyyəsinə gətirir. Bütün dillərdə , o cümlədən, ingilis dilində əsli metafora olan olduqca çox sözlər vardır. Əgər söz öz metaforik elementini itirərsə , o zaman o *ölü metaforaya* (dead metaphor) çevrilir. Bu zaman digərləri *canlı metafora* (living methaphor) adlanır.(5-p.88-101)

Məsələn, *daisy* ölü metaforadır.Faktiki olaraq, yalnız bu sözün etimologiyasını bilən bir dilçi bu sözü metafora kimi digər sözlərlə əlaqələndirə bilər. Bu sözün ilkin forması 'the day's eye' olmuşdur və indiki halı onu metaforadan uzaqlaşdırmışdır.

'Horse-play' sözü də ölü metafora kimi dəyərləndirilə bilər. Müasir ingilis dilində bu söz istifadə olunmasa da, bir bitki adını ifadə edir: *horse raddish*

Bir çox hallarda yalnız diaxronik araşdırma sözün metaforik mənşəyini aşkar etməyə kömək edir.

Vain sözü latın sözü olub, (*vanus- empty*) 'devoid of sense of wisdom- foolish, thoughtless' mənasını ifadə edirmiş. Bu gün isə, öz emotivliyini itirərək sadə söz kinii istifadə olunur.

Latın dilindən alınmış *grave* (gravis- heavy) -highly serious, important sözü də, müasir İngilis dilində öz metaforik xüsusiyyətini itirmişdir.

Hooligan sözü də *'a ruffian* ' mənasında işlənmişdir. İrlandiya mənşəli sözdür və kobud xarakterli insanları təsvir edərkən istifadə olunurdu. Hazırda isə metaforik cəhətini itirmiş ölü metafora adlanır.

Magazine sözü ərəblərin *'a warehouse-anbar'* sözündən götürülmüş , fransız dilindən alınma sözdür.Daha sonra *'a shop'* mənasında ingilis dilinə daxil olmuşdur. 1731-ci ildən isə *'treasury', 'intellectual wealth'* mənalarında istifadə olunmağa başlamışdır. Müasir İngilis dilində isə tamamilə fərqli mənada istifadə olunur. Deməli, bəzi sözlər periodik olaraq, həm mənasını, həm də metaforik əlamətlərini dəyişə bilir. Metaforik nitq vasitəsi kimi bu proses çoxmənalılığa da gətirib çıxarır və bununla da ölü metaforalar yaranır. Məsələn, *bridge* sözünün aşağıdakı mənaları var : 1) su yolunu keçmək üçün bir keçid; 2) istiqaməti göstərmək üçün ensiz yuxarı qaldırılmış platforma ; 3) burnun üst sümüyü ; 4) skripkanın tellərini saxlayan taxta parçası; 5) stomotoloji alət. Son üç məna metaforik proses nəticəsində yaranmışdır. Bu günümüzdə isə bu sözlər işlədilmir və ölü metaforalar adlanır.

Hər xalqın dilində özünəməxsus məcazlar sistemi mövcuddur. Bu məcazlar həmin xalqın yaşadığı coğrafı şərait, təbiət, iqlim, mühit, təsərrüfat fəaliyyati və s. ilə

bağlıdır. Məsələn: ingilislərdə güc, qüvvət rəmzi olan at, fransızlarda sağlamlıq və çalışqanlıq, almanlarda ısə zəhmətkeşlik rəmzidir, lakin həşaratlara bütün xalqlarda ziyanverici, cinayətkar adamların timsalı kimi baxırlar. Arılar və qarışqalar isə mərdlik, səxavət və əxlaq rəmzi hesab olunurlar. Fransizlarda qaz axmaq, tovuz-quşu özündən razı , toyuq əxlaqsız qadın, ingilislərdə cücə qorxaq,

ƏDƏBİYYAT:

1.R. S. Ginzburg , S. S. Khidekel.G. Y. Knyazeva, A. A. Sankin (1979) .A COURSE IN MODERN ENGLISH LEXİCOLOGY.p.125.

2.Н. В. АРНОЛЬД .(1986) .Лексикология.Современного английского языка.с.33-39.

3.G.Stern, (1931). Meaning and Change of Meaning p.44-49.

4.M. Breal, (1917). Essai de Semantique.p.211.

5.Jana Molhova,(1967). Outlines of English Lexicology.p.88-101.

6.Hacıyeva A.H., Lectures and Exerciseson English Lexicology, Bakı (2000).s.69-74.

7.Friend, J.H. The Development of American Lexicography . The Hague: Mouton.p.83-88.

I.Velieva,K.Guseynova

METAPHORISMS AND THEIR IN ENGLISH METHODS OF TRANSPOSITIVE EXPRESSION IN AZERBAIJANI LANGUAGE

SUMMARY

İn his article a great attention has paid to the rclation between meaning of word and notion , metaphors in languages in different period of time. Metaplıorical expressions is a common phenomenon in all the languages. Metaphor is a deep

semantic transformation of a word going far beyond its primary semantic range. İt is the most important factor in the renewal of language. The metaphor is an intentional transfer. İts motivation is tainted with emotiveness varying in degree in the different cases. The transfer is founded on some similarity between the primary referent and thc actual referent. Metaphoric use gives risc to word formation. This type of word formation is gaining ground in contemporary **English,** especially in American English where the drive for figurative expressions is going on with amazing speed.Understanding the types, reasons and history will help us to master more vocabulary, and ımprove our ability of using language.

Metaphors are widely used in modera English. The article deals vvith the metapbor and its role in Shakespear's novels. Metaphor plays a great role as a main

spech means in the langıage. In t'nis regard, the article might be important for Engiish leamers and the ones who are interested in Shakespear's activity."This article deals with the metrological terms in English. Some metrological terms were analysed according to etymology. The origin and development of them were given and based on the language materials. Some of these metrological terms are native and borrowed from different languages. The majority of these terms are coined because of somatisms. The somatisms play very important roles in metrological terms.

Key words: classification of metaphor; established ways; types: synaesthetic mtaphora.

И.Велиева,К.Гусейнова

МЕТАФОРИЗМЫ И ИХ НА АНГЛИЙСКОМ ЯЗЫКЕ СПОСОБЫ ПРОЗРАЧНОГО ВЫРАЖЕНИЯ НА АЗЕРБАЙДЖАНСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В этой статье большое внимание уделяется на отношению между значениемслова и понятия, метафорам в языках в разные периоды времени.Метафорические выражения являются обычным явлением на всех языках.Метафора является глубокой смысловая трансформацией слова, которая выходит далеко за рамки своего основного смыслового диапазона. Метафора является преднамеренной передачей. Её мотивация заражена эмоциональностью различной степени в различных случаях. Передача основана на некотором сходстве между первичным и фактическим референтами. Метафорическое использование приводит к образованию слов. Этот тип словообразования набирает обороты в современном английском языке, особенно в американском варианте английскогом языке, где стремление к фигуративным выражениям происходит с удивительнойскоростью. Понимание видов, причин и истории поможет нам освоить больше словарного запаса и улучшить нашу способность использования языка.

Ключевые слова : классификация метафоры,пути установления,типы, синестетическая метафора.

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Rəyci: Pedağoji elmlər namizədi,dosent Ağahüseynova Elmira
capa tovsiyə etmişdir.

YEGANƏ QURBANOVA
ZİBAHƏT NƏSİROVA
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimləri
H.Cavid pr.25
yeganəziba@gmail.ru

İNGİLİS DİLİ MƏNŞƏLİ SÖZ VƏ TERMİNLƏRİN ALMAN DİLİNİN LEKSİKONUNDA SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Qədim zamanlardan başlayaraq dünya dilləri arasında qarşılıqlı və sıx əlaqə mövcud olmuşdur. Bu əlaqə cəmiyyətin tərəqqisi ilə eyni zamanda yaranmış və inkişaf edərək möhkəmlənmişdir. Elmi-texniki, siyasi-iqtisadi və mədəni inkişafın nəticəsində dilə əgnəbi sözlərin daxil olması, lüğət tərkibini zənginləşdirməklə yanaşı, bir sıra problemlər də yaradır. Bu mövzudan danışarkən alman dilinin lüğət tərkibində xeyli əcnəbi sözün olduğunu qeyd etmək lazımdır. Belə sözlər zaman keçdikcə fonetik və qrammatik qanunlara uyğunlaşır və həmin dilin lüğət tərkibinə daxil olur. Sözlərin bir dildən başqa dilə davamlı və ya müvəqqəti qəbul edilməsi və uyğunlaşması hər bir dilin ifadəliliyinə aiddir. Alman dilinin denqlişləşməsi, yəni lüğətin (anqlisizmləşməsi) söz mənalarının, işarə qoyuluşunun və qrammatikanın, hətta cümlə quruluşunun və üslubunun dəyişməsinə gətirib çıxarır. «Dengisch» şübhəsiz alman dilinin tez-tez saxta anqlisizmlərin təsiri nəticəsində yaranan ifadə vasitəsidir. Dil əlaqələri ictimai hadisədir. Onun meydana gəlməsi insan birliklərinin, tayfa və qəbilələrin yaranma dövrünə təsadüf edir. Tayfa və qəbilələr,millətlər və xalqlar tarixi boyu bir-birilə təmasda olmuşlar. Təbiidir ki, iqtisadi, mədəni, dini, siyasi əlaqələr ən mühüm ünsiyyət vasitəsi olan dilin köməei ilə gtrçəkləşmişdir. “Dilin ictimai mahiyyətindən danışarkən insan cəmiyyətinin inkişafında baş verən dəyişmələri də nəzərə almaq lazımdır, çünki dil cəmiyyətin inkişafının bütün sahələrini daha geniş və daha ətraflı əks etdirmək qabiliyyətinə malikdir”(1-s.246).

Açar sözlər: Alman dili,İngilis dili,leksika,semantika ,qrammatika,termin

Hər bir dilin formalaşması onun daşıyıcısı olduğu xalqın inkişaf tarixindən, məskunlaşma yerindən, əlaqədə olduğu başqa dillərin təsirindən asılıdır. Ictimai-siyasi prosəsdə qohum və qohum olmayan millətlər arasında müxtəlif səciyyəli əlaqələri ayırmaq mümkün olduğundan dil əlaqəiərinin üç növü fərqləndirilir:

1)qohum dillər arasında;
2)qohum olmayan dillər arasında;
3)qarışıq əlaqələr.

Göstərilən əlaqə növlərindən birinci ikisində əlaqə iki dil arasında gedə bilirsə, üçüncü növ, yəni qarışıq əlaqə ən azı üç dilin qarşılıqlı təsirini nəzərdə tutur.

Araşdırmalar nəticəsində aşağıdakı yeddi faktorun dil dəyişmələrinə təsiri müəyyənləşdirilmişdir:

1. Birləşmiş Millətlər Təşkilatının hegemonluğu altında iqtisadiyyat və turizmin qloballaşması;
2. Əsrlər boyu Böyük Britaniyanın ən qüdrətli dövlətlərdən biri olması, Amerika mədəniyyətinin təqlidi , daha çox azadlığa və inkişafa olan ehtiyac;
3. Modernləşmənin simvollaşması, ictimai-iqtisadi, texniki və mədəni inkişaf;
4. ABŞ-ın siyasi və iqtisadi innovasiyanın dayağı olması;
5. İngilis dilinin istifadəsinin artıq adət halına keçdiyi ABŞ və digər ingilis dilli ölkələrin təhsil ocağı olması;
6. Gülünc purizmin yenidən dirçəlməsi qorxusu;
7. İngilis dilində olan sözlərin tərcümə edilməsi tənbəlliyi.

Denqlişləşmə cəmiyyəti sosial və siyasi təbəqəyə ayrıldığından məhdudlaşdırılması daha məqsədəuyğundur. İmkan daxilində alman dilinə məxsus və uyğun olan ifadələr və sözlər düzəltmək lazımdır. Çünki hər bir dil daim dəyişilən həyat tərzinə uyğunlaşdırılmalıdır. Avropa və qlobal təhsil siyasəti insanların iki və üç dilliliyinə imkan yaradır. Ana dili və ingilis dilindən başqa hər bir insan dövlət dilini və qonşu ölkənin dilini öyrənə bilir. Yer üzündə hər bir insanın ingilis dilini birinci və ikinci xarici dil kimi öyrənmyə şansı var. İş bazarında, mədəniyyətlərarası mübadilələrdə yaranan əlaqələrdə sosial-iqtisadi imtiyazlar əldə etmək üçün eyni şansları dilə aid etmək olmur. Burada yalnız qəbuledilən sözlər, onların mənaları deyil, həm də qrammatik, sintaktik və stilistik vərdişlər müzakirə obyektinə çevrilir. İngilis sözləri alman sözlərinə müxtəlif yollarla keçir. Bəzi sözlər xarici söz kimi dəyişilmədən qəbul edilir və o şəkildə də tanınır. (2-s.345).

Məsələn: *das Congress Center*.

Bəzi sözlər isə bütün formaları ilə almanlaşır.

Məsələn: elektron poçtla göndərmə **mailen** adlanır.

Məsələn: *Herunterladen – downloaden. Cakes – der Keks.*

Bəzi sözlər bir çox almanlar tərəfindən ingiliscə yazılır, amma almanca tələffüz olunur.

Məsələn: *die/das E-Mail, die E-Mails, der Server, die Server.*

İngilis dilinin qrammatikası alman dilinin qrammatikasından fərqləndiyi üçün tez-tez ingilis dilindən alınma sözlərdə hallanmada və sözlərin cinsinin təyin edilməsində qeyri-müəyyənlik meydana çıxır. İngilis dilindən tərcümədə çox zaman eyni mənanı verməsə də formal şəkildə uyğun gələn alman sözlərindən istifadə olunur.

Məsələn: *Novelle-novel* (ingiliscə *roman* deməkdir).

Hər bir dildə normal proses olan məna dəyişmələri gündəlik danışıq dilinə tərcümələrdə daha geniş vüsət almışdır. Alman dilində uyğun ekvivalentin olub-olmadığını yoxlamadan anlaşılmaz yeni sözlər yaran bilər.

Məsələn: *Nonproliferationsvertrag* (ing. *non-proliferation treaty*)

Əslində isə 1960-cı ildən bəri *Atomwaffensperrvertrag* sözü mövcuddur və işlənir. Anqlisizmlərə ingilis dilinin daha çox hökmran olduğu iqtisadiyyat, elm, pop musiqi, informatika sahələrində olduqca çox rast gəlinir.

Məsələn: «*Ich musste die Harddisk neu formatieren, weil der falsch gesteckte Jumper zur data corruption geführt hat und der Computer gecrasht ist*».

Anqlisizmlərsiz bu cümlə aşağıdakı kimi səslənərdi:

«*Ich musste die Festplatte neu formatieren, weil der Daten durch eine falsch gesetzte Steckbrücke wurden und der Rechne abgestürzt ist*».

Marketinqdə də tez-tez səslənməsi gözəl olan ilkin məna və tərcüməsi aydın olmayan başlıqlardan istifadə olunur. Elə bu şəkildə də yeni istehsal prosesində vahid məhsul adları yaranır. Əvvəllər sahə və sosial jarqonlardan götürülmüş sözlər yazılışına görə alınma dilinə uyğunlaşdırılardı. Buna bariz nümunə olaraq *Couvert* (Kuvert), *Cakes* (Keks) və *Disquettes* (Disketten) və başqalarını misal göstərmək olar. Bu gün isə sözlərin alman dilinə uyğunlaşdırılmasından yan keçilir. 1980-ci illərdə təklif edilmiş «*Komputer*» sözü öz təsdiqini tapmadı. Hazırda alman dilində *Computer* sözü ilə yanaşı *der Rechner* sözü də mövcuddur.

İngilis mənşəli sözlər iqtisadi müəssisələrin səyi və ingilis dilinə olan meylin nəticəsi olaraq reklam, iqtisadiyyat və mətbuat vasitəsilə alman dilinə daxil olmuşdur. Buradan belə nəticəyə gəlmək olur ki, iqtisadiyyat və əhalinin böyük bir hissəsi bu inkişafa uyğuknlaşıbdır. 1990-cı ildən bəri ingilis sözlərinin həyatın bütün sahələrinə daxil olması nəticəsində internetin sürətlə yayılması baş vermişdir.(3-s.12)

İngilis dilində alınan sözlərin spesifik kontekstdə işlədilməsi zamanı praqmatik kontekstə fikir verilməzsə, semantik dolaşıqlığa gətirib çıxarır. Məsələn: *Rückack – Umhängetasche,*

Body bag – Leichensack və s.

Cəmiyyətin qloballaşması, texnika və elmin nailiyyətləri, ingilis sahə anlayışları, bir tərəfdən alman dilinin yeni yaşam tərzinə uyğunlaşması, digər tərəfdən ingilis dilinin birinci xarici dil olmasına gətirib çıxarır. İngilis sözlərinin alınması və uyğunlaşması alman dilinin aktual inkişafını ifadə edir. Bu inkişaf çərçivəsində alınma sözlər almanlaşır, qrammatik – cins, cəm sonluğu, ümumi qəbul edilmiş məna və kontkets əldə edir.

Məsələn: *Ich habe «gedownloadet»* (və ya geupdatet) düzgün forması olan «*Ich habe cowngeloadet*» cümləsilə eyni səviyyədə işlənir (dovn-herunter, geloadet-geladen).

İngilis dilinin qrammatik konstruksiyasının alman dilində işlənməsinin özü bir fenomendir. Bunlan ingilis dilində olan mətnlərin qeriy-professional tərcüməsi vasitəsilə, aşağı səviyyəli ingilis və amerikan film sinxron tərcümələri ilə yaranır.

Məsələn: *this makes sense – das macht Sinn – das macht Sinn* (das hat Sinn, das ergibt Sinn, das ist sinnvoll, das ist vorteilhaft, das ist plausibel).

- I find you a … - ich finde dich einen … (ich halte dich für einen …, für nicht bist du ein…)

- In 1968 (im Jahre 1968 və ya yalnız 1968)

- to remember sth. – Etwas erinnern, ich erinnere etwas (sich an etwas erinnern. Ich erinnere mich an etwas)

- in English/German – in Englisch/in Deutsch (auf Englisch və ya «im ENglischen», «im Deutschen»)

- in Iraq, Iran – in Irak, in Iran (im Irak, im Iran)

- Not really – nicht wirklich (eigentlich nicht əvəzinə)

Alınma sözlərdə çox zaman alman dilinin qrammatik strukturu itir və ingilis dilinin strukturu ilə əvəz edilir. «*Sinn machen*» və təsirli fel olan «*erinnern*» felinin işlənməsindən hiss olunur ki, bu ifadələr əvvəllər də alman dilində işlənmişdir. Bu adı çəkilən formalara əbədi qaydalar sistemində də rast gəlinir. Denqlişin əleyhinə olanlar fikirləşirlər ki, köhnə formalar getdikcə məhv olur və yalnız bu gün istifadə olunan dil həlledici rol oynayır.

İngilis dilinin təsiri orfoqrafiyadan da yan keçməyib.

Məsələn: apastrofla ayrılan «*s*» sonluğu

- *Genitivdə - Angela´s Frittenbude*

- qısaldılmış sözlərin cəmində, «*LKW*»s

Başqa bir misalda ingilis dilinə sonu *y* ilə bitən isimlərin cəm formasına alman dilində olan mətnlərdə də rast gəlinir. *Hobbys* və *Babys* əvəzinə *Hobbbies* və *Babbies*. Dilçilikdə daima təsirə və dəyişikliyə məruz qalma fikri heç də mübahisəli fikir deyil. Tam «təmiz» və «ən yaxşı» dil olmayıb.(-s.799)

Dil əlaqələrinin gerçəkləşmə yolundan asılı olaraq təmaslı və təmassız əlaqələr də bir-birindən fərqləndirilməlidir. Dillərin təması dedikdə, onların paralel işlənməsi nəzərdə tutulur. Bu zaman ünsüyyət prosesində ana dili ilə yanaşı başqa bir dildən də istifadə olunur. Təmaslı əlaqə ikidilliyin (bilinqvizmin) və çoxdilliyin yayıldığı ərazidə baş verir. Qeyd etmək lazımdır ki, təmaslı əlaqə üçün əlverişli mühitin olması əsas şərtdir. Bele mühüt isə müxtəlif dil daşıyıcılarının eyni ərazidə yaşaması doğrudur. Məsələn, Qafqazda, o cümlədən Azərbaycanda müxtəlif dil daşıyıcıları eyni bir ictimai birlikdə yaşayırlar. Azərbaycanda rus, ləzgi, avar, talış, tat və s. dillərin Azərbaycan dili ilə təmaslı əlaqəsi mövcuddur. Təmaslı əlaqə zamanı dil daşıyıcılarının bir qismi üçün iki və daha çox dildən istifadə vacibdirsə, diger qismi üçün bu, zəruri deyildir. Məsələn, Respublikamızda ləzgi, talış, tat və s. azsaylı millətlər üçün Azərbaycan dilindən istifadə vacibdir. Lakin bu məkan daxilində Azərbaycan dilinin daşıyıcıları üçün qeyd olunan dilləri bilmək heç də zəruri deyil. Təmasda olan dillər arasında belə münasibət dilin ictimai funksiyası ilə bağlıdır. Bu məsələni tədqiq edən F.P.Filinin çoxdilliliyin dilin ictimai funksiyasindan irəli

gəldiyini qeyd edərək, bu prosesi cəmiyyətin tarixi ilə bağlı olaraq araşdırmağı düzgün sayır. F.P.Filinin tədqiqatında cəmiyyətin müxtəlif dövrlərində dil əlaqələrinin fərqli şəkildə özünü göstərməsi qeyd olunur.

Dil əlaqələri prosesində dil sisteminin muxtəlif səviyyələrinə təsir (substrakt və abstrat) olur və belə təsirin nəticəsi dildə özünü mütləq göstərir. Dil əlaqələrinin əsas göstəricisi dildn başqa dildən müxtəlif linqvistik vahidləri alıb öz arsenalına daxil etməsidir. Qohum və onlarla bir ərazidə yayılmış qohum olmayan dillərin qarşılıqlı təsiri əlaqədə olan dillərin hər birinin müxtəlif struktur səviyyələrində özünü göstərir.

Məlumdur ki,dilin təsirə ən təz və ən çox məruz qalan sahəsi onun leksik sistemi, yəni lüğət fondudur. Dillərin təsiri özünü, ilk növbədə, sözalma prosesində göstərir: "Sozlərin alınması dillər və mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin, ümumi dəyərlərin yaradılmasının ən bariz nümunələrindən biridir". Ona görə müxtəlif dillər arasında əlaqənin tədqiqinə alınva sözlərin,sözalma prosesinin araşdırılması ilə başlanmalı,sözlərin bir dildən başqa dilə keçməsinin bir sıra dildaxili və dilxarici səbəbləri də nəzərə alınmalıdır.

M.Bragina əcnəbi sözlərin dildaxili alınma səbəblərini aşağıdakı kimi müəyyənləşdirir: yəni əşya və anlayışı bildirmək üçün doğma dildə ekvivalent sözünün olmaması; mənanın dəqiqləşdirilməsi, konkrətləşdirilməsinə,üslubi sinonimlərə ehtiyacın olması; ekspressivliyə meyl; çoxmənalığın aradan qaldırılması və s..

Dildaxili amillərin özü sözalmanı labüd edir. Çünki hər bir yəni anlayışı ifadə etmək üçün dilin daxili imkan və vasitələri kifayət qədər olmur. Lüğət tərkibi dilin digər yaruslarına nisbətən mütəhərrik olduğuna görə yeni sözyaratma meyli və sözalma prosesi müntəzəm sürətdə baş verir. Lakin sözyaratma prosesi, bir qayda olaraq, yeni anlayışları adlandırmadan geri qaldığına görə ingilis dilinin leksik sisteminə təsiri böyük oldu.(5-s.379)

Bu onu göstərir ki, İngilis dilinııır özündə feil əsasında ikimənalılığı inkişaf etməyə meylli idi.Alman mənşəli alınmalar buna manə olmamalıdılar, əksinə , qədim təsirli-təsirsiz feillərin dəyişməsi prosesinə, onun tezləşməsi prosesinə kömək edirlər. İngilis dilinin qrammatik quruluşunda dəyişmələr o zaman baş verir ki, alman dilinin öz rüşeymlərində bu xüsüssiyətlər mövcüd deyil, məsələn, qədim ingilis dilində zeif dental şəkilçili keçmiş zaman feilləri çox məhdud idi. Lakin orta dövrdə ingilis alınma feillərinin təsiri nəticəsində , onların təkanı nəticəsində əvvəlki zəif sözlərin təsrifi forması ən məhsuldar növə çevrildi və Alman dilinin təsiri ilə ingilis dilində yaranan analitik quruuluşla yanaşı sintaktik kalkalar da oldu.

ƏDƏBİYYAT

1.K.Abdullayev: «Azərb. dili sintaksinin nəzəri problemləri.B.,1999, s. 246.
2.Ə.Ə.Abdullayev: «Mətni anlama modelləri». B., 1999 345 s.
3.A.M.Babayev: «Dilçiliyə giriş». B., «Maarif», 1992, s. 12.
4.Q.M.Bəyzadə: «Mətn dilçiliyi (məqalələr və tezislər)». B., Qorqud,1997,s.799
5.A.M.Qurbanov: «Bədii mətnin linqvistik təhlili». B., 1986, s. 379.

E.Gurbanova,Z.Nasirova

SEMANTIC AND MORPHOLOGICAL PROPERTIES OF WORDS AND TERMS OF ENGLISH ORIGIN IN THE GERMAN LEXICO

SUMMARY

The words in the modern German language which were taken from the English language and their problems.

In this article is spoken about the English words, which are used in modern German language, new meanings of these words and about difficulties which we met during this process.

The article speaks about the influence of lexic system of lingual relation, also general analyse of linguistics at contemporary phase, some positions and points of view of Azerbaijani and foreign scientists – linguists.

The goal of the article is to consider the effect of social and cultural factors on the enrichment of English and Azerbaijani Languages. My argument is based on the assuption that communication is a form of social interaction and thus the role of social factors on language and the usage can and should not be ignored. In other words, the interpretation of meaning in all communication is dependent on context, which includes social and cultural factors.

To illustrate this position, examples are presented including a discussion of cross-cultural research on value system, as well as reserch on thanking, requesting and greeting behavior in Azerbaijani and English. The article deals with the general typology of world languages, their classification in modern stage, the mutual relations of relative languages and points of views and positions of the scientists-linguists. The article deals with the role of extralinquistk factors in change of the English vocabulary.

The article the touches problem of changes in grammatical of the English language as a result of the English language as a result of extralingistic factors as well.

The article deals with the role of extralinquistk factors in change of the English vocabulary.

Key words:German language,English,to lexical,semantics,grammar,term.

Е.Курбанова,З.Насирова

СЕМАНТИКО-МОРФОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ СЛОВ И ТЕРМИНОВ АНГЛИЙСКОГО ПРОИСХОЖДЕНИЯ В ЛЕКСИКОНЕ НЕМЕЦКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье рассматриваются влияние лексические систему языковые связи, а также общий анализ лингвистики в современном этапе, некоторые мнение и высказывание учёных – лингвистов азербайджанских и зарубежных стран.

В средневековье доля слов английского происхождения в немецком языке была невелика. Такие слова встречались преимущественно в церковном языке и у мореплавателей. Начиная с XVII в., некоторые англицизмы проникли и в политическую жизнь страны, однако бóльшим влиянием владел французский язык и латынь. В XVIII в. Англия начинает набирать популярность, развивая дипломатические отношения с другими странами Европы, а также благодаря литературным переводам. Уже в XIX в. английский язык получает в Германии статус языка образования (нем. Bildungssprache). Позже, в ходе индустриальной революции, число англицизмов в немецком языке увеличилось. В первую очередь, эта тенденция коснулась сферы промышленности и модных видов спорта (нем. Golf, Fußball). С усилением процесса глобализации в XX в. наблюдается влияние американского варианта английского языка в области компьютерных технологий, интернет-общения, музыки и фильмов. До 1970-х гг. английские слова чаще калькировались, а не заимствовались (ср. Kalter Krieg < engl. cold war). Такое большое влияние английского языка связано с ведущей ролью Соединенных Штатов в сфере техники и естественных наук. Это постепенно приводит к унификации профессиональной лексики в различных отраслях. Лишнее использование апострофа в Genitiv. При заимствовании слов из английского языка встает вопрос об их трансформации. Из-за непрофессионального перевода нередко встречаются грамматические ошибки в образовании слов, например:англ. *once more* – денглиш „*einmal mehr*“ (рус. один раз). Дословный перевод в данном случае является грамматически неверным. В таком

Ключевые слова:Немецкий язык,Английскийязык,лексика,семантик грамматика, термин.

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru ,dosent Adilə Zeynalova
capa tovsiyə etmişdir.

PAKİZƏ MƏMMƏDZADƏ
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimi
H.Cavid pr.25
pakizemamedzade@com.ru

İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ANTROPONİMİK UNİVERSAL SİSTEMİNDƏ SEMANTİK TƏHLİL VƏ İXİİSAS, ŞƏXS ADLARININ TUTDUĞU MÖVQE

XÜLASƏ

Bir-birindən köklü şəkildə fərqlənən tarixi yol inkiçaf yolu keçməsinə baxmayaraq ingilis və Azərbaycan xalqlarının antroponimik sistemlərində semantik baxımdan oxşar yaxud eyni adlara rast gəlmək mümkündür. Bu oxşarlıq hər iki xalq üçün ümümi olan bəzi qanunauyğunluqlara əsaslanır.Fərqli mədəniyyətlərə malik olan xalqlar arasında oxçar və ya eyni semantik əsaslara söykənən antroponimik vahidlərin meydana gəlməsi bir sıra tarixi hadisələrlə izah olunur.Fikrimizcə ingilis və Azərbaycan antroponimiyasında fonetik cəhətdən oxşar olması ya onların eyni dil ailəsini təmsil edən xalqların dillərindən yayılması ikə ya da təsadüfən fonetik paralel yaratması ilə bağlıdır.Adlar haqqında Pulqramın və Con Stüart milin tədqiqatları daha qiymətli sayılır. Milli qeyd edir ki xüsusi adlar şəxsə ancaq adlandırılmaq və çağırılmaq üçün verilir lakin şəxsi fərdi səciyyələndirmir. Şəxs adlarının əsas əlaməti ondan ibarətdir ki onlar əslində heç bir məna vermir. Valideynlər uşağa adı öz gələcək arzularına uyğun verirlər.Adı verən valideyn ümid edir ki onun verdiyi ad gələcəkdə də özünü doğruldacaq. Şəxs adının insana fərdilik gətirə biləcəyinə də inanmaq olar lakin bu bir o qədər də əsaslı fakt hesab olunmur. Bununla yanaçı adın başqaları tərəfindən necə qəbul edilməsi şəxsiyyətin özünəhörmətinə təsir edir.Qədim dövrlərdən müşahidə edilən adın mistikləşdirilməsi böyük bir tarixi dövr ərzində xalqların advermə adət və ənənələrində mühüm rol oynamışdır. Təkcə ləqəbləri deyil hətta yeni doğulan uşağa birinci adı seçərkən də valideynlər onun öz adını doğruldacağını düşünür və buna görə də öz arzularına müvafiq ad verirlər. Elm bunu inkar etsə də uşağın böyüyərək ona verilmiş adı doğrultduğu haqqında bir sıra faktlar məlumdur.(1-p.123) Məsələn almanlarda Herr Gross cənab Böyük Nəhəng adlı şəxsin özündən müştəbehlik mərəzinə tutulduöu Herr Klemer cənab Kiçik adlı şəxsin natamamlıq kompleksinə mübtəla olduğu qeydə alınmışdır.

Açar sözlər: totemlər, vahidlər, sistemlər, antroponimlər, semantik universal

Dünyanın bütün antroponimik sistemləri universaldır eləcə də ingilis və Azərbaycan xalqlarının adseçmə ənənəsi bir-birinə uyğun gəlir. Həm ingilis həm də Azərbaycan insanı ad seçimində ülviliyə xoşbəxtliyə gözəlliyə yüksəkliyə can atır ən bəşəri hisslərini əks etdirir. Bununla yanaşı hər iki xalqın adlar sistemində tarixən formalaşmış və hazırda sıradan çıxmış ad yaradıcılıqlarının qalıqlarına rast gəlirik.

İngilis dilində bəzi adlar insanın xarici fiziki nöqsanını əks etdirir. Mücərrəd təfəkkürün hələ formalaşmadığı qədim dövrlərdə insanlar özlərini təbiətin bir parçası kimi təsəvvür edir ad seçərkən ətraf mühitdəki əşyaların adından istifadə edir yalnız müəyyən müddətdən sonra uşaq böyüyüb ərsəyə gəldikdə göstərdiyi şücayətə özünü tanıtdığı hansısa bir hərəkətə görə ikinci bir adla adlandırıldı. (2-page 6672)Bu cür ibtidai advermənin izlərinə günümüzdə də rast gəlmək mümkündür.Ş.Şədiyev yazır ki xalqımızın tarixində övlada ad verilməsində nikbin münasibət bəsləmişdir. O zamanlar bu hadisə şadlıq və təntənə ilə qeyd olunardı. Həmin vaxtlarda ad məsələsi valideyinlər deyil ancaq ad vermə peşəsinə görə xalq arasında tanınmış hörmətli şəxslər həll edərdilər. Onlar da xoşagələn bir ad seçib uşağa həmin adın verilməsini məsləhət görərdilər.Qədim Azərbaycanlılar Zərdüşt dininə və ayinlərinə sitayiş edib göyə günəşə aya oda suya torpağa dəmirə daşa ruhlara və ətraf aləmdəki canlılara pərəstiş edirdilər.1.Totemlərə sitayişlə əlaqədər olan şəxs adları-Laçın Tərlan Aslan Qaplan və s.

2.Göyə Tanrıya etiqatla əlaqədər olan şəxs adları-Göyxan Tanrı Tanrıverdi və s.

3. Qədim Azərbaycanlılar ətrafda xarab olmayan əbədi hesab etdikləri təbiət materiallarına tapınır və bunlardan şəxs adları düzəldirdilər -Aydəmir Altın Polad və s.

Müassir ingilis antroponimiyasında işlədilən qədim german və ya roman-german mənşəli ada-Alicənab Eric-şərəfli hakim başçı elva -pəriyəbənzər kimi bir sıra adlar xiristanlıqdan qabaqki dövrün məhsulu sayıla bilər. Eyni zamanda burada vaxtı ilə Biritaniya adasında məskunlaşmış tayfaların sorağını verən bir çox şəxs adları ingilisləşdirilmiş şəkildə işlədilməkdədir. Cəmiyyətin həyatındakı iqtisadi, sosial və mədəni dəyişiklikləri özündə əks etdirən ixtisas adları cəmiyyətin inkişaf səviyyəsinə uyğun şəkildə formalaşır. İxtisas adları leksikasına daxil olan sözlərin müəyyən qismi müasir dil baxımından arxaikləşdirilmişdir, çünki İngilis və Azərbaycan dillərinin bugünki ixtisas adları uzunmüddətli tarixi inkişafın məhsuludur. İxtisas adlarının yaranma tarixi bəşəriyyətin yaranma tarixi qədər qədimdir. Onlar ictimai-iqtisadi formasiyalarda insanların əsas fəaliyyət prosesi ilə sıx əlaqədar yaranmışdır. İxtisas adları həm də xalqın tarixi, adət-ənənəsi, məişət, həyat tərzi, etik və estetik görüşlərini də əks etdirmişdir.Bildiyimiz kimi, yaşadığımız cəmiyyətdə maddi nemətlərin bolluğu müxtəlif sənət və peşə sahiblərinin fəaliyyəti ilə bağlıdır. Bu səbəbdəndir ki, dildə mövcud olan ixtisasa adları tədqiqatçıların diqqətini cəlb etmişdir.

Dilçilikdə öz elmi fəaliyyəti ilə seçilən İ.V.Arnold da, ingilis dilinin leksik sistemində ixtisas adlarının yaranmasına yollarına diqqət yetirmişdir. Azərbaycan dilinin leksik sisteminin araşdırılması zamanı da ixtisas adlarına diqqət yetirilmişdir. Filologiya elmlər doktoru A.Ataskişiyev də Azərbaycan dilində sənət və peşə adları məsələsinə toxunmuşdur. O, sənət adlarının Azərbaycan dilində mənşəyinə görə növlərindən, sənət adlarının morfoloji, qrammatik xüsusiyyətlərindən bəhs etmişdir.İxtisas adlarının araşdırılmasında xüsusi əməyi olan dilçilərə İ.V.Sabadoş, T.Q.İvanova, O.S.Orlova, L.L.Orlov, V.V.Manivcuq,

V.İ.Makarov və başqalarını misal göstərmək olar. Onlar öz araşdırmalarını məhz peşə leksikasına həsr etmişlər.Dilçilik ədəbiyyatında və o cümlədən, ingilis dilçiliyində ixtisas adları lüğət tərkibinin bir sahsi və dilin lüğət tərkibinin çox vacib hissəsi hesab edilir. İxtisas adları müəyyən ictimai qrupa aid xüsusi iş və sənət təmayüllü sözlərdir. Bunlara peşə də, sənət də, ixtisas da demək olar.(3-səh:54-58)

Sənət- xüsusi elm, təhsil görməyən insanların əmək fəaliyyəti sahəsidir. Məsələn, *cobber (pinəçi), shoemaker (çəkməçi), shoeblacker (çəkməlisən) , coalminer // collier (kömürçü), hatter // hat maker (papaqçı) , tailor (dərzi) , barber (dəllək) , blacksmith (dəmirçi)* və s. sənət sahəsində çalışanlar xüsusi nəzəri bilik və təhsil almaya da bilər, onlar müəyyən təcrübə əsasında, baxmaqla həmin sənətə yiyələnə bilirlər. Ona görə də şərti olaraq, ixtisas adları adı altında birləşdirilən sözlərə həmin iş sahələri ilə bağlı sözlər – adlar daxildir. Hal- hazırda " peşə " və "sənət" terminləri sinonim sözlər kimi işlədilir. Məsələn, *müəllim (teacher)* sözü həm sənət, həm də peşə hesab olunur. "Sənət və peşə " terminləri sinonim mənaya malik olduğu üçün rus dilində olan " профессия " sözü Azərbaycan dilinə " sənət – peşə " kimi tərcümə olunur. Müasir dildə " peşə " sözü fars sözü kimi izah olunur və mənası elə " sənət " deməkdir. " Sənətkarlıq " termini " sənətkarlıq " , "peşəkar " termini isə " sənətkar " sözü kimi izah olunur.M.Hüseynzadə " Müasir Azərbaycan dili " kitabında *-lıq, -liq ,-luq, -lük , -dar* ; *-çı , çi ,çü ,çu* və s. şəkilçilərdən bəhs edərkən sənət-peşə adlarının əmələ gəlməsində həmin şəkilçilərdən geniş istifadə etmişdir. Müəllif qeyd etmişdir ki , -çı , -çi, -çu, -çü şəkilçiləri vasitəsilə Azərbaycan, ərəb, fars, rus dili sözlərindən və rus dili vasitəsilə başqa dillərdən gəlmiş isimlərdən peşə, sənət, məşğələ, adət, xasiyyət, əqidə, meyl və s. mənaları ifadə edən düzəltmə isimlər əmələ gəlir. Məsələn : *arabaçı, yazıçı, əməkçi, dilçi, kolxozçu, traktorçu, dənizçi* və s.

İxtisas adlarının mənşəcə növləri

İngilis dilində ixtisasa adları müxtəlif mənbələrdən daxil olmuşdur. VII əsrdə xristianlığın geniş yayıldığı bir dövürdə latın dilindən dinlə bağlı bir çox sözlər daxil olmuşdur. Məsələn priest " keşiş " , bishop "yepiskop" , monk " rahib " , nun "rahibə" və s. İngiltərədə o dövrdə yaranan məktəblərdə dini dərs deyən müəllimlə "scholar" deyilirdi və bu söz latın dilindən alınmışdır. Bundan başqa " janitor " qapıçı, dalandar, qarovulçu sözüdə latın dilindən alınmışdır . İngilis dilindən ixtisas adlaını yaradan yarımşəkilcilərdən olan "monger" morfemi latın mənşəlidir.

İngilis dilində ən çox alınma sözlər fransız mənşəlidir. Fransız mənşəli sözlərin ingilis dilinə axını XI əsrdə İngiltərənin normanlar tərəfindən istilasından sonra başlayır. Fransız mənşəli ixtisas adlarını aşağıdakı kimi qruplaşdırmaq olar :

a) Idarəetmə sahəsində alınma ixtisas adları : “baron” baron, “baroness” baronessa , “royal” kral, “chancellor” kansler, “consul” konsul, “ambassador” səfir, “minister” nazir, “municipal” bələdiyyə və s;

b) Hüquq sahəsində alınma ixtisas adları: “judge” hakim, “attorney” hüquqşünas , advocate “vəkil”

c) Din sahəsində alınmalar : “abbot” rahib , “clergy” din xadimi və s;

d) Hərbi sahədə alınmalar : “captain” kapitan, “sergeant” çavuş, “soldier” əsgər, “officer” zabit, “musketer” muşketyor. Fransada kralın qvardiya süvarisində xidmət edən zadəgan və s.

İngilis dilində olduğu kimi, Azərbaycan dilində də xalqlar arasında yaranan müxtəlif qarşılıqlı əlaqələr genişləndikcə , insanların təbiət üzərində hökmranlığı möhkəmləndikcə ixtisas adları da möhkəmlənmiş, inkişaf etmiş, zənginləşmiş və bundan sonradaa zəngiləşəcəkdir. Azərbaycan dilinin lüğət tərkibində mövcud olan digər sözlər kimi, ixtisas adkarı da mənşəyinə görə, daxili imkanlar hesabına yaranmasına və alınma sözlər olmaqla iki qrupa bölünürlər :

1) *Azərbaycan dilinə məxsuz olan ixtisas adları* . Bu adlar digər ixtisas adları ilə müqayisədə ən qədim tarixə malikdir. Azərbaycan ixtisas adları qədim türk xalqlarının müxtəlif siyasi, iqtisadi və mədəni əlaqəsi nəticəsində ildən – ilə zənginləşmiş və çoxalmışdır.(4-səh:156-168)

Azərbaycan dilinə məxsus olan ixtisas adları təxminən aşağıdakılardan ibarətdir *: qapıçı, qarovulçu, qazantəmizləyən, burucu, qatıqçı, atıcı, paltaryuyan, suvaqçı, neftçıxaran, tarçı, qılıncoynadan, xəmiryoğuran,tikişçi* və .s.

2) *Alınma ixtisas adları*. Azərbaycan dilində çoxlu alınma ixtisas adları vardır : *suflyor, stenoqrafçı, radist, kasssir, nevropotoloq, pedaqoq, sosioloq, jurnalist, laborant, geoloq, korrektor, metallurq* və.s

Alınma ixtisas adları çox zəngin və mürəkkəb qurluşa malikdir. Onların icərisində Azərbaycan sözdüzəldici şəkilçiləri qəbul edən ixtisas adları da çoxdur. Ərəb, fars və rus dillərinə məxsus ixtisas adları dilimizə əsasən, birbaşa daxil olmuşdur. Alman, fransız, ingilis, latın, italyan və başqa Qərbi Avropa dillərinə məxsus ixtisas adları rus dili vasitəsilə keçmiş və vətəndaşlıq hüquq qazanmışdır.(5-p.188)

Alınma ixtisas adlarını və onların müxtəlif dillərə məxsus şəkilçilərə işlənməsini nəzərə alaraq aşağıdakı kimi qruplaşmaq olar :

1) Ərəb və fars dillərindən alınan ixtisas adları

2) Rus dilindən və rus dili vasitəsilə başqa dillərdən alınan ixtisas adları .

Məlumdur ki, böyük və kiçik xalqlara mənsub olmasından asılı olmayaraq heç bir dil zorla başqa bir dilə söz qəbul etdirə bilməz. Xalqlar arasında mədəni, iqtisadi, və elmi - texniki əlaqələrin yaranması bir dildən başqa diləsöz və terminlərin keçməsinə obyektiv şərait yaradır.

Nitqin yaranması və tədricən inkişafı ilə əlaqədar olaraq xüsusi adların yaranması zərurəti meydana çıxmışdır. Xüsusi adlar xalqın tarixini, milli adət-ənənələrini, dünya görüşünü, həyat tərizini və s. izah edir, aydınlaşdırır.a)Şəxs adları, soyadları, təxəllüs və ləqəblər; b)Coğrafi adlar

c)Səma cisimlərinə verilən adlar; d)Qəzet və jurnallara verilən adlar;e)Heyvanlara verilən xüsusi adlar.Xüsusi ismləri ümumiləşdirərək belə adlandırmaq olar:İnsan adları-antroponimlər, coğrafi adlar-toponimlər, tayfa və millət adları etnonimlər, çay,dəniz,göl adları-hidronimlər, heyvan adları-zoonimlər. Kosmik adları-kosmonimlər, səcdəgah adları-teonimlər, əşyalara və müəssisələrə verilən adlar-ktermatonimlər,Antroponomika onomastikanın ən geniş yayılmış sahələrindəndir.Antroponomika onomastikanın ən geniş yayılmış sahələrindəndir.

Antroponomiya-yunan mənşəli olub-anthropos (insan.adam, şəxs) və onoma (ad) sözlərindən ibarətdir. Antroponomiya insan adlarını öyrənən sahədir.Azərbaycan dilçiliyində bu termin insan adları (Xurman, Sevda,Elşad, Samir və s.) ingilis dilində isə “Personal names” (Tom, Elizabeht, Hamlet Laura və s.) kimi ifadə olunur. Antroponimlər ünsiyyətlə bağlı meydana gəlmişdir. Qədim latınlar insanın adını özünə bərabər tutmuş “ Homen nomen” demişlər. Ada belə bir münasibə elə bizim də bir sıra xalq ifadələr təzahür edir: “ İgid ölər, adı qalar”, Adın çıxmaqdansa, canın çıxsamyaxşıdır”, və s. Ad həmişə san, nüfuz, reputasiya hesab olunmuşdur. Tanınmış adama “ adlı-sanlı”, pis əməl edənə isə “ heç adına-sanına yaraşmır” deyilməsi təsadüfi deyildir. Adlar ilk insan qrupları, ailə yaranandan meydana gəlmişdir. Tayfa, nəsil, yaxud ailə içində adamların sayı artdıqca onların fərqləndirmək, fərdləşdirmək lazım gəlirdi. Adlar məhz bu zəruri tələbdən törənmişdir.Tədqqatçı alimlərimizdən A.axundov, A.Qurbanov, M. Adilov, A.Əliyev, Ə.Cavadov və başqaları antroponomikaya aid məqalələr, elmi işlərlə çıxış etmişlər.

Ədəbiyyat:

1) Murphy R.2007.Essential Grammar in Use.Cfmpridge University Press.page 123.
2) Arnold İ.V. The English Word,M., 1986.page 66-72.
3) Azərbaycan terminologiyası problemləri, Bakı , 1988.səh:54-58.
4) Əbdürrəhmanov A.Ə. Peşə-sənət terminlərinin mənşəcə növləri , Azərbaycan terminologyasə problemləri, APİ , Bakı , 1988.səh:156-168.
5) 5)Engilish Lexicology. O.B.Афанасьева, H.H.Морозова, г. Николав, апр. 2003.p.188.
6)И.В.Арнольд: «Лексикология английский языка». Москва, «Высшая школа»,стр:86.
7)Q.Ş.Kazımov: «Azərbaycan dili, Morfologiya» . «Nurlan», Bakı, 2010,стр: 40-42.

П.Мамедзаде

СЕМАНТИЧЕСКИЙ АНАЛИЗ В УНИВЕРСАЛЬНОЙ СИСТЕМЕ АНТРОПОНИМОВ АНГЛИЙСКОГО И АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКОВ И ПОЛОЖЕНИЕ ЛИЧНЫХ И НАИМЕНОВАНИЙ СПЕЦИАЛЬНОСТЕЙ

РЕЗЮМЕ

Статья “Исследование наименований специальностей в английском и азербайджанском языке и их виды по происхождению “ посвящена исследование наименований специальностей в английском и азербайджанском языке. Наименования специальностей и их происхождение являются объектом многочисленных исследований ряда ученых-языковедов, сохранивших свою актуальность в современном языкознании.

Особое внимание в статье уделено истории и особенностям формирования и сравнительному анализу видов наименований специальностей по их происхождению .

Проведена исследовательская работа , охватывающая широкий спектр вопросов , от истории происхождения наименований до их всевозможных классификаций и типологий .

В статье приведены конкретные случаи заимствований таких слов в азербайджанский и английский язык из других языков , и дана современная видовая структура специальных наименований по их происхождению.

Формулировка английской антропономии вызвана обычаями культурной, системой языка и политика социологический связи Британских наций. Английская антропономия имеет отличительные и схожие черты с так называемыми других нации. Все эти черты появились в течении нескольких десятилетий и различных исторических событий.

Статья посвящена традициям наименования в Английской и Азербайджанской нациях. Традиции наименования в Английской и Азербайджанской нациях совпадают-обе ассоциирующиеся с красотой доверием родителей Эта статья посвящается схематическим свойствам проресмонотьных аффиксов.Аффиксы являются частью мксикороим, а также изучает образование слов определенного языка.

Этого аффиксами являются er, or, eer, ist которые не имеют определенного значения в отдельности, но являются основной частью слова.Корен это част слова, которое содержит в себе мксическое слова. Продуктивиш аффиксы во вы периоды языка не теряют актулаьност. В результате, можно сделать вывод из статьи, что появление новых терминов параллельно с развитие общества стоит неминуемым. И это, в свою очередь будет исследоваться и изучаться со стороны ученых.

Ключевые слова: универсальные единицы, антропонимы, системы,семантика.

. **F.Mamedzade**

SEMANTIC ANALYSIS IN THE ANTHROPONYM UNIVERSAL SYSTEM IN ENGLISH AND AZERBAIJANI LANGUAGES AND THE POSITION OF PERSONAL NAMES

SUMMARY

The article "The research of profession names in English and their types of origin" covers the research of profession names in English and Azerbaijani languages .

Names of profession and their origins have been the subject of numerous studies of many scientists – linguists and still have retained their relevance in modern linguistics. Particular attention is paid to the history and characteristics of the formation and comparative analysis of specialty according to their origins .

The article demonstrates research covering a wide range of issues , from the history of the origin of their names to the various classifications and typologies .

The paper presents case studies of borrowing such words in Azerbaijani and English from other languages, and given the structure of the modern spics of special items according to their origins.

The article deals wit naming traditions of English and Azerbaijani nations. Naming traditions of English and Azerbaijani nations coincide-both of them include words that resemble beauty, happiness and parents beliefs.The article is devoted to the semantic structure of forming professional affexes. It is the Branch of lexicology that studies the structure of existing words and the patting on which a language builds new words.

There were Mentinod er, or, eer tzat these affixes don′t acun as free form but only constituents of words.Thef prossess meanings their own. The root is the morfheme that exprexes the lexicol meaning of the word.

Key words: totems, units, systems ,antroponims, semantic universal

Redaksiyaya daxil olma tarixi: 13.01.2021
Çapa qəbul olunma tarixi: 03.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru,dosent Yusif Süleymanov
capa tovsiyə etmişdir.

SEVİNC HÜSEYNOVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər Kafedrasının baş müəllimi
İstiqlaliyyat pr.5
sevinguseynova@gmail.ru

INGILIS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FONETİK HADİSƏLƏRİN FƏRQLİ VƏ OXŞAR XÜSUSİYYƏTLƏRİ,RABİTƏLİ NİTQİN BƏZİ AMİLLƏRİ

XÜLASƏ

Hər dilin özünəməxsus fonetik quruluşu, başqa sözlə, səs tərkibi vardır. Məhz buna görə də hər-hansı bir xarici dili öyrənmək üçün həmin dilin fonemlərini də mükəmməl bilmək lazımdır.

İngilis dili mütəxəssislərindən Q.P.Torsuyev diqqəti səs quruluşunun və tipik tələffüz normalarının mənimsənilməsinin zəruri olduğuna cəlb edir və haqlı olaraq yazır: "Şagirdlərdə düzgün tələffüzün müəyyən eşitmə obrazlarını, vərdişlərini yaratmaq lazımdır. Çünki dili öz səs cildindən kənarda təsəvvür etmək mümkün deyil. Bu vəzifə yalnız öyrənilən dilin ana dili ilə müqayisəsi ilə həll edilə bilər. Ana dilinin və xarici dilin müqayisəli fonetikası belə bir təlimə baza verir".

Bu cəhətdən hər-hansı bir xarici dili öyrənərkən birinci növbədə ana dilinin səs tərkibini dərindən bilmək lazımdır. Yalnız bu halda xarici dilin fonemlərini tam mənası ilə öyrənmək mümkündür.

Qeyd etmək lazımdır ki, müxtəlif dillərin səs tərkibləri arasındakı fərq də müxtəlifdir. Məsələn, rus və yaxud fars dilinin səsləri Azərbaycan dilinin səslərindən o qədər də fərqlənmir. Buna görə də bu dillərin səslərini öyrənmək o qədər də çətin deyil. Lakin elə dillər də vardır ki, onların səs tərkibi Azərbaycan dilinin səs tərkibindən ciddi surətdə fərqlənir. Məsələn, Azərbaycan və ingilis dillərində bir-birinin eyni olan bir dənə də olsun sait və samit yoxdur. Məhz buna görə d bu dillərin səs tərkibinin müqayisəli surətdə öyrənilməsi spesifik mahiyyət kəsb edir.

Belə ki, həmin dillərin danışıq səsləri arasında fizioloji fərq bir çox hallarda Azərbaycan dilində danışanlar üçün vərdiş edilməmiş məxrəc xüsusiyyətləri ilə bağlı olur. Məsələn, Azərbaycan dilində bir dənə də olsun apikal məxrəcli kipləşən, saf samit yoxdur və bu məxrəc, ümumiyyətlər, Azərbaycan dili səslərinə xas deyildir. Bundan başqa, Azərbaycan dilinin nəinki kipləşən saf samitləri içərisində, ümumiyyətlə, bütün samit fonemlər sistemində kakuminal məxrəcli səs mövcud deyil.(1-s.135).

Deməli, Azərbaycan və ingilisi dillərində olan səslərin nəinki müəyyən fizioloji fərqləri, hətta bir çox hallarda bütöv məxrəc fərqləri vardır. Azərbaycan və ingilis dili samitlərini müqayisə edərkən, ayrı-ayrı səslərin fizioloji xüsusiyyətlərini

müəyyənləşdirməklə yanaşı, bir sıra ümumi məsələlər də qeyd edilməlidir. Məsələn, məxrəc (artikulyasiya) və onun növləri (apikal, dorsal, kakuminal) haqqında müəyyən məlumat vermək lazım gəlir. Belə bir şərhin verilməsinin ingilis və Azərbaycan samitləri arasındakı ümumi fərqləri göstərmək üçün də əhəmiyyəti böyükdür.

Açar sözlər:fonetika,İngilis dili,rabitəli nitq,Azərbaycan dili,sonor samitlər.

Azərbaycan dilində samit fonemlərin təsnifi müxtəlif prinsiplər üzrə aparılmışdır. Biz Azərbaycan dilində samit fonemləri aşağıdakı şəkildə təsnif etməyi məqsədə uyğun hesab edirik:

1. Fəal və qeyri-fəal danışıq üzvlərinin iştirakına görə .
2. Əmələ gəlmə üsuluna görə (maneələrin dərəcəsinə görə)
3. Yumşaq danışığın vəziyyətinə görə fəal və qeyri-fəal danışıq üzvlərinin iştirakına görə samitləri aşağıdakı qruplara bölmək olar:

Üçüncü prinsipə, yəni səs tellərinin iştirakına görə Azərb. dili samitləri iki yerə ayrılır:

1. Kar samitlər,2.Cingiltili samitlər.

Kar samitlərə - [k], [k], [p], [c], [t], [ş], [s], [f], [x], [h] səsləri.

Cingiltili samitlərə - [b], [v], [q], [ğ], [d], [z], [j], [y], [g]. [n], [l], [m], [r], [c] daxildir.

Nəhayət, dördüncü prinsipə görə, yəni yumşaq damağın vəziyyətinə görə samitlər iki qrupa bölünür:

1. Ağır samitlər: [p], [b], [f], [v], [q], [d], [s], [z], [ş], [j], [ç], [c], [p], [k], [g], [y], [k].
2. Burun samitləri: [m], [n]

Dilçi xatırladaq ki,müvafiq olaraq təkrar nominasiya qazanmiş xarici sözlərin *ksenonimlər* bu qrup leksemlərin təkrar adlandırma prosesinin özü isə *ksenonominasiya* termini ilə adlandırılır (1-c.3-21).Onu da qeyd edək ki,sonuncu qrup istilahlar (*ksenonim və ksenonominasiya* terminləri),məhz, ingilis dili sahəsindəki araşdirma zəmnində formalaşmişdır. V.V.Kabakçi ingilis linqvokultural mühiti ücün yad olan anlayiş,məfhum və ya hadisələri ifadə edən sözlərin ksenonim (*ksenos* yunanca "yad,özgə" deməkdir) statusunda dəyərləndirməyi təklif etmiştir.İstənilən cəmiyyət tarixi təbəddəlatlarin,etinik konfilikt və gərgin-liklərin,klerikal-konfessional qarşılaşdırmalarin təsir izlerinden xali deyil.bu menada frazeoloji sistemi "xalqin tərcümeyi-halı",həmin dilin daşıyıcısı olan etnosun "medeniyyət aynası" olaraq nəzərdən keçirən A.Dandesin movqeyilə razılaşmamaq mümkün deyil .Dilin,xüsusilə də onun nominasiya sistemlərindəki dəyişmələrin cəmiyyət həyatındaki dəyişikliklərlə düz mütanasiblik nümayiş etdirməsi linqvokulturoloji araştırmaların tarix,etnoqrafia ,sosiologiya,sosial pisxologia və.s. bu kimi əlaqəli elm sahələri ilə kəsişməsini labud edir. Məhz,həmin fənlər arası əlaqələndirmə ingilis fizilologiyasinda ,konkret desək,ingilis dilinin amerikan variantında yer alan bəzi etonim kompanentli frazeologizimlərdə ksenomativasiyanın səbəblərinə aydılıq qazandırmağa kömək edə bilər

Açar sözlər: İngilis dili, ABŞ variantı,irazeologiya, ksenomotivasiya, holland-Hollandiya

Yad mədəniyyətə aid fərd,özgə dövlətə aid vətəndaş və ya fərqli etnos nümayəndəsinin obrazı ilə bağlı konseptin linqvokoqnitiv aspektlərini araşdırmış O.Maruneviç digər xalqların adlarının müəyyən qəlib-obrazlar şəklində təqdimatının,özü də bir çox halda neqativ planlı taqdimatının kökündə həmin dil daşıyıcılarının tarixi yaddaşının həlledici rol oynadığını qeyd etmişdir.

Dilçi onu da bildirmişdir ki, digər etnosların adlannın takrar nominasiya vahidi kimi dəyərləndirməsi Qərb sosiolinqvistikasında 1944-cü ildə A.A.Robak tərəfindən təklif edilən *etnofotizm* ***(ethnophaulism)*** va E.Eriksonun irəli sürdüyü ***ektronim*** (***ecthronym***) terminləri altında nəzərdən keçirilir.(2-p.123-128) İngilis dilinin amerikan variantının frazeoloji sisteminde qaşılaşdırdığımız etnonim komponenlər də bir çox halda ilkin nominasiya vahidi kimi deyil, müəyyən sterotip va öngörüşlərdən qaynaqlanaraq meydana çıxmış obrazlar sisterni" kimi "fəəlyyət göstərir. Yəni, bu frazeoioji sistemdə yer alan ***Dutch, İrish, İndian*** Və s. bu kimi komponentlər əksər hallarda formalaşmış obrazlar sisteminin təzahürüdür. Müqayisə üçün deyək ki, *"küçə uşağı,veyil*, *küçədo qalmış*" mənalarını əks etdirən ***the arab of the gutter*** fazeologizmindəki ***arabian*** leksik vahidi etnofolizm kimi meydana çıxdığı halda,"*Feniks","Simurq quşu"* anlamını ifada edan ***The arabian bird*** farzeologizmin də eyni etnonimin neytral mənə tutumuna malik olduğunu görürük.

Onu da qeyd edək ki, ekspessiv etnonimləri araşdırmış A.i.Qriqenkonun da bildirdiyi kimi, ***etnofolizmlər*** bir çox halda "etnik, irqi və konfessional dözüm-süzlüyün və ya digər xalqlara qarşı mənfı çalarlı öngörünüşün verbal simvolu və ştampları" kimi dəyərləndirilməkdədir . Bununla belə təəssüflə mövcud reallığı etirəf etmək lazımdır ki, Y.Dovqopoliyin da tam haqli olaraq qeyd etdiyi kimi, "digər etnoslara emossional-ekspreressiv qiymətləndirməli ləqəblərin verilməsi ənənəsi istisnasız olaraq bütün dillərə xas olan bir universal xüsüsiyyətdir".İngilis dilinin ABŞ variantında yer alan etnonim komponentli frazeoloji vahidlər arasında etnofolizm movqeyində çıxış edən DUTCH leksik vahidin iştiraki ilə formalaşmış frazeologizmlər xüsüsilə diqqəti cəlb edir. Məlumdur ki, ***double Dutch*** "*manasız, boş söhbot, çərənçilik"*, ***Dutch comfort*** *"zəif təsəlli"*, ***The Dutch have taken Holland!*** *"Amerikanı kəşf elədi" (kinayə ilə*) (hərfən: *Holland Niderlandı kəşf elədi!)*, ***old Dutch*** *"həyat yoldaşı (qadın), qarı"*, ***to talk like a Dutch uncle*** *—"ata kimi öyüd nəsihət vermək, tənbeheləmək" (*hərfən: *Holland əmi kimi danışmaq)* ***Dutch bargain***

1)"içki ilə müşayət edilən sövdələşmə(iqtisadi saziş)"(hərfən: *Holland razılaşması,*

Hollandsayağı sövdələşmə)

2) *"ancaq bir tərəf üçün sərfəli olan iqtisadi saziş, sövdələşmə"*, ***Dutch wife*** *"yüngul həyat tərzi keçirən qadin, əxlaqsiz"*,***Dutch auction*** *"qiymətin artırılmasına deyil salınmasına əsaslanana auksion"****I'm a Dutchman if-*** *"Lənət olsun mənə, əgər ki man...."* (hərfən: *Holland olum, əgər mən...)*, ***Dutch blessing "danlaq", Dutch answer*** (Sualin konkret cavab əvəzinə mənasız replika ilə cavablandırılması.

Məs: What are your plans for tonight?" "I plan to breathe." "WelTthat's a useless Dutch answer!" ifadalari ümumingilis xarakteri kəsb edir.

Amerikan variantında yüksak işlənmə tezliyi ila seçilən frazeologizmlər arasında metaforik anlamda "sui-qəsd", "suisid" anlamını ifadə edən the *Dutch act* "*Holland hərəkəti", **the Dutch cure** "Holland müalicosi (əlaçı)", **the Dutch way** "Holland yolu"* frazeoloji vahidlərini də qeyd edirlər.

Lakin "*çətin, xoşagəlməyən vəziyyətə düşmək, gözüm-çıxdıya məruz qalmaq*" anlamını ***in Dutch*** frazeoloji vahidi A.V.Kunin bildirdiyinə görə, ilkin olaraq, ABŞ linqvokultural mühitində formalaşmışdır [3 ;232]. Məs.: *The boy who broke that the window was **in Dutch** with his father*. Məlumdur ki, hollandlar müasir ABŞ *əhalisinin* yalnız *1,5* faizini (taxminən 4,5 milyon əhəli) təşkil etsələr də, "Yeni Qitə"ni "ram edən" köçmənlər arasında bu etnosun nümayandələrinin say nisbati dəfələrlə artiq idi. Belə ki, tarixi sənədlər ABŞ-in ilk kolonistləri arasında ingilis, irland, alman kalonialistləri ilə yanaşı Holland əsilli köçmənlarin də çoxsaylılığı ilə seçildiyini ortaya qoyur. ABŞ-ın sürətli templi industriallaşması XIX əsrin əvvəllərinə qədər anklav şərəitində mövcud olan şotland, uels icmalari kimi, Holland icmasmın da dağılaraq ölkaə coğrafıyası boyunca yayılmasına səbəb olmuşdur. Lakin hamin icma fardlarinin polietnik va multikultural Amerika camiyyatinda, bir növ, assimilyasiyaya uğrayaraq aparıcı movqelardan çakilmasina baxmayaraq, qəliblaşmiş stereotiplar eyni etnonim komponentina malik frazeologizmin meydana gəlməsini qaçınılmaz etmişdir.

Maraqlıdir ki, bu etnosun Amerika cəmiyyətindəki faiz nisbatinin azalmasma baxmayaraq, bu fakt ingilis dilinin ABŞ variantında DUTCH komponentli ifadələrin azalmasına rəvac verməmişdir. T.I.Skoroboqatova və T.A.Şkuratova ingilis dilində **DUTCH** komponentli frazeoloji vahidlərin digər etnonim komponentli frazeologizmlərdən sayca üstün olduğunu və aşkar ifadə tapan mənfı konnotasiya iləseçildiyini önə sürmüşlər. Dilçilər belə vaziyyətin ingilis-Holland müharibələri ilə alaqədar olaraq meydana gəldiyini və hatta, həmin zaman tarixində istanilən neqativ hadisə və ya əşyanın DUTCH sifəti ilə müşayət edildiyini qeyd etmişlər DUTCH komponentli frazeoloji vahidlərin çoxsaylılığı və mütləq əksəriyyətində qəti neqativ semantika aks etdirməsi faktı müqayisəlı araşdırma aparmış bir çox dilçilərdə "qaraçı" etnofolizmi ilə paralelliyə sövq etmişdir.

Belə ki, rus ya fransız dillərinin frazeoloji sistemləri ilə müqayisədən çıxış edən V.A.Melnuçuk French, Turk etnonim komponentlərinin də mənfî çalar ifadə edə bildiyi halda, onların neqativlik assosiasiyası **DUTH** etnofolizmindən geri qaldığını, sonuncunun məhz, "qaraçı" etnofolizmi ilə bərabər tutula bildiyini xüsusilə vurğulamışdır. Xatirladaq ki, ingilis və Holland cəmiyyətlənin maünasibətləri 1781-1784-cü illərdə baş vermiş müharibələrə zəminində özünün ən pik gərginlik noqtəsinə çatmışdır.

Sözsüz ki,belə münasibətlər ingilis dilinin frazeoloji sisteminə təsirsiz ötüşə bilməzdi. İngilis dilinin leksik-semantik "faza"sında etnonimlərin konnatasiya

törəmə özəlliklərinə diqqət çakmiş D.A.Şen də DUTCH etnonim komponentinin mənfi kormotasiyiya malik olduğunu qeyd etmiş və *Dutch bargain, Dutch courage* ifadasinin hollandlarla əlaqələndirilən əhli-keflik, *Dutch concert, Dutch feast* frazeologizmlərinin isə tərbiyəsizlik, həbelə *Dutch treat/lunch/supper, Dutch rise* frazeoloji vahidləri-nin isə bu etnosa şamil edilən eqoizm kimi xüsusiyyətlərlə bağlı olduğunu önə sürmüşdür.Obyektivlik naminə onu də qeyd edək ki, belə münasibəti tənqid edən Holland müəlliflər əslində belə təkəbbüflü yanaşmanın qeyd edilən ingilis-Holland mühəribələrindən çox öncələr də müşahidə edildiyini iddia edirlər.

Konkret olaraq, P.Duqlas U.Şekspirin 1597-ci ildə qələmə aldığı "Merry Wives of Windsor" pyesində, ***"****And in the height of this bath, when I was more than half stewed in grease, like a Dutch dish, to be thrown into the Thames..."* (W. Shakespeare "The Merry Wives of Windsor").Habelə 1596-cı ildə anonim rnüəllif tərəfindən yazılimış "III Edvard" tarixi pyesində də analoji münasibətin ifadə tapdığnı qeyd edir. Lakin ən maraqlı məqam ondan ibarətdir ki, həmin tarixi hadisələrin üzərindən əsrlər ötməsinə baxmayaraq, ingilis dilinin ABŞ variantında hələ də DUTCH komponentli yeni-yeni ifadələr meydana gəlməkdə dəavam etmişdir.

Konkret olaraq, McGraw-Hill lüğətində ***(Dictionary of American Idioms and Phrasal Verbs)*** amerikanizm-frazeologizm olaraq qeyd edilən ***Dutch treat*** ifadasinin həmin müharibələrin başlangıc dövründən iki əsr sonra təxminən 1887-ci İldə özüdə də tam farqli coğrafiyada - ABŞ-da işlənməyə başlamışdır.

"Hərə öz hesabını ödədiyi qonaqlıq" anlamım ifadə edən həmin frazcologizm müasir ingilis dilinin ABŞ variantında bu gün də öz işləkliyini sürdürməkdədir. Onu da qeyd edək ki, Dutch treat ifadasinin ilkin olaraq, məhz, amerikanizm kimi meydana gəlməsi fikrinə A.V.Kunin lüğatində də rast gəlmək olar

*Dutch Treat**:** The Netherlands Sinks Spain In World Cup*
A Dutch treat: randomized controlled experimentation and the case ofheroin-maintenance in the Netherlands "Dutch Treats: The Lessons the U.S. Can Learn From How the Netherlands Protects Lesbians and Gays".

Yeni qitədə maskunlaşmış ingilisdilli əhalinin Hollandlara qarşı öngörüşünün altşüur səviyyasinəa keçməsini dolayısı ilə o də təstiqləyə bilər ki... də qeyd etdiyi kimi Amerikan variantının leksik-semantik və; frazeoloji sistemindəki DUTGH etnonimi bir çox halda "Holland" mənasında deyil, "alman" mənasında işlədilməkdədir.

P.Duqlas ABŞ mənbələrində hələ 1873-cü ildə bu neqativ konnotasiyanın ingilis dilli köçmənlərlə gərgin münasibətlərinə malik olan alman mühacirlari ilə bağlı, daha daqiq olsaq, "alman" (Deutsch) etnonimi ilə qarşılığından "bəhrələnə biləcəyinə" diqqət çakildiyini qeyd edir (4-c.944). Bu mənada konkret olaraq Dutch Treats frazeologizminin digər dillərdəki analoqlarında məhz, "alman"inin çıxış etməsi tam anlaşılan görünür.Müqayisə edək: Dutch Treats və неменцский счёт (50-50 yə). Amerikanizm-frazeologizmlərdəkis Dutch ifadəsinin, əslində həm də alman

etnosuna şamilən yaranan ksenomotivləndirməni təcassüm etdirməsi ABŞ ahalisinin ingilis-Holland müharibəsinin ağır emossional yükündən kanarlaşmasını da dolayısı ilə sübut edir.

Əks halda amerikanizmlərdə "Holland - alman" semantik kontominasjyası mümkün olmazdı. Müqayisə üçün deyək ki, ksenomotivasiyada pozitiv, neqativ və neytral anlamların bir-birini əvəz etməsi və ya az vaə ya çox dərəcədə dəyişikliyə uğraması tendensiyası universal səciyyə daşıyan hadisədir.

Belə ki, analoji tendensiyanı rus dilində izləyən Maruneviç II Dünya münasibətindən sonra alman etnosunun rus linqvokulturoloji mühitində aksər hallarda qəti neqativ şakildə dəyərləndirildiyi halda, *(Немец хитер: обезьяну выбумал;Хитра лиса ,хитрее лисы –немец,Немец,что верба:куда не ткни,тут и принялся,Робм не немцин,а указивать горазб,Немец с шумом идет,русский стеткой берет;Что русскому здорово,то немчу семерть* va s*)*.həmin müharibədən çox öncələr, təxminən XVIII-XIX əsrlərdə alınanlara daha pozitiv yanaşmanın mövcud olduğuna diqqət çəkmişdir.DUTCH etnoniminin konnatasiya imkanlarını araşdırmış Y.A.Qolubovska-ya da bu semantik differensiallaşmanın digər aspektinə diqqət yetirir. Dilçi, ingilis (dilinin frazeoloji sistemindəki DUTCH komponentinin; 1) Hollandlılara aid; 2) Hollandlılara aid olmayan neqativ konnotasiya nümaiş etdirdiyini və müasir ingilis dilində hələ də mənfı anlamda işlədilən DUTCH etnofolizminin əslində etnonimlə bağlılığını demək olar ki, itirdiyini qeyd etmişdir.

Y.A.Qolubovskaya müasir ingilis dilli müəlliflərin DUTCH komponentli okkozial frazeologizmləri yaradarkən onun etnonim mahiyyətinə varmadığını önə sürmuşdü[2]. Yəni həmin müəlliflər DUTCH komponentini etnonim kimi deyil, peyorativ leksem kimi nəzərdən keçirərək yeni-yeni fərdi taxəyyül məhsulu olan frazeologizimlər "törəyirlər"Doğurdan da aşağıdaki nümunələrin timsalında DUTCH komponentli amerikanizin frazeologizmlərin ksenofobiya faktı kimi meydana çıxdığını iddia etmak absurd olardı.

She comes on like a rose
And everybody knows
She'll get you in dutch
You can look but you'd better not touch (The Rolling Stones-poison.)

Xatirladaq ki, ***to get you in dutch*** amerikanizm-frazeologizmi ***to be in Dutch,*** yəni *"kiminlə isə problem yaşamaq","çətinliyə düşmək")*frazeologizminin variantıdır.

Ədəbiyyat*:*

1.Березович Е.Л. О явлении лесичсской ксеномотивации // Вопросы языкознания,2006,№6,с.3-21.
2.Dutch bargain // Англо-русский словарь экономических терминов.2001

3.Кабакчи,В.В Основы англоязычной культурной коммуникацкии, СПб.РГПУ им.А.И,Герцена,1998.-232 с.
4.Кунин А.В Англо-русскый фразеологический словар, М.:»Русскый яазык»,1984;944 с.

С.Багирова

ФРАЗЕОЛОГИЯ В АМЕРИКАНСКОЙ ВЕРСИИ АНГЛИЙСКОГО ЯЗЫКА О ЛЕКСИЧЕСКИХ, СЕМАНТИЧЕСКИХ И МОРФОЛОГИЧЕСКИХ ОСОБЕННОСТЯХ

РЕЗЮМЕ

В статье исследуются фразеологические единицы с компонентом DUTCH, имеющие место американском варианте английского языка. При сопоставительном исследовании данного рода фактов становится известно что, некоторые фразеологизмы с компонентом DUTCH являются британским «наследием». Исследования выявили тот факт что, в корне предвзято-пренебрежительного отношения англоязычного населения лежит многолетние англо-голландские войны. Но со временем в американском варианте английского языка компонент DUTCH утратил свою первоначальную связь с этнонимом и в какой-то мере превратился некий пейоратив.

В статье рассматриваются семантические особенности региональных вариантов английского языка. Специально австралийская версии. Анализ слов проводится на основании интересные примеры и их семантические особенности подчеркнул он.В настоящей статье рассматриваются факторы, обуславливающие отделение американского варианта от британского варианта английского языка. Автор выделяет внешнелингвистические факторы, к котором относятся территориальная отдаленность и социально-политическая самостоятельность, которые характерны для современной Америки и внутриязыковые факторы, которые наблюдаются во всех уровнях системы языка.Более трех веков американский словарь полностью или частично эволюционировал от английского (английского) словарного запаса и оказал большое влияние на развитие этого слова. Предполагалось, что большинство слов было взято из родного индусского языка. Но все слова, включенные в «американизм», не были бы прав, если бы они были выведены из индийского языка.

Ключевые слова: Американский вариант английского языка,фразеология,ксеномотивациа,голландски

S.Baguirova

FRAZEOLOGISM IN THE AMERICAN VERSION OF ENGLISHABOUT LEXICAL, SEMANTIC AND MORPHOLOGICAL FEATURES

SUMMARY

The article investigates the phraseological units with component DUTCH, taking place in American English. Typological study of this kind of facts clarifies that some phraseological units with component DUTCH are of British "heritage". Studies have revealed the fact that, fiındamentally biased neglect toward English- speaking populalion is long-standing Anglo-Dutch War. But over time, component DUTCH lost its original connection with the ethnonym in American English and to some extent become a peyorative (negative sense).The article deals with semantic features of the regional variants of the English language.Specially Australian version. Analysis of words are held on the bases of interesting examples and their semantic features are stressed. This article deals with the faktors which differ the American variant from the British English. The author throws light on the extralinguistic factors which refet to the teritorial remoteness and socio-political independence characteristic for the modern America and the intralinguistic factors which are observed in all levels of the language system. Over three centuries, the American vocabulary has evolved entirely or partially from the British (English) word stock and has created a great impact on the development of this word stock. It was supposed that most words were taken from the native Hindu language. But all the words included in “Americanism’ would not be right to say to have been taken out of the Indian language. There are words that these are the terms used to call the American lifestyle and items. It would be a mistake to call it “Americanism” immediately, unless the structure or meaning of any word resembles the British one. In this case, those who could not overcome wastefulness fought in certain situations against the word “Americanism”. However, artificial means and methods could not prevent the natural development of language.

Key words: American English, phraseology, xenomotivation, Dutch-the Netherlands

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: Pedağoji elmlər namizədi,dosent Axundzadə Natella capa tovsiyə etmişdir.

ALLAHVERDİYEVA QƏNİRƏ
MURADOVA MEHRİBAN
Azərbaycan Texniki Universiteti
H.Cavid pr.25
Xarici Dillər kafedrasının baş müəllimləri
qənirəmehriban@com.ru

QLOBALLAŞAN DÜNYADA İNGİLİS DİLİNİN AZƏRBAYCANDA ÖYRƏNİLMƏSİ VƏ ÖYRƏDİLMƏSİ MƏSƏLƏLƏRİ

XÜLASƏ

Dövlətlər və xalqlar arasındakı qarşılıqlı əlaqələri daha da dərinləşdirən və genişləndirən qlobal proseslər, praktiki olaraq insan fəaliyyətinin bütün sahələrinə təsir edir. "Qlobal dil " terminini dilçiliyə ilk dəfə görkəmli ingilis linqvisti Devid statusunu alması üçün onun bir çox ölkələrdə aparıcı, hakim mövqedə olması vacib şərtdir.

Daha sonra Devid Kristal bu statusu əldə etməyin üç yolunu və ya dilin qloballaşması üçün vacib olan üç müxtəlif funksiyanı göstərir. Birincisi, bir çox ölkələrin dövlət dili olmaq funksiyasıdır. Yəni, hər hansı bir dil "qlobal dil" statusunu əldə etmək üçün eyni zamanda bir neçə ölkənin ya əsas dövlət dili, ya da ikinci dövlət dili olmalıdır. İkincisi, bir çox ölkələrdə dil rəsmi status əldə edərək dövlət qurumlarında, hüquqi sistemlərdə, reklamlarda, kütləvi informasiya vasitələrində, təhsil sistemində geniş şəkildə yayılır.(səh:123-128)

Bu halda dil ikinci dövlət dili səviyyəsinə yüksəlir. Bəzən onun tədrisi hətta ana dili ilə bərabər ibtidai siniflərdən başlanır. Bu zaman xarici dil həmin dövlətdə yeganə rəsmi dil və ya yarımrəsmi dil ola bilər. Dilin qloballaşmasının üçüncü mərhələsi isə dövlətin təhsil siyasəti ilə bağlıdır. Belə ki, dilin heç bir rəsmi status almamasına baxmayaraq, o həmin ölkədə xarici dil tədrisində üstün mövqeyə malik olur.

Açar sözlər: qloballaşma, İngilis dili, öyrənmə, status, funksiya, dilçilik, dünya

Belə qloballaşma prosesi ingilis dilinin istifadəsində və statusunda dəyişiliklərlə nəticələnir. İngilis dili dünyada ən çox maraq göstərilən dillərdən biridir. Hazırda ingilis dili demək olar ki, bütün ölkələrdə milyonlarla insan tərəfindən danışılır və müxtəlif məqsədlərlə istifadə edilir. Ümumi ingilis dilinin öyrədilməsi proqramı demək olar ki, son dörd onillik ərzində universitetlərdə müxtəlif sahələr üzrə tədris olunub. Ümumi məqsədlərlə ingillis dilinin öyrədilməsinin tədris proqramına xarici dildə ümumi bilik və bacarıqlarının öyrədilməsi, dil səviyyəsinin artırılması kimi məsələlər daxildir. Halbuki ingilis dilinin profesional cəhətdən öyrədilməsi hesab olunan ingilis dilinin xüsusi

məqsədlərlə öyrədilməsi sahəsi ümumi məzmunlu deyildir. İndi artıq bir çox universitet məzunları öz ixtisaslarını bilməklə yanaşı, həmin bilikləri xarici dillərdə, xüsusilə ingilis dilində elmi cəhətdən izah etməyi bacarmalıdırlar.

Bəzi səbəblərə görə məzunların bir hissəsi xarici dili peşəyə aid və yaxud peşəyönümlü tapşırıqlara lazımı şəkildə tədbiq edə bilmirlər. Bu da, əlbəttə, peşələrə uyğun ünsiyyət bacarıqlarının tədbiqində uğursuzluğa səbəb olur. Bu sahəni araşdıran metodistlər xüsusi məqsədləri əsas götürərək ingilis dilini peşəyönümlü məqsədlərdə tələbələrin istifadə etməsi üçün peşələrə aid xüsusi proqram hazırlamaq qərarına gəldilər.(səh:66-69)

Son vaxtlar xarici dilin tədrisi metodikasında çox böyük yeniliklər əldə edilmiş və şagirdlərin xarici dilə davamlı yüksək marağı təlim prosesinə də təsir etmişdir. Avropa standartlarına inteqrasiya edərək ingilis dilinin tədrisi zəngin və maraqlı resursların istifadəsinə yer vermişdir.

Bu gün ingilis dilinin tədrisində fənn krikulumlarına istinad edərək məzmun standartlarının, strategiyaların tətbiqi, yeni metodların istifadəsi onun mənimsənilməsidə ən uğurlu vasitədir. Hər bir inkişaf etmiş ölkədə olduğu kimi, Azərbaycanda da elm və təhsil prioritet sahə hesab olunur.

Respublikamızda elm və təhsilə, xüsusilə xarici dillərin öyrənilməsinə böyük diqqət və qayğı göstərilir. Universitetlərdə də xarici dillərin tədrisinə xüsusi diqqət və qayğı ilə yanaşılır.

Dünyada mövcud olan bir neçə əsas dil var ki, onlardan biri də ingilis dilidir. Yaşadığımız zamanda hər hansı bir iş üçün müraciət etdikdə ingilis dili tələb olunur. Bu da onun beynəlxalq əhəmiyyətli dil olduğundan irəli gəlir. Bir araşdırmada göstərilir ki, Benjamin Franklin xviii əsrdə ingilis dilində drunk(sərxoş) sozünə 200-ə yaxın sinonim tapmışdır. Bu dildə təxminən 500 min söz ehtiyatı vardır və BMT- nin altı əsas dilindən biridir.

Hal –hazirda dünyada xeyli insan ingiliscə danışır.İngilis dili beynəlxalq dil olduğundan onun öyrənilməsinə tələbat həddindən artıq çoxalmışdır. Təkcə, ingilis dili ixtisasında oxuyanlar deyil, həmçinin müxtəlif peşə sahibləri də bu dili öyrənməyə can atırlar.

Bu baxımdan Azərbaycanda ingilis dili öyrənmək arzusunda olanlar həddindən artıq coxdur. Bundan başqa, xaricdə oxumaq üçün əsas tələblərdən biri də ingilis dilini bilməkdir. Bu günə kimi xaricdə 10 mindən çox Azərbaycanlı tələbə təhsil alır.Belə ki, xaricdə oxumaq istəyənlər ilk öncə ingilis dilini öyrənməlidirlər. Qloballaşan dünyada getdikcə ingilis dilinə ehtiyac daha da çoxalır.Hətta bəzi ölkələr var ki, ingilis dilini dövlət dili kimi də qəbul etmişdir.Bu kimi ölkələrə İngiltərə və ABŞ-dan başqa Kanada,Avstraliya, Yeni Zelandiya kimi ölkələri nümunə göstərmək olar.

Hal-hazırda gənclər də başa düşürlər ki, ingilis dilini bilmədən ölkədən kənara çıxmaq olmaz və yaxud da dünya görüşünü inkişaf etdirmək olmaz. İngilis dilini bilməklə uğura aparan yola açar əldə etmiş olursan. Yəni bugünkü zamanda

uğur əldə etmək, dünya görüşünü inkişaf etdirmək, müasir dünya yeniliklərindən məlumatlı olmaq istəyirsənsə, ingilis dilini mütləq öyrənmək lazımdır. İngilis dilli ölkələrin insanları çox xoşbəxtdir ki, onların ana dili olan ingilis dili bütün dünyada keçərlidir.

Amma ingilis dili olmayan ölkələrdə də bu dili öyrənmək gərəkdir.Bu ölkələrdən biri də Azərbaycandır. Azərbaycan 1991-ci ilə kimi Sovet Sosialist Respublikasının tərkibində olduğundan bu ölkədə rus dili əsas dil kimi istifadə olunmuş və insanların əksəriyyəti rus dilini öyrənmişdir.

Müstəqil Azərbaycanın beynəlxalq münasibətlərinin genişlənib möhkəmləndiyi bir dövrdə xarici dillərə olan tələbat zərurətə çevrilmişdir. Bu səbəbdən də təhsil sistemində xarici dil tədrisinə xüsusi əhəmiyyət verilir. Bu baxımdan da 1999-2000-ci illərdə Azərbaycan Respublikasında xarici dil tədrisilə əlaqədar Təhsil İslahatı proqramı həyata keçirildi.

Bu proqram öz qarşısına xarici dil təliminin həyatla əlaqəsini möhkəmləndirmək, onun praktik istiqamətini gücləndirmək məqsədini qoymuşdur.

Yuxarıda qeyd etdiyimiz kimi xarici dillərin içində ingilis dili ən geniş yayılmış dillərdən biridir. 1960-cı illərdən başlayaraq Ümumi İngilis dili dilinin öyrədilməsi tələbələrin və ya sahibkarların tələblərini ödəmədiyi üçün İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi anlayışının yaranmasına gətirib çıxardı. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi ingilis dilinin xüsusi sahələrdə istifadəsi üçün tədris edilməsi və öyrənilməsidir.(

Müasir dünyada ingilis dilinin rolu istər işgüzar aləmdə, istər ünsiyyət vasitəsi kimi danılmazdır. Günümüzdə ingilis dilində mükəmməl danışmaq heç kimi təəccübləndirmir. Çünki bu artıq zərurətdir.

Azərbaycanda inkişaf və tərəqqi göz qabağındadır. Ölkəmiz xarici dövlətlərlə müxtəlif sahələrdə əməkdaşlıq edir, dünya səviyyəli yarış və müsabiqələrə ev sahibliyi edir, ölkəmizdə tədris dili xarici dil olan məktəblər fəaliyyət göstərir, məktəblərimizin məzunları xarici ölkələrdə təhsil alırlar.

Bütün bunlar ölkəmizdə xarici dil və ya dillərin öyrənilməsinin əhəmiyyətini göstərir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi dilin müxtəlif ixtisas sahələrinə təsiri nəticəsində meydana gələn yeni il tədrisidir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi proqramı həmçinin "Xüsusi Sahələr üçün İngilis dili"də adlanır.

Bu proqram müxtəlif ixtisas sahələrinə aid kursları əhatə edir. Bu ixtisaslaşdırılmış dil kurslarına Menecerlər üçün İngilis dili (English Course for Managers), Elmi və Texnoloji İngilis dili (English for Science and Technology), Tibbi İngilis dili (English for Medical Purposes), Hüquqi İngilis dili (English for law), Diplomatik İngilis dili (Diplomatic English), Aviyasiya üçün İngilis dili (Enlish for Aviation), Akademik İngilis dili (English for Academic Purposes), Turizm üçün İngilis dili (English for Tourism), Biznes İngilis dili (Business English),

Beynəlxalq Auditorlar üçün İngilis dili (English Course for İnternational Auditing), İnsan resursları üçün İngilis dili (English Course for Human Resoursces) və s daxildir. İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi həm yeni, həm də aktual sahədir.Müəyyən və ya istənilən dil tədrisindəki kimi İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi də dil təliminin əsas sahələrindən bir hesab olunur.

Lakin İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi sahəsi araşdırıldıqca burada "hansı xüsusi məqsədlər mövcuddur?" , "deyilən xüsusi məqsədlərə uyğun xarici dili necə öyrənmək olar?" , "xarici dildə nəyi öyrənmək lazımdır?" kimi suallar meydana çıxdı.(стр:210)

Bu artıq xarici dil tədrisində fərqli yanaşma idi. Bu yanaşma əksəriyyət tərəfindən maraq göstərilən xüsusi dil tələbatının tərkibini, onun nəzərəçarpan, olduqca vacib xüsusiyyətlərini özündə cəmləyirdi.

Lakin İngilis dilinin ikinci dil kimi öyrədilməsi və İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi yalnız tələbələrin xüsusiyyətlərindən, məqsədlərindən asılı deyil, həmçinin buradakı təlimatların məqsədindən də asılıdır. Bu məqsədlər normalardan kənara çıxa bilər, yəni bu deməkdir ki, bu məqsədlər biri digərindən fərqlənə bilər.

Bu gün dünya sürətlə inkişaf edir, dəyişir və qloballaşır.Bu qloballaşma artıq social həyatın bütün sahələrinə, eləcədə təhsil sahəsinə dərindən nüfuz edib.Təbii ki, qloballaşma şəraitində təlimin məzmun və keyfiyyətində də dəyişikliklər aparılmalıdır.

Müəllim bu gün tədris materiallarının müasir tələblər səviyyəsində mənimsədilməsi üçün yeni pedaqoji texnologiyalardan və metodlardan səmərəli istifadə etməlidir. Bu gün ingilis dilinin tədrisinin ən məşhur üsulları kommunikativ üsul və klassik üsuldur.

Klassik üsul ən çox məktəblər də və universitetlər də istifadə olunur. Bu üsul ingilis dilinin əlifbası ilə fonetika ilə birlikdə öyrənməklə başdan həyata keçirilir. Bura həm dinləmə , oxu ,yazı , həm də danışıq daxildir.Kommunikativ üsul nisbətən yaxınlarda qəbul edilmişdir. Kommunikativ üsul dil baryerini aradan qaldırmaq üçün kömək edir. Bu üsul dəqiq yaxşı nəticələr verir. Son zamanlarda intensiv metod haqqında daha ətraflı və geniş söhbət açılır. Eləcə də bizim Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində də xarici dillərin tədrisinə xüsusi önəm verilir. Bizim tədris etdiyimiz ingilis dili fənni altı semestr ərzində tədris olunur. İlk iki semestrdə ümumi ingilis dili, sonrakı dörd semestrdə onların ixtisasına uyğun hərbi ingilis dili keçirilir. İngilis dilinə mükəmməl yiyələnən zabitlər dillərini daha da təkmilləşdirmək üçün STANAG kurslarına cəlb olunurlar. Sertifikata yiyələnən zabitlər xarici ölkələrdə təşkil olunmuş müxtəlif dil kurslarında iştirak edirlər. (стр:55-63)

Nail olduqları təcrübələri Vətənə qayıtdıqdan sonra digər zabitlərlə bölüşürlər. Məktəbimizdə ingilis dili fənninin tədrisi zamanı məktəbimizin yaratdığı yüksək

şərait nəticəsində keyfiyyətli dərslərə nail olmaq üçün müxtəlif yardımçı üsullardan da istifadə etmək mümkündür.

Siniflərimiz müasir texnolji avadanlıqlarla təchiz olunub, burada müasir tələblərə cavab verən linqafon kabinələri yaradılıb. Bir sözlə, dərsin yüksəkkeyfiyyətli, müasir üslubda keçilə bilməsi üçün bütün şərait yaradılıb. Kompyüterlərlə, müasir proyektorlarla, elektron lövhələrlə və sairə ilə təchiz olunmuş siniflər kütləvi mətbuatdan istifadə , dialoq aparmaq, filmlərə baxış və debatlar keçirməyə imkan yaradır.

Tələbələrdə, xüsusən də ikinci xarici dil öyrədən ali təhsil müəssisələrində təhsil alan təbələrdə mədəniyyətlərarası kommunikativ kompetensiyanın yaranması zəhmət tələb edən məsələdir. Bu fərqli milli dəyərlər sisteminin mənimsənilməsi, ana dili mədəniyyətində formalaşmış professional mühitin qavranılması və dəyərləndirilməsi ilğlı obyektiv mürəkkəblikləizah edilə bilər.

Mədəniyyətlərarası kommunikasiyada çətinliklərə aparan qarşılıqlı anlaşmanın mürəkkəbliyi məhz buradan qaynaqlanır. Beləliklə, tam və dolğun mədəniyyətlərarası dialoq aparmaqüçün tələbələr milli dəyərlər sistemində qaçılmaz üst-üstə düşmələrə hazır olmalı, fərqli mədəniyyətlərin nümayəndələri ilə professional mövzularda birbaşa və ya dolayısı ilə ünsiyyət aparmanın optimal strategiyasını müəyyənləşdirməyi bacarmalıdır.

İngilis dilini öyrənən zaman müxtəlif metodlardan istifadə edilir və keys metodu bu metodlar arasında hazırda ən çox tətbiq olunanıdır.İngilis dilini öyrədən zaman keys metodu işləmək o deməkdir ki, tələbələrə hər hansı birmövzu təqdim edilir və həmin mövzunu araşdırmaq tələb edilir. Tələbələr müəllimin təqdim etdiyi metodun, yəni keysin tələblərinə uyğun olaraq həmin prablemi araşdırır və onun həlli variantlarını təqdim edir. Tədqim olunan problemin fərqli həlli yollarının olması isə tələbələrinmüxtəlif ünsiyyət vərdişlərinin inkişaf etdirilməsinə səbəb olur.

İstinad edilmiş ədəbiyyat:

1.Aynur Məmmədova: “Teaching speaking” məqaləsi. “Fiologiya məsələləri” jurnalı. 2011.səh:123-128.

2.Şamsudinova Leyla : “İngilis dilinin xüsusi məqsədlərlə öyrədilməsi prosesində meydana çıxan problemlərin həlli yolları” məqaləsi. “Elmi əsərlər məcmuəsi” jurnalı 2015.səh:66-69.

3.Мешков О.Д.Словообразование современного английского языка. стр:210.

4.И.В.Аронольд. Лексикология современного английского языка.стр:55-63.

G.Allakhverdiyeva,M.Muradova

ENGLISH IN AZERBAIJAN IN A GLOBALIZED WORLD TEACHING AND TEACHING ISSUES

Summary

As mentionet in the article several metods have been used in teaching foreing language for the present day. Of course, because of having both positive and negative points of səheach methods, it is difficult to serve any opinion about the more suitable method of learning foreing language.

Therefore, the advantages of these methods are mentioned only in one attitude and communicative attitude is preferred more in teaching foreing language in modern times.Communicative method or communicative attitude is one of the methods which facilitates the activity of teachers and students in learning foreing language. times.

This work is devoted to proper names, to their analysys on English and Azerbaijani languages. It is analysed their own names, development, change, a lexical and grammatical from and the possibilities of style.

It is proved that proper names are a product of thinking of the people and explain history of the people, its tradition, outlook and life. Especially a great place is given to antroponomics, one of the main divisons of onomastics. In the atricle the speech also goes about the correct transliteration of proper names.

The article covers free wond combination in modem German language. We tried to bring to light the specificityof the wond combinations which appeak in the sentences.The article deals with yhe principle of the publishing of the multilingual turmicl voca bularies, points of vieuos of Azerbaijan and foreign scientist-lingtuists, methods and styles of forming of multilingual vocabularies in Azerbaijan.

Key words: glabolasition, English, to learn, status, function, linguistic, world.

Г.Алахвердиева,М.Мурадова

ГЛОБАЛИЗИРОВАННОМ МИРЕ ПРЕПОДАВАНИЕ И ВОПРОСЫ ОБУЧЕНИЕ В АНГЛИЙСКИЙ В АЗЕРБАЙДЖАНЕ ЯЗЫКАХ

РЕЗЮМЕ

Эта тема посвящена изучение Английского язка в Азербайджане и она являются одним из средств, которые усиливает влияние распространение Ангийского языка во всех жизненно важных сферах Азербайджана.

Мы считаем, что уникальность глобализация английского языка объясняется совокупностью всех факторов и заключается как вы особо, присущей ему характеристиках, так и в благоприятных с исторической точки зрения условия развития английского языкового сообщества. Из всех языков на планете английский самый гибкий наиболее быстро реагирующий на

меняющуюся отражает эти новые реалии, тем самым показывая стол значительное влияние на развитие человечества.

Петров говорит что, английский язык в тоже время не является великим и недосягаемым, для него характерна способность изменяется на любом уровне точка абзац английский язык имеет статус международного, кабанова, является проводником между культурной коммуникации, основным языком более чем через 300 миллионов людей, приоритетным при изучении в большом количестве стран, имеющим ряд способствующих этому характеристик.

Заметим, что глобальный, или международный, английский язык значительно отличается от британского английского. Современники шекспира английский язык продолжал меняется. Мы можем говорить не только о влиянии английского на мировые газеты, но и об обратных процессах. Развиваясь, английский язык обогащается новыми словами из местных языков Азербайджана.

Ключевые слова: глобализация, Английский язык, изучение, статус, функция.

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru,dosent Nuriyyə Rzayeva
capa tovsiyə etmişdir.

ŞƏFİQƏ HEYDƏROVA
SEVİNC HACIYEVA
Azərbaycan Texniki Universiteti
Xarici Dillər kafedrasının baş müəllimləri
H.Cavid 25.
shafigasevindj@gmail.ru

İNGİLİS DİLİNİN RƏSMİ-İŞGÜZAR ÜSLUBUNUN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ VƏ İŞGÜZAR DAİRƏDƏ ONUN İŞLƏNMƏ MƏQAMLARI

XÜLASƏ

İngilis dilinin rəsmi-işgüzar üslubunun səvciyyəsi. Məlumdur ki, üslub və üslubiyyət dilçilik elminin mərkəzi problemlərindəndir. Təqdim olunmuş məqalə müasir ingilis dilinin rəsmi-işgüzar üslubuna həsr olunub.

Müasir dövrdə ingilis dili beynəlxalq dil kimi çıxış etdiyi üçün işgüzar ingilis dilini bilən mütəxəssislərə zəruri ehtiyac yaranmışdır. Rəsmi-işgüzar üslub təkcə ünsiyyət yox, həmçinin məlumatvermə funksiyasını da yerinə yetirir. Fuknsioanl üslubların hər biri mürəkkəb bir sistemdir: o, müxtəlif nitq növlərinə ayrılır və həmin nitq növləri vasitəsilə fəaliyyət göstərir, bu proses zamanı inkişaf edir, formalaşır, təkmilləşir. Məsələn, həmin prosesi rəsmi-işgüzar üslubda siyasi-diplomatik, ictimai-siyasi, ictimai-hüquq nitq növləri vasitəsilə mümkünləşir. Üslubi norma deyildikdə üslub fərqlərə aid olan norma, xüsusiyyətlər nəzərdə tutulur. Normativlik müxtəlif funksional üslublarda müxtəlif cür özünü göstərir. Məsələn, əgər rəsmi-işgüzar üslubda ifadənin qurulması mütləq bu üslubun qaydalarına riayət olunmasını tələb edirsə, elmi üslublu mətnlərdə isə qeyri-üslub çalarlı olan hissələrin daxil olunmasına yol verilir; bu da tədqiqatçının fərdi-müəllifliyini qeyd etmək üçün edilir. Rəsmi-işgüzar üslubun aydın və dəqiq tərifini Ş.Ağakişiyeva verir: «Rəsmi-işgüzar üslubun vəzifəsi dövlət və ictimai idarə sənədlərinin yazıldığı mətnlərdə əlaqədardır. Rəsmi-işgüzar üslubun əsas xüsusiyyətləri: konkret leksikaya malik olması; hansısa məsələni izah etmək üçün artıq izahata, təsviri vasitələrə yol verilmir. Əmr, qərar, müqavilə, fərman, qanun, qətnamə, nizamnamə, bəyanat ültimatium və s. kimi rəsmi sənədlərdə fikir konkret, ardıcıl, aydın və inandırıcı olur. Rəsmi-işgüzar üslubda standart formalar və hazır ifadələr işlədidir, bədii təsvir vasitələri işlədilmir; sənədin növündən asılı olaraq sahə terminlərindən, ümumxalq sözlərindən istifadə olunur».(1-s.136)

Rəsmi sənədlərin dilində orfoqrafik qaydaların pozulma hallarına yol verilmir, çünki, mühüm rəsmi və dövlət sənədləri müəyyən funksional məxfilik və mütləqlik mahiyyətini kəsb edir.

Rəsmi-işgüzar üslub üçün düzgünlük ən yaxşı üslubi normadır. Bunun yaxşı cəhəti nümunəviliyi izləmək, standartı gözləmək, leksik vahidlərin dəqiq, həqiqi, xüsusi nominativ mənada işlədilməsidir.

Açar sözlər: funksional, nominativ, terminoloji, universal, rəsmi, humanitar.

Rəsmi-işgüzar üslub əsasən rəsmi münasibətlərin dil ifadəsini özündə əks etdirir və bu tipli münasibətlərinə yaranmasından və formalaşmasından başlanır. Nəticədə də çağdaş dövrdə bütün rəsmi münasibətləri öz əhatə dairəsinə salır. Buraya müxtəlif subyektlər arasında gedən rəsmi əlaqələr daxil edilir. Ona görə lə, bu üslubun fuksional təzahür xüsusiyyətləri olduqca geniş və rəngarəngir. Amma, bununla yanaşı, onun konkret standartları formalaşmışdır. Belə ki, cəmiyyətdə yaranan ictimai-siyasi, inzibati-bürokratik hüquqi, iqtisadi və mədəni institutların hər birinin səciyyəvi cəhətləri də bu üslubun funksional təzahür imkanlarını genişləndirir. Müxtəlif rəsmi müraciət formaları əmsallər və instansiyalar üzrə genişlənsə də, vahid standartlar üzrə genişlənsə də vahid standartlar hər yerdə məcburi qayda kimi qəbul edilir. Adi ərizədən tutmuş, beynəlxalq münasibətləri əks etdirən sənədlərə qədər hər birinin riayət olunmala normaları m.vcuddur. Rəsmi-işgüzar üslubun norma təzahürü özünü müəyyən edilmiş standartlara uyğun tətbiqində göstərir.

Ədəbi dilin rəsmi-işgüzar üslub üçün iki xüsusiyyəti xarakterikdir:

1. məsələnin aydın və qısa izahı;
2. artıq, lazımsız ifadələrin işlədilməsi.

A.Qurbanov da qeyd edir ki, «rəsmi üslubda yazılan sənədlərdə fikrin konkret şəkildə izahı tələb olunur. Buna əsasən də rəsmi üsluğun özünə aid dil əlamətləri mövcuddur».

Tədqiq olanun üslubun əsas funksiyaları kimi məlumatlandırma və göstəriş, əmr oluduqdan, dil vasitələri elə seçilir ki, nəql olunan mətn maksimal dərəcədə dəqiq, konkret və lakonik olsun. Rəsmi-işgüzar üslubda dil vasitələrinin yeknəsəqliyi dil standartlarına gətirib çıxarır. Dil standartalı – işgüzar üslubun funksional cəhətdən şərtlənmiş xüsusiyyətidir. Bu qaydalar univkersal deyil, janrların tələbatından asılı olaraq dəyişir. Kargüzarlıq ştamplarının işlənməsi fikrin qısa və dəqiq şəkildə ifadəsinə kömək edir. Onlar məhdud kommunikativ şəraitdə işlənilir və məhdud sayda anlayış bildirir. Bu cür kargüzarlıq ştamplarından ibarət mətnlərə aid edə bilrik aşağıdakıları. Məsələn:

Self-Drive Hire Agreement of a Motor-Car – Minik avtomobillərinin kirə verilməsi haqqında saziş;

Guarantee for the Perfomance of the Contract – Müqavilənin həyata keçirilməsinie zəmanət öhdəlikləri;

Delivery Verification – Çatdarılmanın təsdiqi.

Rəsmi-işgüzar üslubun xüsusiyyətlərindən biri olan obyektivlik – bütün tərəfdarların maraqlarını müəyyənləşdirmək və əks etməsini nəzərdə tutur.(2-s.154)

Qeyd etdiyimiz kimi, onların əsas hissəsi universal xarakterli olduğundan rəsmi üslubun leksik normasına ümumbəşərilik səciyyəsi verir. Beynəlxalq terminlər və internasional sözlərin bu üslubun leksik normasına çevrilməsi ona bütün dünya ədəbi dilləri üçün standartlaşdırılmış fuksional üslub səciyyəsini qazandırır. Terminlər digər üslublarda işlənsə də, onların sintaksisi standanrtlaşdırılmadığına görə rəsmi üslubdakı universallılıq keyfiyyətini bütün hallarda əldə etmir. Z.Cəfərovun rəsmi-işgüzar üslubunun verdiyi qruplaşdırma ilə biz bir qədər razı deyilik. Z.Cəfərova yazır: «Rəsmi üslub anlayışı özündə bir çox məsələləri ehtiva edir. Bu anlayışa daxil olan sənədlər janr və məzmun baxımından bir-birindən fərqlənir. Rəsmi sənədlərin müxtəlifliyi, onaların çoxistiqamətli olması rəsmi üslubun daxilində müəyyən yarımqrupların yaradılmasına və üslubun adında variantlılığa səbəb olur». (3-s.104)

Rəsmi üslubun əhatə etdiyi sənədləri və onların fəaliyyət göstərdiyi sahələri nəzərə alaraq onu aşağıdakı kimi qruplaşdırmaq olar:

1. dövlət və qanunvericilik orqanlarının sənədləri;
2. hüquq və mühafizə orqanlarının sənədləri;
3. diplomatik sənədlər.

I qrupa xüsusi hallarda tərtib edilən rəsmi dövlət sənədləri daxildir və rəsmi üslubun bu qolunu rəsmi-inzibati üslub adlandırılması məqsədəuyğundur. II qrup isə özündə hüquq və dəftərxana sənədlərini ehtiva edir. Bu səbəbdən onu rəsmi üslubun rəsmi-kargüzarlıq və ya rəsmi-işgüzar adlandırmaq mümkündür. III qrup isə artıq müstəqil funksional üslub kimi fəaliyyət göstərən diplomatik üslub adlandırıla bilər. Gördüyümüz kimi, müxtəlif fəaliyyət sahələri nəzərə alınsa da, nədənsə yalnız üç yarımüslub qrupu göstərilib. Bir çox sahələr, məsələn, iqtisadiyyat (biznes, ticarət) və s.-ləri əks olunmayıb. Rəsmi-işgüzar üslubda bir 4 yarımüslub qeyd edirik: qanunverici; hüquq; inzibati; diplomatik. İnzibati öz növbəsində əsl inzibati və inzibati-ticarət növlərinə ayrılır. Dilin digər sahələrində bu leksik-semantik qrup tam şəkildə işlənmir. Sintaktik səviyyədə paralel konstruksiyalar, izahlı-təyini budaq cümlələri,e lmi üsluba xas olan cümlə modellərinin işlənməsini izləmək olar. Rəsmi-işgüzar üsluba aid mətnlər sadəcə oxumaq üçün deyil, sakit, rahat şəraitdə dəqiqliklə öyrənməsi üçün nəzərdə tutulub, ona görə də onlar çox saylı uzun cümlələrin işlənməsi ilə fərqlənir.(4-s.374)

Rəsmi-işgüzar üslubu ədəbi dilə təsiri güclüdür. Belə ki, rəsmi-dövlət sənədlərinin tərtibində olan qaydaları rəsmi-işgüzar üslub özü müəyyənləşdirir. Ədəbi dil bu qaydalara təsir etmir, əksinə rəsmi-işgüzar üslubdan hazır şəkiodə alır.

İngilis dilinin rəsmi-işgüzar üslubunun tədqiqi. İngilis dilinin rəsmi-işgüzar üslubunun tədqiqinə həsr olunmuş İ.S.Volskayanın «Sintmaktik səviyyədə rəsmi-işgüzar üslubun differensialn əlamətləri» adlı dissertasiyasında rəsmi-işgüzar üslubun müxtəlif janrları araşdırılır. Müəllf rəsmi-işgüzar üslubun iki növünü fərqləndirməyi təklif edir: güclü (hansına ki, qanunlar aiddir) və digər işguzar sənədləri əhatə edən

zəif növ. «Güclü» növ invariant sistem hesab olunur. Lakin rəsmi-işgüzar üslub daxilən funksional cəhətdən həmcins olmadığından bu növlərin arasındakı fərqlər get-gedə silinir. Diplomatik sənədlər hansısa razılaşmanın məhdud şərait və nəticələrini müəyyənləşdirdiyi üçün daha konkret, tədqiqi səciyyə daşıyır. Lakin İ.S.Volskayanın rəsmi-işgüzar üslubun janrlarını bədii əsərlərinin mətnləri ilə müqaiysəl aparılması, zənnimizcə, əsassızdır, çünki bədii mətni yaratmaqda əsas məqsəd estetik təsirdir, yazıçı bütün dil vasitələrini bu məqsədə tabe edir. V.V.Kalüjnayanın «İngilis üslubunun rəsmi-işgüzar şərhinin səciyyələri» adlı dissertasiyada da oxşar fikirlər söylənilir. Material kimi rəsmi-işgüzar üslubun janrlarından biri olan diplomatik sənədlər seçilir. Üslubun «güclü» növünə aid sənədlərin dili (nizamnamə, prosedurların keçirilmə qaydası, sazişlər, müqavilələr, konvensiyalar və s.) o dərəcədə normalaşdırılıb, sabitləşib ki, digər janrlara da öz təsirini göstərir. İ.S.Volskayanın tədqiqatında rəsmi-işgüzar üsluba aid cümlələrin uzunluğu haqqında statistik məlumatlar da verilir. Qeyd olunur ki, qanunların dili daha mürəkkəbdir. 40 sözdən çox olan cümlələr 68% təşkil edir («söz» anlayışı altında qrafikada iki boş yer arasındakı cümlənin bir kəsiri başa düşülr) . 50 sözdən çox olan cümlələr 39,5% təşkil edir.(5-стр:25)

M.N.Kojina qiymətləndirmənin 2 növünü qeyd etmişdir: linqvistik və konkret kontekstdə aşkarlanan funksional qiymətləndirmə. Məsələn, «herein after refered to» kimi söz birləşməsi, hətta kontekstdən kənarda belə göturuldukdə, linqvistik qiymətləndirməyə malikdir, çünki bu söz birləşməsi rəsmi-işgüzar üslub üçün səciyyəvi sabit leksik birlik kimi qəbul olunur. Bunun əksinə olaraq, köməkçi felin (shall) müstəqil mənalı fel ilə birləşməsi müqavilə mətnində funksional qiymətləndiriləcək, çünki burada, o, sadəcə gələcək zamanı yox, qəbul olnumuş qərarın məcburiliyini, göstərişini nəzərdə tutur. Məsələn,

The Vendor shall sell and the Purchaser shall purchase as from – satıcı satacaq, alıcı isə aşağıdakıları alacaq ...;

The purchase prise shall be for ... - satış qiyməti təşkil edir;

The purchase shall be complefied on – satış (filan tarixdən) keçirilir… .

Dil vahidi dəyişilir və onun funksional mənası ekstralinqvistik şəraitdən asılı olaraq geniqlənir (gələcəyə aidlik qorunub saxlanılır, üstünə modal məna əlavə olunur).

İngilis üçlubiyyatçıların rəsmi-işgüzar üslub haqqında olan fiikrləri bir qədər fərqlidir. Məsələn, №nin üslubiyyatı üzrə məşhur müütəxəssislər D.Kristel və D.Devis 5 əsas dil formalarını qeyd edirlər, bunlar da funksional üslublar sisteminə uyğun gəlir: danışıq dili, yazılı sənədlərin dili, dini dil, qəzet dili, qanunverici aktlarının dili. D.Kristel və D.Devis belə hesab edirlər ki, üslublar içərisində yalnız bədii mətnlərdə hər hansı dil hadisələri, vahidləri işlənilə bilər; digər dillər isə «məhdud» dillər adlandırılır, çünki onlarda bəzi dil formalarına rast gəlmək olar. Eyni zamanda qeyd olunur ki, konkret formaların işlənməsi konkret situasiyadan asılıdır.Müasir ingilis dili istifadəsinin öəyrənilməsi üzrə London mərkəzinə (The

Survey of English Usage) başçılıq edən prof. Kverk vahid registrlar təsnifatının vahid sistemini işləyib hazırlanmışdır. London mərkəzinin alimləri bütün üslubları iki böyük qrupa ayırırlar: danışıq üslub və yazılı üslub; bunlar da öz növbəsində bir sıra yarımqruplara bölünürlər. Məsələn, yazılı üslubda qeyd olunur:

Gördüyümüz kimi, bizi maraqlandıran rəsmi-işgüzar üslub bu təsnifatın müxtəlif bölmələrinə aid ola bilər. Bu təsnifat mətnlərin özünəməxsusluğunu müəyyən etmək məqsədini qoysa da, burada bir çox nöqsanlar var. Məsələn, burada texniki mətnlər nəzərə alınmadığını halda, humanitar mətnlər qeyd olunur və ya əvvəlcədən hazırlanmış çıxışlar və əvvəlcədən yazılmış rəsmi xəbərlər və qəzet mətnləri arasındakı fərq dəqiq izlənilmir. Bir sıra xarici alimlərin fikrincə işgüzar üslubda radikal dəyişikliklər aparılmalıdır. Məsələn, belə hesab edilir ki, ingilis dilində rəsmi-işgüzar üslubun biznesə aid sahəsində çoxlu sayda mənasız inzibati və dəftərxana formulaları (ifadələri) artıqlıq təşkil edir. Bu fikri E.Partric də dəstəkləyir. Aleksandr L. «Essay and letter writing» adlı kitabında isə, ümumiyyətlə ingilis işgüzar dilinin mövcudluğunu inkar edir və sadəlik, aydınlıq tələblərini irəli sürür. Əlbəttə ki, biz bu fiikrlə razılaşa biomərik.(6-page.264)

Rəsmi-işgüzar üslub leksikasının əsas layını təşkil edən terminoloji vahidlər müxtəlif tədqiqatçılar tərəfindən öyrənilir, onların öyrənilməsinə bir çox tədqiqatlar həsr olunub. Məsələn, A.Fərmanovanın «İngiliscə-Azərbaycanca beynəlxalq sənədlərdə istifadə olunan ixtisarlar» adlı lüğəti, «Maliyyə bazarları terminlərinin izahlı lüğəti», V.A.İkonnikova, A.V.Abreqova, L.M.Mamadjanova və s.-lərini göstərmək olar. A.Fərmanova «İngiliscə-arazbaycanca beynəlxalq sənədlərdə istifadə olunun ixtisarlar»ı araşdırmışdır. A.Fərmanovanın lüğətində beynəlxalq sənədlərdə istifadə olunmuş ixtisarlar toplanmış və izah olunmuşdur. Lüğətdə beynəlxalq qurumların, idarə və təşkilatların qısaldılmış adları açıqlanmış, azərbaycanca tərcüməsi və müvafiq ixtisarı verilmişdir. «Maliyyə bazarları terminlərinin izahlı lüğəti»ndə maliyyə bazarları, o cümlədən qiymətli kağızlar bazarları, fond birjaları, valyuta birjaları, ilkin səhm bazarları, bu bazarlarda həyata keçirilən əməliyyatlar, onların iştirakçıları, istifadə olunan maliyyə alətləri, investisiya fondları, depozit sistemləri, maliyyə hesabatlılığı və bu kimi digər əlaqəli məsələr üzrə terminlər (Azərbaycan və ingilis dillərində) və onların Azərbaycan dilində izahı əks olunmuşdur. Bu lüğətin hazırlanmasında əsas məqsəd ölkədaxili maliyyə sistemində və beynəlxalq maliyyə əlaqələrində daha çox işlənilən terminlərin ingilis dilində qarşılığı ilə birlikdə Azərbaycan dilinə tərcüməsi və onların ümumiləşdirilmiş izahlarının verilməsi yolu ilə ölkədə maliyyə sahəsində vahid terminoloji mühitin yaradılmasına kömək etməkdir.

ƏDƏBİYYAT:

1.Ağakişiyeva Ş.M. Ədəbi dil normaları və üslubları. Filol. elm. nam. alim. dər. almaq üçün təq. e. dissertasiya. B., AMEA, Dilçilik İnstitutu, 2008, 136 s.

2.Cəfərova Z.B. Rəsmi-işgüzar üslub (Milli Məclisin və Avropa Şurasının sənədləri əsasında). Filol. elm. nam. alim. dər. almaq üçün təq. e. dissertasiya. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı Dövlət Universiteti, B., 2008, 154 s.

3.İngiliscə-Azərbaycanca beynəlxalq sənədlərdə istifadə olunan ixtisarlar. Lüğət. Tərtib edən A.Fərmanova. B., Mütərcim, 2007, 104 s.

4.Qurbanov A. Müasir Azərbaycan ədəbi dili. B., Maarif, 1967, 374 s.

5.Мамаджанова Л.М. Семантико-структурный анализ юридических терминов в английском и таджикском языках. Авторфеф дис… к.ф.н. Душанбе, Рос.-тадж слав. ун-т, 2006, 25 с.

6.Crystal D., Davys D. Investigating English style. London, 1969, 264 p.

7.Partridge E. Usage and Abusage. London, Penguin ref. Books, 1978, 380 p.

SH.Geydarova,S.Gadjieva

paremiyanın tərkibini təşkil edən konseptlərin ingilislərin milli xarakterləri ilə necə bağlı olduğu göstərilmir. Əslində isə "qadın" konseptinin cənnətlə və xüsusən də "nökərlərin" "məhşərlə" bağlılığı çox maraqlı və əhəmiyyətlidir. Əlbəttə, konseptlərin şəffaflığı mülahizələr etməyəəimkan verir. Məsələn, qadınlar İngiltərədə istədiklərini edirlər, atları həddindən artıq işlədirlər, nökərlər isə daima nəzərət altındadırlar və s. Lakin bu yalnız fərziyyələrdir. Məsələn, güman etmək olar ki, İngiltərədə at çapmaq həmişə çox dəbdə olub, cıdır və at yarışları bu ölkədə ən maraqlı tədbirlərdən sayılıb.

Lakin bu yenə də fərziyyədir. Əgər Lüğətdə qeyd olunur ki, "burada ingilislərin milli xarakterindən bəhs edilir", onda mütləq tarixi-mədəni şərh verilməli idi. Paremiyanın xüsusiyyəti konseptlərin konkretliyindədir. Yəni adətən atalar sözləri ümumi–şəxsli cümlələr formasında olur ki, bu qrammatik forma aforistik mənanı ifadə etmək üçün ideal vasitədir. Burada isə konkret və xüsusi nominasiyalar iştirak edir. Məsələn, My home is my castle ifadəsində home sözü hamıya aiddir. İngilis paremiyası olaraq ingilis mentalitetini əks edir, lakin hamıya aiddir və hamının, millətindən asılı olmayaraq bütün insanların, ev haqqındakı fikrini ifadə edir. England is the paradise of women, the hell of horses, and the purgatory of servants paremiyas1 isə eksplisit və diskursiv şəkildə İngiltərə haqqındadır.
Eləcə də England's difficulty is Ireland's opportunity _(1, 86) atalar sözündə də konkret məkan adları işlədilir: England və Ireland. Lakin buradakı England-la birinci paremiyadakı England arasında böyük fərq var.

Burada England sırf paremioloji mənada və rəmzi şəkildə işlənir. Həqiqi "biri, birisi, hər kimsə" mənaları ifadə olunur. Konkret olaraq England burada yalnız etimoloji mənada motivləşir. Yəni tarixən İngiltərə və İrlandiya qatı düşmən olublar və məhz düşmən rəmzi kimi də paremiyada işlədilir. Nyukasl kimi, Tula kimi və s. Əslində İngiltərə ilə İrlandiyanın münasibətləri bu günün də reallığıdır. Müasir ingilis dilinin sintaksisində komponentlər arasındakı qarşılıqlı məna münasibətləri müxtəlif bağlayıcı formalarla müşayiət olunurlar ki, bunların hesabına bu və ya başqa münasibətlər daha kəskin şəkildə özünü göstərir. Mətnin korellyasının öyrənilməsində cox vacib olan bir məqam ondan ibarətdir ki, heç bir qarşılıqlı məna əlaqəsi komponentlər arasında təmiz şəkildə, digərlərindən təcrid olunmuş şəkildə işləm məqamına malik deyil. Həmişə bir məna əlaqəsinin üzərinə bu və ya başqa dərəcədə məna tipləri əlavə edilir.Bundan əlavə, çox tərkib hissəli mətnlərdə heç də bir məna əlaqəsini mətnin əvvəlindən sonunadək özünü göstərməsi vacib deyil. Bir mətndə müxtəlif tipli məna əlaqələri reallaşa bilər. Professor K.Abdullayev birinci qrup məna əlaqələrinə eyni zamanlılıq və ardıcıllıq əlaqələrini, digər qrupa isə müqayisə, qarşılaşdırma və sadalama əlaqələrini daxil edir, çünki birinci qrupda bütün münasibət tipləri zaman anlayışının ətrafında birləşir. Öz novbəsində, müqayisə, qarşılaşdırma, sadalama kimi məna əlaqələrinin tipləri əsas əlamət kimi komponentlərin qarşılıqlı münasibətini keyfiyyət baxımından səciyyələndirir.

İstifadə olunmuş ədəbiyyat:

1.Abbasov A. Q. İngiliscə–Azərbaycanca atalar sözləri və zərb–məsəllər lüğəti. Bakı: Turan evi, 2009,_472 s
2.Həmidov İ. H. Azərbaycanca-rusca atalar sözləri lüğəti. Bakı: OKA Ofset, 2004, 287 s.
3.Abbasov A., Aliyeva M., Mustafaeva Y., Aliyev İ., Pashayeva P. EnglishRussian proverbal entries. Baku: Bakı Universiteti, 2013, 581 c.
4.K.Abdullayev: «Azərb.dili sintaksisinin nəzəri problemləri».B,1999-cu il,s. 246.
5.Ə.Ə.Abdullayev: «Mətni anlama problemləri». B. 1999, s. 345.

Л.КУСЕЙНОВА

СЕМАНТИЧЕСКИЙ И ЛЕКСИЧЕСКИЙ АНАЛИЗ ПАРЕМИОЛОГИЧЕСКИХ ЕДИНИЦ С ПРОСТРАНСТВЕННЫМ ЗНАЧЕНИЕМ, ИСПОЛЬЗУЕМЫХ В АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В “представленной статье наблюдается 'отражение концепта «пространство» в паремиологической системе английского языка. Здесь уделяется внимание семантическому анализу различных когнитивных признаков пространственного концепта в пословицах и поговорках. Приведённые примеры способствуют проведению глубокого анализа.

В результате, определяется значимость концепта «дом» в паремиологической системе английского языка. В то же время приводятся эквиваленты, представленных в статье наремиологических единиц в азербайджанском и русском языках.

В результате анализа паремиологических единиц становится ясно, что некоторые пословицы и поговорки содержат культурно-историческую информацию об английском менталитете. На основе сравнения становится ясно, что когнитивное значение некоторых пословиц и поговорок идентично значениям в русском и азербайджанском языках.

Результаты анализа показывают, что концепт «дом» в современном английском языке используется не очень активно. Пословицы и поговорки являются незаменимым "ИСТОЧНИКОМ ИЗУЧЕНИЯ АНГЛИЙСКОГО менталитета и мировоззрения. :

Ключевые слова: концепт паремиологические единицы менталитет когнитивная характеристика

L.KUSEYNOVA

THE SEMANTICAL AND LEKSICAL ANALYS OF SOME SPACE MEANING PAREMEOLOGICAL UNITS IN THE ENGLISH LANGUAGE

Summary

In the given article we observe the reflection of " space consept" in English paremeological system. In this article mainly shows the semantic analys of different cofnitive signs of space consept in the proverbs. According to the given examples clear to us that deep analysis have been done.

As the result of these analysis, is clearly seen the importance of "home" consept in English paremeological system. At the same time has been given Azeri and Russian equivalents of paremeological units that have been used in the article. In the result of paremeological units analys is known to us that some proverbs give historical-cultural information about the English mentality.

According the comparison we have information that' cognitive meaning of some proverbs are the same in the Azeri and Russiari' languages. Results we get from analysis shows us that "home" consept isn't very active in the modern English language.

But, paralelly with this we good impression from this analys. Proverbs are very valuable base for getting information about English mentality and outlook.

The article deals with the meaning relation between components of syntax in English, also some characterizing peculiarities of consistent part of the literal text.

Keywords: consept, paremiological units, mentality, cognitive character

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: fİlologiya üzrə fəlsəfə doktoru,dosent Yusif Süleymanov capa tovsiyə etmişdir.

GÜNEL BABANLI
Bakı Dövlət Universiteti
gunkababanli@hotmail.com
Bakı ş., Z.Xəlilov 23

FEİLİN SUBSTANTİVLƏŞMƏSİ

XÜLASƏ

Substantivləşmə termini latınca "substantium" sözündən olub hərfi mənası isim deməkdir. Substantivləşmə dedikdə adətən mübtəda və tamamlıq vəzifəsində işlənən, lakin həmin üzvlərin əsas ifadə vasitəsi olmayan başqa nitq hissələrində özünü göstərən yeni xüsusiyyətlər nəzərdə tutulur. Substantivləşmə üç cəhətin – leksik məna, sintaktik vəzifə və morfoloji əlamətin vəhdəti əsasında baş verir. Hər hansı bir nitq hissəsi yalnız göstərilən bu cəhətlərə malik olarkən substantivləşir. Substantivləşmə hadisəsinin əhatə dairəsi çox genişdir, demək olar ki, bütün nitq hissələrinə aid sözlər substantivləşə bilir. Nitq hissələrinin substantivləşməsini nəzərdən keçirdikdə belə bir nəticəyə gəlmək olur ki, yalnız bilavasitə isimlərlə bağlı olan, onları müəyyənləşdirən sözlər substantivləşə bilər. Məhz buna görə də sifətlərin, sayların, feili sifətlərin substantivləşməsinə çox rast gəlmək mümkündür. Bilavasitə isimlə əlaqədar olmayan sözlər nadir hallarda substantivləşir. Sifətə yaxın olmaq xüsusiyyəti feili sifətin substantivləşməsi üçün əlverişli şərait yaradır. Feilin təsriflənməyən formaları içərisində substantivləşməyə ən çox meylli olanı da feili sifətdir. Məsdərin substantivləşməsi bundan sonra gəlib, ikinci yeri tutur. Feili bağlama isə dilimizdə substantivləşmir.

Açar sözlər: substantivləşmə, isim, sifət, feil, feili-sifət, məsdər

Substantivləşmə termini latınca "substantium" sözündən olub hərfi mənası isim deməkdir. Substantivləşmə dedikdə adətən mübtəda və tamamlıq vəzifəsində işlənən, lakin həmin üzvlərin əsas ifadə vasitəsi olmayan başqa nitq hissələrində özünü göstərən yeni xüsusiyyətlər nəzərdə tutulur. Substantivləşmə üç cəhətin – leksik məna, sintaktik vəzifə və morfoloji əlamətin vəhdəti əsasında baş verir. Hər hansı bir nitq hissəsi yalnız göstərilən bu cəhətlərə malik olarkən substantivləşir. Feillərin substantivləşməsindən bəhs edərkən, ilk öncə feilin təsriflənməyən formaları olan məsdər və feili sifətlərin substantivləşməsindən bəhs edək. İngilis dilində məsdər tarixən feil kökündən yaranmış isimdir. Ona görə də məsdərin sintaktik vəzifələri ismin sintaktik vəzifələri ilə eynidir. Məsdər mübtəda vəzifəsində nadir hallarda it əvəzliyi olmadan işlənir. Müqayisə edək: To obey the lalaw is everyone's duty (rəsmi üslub) – Qanunlara riayət etmək hər kəsin (hamının) borcudur / It is everyone's duty to obey the laws (danışıq) – Hamının borcudur ki, (borcu odur ki) qanunlara riayət eləsin. Azərbaycan dilində məsdərin müəyyənləşdirilməsi elə bir çətinlik törətmir. Məsdər feilin kökü əmr şəklinin II

şəxsin təkini bildirən formasına müvafiq gəlib, -maq/-mək şəkilçisi ilə qurtaran formasıdır. Məsdər feilin əsas forması hesab olunsa da, onun əsas sintaktik funksiyası yoxdur. Məsdərin əsas dil funksiyası konkret zaman və məkana nisbət verilmədən hərəkətin adını bildirməkdir. Feilin şəxsli formaları üçün məsdərin kökü baza rolu oynayır. Məsdərin tam forması isə feil kimi işlənmir. Məsdərin cümlədə öz formasında işlənməsi isimlik xüsusiyyətində büruzə verir.

Feilin tədqiqatçıları məsdərdə ismə xas olan bir sıra xüsusiyyətlər qeyd etmişlər: hal şəkilçisi ilə işlənmək, mənsubiyyət şəkilçisi qəbul etmək, xəbərlik şəkilçisi ilə işlənmək. Mürəkkəb xəbərin tərkib hissəsi ilə işlənmək. Mürəkkəb xəbərin tərkib hissəsi kimi işlənmək xüsusiyyətini də bura əlavə etmək olar. Məsdər həm təsdiq, həm də inkar formasında substantivləşir (daha çox təsdiq formasında). Məsdər həm təklikdə, həm də ona aid olan söz birləşmələri (məsdər tərkibləri) şəklində substantivləşir. Məsdər adlıq halda işlənməklə, cümlədə mübtəda, xəbər vəzifələrini icra edir. Məsələn: Danışmaq dananı qurda verər (atalar sözü); Danışmaq gümüş olsa, danışmamaq qızıldır (atalar sözü); Bilməmək eyib deyil, soruşmamaq eyibdir (atalar sözü); Susmaq da bir cavabdır (atalar sözü); İstəmək bir ayıb, verməmək iki ayıb (atalar sözü); İşləmək dərdindən yeməyə həsrət canım (atalar sözü). Məsdərin yönlük halda işlənməsinə dair nümunələr: Oba durdu düzməyə, gəlin getdi gəzməyə! (məsəl). Məsdərin yerlik halda işlənməsinə dair nümunələr: Uçmaqda turac, qaçmaqda ceyran (məsəl). Məsdər çıxışlıq halda: “Ləb” deməkdənsə, “ləbləbi” de! (məsəl); Gülməkdən adamın qarnı cırılır (məsəl); Mən deməkdən yoruldum, sən eləməkdən yorulmadın (məsəl). Məsdərin substantivləşməsi onun mənsubiyyət şəkilçiləri ilə işlənməsi yolu ilə də özünü büruzə verir: Sənin deməyin artıqdır – mən öz işimi səndən yaxşı bilirəm; Mənim deməyim artıqdır, sən öz işini yaxşı bilirsən; Elə söz deyirsən ki, bişmiş toyuğun gülməyi gəlir.Məlumdur ki, feili sifətlərdə həm feil, həm də sifət xüsusiyyətləri vardır. Feili sifət nitqdə daha çox sifət səciyyəlidir. Cümlədə, bir qayda olaraq, təyin kimi çıxış edir. Sifət feili sifətlər vasitəsi ilə feillə sıx bağlıdır. Həm sifət, həm də feili sifət əşyanın əlamətini bildirir [3, s.76].

Azərbaycan dilində feildən sifət düzəldən şəkilçilər az deyildir. Məsələn, -ağan, -əyən: qaçağan (at), küsəyən (uşaq); -qan, -kən: çalışqan (tələbə), sürüşkən (yer); -aq, -ək: qorxaq (adam), hürkək (at); -ğın, -gin, -ğun, -gün, -qın, -kin, -qun, -kün: azğın (düşmən), gərgin (vəziyyət), yorğun (adam); -ıcı, - ici, -ucu, -ücü, -yıcı, -yiçi, -yucu, -yücü: alıcı (quş), keçici (bayraq), qurucu (əllər), sürücü (adam), bağlayıcı (söz); -ıq, -ik, -uq, -ük: açıq (qapı), kəsik (ağac); -caq, -cək: utancaq (uşaq), sevincək (adam); -ım, -im, -um, -üm: bir içim (su), bir atım (barıt), qırx tutum (saç). -ma, -mə şəkilçilərini feil köklərinə artırmaqla düzəltmə isim əmələ gəldiyi kimi, düzəltmə sifət də əmələ gəlir. Məsələn, gəlmə adam, süzmə qatıq, hörmə saç, burma bığ və s. [4, s.80]. Qeyd olunan şəkilçilər feillə sifət arasında əlaqələri göstərir və hal, hərəkət əlmaətlərinin ifadəsi üçün yeni sözlərin yaradılmasına xidmət edir. Belə sifətlər eyni zamanda sifətlə feili sifət arasındakı

oxşar və fərqli əlamətlərin üzə çıxarılması üçün müqayisə materialı ola bilir. İstər ingilis, istərsə də Azərbaycan dilində sifətlər şərti dayanıqlığa malikdir. Məsələn, a clean dress – təmiz paltar, a high hill – hündür təpə, a green grass – yaşıl ot. Sifətlərdə əlamət və ya keyfiyyətin zamana görə dəyişməsini göstərən heç bir ünsür yoxdur. Şərti dayanıqlılıq bununla izahlanır. Sifətdən fərqli olaraq həm ingilis, həm də Azərbaycan dilində feili sifətdə bu cəhət vardır. Müqayisə et: a fast train (sürətli qatar) − an approaching train (sürətlənən qatar). İngilis dilində feili sifətlərin sifətə keçməsi geniş qeydə alınır. Məsələn, interesting – maraqlı, tired – yorğun, boring – darıxdırıcı, satisfied – razı.

İngilis dilində feilin şəxssiz formalarından biri olan feili sifətin iki – indiki zaman feili sifəti (The Present Participle), keçmiş zaman feili sifəti (The Past Participle) forması vardır. İndiki zaman forması feil əsasına -ing, keçmiş zaman forması isə -ed suffiksinin artırılması ilə düzəlir. İngilis dilində feili sifət, feil, sifət və zərf xassəsinə malikdir. Sifət xüsusiyyətlərinə malik feili sifətlər ingilis dilində də cümlədə, yaxud birləşmədə ismin təyini funksiyalarında çıxış edir. Məsələn: We visited one of the largest plants producing tractors in our country – Biz ölkəmizdə traktor istehsal edən böyük zavodlardan birində olduq; A broken cup lay on the table – Sınmış fincan stolun üstündə idi. Qeyd etmək lazımdır ki, ingilis dilində feili sifət cümlədə zərf funksiyasında olduqda xəbərlə ifadə olunan hadisəni təyin edir. Bu funksiyada işlənən feili sifətlər Azərbaycan dilindəki feili bağlamalara uyğun gəlir: He sat at the table thinking – O, stolun arxasında düşünə-düşünə oturmuşdu.

Feili sifət söz birləşməsində, yaxud cümlədə ismi təyin etdikdə sifətlə oxşar səciyyə alır. Məsələn, inkişaf etmiş ölkə − the developed country; alınmış nəticələr − the obtained results; oxuyan şagird – a studying pupil; oxuyan müğənni – a singing singer; qayıtmış məktub – returned letter; qızardılmış ət – roasted meat; içilmiş su – drunk water; içməli su – drinking water; gülən qız – a smiling girl; soyula qoyun – a skinning sheep; yazılası məktub - a letter to be written; axar çay – a running river; yanar od – burning fire; görüləcək iş – work to be done; gedəcək maşın - a car to be depacted; oynadığım oyun – game is played (is being played); topladığın güllər – (your) picked flowers. Keçmiş zaman feili sifət şəkilçisi ilə düzələn sifətlər ingilis dilində daha çoxdur. Məsələn, affronted – bərk təhqir olunmuş, incidilmiş; arxaik mənası utanmaz, həyasız, sırtıq; aged – qoca, qocalmış; agonizing – əzablı, əziyyətli, üzücü; amusing – məzəli, gülməli; annoying – əsəbiləşdirici, zəhlətökən, usandırıcı; annoyed – narazı, acıqlı, hirsli; appalling – 1) dəhşətli, qorxulu, müdhiş, qorxunc; 2) son dərəcə pis, aşağı keyfiyyətli: Jane is an appalling cook – Ceyn çox pis aşpazdır. Sifətə yaxın olmaq xüsusiyyəti feili sifətin substantivləşməsi üçün əlverişli şərait yaradır. Bildiyimiz kimi, bütün nitq hissələri içərisində substantivləşmə ən çox sifətlərə xas olan xüsusiyyətdir. Feilin təsriflənməyən formaları içərisində substantivləşməyə ən çox meylli olanı da feili sifətdir. Məsdərin substantivləşməsi bundan sonra gəlib, ikinci yeri tutur. Feili bağlama isə dilimizdə substantivləşmir. Məsdər kimi feili sifət də həm təsdiq, həm

də inkar formalarında substantivləşir. Yenə də məsdər kimi feili sifət də həm təklikdə, həm də tərkib şəklində substantivləşir. Qeyd etmək lazımdır ki, Azərbaycan dilində feili sifət düzəldən şəkilçilər çox olsa da, daha çox -an /-ən şəkilçiləri ilə düzələnlər substantivləşərək işlənirlər. Azərbaycan dilində feili sifətin substantivləşməsindən yazan tədqiqatçılar neçə misalla kifayətlənirlər. Biz sifətlərin substantivləşməsindən bəhs edərkən olduğu kimi, burada da daha çox materialı işə cəlb etməyə çalışmışıq. Məsələn: Axtaran tapar, yoğuran yapar; Alan apardı, satan uduzdu; Anlayana qul ol, anlamayana ağa olma; Əkində əkməyən xırmanda ağlar; El malına kəc baxanın gözlərinə qan damar; Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar; Ulunun sözünə baxmayan uluya-uluya qalar; Qanan kim, qandıran kim?; Qananın da quluyam, qanmazın da; Dad yarımçıq əlindən!; Qanana işarə, qanmayana kötək!; El üçün quyu qazanın özü düşür; Özgəsinə quyu qazanın özü düşər [1, s.66]; "Aman!" deyəni öldürməzlər; Ağız deyəni qulaq eşitmir; Plovu yeyənə ver, sözü deyənə!; "Vur" deyənlə vuran yarıdır; Söz deyən azdır, söz çeynəyən çox; El eybini sənə deyən sənin də eybini elə deyər!; Haynan gələn, huynan gedər; Bilənlə bilməyən tay olmaz; İşləməyən dişləməz; Zəhmət çəkməyən bal yeməz; Acı danışan şirin söz eşitməz; Tələsən təndirə düşər; Könlü balıq istəyən ayağını suya salar; Çox gəzən çox bilər.

Biz bu qədər -an / ən şəkilçisi ilə düzələn feili sifətlərin substantivləşməsini nəzərdən keçirdik. Nümunələrin sayından görmək olur ki, bu, substantivləşməyə ən çox meylli olan feili sifət formasıdır. Bu çoxluğun səbəbi odur ki, -an / -ən şəkilçisi ilə düzələn feili sifətlər indiki zamana aiddir.

-dıq, -dik, -dük, -duk şəkilçiləri ilə düzələn feili sifətlərin substantivləşməsinə də diqqət yetirək. Bu şəkilçilərin bir xüsusiyyəti belədir ki, o, təklikdə işlənməyib, mənsubiyyət şəkilçisi ilə birlikdə işlənir: Özünə qıymadığını, özgəyə də qıyma; Sağ əlin verdiyini sol əl bilməz; Axtardığım yar idi, yetirdi pərvərdigar!; Bildiyindən danış, bilmədiyin səni güdaza verər; Bəyəndiyindən seç götür; Aşıq gördüyünü çalar; Gördüyünü qoyub, eşitdiyini demə; Oxuduğunu demə, anladığını de; Dəli qazının yazdığını ağıllı qazı poza bilməz; Saydığını qoy kənara, gör fələk nə sayır.

-mış, -miş, -muş, -müş şəkilçiləri ilə düzələn feili sifətlərin substantivləşməsi: Sənə elə (bir) söz deyerəm ki, dəymişin duran yerdə kalın tökülər; Bir dəfə aldanmışda qəbahət aldadanın, iki dəfə aldanmışda qəbahət aldananın; Görən varmı mənimtək, Əli yardan üzülmüş; Ay görmüşün ulduza nə minnəti; Alışmış qudurmuşdan betərdi; Çox bilmiş çox çəkər; Açılmamış süfrənin bir eybi var, açılmışın min [2, s.49].

Feilin şəxsli formalarında substantivləşməyə əsas verən heç nə yoxdur. Bununla belə, nadir hallarda feilin şəxsli formalarının da substantiv məqamda işlənməsinə rast gəlmək olur. Bunlara əsasən məsəllərdə, alqış, qarğış və s. tipli nümunələrdə təsadüf edirik. Məsələn: Öldü var, döndü yoxdur; Oldu ilə öldüyə çarə yoxdur; Ay saqqalı ağarmış!; Ay (canı) sağ olmuş!; Ay canı yanmış!; Ay başı batmış və s. İngilis dilində başqa bir məhsuldar konversiya forması feildən ismə

olan konversiyadır. Aşağıdakı siyahıda feildən ismə konversiya nümunələri verilmişdir: to alert – alert (xəbərdar etmək– həyəcan siqnalı); to attack – attack (hücum etmək– hücum); to call – call (çağırmaq – çağırış); to clone – clone (çoxaltmaq – klon); to command – command (əmr etmək– əmr); to cover – cover (örtmək – örtük) [5]. Məsələn: The guard alerted the general to the attack – Növbətçi generalı hücuma görə xəbərdar etdi; The enemy attacked before an alert could be sounded – Həyəcan siqnalı edilməzdən öncə düşmən hücum etdi; Sometimes one just needs a good cry – Bəzən adamın yaxşı ağlamağa ehtiyacı olur; The baby cried all night – Körpə bütün gecəni ağladı; We need to increase our productivity to see an increase in profits – Mənfəətdə artım görmək üçün məhsuldarlığımızı artırmalıyıq [5].

ƏDƏBİYYAT

1. Atalar sözü / tərt. ed. Ə. Hüseynzadə. - Bakı: Yazıçı, - 1981. - 366 s.
2. Bayatılar / tərt. ed. H. Qasımov. - Bakı: Azərnəşr, - 1960. - 253 s.
3. Cavadov, Ə.M. Müasir Azərbaycan dili. Sifət / Ə.Cavadov. Bakı: Elm, - h. 2. 1980. 97 s.
4. Hüseynzadə, M. Müasir Azərbaycan dili. Morfologiya. Bakı: Maarif, 1983. - 319 s.
5. Heather, M.K. Grammatical Conversion in English: Converting Words Into Other Parts of Speech [Electronic resource] / URL: https://www.brighthubeducation.com/esl-lesson-plans/59339-teaching-word-formation-conversion/?ezoic-amp=1

G. BABANLI

SSUBSTANTIVIZATION OF THE VERB

SUMMARY

Substantivation derived from the Latin term "substantium", the literal meaning of the word is a noun. Substantivation usually has a new quality that shows itself in the parts of speech are used as subject and object, but not as a means of expression of these members. Substantivation is formed on the basis of the unity of the three aspects - lexical meaning, the syntactic and morphological feature. The process of Substantivation is very wide, almost all the parts of speech of words can substantivized. It can be concluded that while substantivating parts of speech only words directly related to the noun. Thus, you can find many substantivized adjectives, numerals, verbal adjectives. Words that directly relate to the noun would rarely substantivized. The proximity to the adjective creates favorable conditions for the substantiation of the participle. Among the indefinite forms of the verb, the participles are the most susceptible to substantivation. Substantiation of the infinitive comes second after it. The verbal participle is not substantivated in our language.

Key words: substantivation, noun, adjective, verb, verb-adjective, infinitive

Г. Бабанлы

Субстантивация глагола

РЕЗЮМЕ

Субстантивация происходить из латинского термина "substantium", буквальное значение слова является существительное. Субстантивация обычно имеются виду новые качество показывающий себя в частях речи, которые используется в качестве субъекта и объекта, но не является средством выражения этих членов. Субстантивация исходить на основе единства три аспекта – лексическое значение, синтаксическое функция и морфологические качество. Охват процесса Субстантивации очень широкий, почти все части речи слов может субстантивировать. При рассмотрении субстантивации частей речи можно прийти к выводы что только слова связано непосредственно с существительным. Таким образом, можно встретить много субстантивированных прилагательных, числительных, вербальных прилагательных. Слова, которые непосредственно имеют отношение к существительным, очень редко может субстантивироваться. Близость к прилагательному создает благоприятные условия для субстантивации причастии. Среди неопределенных форм глагола наиболее подверженный субстантивации это причастия. Субстантивация инфинитива после него занимает второе месте. Деепричастие в нашем языке не субстантивироваются.

Ключевые слова: субстантивация, существительное, прилагательное, глагол, глагол-прилагательное, инфинитив.

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: akademik Nizami Cəfərov
capa tovsiyə etmişdir.

ШАФИЕВА РОЗА ШАКИР ГЫЗЫ
Бакинский славянский университет
Баку, ул. С.Рустама 33

СЕМАНТИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В ЗАИМСТВОВАНИЯХ

РЕЗЮМЕ

В пополнении словарного состава того или иного языка определённую роль, как известно, играют заимствования из родственных и неродственных языков, относящиеся к внешним средствам номинации в отличие от внутренних языковых средств. В лексической системе русского и чешского языков значительное место занимают заимствования из тюркских или через посредство тюркских из других восточных языков, объединяемые вследствие этого общим термином «тюркизмы». Тюркские лексические элементы в русском и одинаково в чешском языках всегда были объектом внимания исследователей. Однако до сих пор они изучались преимущественно в историко-этимологическом плане. Анализу подвергались также отдельные группы тюркизмов в составе тематических групп. Между тем исследование тюркизмов предполагает не только выявление перечня слов, входящих в те или иные тематические группы. Описание их семантической эволюции в лексической системе русского и чешского языков также является темой многих научных работ. Важна прежде всего не столько констатация языкового источника и хронологического среза иноязычного слова, сколько выявление путей его проникновения, сферы и характера функционирования, системной лексико-семантической взаимосвязи заимствования с общим словарным составом русского и чешского языков. Наиболее полно характер семантических изменений, претерпеваемых тюркизмами в системе русского и чешского языков, можно представить в том случае, если нам удастся отграничить семантические изменения, являющиеся результатом функционирования слова в языке, от изменений, сопровождающих переход слова в славянские языки. Выявление семантических изменений тюркизмов при их заимствовании может быть осуществлено путём сравнения семантической структуры тюркизмов изучаемых нами славянских языков со структурой тех же слов в тюркских языках. Отдельные слова при переходе из языка в язык, как известно, сохраняют свою семантическую структуру без изменений. Но нередко семантика заимствований подвергается изменениям: сужению, расширению или переосмыслению значения. Тюркизмы в этом отношении не составляют исключения. Трудности изучения семантических изменений в заимствованиях возникают в силу ряда причин: мало изучена история контактов славянских и тюркских языков; неизвестно время

заимствования большинства тюркизмов; нередко трудно определить язык-источник заимствования; не известны обстоятельства и условия перехода слов, не всегда ясны взаимоотношения заимствований и исконных слов в тех тематических и лексико-семантических группах, в которые включаются иноязычные слова в момент заимствования. Ориентировка на первичную словарную фиксацию чревата рядом известных недостатков.

Ключевые слова: заимствования, чешский язык, русский язык, семантические изменения, структура

Распространено мнение, что заимствования занимают особое место в лексико-семантической системе языка. В момент своего вхождения в тот или иной язык иноязычное слово в известной степени как бы механически переносится в него и лишь в процессе освоения, подстраиваясь к фонетико-морфологическим и семантическим его нормам, изменяет свою звуковую оболочку и смысловой объём. Это, наряду с некоторыми другими показаниями, и даёт право считать лексему заимствованной. «Отсюда «заимствованное слово» (или «заимствование») является определением слова с этимологической, генетической точки зрения (диахронии); с точки зрения же синхронии - это в большинстве случаев по существу «обычное» слово, приравнивающееся к исконному, поскольку оно характеризуется такими же парадигматическими и синтагматическими свойствами» (5, с. 15). Убедительным подтверждением этого является тот факт, что, помимо подключения заимствований на равных правах с исконными словами в фонетико-морфологическую систему, они вписываются в лексико-семантический «организм» языка, выступая готовой звуковой оболочкой определённого значения для образования новых сем.

В пополнении словарного состава того или иного языка определённую роль, как известно, играют заимствования из родственных и неродственных языков, относящиеся к внешним средствам номинации в отличие от внутренних языковых средств. В лексической системе русского и чешского языков значительное место занимают заимствования из тюркских или через посредство тюркских из других восточных языков (арабского, персидского и т.д.), объединяемые вследствие этого общим термином «тюркизмы». Н.К.Дмитриев отмечает, что среди тюркизмов следует различать несколько пластов - слова «собственно тюркские» и заимствованные через тюркские языки), а также указывает на возможность и недиференцированного подхода к их описанию: «Во всех тюркских языках есть большой процент арабских, персидских, а иногда и монгольских лексических элементов. Арабские и персидские термины относятся к области мусульманской религии, научной и административной терминологии. Все эти моменты строго различаются в тюркологических работах. Однако при исследовании Tиrco-Slavica подобная

классификация признаётся излишней» (2, с. 516), так как все тюркизмы, какова бы ни была их предыдущая история, попали в русский и чешский языки ближайшим образом из тюркских языков.

Тюркские лексические элементы в русском и одинаково в чешском языках всегда были объектом внимания исследователей. Однако до сих пор они изучались преимущественно в историко-этимологическом плане. Анализу подвергались также отдельные группы тюркизмов в составе тематических групп. Между тем исследование тюркизмов предполагает не только выявление перечня слов, входящих в те или иные тематические группы, но и описание их семантической эволюции в лексической системе русского и чешского языков. Важна прежде всего не столько констатация языкового источника и хронологического среза иноязычного слова (хотя значительность этого отнюдь не снимается), сколько выявление путей его проникновения, сферы и характера функционирования, системной лексико-семантической взаимосвязи заимствования с общим словарным составом русского и чешского языков. Наиболее полно характер семантических изменений, претерпеваемых тюркизмами в системе русского и чешского языков, можно представить в том случае, если нам удастся отграничить семантические изменения, являющиеся результатом функционирования слова в языке, от изменений, сопровождающих переход слова в славянские языки. Выявление семантических изменений тюркизмов при их заимствовании может быть осуществлено путём сравнения семантической структуры тюркизмов изучаемых нами славянских языков со структурой тех же слов в тюркских языках. Отдельные слова при переходе из языка в язык, как известно, сохраняют свою семантическую структуру без изменений. Но нередко семантика заимствований подвергается изменениям: сужению, расширению или переосмыслению значения. Тюркизмы в этом отношении не составляют исключения. Трудности изучения семантических изменений в заимствованиях возникают в силу ряда причин: мало изучена история контактов славянских и тюркских языков; неизвестно время заимствования большинства тюркизмов; нередко трудно определить язык-источник заимствования; не известны обстоятельства и условия перехода слов, не всегда ясны взаимоотношения заимствований и исконных слов в тех тематических и лексико-семантических группах, в которые включаются иноязычные слова в момент заимствования. Ориентировка на первичную словарную фиксацию чревата рядом известных недостатков. Но тем не менее при анализе мы в основном ориентировались на материалы словарей. Думается, что изменение семантики слова могло произойти в момент заимствования при следующих условиях: 1.Если многозначное тюркское слово моносемично в славянских языках; 2.Если однозначное тюркское слово с широкой предметной соотнесённостью имеет в славянских языках одно значение, но соотносится с меньшим кругом явлений.

Кроме того, если слово в тюркских языках имеет одно значение, а в славянских - другое, то это переосмысление можно считать произошедшим непосредственно при заимствовании лишь в том случае, если толковые словари русского и чешского языков не зафиксировали постепенное освоение и изменение значения данного тюркизма. «Полисемия тюркизма есть результат семантического развития тюркизма в русском и чешском языках, так как заимствования всех значений тюркского слова не происходит» (1, с. 48). Метод сопоставления семантических структур имеет ряд недостатков. Так, ввиду малой изученности истории семантического развития тюркизмов затруднительно проводить сравнение структур слов, принадлежащих разным эпохам. Помехой служит также невозможность точного установления конкретного языка-источника тюркизма, так как в группе предполагаемых языков-источников одно и то же слово может иметь разное количество значений. А это препятствует объективной оценке характера изменений значений, возникших при заимствовании. Однако отмеченные недостатки данного метода (во многом носящие объективный характер) не могут полностью обесценить значения тех выводов, которые при его помощи можно получить.

Сопоставление структур общих слов двух языков позволяет определить характер и направленность семантических модификаций заимствований в новой языковой системе. Вместе с тем по особенностям семантических изменений заимствований можно с большой достоверностью судить о степени освоенности их системами русского и чешского языков.

На славянской почве тюркская по происхождению лексема воспринимается без осмысления семантического содержания модели этимона, как бы в готовом виде, как языковой знак соответствующей реалии (понятия). Показателем освоенности иноязычного слова, его органического вхождения в лексико-семантическую систему языка служит превращение слова - «знака» в функционирующую модель. Как показывает лексический материал, лишь немногие тюркизмы «уединяются в одном особом специфическом значении» (4), с большинством же это происходит только на первых порах, а в дальнейшем они становятся источником новых переносных и образных значений.

ЛИТЕРАТУРА

1.Бабаев К.Р. Семантические изменения тюркизмов при их заимствовании // Советская тюркология, 1972, №2.

2.Дмитриев Н.К. Строй тюркских языков. М., 1962, с.515

3.Тагиев М.Т. Наблюдения над употреблением слов тюркского происхождения в русских письменных памятниках XVI-XVII вв. / Тюркизмы в восточнославянских языках. М.: Наука, 1974.

4. Сорокин Ю.С. Развитие словарного состава русского литературного языка. 30-90-е годы XIX в. М.-Л.: 1965, с.59

5. Юналеева г.А. О семантических моделях тюркизмов в лексической системе русского языка // Советская тюркология, 1984, №2, с.15

6. Zajíček Libor. Turkická slova v ruštině ve srovnání s češtinou a s přehlednutím k dalším slovanským jazykům: Diplomová práce. Praha: 1997.

R.Ş.Şəfiyeva

ALINMA SÖZLƏRDƏ SEMANTİK DƏYİŞİKLİKLƏR

XÜLASƏ

Bir dilin lüğət ehtiyatının artırılmasında, bildiyiniz kimi, daxili dil vasitələrindən əksinə xarici namizədlik vasitələrinə istinad edərək əlaqəli və əlaqəsi olmayan dillərdən alınan sözlər müəyyən bir rol oynayır. Rus və Çex dillərinin leksik sistemində bunun nəticəsində ortaq "türkizmlər" termini ilə birləşdirilən türk və ya digər şərq dillərindən türk dilləri vasitəsi ilə alınan sözlər əhəmiyyətli yer tutur. Rus və Çex dillərində türk leksik elementlər hər zaman tədqiqatçıların diqqət mərkəzində olmuşdur. Lakin bu günə qədər əsasən tarixi və etimoloji baxımdan tədqiq edilmişdir. Tematik qruplar içərisində ayrıca türkizm qrupları da təhlil edildi. Bu arada türkizmlərin araşdırılması yalnız müəyyən tematik qruplara daxil olan sözlərin siyahısını müəyyənləşdirməyi əhatə etmir. Rus və Çex dillərinin leksik sistemində onların semantik təkamülünün təsviri də bir çox elmi əsərin mövzusudur. Bir xarici dil sözünün linqvistik mənbəyinin və xronoloji hissəsinin ifadəsi vacib olduğu kimi, nüfuz yollarını, fəaliyyət dairəsini və mahiyyətini, rus və çex dillərinin ümumi lüğəti ilə alınmanın sistemli leksik və semantik qarşılıqlı əlaqələrini müəyyənləşdirmək qədər vacibdir. Rus və Çex dilləri sistemindəki türkizmlərin məruz qaldığı semantik dəyişikliklərin mahiyyəti, sözün dildə işləməsi nəticəsində yaranan semantik dəyişiklikləri sözün slavyan dillərinə keçməsini müşayiət edən dəyişikliklərdən ayırd etməyi bacarsaq ən yaxşı şəkildə təsəvvür edilə bilər. Türkizmlərin alınma zamanı məna dəyişikliyini aşkar etmək, tədqiq etdiyimiz slavyan dillərindəki türkizmlərin semantik quruluşunu türk dillərindəki eyni sözlərin quruluşu ilə müqayisə etməklə həyata keçirilə bilər. Məlum olduğu kimi, fərdi sözlər dildən dilə keçərkən semantik quruluşunu dəyişməz saxlayır. Ancaq tez-tez alınma sözlərin semantikası dəyişikliklərə məruz qalır: mənası daralır, genişlənir və ya yenidən düşünülür. Türkizmlər bu baxımdan istisna deyil. Alınma sözlərdəki semantik dəyişikliklərin öyrənilməsində çətinliklər bir sıra səbəblərə görə ortaya çıxır: slavyan və türk dilləri arasındakı əlaqə tarixi az öyrənilmişdir; türkizmlərin əksəriyyətinin alınma vaxtı məlum deyil; alınma mənbəyi olan dili müəyyənləşdirmək çox vaxt çətindir; sözlərin keçid şəraitləri və şərtləri məlum deyil, alınma anında xarici sözlərin daxil olduğu tematik və leksik-semantik qruplardakı alınma və orijinal sözlərin əlaqəsi həmişə

aydın deyil. İlkin söz ehtiyatının düzəldilməsinə yönəlmə bir sıra məlum çatışmazlıqlar ilə nəticələnə bilər.

Açar sözlər: alınma sözlər, çex dili, rus dili, semantik dəyişikliklər, quruluş.

R.Sh.Shafiyeva

SEMANTIC CHANGES IN BORROWED

SUMMARY

In the replenishment of the vocabulary of a language, a certain role, as is known, is played by borrowings from related and unrelated languages, referring to external means of nomination, in contrast to internal linguistic means (word formation, semantic rethinking of words, and so on). In the lexical system of the Russian and Czech languages, borrowings from the turkic or through the turkic from other Eastern languages, which are united as a result of this by the common term "turkisms", occupy a significant place. Turkic lexical elements in Russian and equally in Czech languages have always been the object of attention of researchers. However, until now they have been studied mainly in the historical and etymological terms. Separate groups of turkisms within thematic groups were also analysed. Meanwhile, the study of turkisms presupposes not only the identification of the list of words included in these or those thematic groups. The description of their semantic evolution in the lexical system of the Russian and Czech languages is also the subject of many scientific works. First of all, it is not so much a statement of the linguistic source and chronological section of a foreign language word that is important (although the significance of this is by no means removed), as the identification of the ways of its penetration, the scope and nature of its functioning, the systemic lexical and semantic relationship of borrowing with the general vocabulary of the Russian and Czech languages. The nature of the semantic changes undergone by the turkisms in the system of the Russian and Czech languages can be most fully imagined if we manage to distinguish the semantic changes resulting from the functioning of the word in the language from the changes accompanying the transition of the word to the Slavic languages. Revealing the semantic changes of the turkisms during their borrowing can be carried out by comparing the semantic structure of the turkisms of the Slavic languages we study with the structure of the same words in the turkic languages. As is known, individual words, when passing from language to language, retain their semantic structure unchanged. But often the semantics of borrowings is subject to changes: narrowing, expanding or rethinking the meaning. Turkisms in this respect are no exception. Difficulties in studying semantic changes in borrowings arise for a number of reasons: the history of contacts between Slavic and Turkic languages has been little studied; the time of borrowing most of the turkisms is unknown; it is often difficult to determine the language that is the source of the borrowing; the circumstances and conditions of the transition of words are not known, the relationship of borrowings

and original words in those thematic and lexical-semantic groups in which foreign words are included at the moment of borrowing are not always clear. The orientation towards primary vocabulary fixation is fraught with a number of well-known shortcomings.

Key words: borrowed words, Czech language, Russian language, Semantic changes, structure

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: filologiya elmləri doktoru, professor Gülər Abdullabəyova capa tovsiyə etmişdir.

İRADƏ ƏLİYEVA
ATU
Səməd Vurğun küç.
iradaazeri@mail.ru

PREDİKATİVLİK KATEQORİYASININ AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏKİ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI

Xülasə

Məqalədə sintaksisin ən mühüm kateqoriyalarından olan predikativlik anlayışı Azərbaycan və ingilis dillərinin qrammatikası əsasında araşdırılmışdır. Məqalə boyu hər iki dilin sintaktik sistemində bu kateqoriyanın tutduğu mövqe, onu yaradan vasitələr, ifadə formaları tədqiqata cəlb edilmişdir. Müxtəlif dilçilərdən gətirilən sitatlarla təqdim edilən fikirlər əsaslandırılmışdır.

Predikativlik həm qrammatik, həm də məntiqi kateqoriya kimi dəyərləndirilir. Predikativlik elə bir qrammatik kateqoriyadır ki, bütün cümlə növlərində müxtəlif formalarda təzahür edir.Cüttərkibli cümlələrdə olduğu kimi, təktərkibli cümlələrdə, yarımçıq cümlələrdə, hətta üzvlənməyən cümlələrdə belətəzahür formaları və dərəcələri müxtəlif olan predikativlik müşahidə olunur. Predikativliyin ifadə vasitələri hesab edilən felin forma, zaman, şəxs şəkilçiləri, ədatlar, intonasiya və modal sözlərin biri və ya bir neçəsi iştirak etməklə predikativlik reallaşır. Həm ingilis, həm də Azərbaycan dillərində predikativliyin yalnız intonasiya və ya şəxs şəkilçiləri əsasında formalaşan nümunələri verilmiş və predikasiya əlaqəsi izah edilmişdir. Predikativlik cümlənin ən mühüm əlaməti və funksiyası olan kommunikativliyin əsasını təşkil edir.

Açar sözlər: predikativlik, intonasiya, cümlə, dilçilik, modallıq

Hansı dil qrupuna aid olmasından asılı olmayaraq bütün dillərdə ən mühüm kateqoriyalardan olan cümlə və onun strukturu hər zaman dilçilərin diqqət mərkəzində olan bir kateqoriyadır. Dilin bütün vahidləri cümlədə toplandığından cümlə dilin fonetikadan tutmuş üslubiyyata qədər bütün sahələrinin öyrənilməsi üçün lazım olan bütün faktları verə bilir. Cümlə çox zaman dilçilər tərəfindən "cümlə elə dilin özüdür" deyə mənalandırılır,lakin hər hansı hökmün cümlə olması üçün bəzi əlamətlərə malik olması vacibdir: bitkinlik, modallıq, intonasiya, predikativlik.

Predikativlik sözü latın mənşəli "predikat" sözündəndir. Predikativliyi məntiqi termin adlandıranlar onu məntiqdə "hökmün obyekti haqqında deyilən fikir, məntiqi xəbər" kimi mənalandırırlar. Qrammatikada isə predikativlik "xəbər" mənasını daşıyır. F. Veysəllipredikativliyi mahiyyət etibarilə, "özünə qayıdışla", təkrarla əlaqələndirir. "Belə ki, cümlədə "subyekt ideyasının təmsilçisi olan mübtəda son mövqedə feili xəbərdəki və ya ismi xəbərdəki şəxs sonluğunun varlığı ilə təkrara uğrayır, beləliklə də sistemi(cümlə sistemini) qapayır"(5,212).Cümlə sistemində

meydana çıxan bu qapanmanın nəticəsi kimi cümlə yaranır. Cümlənin meydana çıxması üçün şəxs sonluqlarının olması əsas şərtlərdən biridir. Elmi dilçilikdə belə bir fikir hökm sürür ki, dilin tarixi inkişaf mərhələlərində cümlədəki hər sözün özünəməxsus predikativliyi olmuşdur. Sonradan başqa üzvlərdəki predikativlik zəifləmiş, nəhayət predikativlik cümlənin xəbərində möhkəmlənmişdir. Beləliklə tək predikativli cümlə formaları yaranmışdır.Q.Kazımov isə predikativliyi cümlənin əsas şərtlərindən biri kimi izah edir: "Hər bir cümlə predikativliyə, modallığa və bitkinlik intonasiyasına malik olan bir səslə, bir sözlə, bir söz birləşməsi və sözlərin müxtəlif şəkildə birləşməsi ilə ifadə oluna bilər"(4, s.48).

Azərbaycan dilçilərinin hazırladığı izahlı dilçilik terminləri lüğətində predikativlik bu şəkildə izah olunur: "Predikativlik cümlənin əsasını, mahiyyətini təşkil edir. Predikativliyin qrammatik ifadə vasitələri zaman kateqoriyası, şəxs kateqoriyası və modallıq kateqoriyasıdır. Ona görə zaman zaman kateqoriyasıdır ki, xarici aləmə məxsus bütün hadisələr müəyyən zaman ərzində baş verir və hər söyləmin məzmunu da müəyyən zamanla əlaqədar dərk olunur. Ona görə şəxs kateqoriyasıdır ki, hər bir söyləm mütləq üç şəxsdən biri ilə əlaqələnir. Ona görə modallıq kateqoriyasıdır ki, hər bir söyləmi deyən şəxs mütləq öz münasibətini də bildirmiş olur"(1,220).

Tədqiqatçıların ümüumi qənaətinə görə deyə bilərik ki, predikativliyi üç variantda izah etmək olar: "..a) predikativlik –subyekt ilə predikat arasında əlaqə (münasibət) dir(məntiqi aspekt); b)tema ilə rema arasında əlaqədir (kommunikativ aspekt); v)mübtəda ilə xəbər arasında əlaqədir(qrammatik aspekt).

Müasir ingilis dilində predikativlik,xəbərlik,cümlə və modallıq haqqında bəzən bir-birinə zidd fikirlər irəli sürülür.Əksər dilçilər belə bir fikri müdafiə edirlər ki,modallıq hər bir cümlənin mühüm əlaməti olub predikativlə üzvü surətdə bağlıdır.Bu fikri müdafiə edən dilçilər predikativliyi cumlənin mahiyyətini təyin edən,müəyyənləşdirən qrammatik kateqoriyaların topluluğu hesab edir.Zaman və şəxs kateqoriyalarını da onun tərkib hissəsi hesab edirlər.Onların fikrincə,bu kateqoriyalar birlikdə ali və xüsusi bir kateqoriya- predikativlik kateqoriyasını yaradır.N.Valqina cümlənin qrammatik cəhətdən təşkili üçün predikativliyi əsas şərt hesab edir və yazırdı: "Predikativlik cümlənin əsas xüsusiyyəti hesab edilir. Çünki qeyri-predikativ xarakter daşıyan söz və söz birləşmələrindən fərqli olaraq, cümlə müəyyən bir fikri bildirdiyi üçün ilk olaraq predikativ kimi ifadə olunur" (6, s. 137).

There was a brief pause in the conversation they ***were trying to get started.****Then she* ***asked*** *tentatively about the scar on his cheek. Even as she* ***asked,*** *he* ***realized*** *that she* ***was making*** *an effort to* ***talk his talk****, and he* ***resolved to get*** *away from it and* ***talk*** *hers*.Bu cümlələrdə sadə və mürəkkəb feillərdən, feili sifət tərkiblərindən və feili bağlamadan istifadə edilməklə predikativlik formalaşdırılmışdır.

V.Q.Admoni və İ.B.Xlebnikova isə predikativliyin modallıqla üzvü əlaqədə olmadığı fikrini müdafiə edirlər.Xəbərlik kateqoriyası, doğrudan da, cümlə üzvü

olmaq etibarı ilə xəbərlə bağlıdır,ancaq xəbəri olan cumlələrə xasdir. Predikativlik isə hec bir cümlə üzvü,eləcə də xəbərlə bağlı olmayan bitmiş bir fikri real varlığa aid etmək qabiliyyətidir. Xəbərlik və predikativlik kateqoriyaları arasındakı münasibət təqribən mübtəda ilə məntiqi subyekt,xəbər obyekti arasındakı münasibət kimidir. Bunlar yalnız belə halda uygun gələ bilər,lakin eyni hadisə olmazlar. Predikativlik xəbərlik kateqoriyasından fərqli olaraq,məntiqi-qrammatik kateqoriyadır"(2.s.75).

Cümləyə tərif verərkən predikativliyi də vurğulayan E.Vikulova yazır: "Cümlə predikativliyi olan və müəyyən sintaktik model əsasında sözlərin birləşməsindən yaranan, nitq ünsiyyətində istifadə edilən kiçik sintaktik quruluşdur." Bu tərif cümlənin üç aspektinə fokuslanır: praqmatik, semantik və struktur. Predikativlik cümlə üçün əsas, hətta bəzi dilçilər üçün ən əsas qrammatik şərtdir"(7,66).Bütün dilçilərin ortaq fikri kimi mənalandırdığımız "cümlənin əsas əlamətlərindən biri" olan predikativliyin yaranması bir sıra vacib məqamlardan asılıdır. B.Xəlilov predikativiyin yaranması üçün bir sıra vacib məqamları vurğulayır.

1. Predikativlikdedikdə sözlərinvə sözünhadisə, proses, varlıqvə s. Haqqında məlumat verməkimkanı nəzərdə tutulur. Belə ki, burada hər hansı bir hadisə haqqında məlumat verilir. Bu zaman həmin hadisəyə (prosesə, məsələyə, varlığa və s.-yə) münasibət bildirilir. Beləliklə, həqiqətə münasibət predikativliyin yaranmasında mühüm rol oynayIr.
2. Predikativliyin yaranması üçün sözlərin qrammatik qayda-qanunlara uyğun düzülüşündən, qrammatikqayda-qanunlarauyğun əlaqələnməsindən çox şey asılıdır.
3. Predikativliyin vacib cəhətlərindən biri cümlənin xəbərinin olmasıdır. Deməli, xəbərpredikativliyinvacibdaşıyıcılarındandır. Onagörə də predikativlik deyəndə xəbərlik, xəbərlik deyəndə predikativlik yadadüşür. Predikativlik xəbərlə mübtəda arasında qarşılıqlı əlaqə əsasında baş verir.
4. Predikativliyin sərhəddi cümlədən başlayır. Ona görə də sözlərdə və söz birləşmələrində predikativlikdən danışmaq mümkün deyildir.
5. Predikativliyin qrammatik ifadə vasitələri var: feilin forma və zaman şəkilçiləri, şəxs şəkilçiləri, ədatlar, intonasiya və s."(3, 71).

Predikativlik fikir bildirmə və formalaşdırma vasitəsi kimi çıxış edir, zaman və şəxs şəkilçiləri vasitəsilə reallaşan feili və ya ismi formanın mübtəda ilə şəxs əlamətlərinin birləşməsindən yaranır. Mübtəda və xəbərin şəxsə və kəmiyyətə görə uzlaşması predikativ münasibətin əsas göstəricisidir. Burada diqqət edilməli məqam mübtəda ilə xəbər arasındakı münasibətin təkcə cüttərkibli cümlələr üçün xarakterik olmasıdır, lakin dilimizdə kifayət qədər işlək təktərkibli cümlələr də var ki, predikativlik onlar üçün də əsas məqamlardandır. Əslində isə təktərkibli cümlələrdə də predikativlik olur. Yəni, predikativliyə yalnız xəbər və mübtədanın mütləq şəkildə işləndiyi cümlələrdə yox, baş üzvlərdən birinin var olduğu cümlələrdə də rast gəlinir. Sadəcə olaraq cüttərkibli cümlə ilə müqayisədə təktərkibli cümlələrdə predikativlik

daha zəif təzahür edir. Bu onunla izah olunur ki, cüttərkibli cümlələrdə paradiqm sistemi olur. Təktərkibli cümlələrdə isə paradiqm olmur.Predikativ münasibət cüttərkibli cümlədə xəbərlə mübtəda arasında, təktərkibli cümlələrdə isə baş üzvlə ifadə edilir.

...Uzun yol.
Sərnişinlər,
Bir də Bakı vağzalı.
İzdiham. (Rəsul Rza)

Bu adlıq cümlələr gördüyümüz kimi predikativliyin xüsusi əlamətlərini qəbul etməyib, lakin bu cümlələr sadə cümləyə xas əlamətlərdən olan bitkinlik və intonasiyaya malikdir.

Azərbaycan dilində olduğu kimi, ingilis dillərində adlar xəbər tərkibində, xəbər finksiyasında işlədilir. Hətta bəzi cümlə formalarında xəbər cümlə üzvü kimi formalaşmasa dapredikasiya öz yerini tutur. Bu səbəbdən deyə bilərik ki, predikativlik subyekt və predikat arasındakı münasibətdən daha genişdir.

-Forward!,-Ahead!,-Left!, -Fire!,-Back!-tipli cümlələrdə hökmün qısalığını, aydınlığını təmin etmək üçün həqiqi cümlənin elliptik formasından istifadə edilir. Ona görə də bu cümlələrdə Azərbaycan dilindəki adlıq cümlələrdə də olduğu kimi predikativliyin leksik və qrammatik vasitələrinin tam toplusu iştirak etmir. Buna baxmayaraq bu əlamətləri məntiqi olaraq bərpa etmək mümkündür.Məsələn, bu cümlələri Fire!- Make fire!, Back!-Turn back!,Forward!- Go forward!şəklinə salmaq mümkündür. Nümunələrdən də göründüyü kimi, bu tip cümlələrdə xəbərlər əslində feil vasitəsilə formalaşır, lakin istifadə formalarına görə ismi əmr cümlələri adlandırılır.

İntonasiya cümlənin əsas əlamətlərindən olan peredikativliklə qarşılıqlı şəkildə əlaqədədir. Bu əlaqəni danışıq dili nümunələri əsasında daha dəqiq müşahidə etmək mümkündür. Belə ki, intonasiya formal sürətdə göstərilməyən predikativliyin əvəzləyicisi kimi çıxış edir, müxtəlif leksik seqmentlərə, söz birləşmələrinə məlumat bildirmə imkanı verir. İntonasiyanın bu funksiyası, şübhəsiz ki, kontekst daxilində konkret situasiya ilə əlaqədar şəkildə özünü göstərir.

The Wimpole Street laboratory. Midnight. Nobody in the room. The clock on the mantelpiece strikes twelve. The fire is not alight: it is a summer night (B.Shaw). The sixth of March, 1886 (B. Shaw). Another five days (E.Waugh).- bu cümlələrdə predikativliyin əsas göstəricisi intonasiyadır.

Yarımçıq cümlələr intonasiya sayəsində nitq prosesində predikativlik xüsusiyyəti kəsb edir. Bəzən isə canlı danışıq dilində elə konstruksiyalara rast gəlmək olur ki, onlar yarımçıq cümlələrlə formal yaxınlıq təşkil edirlər. Başqa sözlə kontekstdən kənarda yarımçıq cümlə təəssüratı bağışlayırlar. Kontekst daxilində isə bu konstruksiyalar yarımçıq cümlələrdən bir sıra incə xüsusiyyətlərlə fərqlənirlər ki, bu xüsusiyyətlər içərisində birinci növbədə özünəməxsus intonativ xüsusiyyətləri və semantik baxımdan qeyri-müstəqilliyi qeyd etmək lazım gəlir. Həmin

konstruksiyaların yaranmasına dilçilik ədəbiyyatında parselvasiya hadisəsi adı verilmişdir. Bu hadisə qoşulma cümlə kimi də verilir. Qoşulma cümlə əsas cümləyə intonasiya ilə bağlanır. Məsələn: Uşaqlar sevinirdilər. Böyüklərdə! Göydəki günəşdə! (Ə. Sadıq)

Feilin predikativ formaları predikasiyanın əsas ifadə vasitələrindəndir. Feilin predikativ və ya şəxs formaları şəxsi, kəmiyyəti və zamanı ifadə edir. Predikasiyanın əsas elementi modallıqdır. Feil şəkli formalarında modallıq predikasiyanı modifikasiya edir, gerçəkliklə əlaqəsini göstərir. Cümlədə predikasiyanın əsas ifadə vasitəsi olan feil bəzi dillərdə işlənməyə də bilər. Rus və ingilis dillərinin sintaktik quruluşlarında xəbəri ismi xəbər formasına uyğun gələn cümlələrdə feil buraxılır. “Why not go there?”, “No smoking!”, “English spoken here” tipli elan yazıları buna ən yaxşı nümunədir. Predikasiyanın ifadəsində zaman kateqoriyası da aparıcı kateqoriyalardandır və bu kateqoriya yalnız xəbər şəkli ilə məhdudlaşır. Azərbaycan dilində mövcud olan üç zaman anlayışı bir çox dillər üçün eyni olsa da, müxtəlif dillərdə zamanların müxtəlif formaları müəyyənləşmişdir.

Araşdırmamızdan belə nəticəyə gəldik ki, istər Azərbaycan, istər də ingilis dilin sintaksisində predikativlik mühüm kateqoriyalardandır. Cümləni formalaşdıran əsas amillər-bitkinlik, modallıq, intonasiya və predikativlik cümləni ayaqda tutan anlayışlardır. Predikativlik anlayışı qrammatik kateqoriya olub haqqında bəhs edilən hadisənin hər hansı bir zamanda icra olunduğunu bildirən real və qeyr-real hadisələri ifadə etməyə yardımçı olan, buna imkan yaradan qrammatik xüsusiyyətdir.

Ədəbiyyat

1. Adilov M.İ., Verdiyeva Z.N.,Afayeva F.M. İzahlı dilçilik terminləri. Bakı, “Maarif” nəşriyyatı, 1989, 362 s
2. Blokh Y.A “Course in theoreticaEnglish Grammar”, 1983, 73 p.
3. Xəlilov B.“Müasir Azərbaycan dili”. Bakı, “Adiloğlu” 2017, 428 s.
4. Kazımov Q.Ş., Müasir Azərbaycan dili. Sintaksis. Bakı, Aspoliqraf LTD MMC,2004, 494 s.
5. Veysəlli F.Y., Kazımov Q. Ş., Kazımov. İ.K. B., MəmmədovA. Y. Azərbaycan dilinin funksional qrammatikası: sintaqmatika, söz birləşməsi və sadə cümlə sintaksisi. III c. Bakı: 2014
6. Валгина Н.С., Синтаксис современного русского языка. Москва, ВШ,1973, 423 с.
7. Викулова Е.А. Теоретическая грамматика современного английского языка. Екатеринбург Издательство Уральского университета 2014. 86

ИРАДА АЛИЕВА

СРАВНИТЕЛЬНАЯ ХАРАКТЕРИСТИКА ПРЕДИКАТИВНОЙ КАТЕГОРИИ В АЗЕРБАЙДЖАНСКОМ И АНГЛИЙСКОМ ЯЗЫКАХ

Резюме

В статье сравнивается понятие предикатива, одной из важнейших категорий синтаксиса. Эта синтаксическая категория была изучена на основе грамматики азербайджанского и английского языков. На протяжении всей статьи объясняется положение этой категории в синтаксической системе обоих языков. Предикативные средства и формы выражения были задействованы в исследовании. Представленные идеи основаны на цитатах разных лингвистов.

Предикативность оценивается как грамматическая, так и логическая категория. Предикативность - это грамматическая категория, которая проявляется в различных формах во всех типах предложений. Как и в предложениях с двумя предложениями, предикативы с разными формами и степенями проявления наблюдаются в предложениях с одним предложением, неполными предложениями и даже несложными предложениями.

Форма глагола, время, суффиксы лица, привычки, интонация и модальные слова считаются средствами выражения сказуемого. предикативное имеет место при наличии одного или нескольких из них. В статье приводятся примеры предикативов как в английском, так и в азербайджанском языках, образованные только на основе интонации или суффиксов лица. В этих примерах объясняются отношения предикации. Предикативность - это основа коммуникативности, которая является наиболее важной характеристикой и функцией предложения.

Ключевые слова: предикативность, интонация, предложение, лингвистика, модальность.

IRADA ALİEVA

COMPARATIVE CHARACTERISTIC OF THE PREDICATIVE CATEGORY IN AZERBAIJAN AND ENGLISH LANGUAGES

Summary

The article compares the concept of predicate, one of the most important categories of syntax. This syntactic category was studied on the basis of the grammar of the Azerbaijani and English languages. The extension of the whole article explains the position of this category in the syntactic system of both languages. Predicative means and forms of expression were involved in the study. The ideas presented are based on quotations from various linguists.

Predicativeness is valued as both a grammatical and a logical category. Predicativeness is a grammatical category that manifests itself in various forms in all sentence types. As in double-sentence sentences, predicatives with different forms

and degrees of manifestation are observed in single-sentence sentences, incomplete sentences, and even non-compound sentences.

The form of the verb, time, person suffixes, habits, intonation and modal words are considered means of expression of predicative. predicative takes place in the presence of one or more of them. The article gives examples of predicative in both English and Azerbaijani languages formed only on the basis of intonation or person suffixes. The predication relationship in these examples is explained. Predicativeness is the basis of communicativeness, which is the most important feature and function of a sentence.

Keywords: predicative, intonation, sentence, linguistics, modality

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: filologiya üzrə fəlsəfə doktoru
Natavan Hacıyeva capa tovsiyə etmişdir.

MEHRİBAN ƏFƏNDİYEVA
Azərbaycan Dillər Universiteti
mehriban.afandiyeva72@mail.ru
Rəşid Behbudov, 134

LEKSİKOLOGİYA HAQQINDA ANLAYIŞLARIN ÖYRƏDİLMƏSİ

XULASƏ

Nəticə olaraq Məqalədə leksikalogiya haqqında geniş və ətraflı yazilmişdır. Leksikalogiya leksikanin tərkib hissəsi olan fraziyalogiya sözün həqiqi və məcazi mənası omonim sinonim antonimlər haqqında geniş məlumat verilmişdir sözün leksik mənası onun anlayışları həqiqi və məcazi mənası fərqləndirən cehetləri haqqında məlumat verilmişdir. Azərbaycan dilinin lüğət tərkibindəki sözlərin ifadə etdikləri məna haqqında bir çox misallarla göstərilmişdir. Leksikalogiya bəhsinin tədrisi zamanı müəllim şagirdlərin bir sıra lüğətlərlətlərlə tanışlığı və onlardan idtifadə qaydalarının ğyrədilməsi haqqında geniş məlumat verilmişdir. Sabit və sərbəst söz birləşmələri haqqındaoxşar cəhətlər sərbəst söz birləşmələrinin komponentlər arasında tabelilik əlaqesinin mövcüdluğu haqqında geniş yazılmışdır. Məqalədə Azərbaycan sözlərinin və alınma sözlərin leksika bəhsində mənşəyə görə qrupların öyrədilmısi lügət tərkibindəki sözlərin hansı mənşəyə uyğun olması haqqında məlumat verilmişdir. Antonimlərin sinonimlərin yaxşı mənimsədilməsi şagirdlərin şifahi və yazılı nitqinin dəqiqliyi haqqında yazilmişdir.

Açar sözlər:linqivistika, leksikalogiya, soz, interaktiv, omonim

Söz dilçilikdə fonetik, leksik, morfoloji, etimoloji, sintaktik, söz yaratma, üslubi cəhətdan öyrədilir. Fonetika bölməsində danışıq səsləri, onların növləri; morfologiyada morfemlər, onların quruluşu; söz yaratmada söz yaratma imkanları; üslubiyyatda sözün üslubi imkanları və s. qeyd olunur. Leksikologiya bəhsini tədris edərkən dilin lüğət tərkibi, onun müasir vəziyyəti və inkişaf qanunauyğunluqları əsas götürülür. Leksikanın tədrisi şagirdlərə Azarbaycan dilinin söz ehtiyatı ilə, onu zənginləşdirən əsas mənbələrlə, lüğət tərkibindəki söz qrupları, onların mənaları, nitqdə işlədilməsi imkanları və s. ilə tanış olmağa imkan verir (l,s.175). Eyni zamanda lüğətlər, onların tərtibi prinsipləri haqqında şagirdlərə məlumat verilir.

Fonetika və qrammatika bölmələrinə nisbətən leksikologiya və frazeologiya bəhsinin sistemli tədrisinə son 30 ildə başlanmışdır. 60-ci illərə qədər leksikologiya va frazeologiyanın tədrisi fonetika və qrammatikanın tərkibində bəzi nəzəri məsələlərlə qeyd olunurdu. 60-cı illərdən sonra bu bölmənin sistemli tədrisinə başlandı. 70-ci illərin tədris proqramında frazeologiya və leksikologiya V sinifdən

tədris edilməyə başlandı və onun tədrisi üçün 37 saat vaxt ayrıldı. Frazeologiya dilçiliyin ayrı sahəsi olsa da o, leksikologiyanın tərkibində tədris edilir. Nisbətən çətin hesab edilən frazeologiya və sözlərin mənşə və işlənmə dairəsinə görə qruplarının VI sinifdə tədris edilməsi nəzərdə tutulmuşdur (2, s. 351).

Leksikologiya haqqında anlayışların öyrədilməsi dedikdə leksikanın tərkib hissəsi olan frazeologiya, sözün leksik mənası, sözün həqiqi və məcazi mənası, təkmənalı sözlər, omonim, sinonim, antonimlər, əsl Azarbaycan sözləri və alınma sözlər, köhnəlmiş və yeni sözlər, terminlar, dialekt sözlərin tədrisi nəzərdə tutulur. Leksika və frazeologiya təliminin məktəb kursunda böyük nəzəri va praktik əhəmiyyəti vardır. V və VI siniflərdə leksik anlayışları aşağıdakı istiqamətdə tədris etmək nəzərdə tutulur:

1. Söz sabit söz birləşmələri (frazeoloji birləşmələr), onların ifadə etdikləri anlayışlar, bu anlayışların mənası va sözün etimologiyası ilə tanışlıq;
2. Anlayışların başlıca əlamətlərini müəyyənləşdirrnək;
3. Öyrədilən anlayışların əlamətlərini ümumiləşdirmək, onların tərəflərini formalaşdırmaq;
4. Sözlərin, sabit söz birləşmələrinin üslubi rolu ilə mətn daxilində tanış olmaq.

Leksik anlayışların bu mərhələlər üzrə mənimsədilməsi şagirdlərə onların mahiyyətini açmağa, sözlə onun ifadə etdiyi anlayışı əlaqələndirməyə imkan verir (1, s.176).

Leksika və frazeologiya bəhsi şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi ilə üslubi formalara praktik olaraq yiyələnməklə bağlı aparılan işlərin elmi zəminidir. Bu bölmələri tədris edərkən müəllim ilk növbədə bu bölmədə, bu kursun öyrədilməsindəki işin məzmununu bilməlidir, proqrama əsaslanmalıdır.

Leksik bilik va bacarıqların ədəbi dilin digər normalarının mənimsədilməsində böyük rolu vardır. Sözlərin mənalarını və məna qruplarını öyrədərkən onların həqiqi (əsas) və məcazi mənalarını müəllim müqayisəli şəkildə izah edir, çünki şagirdlər omonimləri, çoxmənalı söz va ya paronimlarlə qarışdırır. Bu çalışmalar isə həm tələffüz, həm də orfoqrafik qaydaların öyrədilməsinə kömək edir, sinonimləri öyrədərkən onların nitqdəki rolunu aydınlaşdırmaqla üslub normalarına yiyələnməyin elmi əsasını qoyur. Leksika və frazeologiya təlimi zamanı müəllim və şagirdlər tərəfindən müxtəlif cümlələr qurulur, bu cümlələrdə bəzi sözlərin mətni mənaları dərinliyi ilə təhlil edilir ki, bu da şagirdlərin cümlə qurmaq vərdişlərini inkişaf etdirir, qrammatik normalara həssas həssas münasibət aşılayır.

Leksik anlayışlar üzərində işin əsas hissəsi praktik xarakter daşımalıdır. Bu işləri aşağıdakı ardıcıllıqla həyata keçirmək olar:

1. Leksik anlayışların müşahidə yolu ilə dərk edilməsini təmin edən çalışmalar;
2. Leksik anlayışlara aid olan hadisə və faktları mətndə tapmaqla bağlı çalışmalar;

3. Leksik hadisələrin üslubi rolunu dərk etməyə imkan verən çalışmalar;
4. Leksik hadisələrdən şagirdlərin öz nitqlərində istifadə etmələri ilə əlaqədar çalışmalar.

Bu ardıcıllıqla icra edilən praktik işlər şagirdlərdə leksik hadisələrlə bağlı vərdişlər yaradır (1; s.l 76).

Tədris zamanı müəllim mövzunu şagirdlərə yaxşı mənimsətməli, mövzunun mahiyyətini şagirdlərə şüurlu surətdə çatdırmaqla bunları müəyyənləşdirmək bacarıqlarını aşılamalıdır. Şagirdlər tərəddüt etmədən sözləri leksik və qrammatik mənalarına görə qruplaşdırmağı, ümumişlək olmayan sözləri ayırmağı, verilmiş sözlərin içərisindən omonim, sinonim, paronim, antonim, çoxmənalı və təkmənalı sözləri fərqləndirməyi bacarmalıdırlar. Terminləri, dialektləri, loru sözləri müəyyənləşdirməyi, köhnəlmiş sözlərlə yeni sözləri ayırmağı alınma sözlərin üslubi imkanlarını bilməyi, bu üslubi imkanlardan məharətlə istifadə etməyi bacarmalıdır, lüğətlərdən istifadə etməyi bilməlidir. Yalnız bu kimi bacarıqlara yiyələndikdən sonra leksika va frazeologiya təliminin düzgün və müvəffəqiyyətlə başa çatdığına əmin olmaq mümkündür.

Bütün bu deyilənlərə nail olmaq isə o qədər də asan məsələ deyildir. Müəllim buna nail olmaq **üçün** daha yararlı üsul və vasitələrdən istifadə etməli, nəyə xüsusi diqqət yetirməli olduğunu anlamalıdır, verilmiş hər bir məlumat praktik şəkildə həyata keçirilməli, sxemlərdən, müxtəlif üsul və vasitələrdən istifadə etməli, izahlar dərhal çalışmalarla müşayət olunmalıdır.

Leksika və frazeologiya bəhsinin tədrisi təkcə fəndaxili əlaqə ilə məhdudlaşmır. Bu bəhsin tədrisində elə mövzular vardır ki, bunları fənlərarası əlaqəsiz tədris etmək mümkün deyildir. Azərbaycan dili və ədəbiyyat müəlliminin vəzifəsi sadəcə olaraq, məsələn, 'termin nədir?" sualına cavab verməkdən ibarət olmamalıdır. Şagirdlərə məlum olan terminlər yada salınmaqla bərabər, həmin terminlərin mənalı dəqiqliyi ilə aydınlaşdırılmalıdır. Köhnəlmiş sözlərin nə üçün köhnəldiyini, neologizmlərin nə üçün yarandığı, alınma sözlərin dilə daxilolma səbəbləri aydınlaşdırılmalıdır. Bu isə başqa fənlərlə əlaqə yaradılmaqla mümkündür.

Bu bölmə ilə məzmunun təliminə, ilk növbədə aşağıdakı məfhumların öyrədilməsi daxildir: söz onun leksik və qrammatik mənası, sözün həqiqi (əsas) və məcazi mənası , sözün tək və çoxmənalılığı , sözlərin məna qrupları (omonim, paronim, sinonim və antonimlər), sözlərin mənşə və işlənmə dairəsinə görə qrupları (köhnəlmiş sözlər və neologizmlər, terminlər, peşə sözləri, ümumişlək sözlər, dialektizmlər), frazeoloji vahidlər.

Sözün leksik mənası.

Sözün leksik mənası I Leksika tədrisində mərkəzi yerlərdən birini tutur. Çünki:

1. Leksik məna anlayışından xəbərsiz olan şagird omonim, sinonim və antonimləri, sözün qrammatik və məcazi mənasını, çoxmənalılıq anlayışını, köhnəlmiş və yeni sözləri, eləcə də sabit söz birləşmələrini çətin mənimsəyir;
2. Şagird məktəbdə dəfələrlə sözün ifadə etdiyi leksik məna ilə üz – üzə gəlir,

onu öyrənməyə ehtiyac duyur;

3. Sözün mənasının öyrədilməsi şagirdlərin əqli cəhətdən formalaşmasına daha yaxşı təsir göstərir.

K.D.Uşinski yazırdı ki, sözün ifadə etdiyi mənanı öyrətmək şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirmək mümkündür.

Müəllim "sözün mənası" mövzusunu keçərkən, hər şeydən əvvəl şagirdlərə bu anlayış haqqında təsəvvür yaratmağa çalışmalıdır. Bunun üçün o, həmin anlayışın (sözün mənası) şagirdlərə məlum olan anlayışlardan (məsələn, səs, hərf) fərqli cəhətlərini nəzərə çatdırmalıdır. Qeyd etməlidir ki, bu sözləri əmələ gətirən səsləri eşidir, hərfləri görür, sözün mənasını isə başa düşürük, anlayırıq. Ətraf aləmdə gördüyümüz, eşitdiyimiz, hətta etdiyimiz nə varsa, dilimizdə onlara aid bu və ya digər söz də vardır. Hər bir sözün əsasında hər hansı bir əşya (məsələn qələm, ev, yarpaq və s.), yaxud onun əlaməti (göy, qırmızı, mehriban) və ya da hərəkət (qaçmaq, düşmək və s.) durur. Buna görə də hər hansı bir sözün mənasını meydana çıxarmaq üçün əşyanın verilmiş sözdəki fərqli əlamətinə ad vermək lazımdır. Məsələn, karandaş sözün əsasında içərisində qrafit, üstü isə ağac olan materiallından hazırlanmış yazı ləvazimatı durur. Vulkan sözünün əsasını isə təpəsində od pükürən dağ təşkil edir. Deməli, karandaş və vulkan sözlərinin mənaları bu əlamətlərə görə müəyyənləşdirilir.

Müəllim qrammatik mənanı da şagirdlərə izah etməli, hər bir sözün leksik və qrammatik mənasını fərqləndirməyi öyrətməlidir.

Sonra praktik işlərlə, çalışmalarla verilmiş məlumatlar möhkəmləndirilməlidir. Məsələn, dəftər sözünün leksik və qrammatik mənası belə izah olunmalıdır: dəftər yazı yazmaq üçün istifadə olunan ləvazimatdır, kağızdan hazırlanır və s., qrammatik mənası isə odur ki, əşyadır, isimdir , nə ?sualına cavab verir, ümumidir və s.

Leksik və qrammatik məna haqqında məlumat verən kimi şagirdlərə verilmiş kiçik mətnlərdəki sözləri qrammatik mənaya görə qruplaşdırmanı tapşırmaq səmərəli nəticə almağa imkan verir, digər tərəfdən şagirdlər ibtidai siniflərdə morfologiyaya aid qazandıqları praktik bilik və bacarıqların köməyi ilə sözləri qrammatik mənalarına görə qruplaşdırmaqla, həm də morfoloji bilik və bacarıqlarını dərinləşdirirlər.

Məktəb təcrübəsi göstərir ki, fənn müəllimləri sözün leksik mənasını izah edərkən aşağıdakı üsullara əsaslandıqda yaxşı nəticələrə nail olurlar:

1. Qohum sözlərdən istifadə etməklə mənası açmaq;
2. Sinonimlərdən istifadə etməklə mənanı açmaq;
3. Məntiqi anlayışların tətbiqi ilə mənanı izah etmək;
4. Suallar vasitəsilə sözün mənasını izah etmək (1,s.179).

Təcrübə göstərir ki, bu deyilənlərə müqayisəli və praktik şəkildə əməl ediləndə daha səmərəli nəticə əldə olunur.

Sözün həqiqi və məcazi mənası.

Omonimlər:

Çoxmənalı sözləri tədris edərkən biz həm də omonimlar üçün zəmin hazırlamalıyıq. Əgər sözün əsas və məcazi mənası, tək və ya çoxmənalı sözlər öyrədilmişdirsə, omonimləri mənimsətmək çətin olmayacaqdır. Müəllim səs tərkibi etibarilə eyni mənaca müxtəlif olan bir neçə sözü nümayiş etdirdikdən sonra, omonimlərin səs tərkibi etibarilə eyni, mənaca müxtəlif sözlər olduğunu anlatmaqla kifayətlənə bilməz. Çünki dilimizdə omonim olan sözlərdən əlavə, yazılışca və deyilişcə (vurğusuna görə) fərqlənən sözlər də var. Bəzi sözlər isə şəkilçi qəbul etdikdən sonra omonim olur. Bunları şagirdlərə yaxşı başa salmaq lazımdı.

Omonim sözlər başqa-başqa mənalar bildirsə də, onlar, əsasən, eyni cür yazılır və tələffüz olunur. Məsələn, əqrəb (saatın əqrəbi) - əqrəb (həşərat); sifət (üz) – sifət (nitq hissəsi) və s. Lakin dilimizdə elə sözlər də təsadüf olunur ki, onlarm bəziləri eyni cür tələffüz olunur, lakin başqa cür yazılır (sənət, sənəd). Bəziləri də eyni cür yazılır, müxtəlif cür tələffüz olunur (alma'-a'lma). Bunlar omonim deyil, bunlara diqqətlə yanaşılmalıdır. Əks təqdirdə suni tələffüz və orfoqrafiya səhvi bunları eyniləşdirər və bizim nəzərimizə omonim kimi çatdıra bilər. Bu cür müqayisələrin orfoepik və orfoqrafik vərdişlərin anlaşılması üçün də mühüm əhəmiyyəti vardır.

Omonim və çoxmənalı sözlərin şəkli əlamətlərinə və ifadə tərzlərinə görə bir-birinə oxşaması tədrisdə ciddi çətinliklər törədir. Ona görə də müəllim omonimləri çoxmənalı sözlərlə müqayisəli şəkildə öyrətməli şagirdlərə onlar arasındakı fərqi başa salmalıdır.

Omonim va paronimlərin bədii nitqdə rolunu əyani olaraq anlatmaq lazımdır. Bildiyimiz kimi omonimlər bədii ədabiyyatda cinas yaratmaq imkanlarına malikdir.

Mən aşiq üzüm üzə
Dəryada üzüm üzə
Aləm cənnətə döndü
Dəyəndə üzüm üzə.

Bu tipli nümunələrlə omonimlərin imkanlarını daha yaxşı mənimsətmək olar.

Sinonimlər

Sinonimlərin tədrisinin olduqca böyük əhəmiyyəti vardır. Sinonimlər eyni əşyanı, əlaməti və ya hərəkəti bildirirsə də, onların arasında incə məna fərqləri olur. Məsələn, irəliləmək-getmək sinonimlərini götürək. Bu sözləri birləşdirən ümumi cəhət odur ki, hər ikisi hərəkət etmək, addımlamaq mənasını bildirir. Lakin birinci söz geriyə yox, yalnız irəli hərəkət etməyi nəzərdə tutduğu halda, ikinci söz bütün istiqamətlərə yönələn hərəkəti ifadə edir.

Şagirdlərin sinonimlər haqqında təsəvvürlərini möhkəmləndirmək üçün müəllim qeyd etməlidir ki sinonimlər müxtəlif cür də yazılır. Bundan başqa

sinonimlik əmələ gətirən sözlər bu və ya digər nitq hissəsinə aid olur (məsələn, qəm-qüssə-isim, asta-yavaş-zərf, kiçik-balaca-sifət, danşmaq-demək-fel və s.).

Sinonimlərin mənası üzərində aparılan işdən sonra şagirlərə onları nitqin üslubuna uyğun şəkildə bilmək vərdişləri aşılamaq lazımdır. Bu məqsədlə müvafiq ədəbi parçalar üzərində iş aparmaqla sinonimlərin üslubi rolunu mənimsətmək mümkündür. Məsələn,

El bilir ki, sən mənimsan,

Yurdum, yuvam məskənimsən

Burada işlənmiş yurd, yuva , məskən sözləri yer, məkan mənalı isim sinonimlərdir.

Antonimlər

Antonimlərin nitqdə üslubi rolu çox böyükdür. Onların köməyilə əşya və ya hadisələrin, şəxslərin müəyyən cəhətləri bir – biri ilə qarşılaşdırılır. Antonimlərin mənimsədilməsi digər söz qruplarına nisbətən asandır. Lakin bunlar nitq hissələrinə görə qruplaşdırıb öyrətmək şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi baxımından daha əhəmiyyətlidir. Müəllim şagirdlərə başa salmalıdır ki, antonimlər müxtəlif cür səslənir və əks məna bildirir, eyni nitq hissəsində düzəlir. Antonimlərdən söhbət gedərkən şagirdlər zidd və əks mənalı sözləri qrammatik forma vasitəsilə yaratmaq mümkündür. Məsələn, ağıllı – ağılsız , sulu –susuz kimi sözlər antonim hesab edilə bilməz. Çünki bunlar eyni sözdən müxtəlif qrammatik formanın köməyilə yaradılmışdır.

Müəllim antonimlərin tədrisinə başlarkən şagirdlərin ibtidai siniflərdə əks mənalı sözlər haqqında əldə etdikləri biliklərinə əsaslanır və aşağıdakı sözləri onlara təqdim edib, hər sözün əks mənasını axtarmağı tapşırır:

hündür -	gülmək –
sağlam -	açmaq –
ağır -	az –

Verilmiş sözlərin qarşısında bütün şagirdlərin iştirakı ilə əks mənalı sözlər yazılır.

Müəllim şagirdlərə onu da izah etməlidir ki, dilimizdə elə sözlərə də təsadüf olunur ki, onların antonimlərini yalnız mətn daxilində müəyyən etmək olur. Məsələn, “köhnə paltar” birləşməsində “ köhnə” sözünün antonimi “ təzə” sözüdür. Lakin “köhnə ovçu “ birləşməsində “ köhnə” sözünün “ gənc “ sözüdür.

Antonimlərin yaxşı mənimsədilməsi şagirdlərin şifahi və yazılı nitqini dəqiqləşdirir, obrazlı edir, ona emosional boyalar vurur.

Ədəbiyyat

1. Abdullayev A. Orta məktəb Azərbaycan dilinin tədrisi metodikası, Bakı, 1978
2. Abdullayev A. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı, 1966
3. Azərbaycan dilindən didaktik materiallar. Maarif, 1977
4. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikasından mühazirə. Bakı, 2007
5. Balıyev H. Azərbaycan dilinin tədrisi metodikasına dair praktik işlər. Maarif nəşriyyatı, Bakı, 1992
6. Balıyev H. Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası Bakı, 2003
7. Əhmədov B. Axərbaycan dili təliminin qanunları, prinsip və tələbləri
8. Əfəndizadə Ə., Əhmədov H., Kəlbəliyev Ə., Vahidov S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi , I hissə, Maarif , Bakı, 1976
9. Əfəndizadə Ə., Əhmədov H., Kəlbəliyev Ə., Vahidov S. Orta məktəbdə Azərbaycan dilinin tədrisi , II hissə, Maarif , Bakı, 1977

Мехрибан Афандиева

ПРОБЛЕМЫ ОБУЧЕНИЯ ЛЕКСИКОЛОГИИ

Р ЕЗЮМЕ

В статье исследуюются некоторые проблемы обучения лексикологии на основе современных требоваий: показываются средства для обучения слов, значений слов, омонимов, синонимов и антонимов, демонстрируются методы использования обучающих технологий.

В статье иследуется разные измения в лексической системе языка и в результате использования новых технологий, в особенности интернет услуг для передачи и получении и информации. Осуществление коммуникативных актов посредством новых средств вызывает основание для нарушения языковых норм и правил. Привлекаются иследованно компьюторный и интернет сленги, атакже влияние этого сленга на разговорный и литератырный язык. К лексическим средствам выражения императивной семантики относятся и наречия. Характерны случаи выражения волеизьявления говорящего с помощью наречия в дискурсе с прямой речью, как правило, в словах автора. Императивная семантика может быть выражена наречием и в определенной речевой ситуации.

В результате в статье описаны особенности изменения лексической системы в современную эпоху. Устойчивость его грамматики для языка была широко подвержена прогрессу науки в социально-политических и социально-экономических условиях разных времен. В двадцатом веке влияние изменений в системе языковых отношений было подробно объяснено в общественно-политической жизни во всем мире, что хорошо иллюстрирует и иллюстрирует, что подход к созданию новых слов в области нового словарного запаса является призменным подходом. Лингвистика подробно описана от понятия

молчания до конечного использования, а также в широком описании быстро растущего влияния литературного языка на монографизмы лексикографии, а также в современную эпоху лингвистики.

Некоторые из важных вопросов воздействия новых средств коммуникации, которые включены в человеческую жизнь и которые в настоящее время используются в процессе коммуникации, частично освещены в статье. Из исследований и анализа понятно, что важно раскрывать ключевые слова и принимать во внимание языковые нормы при их создании. Необходимость направлять креативность слов, созданных в русском и английском сленговых словах, а также современные информационные технологии обуславливает необходимость ускорения развития английского и русского языков, а также терминологии интернет-терминалов.

Ключевые слова: лингвистика, лексикология, слова, интерактив,омоним

MEHRİBAN AFANDİEVA

SOME PROBLEMS OF TEACHING LEXICOLOGY

SUMMARY

In the paper some problems of teacing lexicology due to modern requirements are learned: methods of teaching words, meanings of the words, homonyms, synonyms and antonyms are shown, the ways of use the educational technologies are demonstrated

In the article various changes taking place in lexical system of a language in result of transfer and receive of information through new technologies mainly intemet services are studied. Realization of communication through new means discover ground for violation of norms and rules of a language. Apperance of computer and intemet slang and influence of words belonging to this slang on spoken and literature language is involved into inve

stigation. Lexical means as material shows exspres various shades of motivation.1.value ofa request wits its various shades.2.value of permission ,obligation.Adverbs also belong to lexical means of expression of imperative semantics.

In the article is investigation of the members of a sentence in general and Turkik linguisties and the character of the investigation are revealed. There is given the analysis of ideas ormed in the discussion, as wellas there are considered new points of view and approaches.

In the paper some problems of teaching lexicology due to modern requirements are learnd. Methods of teaching words, meanings, of the words homonyms, synonyms and antonyms are shown, the ways of use the educational technologies are demonstrated.

The article deals with the problems of variation of language units. The facts that influence yhe variation of language units in speech act is varied and becomes concrete depending on the speaker, the situation and the theme . To imagine the speech act without variations is impossible.

Some of the important issues of the impact of the new means of communication that are included in human life and which are currently being used in the communication process are partly covered in the article. It is understood from the research and analysis that it is important to disclose the keywords and to take into consideration the language norms in their creation. The necessity to direct the creativity of words created in the Russian and English slang words as well as modern information technologies necessitates the need to accelerate the development of English and Russian languages, as well as the terminology of Internet terminals

The key words: linguistics, lexicology, word , interactive, homonym

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: dos.fil.f.d. Yeganə Orucova
capa tovsiyə etmişdir.

XƏYAL ƏSGƏRLİ
AMEA Nəsimi adına Dilçilik İnstitutu
Hüseyn Cavid prospekti
esgerli-x@mail.ru

"BREYŞİT" KİTABININ LEKSİKASINDA EKSPRESSİV VAHİDLƏR

XÜLASƏ

Dilçiliyin bir şöbəsi olan üslubiyyatın qarşısında duran mürəkkəb məsələlərdən biri də dilin emosional-ekspressiv vahidlərini öyrənməkdir. "Emosional" fransız dilində "emovere" sözündəndir, mənası hiss-həyəcan deməkdir.Ekspressiya isə latın dilində "expressive" sözündən yaranıb, ifadəlilik mənasını bildirir. Dilin başqa sahələrindən fərqli olaraq, leksika məna çalarlarının müxtəlifliyi və ifadəlilik keyfiyyətlərinə görə daha çox inkişaf etmişdir.Deməli, insanın daxili hisslərinin, ətraf aləmə münasibətinin ifadə olunmasında emosional-ekspressiv leksika xüsusi əhəmiyyətə malikdir.

Məqalədə qədim ibri dilində yazılmış, müqəddəs dini kitab sayılan "Tövrat"ın ilk bölməsi olan "Breyşit" kitabının emosional-ekspressiv leksikası haqqında məlumat verilir.Dilin əsas vahidi olan sözlərin mətnin daxili səciyyəsi ilə əlaqədar məna və funksiyalarının dəyişməsi tədqiqatın əsas meyarıdır. Kitabın dilində rast gəlinən ekspressiv leksika məna cəhətdən iki istiqamətdə öyrənilir: müsbət mənalı və mənfi mənalı ekspressiv leksika. Müsbət mənalı emosional-ekspressiv leksika içərisində arzu-dilək və alqış bildirən sözlər, mənfi mənalı ekspressiv leksik vahidlər içərisində qarğış bildirən sözlər üstünlük təşkil edir. Eyni zamanda, emosional-ekspressiv leksikanın yaranmasında leksik kateqoriyalardan sinonim və antonimlərin rolu nəzərdən keçirilir. Dildə antonim olmayan sözlər mətn daxilində təzadlı leksik vahidə çevrilir. Kitabın dilində emosionallığı ifadə edən vahidlər içərisində məcazların da üslubi-ekspressiv funksiyası böyük əhəmiyyətə malikdir. Xüsusilə, dildə bənzətmə yolu ilə ekspressivlik yaradan təşbehlər dilin emosional gücünün artmasında ciddi əhəmiyyət kəsb edir. Sırf qədim ibri dilinə məxsus, yəhudi xalqı arasında geniş yayılan və qüvvətli ekspressiyaya malik olan ifadələr də məqalədə göstərilir. Bu ifadələr xalqın düşüncəsini, dünyagörüşünü, adət-ənənənəsinin özündə əks etdirir.

Açar sözlər: Breyşit, qədim ibri dili, ekspressivlik, emosionallıq, dilçilik, ifadəlilik

"Üslubiyyat fonetik, leksik, frazeoloji və qrammatik vahidlərin kontekstdə qazandığı üslubi funksiyaları öyrənir, müəyyən mətndəki fikir və hisslərin ifadə edilməsi zamanı dil vasitələrinin ekspressiv xüsusiyyətlərini, mətnin oxucuya təsirində onların rolunu nəzərdən keçirir" (1, s.7). Leksika dilin digər sahələrindən fərqli olaraq daha çox emosional keyfiyyətlərə məxsus olduğuna görə, üslubiyyatın

əsas hissəsini təşkil edir. Dilin lüğət tərkibini təşkil edən sözlərin bir qismi üslubi cəhətdən neytral mövqeyə malik olsa da, digər qismi emosional-ekspressiv xüsusiyyəti ilə diqqəti cəlb edir. Leksik vahidlərin üslubi imkanlarını, onun emosional-ekpressiv səciyyəsini tədqiq etmək vəzifəsi leksik üslubiyyatın üzərinə düşür. "Leksik üslubiyyat dilin lüğət tərkibini statik planda deyil, dinamikada, istifadəsə öyrənir.Yəni leksik üslubiyyat insan fəaliyyətinin müxtəlif sahələri ilə bağlı olan nitqin, daha doğrusu, onun müxtəlif formaları və növlərinin leksik-üslubi imkanlarını meydana çıxarır, tədqiq edib öyrənir" (4, s.9).

T.Əfəndiyeva bildirir ki, ekspressivlik və emosionallıq yüksək keyfiyyətə malik canlı danışıq dilinin səciyyəvi xüsusiyyətləridir. "Ekspressivlik dildə həm fonetik, həm morfoloji, həm leksik, həm də sintaktik kateqoriyalar vasitəsilə əmələ gəlir" (4, s.238). Leksik səviyyədə ekspressivliyin yaranma və formalaşmasında leksik-üslubi laylar və kateqoriyalar (sinonim, omonim, antonim) mühüm rol oynayır. Emosional-ekpressiv xüsusiyyəti ilə fərqlənən sözlər və söz qrupları ifadə etdiyi məna cəhətdən iki qrupa ayrılır: 1) müsbət mənalı emosional-ekpressiv leksika 2) mənfi mənalı emosional-ekpressiv leksika.

Yəhudilərin dini haqqında geniş məlumat aldığımız "Breyşit" kitabı qədim ibri dilinin xüsusiyyətlərinin öyrənilməsində də qiymətli mənbədir. Qədim ibri dilində istifadə edilən sözlərin leksik-semantik məna qruplarına, müxtəlif üslubi çalara malik olması bu dildə ekpressiv vahidlərin öyrənilməsi baxımından əhəmiyyətlidir. Kitabın dil zənginliyini təmin edən faktorlardan biri emosional-ekspressiv çalarlığın özünü leksik səviyyədə göstərməsidir. Bədii üslubun nümunəsi olan bu kitabda emosionallığın və ekspressivliyin ifadə imkanları geniş və rəngarəngdir. Kitabın dilində həm xalq dilinə məxsus emosional-ekpressiv sözlər ifadəlilik yaradır, həm də heç bir üslubi keyfiyyətə malik olmayan neytral sözlər müəyyən hadisənin təsiri ilə mətn konteksində emosional-ekpressiv vahidlərə çevrilir.

Kitabda ekpressivliyin ifadə formaları içərisində leksik kateqoriyaların rolu xüsusilə seçilir. Xüsusilə, üslubi-ekspressivlik yaradan kateqoriyalar içərisində sinonimlər ilk sırada dayanır. Bütün dillərdə olduğu kimi, qədim ibri dilinin lüğət tərkibinin böyük bir hissəsini təşkil edən sinonimlər nitq aktlarının ifadəliliyini, təsirliliyini təmin edən amil kimi çıxış etdiyindən üslubi-ekspressiv vahidlər kimi bu leksik kateqoriyadan bəhs etmək lazımdır. Sinonimlərin səciyyəvi xüsusiyyəti eyni bir məhfum və ya anlayışı müxtəlif sözlərlə bildirməkdir. "Sinonim sözləri müəyyənləşdirən əlamətlərin birincisi sinonim sözlərdə ümumiləşdirici bir əsas mənanın olmasıdır. Sinonim sözlərin əsas məna ümumiliyini müəyyənləşdirmək üçün ayrı-ayrı sinonim sözlərin mənasındakı fərqləri nəzərə almaq zəruridir;çünki sinonim sözlərin üslubi vəzifəsi və xarakteri, beləcə də frazeoloji xüssuiyyətləri də məhz onların mənalarındakı ümumilik və xüsusiliklə bağlıdır (3, s.121-122).

"Breyşit"də ilk rast gəlinən sinonim cərgəni təşkil edən sözlər hər zaman bir-birini əvəz edə bilmir, mətn konteksində sinonim kimi çıxış edən sözlər mətndən

kənarda müxtəlif anlayışları bildirən leksik vahidlərə çevrilir. Məsələn kitabın ilk sətirlərində ***"işıq(אור)-gündüz(יום)"*** sözləri sinonim cərgəni əmələ gətirir. Burada "gündüz" sözü neytral mənada işlənir, "işıq" isə müsbət ekpressiv çalara malik olan sözdür. Eyni zamanda, ilkin təsəvvürlərlə, yaradılışla bağlı olaraq ***"qaranlıq (חשך)-gecə(לילה)"*** sözləri də sinonimlik yarada bilir. Lakin bu sözlər mətndən kənarda sinonimlik xüsusiyyətini itirir. Kitabda sinonim olan sözlərin yanaşı işlədilməsinin də şahidi oluruq.Sinonimlərin bu çəkildə işlənməsi ekpressiv mənanı qüvvətləndirməyə xidmət edir. Dini mətndə Allahın adı kimi *Elohim* və *Yehova* sözləri yanaşı görünür və sinonimlərin bu şəkildə ardıcıl gələrək fikrin daha dəqiq, daha qüvvətli emosional şəkildə ifadə olunmasına kömək edir. Neytral bir söz olaraq tək halda işlənə bilən bu sözlər ***Yehova Allah (יהוה אלוהים)*** (5, s.44) formasında emosional-ekspressiv sinonim sözlərə çevrilir.

Kitabın dilində emosionallığı ifadə edən sinonim sözlərin yaranmasında frazeologizmlərin də rolu böyükdür. "Frazeoloji birləşmələrin təbiətinə məxsus olan yiğcamlıq, obrazlılıq, ifadəlilik, təkrarolunmaz ekspressivlik onlardan həm danışıq dilində, həm də bədii dildə geniş istifadə olunmasına imkan yaradır. Fikrin qüvvətli, təsirli və emosional ifadəsi üçün çox vaxt sinonim cərgədə bu və ya digər sinonim frazeoloji tərkiblə əvəz edilir" (4, s.46). Məsələn kitabda bir cümlə daxilində həm ***"yaratdı (ייצר)"*** sözünə həm də bu sözün frazeoloji qarşılığı olan ***"həyat nəfəsi üfürdü (יפח נשמת חיים)"*** (6, s.2) sinoniminə rast gəlinir.Bu iki sinonimdən biri neytral mövqedən çıxış edir, onun sinonimi olan frazeoloji birləşmə isə emosionallığı artırır, cümləyə üslubi çalar verən leksik vahidə çevrilir.

Leksik bir kateqoriya kimi dildə emosional-ekspressiv xüsusiyəti ilə seçilənlərdən biri də antonimlərdir. "Müqayisə və qarşılaşdırma yolu ilə aşkar edilən müxtəlif təzadlı hadisələr, obyektiv aləmin bütün ziddiyətli cəhətləri əksmənalı anlayışlar silsiləsini təşkil edən antonimlər vasitəsilə şərh edilir. Antonimlər əks qütblərdə duran leksik ifadə vasitələridir" (2, s.35).

Antonimlər əsasən, kəmiyyət və keyfiyyət, zaman və məkan məzmunlu anlayışların bir-birinə zidd cəhətlərini ifadə edən müxtəlif fonetik tərkibli sözlərdir. "Antonimlər, güman ki, dilin inkişafının ilk dövrlərində yaranmışdır. İnsan ətrafındakı mühiti dərk edərkən yaxşını pisdən, böyüyü kiçikdən, yeri səmadan, gecəni gündüzdən və s. fərqləndirməyə başlamışdır" (4, s.85). Ən qədim kitablardan hesab olunan "Breyşit"də ilkin təsəvvürlərlə bağlı olaraq dünyanın yaranması və bizi əhatə edən bir-birinə əks qütbdə olan məhfumların yaradılması ilə başlayır. Mətnin əvvəlində iki əksmənalı söz bir cümlədə işlənir: "Başlanğıcda Allah ***göyü (שמים)*** və ***yeri (ארץ)***yaratdı." (5, s.43). Burada təzadlı məkan anlayışı dilə ekspressivlik qatır, onun üslubi çalarını artırmış olur. Daha sonra ard-arda verilmiş cümlələrdə zaman anlayışı bildirən antonimlər dilə xüsusi emosional rəng qatır: ***İşıq və qaranlıq; gecə və gündüz; səhər və axşam*** və s.

Ədəbi dildən fərqli olaraq bədii ədəbiyyatda antonimlərin üslubi əhəmiyyəti onun daha geniş şəkildə xarakterizə etməyə imkan verir. Xüsusilə, mətndən kənarda

əksmənalı olmayan sözlərin mətn daxilində fikrin ifadəliliyini artırmaq məqəsədilə antonim kimi işlədildiyinin şahidi oluruq. Məsələn, kitabda ***torpaq(ארץ) və dəniz(מקוה)***sözləri mətn konteksində antonim mövqeyindən çıxış edir və bu da həmin cümlənin emosional-ekspressiv fikrin ifadəsində rolunu qüvvətləndirir: *"*Allah qurunu ***torpaq(ארץ)*** və bir yerə yığılmış suları ***dəniz(מקוה)*** adlandırdı" (5, s.43).

Dünya yarandığı gündən xeyir və şər daim bir-biri ilə mübarizədə olan iki əks qüvvədir. İlkin dini təsəvvürlərdə də bu iki qüvvənin davamlı mübarizəsi təsvir olunur. Qədim dini kitablardan olan "Breyşit"də də təzad təşkil edən *xeyir* və *şər* anlayışına geniş şəkildə rast gəlinir. Kitabda ilk dəfə bu antonimlərə ***"xeyir və şəri bilmə ağacı"(עץ הדעת טוב ורע)*** (6, s.2) ifadəsində təsadüf olunur. Antonimləri səciyyələndirən əsas əlamətlərdən biri də emosional-qiymətvericilik və təsviretmə xüsusiyyətidir. Bu ifadədə də antonim sözlərin bir anlayışı təsvir etdiyini və həmin ifadəyə emosional-ekspressiv məna qatdığını görmək mümkündür.

Kitabda qruplaşdırılmış şəkildə yanaşı işlənən antonimlər də ekspressivlik, emosionallıq və obrazlılıq kimi keyfiyyətlərin meydana gəlməsi və güclənməsində fəal iştirak iştirak edir. "Bundan sonra yer üzündə heç vaxt *əkinin-biçinin, istinin-soyuğun, yayın-qışın, gecənin-gündüzün* sonu olmayacaq*"* (5, s.52). Bu şəkildə işlənən antonimlər fikrin ifadəsinə xüsusi pafos, ahəngdarlıq, təsirlilik, obrazlılıq qazandırır.

Dildə emosional fikrin ifadəsində məcazların da rolu böyükdür. "Məcaz dilin ifadəlilik imkanlarını artıran, onun lüğət tərkibini zənginləşdirən amildir. Məcazi mənalar lüğət tərkibinin ən ifadəli hissəsi olan obrazlı leksikanın yaranmasında böyük əhəmiyyət kəsb edir" (4, s.98). Dildə bənzətmə yolu ilə ekspressivlik yaradan məcazlardan biri təşbehdir. Bədii ədəbiyyatda bir predmetin müəyyən əlamətə görə özündən daha qüvvətli predmetə oxşadılmasına təşbeh, yaxud bənzətmə deyilir. Təşbeh vasitəsilə bir predmetin müəyyən əlamət və keyfiyyətinin digər predmetə bənzədilməsi dilin emosional gücünün artmasında ciddi əhəmiyyət kəsb edir. "Breyşit" kitabının dilində də ekspressiya yaradan vahidlər sırasında təşbehlərə də rast gəlmək mümkündür: ***"Binyamin canavar kimi ov edəcək" (בנימין זאב יטרף)*** (6, s.64)**.** Bu cümlədə heyvan adı vasitəsilə əmələ gələn təşbeh qiymətverici emosional-ekspressiv keyfiyyətə malikdir. Semantikasının müsbət ekspressiyasından asılı olaraq *"canavar"* qüvvətli üslubi keyfiyyətə malikdir. Göründüyü kimi, burada bənzədilən kimi canavar sözünün seçilməsi obrazın (Binyaminin) təsviri üçün müsbət keyfiyyətlərin fərqləndirilməsi məqsədilə istifadə olunmuşdur. Heyvan adları bildirən leksika içərisində güc, qüdrət, cəsarət simvolu olan "şir" sözündən də təşbehlərin yaradılmasında istifadə olunur. Semantika etibarilə müsbət ekspressiya ifadə edən bu "şir" sözünə "Breyşit" kitabında da obrazın təsviri və müsbət keyfiyyətlərinin fərqləndirilməsi məqsədilə yer verilmişdir***: "Yəhuda bala şirdir" (גור אריה יהודה)*** (6, s.64). "Müəyyən şəxslərə aid müqayisə və bənzətmə üçün işlədilmiş heyvan

adları və heyvanlara məxsus hərəkətlərin adları insan üzərinə keçəndə emosional-xarakterizəedici məna yaranır” (4, s.239).

Dilçilikdə fikrin emosional şəkildə ötrülməsinə xidmət edən, obrazlılığın daşıyıcısına çevrilən və mətnin təsir gücünü artıran leksik vahidlər içərisində frazeoloji birləşmələr xüsusi yer tutur. Frazeoloji birləşmələr tarixən qədimdir, onların vasitəsilə qədim xalqın milli təfəkkürü, dünyagörüşü, adət-ənənəsi, həyatları haqqında məlumat almaq mümkündür. “Breyşit” kitabının dilində işlənən frazeoloji birləşmələr də xarakterinə və üslubi mahiyyətinə görə müxtəlifdir. Məsələn kitabda verilən ***“üzü düşdü”(נפלו פניך)*** (6, s.4) frazeoloji birləşməsi mənfi mənalı emosional-ekspressiv münasibət bildirir. Frazeoloji birləşmələr həm mənfi, həm də müsbət hiss və həyəcanı ifadə etməkdə qüvvətli nitq vahidləridir. Bəzən bir söz birləşməsi həm həqiqi həm də məcazi mənada işlənə bilir, yalnız mətn konteksində sərbəst və ya frazeoloji birləşmə olduğu aydınlaşır. Kitabda işlənən ***“gözləri açılmaq”(נפקחו עיניכם)*** (6, s.3) birləşməsi omonim söz birləşməsi hesab olunur və cümlə daxilində məcazi mənalı ekspressiv vahidə çevrilir: *“Allah bilir ki, ondan yeyən gün gözləriniz açılacaq və siz xeyirlə şəri bilərək Allah kimi olacaqsınız”* (5, s.45).

“Breyşit” kitabında yalnız qədim ibri dilinə məxsus olan frazelogizmlərə də rast gəlinir. Bu sabit birləşmələr sırf yəhudi xalqının özünəməxsus düşüncəsini, təfəkkürünü özündə ehtiva edir. Bu cür ifadələr dilin üslubi əhımiyyətini qiymətləndirməyə və fərqləndirməyə şərait yaradır. Belə ifadələrdən biri ***“gözlərin örtüyü” (כסות עינים)*** (6, s.16) birləşməsidir. Qadının ismətinin ləkələnmədiyini rəsmən təsdiq etmək və onu başqalarının tənəsindən müdafiə etmək üçün işlənən bu frazeologizm semantika cəhətdən mətnə güclü ekspressiya qatır. Xalq arasında geniş yayılan və qüvvətli ekspressiyaya malik olan bu tipli ifadələr mətnin dilinə xüsusi üslubi rəng vermək məqsədilə istifadə olunmuşdur.

Sırf ibrani dilinə məxsus olan məcazi mənalı birləşmələr arasında ən çox rast gəlinən ifadələrdən biri də ***“ata-babalarına qovuşmaq” (יאסף אל עמיו)*** (6, s.44) evfemizmidir. Bu birləşmə qədim ibri dilində ölümü bədii dillə təsvir edən ifadə kimi işlənir. Məlumdur ki, “ölmək” ifadəsi daha sarsıdıcı və mənfi təsirlidir. Bu sözün sinonimi olan “ata-babalarına qovuşmaq” evfemizmi isə fikrin daha münasib formada ifadə imkanına malikdir.“Evfemizmlər məfhumu altında deyilməsi münasib sayılmayan, xoşagəlməz, qaba, nalayiq, qorxunc, dəhşətli söz və ifadələr əvəzinə işlədilən yumşaldılmış və “təhlükəsiz” ifadələr nəzərdə tutulur” (4, s.257). Bu tipli birləşmələr dilin ifadəli vasitələri olmaqla yanaşı, həm də lüğət tərkibini zənginləşdirən amillərdən biridir. Belə birləşmələr nitqi daha mənalı və daha ifadəli etməyə kömək edir, dildə böyük üslubi əhəmiyyət daşıyır.Dilin ifadəli vasitəsi olan evfemizmlərin ekpressiv vahidə çevrilməsi onun məcazi təbiəti ilə bağlıdır.

Semantika cəhətdən emosional-ekpressiv leksikanı müsbət və mənfi mənalı ekspressiv sözlər və ifadələr qrupuna ayırmaq olar. Lakin bu bölgü şərti xarakter daşıyır. Bəzən intonasiyadan və mətn konteksindən asılı olaraq, müsbət ekspressiya

mənfi ekspressiyaya və ya əksinə çevrilə bilər. Bu vəziyyət əsasən ironik-ekspressiv tonun qüvvətləndirilməsi zamanı özünü göstərir.

"Breyşit" kitabında müsbət mənalı emosional-ekspressiv söz və ifadələr içərisində arzu-dilək, alqış bildirən söz və ifadələr üstünlük təşkil edir: *alqış olsun, mübarək qılsın, xeyirli olsun, kömək olsun, bərəkət yağacaq, nəsib etsin və s. "Avrama alqış olsun" (ברוך אברם)* (6, s.14). Kitabda həmçinin mənfi mənalı emosional-ekspressiv söz və ifadələrin işləndiyi məqamlara da rast gəlirik. Xüsusilə, qarğış bildirən söz və ifadələr mənfi ekspressiyanın ifadə olunmasında qüvvətli leksik vahidlərdir. Məsələn*: lənət olsun, qul olsun, kölə olsun, lənət sahibi olursan və s.*

"Breyşit" kitabının dilində işlənən emosional-ekspressiv leksika mətnin daxilində anlayışların əyaniləşdirilməsinə, ən dərin fəlsəfi fikirlərin və dərin hisslərin anlaşıqlı və təsirli ifadəsinə səbəb olur. Burada həm xalq dilinə məxsus emosional-ekspressiv leksiks ifadəlilik yarada bilir, həm də adi, neytral sözlər Leksik-üslubi kateqoriyalardan sinonim və antonimlərin kitabın dilində obrazlı leksikanın araşdırılmasında rolu böyükdür. Sinonimlər dilin ən qüvvətli üslubi vasitəsi kimi özünü göstərirsə, antonimlər təzad yaradan vasitə kimi tədqiq olunur.Sözlərin üslubi vəzifəsinin və xarakterinin öyrənilməsində kitabın dilində işlənən məcazlar da əhəmiyyətlidir. Tədqiqata cəlb edilən emosional-ekspressiv leksika obrazların səciyyələndirilməsi, fərdiləşdiriliməsi, onların daxili aləminin və zahiri görkəminin təsviri zamanı böyük əhəmiyyət kəsb edir. Müsbət və mənfi mənalı emosional-ekspressiv leksika kitabın dilinin mənalı və təsirli, obrazlı və kəsərli olmasına təsir göstərir.

Ədəbiyyat

1. Bəylərova A.M. Bədii dildə üslubi fiqurlar. Bakı, Nurlan, 2008, 212 səh.
2. Cəfərov S. Müasir Azərbaycan dili (4 cilddə). II cild. Bakı, 2007, Şərq-Qərb, 192 səh.
3. Dəmirçizadə Ə. M. Azərbaycan dilin üslubiyyatı. Bakı, 1962, 270 səh.
4. Əfəndiyeva T.Ə. Azərbaycan dilinin leksik üslubiyyatı. Bakı, Elm və təhsil, 2012, 352 səh.
5. Müqəddəs Kitab (Tövrat, Zəbur, İncil). İngilis dilindəki "New World Translation of the Holy Scriptures" nəşri əsasında tərcümə. ABŞ, New York. Brooklyn. 2014. 1772 səh.
6. Rick Wills, PO Box 446, Waxhaw, NC 28173 USA. Copyright, Public Domain.2012. 261 səh.

KHAYAL ASGERLI

EXPRESSIVE UNITS IN THE LEXICON OF THE “GENESIS” BOOK

SUMMARY

One of the most difficult issues facing stylistics, which is a branch of linguistics, is to study the emotional-expressive units of language. "Emotional" comes from the French word "emovere", which means emotion. Expression is derived from the Latin word "expressive", which means expressive. Unlike other areas of language, the lexicon is more developed due to the diversity of shades of meaning and expressive qualities. The main criterion of research is the change of meaning and functions of words, which are the main unit of language, due to the internal nature of the text. The article explores the possibilities of expressiveness of lexical units used in the book "Breyshit". Expressive vocabulary found in the language of the book is studied in two ways in terms of meaning: positive and negative expressive vocabulary. Words expressing wishes and applause prevail in positive emotional-expressive lexicon, and words expressing curses prevail in negative expressive lexical units. At the same time, the role of synonyms and antonyms from lexical categories in the formation of emotional-expressive lexicon is considered. Words that are not antonyms in the language become a contrasting lexical unit within the text. Among the units that express emotion in the language of the book, the stylistic-expressive function of metaphors is of great importance. In particular, metaphors that create expressiveness through analogy in language are important in increasing the emotional power of language. The article also shows expressions that belong to the ancient Hebrew language, are widespread among the Jewish people and have a strong expression. These expressions reflect the thoughts, worldviews and traditions of the people.

Keywords: Genesis, old hebrew language, expressiveness, emotionality, linguistics, expression,

ХАЙАЛ АСКЕРЛИ

ВЫРАЗИТЕЛЬНЫЕ ЕДИНИЦЫ В ЛЕКСИКОНЕ КНИГИ «БРЕЙШИТ»

РЕЗЮМЕ

Одна из самых сложных задач, стоящих перед стилистикой, являющейся разделом лингвистики, - изучение эмоционально-выразительных единиц языка. «Эмоциональный» происходит от французского слова «емовере », что означает эмоция. Выражение происходит от латинского слова «ехпрессиве», что означает «выразительный». В отличие от других областей языка, лексика более развита за счет разнообразия смысловых оттенков и выразительных качеств.Основным критерием исследования является изменение значения и

функций слов, являющихся основной единицей языка, из-за внутренней природы текста. В статье исследуются возможности выразительности лексических единиц, используемых в книге «Брейшит».Экспрессивная лексика на языке книги изучается двумя способами с точки зрения значения: позитивная и негативная экспрессивная лексика.В позитивной эмоционально-выразительной лексике преобладают слова, выражающие пожелания и аплодисменты, а в негативно-выразительных лексических единицах - слова, выражающие ругательства. При этом рассматривается роль синонимов и антонимов из лексических категорий в формировании эмоционально-выразительной лексики. Слова, не являющиеся антонимами в языке, становятся контрастной лексической единицей в тексте. Среди единиц, выражающих эмоции на языке книги, большое значение имеет стилистико-выразительная функция метафор. В частности, метафоры, которые создают выразительность через аналогии в языке, важны для увеличения эмоциональной силы языка. В статье также показаны выражения, относящиеся к древнееврейскому языку, широко распространенные среди еврейского народа и имеющие сильное выражение. Эти выражения отражают мысли, мировоззрение и традиции людей.

Ключевые слова: Брейшит, древнееврейский язык, выразительность, эмоциональность, лингвистика, экспрессия

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: Filologiya üzrə elmlər doktoru, professor Aslan Məmmədli tərəfindən çapa tövsiyə olunmuşdur.

PƏRVANƏ MÖVSÜMOVA FİRDOVSİ QIZI
Azərbaycan Universiteti
Ceyhun Hacıbeyli, 71. Bakı şəhəri, Azərbaycan
parvana.movsumova@au.edu.az

DİSKURSUN TƏDQİQİNƏ DAİR BƏZİ QEYDLƏR

Xülasə:

Bu məqalə akademik yanaşmalara və müxtəlif disiplin nəzəriyyələrinə istinad edərək, "diskurs" anlayışını üç əsas baxımdan təsvir edərək şərh edir: (1) linqvistik perspektiv (məsələn; antropoloji linqvistik, sistematik funksional linqvistik, koqnitiv linqvistik və siosolinqvistik tədqiqatlar); (2) qeyri linqvistik perspektiv (məsələn; fəlsəfi və ədəbi tədqiqatlar); (3) fənlərarası bir perspektiv (məsələn; danışıq təhlili (CA) və Tənqidi Diskurs təhlili (CDA)). Eyni zamandafərqli diskurs təhlilinin praktik əhəmiyyətini araşıraraq, müxtəlif diskurs məktəblərinin verdikləri əsas töhfələri üç kateqoriyaya əsaslayan bir nəticəyə gəlir. Onların dilin istifadəsini asanlaşddırır, insanların ətraf aləmlə olan dünya görüşlərini yeniləyir və sosial elmləri cəmiyyəti daha çox öyrənməyə şövq edir.

Dilin öyrənilməsində və ədəbiyyatda diskursdan daha maraqlı və əyləncəli sahələr var. Bu onunla əlaqədardır ki, diskurs dil, ismarıc, fərdlər arasında sözlü qarşılıqlı əlaqənın anlaşılması kimi mənalarla yanaşı, eyni zamanda mədəniyyət və ideologiya kimi şərh edilib. Diskurs humanitar və sosial elmlərin mərkəzində duracaq qədər böyük sahəni əhadə edən zəngin bir araşdırmadır (Steen, 2004, səh. 161).

Diskurs tehlilinin fənnlərarası tendensiyası "diskurs" termininin müxtəlif nöqteyi-nəzərdən fərqli şeylərə istinad eməsinə gətirib çıxarır. Baxmayaraq ki, bir sıra sahələrdə oxşar mənaları kəsb etsə də bu anlayışın tam izahı hələ tam aydınlaşdırılmayıb. Diskurs təhlilinin eyni məqsədli üsul və nəzəriyyəsi olmadığından, bütün məqsədləri ifadə edən izahı da ola bilməz. Əlbəttə ki diskurs bu məqalədə sadalanan izahlardan başqa bir sıra nöqteyi-nəzərdən də şərh edilə bilər, lakin burada vurğulanan sahələr diskur təhlilinin öyrənilməsində lazəm olan əsas təmsilçilərdilər. Bu yanaşmalar tərəfindən "diskurs" anlayışının təfsiri digər sahələrdə diskurs təhlilinin öyrənilməsinə öz dərin təsirini göstərir.

Digər sahələrə göstərdiyi təsirlə yanaşı, linqvistik, qeyri-linqvistik və fənnlərarası sahələr tərəfindən aparılan müxtəlif növlü diskurs təhlillərinin də praktik əhəmiyyəti var. Beləki bu vasitəylə onun cəmiyyətin fikrinin formalaşmasında və təkmilləşməsində özünəməxsus dəyəri var. Diskurs təhlilinin bir sıra qarşılaşdığı məhdudiyyətlər olsa da, gözəçarpacaq qədər praktik əhəmiyyəti olduğu da danılmazdır.

Beləliklə, məqalədə müxtəlif "diskurs" anlayışlarının üç əsas baxımdan ilkin təsnifatı və təfsiri verilir. Bir tərəfdən, terminoloji konsepsiyanın araş-

dırılması,müxtəlif diskurs təhlili məktəblərinin nəazəriyyələrini, metodlarını və obyektlərini öyrənməyə kömək edir. Digət tərəfdən isə, tədqiqatların praktik dəyərinin öyrənilməsini asanlaşdırır

Açar sözlər: diskurs, yanaşma, metod, linqvistika, situasiya, perspektiv, nitq, tərz

Bir sira elmlərlə əlaqəli olan diskurs fərqli yanaşmaları əks etdirsə də, özündə onların hamısını cəmləndirən ortaq bir element də daşıyır. Diskurs hər sahədə sadəcə söz və mətnlərin deyil, əslində onların yaratdığı mənanın təcəssümüdür. Diskurs vasitəsilə biz nə bildiyimizi və necə bildiyimizi ifadə etməklə yanaşı, qarşı tərəfin onu necə anlamasını təmin etməyə çalışırıq. Linqvistika, fəlsəfə elmləri, sosial-psixologiya, koqnitiv elm sahələri və digər fərqli bölmələr bu mövzuda davamlı və sistematik araşdırmalar aparırlar. Diskurs təhlilinin fənlərarası tendensiyası, 'diskurs' ifadəsinin müxtəlif yanaşmalar baxımından müxtəlif mövzulara istinad edilməsini qaçılmaz edir. Diskurs termini bütün sadalanan sahələrdə eyni cür təqdim olunsa da, əslində fərqli anlayışları əks etdirir. Bəzən diskurs sadəcə dildən istifadə kimi qəbul edilir (Potter, 2004; Widdowson, 2007, Semino 2008 və digər əsərlər); digər tərəfdən isə diskurs bir cümlədən daha böyük bir vahid kimi başa düşülür (Cameron, 2001; Martin & Rose, 2007). Burada qeri-müəyyənlik yaradan odur ki, zamanla müxtəlif alimlər fərqli yanaşma və təriflər vermişlər. Məsələn, Potter (2004) – diskursu mətn və sosial zəmində olan danışıq kimi göstərir. Beləki, ona nə dil quruluşu, nə qrammatik qaydalar, nə fərqliliklər sistemi, nə də cümlə düzədəln struktur kimi yanaşmır, əvəzində onu sadəcə ünsiyyət vasitəsi kimi göstərir. Hoey (2001), də təxminən eyni prizmadan çıxış edərək diskursu, xususilə də yazıdaki diskursu müəllif və oxucu arasındakı vasitə kimi qiymətləndirir. Bu iki müəlliflə həmfikir olan Gee (1999) isə bu anlayışı daha mürəkkəb və dərin nəzəri izahlarla əsaslandıraraq, diskursu cəmiyyət tərəfindən qəbul edilmiş dilin istifadəsi, düşünmə, qiymətləndirmə, davranma və qarşılıqlı izahda, doğru yerdə, doğru zamanda və doğru ifadələrin istifadəsi kimi tərənnüm edir. Başqa sözlə desək, deyilənlərdən də aydın olur ki, diskursun ümumiyyətlə razılaşdırılmış ortaq bir tərifi yoxdur və bir sıra qarışıq istifadə qaydası var.

"Diskurs" terminin real istifadəsi və diskurs təhlilinin təsnifatıyla bağlı heç bir ortaq fikir olmadığından bu mövzu hələ qeyri-müəyyən və ziddiyyətlidir. Potter (1997) diskurs təhlilinin beş versiyasını müəyyənləşdirir ki, bunlardan ilk üçü dilçililik və psixologiya elmlərinə aid edilir.Dördüncü yanaşma standart Foucalt yanaşmasıdır, sonuncu model isə Potter və Wetherell`s-ə (1987) məxsus olub - diskursu mətn və sosial zəmində olan danışıq kimi ifadə edir. Cook isə (1998) diskurs təhlilini üç janra ayırır; İngilis və Amerikan məktəbi, Foucault məktəbi və fərqli tədqiqat məktəbləri əsasında tənqidi diskurs tədqiqi məktəbi.

Potter (1997) və Cook (1998), Cameron (2001), Yates, Taylor, and Wetherell (2001) və Lomax's (2004) əsərləri diskurs təhlilinin başqa növlərini -məsələn,

ünsiyyət və söhbət analizi etnoqrafiyası kimi bölmələri əhatə etməklə daha geniş və dərin təhlillər təmin edir. Bütün bu sadalan faktlar sübut edir ki, diskurs təhlili həqiqətən bir sıra müxtəlif nəzəriyyələrin və analitik praktikaların qarşılıqlı rəqabət apardığı mübahisəli bir sahədir. Bütün bu qanunauyğunsuzluqlar və qarışıq nəticələrə baxmayaraq, "diskurs" üç əsas disiplin çərçivəsində - linqvistik tədqiqatlar, qeyri-linqvistik tədqiqatlar və fənnlərarası tədqiqatlar formasında əks edilir.

"Diskurs"un ümumi dilçilik baxımdan təfsiri

İndiyə kimi dil baxımından "diskurs" anlayışı ilə bağlı bir fikir birliyi yoxdur. Aşağıda sadalanan nümunələr sadəcə ümumi yanaşma formalarıdır: 1) diskurs "cümlədən xaric dil vahididir" (Stubbs, 1983); 2) diskurs "birləşmələrdən (clauses) daha çöx şey bildirir" (Martin & Rose, 2007, s.1); 3) diskurs "semantik birləşmədir, forma deyil, məna vahididir" (Halliday & Hasan, 1976, s.2). Dilçilər diskurs təhlili apararkən yekdilliklə dilə və onun istifadəsinə təmərküzləşirlər.

Diskursun Antropoloji dilçilik baxımdan təfsiri

Antropoloji dilçililk dil və mədəniyyət arasındakı əlaqələrlə yanaşı, idrak (anlama) və dil arasındakı əlaqəni də aydınlaşdırır. Dilin əhəmiyyətini öyrənərkən, diskursun tətbiqinin doğru formalarını araşdırır. Antropoloji tədqiqatlara əsasən, diskursun kökü sosial fəaliyyətlərə əsaslanır (Paltridge, 1997). Diskurs ideologiya və insan davranışlarına nəzərən meydana çıxır. Beləliklə, o fərdlər və ya sosial qruplar tərəfindən həyata keçirilən ünsiyyət və ya sosial fəaliyyət növüdür. Bütün bunları nəzərə alaraqdan aimlər "vəziyyət konteksti- context of situation" (Malinovsky, 1923) və "nitq hadisələri- speech events" (Bauman, 1977; Hymes, 1981)kimi mülahizələri irəli sürürlər. Tədqiqatın əsas diqqət mərkəzi janrlar, aktlar və hadisələr üzərində cəmlənib.

Yuxarıda qeyd edilən məqamlara əlavə olaraq, antropoloji dilçilik diskursu təhlil edərkən "intertextuality" yəni "mətnlərarası" termininə də xüsusi diqqət yetirir. Bu zaman şəxsi əməllərin ilə başlamağın əvəzinə əvvəlki hadisə və davranışların ortaya çıxması və təfsiri bir-birinə qarışır (Li, 2007). Diskursu öyrənərkən, bu sahədə fəaliyyət göstərən alimlər əsas diqqəti dilin faktiki istifadəsinə, xüsusilə də şifahi nitqə və kommunikasiya üsullarına verirlər.

Diskursun Sistem Funksional dilçilik baxımdan təfsiri

Sistematik funksional dilçilər digər mövzularla yanaşı dil və onun istifadəsi ilə də maraqlanırlar. Yazılı mənbələrdə bu iki termin: diskurs və mətn heç bir halda yanaşı işlənmir. Çox saylı alimlərə görə bu iki termin "cümlədən daha böyük dil vahidləridir: bu zaman ta diskurs istifadə edilir, ya da mətn. (Chafe, 1992, səh. 356; Stubbs, 1996, səh. 4). Funksionala dil nəzəriyyəsi baxımından bu iki termin məna baxımından fərqlənir: diskurs dinamik çox-ölçülü proses olduğu halda, mətn bu prosesin stabil məhsuludur (Halliday, 1994; Brown & Yule, 1983). Dil mədəniyyət və cəmiyyət formalarını özündə əks etdirən semitik sistem olaraqdan spesifik kontekstlərdə təyin olunmuş mənanı bildirir. Eyni zamanda, dil üç kontkstli elementə

- Yerləşmə, İştirakçılar və Söyləməyə (Field, Tenor and Mode) əsaslanaraq potensial əhəmiyyət daşıyan çox funksiyalı bir semantik sistemdir.Məzmun elementlərini təcəssüm etdirərkən, dil istifadəçiləri leksik və qrammatik seçimlər edirək semantik mənaya çevirirlər, beləki nəhayətində sözlər və qrammatik qaydalar fonetik səviyyədə təmsil olunur. Bu növ "qarşılıqlı-təmsilçilik əlaqəsi" mətlərdə tam açıq şəkildə nümayiş edilir.

İstifadə dilini tədqiq etmək məqsədiylə, funksional linqvistlər ilkin baza kimi üç meta-funksiyanı təklif edirlər: təcrübə funksiyası- experiential function fərdlərarası funksiya- interpersonal function və mətni funksiya - textual function Öz yardımçı sistemləri ilə birgə bu üç əsa meta-funksiya nitqdə əsas linqvistik faktorları nümayış etdirməklə linqvistik tədqiqatın əsas funksiyası olan danışıq dilini istifadə tərzini təsdiq edir.

Diskursun Koqnitiv dilçilik baxımdan təfsiri

Koqnitiv perspektiv əsasından yanaşıldıqda, dilə ümumi idrak hadisəsi yəni koqnitiv fenomen kimi yanaşılır. Koqnitiv tərzlə yanaşı onun sahəsi, kateqoriyasi, çərçivəsi,ssenarisi və sxemləri dilin təsvir edilməsində özlərinə məxsus və digərləri ilə əvəz oluna bilməyəcək bir rol oynayırlar. Tədqiqat sahəsini artırmaqla koqnitiv dilçilər tədricən sadə cümlələrdən bütöv semantik birliklərə- mətn və diskursa keçid edirlər. Koqnitiv dilçilər iddia edirlər ki diskurs prossesi koqtiv fenomen və ya koqnitiv hadisələrdən ibarət olaraq fəaliyyət göstərir. Diskursun ifadə olunmasında koqnitiv psixologiya (yaratma, anlama) və sosial psixologiya (Loughborough məktəbi) kimi qəbul edilən "diskursiv psixologiya" var. Baxmayaraq ki, sonuncu adı çəkilən idraki yanaşmanı təkzib edərək, daha çox etnomedoldoloji yanaşmaya təmərküzləşir. Diskursun koqnitiv araşdırılması rəsmi, qrammatik, stilistik, təhkiyəli və arqumentli təhlildən çox fərqlənir.

Koqnitiv dilçilər diskurs təhlili ilə bağlı bir sıra nəzəriyyələrlə çıxış edirlər. Bu nəzəriyyələrdən birincisi Searle (1979) və Lakoff (1980) tərəfindən irəli sürülmüş metafora nəzəriyyəsidir. Metaforlar yəni bənzətmələr koqnitiv linqvistlik baxımdan ənənəvi yanaşmalarla ifadə olunan nitqin əvəzində istifadə olunacaq "mücərrəd məfhumların qavranılması üçün güclü koqnitiv alətlərdir" (Ungerer & Schimid, 1996, səh.114). Metaforlar nəzəriyyəsi ilə yanaşı Sperber and Wilson (1995) tərəfindən irəli sürülən Uyğunluq nəzəriyyəsi də koqnitiv dilçilikdə özünəməxsus yer tutur. Bu nəzəriyyənin əsasını söhbət iştirakçılarının bölüşdükləri bilikləri – yəni diskursda daxili uyğunluğu qurmaq və danışanın əsas məqsədini dinləyiciyə çatdırmaqda müvəffəq olmaqdır. Növbəti nəzəriyyə isə Fauconnier (1999, 2000) tərəfindən izahı verilmiş "zehni məkan anlayışıdır". Bu nəzəriyyənin əsasını fərqli zehni məkanlara inteqrasiya etməklə diskursunyeni perspektivinə çevriləcək "sensor proyeksiyası" təşkil edir. Belə fərqli və yaradıcı yanaşma, şübhəsiz ki, diskurs interpretasiyasının ən effektiv metodu kimi nümayiş etdirilir.

Diskursun Sosiolinqvistika baxımdan təfsiri

Sosiolinqvistika adından da göründüyü kimi, dilin sosial məzmunda öyrənməsini təmin edir. Dilin kommunikativ, sosial və interaktiv olmasını təmin etməklə yanaşı, dilin gündəlik həyatda necə formalaşdığını və həyatın reallığını necə təsvir etdiyini də əks etdirir. Bir sıra yarım qolları arasında "kommunikasiyanın etnoqrafiyası" başlığı altında fəaliyyət göstərən diskurs təhlili daha çox akademik diqqəti cəlb edir. "Sosial və mədəni dəyərlərə əsaslanan dilin sosiolinqvistik yanaşması danişığın etnoqrafiyası, daha əhatəli qeyd etsək isə kommunikasiyanın etnoqrafiyası adlandırılır" (Fasold, 1990, səh. 39). Antropologiya və linqvistikaya əsaslanaraq, bu sahədə olan tədqiqatçılar daha çox "vəziyyətlər və istifadə formaları, danışıq şablonları və funksiyaların doğru tərzdə əks olunmasından narahatdırlar" (Hymes, 1968, səh. 101). Bu sahədə fəaliyyət göstərən alimlər iddia edirlər li, diskurs insanların kommunikasiyasını limitləyir və belə olduğu təqdirdə də kommunikasiya öz növbəsində diskursun həqiqi istifadəsinə nəzarət edir. Hymes nitq situasiyalarının əks etdirdiyi bir sıra komponent faktorları səkkiz qrupa bölür və hər birini də danışıqdaki ifadə etdikləri sözün hərfiyə işarələyir (S: setting, P: participant, E: ends, A: act, K: key, I: instrumentalities, N: norms, G: genre) hansilar kiməzuna uyğun gəlir (Hymes, 1972). Bu komponentlərin müəyyənləşdirilməsi etnoqrafik linqvistikada əsas yer tutur, beləki bu komponentlər sayəsində dilin müəyyən situasiyalarda məqsədəuyğun istifadə edilməsini araşdırmaqda etnoqrafa şərait yaradır.

Diskursun digər humanitar və sosial elmlərdə təfsiri

Bu sahə linqvistika ilə birbaşa bağlı olsa da digər sahələrə də aid edilə bilər. Hal-hazırda bir sira qeyri-linqvistik disiplinlərə əsaən diskurs termini özünxas yanaşma ifadə edir. Çox sayda irəli sürülən nəzəriyyələrin dərinliyini və tədqiqat nailiyyətlərini nəzərə alsaq da, fəlsəfi və bədii elmlərin gətirdiyi tohvələr daha çoxdur.

Diskursun Fəlsəfə baxımından təfsiri

Dövrümüzdə fəlsəfə bütün dünyanı tədqiqat mövzusu kimi gördüyündən, dilçilil onun akademik yanaşması cəhətdən çox kiçik bir hissəsini əhatə edir. Fəlsəfi yanaşmalar baxımından Foucault və onun davamçılarının apardıqları araşdırmalar özünəməxsus dərəcədə fərqlənir. Foucault-in fərziyyələri üzərindən tədqiqat aparanlar "Foulcault məktəbi" adlansa da, tam şəkidə qəbul edilməmiş bir yanaşma sahəsidir. Foucault, daha çox sosial qurumlarla bağlı tənqidi araşdırmaları ilə - xüsusilə də güc, bilik və diskursarasındakı əlaqələrin araşdırılması ilə tanınıb. İlk dəfə la langue-dil, la parole- nitq, la langage- nitq fəaliyyəti terminlərini dilçiliyə daxil edən Saussure tərəfindən ən əsası qoyulan dil və nitq qarşılaşdırılması, bir-birindən fərqləndirilməsi konsepsiyasına istinadədən Foucault diskursun təfsirini özünə xas şəkildə izah edir. Foucalt mübahisə edir ki, diskurs simvollar vasitəsilə ifadə edilsə də, əslində adi rəmzlərin əks etdirdiyindən daha şox məlumat verən mənanı kəsb edir. Başqa sözlə ifadə etsək, diskurs sadəcə dil və nitqlə

ümumiləşdirilə və ya məhdudlaşdırıla bilməz (Foucault, 1972). Onun mülahizəsinə görə diskurs bəyannamələr adlanan əsas tərkiblərdən – funksional semiotiklərdən daha çox sözönülər, ifadələr və nitq vasitələrini özündə cəmləşdirən struktur birliklərdən ibarətdir. Bir qrup bəyanatlar "diskurs sahəsində meydana gəlmə və mövcudluq vəziyyətindən; bəyanatın mənası isə ondan əvvəl və sonra gələn bəyanatlar ardıcıllığından" asılıdır. (Gutting, 1994, səh. 231). Bir sözlə siskurs cəmiyyətin formalaşdırılmasında öz təsirini göstərir.

Diskursun Ədəbiyyatşünaslıq baxımından təfsiri

Diskursun ədəbi cəhətdən izah olunması qədim Yunan dövrünədək iddia ediilir. Baxmayaraq ki, alimlər həmin dövrlərdə diskursu sadəcə bədii əsərlərin incəsənət xüsusiyyəti kimi dəyərləndirirlər. Ənənəvi nəzəriyyələr, mətn strukturları, janrlar və üslublar ədəbi elmlər yanaşmaından diskurs təhlilinin əsas obyektləri olub. Adi danışıq dili əlavə bənzətmə və məcazlardan təmiz olaraq, sadəcə kommunikasiya prossesində ünsiyyəti təmin edirdisə,ədəbi dil öz növbəsində sətiraltı mənalara və dəyişmələrə daha çox köklənərək estetik mahiyyət yaradır. Ədəbi diskurs kommunikativ yanaşma kimi qəbul edilmir, çünki bu zaman məlumat ötürülsə də , əsas məqsəd sətiraltı mənanın çatdırılmasıdır. Cook (1994) və Hakemulder (2004) belə fərz edirlər ki, ədəbi diskursun insan düşüncəsinin ətraf dünyaya baxışında yenilikçi və təsir edici effekti var. Başqa sözlə ifadə etsək, ədəbi diskurs yazıçılar və oxucular arasındakı müzakirəni təmin edir (Steen, 2004). Bu növ qarşılıqlı əlaqə oxucunun düşüncəsində artıq kök salmış qanunauyğunluğu pozur və ona dəyişib inkişaf edən sosial amillərdən asılı olan, reallıqdan fərqli bur dünya qurmağa kömək edir (shen, 2001). Ədəbi perspektivdən izah edilən diskurs həm konkret maddi , həm də psixoloji amilləri özündə cəmləyir.

Diskurs təhlilinin mühüm bir sahəsi olsa da, ədəbi diskursun diskurs təhlilinə qatdığı töhfələrin sayı çox azdır. Bu sahədə, dayanmadan yeniliklər etmək və yaxşı nəticələr vermək üçün davamlı tədqiqatlar aparılır.

Diskurs fənnlərarası sahə baxımdan təfsiri

Bir sıra tədqiqatlar aparılsa da, bəzən onları heç bir sahəyə şamil etmək mümkün olmur. Bu sahələrdə aparılan araşdırmalar akademik yanasmaların hüdudlarını aşdığından, "fənnlərarası sahələr" kateqoriyasına aid edilir. Sərhədləri olmadığından və eyni zamanda bir neçə sahəyə istinad etdiyindən bu yanaşmanın verdiyi töhfələrin sayı daha çoxdur. Bu bölmə özündə iki əsas və təsirli fənnlərarası diskurs təhlili məktblərini (CDA və CA) qruplaşdırır.

Diskursun CDA- Tənqidi diskurs təhlili baxımından təfsiri

CDA- Tənqidi diskurs təhlili sistematik funksional dilçilər tərəfindən təqdim edilən sosial semiotik baxıçşlarda aydınlıq tapır. Digər tərəfdən isə tənqidi dilçilərin istinadlarına əsaslanan nəzəriyyələri öyrənir. Burada dil sosial və mədəni yanaşmadan tədqiq edilir. Sosial zəmində var olan diskurs siyasi, iqtisadi və mədəni fəaliyyətlərlə əlaqələnir. Burada əsas diqqət "tənqidi" mühakimənin üzərinə düşür. Baxmayaraq ki, bu sahədə olan araşdırmaçılar tənqid və ideologiya arasındaki o incə

fərqi ayırmalıdılar. Təfərrüatlı izah edildikdə, natiq və dinləyici arasında tematik seçim və növbələşmə kimi "təsiredici əlaqələr" adlandırılan dil seçimi təsirlərini araşdırırlar. Eyni zamanda güc əlaqələri, gender amilləri, və digər siyasi-sosial elementlər də tədqiqatçının marağını çəkə bilər (Mey, 2001). Kress və Hodge (1979) iddia edirlər ki, dil funksiyaları həm kommunikasiya, həm də güc nəzarəti üçün ən yaxşı vasitədir. Dil insanların düşüncə və hərəkətlərini manipulyasiya edir, insanları, hadisələri, eyni zamanda müxtəlif cins və kateqoriyaya aid olan cisimləri səciyyələndirməklə, mövcud sistemin stabilliyini və fərdlərin şəxsiliyini təmin edir (Fowler, Hodge, Kress, & Trew, 1979). Disskursun bütün janrları dilin və cəmiyyətin tənzimlənməsi üçün qaçılmaz birlik təşkil edir. Firclough (1995) üç ölçülü diskurs təhlili üsuluna müraciət edir ki, bu da mətn, diskurs istifadəsi və sosial-mədəni praktikadır. Daha izahlı məlumat versək, üç ölçülü diskurs təhlili üsulu mətnin linqvistik təsvirini verməklə, mətn və diskurs arasındakı əlaqəni sərgiləyir və diskurs istifadəsi ilə sosial-mədəni praktikanın əlaqəsini təfsir edir. Bu növ daxiliəlaqələri izləməklə, Tənqidi diskurs təhlili cəmiyyətin şəffaf gerçəkliyini görməkdə insanlara şans verir və daha yaxşı bir dünya modeli üçün ünsiyyətin düzgün formalaşmasını təmin edir. Teun A. Van Dijk-in yanaşmasında isə Tənqidi diskurs təhlili koqnitiv nəzəriyyəni linqvistika və sosial nəzəriyyələrlə əlaqələndirir. Van Dijk idrakı, diskurs-idrak-cəmiyyət kimi xarakterizə edilən üç qatlı yanaşmanın orta mərhələsi kimi qiymtləndirir. Onun yanaşmasına görə bu vəziyyətdə tədqiqatçılar gündəlik diskursun yaratdığı sosial fenomenlərin mahiyyətini daha doğru anlaya bilərlər. Tənqidçilər isə bu metodun dəyişmədən daha çox ideologiyanın bərpasına yönəlmiş olduğunu iddia edirlər.

Son dövrlərdə də, bir sıra yanaşma və fərah fikirlər bu sahədə özünü daha qabarıq əks etdirir. Bunlara nümunə kimi "pozitiv diskurs təhlili" terminiylə ənəvi nəzəriyyəni təkzib edən Martini (2004, 2007), daha sonra isə şərq aləmindəki dil və nitqin dialoq və çox şaxəli deyil də, monoloq tipli olmasını iddia edən Shi-ni (2009) güstərə bilərik. Bu sahədə olan tədqiqatlar geniş vüsət almış və diskursla bağlı yeniliklər hər zaman yanaşmanı başqa səmtə apara bilir.

Diskursun (Conversation Analysis-CA) - Danışıq təhlili baxımından təfsiri

Danışıq təhlili ilk dəfə 1960-cı illərdə gündəlik fəaliyyətlərin sosial təşkili və söhbətin qarşılıqlı əlaqəsini öyrənmək məqsədiylə sosiologiyanın nəzdində meydana gəlmişdi. Burada əsas məqsəd fikirlərin təşkil olunmasına və qarşılıqlı nitq müddətində növbələşməsinə yönəlmişdi. Diskurs təhlili isə bildiyimiz kimi çox daha geniş bir sahəni əhatə edir. Bir sıra tədqiqat nəzəriyyələri danışıq təhlilinin ideoloji kompetensiyalardan çox, yəni məna yüklənmələrinə deyil də təbii nitq əlaqələrinin öyrənilməsinə diqqət ayırır. Hər növ nitq forması bura aid edilə bilər. Məsələn: müəllimin sinifdə dərs təlimatı, telefon danışığı, xəbər proqramının yayımı və s. Tədqiqat prosesində araşdırmaçılar əvvəlcədən heş bir hazırlıq görmürlər, danışıqlara müdaxilə etmirlər, iştirakçı kimi deyil sadəcə müşahidəçi qismində nəzarət edirlər. Danışıqlar təbii yolla bitdikdən sonra isə toplanılan məlumat əsasında söhbətin

təskilini, noşbəli əlaqəsini təsvir və təhlil edirlər (Sacks, Schlegoff, & Jefferson, 1974), bərpa edirlər (Schlegoff, Jefferson & Sacks, 1977), üstünlüyünü təşkil edirlər (Pomerantz, 1978, 1984).

Bu sahədə olan nəzəriyyə və metodologiyalar ənənəvu elmi tədqiqatların kəskin ziddini təşkil edir. Eyni zamanda bu sahədə sistemli bir quruluşun olmaması və çox dar bir sahəyə aid olması dilçilər və sosioloqlar tərəfindən tənqid edilir. Ekspertlər isə, nəzəri boşluqları aradan qaldırmaq və bu sahədəki nəaliyyətləri yaxşılaşdırmaq üçün bir sıra sahələrə istinad edərək davamlı cəhdlər edirlər. Əsas məqsaəd bu sahəni ixtiyarı düşüncə formalarından və fərdi mövzu ehtimallarından daha orijinal disiplinə əsaslanan bir elmə çevirməkdir (Have, 1999).

Diskurs tədqiqinin tətbiqi əhəmiyyəti

Fənnlərarası yanaşma sübut edir ki, "diskurs" termini sadəcə bir sahəyə aid ola bilməz və o sadəcə linqvistikanın bir hissəsi deyil. Bir daha aydın olur ki, müxtəlif sahələrdə verdiyi izah fərqli olsa da, mənanın tam ötürülməsi və qarşılıqlı anlaşılmanın təmin edilməsi mühüm yer tutur. Diskurs təhlilinin linqvistik sahədə aparılması bir sıra sahələrdə dilin istifadəsini asanlaşdırır. Buna misal üçün dil tədrisini, komputer-maşın tərcüməsini və sosial kommunkasiyanı göstərə bilərik. Ədəbi sahədə edilən nəaliyyətlər isə zamn və yerdən asılı olmayaraq, ədəbi əsərlərin doğru çatdırilması yönündə insanların mənəvi baxışlarına yenilik gətirə bilər. Sosial və fəlsəfi yanaşma isə cəmiyyətin gözdən keçirilib daha effektiv bərpa edilməsi üçün yo ola bilər.

PARVANA MOVSUMOVA FIRDOVSI

SOME REMARKS ON THE STUDY IN DISCOURSE

SUMMARY:

This paper, based upon academic foci and theories of different disciplines, reclassifies and interprets distinct concepts of 'discourse' via three major perspectives: (1) linguistic perspective (e.g., anthropological linguistic, systemic functional linguistic, cognitive linguistic and sociolinguistic studies); (2) non-linguistic perspective (e.g., philosophical and literary studies); (3) interdisciplinary perspective (e.g., conversation analysis [CA] and critical discourse analysis [CDA]).

It also explores the practical significance of different kinds of discourse analysis, and concludes that the contributions made by various discourse analysis schools may mainly fall into three categories. They facilitate language use, refresh people's spiritual outlook, and lead more disciplines of social sciences to scrutinize society. There are few areas in the study of language and literature that are more exciting than discourse analysis. This is because discourse has been variously defined as language, a message, as cognitive process between individuals in verbal interaction, and as culture and ideology. Discourse is an extremely rich field of enquiry that lies at the centre of the humanities and social sciences.(Steen, 2004, p. 161)

The interdisciplinary trend of discourse analysis makes it inevitable that the term ‘discourse’ refer to diverse things via different viewpoints. Though the identical terminology ‘discourse’ is employed in many fields, its notion is, nonetheless, quite distinct. There can be no all-purpose modes or theories of discourse analysis, any more than there can be an all-purpose key. True, discourse can be further interpreted from a great many perspectives other than those listed in the present article, but the disciplines introduced here are generally views as the basic and representative ones to implement discourse analysis. The notion ‘discourse’ elucidated by these disciplines has indeed exerts a profound impact upon discourse analysis conducted by other fields.

In addition to the tremendous theoretical influence upon other fields, different types of discourse analysis carried out by linguistic, non-linguistic and interdisciplinary studies have practical significance. They serve to facilitate language use, to refresh people’s spiritual outlook and to lead more disciplines of social sciences to scrutinize society. Hence, though discourse analysis performed by these disciplines does have their limitations, they nonetheless entail practical value.

The article is, therefore, tentatively classifies and interprets distinct concepts of ‘discourse’ via the three leading perspectives. For one thing, clarification of the concept of this terminology will help to figure out the theories, methods and objects of different discourse analysis schools. For another, it will be conducive to exploring the practical significance of their research.

Keywords: discourse, approach, method, linguistics, situation, perspective, speech, style

ПАРВАНА МОВСУМОВА ФИРДОВСИ

НЕКОТОРЫЕ ЗАМЕТКИ О ДИСКУРСИВНЫХ ИССЛЕДОВАНИЯХ

РЕЗЮМЕ:

Эта статья, основанная на академических фокусах и теориях различных дисциплин, реклассифицирует и интерпретирует различные концепции «дискурса» с трех основных точек зрения: (1) лингвистическая перспектива (например, антропологические лингвистические, системные функциональные лингвистические, когнитивные лингвистические и социолингвистические исследования); (2) неязыковая перспектива (например, философские и литературные исследования); (3) междисциплинарная перспектива (например, анализ разговора [CA] и критический анализ дискурса [CDA]).

В нем также исследуется практическое значение различных видов анализа дискурса и делается вывод о том, что вклад различных школ анализа дискурса можно разделить на три категории. Они облегчают использование языка, обновляют духовное мировоззрение людей и заставляют больше

дисциплин социальных наук исследовать общество. В изучении языка и литературы есть несколько областей, более увлекательных, чем анализ дискурса. Это связано с тем, что дискурс по-разному определяется как язык, сообщение, как когнитивный процесс между людьми в вербальном взаимодействии, а также как культура и идеология. Дискурс - это чрезвычайно обширная область исследований, лежащая в основе гуманитарных и социальных наук (Steen, 2004, p. 161).

Междисциплинарная тенденция анализа дискурса неизбежно приводит к тому, что термин «дискурс» относится к разным вещам с разных точек зрения. Хотя идентичная терминология «дискурс» используется во многих областях, тем не менее, ее понятия весьма различны. Не может быть универсальных способов или теорий анализа дискурса, как не может быть универсального ключа. Конечно, дискурс можно интерпретировать с очень многих точек зрения, отличных от перечисленных в данной статье, но дисциплины, представленные здесь, обычно являются основными и репрезентативными для реализации дискурсивного анализа. Понятие «дискурс», разъясняемое этими дисциплинами, действительно оказывает глубокое влияние на анализ дискурса, проводимый в других областях.

Помимо огромного теоретического влияния на другие области практическое значение имеют различные типы дискурсивного анализа, проводимые лингвистическими, неязыковыми и междисциплинарными исследованиями. Они служат для облегчения использования языка, обновления духовного мировоззрения людей и ведения большего числа социальных наук для изучения общества. Следовательно, хотя дискурсивный анализ, выполняемый этими дисциплинами, действительно имеет свои ограничения, они, тем не менее, имеют практическую ценность.

Таким образом, в статье проводится предварительная классификация и интерпретация различных концепций «дискурса» с трех основных точек зрения. Во-первых, прояснение концепции этой терминологии поможет разобраться в теориях, методах и объектах различных школ дискурсивного анализа. Во-вторых, это будет способствовать изучению практического значения их исследований.

Ключевые слова: дискурс, подход, метод, лингвистика, ситуация, перспектива, речь, стиль

Bibliography:

1. Brown, G.., & Yule, G. (1983). *Discourse analysis*. Cambridge: Cambridge University Press.
2. Cameron, D. (Ed.) (2001). *Working with spoken discourse*. London: Sage.
3. Chafe, W. (1992). Discourse: an overview. In W. Bright (Ed.), *International encyclopedia of linguistics* (pp. 356-358). New York: Oxford University Press.

4. Chouliaraki, L., & Fairclough, N. (1999). *Discourse in late modernity: Rethinking critical discourse analysis*. Edinburgh: Edinburgh University Press.
5. Cook, G.. (1994). *Discourse and literature*. Oxford: Oxford University Press.
6. Fairclough, N. (1995). *Critical discourse analysis: the critical study of language*. London: Longman.
7. Fasold, R. (1990). *The sociolinguistics of language*. Oxford: Blackwell.
8. Gee, J. P. (1999). *An introduction to discourse analysis: Theory and method*. London: Routledge.
9. Hakemulder, J. (2004). Foregrounding and its effects on readers' perception. *Discourse Processes*, 38(2), 193–218.
10. Halliday, M. A. K., & Hasan, R. (1976). *Cohesion in English*. London: Longman.
11. Halliday, M. A. K. (1978). *Language as social semiotic: The social interpretation of language and meaning*. London: Edward Arnold.
12. Harris, Z. (1952). Discourse analysis. *Language*, 28(1), 1-30.
13. Have, P. (1999). *Doing conversation analysis: A practical guide*. London: Sage Publications.
14. Hoey, M. (2001). *Textual interaction: An introduction to written discourse analysis*. New York: Routledge.
15. Martin, J. R. & Rose, D. (2007). *Working with discourse. meaning beyond the clause* (2nd Edition). London: Continuum.
16. Steen, G. (2004). Perspectives on discourse: the state of the art. *Language and Literature*, 13(2), 161- 179.
17. Widdowson, H. G. (2007). *Discourse analysis*. Oxford: Oxford University Press.
18. Yates, S., Taylor, S., & Wetherell, M. (Eds.). (2001) *Discourse as data: a guide for analysis*. London: Sage.

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: filologiya elmləri doktoru professor Azad Məmmədov capa tovsiyə etmişdir.

ƏZİZOVA RÖYA TELMAN QIZI
Azərbaycan Dillər Universiteti,
Rəşid Behbudov küçəsi 134,
83royaazizova@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ MODAL SÖZLƏR MODALLIĞIN İFADƏ VASİTƏSİ KİMİ

Xülasə

Müasir ingilis dilində cümlədə modallıq müxtəlif şəkildə təzahür edir.Bunlar,intonasiya,felin şəkilləri,söz sırası,modal fellər və modal sözlərdir. Modallığın cümlədə ifadə vasitələrindən biri də modal sözlərdir.Dilçilər modal sözləri son dövrlərdə araşdırmağa başlamışlar.Bir çox dilçilər bu sözləri müxtəlif nitq hissələri qrupunda,xüsusi ilə də zərflərin tərkibində təsrif etmişlər.Onların bəziləri modal sözləri modal zərflər kimi adlandırmışlar. Modal sözlər danışanın deyilənə münasibətini bildirir və cümlədəki hökmə modal məna çaları əlavə edir.Bu sözlərin müstəqil mənalı sözlərdən əmələ gəlməsi fikri çox geniş yayılmışdır.Onların bəziləri ikili xarakterdə olur.Modal sözlər təcrid olunduğu leksik sözlərlə bir növ qrammatik omonimlik yaradır.Müasir ingilis dilində lüğəvi mənası olmayan hər bir söz modal söz ola bilməz.Bu tip sözlər mütləq ehtimallıq, zərurilik və mümkünlük əks etdirmək qabiliyyətinə malik olmalıdırlar.Xəbər istisna olmaqla, modal sözlər heç bir cümlə üzvü ilə bağlı deyil.Onlar cümlədə ara söz, bəzən isə söz-cümlə vəzifəsində çıxış edirlər.Modal sözlərin yaratdığı məna bir üzvlə məhdudlaşmır.Onların ifadə etdiyi modallıq bütöv cümləyə aid olur.Bundan əlavə, modallıq cümlənin tipindən də asılıdır.Modal sözlər daha çox nəqli cümlələrdə mövcud olur. Buna baxmayaraq sual cümlələrində də onlara rast gəlmək olur.Əmr cümlələrində isə onlar heç zaman işlədilmir.

Açar sözlər: modal sözlər, predikativlik, subyektiv reallıq, potensial minimum

Modal sözlər qrupu ingilis dilində və eləcə də ümumi dilçilikdə yeni məsələ olub, son dövrlərdə araşdırılmağa başlanılıb. Əlbəttə müşahidələr göstərir ki, hələ qədim zamanlardan bəri bir çox mütəxəssislər dildə mövcud nitq hissələrinin əlamətlərinə uyğun gəlməyən,nitq hissələri təlimindən kənara çıxan söz qrupunun olduğuna işarə etmişlər.Lakin bu qrup sözlərin mahiyyəti,spesifik xüsusiyyətləri haqqında yazılar son dövrün məhsuludur.

Bu baxımdan O. Musayevin irəli sürdüyü təsnifat çox maraqlıdır. Müəllif nitq hissələri bölgüsündə üçüncü bir prinsip də irəli sürmüş və modal sözlərin həm morfoloji, həm sintaktik baxımdan digər nitq hissələri arasında xüsusi bir yer tutduğunu qeyd etmişdir. Daha sonra müəllif göstərmişdir ki, əsas nitq hissələrindən

fərqli olaraq modal sözlər cümlə üzvü ola bilmir, heç bir qrammatik kateqoriyaya malik deyil; köməkçi nitq hissələrindən fərqli olaraq isə onlar dildə qrammatik məna ifadə etmək vasitəsi ola bilmir,yəni köməkçi funksiya daşıya bilmir.Modal sözləri səciyyələndirən əsas xüsusiyyət odur ki, onlar cümlənin quruluşuna daxil olmadan sərbəst işlənir, müstəqil olur.Bu cəhəti nəzərə alaraq modal sözləri xüsusi qrup nitq hissəsi hesab etmək və onları sərbəst nitq hissəsi adlandırmaq olar.**(1, səh.12)**

H.Suit modal sözləri təsrifolunmayan nitq hissələrinin tərkibində verilmiş zərflərə daxil etmişdir.

İ.P.İvanova,V.V. Burlakova və Q.Q.Poçeptsov isə nitq hissələrini əsas və köməkçi olmaqla iki qrupa bölmüşlər, lakin modal sözlərin hansı nitq hissələri qrupuna aid olduğunun şübhəli qaldığı fikrini də vurğulamışlar.**(2, səh.20)**

B.İlyiş qeyd etmişdir ki, modal sözlər ənənəvi olaraq zərflərlə birgə götürülür.**(3, səh 33)**

Cefri Liç və Jan Svartvik də modal sözlərə nitq hissələrinin tərkibində yer ayırmamış, onları zərflərin tərkibində vermişlər. **(4, səh. 83)**

Daisuke Suzuki və Takaşi Fujivara modal sözləri zərflərin daxilində analiz edərək modal zərf adlandırmışlar. **(5, səh.827)**

Müasir ingilis dilində modallığı nitqin məzmununun gerçəkliyə münasibətini və danışanın reallıq, mümkünlük,zərurilik,ehtimallıq və s. cəhətdən faktlara və ya hadisələrə münasibətini əks etdirən qrammatik mənaların məcmuu təşkil edir.Məsələn: Yes, **of course** you know that! **No doubt** many will regard these as harsh words, but **regrettably** they are true.

Ümumi dilçilik ədəbiyyatında belə bir fikir də formalaşmışdır ki,hər bir cümlədə modallıq öz əksini mütləq tapır.Başqa sözlə, hər bir cümlədə məzmunun bu və ya digər cəhətdən gerçəkliyə münasibəti əks olunur. Modallığın ifadə vasitələri isə hər bir konkret dildə, eləcə də müasir ingilis dilində müxtəlif şəkildə təzahür edir.Cümlə xarici aləmin hadisələri haqqında müəyyən məlumat verməklə bərabər, danışan bu məlumata fikrini də bildirir.Müasir ingilis dilində predikativlik, xəbərlik,cümlə və modallıq haqqında bəzən bir-birinə zidd fikirlər irəli sürülür.Əksər dilçilər belə bir fikri müdafiə edirlər ki, modallıq hər bir cümlənin mühüm əlaməti olub, predikativliklə üzvü surətdə bağlıdır.Bu fikri müdafiə edən dilçilər predikativliyi cümlənin mahiyyətini təyin edən ,müəyyənləşdirən qrammatik kateqoriyaların toplusu hesab edirlər**. (6, səh.6)** Onların fikrincə, bu kateqoriyalar birlikdə ən ali və xüsusi bir kateqoriya-predikativlik kateqoriyasını yaradır.

V.Q.Admoni və İ.B.Xlebnikova isə predikativliklə modallığın üzvü əlaqədə olmadığını irəli sürürlər**.(7, səh.48)** Xəbərlik kateqoriyası doğrudan da ,cümlə üzvü olmaq etibarı ilə xəbərlə bağlıdır, ancaq xəbəri olan cümlələrə xasdır. Predikativlik isə heç bir cümlə üzvü, eləcə də xəbərlə bağlı olmayan bitmiş bir fikri real varlığa aid etmək qabiliyyətidir. Xəbərlik və predikativlik kateqoriyaları arasındakı münasibət təqribən mübtəda ilə məntiqi subyekt, xəbər ilə məntiqi obyekt arasındakı münasibət kimidir. Bunlar ancaq belə halda uyğun gələ bilər, lakin eyni hadisə olmazlar.

Predikativlik xəbərlik kateqoriyasından fərqli olaraq, məntiqi-qrammatik kateqoriyadır.

Müasir ingilis dilində modallıq müxtəlif vasitələrlə: modal fellərlə, intonasiya, felin şəkilləri, söz sırası, modal sözlər və s. ilə ifadə oluna bilir.

Daisuke Suzuki və Takaşi Fujivara isə modallığın əsas leksik ifadə vasitələrindən biri kimi modal zərflərin (modal sözlər) olduğunu vurğulamışlar. **(5, səh.828)**

Müasir dilçilikdə,eləcə də ingilis dilində modallıq kateqoriyası və onun müxtəlif ifadə vasitələrinə çoxlu tədqiqat işləri həsr olunmuş lakin,yenə də modallıq və onun ifadə vasitələri (modal sözlər haqqında) ümumi fikir birliyi yoxdur.

Müasir ingilis dilində modal sözlər,əsasən,müstəqil mənalı sözlərdən əmələ gəlmişdir.Bu qəbildən olan sözlərin bir hissəsi öz ilkin mənbəyindən tamamilə əlaqəsini kəsmiş, ancaq modal sözlər kimi sabitləşmişdir.Məsələn: **Maybe** you want to tell her the truth? He'll **perhaps** come to the party.

Belə modal sözlər miqdar etibarı ilə o qədər də çox deyildir.Modal sözlərin bir qrupu isə dildə ikili xarakterdə olur.Başqa sözlə desək,təcrid olubduğu leksik, nominativ sözlərlə bir növ qrammatik omonimlik yaradır.Məsələn: **Really**, dear, nobody is innocent in life! He delivered his speech before a large audience and **of course** he did it professionally. **No doubt** there is a legend that the first silver birch was brought to this earth from the moon.

Modal sözlər əsas nitq hissələrindən mənanın zəifləməsi nəticəsində təcrid olunur.Mənanın zəifləməsi ilə əlaqədar oaraq həmin sözərin sintaktik vəzifəsi də dəyişmiş olur.Məsələn: **Surely,** you won't betray your friend.She was **probably** dissatisfied but she didn't show. When you phoned, I was on my way home, **truly.**

Beləliklə də, müstəqil leksik mənalı sözlərdən yeni bir kateqoriya-modal sözlər təcrid olunur.Bu qəbildən olan sözlər heç bir nominativ mənaya malik olmur.Onlar cümlənin müstəqil bir üzvü ola bilmədiyi kimi,eyni zamanda söz birləşməsinin əsasını da təşkil edə bilmir.Bu bir daha sübut edir ki,modal sözlər bu yeni söz qrupuna daxil olarkən məna ilə birlikdə əvvəlki sintaktik vəzifələrini də itirir.Modal sözlərin bir qrupu isə cümlə üzvlərinin bir növ ixtisarı nəticəsində meydana çıxır.Bu, əsasən, söz-cümlələrə aid olub, dialoqlarda tez-tez müşahidə olunur.Məsələn: "But don't you think I'd better to apply to a new job? – **Certainly.** I think you would have been better to have done it before. – **Probably.**

Yeri gəlmişkən onu da qeyd etmək lazımdır ki,müasir ingilis dilində lüğəvi mənasını itirərk müxtəlif münasibətlərin ifaçısı kimi çıxış edən hər hansı bir söz modal söz ola bilməz.Çünki bu tipli sözlər həm də hökmən ehtimallıq, zərurilik,mümkünlüklə əlaqədar xüsusiyyətləri əks etdirmək qabiliyyətinə (modallıq) malik olmalıdır.Əks halda bunları modal sözlər adlandırmaq olmaz.

Real gerçəkliyə heç bir modal münasibət (ehtimallıq,zərurilik və gerçəklik münasibətləri) əks etdirməyən,subyektiv emosiyaları bildirən sözlərin modal söz sayılması faktı heç də modallığın təkçə subyektiv cəhətini qəbul etmək deyildir. İnsanın subyektiv emosiyalarını, ruhi vəziyyətini, ifadə, meyl vəs hisslərini modallıq

kateqoriyası anlayışı ilə bərabərləşdirmək nəticədə qrammatikada psixoloji cərəyanı müdafiə etməyə aparıb çıxarır.

Modallıq kateqoriyası heç də insani hisslərin subyektiv emosional çalarlıqlarının inikasını deyil, nitqin məzmununun reallıq, mümkünlük, ehtimallıq, zərurilik və s. cəhətdən gerçəkliyə münasibətini bildirməyə xidmət edir. Aşağıdakı cümlələri bu cəhətdən müqayisəli şəkildə nəzərdən keçirək. Məsələn:1. **Certainly,** Sandra is in her mid thirties. Bu cümlədə **certainly** modal sözü danışanın real varlığa əminlik münasibətini bildirir. Bu qrupa **surely, really, of course** kimi modal sözlər də daxildir.2.**Maybe** you want him to be a bankrupt. Bu cümlədə **maybe** güman və şübhəlik münasibətini özündə ehtiva edir. Buraya **probably** və **perhaps** sözlərini də aid etmək olar. 3.**Happily** he was awarded in the competition. Bu cümlədə **happily** modal sözü real varlığa gerçəklik münasibətini bildirir.**Fortunately**, **unfortunately, unhappily** sözəri də bu qəbildən olan modal sözlərdir.4.She was **happily** married. 5.“I’ve done my best”, he said quite **certainly.**Bu cümlələrdə isə **happily** və **certainly** sözləri gerçəkliyə heç bir münasibət bildirmir və onların hər ikisi zərf nitq hissəsidir.

Müasir ingilis dilindəki modal sözlərin cümlədə oynadığı sintaktik vəzifə məsələsinə dilçilər müxtəlif cəhətdən yanaşmışlar.Əvvəllər ara sözlər kimi səciyyələndirilən bu söz qrupunu əksər tədqiqatçılar cümlədən kənarda hesab etmiş,onların kənar edilməsi ilə heç bir məzmun dəyişikliyi yaranmadığını iddia etmişlər.Modal sözlərin cümlədə oynadığı sintaktik rola belə bir münasibət,bizcə tamamilə səhvdir. Məlum olduğu kimi modal sözlər cümlədə modallığı ifadə etmək üçün leksik bir vahiddir.Onları heç bir vaxt cümlənin ümumi məzmununa əsaslı təsir etmədən kənarlaşdırmaq qeyri-mümkündür.Modal sözləri kənar etdikdə ən azı real gerçəkliyə modallıq münasibəti aradan qalxır,cümlənin məzmunu dəyişmiş olur.Fikrimizi aşağıdakı cümlələr də sübut edir.Məsələn:1.**Maybe** one day she will get from life what she wants. 2.**Of course**, it makes no sense.3.**Perhaps** his voice was trembling because of his stressed and exhaused body.**Unfortunately** he arrived on the very day of her death.Bu cümlələrin birincisinin tərkibindən **maybe** və üçüncüsünün tərkibindən **perhaps** modal sözlərini çıxartmış olsaq, cümlənin məzmunundan **gümanlıq** və **şübhəlik** aradan çıxmış olacaqdır.İkinci cümlənin tərkibi **of course** modal sözündən təcrid edilmiş olsa, cümlə sadəcə olaraq müəyyən bir hökmü icra etməklə məhdudlaşar, heç bir **əminlik** məzmunu meydana çıxmaz.Nəhayət,sonuncu, dördüncü cümlədəki **unfortunately** modal sözü işlədilməzsə, burada **gerçəklik** münasibəti aradan qalxmış olacaqdır.

Müasir ingilis dilində modal sözlər heç bir cümlə üzvü ilə sıx bağlana bilmir.Onlar cümlədə əsasən ara söz, bəzən də söz-cümlə vəzifəsində çıxış edir.Hər iki halda onları bu və ya digər cümlə üzvü ilə bağlamaq mümkün deyil.Beə ki, modal sözün yaratdığı məna təkcə bir üzvlə məhdudlaşıb qalmır.Modal söz cümlədəki yerindən asılı olmayaraq bütün fikrə,cümlədə ifadə olunan hökmə münasibətin meyarı olduğundan,onun əks etdirdiyi modallıq nəticə etibarı ilə bütün cümləyə

yayılmış oacaqdır.Əlbəttə,modal sözün bu və ya digər sözün yanında işlənib, onun mənasına daha çox təsir etməsi fikrini inkar etməkdən də çox uzaqığ.Belə halda modal söz həmin cümlə üzvünün tərkibinə daxil olmur.

Bizə belə gəlir ki,modal sözlər (ənənəyə görə ara söz) zahirən cümlənin bir üzvünə ,bir hissəsi və ya bütövlükdə hamısına aid olduqda belə,onun ifadə etdiyi ehtimallıq,reallıq,zərurilik və mümkünlük məzmunları nəticə etibarı ilə bütün cümləyə (hökmə) aid olacaq. Bir halda ki, modal sözlər qrammatik deyil,deməli, onların bu və ya digər cümlə üzvünün tərkib hissəsi ola bilməsi və vahid bir cümlə üzvü əmələ gətirməsindən danışmaq əbəsdir.

Məlumdur ki,müasir ingilis dilində ara söz vəzifəsində modal olmayan külli miqdarda digər sözlər də çıxış edə bilir.Başqa sözlə,modal sözlərin bu vəziyyətdə çıxış edənlərinin hamısı ara söz olduğu halda,ara sözlərin hamısı modal söz olmur.

Modal sözlər sintaktik cəhətdən söz-cümlə vəzifəsində də çıxış edə bilir.Belə cümlələrin materialı başqa üzvləri, leksik-qrammatik vasitəsi olmayan, elə təkcə modal sözlərdən ibarətdir.Modal sözlərin söz-cümlə vəzifəsində çıxış etməsi əsasən dialoqlarda, onun sual cavab formasında özünü göstərir. Məsələn:You mean to follow strict disciplines? – **Certainly.** Bu tip cümlələr heç də natamamlıq təsiri bağışlamır.Belə ki, cavabdan əvvəl sual cümləsinə əsasən ehtiyac olmadığı üçün buraxılmış üzvləri asanlıqla bərpa etmək mümkündür.

Söz-cümlə vəzifəsində çıxış edən modal sözlər ehtimallıq,zərurilik,mümkünlük cəhətdən danışanın real hadisələrə münasibətini,eləcə də söylənilən fikrə münasibətini bildirməyə xidmət edir.

Modal sözlərin yalnız bir qismi söz-cümlə vəzifəsi ifa etməyə qabildir.Bu da hər şeydən əvvəl,dialoq nitqinin xüsusiyyətləri ilə əlaqədardır.Əks halda modal sözlər nominativ-lüğəvi mənaya malik olmadığından cümlənin potensial minimumu ola bilməz.

Modallıq cümlə qruluşundan da asılıdır.Modal sözlər bütün cümlə növlərində işlənə bilmir. Belə ki, onlar əsasən nəqli cümlələrə əlavə edilə bilər.Sual cümlələrində belə sözlərə çox az rast gəlmək olar. İnkar cümlələr də isə modal sözlər ümumiyyətlə işlənmir.

Modal sözlərin özərinə xas leksik xüsusiyyətləri də vardır.Bu söz qrupları, danışanın cümlədə formalaşmış fikrini ,hökmünü real gerçəkliyə nəqletmə vastəçisi kimi çıxış edir,danışanın, hökmün məzmununun real aləmə nə cəhətdən və nə dərəcədə aid olduğunu bildirmək üçün də bir növ ölçü rolunu oynayır.Hökmün reallıq,ehtimallıq,mümkünlük,gerçəklik,zərurilik və s. kimi cəhətlərdən gerçəkliyə münasibət ölçüsü məhz modal sözlərin mənasını təşkil edir. Məsələn:He is **indeed** a very talanted artist.She was **actually** too tired to argue.**Evidently** Sandra didn't pay attention that he'd mentioned her in his speech several times.

Grinbaum və Hoye modal sözləri zərflərin daxilində göstərərək semantik nöqteyi-nəzərdən iki qrupa bölmüşdür: a) əminlik bildirən: assuredly, certainly, surely, definitely, indeed, unarguably, decidedly, admittedly, və s. b) şübhə bildirən:

arguably, likely, possibly, presumably, maybe, perhaps, probably, supposedly, və s. **(8, səh 203) (9, səh.184)**

Haddelston və Pullum isə semantik baxımından modallıq gücünə görə modal zərfləri (modal sözlər) 4 kateqoriyaya bölmüşdür: a) güclü:certainly, clearly,definitely,truly, surely,obviously,və s. b) yarım güclü: evidently,apparently, seemingly,presumably, və s. c) orta : probably,arguably,likely, və s. d) zəif: conceivably, maybe, perhaps, possibly. **(10, səh.768)**

Qeyd etmək lazımdır ki, modal sözlər cümlədəki hökmə müxtəlif incə modal məna çaları qatdığı üçün, danışanın onlardan istifadə etməsi nitqi zənginləşdirir və deyilənə münasibətini daha aydın ifadə edir. Məsələn: 1.It's **certainly** the case that she's becoming more demanding. 2. She **must** be becoming more demanding. Birinci cümlədə **certainly** modal sözünün ifadə etdiyi modal məna çaları, ikinci cümlədə **must** modal felinin ifadə etdiyi məna ilə eyni hesab edilə bilməz.

Beləliklə, modallıq ifadə edən vasitələr müxtəlif təzahür formalarına malikdir. Modal sözlər heç bir cümlə üzvü ilə üzvi surətdə bağlı deyildir və leksik mənaya malik olmadığından cümlənin müstəqil üzvü ola bilmir. Onlar cümlənin mənasını ona yeni çalarlıq-modal məzmun əlavə etməklə tamamlayır və ən çox xəbərlə əlaqədar olur.Modal sözlər cümlədə ara söz vəzifəsində çıxış etsə də , bütün ara söz vəzifəsində çıxış edən sözlər modal söz olmur.

AZIZOVA ROYA

IN MODERN ENGLISH MODAL WORDS AS A MEANS OF EXPRESSING MODALITY IN THE SENTENCE

SUMMARY

In modern English modality is expressed differently. These means are intonation, verb moods, word order, modal verbs and modal words. One of the means of expressing modality in the sentence is modal words. Linguists have begun to investigate modal words in recent years. Most linguists have classified these words in various groups of parts of speech, especially in adverbs. Some of them called modal words as modal adverbs. Modal words denote the attitude of the speaker to what's said and add modal meaning shades to the judgment in the sentence. The conception of creation of these words from independent ones is widely spread. Some of them have double characteristics. They become homonyms with the lexical words that they are isolated from. In modern English not every word with non-lexical meaning can become a modal word. Such type of words must be able to denote probability, certainty and possibility. Modal words have no connection with any member of the sentence except the predicate. They play the function of parenthetical elements and sometimes sentence-words. Modal word meaning is not limited to only one member of the sentence. The modality expressed by modal words belongs to the whole sentence. Besides, modality depends on the type of the sentence. Modal words

mostly exist in declarative sentences. Despite this we can come across them in questions as well. They are never used in imperative sentences.

Key words: modal words, predicativity, subjective reality, potensial minimum

АЗИЗОВА РОЯ

В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ МОДАЛЬНЫЕ СЛОВА КАК СРЕДСТВО ВЫРАЖЕНИЯ МОДАЛЬНОСТИ В ПРЕДЛОЖЕНИИ

РЕЗЮМЕ

В современном английском языке модальность проявляется в различных формах в предложении. Это, интонация, наклонения глагола, порядок слов, модальные глаголы и модальные слова. Модальные слова являются одно из средств выражения модальности в предложении. Лингвисты недавно начали изучать модальные слова. Многие лингвисты классифицировали эти слова в разных группах частей речи, особенно в наречиях. Некоторые из них называли модальные слова как модальными наречиями. Модальные слова выражают отношение говорящего к тому, что говорится и добавляет оттенки модального значения к предложению. Концепция о том, что эти слова образованы из слов с независимыми значениями, широко распространено. Некоторые из них имеют двойные характеристики. Модальные слова создают своего рода грамматическую омонимию с изолированными лексическими словами. В современном английском языке каждое слово, не имеющее лексического значения, не может быть модальным словом. Слова этого типа должны иметь способность выражать вероятность, необходимость и возможность. Модальные слова не связаны ни с одним членом предложения, кроме предиката. Они выполняют функцию вводных слов, а иногда предложение-слово. Значение, создаваемое модальными совами, не ограничивается одним членом. Выраженная ими модальность относится ко всему предложению. Кроме того, модальность зависит от типа предложении. Модальные слова чаще встречаются в повествовательных предложениях. Однако их также можно найти в вопросительных предложениях. Они никогда не используются в побудительных предложениях.

Ключевые слова: модальные слова, предикативность, субъективная реальность, потенциальный минимум

Ədəbiyyat

1.Musayev O.İ. İngilis dilinin qrammatikası. Bakı, 1996
2.Иванова И.П., Бурлакова В.В., Почепцов Г.Г. Теоретическая грамматика современного английского языка. Москва, 1981
3. Ильиш Б.А. Значение предлогов в современном английском языке. Ленинград, 1958
4.Leech Geofrey, Svartvik Jan. A communicative grammar of English. Moscow, 1983
5.Daisuke Suzuki, Takashi Fujiwara. The multifunctionality of possible modal adverbs: a comparative look. Japan, 2017
6.Виноградов В.В. Основные вопросы синтаксиса предложения. СБ. Вопросы грамматического строя. Москва, 1955.
7.Адмони В.Г. Введение в синтаксис современного немецкого языка. Москва ,1955
8.Greenbaum Sidney. Studies in English adverbial usage. Miami, 1969
9.Hoye Leo. Adverbs and modality in English. London, 1997
10.Huddelstone Rodney, Geoffrey K. Pullum. The Cambridge grammar of the English language. Cambridge, 2002

Redaksiyaya daxil olma tarixi: 14.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Fil.f.d.dosent Salman Nuriyev
capa tovsiyə etmişdir.

ARİF KAZIMOV
Baş müəllim.
Azərbaycan Dövlət Pedaqoji Universiteti
e-mail: arif. kazimov.1967@inbox.ru

TAPMACALARIMIZIN DİLİNDƏ İŞLƏNMİŞ BƏZİ SÖZLƏRİN ETİMOLOGİYASINA DAİR YENİ BAXIŞ

XÜLASƏ

Milli tapmacalarımızın dili xalqımızın uzunəsrlik yaddaşının məhsuludur. Azərbaycan xalq tapmacalarının əhatə dairəsi,linqvistik tutumu, obrazlı şəkildə ifadə etsək, əzəmətli bir muzeyi xatırladır. Amma bu muzeyin eksponatları xüsusi mühafizə altında qorunan əşyalar deyil, xalqımızın canlı danışıq dili, ümumişlək leksikası, köhnəlmiş söz və ifadələr,müxtəlif dillərə məxsus alınma, dialekt səciyyəli məhəlli sözlərdən və s. ibarətdir. Məhz bu baxımdan tapmacalar xalqımızın dil tarixini, onun inkişaf qanunauyğunluqlarını öyrənmək cəhətdən qiymətli və əbədi mənbə rolunu oynayır. Əbəs yerə deyilməyib: tapmacalarımızın hər birində bir tarix yaşayır.Tapmacalar tariximizin söz möhürləridir. Məlumdur ki, milli tapmacaların dili canlı danışıq dili ilə dialekt və şivə dilləri arasında ortaq mövqedə dayanır. Bu cəhətdən də tapmacalarımızın dili zəngin və rəngarəngdir. Çünki tapmacalarımızın dilində elə söz və ifadələr mövcuddur ki, onun analogiyasına ədəbi dildə belə rast gəlmək mümkün deyil. Əgər müasir ədəbi dildə müəyyən əşya bir sözlə adlanırsa, onun ayrı-ayrı hissələri xüsusi ada malik deyilsə, tapmacalarda isə əksinə, həmin əşyanın ən kiçik hissəsinin belə adı var və onu ifadə edən söz, terminlər mövcuddur. Bu görə dil tariximizi öyrənmək, müəyyən söz və ifadələrin tarixən işlənmə məqamlarını dəqiqləşdirmək üçün tapmacaların dilinin öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

Açar sözlər: tarixi-müqayisəli metod, tarixi mənşəyi, fonetik əvəzlənmələr,məna çalarları

Lakin son dövrlər nəşr olunmuş tapmacalar dair kitablarda verilmiş nümunələrin dili , nədənsə, müasir ədəbi dilə, qrammatik normalara uyğunlaşdırılmışdır. Nəticədə, vaxtilə tapmacaların dilində işlənmiş bir sıra söz və ifadələrin mənşəyini, tarixi-elmi mahiyyətini müəyyənləşdirmək baxımından ciddi çətinliklərlə üzləşməli oluruq. Məhz bu yanılışlığı nəzərə alıb araşdırmalarımızı 1928- ci illərdə nəşr olunmuş tapmacalar kitabları(Vəli Xuluflu " Tapmacalar", Hənəfi Zeynallı "Azərbaycan tapmacaları") üzərində aparmalı olduq. Çünki həmin vəsaitlərdə tapmacaların orijinallığı,(özəlliyi) az- çox qorunmuşdur. Bu barədə folklorşünas Vəli Xuluflu tərtib ediyi " Tapmacalar " kitabının girişində yazır:" ....*Hər tapmacanın yazılışında qəza tələffüzündə olan xüsusiyyəti*

mümkün qədər saxlamağa çalışdıq. Bunun dil mütəxəssislərinə əhəmiyyəti olduğu kimi, hər qəzada öz tapmacasını öz tələffüzünda oxuyar və başqa qəzalarda bu xüsusiyyət ilə tanış olar" [14, 7].

Fikrimizcə, bu da səbəbsiz deyildir, çünki tarixən söz kökləri nisbi olmuş, zaman-zaman müəyyən dəyişiklərə və deformasiyalara uğramışdır. Digər tərəfdən də dilin dərin, qaranlıq qatlarına nüfuz etmək isə obyektiv səbəblərdən(ərəb qrafikası və s.) imkan xaricindədir. Bu baxımdan tapmacalarımızın dilini araşdırarkən ilk növbədə, Azərbaycan dili şivələrinin leksik materialına, əski türk mənbələrinə və müasir türk dillərinin məlum sözlərinə əsaslanmışıq.

Mülahizələrimizi əsaslandırmaq üçün konkret faktlara müraciət edək:

Culfa- **Dağdan gəlir dadıx suyu,**
Heç kim onu dadammaz,
Nəziy toxur culfa bezi,
Heç kim onu geyinməz. Hörümçək toru.(14, 48)

Nümunəyə əsasən, ilk baxışdan " **culfa bezi**" ifadəsi ilə əlaqədar belə təsəvvür formalaşır ki, söhbət Naxçıvan Muxtar Respublikasının inzibati mərkəzlərindən biri olan Culfa şəhərində əvvəllər istehsal olunmuş qalın pambıq parça növündən olan "bez" dən gedir. Lakin apardığımız araşdırmalardan məlum oldu ki, XVI əsrdən etibarən Azərbaycanda pambıq parça, o cümlədən bez istehsalının mərkəzi Naxçıvan olmuşdur. (**Bez**, yunan mənşəlidir, dilimizə fars dilindən keçib parça boz(ağ) rəngdə olduğuna görə belə adlandırılıb)Bez istehsalına görə, bölgə öz üstünlüyünü uzun müddət qoruyub saxlaya bilmişdir. Hətta orta əsrlərdə Naxçıvandan Hələbə aparılan ticarət mallarının içində pambıq parçaları (bez) mühüm yer tuturdu. XIX əsrin ikinci yarısında Azərbaycanın digər bölgələrində pambıq parça istehsalı tənəzzülə uğrayıb aradan çıxdığı halda, Naxçıvanda bez toxuculuğu həm kustar sənət, həm də ev peşəsi formasında hələ də davam etməkdə idi. Ailənin maddi ehtiyacını ödəmək üçün bez toxunuşu ilə həm qadınlar, həm də kişilər məşğul olmuşlar. Məhz Naxçıvanda bez istehsal edən peşəkar kişi toxucuları " bəzzaz", yaxud " culfa, culfaçı" adlandırmışlar.(**Bəzzaz**, ərəb mənşəli sözdür, bez(ağ) sözündəndir, " bez satan" mənasını verir)

Azərbaycan maddi- mədəniyyəti nümunələri içərisində müəyyən peşə ilə əlaqədar sözlərin yaranması nüansları danılmaz faktdır. Bunlara bariz nümunə; " şalbaf" və "şərbaf" sözlərini göstərmək olar. Əvvəllər şal toxuyan ustaya " şalbaf", nazik saplardan əl ilə bafta tikən ustaya isə " şərbaf" demişlər.

Tapmacanın dilində " culfa"nın toxucu(parça) anlamında]tərkibində də rast gəlmək mümkündür.

Babam toxuyub culfa bədən,
Heç mən onu geyməmişəm. Şeytan toru. [14, 24]

Nümunədə "culfa bədən" ipək parça anlamında işlənmişdir.

" Culfa toxur nazik bezi, heç kimin onu geydiyi yox" atalar sözü də hal- hazırda canlı danışıq dilində fəal şəkildə əyalətlərdə işlənməkdədir.

Dal- **Hindisdi ha hindisdi,**
Hindistana gün düşdü,
Bir dalda beş alma,
Beş almanın ikisinə gün düşdü. Namaz.(ikisi gündüz qılınır**).**[14, 65].

Dal, sözü müasir dilimiz üçün arxaikləşmişdir. Həmin ifadə tarixən **" ağac", " budaq"** anlamını bildirmişdir. "**Qarğ**" və " **dal"** sözlərinin birləşməsindən düzəlmiş "qarğıdalı" sözünün Azərbaycan dilində işlənmə tarixi çox qədimdir. " Dədə Qorqud" dastanlarında " qapğıdalı" sözü dəfələrlə işlədilmişdir.

Qarğı dalı süngünü mana vergil!.....[6 ,154]

Qarğı dalı sügüm nə bəgənməzsən**,** [6 , 155]. Göründüyü kimi bu nümunələrdə " **qarğıdalı**" sözü müasir dildəki sözdən fərqli olaraq " **qarğı, qamış ağacı**" anlamında işlədilmişdir. Qarğıdalı sözünün dal " budaq" mənası indi köhnəlmişdir. Onu da qeyd edək ki, **dal/tal** sözü budaq mənasında bir çox türk dillərində işlədilir. Dal sözünə müasir türk dillərində aşağıdakı fonetik variantlarında rast gəlirik:

Dal- əski türk, qaqauz, qumıq,qaraqalpaq,krım - tatar ,kərkük dillərində;

Tal- əski türkcədə,Yenisey və uyğur dillərində;

Talağ- yakut dilində və s.[13 , 188]

" Qutadqu bilik" də, qədim türk lüğətində (QTL, 158) və "Dədə Qorqud " dastanlarında qeyd edilmişdir.”..... Qayın dalı yeləgindən sum altunlu mənim oxum! [6 , 135] Hətta bəzi tədqiqatçılar tarixən mürəkkəb söz olan "dalaşmaq" feilinin "dal" əsasından yarandığını iddia etmişlər. K. Vəliyeva " dal" kökündən dalaş feilinin formalaşmasını belə göstərir: *dal açmaq- dal aşmaq- dalaşmaq*[21 , 92]. İndi mənadan fərqli olaraq dalaşmaq əvvəllər " *mübahisənin ağacla həll edilməsi*" anlamında işlədilmişdir. Hal- hazırda dalaşmaq feili müasir ədəbi dilimizdə quruluşca düzəltmə söz kimi işlənməkdədir.

Allanar- **O nədi ki, hər nə versən allanar..** (Uşaq) . *[14, 90].*

Tapmacada işlənmiş "**allanar**" sözü rəng mənasında işlənməmişdir. Azərbaycan dilində **alyanaq,alqırmızı,alqan,allı-güllü,altun** və s. derivatları olan al sözünün əsas mənası "qırmızı" rəng anlamındadır.

Fikrimizcə, nümunənin məzmunundan aydın hiss olunur ki, bu söz " hiylə", "yalan" anlamındadır. Çünki **allan(maq)- aldan(maq),- aldat(maq)** sözlərinin kökü yalan mənasında işlənmiş olan **al** sözü olmuşdur. Yalan sözünün özü belə əslində **al** kökündən əmələ gəlmiş feili sifətdən törəmə isimdir. Deməli, **al** sözü öz yerini **yalan** sözünə tərk edərək, müasir dilimizdən çıxmış və arxaikləşmişdir.

Nümunədəki "**allanar"** əslində "**aldanar**" sözüdür. Danışıq dilində işlənmiş **al**(hiylə) və **la**(feil düzəldən şəkilçi) hissələrindən ibarət olub sonra dissimiliyasıya nəticəsində şəkilçidə olan **l** səsi **d** səsinə keçib. F. Cəlilov haqlı olaraq qeyd edir ki, "hiylə,yalan" anlamındakı **al** sözünə **-la** şəkilçisi qoşulanda fonetik dəyişmə baş verir. [8 , 150].

M. Qıpçaq isə "qulyabanı" mənasındakı **al** sözü ilə bağlı yazır: " Bu sözün ilkin variantının **yal** formasında olmasını başqa bir fakt da təsdiq edir.Belə ki qohum türk dillərində göstərilən söz **yal, jal, cal** formasındadır. Bu sözün al variantının meydana çıxması səbəbi kimi yal sözündə söz əvvəli mövqedə y səsinin düşməsini göstərmək olar"[15 , 6].

Məlum olduğu kimi pratürkdə sözəvvəli mövqedə işlənən y samiti Azərbaycan dilində əksər hallarda qorunsa da, bəzi vaxtlar itirilir. Qeyd edək ki, **al** sözü " Qədim türk lüğəti"ndə, Türkiyə türkcəsində, KDQ dastanının dilində, o cümlədən əksər türk dillərində " hiylə", " yalan" anlamındadır. **Al** sözünə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik.

Al- Azərbaycan, türk, qumuq və tatar dillərində(hiyləgər(lik)) ;
A: l- əski türk, türkmən dillərində(kələk, biclik);
A:l- Azərbaycan və türkmən dillərində (məkr, tülkülük);
A:l- Qədim türk lüğətində və qumıq dilində (fırıldaq) anlamlarında işlənmişdir[13 , 105]

Arslan- **Dağdan gəlir, daşdan gəlir,**
Bir qudurmuş arslan gəlir. Çarx [22, 34]

Tapmacaların dilində həm " arslan", həm də "aslan" sözlərinə rast gəlirik. "Arslan" variantı tapmacalarımızın dilində az müşahidə olunur. Fikrimizcə, arslan variantı daha qədimdir. Çünki mənbələrdə " ars, arıs, arsala və s. ifadələrinə ölkə və tarixi şəxsiyyət adlarının tərkib hissələrində (Qızıl Arslan, Alp Arslan, Qara Arslan) təsadüf olunur." Aslan" variantı isə nisbətən sonrakı dövrlərin məhsuludur. İlk baxışdan aydın olur ki, aslan sözü arslan sözündən eleziya hadisəsi nəticəsində(r samitinin düşməsi) meydana gəlmişdir. Bu söz müasit türk dilləri və dialektlərində qismən fərqli fonetik variantlarda işlədilmişdir: **arslan, aslan, arıslan, araslan, arstan, arsılan,astan** və s.

Qədim türk lüğətində bu söz arslan kimi işlənmişdir. Hətta M. Kaşğarinin lüğətində belə bir atalar sözü vardır: " Al ilə arslan tutmaq olar, güclə siçan tutmaq olmaz" [2, 34].

Türkologiyada " arslan" sözünün etimoloji yozumları ilə bağlı müxtəlif mülahizə və baxışlar mövcuddur. B. Əhmədov həmin sözlə əlaqədar mövcud ədəbiyyatlardakı dörd etimoloji yozum olduğunu xatırlatmışdır; 1. Güclü ilan. 2. Çevik ayı 3. Açıq-şabalıd rəngli heyvan 4. " Arıs(günah) +lan (vəhşi)" [11 , 24] . Müəllifin sadaladığı yozumların bəzisi digər alimlərin fikirləri ilə də üst-üstə düşür. Altayşünas alim Q. Ramsted aslan sözünün tərkibindəki lan

hissəciyinin Çin dilindən (heyvan mənasını verən) alınma söz hesab edir.[29, 202-203].

M. Şerbak isə bu sözün rəng bildirən sözlə(arsıl) " heyvan mənasında olan sözün(an) birləşməsindən törəməsi fikrindədir.[33, 137-138]

Aslan sözü Altay dillərində, o cümlədən monqol və tunqus dillərində də özünü göstərir. Ehtimallara görə, aslan sözü adını çəkdiyimiz dillərə türk dillərindən keçməsi daha inandırıcı görünür. Ə. Abdullayev " Azərbaycan-monqol söz paralelləri" məqaləsində monqol və Azərbaycan dillərində həmin leksik vahidin eyni anlamda işləndiyini müvafik cədvəldə belə vermişdir: monqol(arslan)- rusca- lev-Azərbaycanca (arslan) [1,313].Hətta rus dilindəki Ruslan sözü də arslan kəlməsinin dəyişmiş formasıdır. Çünki Ruslan şəxs adının əsasında türk dillərindəki aslan sözü durur. Ruslan sözündəki r səsi göstərir ki, bu söz Aslan sözünün- arslan- aruslan variantından götürülmüşdür.(Arslan- Rislan-Ruslan). M. Qıpçaq isə bu fikirdədir ki, türkçənin Aslan sözünün əsasında rus dilində iki söz slon və Ruslan sözləri meydana çıxmışdır.[16, 56-60].

Klassik poeziya nümunələrində həmin ifadəyə tez-tez rast gəlmək olur. Məs.: Şu gənc **arslan** kibi xubu-zəmanə,

Qaqidi xişm ilə oldu divanə ..... (23 , 112)

Der idi: qanı sevgili yaranlar,

Nər **arslan** kibi ol gürbüzərənlər (23,116)

Bu səpkili nümunələrin sayını kifayət qədər artırmaq olar. Fikirimizcə, aslan sözü şikarının üzərinə ani bir hərəkətlə , sürün-sürünə hücum etdiyi zaman çıxartdığı vəhşi nərilti ilə bağlı adlandırılmışdır.

Işılda- **Işıldar ha ışıldar,**

Qıl torbada mışıldar. Qoz [14, 68].

Işılda, fikrimizcə, təqlidi sözdür. "Iş" kökünün müstəqil şəkildə işlənməsinə mənbələrdə rast gəlməsək də, amma yışı (ışı) feili var. Parıltı (od) anlamı ilə bağlıdır. Deməli, vaxtilə dilimizdə od,ışıq mənasında " ış// iş sözləri işlənmiş, sonralar bu fonetik variantın hər birindən müvafik olaraq " isti, " istək", " istə" (mək) və " işıq", " işıltı", işar" (maq), işılda(maq) sözləri yaranmışdır. Kökünü " i" hesab etdiyimiz ahəng qanunu pozulan sözlər bəzi müasir türk dillərində ı samiti ilə deyilir və yazılır. Bu hala Azərbaycanın Qazax, Şəki, Culfa, Gəncə şivələrində də rast gəlinir.[4,42-43]. Bütün bu faktlar göstərir ki, "iş" kökü vaxtilə dilimizdə "iş" formasında işlənmiş, şəkilçilər də bu formanın ahənginə uyğunlaşaraq əlavə edilmişdir.Hətta " Kitabi- Dədə Qorqud" dastanlarının dilində bu kəlməyə rast gəlirik. " Oğul ocağımızı ıssiz qoyma" [6 ,116]. Demək, ilkin formada bu sözlərdə ahəng qanunu pozulmamışdır. Tədricən Azərbaycan ədəbi dilində söz əvvəlində ı-nın işlənməsi halı çıxdağına görə bu səs özünə məxrəcə ən yaxın olan i səsinə keçmişdir. Beləliklə, ahəng qanunu pozulmuşdur.

İlk baxışda “ ıs” kökündən yarandığı güman edilə bilən islanmaq və islatmaq sözlərində isə başqa aspektdən yanaşmaq lazımdır. Bu sözlərdəki “is” kökü isə əslində “ su” sözündəki səslərin metatezaya uğraması nəticəsindəki əmələ gələn fonetik variantdan başqa bir şey deyil. Çünki bu sözlərdəki – lan və lat şəkilçiləri müasir dilimizdə də isimdən feil düzəldən çəkilçilərdir. Demək, bu sözlər də ilkin formada ahəngə uyğun olmuş, sonralar səslərin metatezaya uğraması nəticəsində ahəng qanunu pozulmuşdur.Yəqin ki, bu sözlərin (işıq, işıltı, işarmaq) əvvəlində ı səsinin işlənməsi şəkilçinin köklə artıq daşlaşdığı vaxtdan sonra olmuşdur. Çünki əgər şəkilçi mütəhərrikliyini itirməsə idi, o da kökün ahənginə uyğunlaşardı.

F. Cəlilovun qənaətinə görə, nə pratürkdə, nə də praazərbaycan dilində ı ilə söz başlanmış, çünki bu sait sonra yaranmışdır[8, 78].

S. Cəfərov isə dilimizdə isim mənasında işlənən iş sözü feil və ədat mənalarını itirərək, öz varlığını işıq, işar(maq), işılda(maq), işıltı sözlərində saxlamışdır. [9 ,323]

İlim- **İlim, ilim düyməsi,**
İlim bəzir düyməsi,
Hər kəs onu tapmasa,
On iki tümən cərməsi. Qadınların qolunda olan əlcək[14, 67]

İlim sözünün kökü kontekstə uyğun olaraq il feilidir.Eyni zamanda tapmacanın cavabı da həmin sözün kökünü aydınlaşdırmağa imkan verir. Bu söz (il) tarixən “ əlaqə”, “ bağlılıq” anlamlarını əks etdirən ilgək, ilmək, iliş(mək), ilidir(mək) və s. sözlərinin köküdür. Digər tərəfdən əlcək leksik vahidinin kökü “əl”- isimidir. Əl isə ilişmək kəlməsinin kökü olan il sözü ilə bağlıdır. Əslində əl və il eyni sözün dəyişmiş formasıdır(əlcək-iləcək, -ilgək, -ilkək,-ilmək,-iliş(mək) və s. Əl- barmaqların ilişdiyi, bağlandığı yerdir. Tapmacanın birinci misrasında “ilim, ilim düyməsi” deməklə tikilmiş (ilişdirilmiş) düymələri (bəzir(gan)) düyməsinə bənzədilmişdir. Ehtimal ki, qadınların qolunda olan əlcək kiçik ölçüdə olduğuna görə, kənardan ya düyməni xatırladırmış, ya da formasına görə düyməyə oxşayırmış. Təbii ki, digər ehtimallarında mövcudluğu inkar olunmur.

Hətta S. Cəfərov vaxtilə “ yığılmaq” mənasına yaxın bir mənada işlənmiş il kökündən ilmək, ilgək, iliş(mək),ilxı,ilıq və həmçinin ilan sözlərinin əmələ gəldiyini qeyd etmişdir [9 , 22]. Yaxud B. Əhmədov ilə qoşmasının və ilk kəlməsini də il feili ilə əlaqələndirmişdir. Bu barədə müəllif yazır: “ .....ilk kəlməsi də il feilindən əmələ gəlib, sonrakıları özünə bağlayan anlamını əks etdirir. [11 , 130-131]. Fikirmizcə, həm forma, həm də məna əlamətləri baxımından hər iki müəllifin söylədikləri mülahizələrdə danılmaz həqiqətlər mövcuddur. Onu da qeyd edək ki, dilimizdə “ ilim-ilim itmək” ifadəsi var. İlim (ilam) mənbələrdə “ uzaq” mənasında işlədilib. Deməli, “ ilim-ilim itmək”

"uzaqlara getmək, sürətlə uzaqlaşmaq" anlamındadır. Lakin bu ifadənin nümunə kimi verdiyimiz kontekstdəki ifadə ilə heç bir məna bağlılığı yoxdur.

Ard- **Dağdan gəlir, daşdan gəlir,**
Bir balaca astan gəlir,
Ard ayağını aldırmaz
Ağzına yüyən saldırmaz. Yel,külək. [14, 47]

Nümunədə işlənmiş "**ard**" kəlməsinin etimoloji təhlili ilə bağlı müxtəlif fikirlər mövcuddur. S. Cəfərov türkoloq F.Q. İsxakova istinad edərək yazır: " **Ard, arxa, art(maq), artıq** sözlərinin kökü **ar** olmuşdur ki, **geri (arxa)** mənasını ifadə etmişdir, bu söz indi də monqol dilində " arxa" mənasında işlənməkdədir[9, 23]. V. Radlov isə hazırladığı lüğətində **ar** sözünü "əks tərəf" kimi vermişdir(28, 112]. Yəni arxanın (ön tərəfin əksi). B. Əhmədov "**ard**"-ı "arxa tərəf" kimi şərh etmişdir.

Altay türkcəsində isə **art\\ard** geridə(arxada) qalmaq anlamında işlənmişdir[13, 130].

Tapmaca qoşan da nümunədə " **ard"** sözünün məhz arxa mənasında işlətmişdir. Belə ki, külək dağdan gələn balaca aslana bənzədilmiş, arxa ayağını aldırmaz(tutdurmaz) ki, ağzına yüyən salsınlar. Tapmacanın son iki misrasında həm də küləyin sürətinə işarə olunmuşdur.Müasir dilimiz üçün arxaikləşsə də, klassik, yazılı bədii nümunələrin dilində də müşahidə olunur. Məs.:

Dastani-Əhməd Hərami poemasında:
Atının **ardına** aldı nigari,
Hüri yüzli bəşər,ol gülzari [23,129]
Yusif Məddahın " Vərqa və Gülşah**"** poemasında;
Xeymənin Vərqə yüzidi **ardına**,
İrdi dər zəmanə ol nigarın dərdinə [23,155]
Xətainin " Dəhnamə**"** poemasında;
Bilinməyə önün, **ard** yanın,
Ənginə zühur ola dəhanın [23, 427] .və s.

Uzaq vaxtı ağ saqqal,
Cahal vaxtı qırmızı saqqal
Qoca vaxtı qara saqqal. Moruq [14, 114]

Tapmacada giləmeyvənin(moruğun) kal, yetişmiş və istifadəyə yararsız məqamlarda aldığı rənglərə işarə olunmuşdur. Moruğun yetişmə məqamları insanın yaşam dövrlərinə uyğunlaşdırılaraq metaforik şəkildə əks olunmuşdur. Nümunədə diqqətimizi iki ifadə " uzaq", " cahal" cəlb etdi. Fikrimizcə, "cahal" fars mənşəli "cavan" sözünün dialektal şəkildə tələffüz formasıdır. Qərb dialekt və şivələrində daha çox yaşlı insanların danışığında "cavan\ cahal\ cəhəl şəklində işlənməkdədir." Sən kimi cəhələ(yəni cavana) nə de:m ? [Qazax, Başkeçid].

Nümunədə işlənmiş " **uzaq"** sözü isə " **uzun", "çox uzun**" mənasındadır. Çünki türk dillərində **uzun, uzanmaq, uzaq, uzat** feillərinin kökü elə "uz " sözüdür. Bu söz digər türk dilləri ilə müqayisədə yalnız Azərbaycan dilində qalaraq nağıllarımızda, folklor nümunələrində , o cümlədən bədii publisistik məqalələrin tərkibində işlənməkdədir. Məs.: Aradan az keçir, uz keçir[7, 15]. Bədii nümunədə " uz" sözü " az" sözünün antonimi kimi " çox", "uzaq" anlamında işlənmişdir.

Digər türk dillərində **uz** sözü **uza- uzan-uzay** feillərinin tərkibində mühafizə olunmuşdur. [32, 570-572].

Başqa ehtimal da ondan ibarətdir ki, ola bilsin kitabın nəşrində texniki qüsura yol verilərək "uşaq" əvəzinə " uzaq" yazılmışdır. Çünki insanın yaş dövrləri ilə əlaqədar səpkili çoxlu tapmaca nümunələri mövcuddur.Məs.:

O nədir çağa vaxt dörd,
Yeniyetmə vaxtı iki,
Qoca vaxtı uç ayaqlı olur.

Nümunədəki tapmacanın cavabı insandır;- uşaqlıqda iməkləyir, yetkin yaşlarında iki ayaqla gəzir, qocalanda isə əlində əsa olur. Əgər nəzərdə tutduğumuz ifadə " uşaq" mənasında işlədilmişsə, digər türk dillərində kəlmənin analoquna rast gəlmək olur. "Qədim türk lüğəti"ndə kiçik(uşaq) anlamında işlənmiş **uvşaq** kəlməsi var. B. Əhmədovun məlumatına görə, müasir türkmən dilində uşaq sözü isə kiçik mənasında işlədilir. [11 , 258] .M. Ə. Sabir lirik və satirik şeirlərində " .....**ufaqdır uşağım..**ifadələrinə tez-tez təsadüf olunur. Şeir dilindəki "ufaq" sözü isə "**kiçik", " bala", " çağa**" mənalarını ifadə edir.

Qılıc- **Passan qılıcım passan,**
Yer altında yassan. Meyit. [14, 20].

Tapmacalarımızın dilində bu kəlmə daha çox "qılıc" şəkilində işlənmişdir.Bu söz həm müasir türk dillərində, həm də qədim və orta əsrlər türk yazılı abidələrinin dilində müşahidə olunur. Qeyd edək ki, bu ifadə qədim türk mənbələrində "qılınc" yox, " kılıç" şəkilindədir.Məs.: Orxon-Yenisey kitabələrində: kılıç; M. Kaşğarinin "Divan" ında kılıç, və s.

"Dədə Qorqud " dastanlarının dilində "qılıc" daha çox sadə söz formasında işlənmişdir: "... Qara polad uz qılıcum ölümə alayınmı"[6 ,40], "... Qaçan sən məni alıb kafir sırhəddinə çıqardın, qılıc çalub baş kəsdin"[6 ,93], "Çal qılıcın, ağam Qazan, yetdim!"- dedi. "[6 ,63],"...Qara polad üz qılıcın vergil mana.[6 , 57] Orta əsrlər yazılı bədii nümunələrin dilində də həmin ifadə" qılıc" kimi verilmişdir.Məs.: "Dastani- Əhməd Hərami" poemasında:

Qılıc salsa bin ərə təpinəydi,
Qağan aslan kibi kim çapınaydı [23 ,110];
Yalın eylədi ol hindi qılıcı,
Görün nə qılır ol fitnə qılıcı [23 ,113];

Nəsiminin “ Divanı” nda:

Həqdəm əzəli qılıc belümdə.....[19 , 301]

Yusif Məddahın “ Vərqa və Gülşah” poemasında:

Həmlə qıldı ol ləin dartdı qılıc
Məni qıldı Vərqa qayurmadi hiç [19 , 157]

Xətainin “ Dəhnamə”sində:

Susən qılıc aldı, bid xəncər
Eys etməyənin gözünə sancər**...** [23 , 416].

Azərbaycan dilinin dialekt və şivələrində, o cümlədən Qərb dialektlərində həmin söz “ qılıc” formasında mühafizə olunur.

Axtalandı- **O yanı axtalandı,**
Bu yanı axtalandı
Ortalığa bir nər gəldi
Yüz yerdən noxtalandı. Meyit. [22, 20]

Nümunədə verilmiş “ axtalandı” kəlməsi əslində “ağtalandı” (ağa, ağ rəngli bezə bürüdüldü, geyindirildi) anlamındadır. Tapmacanın dördüncü misrasında “noxtalanmaq” atın ağzına geyindirilən alət mənası ilə assosiativ əlaqədədir. Mənbələrdə “ağtalamaq” sözünün qədim və əsli(hərfi) mənası “ hərtərəfli geyindirmək” deməkdir..Tapmacada dəfn prosesində meyidin kəfənlənməsinə işarə olunmuşdur.

Yalov- **Bir hovuzum var,**
İçinən yaşıl yalov çıxar. İlan [22, 47]

Nümunədəki *alov (yalov)* sözü “od”, “istilik” anlamını verən *al(ul)* etimonu zəminində əmələ gəlmişdir. Qədim dövrdə *al* sözünün “od” anlamlı yal kökündən törəmə ehtimalı vaxtilə Q. Vamberi tərəfindən irəli sürülmüşdür. Müəllif *al* sözünü “parlamaq” mənasında olan *yal* sözü ilə bağlamışdır.[8 ,150-151]

Ə. Abdullayev həmin fikri təsdiqləyərək yazır: “.....türk dillərindəki *alov, yalov* sözlərinin ilk hissəsi; yəni *al*, *-yal* kökləri həmin sözə (oda-kursiv A. Kazımov) müfaviqdir.[1 , 304] A. Zayonçkovski isə *yalov*, *yanmaq* sözlərinin kökünü ya hesab edir[26,]. Başqırd dilçisi T. M. Qapilov da bu fikrə şərik çıxır.[24, 50] M. Qıpçaq *al* variantının meydana çıxması səbəbini isə belə şərh etmişdir.”....

..... *yal* sözündə sözəvvəli mövqedə *y* səsinin düşməsini göstərmək olar. Məlum olduğu kimi pratürkdəki sözəvvəli mövqedə işlənən *y* samiti Azərbaycan dilində əksər hallarda qorunsa da, bəzi vaxtlar itirilir.[17, 24). Tapmacada ilanın zəhəri yaşıl oda bənzədilmişdir.

Yulğun- **Ərəb gedər irizi yox,**
Yulğun yanar közü yox,
Zirzəmidə işləmiş
Ağzı qara gözü yox. Zəli [22, 52]

Yulğun sözünün kökü tarixən ya olub("yanan ağac" anlamında). Yaxşı yandığı üçün yalov(od) sözü ilə bağlıdır. Yulğun sözü" ağac" mənasında əksər türk dillərində işlənməkdədir. Belə ki, bu sözə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik.

Yulğun- Azərbaycan, özbək və uyğur dillərində;

Ilğın- türk türkcəsində;

Jınğıl- qazax,qaraqalpaq dillərində;

Jılğın- qırğız dilində;

Yıvqın- əski türkcədə və s[13,346].

M. Kaşğarinin lüğətində isə " yılğın" variantında özünü göstərir .

Tapmacada zəlinin xarici görünüşü ərəbə(qaralığı), yandırması(acışdırması) isə qanı sorarkən " dişləməsinə" bənzədilmişdir.

Çillənər- **Yer altında çillənər,**
Əl verməmiş iylənər,
Söz deməmiş sınar
Alçaq yerdən axar
Yerdən göyə baxar. Meyit [22, 21]

Nümunədə verilmiş **çillənər** sözünün kökü **çi " su", "nəm", "yaş"** anlamındadır. Çünki çi(ça, çu, çı) hissəcikləri qədimdə su, yaş, nəm mənasını əks etdirib(**çimmək, çamur, çuyuq, suyuq,çay**) tipli sözlərdəki hissəciklər buna bariz nümunədir. **Çi** sözü qədim türk mənbələrində, o cümlədən digər türk dilləri və şivələrində də öz əksini tapıb.

"Türkmən- rus lüğəti"ndə **çi** iki mənada; 1- "**çiy**"; 2-"**nəm**", **"yaş**"işlənmişdir. [31 ,732]. Sibir tatarlarının dilində **çi** həmin mənadadır.Müasir tatar dilinə məxsus şivələrdə də ən çox " **su"**, "yaş" mənalarında sinonim sözlər kimi işlənməkdədir. Bu forma və məna qədim türk lüğətində [10 ,145], M.Kaşqarinin Divanında " Ət- töhfətüz-zəkiyyə, fil-lüğatit türkiyyə**"** əsərində [26 , 387]. M. Şerbakın" Türk dillərinin müqayisəli fonetikası" [33 , 198] əsərində də həmin mənada işlənməsinə dair tutarlı faktlar mövcuddur.

Çi sözünə yazılı ədəbi nümunələrdə , ocümlədən İ. Nəsiminin əsərlərində də rast gəlirik.

Sübhdəm vəqtində düşmüş cimi, ya dərd nəmüdür [19 ,281].

Tarixən eyni kökə malik olan (**çən, çiçək, çiskin, çimmək**) sözləri su anlamı ilə bağlıdır. Apardığımız çoxsaylı faktlara əsasən, demək olar ki, **çi** daha əvvəllər **şı (şır, şı+r+ıltı, şırran, şır-şır)** suyun axarkən çıxartdığı səslə əlaqəli olmuş, bundan da **ş-ç-c-s** samit uyğunluğu əsasında müxtəlif istiqamətlərdə ayrı-ayrı sözlər törəmişdir. Məs**.: ç-s; çiskin, çiləmək**(damcı) sözlərinin kökü **çi** (şeh,nəm) orta əsrlərə qədər Azərbaycan dilində müstəqil işlənib. Onu da qeyd edək ki, müasir dilimizdəki **islanmaq** feilinin kökü **ıs-çi**nın metatezasıdır- **ç-ş** baş vermişdir [5,341].

Tapmacada insan cəsədinin yer altında nəmlənərək iylənməsinə və qoyuluşuna işarə olunmuşdur.

Suv- Bir araxçınım var otlamaz,
Ataram suva batmaz. Qələm [22, 69]
Suva girdi dağıldı,
Suvdan çıxdı yığıldı. At quyruğu [22, 43].

Nümunədə işlənmiş suv sözü indiki su ismi yerində işlənmişdir. Suv sözü tarixən qədim mənbələrdə, türk və Altay dillərində, həmçinin Azərbaycan dialekt və şivələrində geniş işləklik dairəsinə malik olmuşdur. Suv sözü müasir türk dillərində aşağıdakı fonetik variantlarda işlənir:

Sub\\Suv -Azərbaycan, türk, qaqauz, özbək,uyğur dillərində və QTL-də;
Sıva- Başqırd dilində;
Sıba- Qazax, qaraqalpaq, hakas dillərində;
Sıba:-Yakut dilində;
Şıba- Qırğız, altay dillərində;
Suba- Tatar dilində;
Suvu- Uyğur dilinin dialektlərində;
Süva- Özbək dilinin dialektlərində[13,302].

Qumıq dilində məşhur olan mahnının sözləri içərisində işlənmış“ suv” kəlməsi də su anlamındadır:” **Tavlağa yavmur yağar, suv aqar tarmağından”** (Dağlara yağmur yağar, su axar çeşməsindən) [9 , 23].

Azərbaycan dilinin Salyan, Quba, Göyçay dialekt və şivələrində (suv, suvun, sua, suvu) fonetik variantlarında “ axar su, su götürülən yer, çaya düşülən və s. anlamlarında işlənmişdir. Hal-hazırda bu sözün ilkin mənası ədəbi dildə işlədilən suvaq(divar suvağı) sözünün kökündə işlənməkdədir.

Yelək - **Hər quşun dört qanadı,**
Hər qanadın yedi yeləgi vardı,

Hər yüzü qara idi... Günəş və ulduzlar.[22, 74]

Yelək, “oxun qanadı”, “oxun tükləri” anlamındadır**.** Yelək oxun uzağa getməsinə şərait yaradır. Yelək isminin kökü **yel** feilidir”**qaçmaq, “sürətlə getmək”** deməkdir. Bu kəlmə qədim abidələrin dilində, o cümlədən folklor nümunələrində tez-tez təsadüf olunur. Məs.: XVIII əsrdə yaşamış məşhur aşıq Xəstə Qasım Tikmədaşlı yazırdı:

Bir igidin dövlət-varı olmasa,
Yeləksiz ox kimi çoşar... [11 , 275]

Bu söz müasir türk dillərində müxtəlif fonetik variantlarda işlənir.

1. **Yelək**- Azərbaycan, türk, türkmən, qaraqalpqa, qumıq, noqay, özbək, uyğur dillərində, QTL-də;
2. **Yələk**- uyğur dialektlərində və Altay dillərində;
3. **Yilik**- Kərkük dilində;

4. **Jelək**- Qaraçay-balkar,qazax, qaraqalpaq dillərində;
5. **Çilik**- Hakas və çuvaş dillərində [13,339]

Maral- maral inəyim,
Qarnı xaral inəyim,
At..... .addamaz
Çəpər yarar inəyim. Tısbağa [14, 82]

Addamaq//Adlamaq sözünün kökü **ad** feilidir**.** Mənbələrdə ayaq və addım sözlərinin kökü **ad (ay)** feilləridir. Bir sıra türk dillərində **"ayaq" sözü "adaq", " ataq", "azaq"** kimi səslənir və **y** səsi **d/t/z** sırasının üzvlərinə keçir. Mənbələrdən aydın olur ki, **ay**" **yerimək**" dir, **ayaq** isə "**yerimək üçün vasitə**" dir. Tapmaca nümunəsində işlənmiş " **addamaq/adlamaq** sözünün tərkibində metateza hadisəsi baş vermiş, **d** və **l** səsləri yerlərini dəyişmişlər.Ayaq sözünə həm qədim türk yazılı abidələrinin dilində, həm də müasir dillərdə rast gəlirik. Ayaq sözü müasir türk dillərində aşağıdakı fonetik variantlarda müşahidə olunur.

1. Ayaq- Azərbaycan, türk, qumıq,başqırd, türk dilinin dialektlərində, Krım-tatar, Atay və özbək dillərində, QTL, KDQ;

2. Ayak- türk dilinin dialektlərində,qaqauz və qaraqalpaq dillərində;

3.Ayağ- Azərbaycan dialektlərində və uyğur dilində;
4.Azaq- əski türkçədə; QTL;
5. Azax- hakas dilində;
6. Azak- başqırd dilində;
7. Adaq- Yenisey türkcəsində;
8. Atax- yakut dilində [13 , 127]

Qeyd edək ki, uzaq türk dillərinin biri hesab olunan çuvaş dilində ayaq sözünün "**ura**" forması var. İlk növbədə həmin yaxınlıq təəccüb doğurur; "ayaq hara, "ura" hara.?! Lakin çuvaş dili ilə dilimizdə olan bəzi sözlərdəki səs əvəzlənmələrinə diqqət yetirdikdə bunun canlı şahidi oluruq. Faktlara nəzər salaq; çuvaş dilində "**xer**" sözü var- "**qız**" mənasında, yaxud "**toxar**" sözü çuvaşca "**doqquz**" deməkdir. Hər iki sözün sonundakı **r** və **z** səsləri bir-birini əvəzləyir." **Xer//xez//; toxar//toxaz/toxuz.**

"**Ura**" sözünün "**ayaq**" mənasında işlənməsinə KDQ-un dilində də rast gəlmək olur."Qazan xan uru durdu,yəni Qazan xan ayağa durdu"deməkdir. Doğrudur, "uru" ifadəsinin dastanın dilində "ayaq" mənasında işlədilməsinə dair dilçiliyimizdə fikir müxtəlifliyi hələlik qalmaqdadır.

Tapmacada tısbağanın qınının möhkəmliyinə işarə olunmuşdur.

Düyün- **Hini hini kəhər at,**
Hini gözəl kəhər at,

Ayağında qıl sicim
Düyünü gözəl kəhər at. Beşık [14, 65]

Düyün sözü bu gün dilimizdə **toy** mənasında işlənmir. Əslində qədim zamanlarda **toy** qonaqlıq, yemək-içmək məclisi, **düyün** isə indiki toy mənasında olmuşdur. Düyün sözünün toy mənasında işlənməsi Dədə Qorqud dastanlarında da əks olunub: " *Yalançı oğlu Yalancuq kiçi dügünin elədi,* " [6 , 77]. Həmin dastanda düyün sözündən fərqli olaraq, toy kəlməsi qonaqlıq anlamında işlədilmişdir:" *Dirsə xan dişi əhlinin söziylə ulu toy elədi, hacət dilədi"* [6 ,40]. Bəzən dastanın dilində həmin ifadələr bir yerdə mürəkkəb söz kimi də işlənmişdir: " *Toyun-dügünün qara oldı" deyü ağlar.[6 ,81].*

Düyün sözü müasir türk dillərində aşağıdakı fonetik variantlarda işlənir:

Düyün- Azərbaycan dilində;
Tügün- əski türk dilində, QTL;
Tümçek- Anadolu türkcəsində;
Dumur- qırğız dilində. [13 .204]

Düyün sözü klassik ədəbi nümunələrdə hər iki mənada işlədilmişdir. 13 əsr abidəsi " Dastani- Əhməd Hərami" poemasında düyün sözü toy mənalıdır və işlənmə dairəsi genişdir:

"Mübarək dügün edib başlayavuz,
Ana görə işimiz işləyəvüz [23 , 119]

Hətta bu poemada bir beytdə toy sözü qonaqlıq, düyün isə toy mənasında işlənib. " *Gələn xəlqi yedirdi, toyladı xoş, Təmam 40 gün dügün eylədi*" [23 ,33]. Yusif Məddahın "Vərqa və Gülşah" əsərində də düyün toy mənasında işlənmişdir: " *Yeddi gün dügün olundu müdam, Qıldılar cümlə yarağını tamam*" [23 ,151]

Fikrimizcə, "toy" və "düyün" sözlərinin qədim kökü **düy** köküdür. "Toy" **duy** kökünün fonetik dəyişikliyə uğramış formasıdır. B. Əhmədov isə düyün sözünü evlənmə ilə bağlı olduğunu qeyd etmiş " iki gənci bağlayan, düyünləyən" anlamında işləndiyini qeyd etmişdir. [11 ,94].

Gecənin qurdu, vurdu qapını qırdı,
İkisi karoyl çəkdi, birisi içəri girdi. Meyit, yaxşılıq,
Yamanlıq
[14 ,98].

Yerdən uzun uzanıf,
Uzun burun uzanıf,
Dörd qırağında qaroul
Ortada qoyun uzanıf . Xiyar [14, 71]

Mənbələrdə **qaraul** sözü **qoru** və **aul** kəlmələrindən ibarətdir. İndi isə sözün əhatə dairəsi genişlənərək, təkcə **aulu** (kəndi, qəsəbəni) yox, çox şeyi

qoruyana qarovul(qoruqçu) deyirlər. Həmin ifadə karaul formasında rus dilində də işlədilir.[11,155]. Bəzi tədqiqatçılar qorumaq sözünün göz(gör) kəlməsi ilə eyni kökə malik olduğunu iddia edirlər. Yəni göz sözünün vaxtilə **qaraq**(görmək-gözün qarası) variantından əmələ gəlməsi fikrini müdafiə etməklə yanaşı, **qoru** sözünün tarixən " göz yetir,nəzarət elə " anlamlarında işləndiyini göstərmişlər..[11,155]

Bu ifadə müasir türk dillərində müxtəlif fonetik variantlarda işlənməkdə-dir. Eyni zamanda klassik poeziyanın dilində həmin ifadəyə tez-tez təsadüf olunur:

Qıldılar ol gecə qaravul faş məgün,
Çün sabah oldu başın qaldırdı gün. [23 , 170].

Tapmacada bostan məhsullarından olan xiyarın yetişdirilməsinə işarə olunmuşdur.

Şıllaq- **Dəli qatır qapıda yatır,**
Gəlib-gedənə şıllag atır. Kilid**.** [14, 52]

Şıllaq tarixən **şıltə** feilindən düzəlib. Belə ki**, şılta** feilinə **q** şəkilçisini artırmaqla (qoru-q modeli üzrə) şıltaq ismi yaranmışdır. Sonra isə dissimliyasıya nəticəsində **t\ l** əvəzlənməsi baş vermişdir. Həmin söz "fürsətdən istifadə edərək istəyinə nail olmaq cəhdi" kimi anlaçılır. Nümunədə qıfıl qapıda yatan dəli qatıra bənzədilmişdir. Hər kəsin ondan istifadə etməsi(dəfələrlə açıb-bağlanması) "**şıllaqlıq**" əlaməti kimi yozulmuşdur.

O nədir ki, idnə gözündən baxar,
Cümlə cəhanı yıxar. Tüfəng, tapança**.** [14, 90]
İgnə gözündən baxaram,
Cümlə cahanı yıxaram.Tüfəng və gülləsi(14, 66)

İynənin, əsli **yignə** olub "**yığmaq"** anlamını ifadə etmişdir. İynə cəhrədə işlədilən **"iy"** sözündən əmələ gəlmişdir.Həmçinin zahiri əlamətinə görə **iyə** oxşadığından belə adlandırılmışdır. Tapmacaların dilində geniş çəkildə yayılmış **y-ğ** səs əvəzlənməsi ilə əlaqədar olaraq iynə-ignə kimi verilmişdir.İynə sözü müasir türk dillərində də işlənir. Belə ki, bu sözə müasir türk dillərində aşağıdakı fonetik variantlarda rast gəlirik.

İynə- Azərbaycan dilində;
İŋ:e/ İŋne/İğne- Türk dilində;
İnnc- Özbək dilində;
İŋe- Hakas dilində;
İqnä- Uygur və özbək dialektlərində;
İyne- Noqay,tatar və Altay dillərində;
İyni- Tatar dialektlərində;
İ:nä- Qaqauz və özbək dialektlərində;
İne- Qumıq, qazax, Altay və tuvin dillərində;

İŋe- Yakut dilində;
Yiŋe- Əski türk dilində;
Yiŋnä- Uyğur dialektlərində[13 ,240].

Tapmacada "**iynə gözü**" dedikdə , müəyyən hədəfi nişan almaq üçün " gözün qıyılması" nəzərdə tutulmuşdur.

Dindildəmək-

Dam üstə dana dingildər. Dolu [14, 50]

Vaxtilə **mıx, ox** yerinə **dingə** kəlməsi işlədilib. Həmin dingə ismindən **din-gil-lə(mək)** feili yaranıb. Sonra fonetik hadisə (dissimlyasiya) nəticəsində **dindil-də-mək** kimi formalaşıb. Hal-hazırda danışıq dilində uşağın nadincliyinə görə " **din-din dindildəyir"** [11 , 86]

Nümunədə dolu dam(ev) üstündə dindildəyən danaya bənzədilmişdir. Dolunun damın üstünü(belini) arabir döyəcləməsinə işarə olunmuşdur.

Dağdan enir dağ kimi,
Bəyirir oğlaq kimi.

Və yaxud; **Dağdan gəlir, dağ kimi,**
Qolları budağ kimi,
Əgilir su içməyə
Çığırır oğlağ kimi. Araba yastığı**.** [22, 34]

Arabanın yastığı- arabanın qabaq oxunun üstündə olan" yastı ağac" deməkdir. Onu ortadan deşir və yivlə oxa birləşdirilir ki, arabanı sağa- sola döndərmək olsun. Yastığın sağ və sol uclarına dayaq bərkidilir ki, korpusu saxlasın. Həm də arabaçının üstündə oturması üçün yastıq rolunu oynayır. Araba dönəndə yastığın boltu səs salıt(yəni bir növ bağırır). Bu söz müasir türk dillərində müxtəlif fonetik variantlarda işlənir.

Bagır- Azərbaycan, türk, Krım tatar,qaraqalpaq dillərində;
Ba: ğır- Türk dilinin dialektlərində;
Ba:r- Qaqauz dilində;
Bağir- Qırğız, qazax, tatar və başqırd dillərində; (13 ,134-135)

Bağırmaq- böyürmək,bəyirmək sözləri ilə qohumdur.(**oğlaq bəyirir, inək böyürür, adam bağırır**). Bunların hamısı eyni sözün müxtəlif formalarıdır. Burada daxili fleksiya əlamətlərinin şahidi oluruq. "**Bağırmaq**" sözü bağır kəlməsi ilə eyni kökə malikdir. Adam hirslənəndə ağ bağırda bərk qızışma baş verir və insan qışqırma yolu ilə sanki bağrını sakitləşdirməyə çalışır. Ağ bağır hiss- həyəcan mənbəyidir, mənbələrdə bağırmaq "**qəzəb**" sözünün sinonimi kimi də işlədilib.

İkinci mülahizə "**boğazdan çıxan səs**" anlamını verən boğaz kəlməsi ilə qohum ola bilməsidir.

Lakin "**böyürmək**" bağırmaq kəlməsi ilə qohumdur və təqlid yolu ilə yaranıb. Əsli **böy+ gür-mək** kimi olub, bu əlamət bağırmaq sözündə özünü daha çox büruzə verir. Hətta buğa, buğra sözləri də yuxarıdakılarla qohumdur(böyürmək buğa üçün əsas əlamətlərdən hesab olunur) [11 , 52].

Atdım yamaca,
Düşdü umaca. Düz [22.36].

Umac-sözünün əsli ovmac olub**. Ovmaq** sözündəndir**.** Müasir dil baxımından indi forması dəyişib**; "o"** səsi **" u"** səsinə keçib, **" v"** səsi ixtisar olub. Amma danışıq dilində **"** *özünə umac oya bilmir, başqasına əriştə kəsir.*...**"**ifadəsi atalar sözü kimi işlənir.

Bir canaq üzüm,
Yollara düzüm,
Boğazı, beli,
Büzüm ha büzüm. Qarışqa [20, 69]

Canaq, ədəbi dildə geniş şəkildə işlənən çanq tarixən **çin+ ayaq** sözlərinin birləşməsindən ibarət olmuşdur. Səs düşümü və əvəzlənməsi nəticəsində çanaq mürəkkəb sözündən sadə sözə çevrilmişdir(ayaq sözü digər türk dillərində; noqay, kumıq, qırğız türkcələrində " **piyalə", " fincan**" deməkdir). Formasına görə, " **içi oyuq**" adlandırılmışdır. Canaq da vaxtilə ağacdan oyulmaqla düzəldilmiş qab növüdür. Tapmacada qarışqaların hərəkət trayektoriyasına işarə olunmuşdur.

Qızıl ağac yırğandı,
Sırğaları sallandı. Zoğal. [20, 316]

Sırğa- əslində **asırğa** kimi olub və **asmaq** feilindəndir. Mənası **" qulaqdan asılan**" deməkdir. Onun sinonimi **tana\tənə** kəlməsi də var. **Tana** alınma sözdür.

Dağdan gəlir hənir-hənir,
Yerə düşdü yumru dəmir.
Vur başına otur gəmir,
A Daşdəmir, adın nədir? Qoz**.** [20. 234]

Gəmir, gəmirmək feilindən olub " **otu dişi ilə qoparıb yemək**" anlamındadır. Əsli " **gəmgir**" olub, "**-gir**" şəkilçisi adlardan feil düzəltmiş,sonra şəkilçidəki "**g**" səsi düşmüşdür. Buna bariz nümunə**: hayğır,qıyğır** və s.

Səf yerdə sandal ağacı. Dəvənin quyruğu[14, 103].

Sandal/Səndəl, ağac adıdır. Bəzi tədqiqatçılar bu sözün hind (, 219), bəziləri isə çin dili(,54) ilə bağlı olduğunu qeyd etmişlər. Həmin ağacdan vaxtilə ayaqqabılar düzəldilmişdir. Araşırmalardan məlum olur ki, sandal sözü dilimizə fars dili vasitəsilə keçmişdir. Hal- hazırda Qərb dialekt və şivələrində yüngül ayaqqabı mənasında işlənməkdədir. Yağış və palçığa o qədərdə dözümlü

olmayan sandal ayaqqabılarından xristian mənşəli Avropa ölkələrində dəfn mərasimlərində ölünün ayağına geyindirilir. Tapmacada dəvə quyruğunun sərtliyinə eyham vurulmuşdur.

Bircə belə mənguIə,
Bəylər atdan əndirə. Güllə. [14, 36].

Əndirmək/Əndərmək sözünün əsli **ağdarmaq** olub. **Ağ-** "yuxarı" deməkdir. **Əndər-** yuxarıdan aşağı tökmək mənasını əks etdirir. Azərbaycanın əksər dialekt və şivələrində əndərmək həmin anlamda işlədilir.Tapmacada balaca gilzənin(yəni güllənin) gücünə işarə olunmuşdur. Güllə o gücə malikdir ki, bəyi belə atdan endirə bilər.

Bir atım var səməndi,
Nə çulu var, nə bəndi,
Özü açılar, özü kilitlənər
Heç kəs bilməz bu fəndi. Ay və gün[14, 164]

Səməndi, fars mənşəli sözdür, "**sarımtıl"** deməkdir. Qırmızı ilə sarının çalarından ibarət olan rəngdir. M. Kaşqaridə **quba** sözünün mənası səmənd kəlməsinin müasir anlamında şərh olunub.[11 ,224]. Bu ifadəyə Azərbaycan folklor materiallarında, aşıq yaradıcılığında tez-tez rast gəlmək olur. Məs. Aşıq Qurbaninin dastanında səməndi sarımtıl rəngdə olan at anlamında işlədilmişdir:

Dirili Qurbani, götür, din indi!
Boynundadı məhəbbətin kəməndi.
Dərya üstə oynadırdı **səməndi,**
Özün Cəbrayıla pər eylədi şah.[18,55]. Tapmacada ay və günün heç kəsin iradəsindən asılı olmayaraq, çıxması və batmasına işarə olunmuşdur. Ay və günün sürətli"keçməsi" sarımtıl rəngli ata bənzədilmişdir. Atın isə nə çulu(palanı), nə də çıxacağı yeri vardır. Sual oluna bilər ki, bəs nə üçün sarımtıl rıng? Çünki metaforik yanaşmada ay və günün rəngi (sarı) əsas götürülmüşdür.

Tap görün adı nədir?
Bəy ola batan ola,
Bayquda yatan ola,
Olmaya kotan ola. Kotan [14,41].

Bayqu/ bəyqu " İzahlı lüğət" də bayquş kəlməsinin əski forması kimi verilmişdir. Əslində bayquşun bu cür təqdimi doğru deyil. Bayquşun əsli "**vayquş**"(vayıltı salan quş) deməkdir. Xarabalıqlarda xoşagəlməz bir səslə (vayıltı) ilə oxuyur. Bayqu mənbələrdə **biqu, piqu, bəyğu, bayğu** fonetik variantlarda işlədilib.Çünki "bəy" sözünün qədim şəkli " **bi**"dir.Qaraçay, balkar dillərində bu gün də həmin söz işlənir. Sonralar bi forması oğuzlarda

arxaikləşdikdə sözün yeni forması- bəy//bay işlənməyə başlamışdır. [,37] Bayqu sözü ilkin mənasına görə, bəy quşu(bəyə layiq olan quş) deməkdir. Bayqu milli, bayquş isə alınma sözlər olsalar da, klassik poeziyanın dilində sinonim sözlər kimi geniş işləklik dairəsinə malikdir. Bayqu da ov quşlarından biridir. Bayqu sözü tapmacaların dilində 5 dəfə işlənmişdir. Aşıq poeziyasında da " bayqu" daha çox işlənmişdir;

Xəstə Qasım, kim yaraşır əğyara,
Bayqunu gör, məskən salmış ağ yara [12; 418]

Dörd ayın altinda,
İgirmi dörd ulduz. Nal və mıxlar [14, 54]

Ümumiyyətlə, bir nitq hissəsi kimi sayın leksik-qrammatik mənası kəmiyyət bildirməkdir. Tarixən əşyaların köməyi ilə hesablanma işində dünya xalqları müxtəlif mnemonik(yaddaş) işarələrdən istifadə etmişlər. Həmin işarələr dünya xalqlarında müxtəlif əşyalardan ibarət olmuşdur. Ən sadə hesablama üsulu heyvanları saymaq üçün qamışlardan istifadə olunması hesab olunur. Bundan başqa digər əşyalar(daş, darı, sümük, qoz, noxud və s) sayma işinə xidmət etmişdir.Hal- hazırda əşyaların köməyi ilə sayma prosesi inkişafdan geri qalmış bir sıra xalqların məişətində yenə də qalmaqdadır.

Dünyada müxtəlif say sistemləri mövcuddur. Belə say sistemlərindən biri də iyirmilik say sistemidir. A.A.Leontyevin mülahizəsinə görə, dünya xalqlarının çoxu onluq say sistemindən əvvəl iyirmilik say sistemindən istifadə etmişdir [2 ,192]. Sayların quruluşunda bu sistemi görmək mümkündür. Məsələn, fransız dilində səksən anlayışı " dörd dəfə iyirmi" şəkilində söylənilir.Azərbaycanda yaşayan kürdlər əlli rəqəmini " iki iyirmi bir on" tərzində bildirirlər.Gürcü dilində 60 (sammozda) " üç iyirmi", tat dilində "səbist" (üç iyirmu") kimi ifadə olunur. Əslində iyirmilik sistem əllərin və ayaqların barmaqları ilə əlaqədar yaranmışdır. Lakin

türk dillərində **iyirmi/ igirmi** sayının etimologiyası iki sözünün iştirakına görə müəyyənləşdirilmişdir. Buna əyani sübut kimi bir sıra türk dillərində; uyğurlarda " **işkon**", tofalar dilində "**ihen"** şəklində olmasıdır. [30, 114]. Kazan tatarları isə iyirmi əvəzinə bəzən ikion(ike un) işlətmişlər.

« Kitabi- Dədə Qorqud" dastanlarının dilində bu say yalnız bir fonetik variantda (yigirmi) özünü göstərir. " *Vardı bu qırq yigidin yigirmisi bir yana, yigirmisi dəxi bir yana oldı.* [6 ,42] . " *Əvvəl yigirmisi vardı, Dirsə xana bu xəbəri gətürdi [6 , 42].*

Müxtəlif türk dili və dialektlərində "iyirmi" sözü bu və ya digər allomorflarda işlənir: yiqirmə>yiyirmə>yiqirmi>yigirmi> iyirmi və s.

Azəbaycan dialektlərində , o cümlədən tapmacaların dilində **iqirmi// igirmi// iyirmi//iyirimi** variantlarında işlənmişdir. Tapmacada atın ayaqlarına vurulan nal və mıxlar(4× 6=24) ulduza bənzədilmişdir.

Kömlək-

Dağdan gəlir banı xanım,
Əlləri xınalı xanım
Farsı deyər, dil anlamaz
Alaca kömlək, çit arxalıq. Kəklik [22,46]

Kömlək, indiki köynək anlamındadır " Kitabi- Dədə Qorqud" dastanlarının dilində bu "köynək" mənasında işlənir.Müq. Et: Məgər Beyrək buna bir kömlək bağışlamışdı; geyməz idi [6 ,76]. Bayındır xan aydır: " Mərə, bu nə kömləkdir.....Kömləgi göricək bəglər ökür-ökür ağlaşdılar, zarlıqlara girdilər[6 ,76]. Dilçiliyə dair tədqiqatlarda kömlək/ köynək sözünün mənşəyinə dair müxtəlif mülahizə-yozumlar mövcuddur. Bəzi tədqiqatçılar kəlmənin "geyinmək" feili zəmnində yarandığını ehtimal edirlər [11,144]. Digərləri həmin ifadəni dilimizdə pərdə,örtük mənalarını əks etdirən kölö sözü ilə əlaqələndirmişlər. Fikrimizcə, mənbələrdə köynək sözü köyülək kimi işlədilib. Köyülək isə küy(göy)kəlməsi ilə bağlıdır. Burada göy sözünün rənglə heç bir əlaqəsi yoxdur. Əslində göy kəlməsi od,yanmaq anlamı ilə bağlıdır. Yəqin ki, tarixən köynək bədəni isidən, qızdıran və soyuqdan qopuyan mənasını ifadə etmişdir.

Ədəbiyyat

Azərbaycan dilində

1.Abdullayev. Ə. Z. Azərbaycan dili məsələləri. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1992, 329 səh.

2.Adilov. M. Əyləncəli dilçilik.Bakı:"Elm və təhsil",2014,324səh.

3. Azərbaycan aşıq şeirindən seçmələr.(II cilddə), I cild, " Şərq-Qərb", 2005, 418səh .

4.Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı: Azərbaycan SSR.EA nəşriyyatı. 1964.

5.Azərbaycan dilçiliyi müntəxəbatı. III cild, Bakı: 2013, 521 səh.

6.Azərbaycan folklor külliyyatı, XII cild, Dastanlar (II kitab), "Kitabi-Dədə Qorqud" dastanı, Bakı: "Nurlan" 2009, 390 səh.

7.Bayramov. B.Tək palıdın kölgəsi,"Azərbaycan"jurnalı,1983, №9

8.Cəlilov.F.A.Azərbaycan dilinin morfologiyası, Bakı:"Maarif", 1988, 285 səh.

9. Cəfərov.S.A. Azərbaycan dilində söz yaradıcılığı, Bakı: ADU, 1960, 202 səh.

10.Əhmədov. B. B. Azərbaycan dili şivələrində fono-semantik söz yaradıcılığı, Bakı: Bakı Universiteti nəşriyyatı,1994, 200səh.

11.Əhmədov.B.İ. Etimologiya lüğəti. Araşdırmalar, mülahizələr Bakı: " Altun kitab" 2015, 288 səh.

12.Hacıyev. T. İ. Azərbaycan ədəbi dilinin tarixi. I hissə, Bakı: “Elm”, 2012, 476 səh.

13.Hüseynli N. Məmmədova.J. Türk dillərinin geneologiyası: şumer və türk leksik paralelləri. Bakı: “Nağıl evi” 2012, 355 səh.

14. Xuluflu. V. Tapmacalar. Azərbaycanı öyrənən cəmiyyətin nəşriyyatı. Bakı:1928,130 səh.

15.Qıpçaq. M. D.” Dədə Qorqud Kitabı” nın dilində əlamət və keyfiyyət bildirən sözlər. Bakı:“MBM” nəşriyyatı, 2012, 104 səh.

16.Qıpçaq. M.D. “ Kitabi- Dədə Qorqud” un leksikası(heyvan, quş və həşərat semantikalı sözlər), Bakı: “MBM” nəşriyyatı,2012. 104 səh.

17.Qıpçaq. M. D. Söz aləminə səyahət. Bakı: “Bakı Universiteti” 2002, 242 səh

18.” Qurbani” dastanı. Azərbaycan dastanları. Vcilddə, Icild, Bakı: “Lider” nəşriyyatı 2005, 392 səh.

19.Nəsimi. Seçilmiş əsərləri, Bakı:”Şərq- Qərb” , 2006, 358 səh.

20.Seyidov. N. Tapmacalar. Bakı: “ Şərq- Qərb”, 2004,208. səh.

21. Vəliyeva. G. Azərbaycan dili Şərqi Abşeron şivələrinin leksikası(namizədlik dirtasiyası).Bakı:1983

22.Zeynallı.H. Azərbaycan tapmacaları(tapmacalar,bağlamalar), Bakı: “ Elm və təhsil”, 2013, 101səh

23.XIII-XVI əsrlər şeiri. Bakı: “Elm”, 1983,524 səh

Rus dilində

24.Гарилов. Т. Махмуд Кашгари икыпчакские языки. Урал-Поволжъя, ж, СТ, 1972,№ 1.

25.Древнетюркский словаръ. Л. 1969.

26. Кошгарий Махмуд. Туркий сузлар девони (Девону луготит турк). Ташкент, I т, 1960,II т, 1961, III т, 1963; индекс 1967.

27. Зайончковски. А. К вопросу корнъя в тюркских языках, ж, ВЯ, 1961,№2.

28.Радлов. В.В.Опыт словаръя тюркских наречий, III т,СПб, 1906.

29.Рамстед.Г. Введение в алтайское языкознание. М.1957.

30.Рассадин.В.И. Морфология тофлфрского языка в сравнителъном освещении. М. 1978.

31. Русско-туркменский словаръ. М. 1956.

32. Этимологический словаръ тюркских языков. М. I т.1974, II т, 1978, III т, 1980.

33.Щербак. А.М. Называние домашных животных в тюркских языках. Исторические развитие лексики тюркских языков. М. Изд. АН.СССР.

А. КЯЗИМОВ

НЕКОТОРЫЕ СЛОВА ВОЗНИКМЕ НА ЯЗЫКЕ ЗАГАДОК НОВЫЙ ВЗГЛЯД НА ЭТИМОЛОГИЮ

РЕЗЮМЕ

Язык наших национальных загадок- это продукт многовековой памяти нашего народа. По размаху азербайджанские народные загадки, их языковые возможности, образно говоря, напоминают великолепный музей. Однако экспонаты этого музея- это не предметы охраняемые особой защитой, а живой разговорный язык нашего народа, общая лексика, устаревшие слова и выражения, предметы, принадлежащие разным языкам, диалекты тестные слова и так далее. С этой точки зрения загадки играют ценную и вечную ролъ в изучении истории языка нашего народа, законамерностей его развития. Недаром каждая наша загадка имеет свою историю, загадки-это словесные печаты нашей истории. Известно, что язык национальных загадок имеет общее положение между живым разговорным языком и диалектом. В этом плане язык наших загадок богат икрасочен. Потому что в языке наших загадок есть такие слова и вражения, что аналогии с ними невозможно найти даже в литературном языке определенная вещ называется словом, отделъные ее части не имеют особого имени, в загадках, наоборот, наименъщая частъ этой вещи имеет такое имя и есть слова и термины, которые это выражают. Поэтому изучение языка загадок имеет особое значение для изучения истории нашего языка, для выяснение исторического развития определенных слов и выражений.

Ключевые слова: историко- сравнителъный метод, историческое происхождение, фонетические замены, смысловые оттенки.

A. KAZIMOV.

SOME WORDS DEVELOPED IN THE LANGUAGE OF OUR RIDDLES A NEW LOOK AT THE ETYMOLOGY

SUMMARY

The language of our national riddles is a product of the centuries-old memoru of our people. The scope of Azerbaijani folk riddles, their linguistic capacity, figurativelu speaking, is reminissent of a magnificent museum. However, the exhibits of this museum are not items protected under special protection, but the living spoken language of our people, common vocabulary, obsolete words and expressions, acquisitions belonging to different languages, dialectal local words and so on consists of. From this point of view, riddles play a valuable and eternal role in studying the history of the language of our people, the laws of its development. It is not for nothing that each of our

riddles has a history. Riddles are the word seals of our history. It is known that the languade of national riddles has a common position between the living spoken language and dialects. In the redard, the language of our riddles is rich and colorful. Because there are such words and expressions in the language of our riddles that ist analogy cannot be found even in literary language. If in a modern literaru language a certain thing is called a word, its separate parts do not have a special name, in riddles, on the contrary, the smallest part of that thing has such a name and there are words and terms that express it. Therefore, the study of the language of riddles is of particular importance in order to study the history of our language, to clarify the historical development of certain words and expressions.

Keywords: historical-comparative method, historical origin, phonetic substitutions, shades of meaning.

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Filologiya elmləri doktoru Buludxan Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur.

FƏRİD HƏSƏNLİ
Bakı Dövlət Universiteti
Zahid Xəlilov 23
ferid.h1998@mail.ru

ƏRƏB ƏDƏBİ DİLİNDƏ LEKSİK PROBLEMLƏRƏ DAİR

XÜLASƏ

Məqalədə dilin leksik fondunun zənginləşdirilməsində xüsusi yer tutan müxtəlif qədim və müasir ərəb ləhcələrindən bəhs olunur. Müəllif ərəb dilinin leksik fondunun zənginləşməsində xüsusi yer tutan müxtəlif ləhcələri məqalədə şərh etməyə çalışdı.

Fərid Həsənli, həm orta əsrlər, həm də müasir ərəb dilçilərinin söz ehtiyatını fərqli ərəb ləhcələrindən sözləri ərəb ədəbi dilinə çevirərək tamamlamaq probleminə də aydınlıq gətirmişdir.

Görkəmli orta əsr dilçi alimləri Rəcib əl-İsfahani, İbn Cinni və Əhməd ibn Faris də ədəbi ərəb dilində oxşar mənalı sözlər məcmuəsinin çoxunun fərqli ərəb ləhcələrindən gəldiyi fikrini dəstəkləyirdilər. Bu məsələyə aydınlıq gətirmək üçün müəllif əvvəlcə Qureyş tayfasının ləhcəsinə əsaslanan ədəbi dil tarixinə müraciət etmiş və ortaq ərəb ədəbi dilinin digər ləhcələrlə təmas olmadan saf Qureyş ləhcəsi əsasında formalaşdığını sübut etməyə çalışmışdır.

Açar sözlər: qədim və müasir ərəb ləhcələri, ərəb dilinin leksik fondu, müasir ərəb dilçiləri

Dilin leksik fondunun zənginləşməsində özünəməxsus yerlərdən birini tutan amil də müxtəlif ləhcələrdən ədəbi dilə keçmiş vahidlər məcmuyudur.

Onu deyək ki, haqqında istər orta əsr, istərsə də müasir ərəb dilçilərinin tam yekdil olduqları bu yeganə üsulu müxtəlif ərəb ləhcələrindən alınan sözlərin ərəb ədəbi dilinə keçməsi vasitəsilə leksikanın zənginləşməsi yolu kimi də müəyyənləşdirə bilərik.

Ərəb ədəbi dilində mövcud olan yaxin mənalı sözlər toplusunun böyük bir qisminin müxtəlif ərəb ləhcələrindən əxz olunması fikrini görkəmli orta əsr dilçilərindən ər-Racib əl-İsfəhani, İbn Cinni və Əhməd İbn Faris də müdafiə etmişdir.

Bu məsələyə aydınlıq gətirmək üçün dilçilər ilk növbədə Qüreyş qəbiləsinin ləhcəsinin bazasında yaranmış ədəbi dilin tarixinə müraciət edir və müştərək ərəb ədəbi dilinin başqa ləhcələrlə təması olmayan saf Qüreyş ləhcəsinin əsasında formalaşdığını iddia edirlər [12; 214].

Mənbələrdə qeyd olunur ki, hər il müxtəlif bölgələrdən olan ərəblər Allahın evini

ziyarət etmək üçün Məkkəyə Həcc ziyarətinə gələr və qüreyşlilərlə sıx təmasda olardılar. Qüreyş qəbiləsinin dili isə öz yüksək bəlağəti, gözəl fəsahəti və incəliyi ilə bütün qəbilələrin dillərindən fərqlənirdi. Həcc ziyarətinə gələnlər Qüreyş dilinin ən gözəl cəhətlərini əxz edir, şairlər isə öz şerlərini məhz bu dildə yazmağa üstünlük verərdilər [8; 33]. Lakin, təbii ki, bu təmas birtərəfli olmur, Qüreyş ləhcəsi də öz növbəsində bu qəbilələrin ləhcələrindən müəyyən sözlər əxz edirdi.

Çox maraqlıdır ki, başqa bir qrup orta əsr dilçiləri isə hələ cahili dövründə Qüreyş qəbiləsinin başqa qəbilələrlə təmasından danışır və onların bu qəbilə və tayfaların dillərindən müəyyən sözlər əxz etdiklərini qeyd edirlər. Məsələn, görkəmli orta əsr Misir dilçi alimi Süyuti bu barədə belə qeyd edir:

...كانت العرب تحضر الموسم في كل عام وتحج البيت في الجاهلية وقريش يسمعون لغات العرب فما استحسنوا من لغتهم تكلموا به فصاروا افصح العرب وجلت لغتهم من مستبشع اللغات مستقبح الالفاظ ...

[12; 221].

«Cahiliyyə dövründə ərəblər hər il mövsümdə Məkkəyə gəlir və Allahın evini ziyarət edirdilər. Qureyşlilər də başqa ərəblərin danışıqlarına qulaq asır, onların dillərindən xoşlarına gələnləri götürür və onlarla ünsiyyət qururdular. Buna görə də onların dili zəif ifadə və qəbih sözlərdən təmizlənir və onlar ərəblərin ən fəsahətlisinə çevrilirdilər» .

Professor Hakim Əz-Ziyadi isə öz növbəsində qeyd edir ki, «ərəb qəbilələri Qüreyş ləhcəsindən çox şey götürmüşlər» deyənlər unudurlar ki, Qüreyş qəbiləsi də bu ləhcələrdən heç nə əxz etməmiş deyildir. Müəllif həm də yazır ki, **müştərək ərəb dili** ancaq qüreyşlilərin dili demək deyildir, o, bütün ərəb qəbilələrinin dilindən ibarətdir və müəllifin təbirincə desək, «*هي مولفة من مجموع لغات العرب*» [11; 254].

Biz bu məqamda həmin məsələyə özünün « *دراسات في اللغة* » kitabında böyük bir fəsil həsr etmiş doktor İbrahim Samərrainin də adını çəkmək istərdik. O da, müasiri Hakim Əz-Ziyadinin fikri ilə razılaşaraq məsələyə münasibətini belə bildirir: « Bu gün bizə miras qalmış ərəb dili özündə «ləhcələr» adlanan bədəvi qəbilə dillərindən bir çox şey ehtiva edir. «Quran dili və ya ədəbi dil əslində Qüreyş və ya Hicaz dilidir» demək doğru deyildir. Ən doğrusu odur ki, bu dil bir birindən fərqli mühitlərdə yaşamış bir çox qəbilənin dillərindən toplanmışdır [6; 117].

Bugün alimlərin gəldiyi əsas qənaət isə ondan ibarətdir ki, zaman keçdikdə yaxin mənalı vahidlər cərgəsini təşkil edən onlarla sözdən hansı birisinin məhz hansı qəbilədən əxz olunması unudulmuş və müxtəlif ləhcələrdən ədəbi dilə keçid almış leksemlər vahid Qüreyş dilində «vətəndaşlıq hüququ» qazanaraq, ərəb ədəbi dilinin hazırki mükəmməl lüğət fondunun formalaşmağına güclü təkan olmuşdur [10; 29].

Yaxin mənalı sözlərin əmələ gəlməsinin ikinci üsulu sözlərin lüğətlərə toplanması yolu ilə əmələ gəlməsi yoludur. Qeyd edək ki, vaxtilə ərəb dilçiləri bu dili tədqiq etmək və ərəb dilinin leksik fondunu yaratmaq üçün səhralara üz tutmuş və öncə bəhs etdiyimiz kimi, burada məskunlaşmış bədəvi ərəblərlə həftələrlə, aylarla

və bəzən də illərlə yaşamışlar. Onlar bu gün leksik fonda daxil olan sözləri ən fəsahətli dilə malik olmuş qəbilələrdən topladıqlarını iddia etsələr də, cəm etdikləri sözlərin arasında mövcud olan الخمر «xəmr» («şərab») sözünün sinonimi olan الخندريس «xəndəris» kimi yunan mənşəli, الاسفنط «isfənt» kimi fars mənşəli sözlərin olması onu sübut edir ki, sözlər lazımi diqqətlə seçilməmişdir. Lüğətlərə daxil edilən sözlər isə artıq dilin malı olur və ondan geniş şəkildə istifadə olunurdu. Belə sözlər bu və ya digər şəkildə lüğətlərdən lüğətlərə ötürülürdü ki, bu da sinonim vahidlərin sayını artırırdı.

Ərəb ədəbi dilində yaxin mənalı sözlərin yaranmasının üçüncü üsulu əşyanın əlamətlərindən birisini ifadə edən sözün substantivləşərək ismə çevrilməsi yoludur. Məsələn, *العباس* sözü vaxtilə **«şir»** isminin yalnız bir əlamətini ifadə etsə də, zaman keçdikcə o, bu məfhumu tam mənada ifadə etməyə başlamış və «əsəd» sözünün tam hüquqlu sinoniminə çevrilmişdir.

Biz bu məqamda adı çəkilən müddəaya nümunə olaraq elmi işə çoxsaylı **«qılnc», «quyu», «bulud»** və s. kimi sözlərin sinonim cərgə nomenklaturasını cəlb etmək fikrində deyilik, təkcə onu demək istəyirik ki, orta əsr müəlliflərinin əsərlərində məsələnin bu tərəfi ilə əlaqədar olaraq çox maraqlı məqamlar vardır ki, bunlardan biri də görkəmli ərəb ədibi olan Əbu-t-Tayyib əl-Mütənəbbinin öz divanlarının birində *السيف* sözündən 104 dəfə istifadə etdiyi halda, onun keyfiyyətini ifadə edən vahidlərdən 139 dəfə istifadə etməsi faktıdır. Bu rəqəmləri şairin həmin divanına diqqətlə nəzər salarkən bir az da dəqiqləşdirmək olar. Məsələn, o, «hüsam»dan 18 dəfə , «sarim»dən 17, «muhənnəd» sözündən 13, «məşrəfi»dən 8, «adab»dən 5, «mənasil»dən 9 dəfə, «samsamə»dən isə 2 dəfə istifadə etmişdir. Bu statistik məlumat *السيف* sözünün yaxin mənalı sözlərinin onların domanintın özündən heç də az işlənmədiyini göstərir. Özü də bu sözlərin hamısı əl-Mütənəbbi tərəfindən konkret cəhət və ya keyfiyyət mənasında deyil, məhz «qılınc» anlamında işlədilmişdir. Əl-Mütənəbbi ilə eyni dövrdə yaşamış başqa bir qüdrətli ərəb şairi, Əbu Faris əl-Həmədani də şerlərində «qılınc» sözünün müxtəlif yaxin mənalı sözlərindən istifadə etmişdir. Məsələn, o, şerlərinin birində «seyf» dominantının adını 62 dəfə xatırlatdığı halda, onun sinonimlərindən 74 dəfə istifadə etmişdir [11; 135- 138].

Maraqlı cəhət burasıdır ki, bugün orta əsr dilçilərinin *لحن العامة* (qara camaatın səhvi) səpkisində yazdıqları əsərlərində bu növdən olan minlərlə sözün yer aldığından bəhs edən müasir dilçilər də yox deyildir [9; 134]. Və belə müasir dilçilərin rəyinə görə bu əsərlərin müəllifləri olan orta əsr dilçiləri mənanın daralmasını sözün semantik inkişafında deyil, sözün istifadəsi zamanı buraxılan səhvlərində axtarırdılar. Buradan belə qənaətə gəlmək mümkündür ki, orta əsr dilçiləri sözün mənasına dəyişməz bir hal kimi baxır, sözün etimologiyası və bir sıra tarixi amillərin sözün özünə etdiyi təsiri qəbul etmir və ya etmək istəmirdilər [9; 138]. Məsələ burasındadır ki, ərəb dilçiliyinin özündə XX əsrin 30-cu illərindən sonra rəvac tapmış sözə semantik inkişaf baxımdan yanaşılma məsələsi və bu

problemin tədqiqini orta əsr ərəb müəlliflərinin əsərlərində araşdırmaq nə dərəcədə doğrudur?! Zənnimizcə bu mümkünsüzdür.

Eyni məsələni müasir dövr ərəb dilçiliyində araşdırsaq görərik ki, sözün mənasının daralması və ya konkret mənanın ümumilik kəsb etməsi **məcaz** yolu ilə, ərəblərin özlərinin ***مجاورة*** adlandırdıqları «**yaxınlıq**» üsulu ilə baş verir. Semantik baxımdan yaxın mənaları ifadə edən sözlər arasındakı fərqlər zaman keçdikcə unudulur və onlar yaxin mənalı vahidlərə çevrilirlər. Müasir dilçilər də sözün vaxtilə daşımış olduğu mənanı yeganə meyar hesab etmək fikrindən daşınır və həmin sözlərin hazırda kəsb etdikləri mənalardan çıxış edirlər. Elə bu baxımdan, bu məqamda hörmətli alim əz-Ziyadinin rəyi olduqca böyük maraq kəsb edir – «sözün ilkin (həqiqi) mənası ilə sonrakı (məcazi) mənaları arasında qəti bir hədd qoymaq mümkün deyildir. Sözün məna dairəsi daimi olaraq «hərəkətdədir» [11; 103].

Məsələn, elə alimin bu mülahizələri iddia etdikdən sonra gətirdiyi misallarda - klassik ərəb dilində biri digərinə sinonim mənada işlədilən *المزادة* və *الرا و ية* sözlərinin timsalında da bunun bir daha şahidi ola bilərik ki, *المزادة* vahidi vaxtilə **«içərisində su saxlanılan qab»**ı, *الرا و ية* isə **«üzərində su daşınan dəvə və ya uzunqulaq»** anlamında işlənsə də, zaman keçdikcə *الرا و ية* öz ilkin mənasını itirərək o da, **«su qabı»** mənasını kəsb etmişdir. Müasir dilçi bu faktın İbn Düreyd, İbn Sikkit və İbn Qüteybə tərəfindən də qeydə alındığını və onların da bu hadisəni sözün semantik inkişafı ilə əlaqələndirməyərək, onu «qara camaatın səhvi» kimi qələmə verdiklərini iddia edir [11; 109].

Məsələ burasındadır ki, bu və ya digər cütlüklərin gələcəkdə də müəyyən semantik dəyişikliklərə uğrayaraq daha yeni mənalar kəsb edəcəyi istisna olunmur. Belə ki, barəsində söhbət açdığımız bir sıra cütlükləri bugün müasir lüğətlərin birində izləyərkən الراوية vahidinin qeyd olunan mənalarla yanaşı, hətta **«içki»** məfhumunu da ifadə etməsinin, ikincinin isə, ümumiyyətlə, orada yer almadığının, özünün həm ilkin, həm də məcazi mənasının itirdiyinin şahidi oluruq [4; 322].

Yuxarıda qeyd etdiyimiz kimi, orta əsr dilçilərinin bir qismi sözlərin mənalarının inkişaf edərək dəyişməsi nəticəsində əmələ gəlmiş yaxin mənalı sözlərlə yanaşı onların səs tərkibində baş verən dəyişmə nəticəsində əmələ gələn yaxin mənalı sözlərin də olduğunu qeyd edirlər. Bəzi müasir dilçilər **sözün səs tərkibinin dəyişməsi** və ya **əvəzlənmə**si nəticəsində yaxin mənalı sözlərin yarana bilməsi fikrini qəbul etmir və ona qarşı çıxırlar. Məsələn, hörmətli professor Sübhi Saleh məşhur orta əsr dilçisi İbn Cinninin *هتفت السماء* və *هتلت السماء* cümlələrində verilmiş *هتل* və *هتف* fellərini yaxin mənalı söz kimi hesab etməsi ilə razılaşmayıb, yazır ki, bu fellər bir-biri ilə sinonim ola bilməzlər, çünki burada ya *هتف* feli *هتل* felinin *ف – ل* səslərinin əvəzlənməsi, ya da *هتل* feli ikincinin *ف -ل* əvəzlənməsi nəticəsində yaranmış variantıdır. Müəllif bu məqamda öz fikrini qüvvətləndirmək üçün daha bir neçə misal gətirir və *دعس، طعس، طعز، دعز طحس، طحز، دعظ* fellərinin də bu qəbildən olmasından və onların hamısının vahid *دعس* felinin səs əvəzlənməsi yolu ilə yaranmış müxtəlif variantlarından biri kimi

çıxış edə bilməsindən bəhs edir [13; 321].

Ərəb dilçiliyində «**əl-qəlb**» hadisəsinə ilk dəfə semantik baxımdan yanaşan alim isə məşhur orta əsr dilçisi ibn Cinni hesab olunur. Konkret dil materialları əsasında o, belə bir nəticəyə gəlmişdir ki, üç və ya dörd kök samitli sözlər, samitlərin ardıcıllığından asılı olmayaraq ümumi bir məna ifadə edirlər. Ədəbiyyatda bu mülahizəni sübuta yetirmək üçün çox zaman nümunə olaraq İbn Cinnidən bu məşhur misallar gətirilir:

... فمن ذلك تقليب (ج، ب، ر) فهي اين وقعت للقوة والشدة. منها (جبرت) العَظْم والفقير، إذا قويتها وشددت منها. والخبر الملك لقوته وتقوية غيره ومنها رجل (المجرب) إذا جرسته الأمور ونجدّته فقويت منته واشتدت شكيمته ومنه الجراب لأنه يحفظ ما فيه وإذا حفظ الشيء وروعى، اشتد وخوي وإذا أغفل وأهمل، تساقط ورذى ومنها (الأبجر والبجرة) وهو القوي السرة... ومنها (البرج) لقوته في نفسه وقوة ما يليه به. البَرَج لنقاء بياض العين وصفاء سوادها، هو قوة أمرها وانه ليس بلون مستضعف ومنها (رجبت) الرجل إذا عظمته وخويت أمره ومنه رجب لتعظيمهم اياه عن القتال فيه وإذا أكرمت النخلة على أهلها فمالت، دعموها بالرجبة وهو الشيء تسنده إليه لتقوى به والرجبة أحد فصوص الأصابع وهي مقوية لها ومنها (الرجاجى) وهو الرجل يفخر بأكثر من فعله ... يعظم نفسه ويقوى أمره...

[5; 57].

Yeri gəlmişkən onu da qeyd edək ki, ibn Cinni dühası və təfəkkürü qarşısında doktor İbrahim Ənis bu günkü düşünmə tərzi və konkret dil materialları ilə bir növ acizdir. İbn Cinninin «Mən heç də iddia etmirəm ki, «**əl-iştiqaq əl-əkbər**» bütün dil materialını əhatə edir. Bunu bütün dil materialına aid etmək etmək olduqca çətin bir şeydir» [7; 138] kəlamı qarşısında doktor İbrahim Ənisin tənqidi olduqca cuzi görünür.

İbn Cinninin yaxin mənalı sözlərin «**əl- qəlb əl- luğavi**» hadisəsi ilə də yaranması iddiası və onun iki, bəzən də üç sözü əhatə etməsi bir çox orta əsr dilçiləri tərəfindən təsdiq edilir və bu mənada onların əsərləri konkret dil materialları ilə olduqca zəngindir. Məsələn, məşhur orta əsr dilçisi ibn əs-Sikkit bu məsələ ilə münasibətdə aşağıdakı nümunələri gətirir və bu sözlərin birinin digərinə sinonim olduğunu qeyd edir:

...أنضب - أنبض، رضب - ربض، ما أيبطه - ما أطيبه، جذب - جبذ، بكل - لبك، معيق - عميق، امضحل - اضمحل، صاقعة - صاعقة، مكلَّب - مكبّل، سبسب - بسبس، ناقة ضمرز - ضمزر، طاسم - طامس، علط - عطل، قتين - قنيت، شرخ - شخر، خنز - خزن، لقم - لمق، فحث - حفث، هجهج - جهجه، طبيخ - بطيخ، سلسال - لسلاس، مسلسل - ملسلس، دقم - دمق، بكبك- كبكب، ثكم - كثم تقربط - تبرقظ، خجّ – جخّ...

[12; 476].

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYATIN SİYAHISI

1. Abdullayeva N.C. Müasir Azərbaycan dilinin sintaksisi üzrə xüsusi seminar materialları. Bakı: Maarif, 1975, 277 s.
2. Axundov A.A. Ümumi dilçilik. Dilçiliyin tarixi nəzəriyyəsi və metodları. Bakı: Maarif, 1979, 254 s.
3. Hüseynzadə M. Müasir Azərbaycan dili. Bakı: Maarif, 1954, 312 s.
4. Баранов Х.К. Арабско- русский словарь. Москва: Русский Язык, 1985, 942 с.
5. Белов А.Г. Проблемы арабского языкознания / Семитские языки. Москва: Наука, 1976, №3, с. 224-244

6. إبراهيم السامرائي. دراسات في اللغة. بغداد: مطبعة العاني، ١٩٦١، ٢٦٤ ص.

7. إبن جني، أبو الفتح عثمان. الخصائص . بيروت: دار الهدى للطباعة والنشر، ج٢ ، ١٩٩٥، ٤١١ ص.

8. أحمد بن فارس. الصاحبي في فقه اللغة. القاهرة: مكتبة نهضة مصر، ١٩١٠، ٧١٩ ص.

9. رمضان عبد التواب. فصول في فقه العربية. القاهرة: مكتبة الخانجي، ١٩٨٧ ، ٤٥٦ ص.

10. الرماني، أبو الحسن علي بن عيسى. الألفاظ المترادفة المتقاربة المعاني. تحقيق فتح الله صالح علي المصري، المنصورة: دار الوفاء، ١٩٩٢، ١٠٤ ص.

11. الزيادي حاكم مالك لعيبي. الترادف في اللغة. بغداد: منشرات وزارة الثقافة والأعلام، ١٩٨٠، ٣٣٤ ص.

12. السيوطي. المزهر في علوم اللعة وأنواعها. الجلد الأول، القاهرة: دار التراث، ٢٠٠٠، ٦٥١ ص.

13. صبحي صالح. دراسات في فقه اللغة. بيروت: دار العلم للملايين، ١٩٦٢، ٤٠٠ ص..

Farid Hasanly, BSU

ON LEXICAL PROBLEMS IN THE ARABIC LITERARY LANGUAGE

Key words: ancient and modern Arabic dialects, lexical fund of the Arabic language, modern Arabic linguists

SUMMARY

The article deals with various ancient and modern Arabic dialects, which occupy a special place in enriching the lexical fund of the language. In the article, the author tried to comment on the various dialects that hold a special place in the enrichment of the lexical fund of the Arabic language.

Farid Hasanly also clarified the problem of replenishing the vocabulary of both medieval and modern Arabic linguists by translating words from different Arabic dialects into Arabic literary language.

Prominent medieval linguists al-Rajib al-Isfahani, Ibn Jinni, and Ahmad ibn Faris also supported the idea that most of the set of words with similar meanings in literary Arabic comes from different Arabic dialects. To clarify this issue, the author first turned to the history of the literary language based on the dialect of the Quraysh tribe, and tried with certain evidence to prove that the common Arabic literary language was formed on the basis of the pure Quraish dialect without contact with other dialects.

Фарид Гасанли, БГУ

О ЛЕКСИЧЕСКИХ ПРОБЛЕМАХ АРАБСКОГО ЛИТЕРАТУРНОГО ЯЗЫКА

Ключевые слова: древние и современные арабские диалекты, лексический фонд арабского языка, современные арабские лингвисты

РЕЗЮМЕ

В статье затрагиваются различные древние и современные арабские диалекты, которые занимают особое место в обогащении лексического фонда языка. В статье автор попытался прокомментировать различные диалекты, занимающие особое место в обогащении лексического фонда арабского языка. Фарид Гасанли также прояснил проблему пополнения словарного запаса как средневековых, так и современных арабских лингвистов путем перевода слов с разных арабских диалектов на арабский литературный язык.

Выдающиеся средневековые лингвисты ар-Раджиб аль-Исфахани, Ибн Джинни и Ахмад ибн Фарис также поддерживали идею о том, что большая часть набора слов со схожими значениями в арабском литературном языке происходит из различных арабских диалектов.

Чтобы прояснить этот вопрос, автор сначала обратился к истории литературного языка, основанного на диалекте курайшитского племени, и попытался с определенными доказательствами доказать, что общеарабский литературный язык сформировался на основе чистого курайшитского диалекта без контакта с другими диалектами.

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021

TƏRANƏ ZEYNALOVA
ADU
Rəşid Behbudov 134
e-mail: tzeynalova 65@gmail.com

BEYNƏLXALQ İŞGÜZAR YAZIŞMALARIN LİNQVİSTİK ƏSASLARI
(ingilis dili materialları əsasında)

Xülasə

Qeyd etmək lazımdır ki, ötən əsrin 80-ci illərinin əvəllərində meydana çıxmış telekommunikasiya şəbəkələri insanlar arasmda yalnız məktublaşma vasitəsi kimi çıxış etdiyindən elm və təhsil sahəsində yalnız rahat və operativ rabitə vasitəsi kimi istifadə olunurdu. Lakin beynəlxalq təcrübədən və çoxsaylı eksperimentlərdən də göründüyü kimi, sadə yazışmadan fərqli olaraq, telekommunikasiya şəbəkəsində işgüzar yazışmalar sahəsində xüsusi şəkildə təşkil olunmuş, məqsədyönlü birgə fəaliyyət daha yüksək nəticələr verə bilər. Müxtəlif sahələrin şəbəkə vasitəsilə əməkdaşlığı əsasında birgə layihələrin təşkili daha faydalı olardı. Məhz bu baxımdan mühüm vəzifələrdən biri işçilərin dünyaya inteqrasiyasının mümükünlüyünə nail olmaqdır.Hazırda çalışan hər hansı kadr ixtisas profilindən asılı olmayaraq, müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə müxtəlif sahələrdə bilik səviyyələrini artırmalı, ixtisasları ilə bağlı olan dünya təcrübəsindən faydalanmaq və ondan konstruktiv şəkildə istifadə etmək qabiliyyətinə malik olmalıdırlar. Beləliklə, dildə ifadə olunan fikrin qlobal obrazı sənədlərdə də dil ifadəsinin üsul və stereotiplərinə uyğun olaraq, üzvləşməli, strukturlaşdırılmalı və xətti nəql imkanlarına maksimum yaxınlaşdırılmalıdır. Meydana gələn çalarlar dil strukturları və dil vahidləri ilə əlaqələndirilməli, onların ümumi məcmusu müəyyən nümunə və ya sxemlə yekunlaşdırılmalıdır. Eyni dildə danışan bir qrup insanlarla ünsiyyət zamanı həmin qrupda olan insanların niyə məhz belə fikir mübadiləsi aparmasını, söhbət zamanı hansı təəssürat və dəyərlərin bəyənilməsindən və müzakirə edilməsindən xəbərdar olmaq onlara həmin qrupa üzv kimi qəbul edilmək haqqı qazandırır. Geniş mənada insanlar arasındakı ünsiyyət dillə bağlıdır. İnsanlar mürəkkəb dil fəaliyyətində iştirak edərək, bir-birilərini başa düşürlər və hətta səsli ünsiyyətin mahiyyətini açıb göstərmək istəyəndə səssiz ünsiyyəti də nəzərə alırlar. Bu isə əsas semantik yük daşıyan sözlərin və inteqrasiya prosesində aparıcı rol oynayan predikativ blokların simasında mətnin struktur- semantik vahidlərini ayırır.İşgüzar məktubları yazarkən bir səhifə nəzərdə tutulmalıdır. Əgər məktubun həcmi müəyyən səbəblərdən bir səhifəni aşarsa bu zaman birinci səhifə istisna olmaqla qalan səhifələr ərəb rəqəmləri ilə nömrələnməlidir.

Açar sözlər: strategiya, şifahi nitq, dil, kontekst, yazı

Beynəlxalq işgüzar yazışmalar zamanı uyğun dil qanunauyğunluqlarına riayət etmək vacib şərtlərdəndir. İşgüzar yazışmaların dil xüsusiyyətlərindən bəhs edərkən morfoloji, leksik, qrammatik xüsusiyyətlər diqqət çəkir. Azərbaycan və ingilis dillərində işgüzar üslubda ümumi və xüsusi isimlərdən, idarə, təşkilat, şəxs adlarından və soyadlarından istifadə olunur. Aparılan təhlil göstərir ki, leksik sözlər məna yükü və informativliyinin dərəcəsinə görə qrammatik sözlərdən fərqlənir. Bu fərq də onların cümlədə (söyləmlərdə) vurğulu və vurğusuz olması, eləcə də intonasiya qrupunun mərkəzini (fokusunu) öz üzərinə götürməsi ilə şərtlənən amil kimi özünü göstərir. Digər tərəfdən, qrammatik sözlər ünsiyyətdə tez-tez təkrar olunduğundan onlar bir növ köhnə, artıq dinləyiciyə məlum olan informasiyaların daşıyıcısı kimi çıxış edir. Bu xüsusiyyət də onların yazılı ünsiyyət prosesində müəyyən elementlərin distribusiyasına təsir göstərir. Beynəlxalq yazışmalar zamanı informasiyanın strukturlaşması müəyyən prosedur qaydaların ardıcıllığını özündə ehtiva edir. Belə ki, mətni göndərən şəxs, ilk növbədə, lüğət tərkibindən lazımi sözləri seçməli, sonra sintaktik səviyyədə söz birləşməsi və cümlə quruculuğu ilə məşğul olmalı və nəhayət, hər iki səviyyənin mətndə necə işlədilə bilməsini müəyyənləşdirməlidir. Bu zaman bir çox linqvistik, psixoloji, sosial, mədəni və digər amillər həmin seçimə təsir edir [1, 24].

Əsasnamədə bütün dövlət sənədlərində olduğu kimi, xüsusi isimlər böyük hərflərlə qeyd edilir. Buraya qədər deyilənlərdən aydın olur ki, dil faktı olan cümlə kommunikasiya prosesi zamanı nitq vahidi söyləm kimi çıxış edir. Bu isə digər qrammatik vasitələrlə bərabər, həm də intonasiya vasitəsilə həyata keçirilir. Düzgün seçilmiş söz və ifadələr sənədi sanki canlandırır, onun kommunikativ vahid kimi formalaşmasına xidmət edir. Müasir təşkilatlarda yayılmış sənəd nümunələrindən ən çox yayılanlardan biri də protokollardır. Protokollar da əksər sənədlər kimi obrazlı, emosional yazılmamalı, xüsusi tərtibat qaydalarına tabe olmalıdır. Müasir ingilis dilində də Azərbaycan dilində olduğu kimi protokolların dil xüsusiyyətlərinə nəzər salarkən fellərin məchul növdə yazıldığını görmək mümükündür.Beynəlxalq işgüzar yazılar zamanı cümlənin struktur-intonasiya təhlilində sözlərin cümlə konturunda tutduqları mövqelərlə məna çəkiləri arasındakı qarşılıqlı asılılıqları nəzərə almaq lazımdır.Müxtəlif semantik sıçrayışlar kommunikativ cəhətdən müxtəlif tipik quruluşa malik cümlələr işgüzar yazışmalar zamanı vacib amillərdəndir. Bu da işgüzar yazışmalarda dildən istifadənin müxtəlif forma və növlərini şərtləndirir. Onlar cümlənin əvvəlində, ortasında gələrək, özlərinə məxsus rəngarəngliyə malik olurlar.Sözü gedən məsələnin ciddi şəkildə tədqiq edilmədiyini qeyd etməklə bərabər, onu da qeyd etmək lazımdır ki, hətta xüsusi, ixtisas-yönümlü akademik mətnlərin təhlilini apararkən nəticələr çıxarılmalıdırır[3,s.19]. Bu gün müasir təşkilatlarda işgüzar yazışmaların müxtəlif növlərindən istifadə olunur ki, onlardan ən çox istifadə olunanı məktublardır.

Məktublar yazılarkən kifayət qədər diqqətli olmaq tələb olunur. Belə ki, xırda bir səhv anlaşılmazlığa, münaqişələrə təkan verə bilər. Məktublarda DÜST olmalıdır. Bu yazılarda arxaik və köhnəlmiş sözlər uzun müddət qorunur. İşgüzar məktubların dil xüsusiyyətlərindən bəhs edərkən reklam məktubları da maraq kəsb edir. Bu za-

man üslub tərtibatı mühüm əhəmiyyət kəsb edir. Reklam məktubu tərtibat edilərkən şrift 13, sətirlərarası intervalın həcmi isə 1,5-dən kiçik olmamalıdır. Bu zaman müvafiq qaydalara riayət olunması vacibdir. Belə ki, reklam məktubunda adətən təklif olunan əmtəə və xidmətlər haqqında məlumat verildiyindən, o müəyyən sxem üzrə tərtib edilir:

Adresata müraciət.

Məsələn, "Hörmətli cənablar!"və yaxud "Hörmətli əməkdaşlar!"

Maraqlı burasıdır ki, reklam məktubunun tərtibində xitablar dil faktı kimi öndə gedir.

Yuxarıda qeyd etdiyimiz "Hörmətli cənablar!"və yaxud "Hörmətli əməkdaşlar!"

ifadələri buna misaldır.

2. Şirkətin qısa və lakonik təqdimatı.

3. Əmtəə və xidmətlərin meyarlarının qarşı tərəfə bildirilməsi

4.Əlavə və buna bağlı şərtlər barədə məlumat verilməsi

Daha sonra isə əməkdaşlığın konkret təsviri verilir.

Topdan və pərakəndə satış haqqında təkliflər bu sırada yer alır.

Lazım olarsa mallardan bir nüsxənin qarşı tərəfə ötürülməsi də bu sıralamaya aiddir.

Eyni zamanda suallara cavab üçün hazırlıqlı olmaq da vacib şərtlərdəndir.

Gələcək əməkdaşlığa ümid bəsləmək və bunu ifadə etmək də işin faydalı tərəfi ola bilər. Daha sonra imzalar atılır. Qloballaşan dünyada müxtəlif ölkələr arasında çoxsahəli əlaqələrin inkişaf etdirilməsi dövründə işgüzar yazışmalar sahəsinin genişləndirilməsi və inkişaf etdirilməsi müşahidə edilir. Bu məsələyə artmaqda olan ehtiyac və tələbatları nəzərə alaraq onun daha ciddi elmi əsaslar üzərində qurulması məsələsi meydana çıxır. Bu da dilin müxtəlif aspektlərinin təhlilini beynəlxalq aləmin ehtiyac və tələbatlarına daha çox uyğunlaşdırılmasını tələb edir.Hər hansı ESP kursunu təşkil edərkən, bu zaman işgüzar yazışmaların da akademik və qeyri-akademik situasiyalarda istifadə edilən dil xüsusiyyətlərinin öyrədilməli olduğunu nəzərə almaq lazımdır. Bununla əlaqədar olaraq, ayrı-ayrı sahələrdə məhz bu sahəyə aid olan, yəni bu sahədə fəaliyyət göstərən mütəxəssislərin rast gələ biləcəyi həm akademik, həm də adi, universal situasiyalar müəyyənləşdirilməli, həmin situasiyaların linqvistik cəhətdən təhlil edilməlidir. Aparılan tədqiqatlar və təcrübə onu göstərir ki, işgüzar yazışmalar prosesində fəal şəkildə iştirak edən şəxslər nəticə etibarilə daha yüksək nailiyyətlər əldə edirlər. Kadrların fəallığı prosesin səmərəliliyini təmin edən əsas şərtlərdən biridir.

İşgüzar yazışmalardan danışarkən, burada aşağıdakı əsas mərhələlər göstərilməlidir:

hazırlıq mərhələsi;

fəaliyyətin yerinə yetirilməsi;

icra edilmiş hərəkətlərin təhlili;

müsbət və mənfi cəhətlərin aydınlaşdırılması;

catışmazlıqların aradan qaldırılması və iş prosesinin səmərələşdirilməsi istiqamətində atılacaq addımların müəyyənləşdirilməsi.

Burada əsas göstəricilərindən biri informasiyanın ötürülməsi deyil, onları tətbiq etmək, yəni sənədlərə aid biliklərin mənimsənilməsi, bu sahədə vərdiş və bacarıqlara yiyələnmə yollarını aşılamaqdır. Müasir kontekstdə rəhbər-işçi münasibətlərindən danışarkən onların partnyorluq, konstruktiv əməkdaşlıq əsasında qurulmasının vacibliyini xüsusilə vurğulamaq lazımdır.Əhali, rəhbər, işçi arasında qarşılıqlı hörmət, əməkdaşlıq və iştirakçı olan tərəflərin sənədləşdirmə prosesinə məsuliyyətlə yanaşmaları və həmin prosesin nəticələrinə görə özlərinin şəxsi məsuliyyətlərinin dərk etmələri kargüzarlıq işlərinin öyrənilməsi prosesinin səmərəliliyini təmin edən əsas şərtlərdəndir.

Müasir kargüzarlıqda işçiyə xas olan aşağıdakı rollar göstərilir:

təlimatçı
informasiyanı otürən
məlumat verən
öyrədən
Planlaşdıran
təşkilatçı
həvəsləndirən
qiymətləndirən
Partnyor
həmkar
nümunə
istiqamətləndirən
yardım edən
söz sahibi
nəzarətçi
Sənədləşdirmə prosesini idarə edən
Sənədlərin tərtibatçısı.

Onu da qeyd etmək lazımdır ki, sənədləşdirmə işləri vaxtında, səliqəli, mərhələli şəkildə həyata keçirilməlidir.

Burada irəli sürülən məqsədlər və sənədlərin dili də müxtəlifdir.

Lakin hər hansı kontekstdə olursa olsun məqsədləri müəyyənləşdirərkən, biz hansı keyfiyyətlərin aşılanmasının prioritet olduğu haqda qərar qəbul etməliyik. Belə ki, bu və ya digər məkanda mövcud olan ümumi strategiyalardan asılı olaraq, əsas məqsədlər müxtəlif ola bilər:

- Tənqidi təfəkkür qabiliyyətinə malik olan kadrların hazırlanması;
- Kargüzarlıq işini mükəmməl bilən insanların hazırlanması;
- Zehni inkişaf səviyyəsi yüksək olan, cəmiyyətin dəyərli, layiqli üzvləri olan yüksək səviyyəli mütəxəssislərin hazırlanması

İşgüzar yazışmalar sahəsini tədqiq edən alimlər belə qənaətə gəliblər ki, işgüzar yazışmalar sahəsi ingilis dilinin xüsusi variantları kimi başa düşülməməlidir.

Əslində bu heç də hər hansı xüsusi dil formaları deyil.

Səciyyəvi, yalnız bu və ya digər sahəyə aid olan, kadrların müəyyən kontekstdə ixtisas-yönümlü situasiyalarda rast gələ biləcəyi xüsusiyyətlərin mövcudluğu danılmazdır. Onu da qeyd etmək lazımdır ki, prinsiplər bu və ya digər kontekstdə irəli sürülən məqsədlərdən və eləcə də işgüzar yazışmaların dil xüsusiyyətlərindən istifadə etməklə tələbat və ehtiyaclardan asılı olaraq, müxtəlif istiqamətlərdə təşkil edilməsini nəzərdə tutur.Burada kadrların aşağıdakı sualları necə cavablandırdıqlarından asılı olaraq, iş prosesinin nə dərəcədə səmərəli olduğunu müəyyənləşdirmək mümkündür. Birinci sual sənədləşdirmə prosesini təşkil edərkən işçinin qabiliyyəti, onun bilik və bacarıqlarının verdiyi imkanlardan tam şəkildə istifadə edilib-edilməməsi ilə bilavasitə bağlıdır.İkinci sual onun özünün peşə fəaliyyəti haqqında düşünüb-düşünməməsi ilə əlaqədardır. Növbəti sualı cavablandırarkən ümumiyyətlə kargüzarlıq, daha dəqiq desək, sənədləşdirmə sahəsində innovasiyalar haqqında məlumatlı olub-olmadığını nümayiş etdirməlidir. Müasir vasitələr dünya kargüzarlıq sahəsindəki innovasiyaları əlçatan edir.Sənədlərin dil xüsusiyyətlərinin araşdırılmasına yönəldilmiş yanaşmanın əsasında duran ideya ondan ibarətdir ki, təhlil edərkən burada əsas məsələ mənanın dərk edilməsini təmin edən əsaslandırma və şərh etmə proseslərdir.Bu da onu deməyə əsas verir ki, işgüzar yazışmalar zamanı əsas diqqəti dilin üst sətində olan linqvistik formalara deyil, həmin formaların adekvat şəkildə dərk edilməsini mümkün şərhetmə strategiyalarının təhlili istiqamətinə yönəltmək lazımdır.Şərh edilən sənədin növünün müəyyənləşdirilməsi, yeni sözlərin mənalarının kontekst vasitəsilə müəyyənləşdirilməsi, ana dili və beynəlxalq, hədəf dildə oxşar sözlərin vasitəsilə onların mənalarının başa düşülməsi şərhetmə strategiyaları siyahısına daxil edilə bilər. Bu zaman üslubi təhlilin aparılması nəzərdə tutulmur. Tədqiqatçıların fikrincə, işgüzar yazışmalar universal xarakter daşıyır[2,s.56]. Eyni zamanda akademik hesab edilən dil strukturları da universal xarakterə malik olur.Qeyd olunduğu kimi, yazı strategiyalarının seçilməsinə gəldikdə, bu sahədə istifadə edilən materiallar əsasən işgüzar yazı strategiyalarının aşılanmasına yönəldilir. Burada əsas məqsəd yazılı mətnləri şərh etmək, yeni leksik vahidlərin kontekstual mənalarını başa düşmək, sənəddəki olan əsas ideyanı, mənanı adekvat şəkildə qavramaq və digər bacarıqları formalaşdıra bilməkdir [3,s.78]. Linqvistik xüsusiyyətlərin təhlili kargüzarlığın ayrı-ayrı sahələri üçün proqramların yazılması və proqramlar əsasında sözü gedən prosesin səmərəliləşdirilməsinə yönəldilmiş müvafiq yazı strategiyalarının işlənib-hazırlanması üçün şərait yaradır[2,s.43]. Əsas məqsədlərdən biri beynəlxalq sahədə istifadə edilən ingilis dilinə xas olan dil və nitq strukturlarının müəyyənləşdirilməsi və məhz dil vahidlərinə üstünlüyün verilməsidir.

Ədəbiyyat

Bloomfield J. Language, New York: George Allen, Unwin LTD, 1933, 553 p.
Ewer, J.R. Hughes-Davies, E. "Further notes on Developing an English Programme for Students of Science and Technology" in Swalls (ed., 1985), pp.34-45
Firth J.R. Papers in Linguistics. London: Oxford, 1957, 189 p.

T. ZEYNALOVA

THE LINGUISTIC BASIS OF INTERNATIONAL BUSINESS WRITINGS
(on the basis of English materials)
Summary

The article deals with the linguistic characteristics of international business writings. In communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process. While analyzing great attention was given to the facts taken from the literature. One of the important goals of the article is to detect and find out the reasons of literature. The author emphasizes its role. Since its emergence this notion caught the attention. New researches appeared. It is noted that this gives us more power to understand the process clearly. Many times, your material will dictate the pattern you use; but, unless the pattern is suited to your purpose and audience, do not hesitate to try another one. Try to choose a pattern that permits you to move from the familiar to the unfamiliar or from the simple to the complex. After you have chosen a specific subject heading, identified your main and supporting points, and selected an appropriate organizational pattern, your next step is to outline your material in the framework as it will appear in your letter, book report, research paper, etc. Even exceptional writers need an outline for their ideas to appear as if they were naturally arranged from the beginning of the message or report to the end. Thus, this blueprint is a time-saver rather than a time-waster.

If you plan to write a short letter, message, or report, your list of main points may be all you need. Even so, you will find it helpful to arrange them according to their order of importance. Which idea or ideas will you use in the main part of your discussion? Which will you use at the end? As a minimum, write down your main points in some kind of orderly arrangement before you begin to write. For longer papers and reports, you will find a detailed outline is usually a better aid in organizing your material. Even though developing the outline can be a difficult process, it forces you to align your main and supporting ideas in logical order before you begin writing. Otherwise, distractions of all kinds can confuse you and make your writing job much more difficult than it should. At that time we use the language more competently. Moreover, each text is unique in regard of the structure of the text, its genre, vocabulary, and language.

Key words : strategy, oral speech, language, context, writing

Т. ЗЕЙНАЛОВА

ЛИНГВИСТИЧЕСКИЕ ОСНОВЫ МЕЖДУНАРОДНЫХ РАБОЧИХ ПИСЕМ
(на основе материалов английского языка)
РЕЗЮМЕ

В данной статье рассматриваются вопросы лингвистические характеристики международных рабочих писем. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами. Говоря о знаниях кадров должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов. Учителя языка должны знать, как язык функционирует в процессе речевой коммуникации, и как успешно использовать его, чтобы быть понятыми как носителями языка, так и людьми, которые таковыми не являются. Комплексный подход к использованию материалов в значительной степени содействует повышению уровню учебников. С другой стороны, на другом уровне существует коммуникативная потребность обучаемого как индивидуума, т.е. индивидуальная потребность в речевой коммуникации. Эта внутренняя потребность является субъективной. Основной движущей силой, основным мотивом, лежащим в основе всего процесса обучения иностранному языку и его изучения , несомненно , является интерес, любознательность со стороны изучающих язык. Для того, чтобы система обучения тому или иному

иностранному языку наиболее целесообразным образом содействовала успешному обучению языкам и их усвоению, следует непременно дифференцированно подходить к наличию у людей интереса к обучению и межличностным контактам, потребности в обмене информацией и мыслями. Также существуют личные интересы и потребность делиться знаниями и культурой с другими людьми , а также потребность в самореализации. Относительно коммуникативного подхода к обучению иностранному языку, многие авторы поддерживают идею, согласно которой коммуникативные потребности как внутренние осознанные потребности, требуют самого серьезного рассмотрения. В подобном контексте весьма существенным является подлинность используемых в процессе обучения языка текстовых материалов. К примеру, в действительности сегодня практически в любом обществе существует потребность в знании языков. Роль и задачи обучения, в частности, домашнему чтению как в существующей системе образования , так однако практически в любом контексте существует потребность в знании получении информации и в коммуникативной компетентности людей, изучающих те или иные иностранные языки. Прежде всего, учителя должны быть сами компетентны в этой области. Они должны быть чувствительными в лингвистическом отношении и коммуникативно компетентными. Далее, современные учителя иностранного языка должны уметь видеть себя глазами других и быть готовы считаться с тем, как они их видят. Также они должны быть готовы к экспериментам, должны быть готовы и способны делиться опытом и эмоциями с носителями других культур и своими студентами; должны находиться в постоянном поиске того, какими средствами современные языки могут содействовать пониманию на глобальном уровне. Учителя не должны ограничиваться передачей знаний своим студентам и сообщением тех или иных данных, они должны уметь организовать занятия таким образом, чтобы студенты были вовлечены в процесс обсуждения, дискуссий в качестве активных, инициативных участников.

Ключевые слова: стратегия, устная речь, язык, контекст, письмо

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 04.02.2021
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

SEVİNC NAMƏTOVA
ADU
Rəşid Behbudov 134
e-mail:mahmudovasevinc828@gmail.com

İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YAZI BACARIQLARININ FORMALAŞDIRILMASININ SƏMƏRƏLİ YOLLARI

XÜLASƏ

Məlum olduğu kimi, hər hansı dilin, o cümlədən ingilis dilinin şifahi və yazılı formaları keyfiyyət baxımından biri-birindən əhəmiyyətli dərəcədə fərqlənir. Mövcud fərqlər dilin müxtəlif səviyyələrində özünü büruzə verə bilər.

Tələbələr səs və səs birləşmələrini, leksik vahidlərin mənalarını bilavasitə dekodlaşdıraraq əldə olunmuş məlumatı və dərk olunmuş mənaları yenidən kodlaşdıraraq, onları şifahi və yaxud yazılı nitq vasitəsilə başqalarına çatdırır. Xarici dildə informasiyanı adekvat şəkildə qəbul etmək bacarığını tələbələrdə inkişaf etdirmək, onlara müvafiq linqvistik və ekstralinqvistik biliklərin, eləcə də leksik, qrammatik və tələffüz vərdişlərinin sistemli, mərhələli şəkildə aşılanması ixtisas dilində təlimin ayrılmaz tərkib hissəsini təşkil etməlidir. Alimlərin fikrincə, hazırlıqlı, müəyyən dərəcədə professional hesab edilə bilən dinləyici üç növ məlumat əldə etmiş olur. Birinci, səs və səs birləşmələri ilə əlaqəli olan məlumat. Güman edilir ki, dil fakültələrində təhsil alan tələbələr artıq bu növ məlumata yiyələnmişlər. Burada əsas diqqət tələbələrə tələffüz vərdişlərinin lazımi səviyyədə aşılanmasına yönəldilməlidir. İkinci növ məlumat dilin qrammatik strukturlarının daşıdığı sintaktik məlumatdır. Ana dilində müvafiq qrammatik vərdişlərə yiyələnmiş tələbələr bu sahədə əldə edilmiş bilikləri xarici dildə tətbiq edirlər. Seçilmiş mətndə olan semantik informasiyanı adekvat şəkildə qəbul etmək məqsədilə mətni dinləyən tələbə həm linqvistik, həm də kulturoloji xarakterli mənanı adekvat şəkildə qavramaq bacarığına malik olmalıdır. İngilis dilini professional məqsədlərlə öyrənən tələbələrin dil daşıyıcılarının mədəniyyəti, onların yaşadığı məkanda qəbul edilmiş ünsiyyət tərzləri, milli xarakteri, mentaliteti, verbal və qeyri-verbal davranış normaları haqqında məlumatlandırılması müasir metodikanın ən aktual və olduqca vacib problemlərindən biridir. İxtisası xarici dil olan ali məktəblərdə ingilis dilini öyrənən tələbələr yalnız sözlər və qrammatik strukturlarda olan mənaları deyil, həm də mətndə olan və ingilislər tərəfindən "behind the message" adlandırılan sətirlərarası mənanı başa düşmək və sonradan özləri sərbəst və yazılı şəkildə mətn yaratmaq bacarığına yiyələnməlidirlər.

Açar sözlər: yazı, strategiya,kontekst, ünsiyyət, dil

Qloballaşma dövründə ingilis dilində yazının təlimindən danışarkən, tələbələrin öyrədilməsi deyil, daha çox tələbələri ixtisas dilində yazı prosesinə cəlb etməklə, onların yazı vərdişlərinin inteqrativ şəkildə, yəni şifahi nitq, oxu və eşidib- anlama vərdişləri ilə eyni zamanda inkişaf etdirilməsini nəzərdə tutulur. Bu isə xarici dillərin tədrisi metodikasında qəbul edilmiş və xarici dillərin, o cümlədən ingilis dilinin təlimi prosesinin səmərəliləşdirilməsini təmin edən "learning by doing", yəni hər hansı hərəkəti icra etməklə öyrənmək prinsipinin məqsədyönlü, sistemli, mərhələli şəkildə təşkil edilməsini nəzərdə tutur[4,89]. Eyni zamanda, qeyd edilməlidir ki, deyilənlər yalnız xarici dilin aspektləri olan leksika, qrammatika və fonetikanın öyrədib-öyrənilməsi və eləcə də müvafiq dil və nitq vərdişlərinin tələbələrə aşılanması deyil, həmçinin 4 əsas nitq fəaliyyəti növləri olan şifahi nitq, eşidib-anlama, yazı və oxunun ana dilində tədrisinə aid edilməlidir. Dil fakültələrində təhsil alan tələbələrə müvafiq vərdiş, bacarıq və qabiliyyətlərin aşılanması, inkişaf etdirilməsi və təkmilləşdirilməsi tələbələrin müvafiq fəaliyyət növlərinə fəal, təşəbbüskar, məqsədyönlü iştirakının təmin edilməsi yolu ilə həyata keçirilməlidir. Xarici dildə danışıq vərdişlərinə həmin dildə danışmadan, yazı vərdişlərinə yazı fəaliyyətinə cəlb olunmadan, oxu vərdişlərinə oxumadan və nəhayət eşidib-anlama vərdişlərinə öyrənilən dildə müxtəlif xarakterli mətnlərə, monoloq və dialoqlara sistemli şəkildə qulaq asmadan yiyələnmək qeyri-mümkündür . İxtisas dili olan xarici dil tədrisinin ilkin mərhələsində yazının təliminin əsas məqsədi tələbələrə ən elementar səviyyədə leksik vərdişlərin aşılanmasıdır. Proqramda nəzərdə tutulmuş linqvistik vahidləri kontekst daxilində təqdim etməklə mənimsənilmiş biliklərin möhkəmləndirilməsi istiqamətində işin aparılması, interaktiv təlim üsullarının həyata keçirilməsini təmin edir[3,90].İxtisas dili olan xarici dildə leksikanın tədrisinin əsas məsələlərindən biri yazılı mətnlərin seçilməsidir. Yazı materialları müəyyən prinsiplərə əsaslanaraq seçilməlidir. Xarici dildə, o cümlədən, ingilis dilində yazı materiallarının seçimini şərtləndirən əsas prinsiplərdən biri onların dil fakültələrində təhsil alan tələbələr üçün maraqlı olması, dinləyicilərin ehtiyac və tələbatlarını nəzərə almaqla seçilməsi, tələbələrin yaş səviyyələri, intellektual, bilik səviyyələrinə uyğun olmasıdır. Yazının səmərəli təlimi məqsədilə istifadə edilən mətnlər dil fakültələri tələbələrində motivasiyanın yaradılmasına xidmət etməli, onları ingilis dilini öyrənməyə həvəsləndirməlidir . Dil fakültələrində leksikanın tədrisi prosesində istifadə edilən materiallar ixtisası dil olan fakültələrdə təhsil alan tələbələrin leksik və qrammatik potensialını zənginləşdirmək imkanları baxımından əhəmiyyət kəsb etməlidir. İxtisas fakültələrində, xüsusilə də aşağı kurslarda ingilis dilində tələbələrə təqdim edilən leksik materiallar müxtəlif xarakterli, rəngarəng olmalı, dildaşıyıcılarının mədəniyyəti, təfəkkürü, onların yaşadıqları cəmiyyətdə qəbul edilmiş müxtılif ünsiyyət tərzləri haqqında tələbələri məlumatlandırmalıdır. Tələbələrə həm rəsmi, həm də qeyri-rəsmi formatda olan mətnlərin təqdim olunması tövsiyə edilir. İngilis dilini ixtisas kimi öyrənən tələbələrə müxtəlif janrlara aid olan, üslubi baxımdan fərqli olan mətnlərin təqdim edilməsi xüsusilə vacibdir. Belə ki, ixtisası dil olan fakültələrdə təhsil alan tələbələr hekayə, roman,

qəzet məqaləsi, jurnal məqaləsi, elan, reklam, poemaları dinləyib, onları adekvat şəkildə qavramağı, dildaşıyıcılarının istifadə etdiyi nitq modellərindən adekvat şəkildə istifadə etmək, və onların əsasında özlərinin mətnlərini yaratmaq bacarığına yiyələnməlidirlər[2,45]. Tələbələr üçün onların fəaliyyətinə müəllim və yoldaşları tərəfindən verilən qiymət olduqca böyük əhəmiyyət kəsb edir və onların gələcək fəaliyyətlərinə böyük təsir göstərir. Onların həyata keçirdiyi fəaliyyət və əldə etdikləri nəticələr müəllim və yoldaşları tərəfindən maraqla qarşılanarsa, bu tələbələrin bu istiqamətdə səylərini artırmaqlarına səbəb olur. Fərdi yazıya gəldikdə, burada qiymətləndirmə yazılı surətdə təqdim edilmiş məruzələr, raportların əsasında həyata keçirilə bilər. Digər sahələrdə olduğu kimi, tələbələrin yazıda leksik vərdişlərinin yoxlanılması və qiymətləndirilməsi tam obyektiv şəkildə olmalıdır. Bu yazı təlimi prosesinin səmərəliliyini şərtləndirən əsas amillərdən biridir. Yazılı məlumatların təqdim edilməsi ilə barəbər tələbələr tərəfindən şifahi məruzə və raportların verilməsi də tövsiyə edilə bilər. Əhəmiyyətlisi odur ki, tələbələrin hazırladıqları çıxışlar kifayət qədər qısa, həm müəllim, həm də digər auditoriya iştirakçıları üçün maraqlı olsun.

Xarici dili professional məqsədlərlə öyrənən tələbələr diskursun necə təşkil edilməsi haqqında məlumatlı olmalı və mətnləri olduğu kimi deyil, onları məna kəsb edən parçaların məcmusu kimi yazmağı bacarmalıdır. Tələbələrə mətnlərin ayrı-ayrı parçalarını dinləmək deyil, mətni bir bütöv kimi qavramaq bacarığı aşılanmalı və məzmunu adekvat şəkildə başa düşülməlidir [1,56].

Müvafiq olaraq, hər bir təlim kontekstində ingilis dilində yazını tədris edən müəllimin qarşısında duran əsas vəzifələrdən biri lüğətin rolunu və yerini müəyyənləşdirməkdir. Əsas məqsəd tədris edilən xarici dildə yazının səmərəli şəkildə təşkili, lüğətdən sui-istifadə hallarına yol verilməməsidir. Yazının təlimi prosesində sözlərin başa düşülməsi və bütövlükdə məzmunun qavranılmasını təmin etmək məqsədilə aşağıdakı tapşırıqların tələbələrə təqdim edilməsi tövsiyə edilə bilər. Yazı prosesində yerinə yetirilən tapşırıqlar tələbələrin diqqətini ixtisas dilində olan mətnin xüsusiyyətləri üzərində cəmləşdirmək məqsədinə yönəldilir. Bu mərhələdə yerinə yetirilən tapşırıqlar dil fakültələrində təhsil alan tələbələr üçün xüsusi əhəmiyyət kəsb edir və onlarda ixtisas dilində yazı qabiliyyətinin keyfiyyətcə yüksək səviyyədə formalaşdırılması məqsədini güdür.

Leksik vərdişlərin aşılanması prosesində yerinə yetirilən tapşırıqların əsas məqsədi həmin prosesin səmərəliləşdirilməsi və daha yüksək nəticələrin əldə edilməsidir. Leksik vərdişlərin tam mənimsənilməsi tədrisin hər bir mərhələsinin xüsusiyyətlərinin, nitq fəaliyyətinin struktur səviyyələrinin, dil və nitq bacarıqlarının formalaşdırılmasındakı rolunun nəzərə alınması əsasında həyata keçirilir[5,67].

Beləliklə, yazı tələbələrin produktiv lüğətinin zənginləşdirilməsi üçün müvafiq şəraiti yaradır. Müəllimin vəzifəsi isə əsas məna daşıyan, gələcəkdə kommunikasiya prosesində yaradıcı şəkildə istifadə edilməsi üçün vacib olan "açar" sözlərin, tələbələrin diqqətini cəlb edərək onlara xüsusi əhəmiyyət verilməsini tövsiyə etməkdir.

Beləliklə, tələbələr tərəfindən edilən tipik səhvlərlərə aşağıdakı cümlələri misal gətirmək olar:

• Unfortunaely, his dominating attitude had meant that she had possibly done (made) an even worse mistake.

• Then make (do) something. Get a pardon for him. You have the facts, you're a journalist make (do) something.

• I was trying to be casual, not to do (to make) a sound that I was desperute.

• The surprise of the attack did (made) it very effective.

Yazıda leksik xətalardan bəhs edərkən onlardan ən çox rast gəlinənləri aşağıdakılardır:

1.“ mis-selecton “(düzgün olmayan söz seçimi),

2. “mis-formation” (düzgün olmayan quruluş)

3.” distortion “(təhrif) adı altında qruplaşdırılır.

Leksikada semantik səhvlərin işlənməsinə gəlincə isə buraya onların iki əsas tipini daxil etmək olar:

1.“confusion of sense relatons”(qarışıq məna əlaqələri)

2.“collacotional errors”.(səhv söz birləşmələri)

Ümumilikdə, leksik səhvləri aşağıdakı növlərə ayırırlar:

1.interlingual(dillərarası)

2.intralingual (dildaxili)

3.konseptual(konseptual)

İnterlingual Errors (Dillərarası Səhvlər)

Calques(kalqlar)

Adaptation of words from L 1 to L2 (Sözlərin L1-dən L2-yə adaptasiyası)

Unnecessary borrowings (lazımsız alınmalar)

İntralingual Errors (Dildaxili Səhvlər)

1.Erroneous collocation (səhv söz birləşmələri)

2.Coinages (neologizmlər)

3.Omission of part of words (sözlərin hissəsinin düşməsi)

4.Misformation of words (sözlərin düzgün olmayan quruluşu)

5.Misordering of words (sözlərin düzgün olmayan düzülüşü)

Conceptual Errors (Konseptual Səhvlər)

Use of a word due to confusion over meaning(Mənanın təhrif edilməsinə yönəlmiş sözün istifadəsi)

Error due to confusion of form(Formanın təhrifinə yönəlmiş sözün istifadəsi)

Use of a general word instead of a specific word (xüsusi sözün yerinə ümumi sözün istifadə edilməsi)

Wrong near- synonym (səhv yaxınmənalı sinonim)[5,56].

Problemi tədqiq edən müəlliflərin fikrincə, sözlərin seçilməsində aparıcı meyar onların semantik baxımdan əhəmiyyətli olmasıdır. Məhz semantik cəhətdən əhə-

miyyətli olan sözlərin mənimsənilməsi yazı prosesində məzmunun, əsas ideyanın tələbələr tərəfindən anlaşılmasını təmin edir. Mənimsənilməli olan sözlərin seçilməsi zamanı semantik cəhətdən əhəmiyyətli olan sözlərə üstünlük verilməlidir. Burada söhbət tələbələr üçün əhəmiyyətli olan sözlərdən getməlidir. Məhz tələbələrin ehtiyac və tələbatları, marağı səviyyəsinə uyğun olan sözlərə üstünlük verilməsi prinsipi mənimsənilməli olan sözlərin seçilməsində əsas meyar kimi götürülməlidir.

Daha dəqiq desək, yeni leksik vahidlər tələbələrə təqdim edilməli, onlar isə həmin leksik vahidləri mənimsəməlidirlər. Müəllimin vəzifəsi yeni sözlərin hansı yollarla tələbələrə təqdim edilməsini müəyyənləşdirməkdən ibarətdir. Xarici dil tədrisinin mərhələsindən asılı olaraq, yeni lüğət vahidlərinin tələbələrə təqdim edilməsi yolları fərqli olmalıdır. Tələbənin bilik səviyyəsinin nəzərə alınması təlim prosesinin səmərəliliyini şərtləndirən əsas amillərdəndir.

Yazının təlimi prosesində yeni sözlərin tələbələr tərəfindən başa düşülməsi və mənimsənilməsi məsələsini araşdırarkən burada tərcümənin rolu və yerini, onun kəsb etdiyi əhəmiyyəti xüsusilə vurğulamaq lazımdır. Eyni zamanda tərcümədən istifadə etmə probleminin mübahisəli olduğunu, metodist-alim, tədqiqatçılar və dili tədris edən müəllimlər tərəfindən birmənalı qaydada qəbul edilmədiyi qeyd edilməlidir. Yazı zamanı naməlum sözlərin mənalarının açılmasının ən cəld və eyni zamanda ən sadə yolu tərcümədir, yəni lüğət vasitəsilə tələbələrin ana dilində olan ekvivalentlərinin tapılmasıdır. Tədrisin ilkin mərhələsində ayrı-ayrı sözlərin, adətən mətndə olan açar sözlərin mənalarının ikidilli lüğət vasitəsilə tapılması tövsiyə edilə bilər. Tədrisin orta və yuxarı mərhələsində tərcüməyə fövqəladə hallarda müraciət edilməli, sözlərin mənaları əsasən kontekst vasitəsilə tapılmalıdır. Tədqiqat müəllifləri qeyd edirlər ki, ana dillərində ekvivalentləri olmayan hər hansı yeni məfhumları bildirən sözlərin məhz kontekst daxilində mənimsənilməsi mümkündür. Produktiv məqsədlərlə, yəni yaradıcı nitq prosesində istifadə edilməli olan sözlər xüsusi şəkildə göstərilməlidir. Leksik vahidlər bəzən ikinci dildə xətaların mənbəyinə çevrilirlər. Bu xətalar çox zaman "omission of part of words "(sözlərin hissəsinin düşməsi) ilə xarakterizə olunur. İxtisası dil olan fakültələrdə ingilis dilində yazının tədrisi üçün istifadə edilən təlim materialları mövcud tələblərə cavab verən müəyyən meyarlara uyğun olmalıdır. İxtisas dilinin tədrisi mərhələsinə müvafiq olaraq, yazının interaktiv üsullarla həyata keçirilməsi dil fakültələri tələbələrinin lüğət ehtiyatının zənginləşdirilməsi, qrammatik kompetensiyanın inkişaf etdirilməsi, mənimsənilmiş linqvistik vahidlərin real kommunikasiya prosesində adekvat şəkildə istifadə etmək qabiliyyətinin inkişaf etdirilməsinə xidmət etməlidir.

Yazı vərdişlərinin təkmilləşdirilməsi məqsədilə seçilmiş müxtəlif xarakterli materiallar mədəniyyəti, dildaşıyıcılarının milli xarakteri haqqında biliklərin əldə edilməsinə motivasiya yaratmaq və yazının təlimi prosesində müvafiq vərdişlərin ingilis dilində linqvistik cəhətdən savadlı olan dil daşıyıcılarının səviyyəsində mənimsənilməsini nəzərdə tutur. İngilis dilini tədris edən müəllim və bu dili ixtisas kimi öyrənən tələbələrin qarşısında mənimsəməni vəzifə kimi qoymaq və irəli sürülən məq-

sədlərə nail olmaq istiqamətində həyata keçirilən fəaliyyəti səmərəli şəkildə qurmaq vacib şərtlərdəndir. Dil fakültələrinin aşağı kurs tələbələrində ixtisas dilində yazı vərdişlərinin təkmilləşdirilməsi prosesi məqsədyönlü, sistemli, mərhələli şəkildə həyata keçirilməli, asandan çətinə, sadədən mürəkkəbə doğru yönəlməlidir.

ƏDƏBİYYAT

1.Besse H. The Pedagogic Authenticity of a Text / The Teaching of Listening comprehension, ELT Document Special. London: The British Council, 1981, p. 20-29

2.Brown H.D. Principles of language learning and teaching. Longman Publication, 2000, 352 p.

3. James , C.(1998).Errors in language learning and use. London: Longman

4.Johnson, K. 1988. "Mistake Correctio; ELT Journal, 42, 2 89-96.

5.Ferris D.R.(2003) . Response to student writing: Implications for second language students. Mahwah, NJ: Lawrence Erlbaum Associates.

S. NAMATOVA

THE EFFECTIVE WAYS OF DEVELOPING WRITING SKILLS IN ELT

SUMMARY

This article deals with writing and written speech. The author emphasizes the role of writing. Referring to the works of scientists that have been researched in this field she emphasizes that since its emergence the writing caught the attention and new researches appeared. It is noted that this gives us more power to understand the communication process clearly and use the language more competently.

Writing and written speech does not only act as a means of instruction in the methods of teaching but also as the aim of teaching foreign languages.

A letter is a constituent part of the written speech. In the application of creative writing at the lessons three main principles: the aim of the lesson, its principles, the methods and ways and also control on the instruction should not be forgotten.

Most writing or speaking falls under one or a combination of three general purposes: to direct, to inform, or to persuade. You should not find it difficult to determine the primary purpose your communication must fulfill. Main ideas and facts represent major divisions or points you expect to develop in the course of your writing. When you weigh them against other facts and ideas, they seem to stand out and appear equally important. They are so vital to your purpose that omission of one or the other would leave you with an unbalanced communicationIdentification of your main and supporting ideas should enable you to establish priorities in the order in which you will develop your communication. That is, you can determine which point will

come first and which will come second, third, and so forth, as you lead your readers step-by-step through your message. This “list” of main and supporting ideas may be very short if your communication is simple, or quite long if you are doing a detailed report.Once you decide the purpose, you will know where to place the emphasis. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words : writing, strategy, context, communication, language

С. НАМАТОВА

ЕФФЕКТИВНЫЕ ПУТИ ФОРМИРОВАНИЯ ПИСЬМЕННОЙ РЕЧИ НА ПРЕПОДАВАНИИ АНГЛИЙСКОГО ЯЗЫКА

РЕЗЮМЕ

В статье речь идёт о письме и письменной речи в обучении иностранному языку.

Автор пытается раскрыть роль писем. Она ссылаясь на работы ученых исследовавших эту область методики, а также подчеркивает ее важность. Отмечается, что эта дает воспоминать смысл текстов во время анализа еще более ясно, а также использовать язык в еще более разнообразном колорите. Письмо и письменная речь в методике обучения иностранному языку выступают не только как средство обучения, но все более как цель обучения иностранному языку. Письмо-это технический компонент письменной речи. Не следует забывать три важнейших условия при введения на занятиях креативного письма: цели обучения, принципы, методы и приемы обучения, а также учебной контроль. Сегодня в нашей стране существует настоятельная потребность в изучении иностранных языков. Внедрение новых идей в практику преподавания очень важно и актуально в нашей ситуации, так как владение языком сегодня является одним из необходимых условий для профессионального развития, и изучающие язык стремятся к овладению английским языком как средством общения. В данной ситуации необходимо владеть речевыми умениями на довольно высоком уровне, достаточном для того, чтобы иметь возможность делиться опытом и обмениваться идеями с коллегами и партнерами.

Говоря знания преподавателей языка должны носить активный характер. Они должны быть готовы применить их, интерпретировать и адаптировать их применительно к конкретным ситуациям обучения и согласно интересам и потребностям своих студентов.

Следует отметить, что выбранные материалы должны быть интересны студентам. Различного характера и с методической точки зрения различные книги для домашнего чтения дают более эффективные результаты. Итак, одной из самых важных и актуальных проблем современной методики является информирование студентов профессиональных изучающих английский язык , о культуре, вербальных и невербальных нормах поведения носителей изучаемого ими языка.Говоря об учебных материалах, о словарях используемых в процессе обучения английскому языку в языковом вузе, необходимо выявить степень их соответствия критериям, предъявляемым к материалам, используемым в процессе обучения языку в целях общения. Для того, чтобы стало возможным предотвращение и преодоления проблем и трудностей, возникающих в процессе формирования иноязычноречевой компетенции, следует постоянно уделять внимание как функциальным, так структурным аспектам языка. Формирование иноязычноречевой компетенции предполагает в качестве непременного условия обучение иностранному языку в определенном контексте для обмена мыслями. Наиболее целесообразным способом предотвращения и преодоления проблем в процессе формирования речевой компетенции студентов на языке специальности является систематическое сочетание основных компонентов языка – лексического, грамматического и произносительного, когда контекст обеспечивается темами и ситуациями, а структура усваивается в функциональных целях.

Ключевые слова: письмо, стратегия , контекст, коммуникация, язык

Redaksiyaya daxil olma tarixi: 28.01.2021
Capa qəbul olunma tarixi:08.02.2021
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜLXAR HÜSEYNOVA
ADU
Rəşid Behbudov 134
e-mail: gulkhar.husseynova@mail.ru

ALMAN DİLİNİN TƏDRİSİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASINDA DİL MATERİALLARINDAN İSTİFADƏ İMKANLARI

XÜLASƏ

Ali keyfiyyətlərə malik insanların yetişdirilməsi gənc nəslə nələri, nə üçün və necə öyrətməyi, mexaniki hafizəyə deyil, nəzəri (tənqidi) təfəkkürə istinad etməyi və idraki fəallığın yüksəldilməsini tələb edir. Yalnız yaddaşla, yəni aktiv və passiv yaddasaxlama ilə tələb olunan bütün informasiyaların öhdəsindən gəlmək mümkün deyildir. Ona görə də tədris prosesində təfəkkür fəaliyyətinə geniş imkanlar yaradılmalıdır. Qeyd etmək lazımdır ki, leksikanın tədrisi müasir dilçiliyin ən mürəkkəb və bu vaxtadək kifayət qədər araşdırılmamış problemlərindəndir. Bu gün interaktiv təlim prinsiplərinə əsaslanan kommunikativyönümlü təlim əsas fəaliyyət növləri olan şifahi nitq, oxu, yazı və dinləyib-anlama vərdişlərinin interaktiv, biri-birilə ilə əlaqələndirilmiş şəkildə tələbələrə aşılanmasını tələb edir. Bu da sözü gedən fəaliyyət növlərinin eyni zamanda, yəni xarici dil təliminin ilkin mərhələsindən həyata keçirilməsini tələb edir. Xarici dildə şifahi nitqin leksik aspektinin öyrədilməsi zamanı tələbələrin rast gəldikləri çətinliklərin böyük əksəriyyəti tədris edilən xarici dil və tələbələrin ana dili sistemləri arasında olan fərqlərlə bağlıdır. Məhz bu səbəbdən xarici dilin tədrisi prosesində iki dilin leksik sistemlərində olan fərqliliklərə xüsusi diqqət yetirilməlidir. Dillər arasında olan fərqlər müqayisəli yolla müəyyənləşdirilə bilər. Müqayisəli tədqiqat metodunun əhəmiyyəti və dil vahidlərinin müqayisəli təhlilinin zəruriliyi görkəmli dilçi və metodist-alimlər tərəfindən sübuta yetirilmişdir. Onları maraqlandıran əsas məsələ aparılan müqayisəli təhlil əsasında müvafiq dil və nitq vahidlərinin tam mənimsənilməsi üçün səmərəli təlim üsullarının yaradılmasıdır. Xarici dillərin tədrisində leksikanın tədrisinə ayrılan vaxt səmərəli şəkildə bölünməlidir. Belə ki, dərsin əvvəlində tələbələri fəallaşdırmaq, onları müxtəlif, əvvəlcədən nəzərdə tutulmuş fəaliyyət növlərinə cəlb etmək məqsədilə onlara nitq fəaliyyətlərini aktivləşdirən sualların verilməsi tövsiyə edilir. Növbəti mərhələlərdə yerinə yetirilən tapşırıqlar üç mərhələli iş sistemində həyata keçirilməlidir. Burada aşağıdakı fəaliyyət növlərinin yerinə yetirilməsi tövsiyə edilir: açar sözlərin təqdim edilməsi, mətndə olan qrammatik strukturların tələbələrə təqdim edilməsi və təklif edilən çalışma və tapşırıqların mərhələli şəkildə yerinə yetirilməsi. Tələbələrə tapşırıq verərkən, onun yerinə yetirilməsində verilən vaxt müddətini müəyyənləşdirmək olduqca vacibdir. İxtisas fakültələrində təhsil alan və dili professional məqsədlərlə öyrənən tələbələr onlara bu

və ya digər tapşırığın yerinə yetirilməsinə ayrılan vaxt müddətindən səmərəli şəkildə istifadə etməyə və onu düzgün şəkildə bölməyə tədricən öyrənməlidirlər. Bu leksikanın tədrisi prosesinin səmərəliliyini təmin edir.

Açar sözlər: dil, leksika, metod, texnologiya , nitq

Qeyd edildiyi kimi, hər hansı xarici dili öyrənən tələbələrə həmin dildə leksik vərdişlərin öyrədilməsi məsələsi xarici dillərin tədrisi metodikasının ən mürəkkəb, aktual və hələ də öz həllini tapmamış problemlərindən biri hesab edilir. Əslində söz birləşmələrinin öyrənilməsində əsas məqsəd xarici dili öyrənən tələbələrdə həmin dildə sözlərin kombinə edilməsi mexanizmini formalaşdırmaqdır[2,67]. Kommunikativ yanaşma tədris edilən xarici dildə dilöyrənənlərin nəyi bacarmalı olduqlarını bildirən məna kateqoriyaları əsasında qurulan proqram və dərsliklərin sayının artırılmasında öz əksini tapır. Şifahi nitqin inkişaf etdirilməsinə yönəlidilmiş proqram və dərsliklər onun aşağıdakı komponentlərdən ibarət olduğunu nəzərə almaqla tərtib edilməlidir:

leksik vahidlərin və qrammatik strukturların funksional-yönümli mənimsənilməsi;

dil materiallarından müxtəlif situasiyalarda istifadə etmək bacarığının inkişaf etdirilməsi;

ayrı-ayrı kommunikativ məna kəsb edən cümlələri mətn daxilində birləşdirmək bacarığı;

verbal və qeyri verbal strategiyalardan istifadə etməklə, bilik və bacarıqların çatışmazlığı səbəbindən yaranan mürəkkəb situasiyalardan kompetensiya vasitəsilə çıxış yolu tapmaq bacarığı;

öyrənilən dilin istifadə edildiyi sosio-mədəni kontekstlə tanışlıq;

başqa insanlarla ünsiyyət qurmaq arzusu və bunun üçün vacib olan özünə əminlik.

Şifahi nitq vərdişlərinin aşılanması prosesinin daha səmərəli şəkildə təşkil edilməsi məqsədilə dildaşıyıcılarının verbal və qeyri-verbal davranış kodunun formalaşmasına təsir göstərən amillər tədqiq edilməli, alman dilində şifahi nitq vərdişlərinin inkişaf etdirilməsinin xüsusiyyətləri müəyyənləşdirilməlidir. Məlum olduğu kimi, xarici dillərin, o cümlədən alman dilinin tədrisinin baş verdiyi sosial mühitin dəyişməsi bilavasitə dilin öyrənilməsi məqsədlərinin dəyişməsi ilə müşayiət edilir. Şifahi nitq vərdişlərini şərtləndirən amilləri araşdırarkən, ilk növbədə dilçilik, sosiolinqvistikanın inkişafı və iqtisadi xarakterli dəyişiklikləri qeyd etmək lazımdır. Kommunikativ kompetensiya müxtəlif mədəniyyətlərin təmsil edən insanların kommunikasiya prosesində fəal iştirakçı qismində iştirak etmək, bir-birilə adekvat şəkildə ünsiyyət qurmaq qabiliyyəti kimi başa düşülür. Adekvatlıq eyni zamanda beynəlxalq səviyyədə qəbul edilmiş verbal və qeyri-verbal normalara riayət etməyi nəzərdə tutur. Məlum olduğu kimi, bu gün xarici dillərin öyrənib-öyrədilməsinin əsas

məqsədi həmin dildən ünsiyyət vasitəsi kimi istifadə etmək bacarığına yiyələnməkdən ibarətdir. Leksik bacarıq və vərdişlərin aşılanması xarici dillərin tədrisi metodikasının aktual problemlərindən biridir. Xarici dildə nitqin səlisliyi bilavasitə həmin dildə leksik vərdişlərin formalaşdırılması səviyyəsindən asılıdır. Bu da öz növbəsində, xarici dildə olan sözlərin bir tərəfdən anlayışlarla, digər tərəfdən isə həmin dildə başqa sözlərlə olan əlaqələrinin möhkəmləndirilməsini nəzərdə tutur [1, 5].

Cəmiyyətin tərəqqisi ictimai-iqtisadi ənənələrlə yanaşı, mənəvi amillərdən, xüsusilə insanlar arasındakı ünsiyyət prosesindən asılıdır. Ünsiyyət prosesi çoxmillətli xalqlar yaşayan coğrafi arenada daha mürəkkəb səciyyə daşıyır. Qarşılıqlı əlaqələr ikidillilik şəraitində həyata keçirilir. İkidillilik cəmiyyətin qanunauyğun inkişafının nəticəsi kimi müxtəlif xalqların mədəniyyət, təhsil sahəsində praktik zərurətindən yaranır. İkidilliliyin təzahür formalarını nəzərə alan alimlər onun iki növünü qeyd edirlər:

1. Təmaslı;
2. Qeyri-təmaslı.

Təmaslı ikidillilik bir neçə xalqın və ya millətin birgə qarşılıqlı əlaqəsi, ünsiyyəti nəticəsində yaranan uzunmüddətli proses olmaqla daimi xarakter daşıyır.

Ana dilimizin semantik vahidləri öyrənilən xarici dilin dilinin semantik vahidlərilə eyniyyət təşkil etmədiyi hallarda interferent səhvlər qaçılmaz olur.

L.R Zinder yazır: "Belə düşünmək lazımdır ki, səslərin özlərində akustik-fizioloji xüsusiyyətləri deyil, onların linqvistik, fonetik xüsusiyyətləri tədqiq olunmalıdır. Rus dilində bu mənada həlledici şey sait və samitlərin heca əmələ gətirməsində rolu olur. Alman dili tələffüzünün dil fakültələrində tədrisi sahəsində çoxillik nəticə bizi inandırır ki, bu işin təşkilində metodiki planlaşdırma əsasdır. Çətinliklərin müəyyən edilməsində fikir ayrılığının olmaması üçün yalnız fonetik vahidlərin müxtəliflik dərəcəsi əsas meyar ola bilər. Fonetik vahidlərin müxtəliflik dərəcəsi dedikdə xarici dil ilə ana dilinin fonetik vahidləri arasındakı müxtəliflik dərəcəsini nəzərdə tuturuq.

Bu ictimai hadisə ilk baxışda fərdi psixoloji şəkildə görünsə də ictimai- ideoloji xarakter daşıyır. İkidillilik həm də tarixi kateqoriyadır. Belə ki, müəyyən tarixi şəraitdən asılıdır Dilin başqa sahələrində olduğu kimi, onun fonetik quruluşuna daxil olan faktlar, yəni fonemlər bir- birilə mohkəm əlaqədə olan ünsürlərdir. Dilin fonem tərkibinə daxil olan linqvistik vəzifəni danışıq səsləri- fonemlər ən azı bir əlamətə görə fərqlənməsinə baxmayaraq, bir-birilə əlaqədə olur, dilin fonematik, fonetik quruluşunda müəyyən sistem təşkil edir. Hər hansı bir dilin fonem sisteminin təhlili göstərir ki, fonemlər müəyyən sıralar təşkil edir, müəyyən struktur əmələ gətirir. İxtisas dilindən ünsiyyət məqsədilə istifadə etməyə qadir olan mütəxəssislərin hazırlanması ali məktəblər, xüsusilə də ali ixtisas məktəblərinin qarşısında duran əsas vəzifəsidir. Bu gün ali təhsil qarşısında duran ən önəmli vəzifələrdən biri müasir dövrün tələblərinə uyğun olan xarici dil müəllimlərinin hazırlanmasıdır. Dil sahəsində mütəxəssislərin günün tələblərinə cavab verən şəkildə hazırlanması, xarici, o cümlədən alman dili müəllimləri, tərcüməçi və dilçilərin yüksək peşə keyfiyyətlərinə yiyələn-

məsi bu gün mühüm əhəmiyyətə malikdir. Qloballaşma dövründə Azərbaycanın dünya dövlətləri ilə mədəni, siyasi, iqtisadi əlaqələrinin bərqərar olması qlobal səviyyədə əsas ünsiyyət dili statusunu qazanmış ingilis, alman, fransız dilini öyrənən insanların sayını gündən-günə artırmaqdadır. Müasir dünyada əsas ünsiyyət dilləri olan ingilis, alman, fransız dillərinin yüksək səviyyədə mənimsənilməsi ölkəmizin orta və ali təhsil müəssisələri qarşısında qoyulan əsas tələblərdən biridir. İxtisas dilindən kommunikasiya məqsədilə istifadə etmək qabiliyyətinin tələbələrə aşılanması məqsədilə ali məktəblərin dil fakültələrində tədris prosesinin kommunikativ-yönümlü şəkildə təşkil edilməsi olduqca vacibdir. Eyni zamanda qeyd edilməlidir ki, alman dilini öyrənənlər, həmin dildən kommunikasiya vasitəsi kimi istifadə etməyə meyl göstərirlər. Qlobal dil vasitəsilə qabaqcıl texnologiyalardan istifadə etməklə dil fakültələrində təhsil alan tələbələr özlərinin peşə sahələri ilə bağlı olan dünya təcrübəsindən bəhrələnmək və ondan səmərəli şəkildə istifadə etmək qabiliyyətinə yiyələnməli, müvafiq bilikləri mənimsəməlidirlər. Xarici dillərin tədrisində müasir texnologiyaların tətbiqinin əsas məqsədi tələbələrdə kommunikativ bacarıqların yaradılması və inkişaf etdirilməsindən ibarətdir. Tədris prosesində interaktiv təlim metodundan istifadə zamanı dərsin strukturunda motivasiya, problemin qoyulması, tədqiqatın təşkili, məlumatın mübadiləsi, məlumatın təşkili, nəticənin çıxarılması, tətbiq edilməsi nəzərə alınmalıdır. Belə təlim prosesində dərs müxtəlif formalarda-fərdi, cütlərlə, qruplarla iş şəklində effektli üsullarla aparılır. İnteraktiv təlim metodunun mühüm xüsusiyyəti dərs prosesində öyrədici, ümumiləşdirici, yaradıcı olaraq müxtəlif səpkili problemlərin təşkili, düşünməyə yönəltmə, dərketmə, tələbələrdə aldıqları biliklər əsasında təhlil etmə qabiliyyətlərini inkişaf etdirmək və formalaşdırmaqdır[3,45].

İnteraktiv təlim metodunun istifadə edilməsi tələbəni dərsin fəal iştirakçısı etməyə, idrak fəallığını yaratmağa və inkişaf etdirməyə imkan verir. Bu fəaliyyət zamanı tələbələr daha çox psixoloji gərginlikdən azad, canlı ünsiyyət prosesində isə interaktiv fəaliyyətdə olurlar. Bu zaman yeni metod və texnologiyalar vasitəsi ilə öyrəncilərin yalnız şifahi nitqi deyil, həmçinin onlarda məntiqi, tənqidi, yaradıcı təfəkkür də inkişaf etdirilir. Xarici dillərin müasir metodlar vasitəsi ilə öyrədilməsi istedadlı tələbələrin inkişafı üçün əlverişli şərait yaradır. Belə dərslərdə yalnız istedadlı dil öyrənənlər deyil, həm də zəiflər fəal iştirakçıya çevrilir.

Təlim prosesinin inkişaf etdirilməsi üçün dil öyrənənlərin maraq və meyilləri nəzərə alınmalıdır. Yalnız bu yolla onlarda xarici dilə qarşı maraq oyatmaq olar. Təlim prosesində onlarda motivasiya yaratmaq, dil öyrənmək həvəsi yaratmaq mühüm şərt kimi meydana çıxır. Bu isə fəal təlim metodlarından dərsdə daha çox istifadə olunmasını tələb edir.

Bundan başqa, praktik bacarıq və vərdişlər formalaşdırmaq xarici dilin tədrisində bir sıra istiqamətlərin həyata keçirilməsi ilə reallaşır.

Həmin istiqamətlər aşağıdakılardan ibarətdir:

-eşidib-anlama, danışıq, oxu, yazı kimi nitq fəaliyyəti növlərinin qarşılıqlı əlaqəsinin nəzərə alınması;

-dialoji nitqin nəzərə alınması;

-monoloji nitqin nəzərə alınması.

Bunlarla yanaşı, dilin interaktiv metodla öyrədilməsində əsasən, aşağıdakı vəzifələrin həyata keçirilməsinə diqqət yetirilir:

-oxu bacarığının yaranması;

-yazı bacarığının formalaşdırılması;

-eşidib-anlama bacarığının yaranması;

-danışığa qoşulmaq və canlı danışıq yaratmaqdan çəkinməmək;

-fikrini aydın və başa düşüləcək bir səviyyəyə çatdırmaq vərdişinin yaranması.

Bütün bu sadalananların uğurla həyata keçməsi motivasiya amili ilə şərtlənir.

Bunlar isə alman dilinin tədrisi prosesində tələbənin müəllimlə, həm də öz aralarında canlı ünsiyyətin olmasını tələb edir. Xarici dili ixtisas kimi tədris edən müəllimin dilin mənimsənilməsinin psixoloji qanunauyğunluqlarını bilməsi tədris prosesində mcydana çıxan çətinliklərin qarşısının alınması və onların aradan qaldırılması yollarının işlənməsinə kömək edir. Hər bir dilin öz səs qanunları olduğundan düzgün tələffüzə yiyələnmək üçün bu qanunları öyrənmək lazımdır. Dilin fonetik tərkibini, səslərin əvəzlənməsini, nitq axınında fonemlərin modifikasiyasının, vurğu və intonasiyanın dil daşıyıcıları üçün ümumi xarakter daşımasına baxmayaraq, səs qanunları hamı tərəfindən eyni şəkildə qəbul edilmir. Danışanın fərdi xüsusiyyətlərindən, yerli şəraitdən və s. səbəblərdən asılı olaraq, tələffüz normaları pozulur, təhrif olunur.man dilinin və ana dilinin kommunikativ baxımdan müqayisəli təhlili və konkret kommunikativ situasiyalara uyğun olan nitq və struktur modellərinin müqayisəsi tövsiyə edilməlidir. Bu istiqamətdə müqayisəli tədqiqatın həyata keçirilməsi iki dildə mövcud olan analoji kommunikativ situasiyaların, eyni zamanda müqayisə edilən dillərin yalnız birinə xas olan situasiyaların mövcudluğunu aşkar etməyə kömək edəcək.Dilöyrənənlərə təqdim edilən situasiyalar real ünsiyyət situasiyalarına yaxın olmalı və konkret kommunikativ situasiyalarda tələbələrin bilavasitə "iştirak etmə effekti"ni təmin etməlidir [2, 28]. Alman dilində dilöyrənənlərə təqdim olunan situasiyalar onları maksimum dərəcədə fəallaşdıraraq öyrənilən xarici dildə şifahi nitq ünsiyyətinə qoşulmalarına həvəsləndirilməlidir [1,119]. Onu da yadda saxlamaq lazımdır ki, müəyyən dil materiallarının səmərəli şəkildə aktivləşdirməsinə səbəb ola bilən zəruri şərtlərdən biri mənimsənilməli olan linqvistik materialların və nitq modellərinin dilöyrənənlərin kommunikativ baxımdan tələbatlarına uyğun olmasıdır .

Xarici dildə şifahi nitqin inkişaf etdirilməsi yalnız kommunikativ situasiyaların olması zamanı mümkündür. Tədris olunan linqvistik materialların hər hansı konkret situasiya ilə əlaqəli şəkildə istifadə etmək bacarığının formalaşmasına dair tələblər şifahi nitqin tədrisində situativ-modelləşdirmə istiqamətləndirilməsi prinsipi ilə tam şəkildə üst-üstə düşür.Ənənəvi leksik mövzularla müqayisə edərkən tədrisin tipik kommunikativ situasiyalara xas olan dil materialları və nitq modelləri üzərində qu-

rulmasının dilöyrənənlərdə şifahi nitqin inkişaf etdirilməsi istiqamətində daha yüksək nailiyyətləri əldə etmək ehtimalına malik olduğunu qeyd etmək lazımdır [2,57]. Şifahi nitqin aşılanmasına kommunikativ yanaşma dilöyrənənlərə tədris edilən xarici dil sahəsində biliklərin hazır şəkildə təqdim edilməsi deyil, əldə edilmiş bilik və bacarıqların təbii kommunikativ fəaliyyəti prosesində təkmilləşdirilməsini nəzərdə tutur.Dərslərini planlaşdırarkən müəllimlər müntəzəm olaraq alman danışıq dilinin xüsusiyyətlərini tələbələrə anlatmalıdırlar.

Eyni zamanda onu da qeyd etmək lazımdır ki, alman dilinin məqsədyönlü öyrədilməsi həm müəllim, həm də dilöyrənənlər tərəfindən tədris prosesinin məqsədlərinin dərk edilməsini və tədrisin keyfiyyətini təmin edən vacib şərtlərdəndir.

ƏDƏBİYYAT

Lyons J. Einführung in die moderne Linguistik. München: Beck-Verlag, 1989

Maturana H. Kognition // Der Diskurs des Radikalen Konstruktivismus. 4. Auflage. Frankfurt: Schmidt 1991

Heinemann M., Heinemann W. Grundlagen zur Textlinguistik. Interaktion - Text - Diskurs. Tübingen: Niemeyer, 2002

G. HUSSEYNOVA

THE OPPORTUNITIES OF USING LINGUISTIC MATERIALS IN DEVELOPING LEXICAL SKILLS IN GERMAN

SUMMARY

The article deals with the opportunities of using linguistic materials in developing lexical skills in German. The process of teaching German should be based on the communicative – functional approach to teaching languages. The whole process of teaching oral speech should be goal-oriented systematic. It will make the process of teaching oral speech more effective. In communicative output, the learners' main purpose is to complete a task, such as obtaining information, developing a travel plan, or creating a video. The learner can hardly understand anything at all, unless the speaker is talking about things the learner is observing, or unless the language being learned is closely related to some other language the learner knows. Through comprehension activities the learner can internalize some vocabulary and some grammatical structures, which will help the learner to understand more in stage two, when she or she knows enough to actually converse in a simple way. The result of getting through stage one is that the learner has acquired enough of the basic building blocks of the language to begin to function in real communication situations in a halting way. In stage one there is very little real speaking ability, apart from some words and sentences that can be built on the comprehension exercises. In real communicati-

on situations the learner has to depend on memorized survival phrases to meet the most immediate needs. Comprehension is shared meaning between parties in a communication transaction. This is the first step in the listening process. The second challenge is being able to discern breaks. Retaining is the second step in the listening process. Memory is essential to the listening process because the information retained when a person is involved in the listening process is how meaning from words is created. Because everyone has different memories, the speaker and the listener may attach different meanings to the same statement. Listening is an interaction between speaker and listener. It adds action to a normally passive process. Individuals in conflict often contradict each other. This may include a distortion of the speaker's argument to gain a competitive advantage. On the other hand, if one finds that the other party understands, an atmosphere of cooperation can be created. Communicative activities, the criterion of success is whether the learner gets the message across. In everyday communication, spoken exchanges take place because there is some sort of information gap between the participants. Communicative output activities involve a similar real information gap. In order to complete the task, students must reduce or eliminate the information gap. In these activities, language is a tool, not an end in itself. In a balanced activities approach, the teacher uses a variety of activities from these different categories of input and output. Learners at all proficiency levels, including beginners, benefit from this variety; it is more motivating, and it is also more likely to result in effective language learning. Students often think that the ability to speak a language is the product of language learning, but speaking is also a crucial part of the language learning process.

Key words: language, lexic, method, technology, speech

Г. ГУСЕЙНОВА

ВОЗМОЖНОСТИ ИСПОЛЪЗОВАНИИ ЛИНГВИСТИЧЕСКИХ МАТЕРИАЛОВ НА ФОРМИРОВАНИИ ЛЕКСИЧЕСКИХ НАВЫКОВ В НЕМЕЦСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В данной статье рассматриваются использовании лингвистических мАтериалов на формировании лексических навыков в немецком языке.

Процесс обучения немецкому языку в целом и процесс обучения устной речи должен базироваться на коммуникативно - функциональном принципе. Обучение устной речи должно носить целенаправленный, системный, поэтапный характер, что будет содействовать повышению эффективности данного процесса. В анализе большое внимание обращено на фактом, полученные из литератур. Ссылаясь на работы ученых исследовавших, а также подчеркивает

ее важность. Отмечается, что эта дает воспоминать смысл во время анализа еще более ясно, а также более разнообразном колорите. Основной целью Государственной программы является формирование единой общенациональной среды образования путём внедрения и использование современных информационно-коммуникативных технологий и обеспечением возможностью качественного образования, а также создания условий для интеграции государственной системы образования в мировую систему образовании. Одной из основных целей изучения языка является овладение умением эффективно общаться на изучаемом языке.

Как известно, при обучении иноязычно-речевой коммуникации, основные трудности составляют различия в системах контактирующих языков.

Проблема обучения комбинированию элементов лексики изучаемого языка в процессе речевой коммуникации органически входит в более общую проблему обучения иноязычно-речевой коммуникации, так как комбинаторика, наряду со знаниями и совокупностью навыков, рассматривается в качестве одного из компонентов речевого умения. Основная цель обучения иностранным языкам у нас в стране в настоящее время заключается в обучении языку как естественному средству общения и формировании у обучаемых адекватного умения использовать изучаемый язык. Решение этой сложной задачи возможно, если будет создана достаточная фундаментальная теоретическая база.

Чтение литературы на изучаемом языке способствует развитию устной речи, обогащает словарный запас, знакомит с культурой и литературой страны изучаемого языка, развивает аналитическое мышление. Поэтому уроки домашнего чтения необходимы в учебном процессе. Эти уроки очень ценны: во первых, учащийся соприкасается современным живым языком, а не условно – учебным ; во-вторых, есть возможность высказать свое мнение и дать оценку и свои мысли произведению, героям, персонажам. Но чтобы чтение было интересным и в тоже время развивающим речевые навыки, необходимо проводить работу над текстом, как перед чтением отрывка, так и после, чтобы помочь учащимся понять текст и активизировать новые языковые явления.

Ключевые слова: язык, лексика, метод, технология, речь

Redaksiyaya daxil olma tarixi: 18.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Filologiya üzrə fəlsəfə doktoru Nuriyyə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

TƏHMİNƏ ATAŞLI
Bakı Dövlət Universiteti,
Akademik Zahid Xəlilov küçəsi.
e-mail: tehmineatashli@gmail.com

M.KAŞĞARİNİN LÜĞƏTİNDƏ OĞUZLARA AİD EDİLƏN BƏZİ SÖZLƏRİN AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

XÜLASƏ

Müasir türk dillərinin leksikasının tarixi baxımdan öyrənilməsində Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri mühüm əhəmiyyət kəsb edir. "Divan"da XI əsr türk dillərinin leksikası ilə yanaşı türk xalqlarının yayılma coğrafiyası, etnoqrafiyası haqqında da qiymətli məlumat verilmişdir. Mahmud Kaşğari türkologiya tarixində ilk dəfə olaraq türk dillərini təsnif etmiş, müxtəlif tayfa dillərini səciyyələndirən xüsusiyyətləri göstərmişdir.

Türk dilləri ailəsinin oğuz qrupuna daxil edilən Azərbaycan və türk dillərinin lüğət tərkibinə daxil olan sözlərin tarixi inkişafının öyrənilməsində Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri mühüm əhəmiyyətə malikdir. "Divan"da doqquz minə yaxın leksik vahid toplamış M.Kaşğari, 271 sözün oğuzların dilinə aid olduğunu qeyd etmişdir.

Məqalədə oğuzlara aid edilən *aba, arık, bəkməs, bitik, əpmək, kalkan, konşı* və s. kimi sözlərin müasir türk və Azərbaycan dillərində təzahür xüsusiyyətlərindən bəhs edilir.

Açar sözlər: "Divanü lüğat-it-türk" əsəri, XI əsrin türk dilləri, oğuz leksikası, müasir Azərbaycan dili, müasir türk dili,

XI əsrdə yaşamış böyük türkoloq alim Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri yazılmasından min ilə yaxın müddət keçməsinə baxmayaraq, türk dillərinin lüğət tərkibindəki sözlərin inkişafının, onların dəyişikliyə uğramış formalarının tədqiq edilməsində misilsiz rol oynayır. "Divanü lüğat-it-türk" əsəri türk dillərinin leksikasını, qrammatikasını, həmçinin qədim türk tayfalarının etnoqrafiyasını, yaşadığı coğrafi əraziləri öyrənmək baxımından da olduqca qiymətli bir əsərdir.

M.Kaşğari XI əsrdə Çindən Ruma qədər ərazilərdə yerləşmiş türk tayfalarının dillərinə aid zəngin faktik materiallar toplamış, ümumilikdə otuz bir türk dialektinin leksikası barədə məlumat vermiş, ayrı-ayrı sözlərin dialekt mənsubiyyətini göstərmişdir (oğuz, qıpçaq, çigil, arğu, uyğur, karluq, türkmən, yağma, toxsı, kəncək, kay, yabaku, bulqar, suvar və s.). M.Kaşğari əsərdə doqquz minə yaxın leksik vahidi təhlil edərək sözlərin ifadə etdiyi mənanı, onların hansı türk tayfa dilinə aid

olduğunu, digər türk tayfalarının dilləri ilə müqayisədə necə işləndiyini göstərmişdir. "Divan"da oğuzların dilinə daha çox yer verən Mahmud Kaşğari bu qrupa aid edilən tayfalar haqqında da ətraflı məlumat vermişdir. Alim 271 leksik vahidin oğuzların dilinə aid olduğunu qeyd etmiş, "Divan"da digər tayfalara aid sözləri də oğuz tayfalarının dili ilə müqayisə etmişdir (Bax:13, 36-37).

Müasir Azərbaycan və türk dillərinin oğuz qrupuna aid olması etibarilə, bu dillərdə işlənən leksik vahidlərin tarixi formalarının, inkişaf yolunun öyrənilməsi baxımından M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri olduqca dəyərlidir.

"Divan"da oğuzlara aid edilən bəzi sözlərin müasir Azərbaycan və türk dillərində işlənmə xüsusiyyətlərinə nəzər salaq:

Aba – ana. Oğuzca. Karluq türkmənləri bu sözü *p* ilə deyirlər (7,151). "Divan"da həmçinin *ana, ata* sözləri də verilmişdir.

Bu söz Azərbaycan ədəbi dili üçün arxaik səciyyə daşısa da, sözün müxtəlif fonetik variantları Azərbaycan dilinin dialekt leksikasında *aba* şəklində "ana" (Təbriz, Qax), "ata" (Quba, Ordubad, Zəngilan), "böyük bacı" (Çənbərək), *abay* şəklində "xala" (Qax), "ləzgi qadın" (Şəki) mənalarında işlənir: – Biz *aba* di:rux anıya (Təbriz); – Bizdə hindi *aba* çux işlənmiyədü, ata diyəduğ (Quba) (5,209).

Dialektlərdə *aba* sözünün a > ə fonetik dəyişikliyinə uğramış forması da işlənir: *əbə* "ana" (Lənkəran), "nənə" (Böyük Qarakilsə), "ata" (Zəngilan) (5,210).

Bu söz "Şeyx Səfi təzkirəsi"nin (XVI əsr) dilində də *əbə* şəklində "nənə" mənasında işlənmişdir: Qızın atası mundan xəbərdar olub, qızını *əbələr* ilə dişilərə ərz etdi (5,210).

Müasir türk dilində isə bu söz fonetik dəyişikliyə uğrayaraq *ebe* formasında "doğum işini həyata keçirən qadın" və "böyük ana – nənə" mənalarında işlənir: *Ebe* demek yarım doktor demekdir (10, 667).

Arık – arıq, cılız, zəif. Oğuz və qıpçaq dillərində (7,135).

"Kitabi-Dədə Qorqud"da da bu sözə rast gəlinir: Altında al ayğırı *arıq* oğlan (6,22). Müasir Azərbaycan dilində bu söz *arıq* şəklində öz işləkliyini qoruyub saxlayır.

Türk dilinin izahlı lüğətində isə *arık* sözü xalq şivəsində işlənən söz kimi verilir. Görünür, bu söz məişət üslubunda işlənsə də, ədəbi dil üçün işlək deyil: *Arık*, zayıf bir buzağı kuyruğunu sallayarak gidiyordu (10,130). Türk dilində bu sözlə müqayisədə ərəb dilindən alınmış *zayıf* sözü daha işləkdir: Uzun boylu, *zayıf*, ellilik bir hanım (11,2501).

Ayıttı – söylədi, soruşdu. Ol manqa söz *ayıtdı* = O məndən söz soruşdu. Oğuzlar "Mən anqar söz *ayıtdım"* deyirlər, "Mən ona söz söylədim" deməkdir. Bu, qaydaya ziddir (ayıtır, ayıtmak) (7,257).

"Kitabi-Dədə Qorqud"da da bu sözə rast gəlinir : El evünüzdə *çalıb-ayıdan* ozan olsun (6,14). Bu sözün *ayıt, ayd, ay* formaları Azərbaycan yazılı abidələrinin dilində "söyləmək", "demək" mənalarında işlənmişdir. Məsələn, Zahid *aydur*,

sevmə xubi, baqma onun yüzinə (Nəsimi); Yar *aydı* mana: aşiq isən xəstə Xətayi (Xətayi) (5,214).

Müasir Azərbaycan və türk ədəbi dillərində bu sözün işlənməsi faktına rast gəlinməsə də, Azərbaycan dilinin Kürdəmir şivəsində bu feilin *aydır* forması "demək", "söyləmək, "anlatmaq" mənalarında işlənir: Anasına *aydırdı* ki, o qızı isseyir (5, 213).

Başmak – başmaq. Oğuzca (7,454).

"Kitabi-Dədə Qorqud"da da bu söz işlənmişdir: Ayağım *başmaq*, yüzim yaşmaq görmədi (6,31).

Bu söz Azərbaycan dilinin izahlı lüğətində "üzüörtülü, daban tərəfi və pəncənin yarısı açıq, kişi və qadın ayaqqabısı" mənasında köhnəlmiş söz kimi verilir: Xalçanı götürüb gəlirdim, *başmağımın* tayı ayağımdan sürüşüb çıxdı (2,244).

Türk dilinin izahlı lüğətində də bu söz "ayaqqabı" mənasında köhnəlmiş söz kimi verilmişdir (10, 240).

Bəkməs – bəkməz. Oğuzca (7, 448).

Bu söz müasir Azərbaycan ədəbi dilində "bəzi şirin meyvələrin suyundan çəkilən şirə" mənasında dilin lüğət tərkibinə daxil edilmişdir: Üzüm bəkməzi. Əncir bəkməzi. Tut bəkməzi (2, 271). Dilimizdə eyni mənanı ifadə etmək üçün fars sözü olan doşab sözündən də istifadə olunur.

Hazırda bu söz türk ədəbi dilində *pekmez* şəklində, eyni mənada işlənir.

Bitik – əfsun, sehr, tilsim, cadu, talisman. Oğuzca (7, 385).

Bitik qədim türk dillərində *kitab, yazı, xətt* mənalarını işlənmişdir. Məsələn, qədim uyğurların fal kitabı – "Irk Bitig". M.Kaşğari isə sözü bu semantika ilə təqdim etməmişdir.

Azərbaycan dilinin izahlı lüğətində bu söz fonetik dəyişikliyə uğramış formada; *pitik* şəklində köhnəlmiş söz kimi təqdim olunur. Lüğətdə *pitik* sözü *yazı, kitab, sənəd* və *yazılı dua, yazılmış dua* mənalarında verilir: Sən Allah bir duadan, pitikdən yaz (4,607). Azərbaycan dilində işlənən *cadu-pitik* sözündə də M.Kaşğarinin verdiyi semantika qorunub saxlanılır.

Müasir türk dilinin izahlı lüğətində isə bu sözə rast gəlinmir.

İmdi – indi. Oğuzca. (7, 184)

Söz müasir Azərbaycan dilində fonetik dəyişikliyə uğramış, *m* samiti *n* samiti ilə əvəzlənərək *indi* formasında işlənir. Azərbaycan dilinin izahlı lüğətində *indi* sözü aşağıdakı mənalarda verilir:

1. "Hazırda, bu anda" mənasında – *İndi* gedəcəyəm.

2. "Əvvəlki vəziyyətə, şəraitə, keyfiyyətə qarşılıq" mənasında – *İndi* mən o adam deyiləm.

3. "Başqa mətləbə, mövzuya, məsələyə keçdikdə" – *İndi* mən sizi yeni əsərlərlə tanış edəcəyəm (3, 548).

Söz *şimdi* formasında müasir türk dilində də işlənir. Ehtimal ki, bu söz *şu* işarə əvəzliyinin və *imdi* zaman zərfinin birləşməsindən yaranmış, türk dilinin fonetik qaydalarına uyğun olaraq saitlərdən biri düşürərək söz *şimdi* formasını almışdır.

Türk dilinin izahlı lüğətində söz aşağıdakı mənalarda verilir:

1. "Bu anda" mənasında – *Şimdi* daha bahtiyar bir haberi sevgili bir sesten bizzat duymaya imkan buluyoruz.

2. "Bir qədər sonra, tezliklə" mənasında – Annen *şimdi* gelir, ağlama sus.

3. "Bir qədər öncə" mənasında – Otobüs *şimdi* geçdi, öbürü ne zaman gelir bilmem.

4. "Artıq, bundan sonra" mənasında – Ben görevimi yaptım, *şimdi* onlar gereğini düşünsün (11, 2096).

Əpmək – çörək. Yağma, toxsı boylarının, oğuzların, qıpçaqların bir qisminin dilində "çörək" deməkdir (7, 164).

Hazırda bu söz müasir Azərbaycan ədəbi dilində işlənmir. Lakin Azərbaycan dilinin Şəki şivəsində *epbex`*, Ağdam, Qarakilsə, Tovuz, Yevlax, Göyçay, Çəmbərək, Bolinisi şivələrində *əpbəx`,* Oğuz, Şəki, Yardımlı şivələrində *əpbəy,* Dərbənd şivəsində *əppeg,* Ağdaş, Göyçay, Kürdəmir şivələrində *əppək,* Culfa, Naxçıvan şivələrində *əppəy* formalarında eyni mənada işlənir (1, 151,163).

Müasir türk ədəbi dilində isə bu söz fonetik dəyişikliyə uğrayaraq *ekmek* şəklində eyni mənada işlənir: Odayı tatlı, sıcak bir kızarmış *ekmek* kokusu bürümüş (7, 682).

Əvət – bəli, oldu. Bu sözün üç tələffüz forması var. Oğuzlar *əmət/əvət* deyirlər (7,124).

Hazırda bu söz müasir Azərbaycan dilində işlənmir, həmin mənanı ifadə etmək üçün isə türkcə *hə*, farsca *bəli* sözlərindən istifadə olunur.

Müasir türk dilində *evet* formasında təsdiq ədatı kimi işləndiyini görürük: *Evet*, bu bahsin en canlı noktası buradadır (10, 745).

Kalkan – qalxan. Türk və oğuz dillərinin birində. Bu şeirdə də işlənmişdir:

"Kırkıp atığ kəmşəlim,
Kalkan, süngün çumşalım,
Kaynap, yana yumşalım,
Katkı yağı yuwılsın."

(Biz atımıza süvar olub düşmənin üstünə qışqırtı-bağırtı ilə hücum edir, süngü və qalxanla vuruşuruq. Düşmənlə üz-üzə gələndə qaynayırıq, sonra barışmaq istəyirlərsə, dururuq, düşmən yumşalana qədər gözləyirik) (7,432).

"Kitabi-Dədə Qorqud"da da bu sözə *qalqan* şəklində rast gəlirik: Ap-alaca *qalqanın* vergil mana (6, 49).

Hazırda Azərbaycan dilində bu söz fonetik dəyişikliyə uğramışdır. Orta əsr türk yazılı abidələrinin dilində rast gəldiyimiz *k`* samiti ilə başlayan bir çox sözlər

kimi bu sözün də əvvəlindəki *k`* samiti *q* samiti ilə əvəzlənmişdir. Söz ortasındakı digər *k`* samiti isə *x* samiti ilə əvəzlənərək *qalxan* formasında yazılır və tələffüz edilir.

Türk dilində də bu söz ilkin fonetik şəklini saxlayaraq *kalkan* formasında eyni mənanı ifadə edərək işlənir.

Karınça – qarışqa. Oğuzca (7, 479).

Mahmud Kaşğari *karınça* variantının oğuzca olduğunu vurğulamışdır. Belə nəticəyə gəlmək olar ki, oğuzlar *karınça,* digər türklər isə *karınçak* demişlər.

Bu söz fonetik dəyişikliyə uğrayaraq müasir Azərbaycan dilində *qarışqa* şəklində işlənir.

Türk dilində isə bu söz ilkin fonetik varianta uyğun formada özünü göstərir: *Karınca* – böcək növünün adı (11, 1218).

Kənd – kənd. Oğuzlara və oğuzlara uyanlara görə "kənd", türklərin böyük bir qisminə görə isə "şəhər" deməkdir. Buradan alınaraq Fərqanə qəsəbəsinə "Özkənd" adı verilmişdir, "öz şəhərimiz", "özümüzün şəhəri" deməkdir. Yenə eyni şəkildə başqa bir şəhərə "Səmizkənd" deyilir ki, böyük olduğuna görə belə adlandırılmışdır. Farsca ona "Səmərqənd" deyilir (7,353).

Kənd sözü bu gün həm müasir Azərbaycan, həm də türk dilində işlənir. Lakin söz M.Kaşğarinin oğuzlara aid etdiyi semantikaya uyğun mənada müasir Azərbaycan, digər türklərə aid edilən semantikaya uyğun mənada isə müasir türk dilində işlənir. *Kənd* sözü hal-hazırda Azərbaycan dilinin izahlı lüğətində "şəhər ətrafı yaşayış məntəqəsi", "əhalisi, əsasən, kənd təsərrüfatı ilə məşğul olan yaşayış məntəqəsi" mənasında (3,681), türk dilinin izahlı lüğətində isə "şəhər" mənasında verilir: Paris gibi bir kentte bu hatırlamalar karamsarlığa sürükler insanı (11, 1273).

Konşı – qonşu. Oğuzca (7,427).

Bu söz müasir Azərbaycan və türk dillərində fonetik dəyişikliklərə uğramışdır. Belə ki, müasir Azərbaycan dilində *qonşu,* türk dilində *komşu* şəklində eyni mənada işlənir və hazırda dodaq ahəngi gözlənilməklə yazılır və tələffüz olunur.

Öylə – günorta vaxtı. Oğuzca (7,174).

Müasir Azərbaycan dilində bu söz işlənməsə də, dialektlərdə M.Kaşğarinin verdiyi semantikaya yaxın mənalarda *öynə* və *övnə* sözləri işlənir:

1. "Vaxt" mənasında: – Qış *öynəsi* çox şaqqa olur (Tovuz).

2. "Dəfə" mənasında Beyləqan, Borçalı, Qazax, Cəbrayıl, Göyçay, Hamamlı, Şərur şivələrində: – Qoyun gündə bir *öynə* sağına gələr (Şərur).

3. "Günorta yeməyi vaxtı" mənasında Borçalı, Gədəbəy, Gəncə, Qazax, Lənkəran, Oğuz, Salyan, Tovuz, Ucar şivələrində: – Bir də *öynə* vaxtı gə (Ucar) (1, 390).

Azərbaycan dilinin Zəngilan şivəsində isə sözün *övnə* formasına "dəfə" mənasında rast gəlirik (1, 389).

Müasir türk dilində isə bu söz *öğle* formasında "günorta" mənasında işlənir (11,1718).

Pamuk – panbıq. Oğuzca (7,381).

Müasir Azərbaycan dilində sözdəki *m* samiti *n* samiti ilə əvəz olunmuş və söz ortasına *b* samiti əlavə edilərək *panbıq* şəklində işlənir. Sözün tələffüz formasında isə *m* samiti qalmaqdadır: [*pambıx*].

Müasir türk dilində isə bu söz qədim formasını saxlayaraq *pamuk* şəklində işlənir.

Salturdı – hücum etdi. Ol məni anqar *salturdı* = O məni ona hücum etdirtdi. Oğuzca. Ol manqa yenq *salturdı* = O mənə paltar yanı sallatdı (başqasının paltarınnın yanını sallamağı əmr etdi). (Salturur, salturmak) (8, 198).

"Divan"da işlənən "hücum etmək" mənasına müasir Azərbaycan dilində rast gəlinmir.

Saldırmak sözü "hücum etmək" mənasında müasir türk dilində işlənir: Bugün şu dakikada onlar hala düşmana *saldırıyorlardı* (11, 895)

Yengəç – xərçəng. Oğuzca (7, 332).

Müasir Azərbaycan dilində bu söz işlənmir, müasir türk dilində isə *yengeç* şəklində eyni məna ilə qorunub saxlanmışdır.

Göründüyü kimi, "Divanü lüğat-it-türk" əsərində oğuzlara aid edilən bəzi nümunələr müasir Azərbaycan və türk dilləri üçün arxaikləşmiş hesab olunur, bəzi nümunələr isə müxtəlif fonetik dəyişikliyə uğrasa da, məna genişlənməsi və ya daralmasına məruz qalsa da, müasir türk və Azərbaycan dillərində və ya dialektlərində qorunub saxlanılır. Müasir Azərbaycan və türk dillərinin qədim oğuzcaya dayandığını nəzərə alaraq, bu dillərin həm leksik, həm də qrammatik quruluşunun keçdiyi tarixi inkişaf yolunun öyrənilməsi baxımından M.Kaşğarinin "Divanü lüğat-it-türk" əsəri əsaslı və zəngin mənbədir. M.Kaşğarinin öz lüğətində oğuz türkcəsinə daha çox yer verməsi, digər türk tayfa dilləri ilə müqayisədə bu dili daha çox tədqiqata cəlb etməsi yaşadığı dövrdə türklərin yaşadığı coğrafiyada oğuzların istər mədəni, istər iqtisadi, istər etnik cəhətdən, həmçinin dil baxımından daha böyük üstünlüyə malik olduqlarının göstəricisidir.

ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan dilinin dialektoloji lüğəti. Bakı, Şərq-Qərb, 2007, 566 s.
2. Azərbaycan dilinin izahlı lüğəti. I cild. Bakı, Şərq-Qərb, 2006, 744 s.
3. Azərbaycan dilinin izahlı lüğəti. II cild. Bakı, Şərq-Qərb, 2006, 792 s.
4. Azərbaycan dilinin izahlı lüğəti. III cild. Bakı, Şərq-Qərb, 2006, 672 s.
5. Əzizov E. Azərbaycan dilinin tarixi dialektologiyası. Bakı, Elm və təhsil, 2016, 347 s.
6. "Kitabi-Dədə Qorqud"un izahlı lüğəti. Bakı, Elm, 1999, 203 s.
7. Mahmud Kaşğari "Divanü lüğat-it-türk". Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. I cild, Bakı, Ozan, 2006, 512 s.
8. Mahmud Kaşğari "Divanü lüğat-it-türk". Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. II cild, Bakı, Ozan, 2006, 400 s.

9. Mahmud Kaşğari “Divanü lüğat-it-türk”. Tərcümə edən və nəşrə hazırlayan Ramiz Əskər. III cild, Bakı, Ozan, 2006, 400 s.
10. Türkçe sözlük. I cilt. Ankara, TTK basım evi, 1998, 1136 s.
11. Türkçe sözlük. II cilt. Ankara, TTK basım evi, 1998, 2523 s.
12. Zeynalov F. Qədim türk yazılı abidələri – Orta türk dövrü. Bakı, Nağıl evi, 2009, 111s.
13. Э. Н. Наджиб. Исследования по истории тюркских языков XI-XIV вв. Москва. Наука, 1989, 283с.

ТАХМИНА АТАШЛЫ

ОСОБЕННОСТИ НЕКОТОРЫХ СЛОВ, СВЯЗАННЫХ С ОГУЗАМИ, В СЛОВАРЕ М. КАШГАРИ НА АЗЕРБАЙДЖАНСКОМ И ТУРЕЦКОМ ЯЗЫКАХ

РЕЗЮМЕ

«Дивану лугат-ит-тюрк» Махмуда Кашгари имеет большое значение в изучении лексики современных тюркских языков с исторической точки зрения. Помимо лексики тюркских языков XI века, Диван также дал ценную информацию о географии и этнографии тюркских народов. Махмуд Кашгари впервые в истории тюркологии классифицировал тюркские языки и показал особенности, характерные для языков разных племен.

Кашгариское «Дивану лугат-ит-тюрк» имеет большое значение в изучении исторического развития слов, входящих в лексику азербайджанского и турецкого языков, входящих в огузскую группу тюркской языковой семьи. М. Кашгари, который собрал в «Диване» около девяти тысяч лексических единиц, отметил, что 271 слово принадлежит огузскому языку.

В статье упоминаются аба, арик, бекмес, битик, апмак, калкан, конши и др., Принадлежащие огузу. Обсуждаются особенности выражения таких слов в современном турецком и азербайджанском языках.

Ключевые слова: «Дивану лугат-ит-тюрк», огузская лексика, современный азербайджанский язык, современный турецкий язык, тюркские языки XI века.

TAHMINA ATASHLI

FEATURES OF SOME WORDS RELATED TO OGHUZS IN MAHMUD KASHGARI'S DICTIONARY IN AZERBAIJANI AND TURKISH LANGUAGES

SUMMARY

Mahmud Kashgari's "Divanu lugat-it-turk" is of great importance in the study of the lexicon of modern Turkic languages from the historical point of view. Along with the lexicon of the 11th century Turkic languages, the Divan also provided valuable information about the geography and ethnography of the Turkic peoples. For the first time in the history of Turkology, Mahmud Kashgari classified the Turkic languages and showed the features that characterize the languages of different tribes.

Kashgari's "Divanu lugat-it-turk" is of great importance in the study of the historical development of the words included in the vocabulary of the Azerbaijani and Turkish languages included in the Oghuz group of the Turkic language family. M. Kashgari, who collected about nine thousand lexical units in "Divan", noted that 271 words belonged to the Oghuz language.

In the article, *aba, arik, bekmes, bitik, apmak, kalkan, konshi,* etc. belonging to the Oghuzs are mentioned. The peculiarities of the expression of such words in modern Turkish and Azerbaijani languages are discussed.

Keywords: "Divanu lugat-it-turk", Oghuz lexicon, modern Azerbaijani language, modern Turkish language, 11th century Turkic languages

Redaksiyaya daxil olma tarixi: 11.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Filologiya elmləri doktoru, prof. Elbrus İslam oğlu Əzizov capa tovsiyə etmişdir.

VÜSALƏ KƏRİMLİ
Bakı Dövlət Universiteti, dissertant
vusala.karimli@gmail.com

MİR CƏLAL PAŞAYEVİN HEKAYƏLƏRİNDƏ MƏTNLƏRARASI MÜNASİBƏTİN İZLƏRİ

Xülasə

İnformasiyaverici funksiyanı daşıyan hər bir vahid mətn hesab edilə bilər. Buna bir söz, söz birləşməsi, cümlə və ya sintaktik bütöv aid edilir. Bu vahidlər mətn daxilində gələrək həm öz semantikasını qoruyur, həm də daxil olduğu mətnə yenilik, çalar gətirir. Bu isə mətnlər arasında müəyyən münasibətlərin qurulmasına gətirib çıxarır.

Mətnlərarasılıq bir mətndə başqa bir mətnin əlamətlərinin görünməsi kimi izah edilə bilər. Hər hansı mətnin ortaya çıxmasında kənar təsirlər özünü göstərir. Müəllif başqa müəllifin yazı üslubunun, mətnin semantikasının müxtəlif formada təsirində ola bilər. Bu təsirlər istər-istəməz onun yazı üslubunda, yazdığı materialda öz əksini göstərir. Ona görə də dilçilikdə belə bir fikir mövcuddur ki, zaman keçdikcə orijinal mətnlərin yaranma ehtimalı azalır. İlk yaranan mətn orijinal mətndir. Sonrakı mətnlərdə isə mətnlərarası münasibət sayəsində ilk mətnin izləri görünür. Bu proses bütün mətnlərdə gedir. Bir fikrin izahı başqa fikrin – mətnin hesabına baş verir. Buna görə də bütün mətnlər bir-biri ilə körpü vasitəsilə əlaqələndiyini söyləmək olar.

Mətn özü semantik və kommunikativ cəhətdən tamamlanmış iri həcmli sintaktik bütövdür. Bu tədqiqat işində Mir Cəlal yaradıcılığı nümunələrində özünü göstərən mətnlərarası münasibət dünya dilçiliyində qəbul edilmiş "intertekstuallıq", yəni "mətnlərarasılıq" termini ilə tədqim ediləcək.

Təqdim edilən araşdırmada Mir Cəlal Paşayevin bədii nəsrində mətnlərarası münasibətin qurulmasında epiqrafın rolu xüsusilə qeyd edilmişdir. Epiqraf mətnin kompozisiyasına daxil olan vahid kimi sintaktik bütövlə semantik cəhətdən əlaqə qurur və bir çox məqamların aydınlaşmasında xüsusi rol oynayır. Tədqiqat işində ədibin epiqrafın həm müəllifli, həm də müəllifsiz formalarında istifadə etməklə oxucu ilə qarşılıqlı rabitə qurması diqqətə çatdırılır. Eyni zamanda, Mir Cəlalın epiqrafın fərqli funksiyalarından ustalıqla istifadəsi vurğulanır.

Mətnlərarası münasibətin həm dilçilikdə araşdırılmamış sahə olması, həm də Mir Cəlal Paşayevin yaradıcılığında sintaktik bütövlərin kompozisiya və semantik baxımdan ətraflı araşdırılmasında xüsusi önəm daşıması bu tədqiqat işinin aktuallığını artıran amillərdəndir.

Açar sözlər: Mir Cəlal Paşayev, bədii nəsr, sintaktik bütöv, mətnlərarasılıq, istinad, epiqraf

Mir Cəlal Paşayevin bədii nəsrini təşkil edən roman və hekayələri sintaktik bütövlərdən təşkil olunmuş bədii mətnlərdir. Həmin sintaktik bütövlər həm öz sərhədləri daxilində, həm də digər sintaktik bütövlərlə müxtəlif münasibətlərdə olur. Bu münasibətlərə həm semantik aspekti, həm qrammatik aspekti, həm kommunikativ aspekti, həm də üslubi aspekti aid etmək olar.

H.Akyol semantik aspektdən bağlılığı mətn içi, mətndən kənar və mətnlərarası şəklində qruplaşdırır [3, s.50]. Əslində bu bölgünün mətndən kiçik vahid olan, mətni formalaşdıran sintaktik bütövlər üçün də tətbiqi məqbuldur. Çünki eyni proses sintaktik bütövlər daxilində və arasında baş verir. Sintaktik bütöv də öz daxilində semantik cəhətdən vahidlik yaratmalıdır. Eyni zamanda, xarici vasitələrlə sintaktik bütöv daxilindəki mənanı tamamlamaq mümkündür. Xarici vasitələr dedikdə, hər hansı izahedici material, lüğət nəzərdə tutulur. Tədqiqata cəlb edilməli və araşdırılmalı olan sahə isə sintaktik bütövlər və onlardan formalaşan mətnlər arasında olan münasibətdir.

F.Bulut mətnlərarası münasibəti planlanmamış və şüurlu şəkildə, məqsədli formada yaradılmış mətnlərarasılıq kimi sistemləşdirir [6, s.8]. Planlanmamış mətnlərarası münasibət müəllifin mütaliəsinin, şüuraltı yaddaşının ortaya çıxardığı məhsuldur. Müəllif qeyri-ixtiyari şəkildə bu məhsuldan istifadə edərək yeni ədəbiyyat nümunəsini yaradır. Şüurlu şəkildə mətnlərarası münasibətin yaradılmasında isə müəllif məqsədli şəkildə digər müəllifin adını verməklə, əsərin adını qeyd etməklə, və ya mətnin müəyyən parçalarından istifadə etməklə oxucuya informasiyanı çatdırmaq istəyir.

Mətnlərarasılığın hər iki formasından istifadə bəzi mühüm məsələlərin izahını tələb edir. Mətnin yazarı öz işini ərsəyə gətirəndə mətndə oxucuya ötürmək istədiyi fikri təsdiqləmək üçün digər mətnlərə müraciət etməyə ehtiyac duyur. Bununla da verilən informasiya güclü informasiyaya çevrilir. Təbii ki, müəllif əsər yazarkən mətnlərarası münasibətdən istifadə etməməyə çalışa bilər. Ancaq unutmaq olmaz ki, bir mətnin izləri istər-istəməz digər mətndə üzə çıxır. Bu eyni müəllifli mətnlər üçün də keçərlidir, müxtəlif müəllifli mətnlər üçün də. Yaradılan hər mətn yaradılacaq mətn üçün zəmin rolunu oynayır. Mir Cəlal yaradıcılığında bədii nəsr nümunələrində mətnlərarası münasibətin izləri özünü göstərir.

Azərbaycan dilçiliyində bədii mətndə mətnlərarası münasibətlərin tədqiqatı ilə bağlı araşdırmalara rast gəlinmir. Türk dilçiliyində isə mətnlərarası münasibətin fərqli ədəbiyyat nümunələrində araşdırılması ilə bağlı tədqiqat işləri mövcuddur [1; 4; 5; 7]. Bu tədqiqat işlərinin təməli K.Aktulumun araşdırmasına əsaslanır [2].

Aktulum mətnlərarası münasibəti ortaq münasibət və törəmə münasibət kimi 2 yerə ayırır. Ortaq münasibətə istinad, plagiat və xatırlatmanı, törəmə münasibətə isə parodiya, sarkastik transformasiya və təqlidi daxil edir [2, s.93-142].

Mir Cəlalın yaradıcılığında ən çox rast gəlinən istinaddır. İstinad hər hansı müəllifin fikrini, müəllifin adını, əsərin adını qeyd etməklə yaradılır. Eyni zamanda, istinad folklor nümunələrindən, dini kitablardan və hədislərdən, musiqi mətnlərindən

istifadə ilə meydana çıxır. Müəllif həmin vasitələrdən istifadə etməklə öz yaratdığı əsər arasında əlaqə qurur, obrazları, hadisələri bir-biri ilə uyğunlaşdırır.

"İki filosof" adlı hekayəsində [11, s.147] Mir Cəlal Sədi Şirazi və Mirzə Cəlil kimi Azərbaycan ədəbiyyatının seçilmiş nümayəndələrini öz əsərində obraz kimi canlandırır. Ədib onların obrazlarını yaratmaqla, adlarına istinad etməklə təlqin etdikləri düşüncələrin bugün də əhəmiyyətini itirmədiyini, yeni nəsillərin həmin ideyaları davam etdirdiyini göstərmək istəmişdir.

"Əziz kitabım" hekayəsində [11, s.311] Mir Cəlal həm müəllifin – Sabirin, həm də əsərin – "Hophopnamə"nin adını çəkərək şairin mütərəqqi fikirlərinə istinad edir. Bu bədii nəsr nümunəsində mətnlərarasılıq Sabirin kitabında toplanmış şeirləri ilə Mir Cəlalın düşüncələri arasında qurulmuşdur. Mir Cəlal Şərqin oyanmasını, Yeni Şərqin yaranması ideyalarını Sabirin düşüncələri ilə daha möhkəmlənirir. Oxucuya Sabirin də dediyi kimi tərəqqinin təhsildə olduğu ideyasını ötürür.

Ədibin hekayələrində istinadın geniş yayılmış işlənmə yeri epiqrafdır. Fateeva N.A. epiqrafı mətnə daxil olmaq üçün başlıqdan sonrakı səviyyə, mətnin üstündə yerləşən və onunla bir bütövlükdə əlaqədə olan vahid kimi xarakterizə edir [19, s.140].

Epiqraf mətnin kompozisiyasının bir parçasıdır və mətnin konteksti ilə əlaqəli olub semantik cəhətdən mətnin içində əriyib yox olmur. Epiqrafı müəllif obrazının əksi kimi təqdim edirlər. "Epiqraf seçimində müəllif "mən"i ortaya çıxır [18, s.13].

Metlasova T.M. epiqrafla mətn arasındakı əlaqəni paratekst, metatekst və intertekst kimi xarakterizə edir. Paratekst əlaqə dedikdə, mətndə xüsusi şriftlə fərqləndirilməsi nəzərə tutulur. Metatekst əlaqə dedikdə, epiqraf mətnin məzmununa bildirilən rəy kimi qiymətləndirilir. İntertekst əlaqə isə epiqrafın sitat şəklində verilməsi zamanı baş verir [16, s.1].

Epiqrafda həm müəllifli, həm müəllifsiz ədəbiyyat nümunələrindən istifadə ilə ədib bədii nəsr əsərinin təsir gücünü artırır, çatdırmaq istədiyi informasiyanı başqa aspektlərdən də təsdiqləyərək oxucuya çatdırır. Epiqrafda istinaddan istifadə etməklə yazar həmçinin öz əsərinin məzmunu ilə bağlı oxucunu hazırlayır, məznunun izləri artıq əsərin başlanğıcında oxucuya bəlli olur.

Epiqrafın müəllifli və müəllifsiz olması ilə yanaşı, həcmindən asılı olaraq iki növü fərqləndirilir: müstəqil və metonimik epiqraf. N.A.Kuzmina müstəqil epiqrafın bitmiş fikrə malik olan, mənalı mətn parçası kimi təqdim edir. Bu cür epiqraflarda atalar sözü, məsəl, aforizmlərdən istifadə edilir, və həcmi minimum bir cümlə ilə ifadə edilir. Metonimik epiqraflar isə mətnlərdən seçilib təqdim edilən epiqraflardır. Həcmcə müstəqil epiqrafdan daha iri olur [14, s.60-63].

Mir Cəlal Paşayevin "Oğul" adlı hekayəsində [10, s.259] "Kölgədə bitən ağacın kölgəsi olmaz" atalar sözündən epiqraf kimi istifadə edilmişdir, mətnlərarası münasibət atalar sözünə edilən istinadla qurulmuşdur. Əsərin əvvəlində qeyd edilən bu folklor nümunəsi sintaktik bütövün ümumi konteksti ilə səsləşir, müəllifin ötürmək istədiyi informasiyanın ilk xəbərçisidir. Həqiqətən də, əsərdə atalar

sözündən ötürülən informasiyaya uyğun olaraq Firidun adlı gəncin atasının yüksək rütbəsindən və imtiyazından faydalanmayaraq öz həyat yolunu özünün müəyyənləşdirdiyi təsvir edilir. Burada istifadə edilən epiqraf müəllifsiz və müstəqil epiqrafdır.

"Qəm qəmi gətirər, dəm dəmi!" hekayəsinin [11, s.420] əvvəlində verilən "Divarı nəm yıxar, igidi qəm" atalar sözündə də eyni hal müşahidə olunur. Ədibin yaradıcılığında bu kimi numünələrə romanlarında da rast gəlinir.

Epiqrafın dilçilikdə bir çox funksiyası qeyd edilir [17; 13]. Bu funksiyalardan dialoqqurucu funksiya, informativ funksiya və formamüəyyənləşdirici funksiya xüsusilə fərqləndirilir. Epiqrafın dialoqqurucu funksiyası "monoloqun dialoqlaşma üsuludur" [14, s.61].

Burada epiqraf mətnlə dialoq halında olur, mətnə başqa müəllifin fikri gətirilir və müəllifin düşüncələri ilə qarşılaşdırılır. Ola bilər ki, epiqrafdakı semantika ilə mətnin semantikası üst-üstə düşsün. Bu zaman uyğunluq baş verir. Epiqrafla müəllif fikri, mətnin semantikası bir-birinə əks olanda isə uyğunsuzluq müşahidə edilir [18, s.13].

Epiqrafın informativ funksiyasında verilən informasiya iki formada özünü göstərir: müəllif haqqında olan və epiqrafdan sonra gələn mətn haqqında olan. Müəllif haqqında olan informasiya subyektiv informasiyadır, müəllifin zövqü, mətndəki məqsədi əks olunur. Formamüəyyənləşdirici funksiya isə bədii əsərin leksik-üslubi quruluşunu formalaşdırmağa qadirdir [14, s.61-63].

Epiqrafın funksiyalarından danışarkən, onun yaratdığı emosionallığı da unutmaq olmaz. Emosionallıq bədii əsərdən doğan, müəllif və oxucunu bir-birinə yaxınlışdıran amildir. Bədii əsər oxucuya təqdim edilməmişdən öncə də emosionallıq özünü göstərir. Bu emosionallığın təməli epiqraf və əsərin müəllifi arasında qurulur. Müəllif epiqrafı əsərə başlamadan əvvəl müəyyənləşdirirsə, epiqrafın doğurduğu hislər müəllif vasitəsilə bədii əsərə, ordan isə oxucuya ötürülür.

İstinadın özünü göstərdiyi digər mövqe isə sitatdır. Sitatlar həm formal, həm semantik, həm də formal-semantik cəhətdən əsas mətndən fərqlənir. Formal fərqlənmə kimi sitatlar mətndə dırnaq işarəsi ilə göstərilir. Semantik cəhətdən isə o mətni tamamlayan hissədir. Sitatın həcmcə geniş olması daha çox anlaşılmasına şərait yaradır [15, s.69]:

Əri cüzi qısqanclıq üstündə onu evdən qovmuş, sonra peşman olub, nə qədər çağırmışsa, bu getməmiş, ***"Eşşək nə bilir zəfəran nədir?"*** *- deyə rədd etmiş.* [9, s.74]

"İstifadə" adlı hekayədə Mir Cəlal atalar sözündən sitat gətirmişdir. Atalar sözü həm formal göstərici ilə sintaktik bütövdə fərqləndirilmiş, həm də sintaktik bütövün semantikasını tamamlamışdır.

Ədibin yaradıcılığında müəllifsiz ədəbiyyat nümunələrinə rast gəlindiyi kimi, müəllifli ədəbiyyatdan gətirilən sitatlar da mövcuddur:

O, müəllimlər otağında marağını hamıya söylədi:

- Kimya - səkkizyaşlı bir qız uşağı kitabı vacib ev şeyi sayanda, görün nə aləmdir! Həyat o qədər dəyişmişdir, mədəniyyət, doğrudan da, kəndlinin məişətinə o qədər yerimişdir ki, uşaq kitabsız ev təsəvvür edə bilmir! Biz uşaq olduğumuz zaman belə bir sualı versəydilər, nə deyərdik? Sabir demişkən:

Nə bilirdik nə zəhrimardı kitab,
Biz olan evdə haçan vardı kitab... [9, s.252]

Sitatdan müəllifli epiqrafda da istifadə edilir. Bu zaman adi epiqrafda dialoqquruculuq funksiyası daha genişlənmiş şəkil alır, "ədəbi epiqrafa" çevirilir. Adi epiqrafda müəllif və oxucu arasında kommunikasiya olursa, ədəbi epiqrafda epiqrafın müəllifi, əsərin müəllifi və oxucu arasında əlaqə qurulur. Əgər əsərin əvvəlində gələn ədəbi epiqraf bir neçə müəllifdən gətirilən sitat olarsa, bu zaman kommunikasiya prosesində tərəflərin sayı daha çox olar. Sitatdan istifadə ilə qurulan kommunikativ münasibət sitatın əsərin müəllifinə aidliyi zamanı ikili şəkildə, yəni müəllif və oxucu arasında olur [12, s.25].

Yazıçının yaradıcılığında yol verilməz hal kimi plagiatı qeyd edə bilərik. Qədim zamanlarda və orta əsrlərdə müəlliflər bir-birinin əsərlərini, demək olar ki, olduğu kimi yazaraq öz əsərləri adı altında təqdim etmişlər. Həmin dövrlərdə yaradılan əsərlər xalq üçün ortaq əsər hesab edildiyindən müəllif hüququ anlayışı olmamışdır, ona görə də bu cür "oğurluq" hallarına çox rast gəlinmişdir. Müasir dövrdə isə plagiat əsərlər ən sərt tənqidə məruz qalan əsərlərdir. Mir Cəlalın yaradıcılığında bu cür hallara rast gəlinmir. Ədib istifadə etdiyi parçaların müəllifini qeyd etməklə plagiat hallarının qarşısını alır. Əsərlərinin mövzusu və yazılma üslubu orijinallığı ilə seçilir. Hətta demək olar ki, yazı stili digər müəlliflər üçün etalona çevrilmişdir.

Yazarın yaradıcılığında bəzi hekayələr var ki, Nizami yaradıcılığının məhsuludur. Amma həmin əsərlərin plagiat sayılması üçün heç bir əsas yoxdur. Yazar həmin əsərləri sadələşdirilmiş dillə uşaqlar üçün işləmişdir. Həmçinin bu hekayələrin başlığında "Nizami mövzularından" yazısı qeyd olunur. Bu cür hekayələrin sırasına "Fitnə", "İki rəssam", "Babam kərpic kəsəndə" hekayələrini qeyd etmək olar. Müəllif bu əsərlərində orijinal mövzunu saxlayaraq müəyyən dəyişikliklər edib dili sadələşdirmiş, nəsr şəklində uşaq ədəbiyyatı nümunəsinə çevirmişdir. Bu sadələşdirmə zamanı əsl müəllifin adı qeyd edilməklə plagiat halından qaçılmışdır.

Ortaq münasibətin digər forması isə xatırlatmadır. Rus dilçiliyində xatırlatma xarici intertekstuallıq tipi kimi təqdim edilir və onun iki formasından söz açılır: eksplisit və implisit [17, s.128]. Eksplisit, yəni aşkar xatırlatma hamıya məlum olacaq şəkildə təqdim edilən xatırlatmadır. İmplisit xatırlatma isə gizli xatırlatmadır. Burada bir məlumat haqqında birbaşa deyil, örtülü şəkildə bəhs edilir.

Bədii əsərdə xatırlatma bir neçə məqsədlə istifadə olunur: oxucuya əsər, müəllif yə ya obraz haqqında xatırlatmaq; mətnin semantikasını genişləndirmək;

yazıçının fərdi münasibətini ötürmək; faktları, hadisə və obrazları qarşılaşdırmaq və s. [17, s.128]

"Gülzar" adlı hekayədə [11, s.228] ədəbiyyat aləmində hər şairin, yazıçının öz yeri, öz mövqeyi, yazı və ifadə üslubu olduğunu bildirmək üçün Azərbaycan ədəbiyyatı tarixində sözünü demiş müəlliflərin adları çəkilir. Ə.Haqverdiyev, S.Hüseyn, C.Cabbarlı, H.Cavid, S.Vurğun kimi ədəbiyyat xadimlərinin adları çəkilməklə onların yazdığı əsərlər, yazı stilləri oxucuya xatırladır. Müəllif burada sadəcə insan adı çəkməklə mətnlərarası münasibəti qurur, onların əsərlərini, yaradıcılıq xüsusiyyətlərini üstüörtülü şəkildə vurğulayır. Mir Cəlal bu hekayəsində xatırlatmadan fərdi münasibətini ötürmək üçün, faktları qarşılaşdırmaq üçün istifadə etmişdir. Gülzarın fərqli güllərin bir arada olduğu, bir-birini tamamladığı bir bağ olduğunu təsvir etməklə Mir Cəlal Azərbaycan ədəbiyyatını da gülzara bənzədir, bu iki fikir arasında yaxınlaşmanı yaradır. Ədibin istifadə etdiyi bu metodu "ədəbi xatırlatma" kimi qeyd etmək olar.

Mətnlərarasılıqda ortaq münasibət məzmunla bağlıdırsa, törəmə münasibət yazı stili ilə bağlıdır. Törəmənin parodiya (ciddi əsərin komik formada yenidən yazılması), sarkastik transformasiya (ciddi mövzunun sarkaz ilə yenidən işlənməsidir, mövzuya dəyişiklik edilmir, yazı stili dəyişdirilməsi), təqlid (başqa bir müəllifin yazı stilinə uyğun əsər yazmaq, onu təqlid etmək) kimi növləri qeyd edilir [2, s.116-142].

Mir Cəlal Paşayevin bədii nəsrində "Qonaqpərəst" adlı hekayəsini xüsusilə qeyd etmək lazımdır. Əsərin əvvəlində müəllifin bəzi qeydləri var:

Həkim hekayələri, bir müddət həkimlik etdikdən sonra sənətindən əl çəkən bir tanışımın xatirələrindəndir. Burada xoşagələn nə varsa, o kişininkidir. Ancaq əl zəhməti ədibindir. Yazının yaraşıqsızlığı üçün ədibi töhmətləndirmək.lazımdır.

Yəqin, bu hekayələr çap olunmuş bir şəkildə xatirə sahibinin özünə də çatacaqdır. Eşitdiyimə görə, o, indi rayonların birində bağça mürəbbisidir, boş vaxtı var, oxuyar.

Xahişimiz budur ki, "Qonaqpərəst", "Dost görüşü" və "Vicdan əzabı" hekayələrindən alınan təsir haqqında arada-bərədə danışılmasın. Əl boyda bir məktubla müəllifin özünə bildirilsin. Deyirlər, xarici restoranlarda belə yazılar var: "Xörəyin yaxşılığını hamıya de, pisliyini isə ancaq restorançıya de." Biz isə belə şərtləşək: yazının pisliyini də, yaxşılığını da hamıdan əvvəl yazanın özünə deyək. [9, s.370]

Müəllif bu qeydində üç hekayənin bir həkimin xatirələri olduğunu vurğulayır. Hekayələr də həmin həkimin dilindən yazılmışdır. Hər üç hekayənin məzmunu həkim-xəstə münasibətləri üzərində qurulmuşdur. Bu hekayələrdə insan avamlığının xəstənin vəziyyətini mənfiyə dəyişməsi mövzusu işlənmişdi. Burada bir müəllifin bədii əsərləri arasında məntlərarası münasibəti görürük. Mətnlərarasılıq bir obrazın əsasında qurulmuşdur.

Mətnlərarası münasibətdən danışarkən qeyd etmək lazımdır ki, burada münasibət iki mətn arasında olmaqla kifayətlənmir. Bu münasibətə həm müəllif, həm oxucu daxil olur. Mətnlərarasılığı qurarkən müəllif özü də bütün münasibətləri görə bilmir. O münasibətləri ortaya çıxaran əsas qüvvə oxucudur. Oxucu mətni oxuyarkən həmin mətndəki gizli əlaqələri görür. Bu oxucunun dünyagörüşü ilə bağlı məsələdir. Oxu prosesində o, öz yaddaşını işə salır, lazımi məqamlarda müəllifin digər mətnlərlə qurduğu münasibəti anlayır. S.Gezeroğlu oxucunun mövqeyini yüksək qiymətləndirərək onu "müəllifin mətnə atdığı düyünləri açan" kimi təqdim edir [8, s.201]. Mətndə bütün mətnlərarası münasibələri görmək mümkün olmasa da, oxucunun dünyagörüşü münasibətin aydınlaşma səviyyəsinin göstəricisi kimi qeyd edilir. Bəzən oxucu müəlifin mətnlərarasılıqla ötürmək istədiyi məlumatı başqa aspektdən dərk edir, demək olar ki, mətni yenidən işləyir, ona öz əlavələrini edir. Bu zaman mətnlərarası münasibətin ortaya çıxmasında sadəcə iki mətn iştirak etmir, bura yazıçı və oxucu faktorları da qoşulur.

Müəllifin ötürmək istədiyi informasiya ilə oxucunun qəbul etdiyi informasiya eynidirsə, bu yaradıcılıq prosesi uğurlu hesab edilə bilər. Burada təkcə kommunikativlik deyil, emosionallıq aspekti də diqqətdən kənarda qalmamalıdır.

Ədəbiyyat

1. Aktulum K. Folklorik bir metnin metinlerarası çözümlemesinin temel kavramsal bileşenleri // – Milli Folklor, – 2015, sayı 108, – s. 5-17.
2. Aktulum K. Metinlerarası ilişkiler / – Ankara: Öteki, – 2000. – 296 s.
3. Akyol H. Metinlerden anlam kurma // – Tübar-XIII, bahar, – 2003. – s. 49-58.
4. Aydın İ., İşci Ö. Esendal'ın Arabacı Ali öyküsü ile Çamlıbel'in Han duvarları şiirinin metinlerarasılık yönünden karşılaştırılması // Iğd.Üniv.Sos.Bil.Der., – 2019, nisan, sayı 18, – s. 115-137.
5. Balık M. Metinlerarası ilişkiler bağlamında Latife Tekin'in romanları // Milli eğitim, – 2012, sayı 196, – s. 318-327.
6. Bulut F. "Metinlerarasılık" kavramının kuramsal çerçevesi // Edebi eleştiri dergisi, – 2018, nisan, cilt II, sayı I, – s. 1-19.
7. Evat Y. "Anı döken bahçe"de metinlerarası ilişkiler // Uluslararası sosyal araştırmalar, – 2017, ağustos, cilt 10, sayı 51, – s. 51-56.
8. Gezeroğlu S. Güray Süngü'nün öykülerinde metinlerarası ilişkiler // Söylem, – 2016, aralık, cilt 1, sayı 2, – s. 196-220.
9. Mir Cəlal. Əsərləri: [5 cilddə] I c. / – Bakı: Adiloğlu, – 2013. – 442 s.
10. Mir Cəlal. Əsərləri: [5 cilddə] II c. / – Bakı: Adiloğlu, – 2013. – 444 s.
11. Mir Cəlal. Əsərləri: [5 cilddə] IV c. / – Bakı: Adiloğlu, – 2013. – 468 s.

12. Беляева И.Г. Литературный эпиграф как катализатор включения предваряемого им текста в различные типы коммуникации // Глобальный научный потенциал профессиональное образование, – 2016, №11(68), – с. 23-27.
13. Захарова М.С. Функциональные характеристики эпиграфа в художественном тексте // Известия Гомельского государственного университета имени Ф. Скорины, – 2020, №1 (118), – с. 94-98.
14. Кузьмина Н.А. Эпиграф в коммуникативном пространстве художественного текста // Вестник Омского университета, – 1997, Вып. 2, – с. 60-63.
15. Лукин В.А. Художественный текст: основы лингвистической теории и элементы анализа / – Москва: Ось-89, – 1999. – 192 с.
16. Метласова Т.М. Заглавие и эпиграф художественного текста как объект интертекстуального анализа (на примере произведений англоязычной литературы) // Иностранные языки в контексте межкультурной коммуникации: Материалы докладов VI международной Интернет-конференции “Иностранные языки в контексте межкультурной коммуникации” (26-28 февраля 2014 года), – Саратов: РИЦ “Научное издание”, – 2014. – 6 с.
17. Напцок Б.Р., Соколова Г.В. К проблеме изучения интертекстуальности в художественном произведении // Вестник АГУ, – 2018, Выпуск 4 (227), – с. 123-131.
18. Олчонова Д.А. Поетика эпиграфов в романе А.С.Пушкина “Капитанская дочка” / Дипломная работа / – Бийск, – 2014. – 65 с.
19. Фатаева Н.А. Контрапункт интертекстуальности, или Интертекст в мире текстов / – Москва: Агар, – 2000. – 280 с.

В.КЕРИМЛИ

СЛЕДЫ ИНТЕРТЕКСТУАЛЬНЫХ ОТНОШЕНИЙ В РАССКАЗАХ МИР ДЖАЛАЛА ПАШАЕВА

РЕЗЮМЕ

Можно рассматривать любой отдельный текст, имеющий информативную функцию. Это включает слово, фразу, предложение или синтаксическое целое. Эти единицы входят в текст и сохраняют свою семантику, а также вносят новизну и тон в текст. Это приводит к установлению определенных отношений между текстами.

Интертекстуальность можно интерпретировать как появление в одном тексте признаков другого текста. Внешние влияния проявляются во внешнем виде любого текста. На автора может по-разному влиять стиль письма другого автора, семантика текста. Неизбежно эти влияния отражаются в его стиле

письма, в материалах, которые он пишет. Поэтому в лингвистике существует мнение, что вероятность появления оригинальных текстов со временем уменьшается. Первым появится исходный текст. Последующие тексты показывают следы первого текста из-за межтекстовых отношений. Этот процесс продолжается во всех текстах. Объяснение одной идеи происходит за счет другой идеи - текста. Таким образом, можно сказать, что все тексты связаны между собой мостом.

Сам текст представляет собой большое синтаксическое целое, семантически и коммуникативно завершенное. В данном исследовании интертекстуальные отношения, выраженные на примерах из творчества Мир Джалала, будут представлены термином «интертекстуальность» принятая в мировой лингвистике.

В представленном исследовании подчеркнута роль эпиграфа в построении интертекстуальных отношений в прозе Мир Джалала Пашаева. Эпиграф как единица, входящая в состав текста, синтаксически связана с целым и играет особую роль в прояснении многих моментов. Основное внимание в исследовании уделяется взаимодействию писателя с читателем с использованием как авторских, так и неавторских форм эпиграфа. При этом подчеркивается умелое использование Мир Джалалом различных функций эпиграфа.

Тот факт, что интертекстуальные отношения являются одновременно неизведанной областью лингвистики и имеют особое значение при детальном изучении синтаксических единиц с точки зрения композиции и семантики в работах Мир Джалала Пашаева, является одним из факторов, повышающих актуальность данного исследования.

Ключевые слова: Мир Джалал Пашаев, художественная литература, синтаксическое целое, интертекстуальность, референция, эпиграф

V.KARIMLI

TRACES OF INTERTEXTUAL RELATIONS IN THE STORIES OF MIR JALAL PASHAYEV

SUMMARY

Any single text that has an informative function can be considered. This includes a word, phrase, sentence, or syntactic whole. These units come within the text and preserve their semantics, as well as bring innovation and tone to the text. This leads to the establishment of certain relationships between the texts.

Intertextuality can be interpreted as the appearance of signs of another text in one text. External influences are manifested in the appearance of any text. The author may be influenced in different ways by the writing style of another author, the semantics of the text. Inevitably, these influences are reflected in his writing style, in

the material he writes. Therefore, there is an opinion in linguistics that the probability of the appearance of original texts decreases over time. The first text to appear is the original text. Subsequent texts show traces of the first text due to the intertextual relationship. This process goes on in all texts. The explanation of one idea takes place at the expense of another idea - the text. Therefore, it can be said that all the texts are connected to each other through a bridge.

The text itself is a large syntactic whole, semantically and communicatively complete. In this research work, the intertextual relationship expressed in the examples of Mir Jalal's work will be presented by the term "intertextuality" adopted in world linguistics.

The role of the epigraph in the construction of intertextual relations in the prose of Mir Jalal Pashayev was emphasized in the presented research. The epigraph, as a unit in the composition of the text, syntactically connects with the syntactic whole and plays a special role in clarifying many points. The research focuses on the author's interaction with the reader using both author's and non-author's forms of the epigraph. At the same time, Mir Jalal's skillful use of different functions of the epigraph is emphasized.

The fact that intertextual relations are both an unexplored field in linguistics and a special importance in the detailed study of syntactic units in terms of composition and semantics in the works of Mir Jalal Pashayev is one of the factors that increase the relevance of this research.

Keywords: Mir Jalal Pashayev, fiction, syntactic whole, intertextuality, reference, epigraph

Redaksiyaya daxil olma tarixi: 11.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Filologiya elmləri doktoru, professor Sənubər Abdullayeva capa tovsiyə etmişdir.

PÜSTƏXANIM YUSIFOVA
ADU
Təbriz küç. 81
pustakhanim@gmail.com

MÜASİR İNGİLİS DİLİNDƏ EMFATİKLİK VƏ ONUN İFADƏ VASİTƏLƏRİ

XÜLASƏ

Hər dildə dildə müəyyən bir sözü, ifadəni və ya cümləni emfatik etməyə imkan verən leksik və qrammatik vasitələr vardır. Şifahi ünsiyyətdə biz, cümlənin müəyyən elementlərini müxtəlif vasitələrlə vurğulamağa çalışırıq. İyirminci əsrin ikinci yarısından başlayaraq emfatiklik tədqiqatçıların diqqət mərkəzinə çevrilmiş və ritorik, prozodik, üslubi, kommunikativ-koqnitiv və sintaktik fenomen kimi qəbul edilmişdir. Emfatiklik dildəki ifadəliliklə əlaqələndirilir, yəni bir yazıçı və ya natiq nitqi daha ifadəli etmək üçün vurğulayıcı vasitələrdən istifadə edir. Məqalədə emfatiklik yaradan vasitələrdən - yəni müasir ingilis dilində leksik, morfoloji və sintaktik vasitələrin bəhs edilir. Məqalədə təqdim olunan arqumentlər bədii ədəbiyyatdan gətirilən nümunələr əsasında izah olunur. Məqalədə Azərbaycan, rus və ingilis dillərində olan müxtəlif elmi əsərlərə və internet materiallarına da istinad edilir. Leksik vasitə olaraq danışıq və yazılı ingilis dilində müxtəlif sözlərə və söz birləşmələrinə xüsusi diqqət yetirilmişdir. Bununla yanaşı, qrammatik vasitələr olaraq, müxtəlif nitq hissələri, həmçinin inversiya və ellipsis tədqiqat obyektinə çevrilmişdir. Tədqiqat zamanı müasir ingilis dilinin zəngin bir sistemə sahib olduğu da vurğulanır.

Açar sözlər: emfatiklik, ekspressivlik, ingilis dili, leksik vasitələr, morfoloji vasitələr, sintaktik vasitələr.

Hər bir dilin elə bir leksik və qrammatik vasitələri vardır ki, bu vasitələr ilə dildə müəyyən söz, ifadə və ya cümləni emfatikləşdirmək mümkündür. Verbal ünsiyyət qurarkən biz cümlənin müəyyən elementlərini daha da qabarıq nəzərə çatdırmağa çalışırıq ki, bu zaman emfazdan istifadə edirik. XX əsrin ikinci yarısından etibarən emfaz filosofların diqqət mərkəzindəə oluş və daha çox retorik, prozodik, üslubi, kommunikativ-koqnitiv və sintaktik fenomen hesab edilmişdir. Emfatiklik dildə ekspressivlik ilə əlaqədardır, yəni yazıçı və ya danışan şəxs emfatik vasitələrdən istifadə etməklə nitqini daha da ifadəli edir.

Nitqin ekspressivliyinin müasir metod və konseptlərini işləyib hazırlamış Şarl Ballinin fikrincə ekspressivlik reallığın emosional dərki və onu həmsöhbətinə ötürmək istəyi ilə əlqədardır. Alimin fikrincə ekspressivlik dilin semantik və üslubi

vahidləri ilə əlaqədardır. Ekspressivlik dilin bütün səviyyələrinə xas vahidlərində özünü göstərir [15, s.393]. Alimin bu fikri ilə qismən razılaşmaq olar. Çünki əgər ekspressivlik dilin bütün səviyyələri üçün xarakteriksirsə, onda ekspressivlik nəinki semantik və üslubi vasitələr, habelə leksik, qrammatik və s. vasitələrlə də ifadə edilə bilər. Eyni şeyi emfatiklik barəsində də demək olar. Çünki ekspressivlik emfatikliyi özündə ehtiva edir. Ekspressivlik dilə emosial çalar qatsa da, heç də həmişə obrazlı olmur [16, s.591].

Müasir ingilis dilində emfatikliyin leksik ifadə vasitələri. Müasir ingilis dilində emfatiklik təkrarlar, söz sırası, növ kateqoriyası, tabeli və tabesiz mürəkkəb cümlələr, feilin xəbər və əmr şəkilləri, nida cümlələrində *so və such* sözləri, qayıdış əvəzlikləri, həmçinin *it və there* sözləri vasitəsilə ifadə edilir. Ümumilikdə bu cür vasitələri leksik, morfoloji və sintaktik olmaqla üç qrupa bölmək mümkündür. Leksik vasitələr aşağıdakılardır.

1) İsmin mənasını *quite, very, exact, real və just* ədatları vasitəsi ilə qüvvətləndirmək: *...but it appeared to her so just a picture of Mr Darcy, that she would not trust herself with an answer* [22, s.127]. *He spoke of apprehension and anxiety, but his countenance expresseed real security* [20, s.129]. *I lose the very sound of her voice...* [23, s.56].

2) Sifət və zərfin mənasını qüvvətləndirmək üçün *very, that, so* sözlərindən, eləcə də *terribly, awfully* və s. zərflərindən istifadə edilir: *I am awfully sorry that I have made you waste an evening, Harry* [27, s.69]. *I feel proud, terribly proud* [27, s.50]. *"Ah! That is very nice, and very wrong of you," she cried...* [27, s.35].

3) Sifət və zərflərin müqayisə dərcəsini qüvvətləndirmək məqsədi ilə *much, even, still, far, a lot, any* (sual və inkar cümlələrində) sözlərindən istifadə edilir. Sifət və zərflərin üstünlük dərəcələrini qüvvətləndirmək üçün isə *by far* ifadəsindən istifadə etmək mümkündür: *I like him much better than the Frenchman you used to have* [27, s.122]. *It is far better to endure patiently a smart which nobody feels but yourself...* [23, s.55]. *And from the way I line it up, I'll explore a whole lot more quickly by myself* [26, s.150].

4) İngilis dilində yiyəlik əvəzliklərini vurğulmaq üçün *own* və ya *of one's own* söz və ifadələrindən istifadə etmək mümkündür: *"Is it of your own free will?" he demanded* [26, s.565]. *Then he loathed his own beauty, and flinging the mirror in the floor crushed it into silver splinters beneath his heel* [27, s.181].

5) İngilis dilində sual cümlələrini də emfatik etmək mümkündür. Bu məqsədlə, *ever, on earth, in heaven, under the sun, in the world, in hell, the blood, the devil* və s. tipli söz və ifadələr işlədilir. Qeyd etmək lazımdır ki, *in hell, the blood, the devil* ifadələri mənfi xarakter daşıyır, buna görə də kontekst tələb etmədikcə bu cür ifadələrdən yayınmaq lazımdır: *"Then what on earth is your meaning, Mr Lorry?" demanded Stryver, perceptibly crestfallen* [25, s.219]. *Ever live by*

cheating? Ever live by play? Ever pay him? [25, s.101]. *Who in the world cares for you?* [23, s.336].

6) Kvirkin də dediyi kimi ingilis dilində təkrarlar danışıq dili üçün xarakterikdir [11, s. 970]. Təkrarlar zamanı emfatiklik yaratmaq üçün ya müəyyən elemetlər tamamilə təkrar edilir, ya da əvəzliklərlə əvəz edilir (anafora): *Once upon a time in land far, far away* nümunəsi ingilis dilində ingilis dilində bütün sehirli nağılların ilkin cümləsi kimi işlədilir və emfatiklik üçün *far* sözü iki dəfə təkrar edilir. *She could not think of Darcy's leaving Kent, without remembering that his cousin was to go with him...* [22, s.128]. Nümunədə *his və him* əvəzlikləri *Darcy*-ni əvəz edərək anaforik təkrar yaratmışdır.

Anafora kimi epifora da təkrarın bir növüdür və mənanı qüvvətləndirməyə xidmət edir. Epifora anaforadan fərqli olaraq klozların sonunda sözlərin təkrar olunmasıdır: *It was the best of times, it was the worst of times...* [25, s.7].

7) İngilis dilində bir cümlə daxilində ikiqat inkar işlədilməsi dilçilər tərəfindən qəbul edilməsə də, müasir ingilis dilində ikiqat ikarlıqdan istifadə edərək cümləni emfatikləşdirmək mümkündür. Bunun üçün *not* inkar ədatı və inkar şəkilçisindən istifadə edilir [12]: *That attitude won't get you nowhere = That attitude will get you nowhere. The hospital won't allow no more visitors = The hospital will allow no more visitors. Don't tell me nothing = Don't tell me anything* [19] və s.

Həmçinin *not + without* birləşməsi də eyni ilə emfatik xarakter daşıyır: *He is not without faults.*

8) İnkarda olan cümlələr özlüyündə emfatik tona malikdirlər. Buna baxmayaraq, bu cür cümlələri daha da emfatik etmək mümkündür. Müasir ingilis dilində bunun üçün *at all, in the least, never, not ever* kimi vasitələrdən istifadə edilir: *"Laughter is not at all a bad beginning for a friendship, and it is far the best ending for one," said the young lord, plucking another daisy* [27, s.7]. *"All sort of people who not in the least degree worthy of the pet, are always turning up," said Miss Pross* [25, s.143]. *"Not even by the dearest one ever to be known to you?"* [25, s.232].

By no means + inkar prefiks + sifət birləşməsi *heç də belə* kimi tərcümə edilir və emfatikliyin leksik vasitələrindən hesab edilir [20]: *Your tempers are by no means unlike* [22, s.234].

9) *The person who, the day when, the reason why* konstruksiyası ilə: *When the newly-married pair came home, the first person who appeared, to offer his congratulations, was Sydney Carton* [25, s.314]. *"It is. That is the reason why, like Eve, they are so excessively anxious to get out of it," said Lord Henry* [27, s.28]. *He was straining every effort for the day when he could buy the adjoining lot and put up another two-story frame building* [26, s.626].

Müasir ingilis dilində emfatikliyin qrammatik ifadə vasitələri. Müasir ingilis dilində emfatikliyin qrammatik ifadə vasitələrini morfoloji və sintaktik olmaqla iki qrupda tədqiq etmək mümkündür.

Müasir ingilis dilində emfatikliyin morfoloji ifadə vasitələri.

1) İngilis dilində *-self və -selves* ilə bitən qayıdış əvəzliklərinin iki funksiyası vardır. Birincisi, hərəkətin onu icra edənin üzərinə qayıtması: *Dorian Gray could not free himself from the influnece of this book* [27, s.104]. İkincisi, özündən əvvəlki antisendantı təkrar etmək və bununla da onun mənasını qüvvətləndirmək.

Qayıdış əvəzlikləri qüvvətləndirici funksiyanı yerinə yetirdikdə həmişə vurğulu olur. Qüvvətləndirici əvəzlik feil vasitəsi ilə mübtəda ilə əlaqdə olmur [1, s.129].

Bəzən bu cür əvəzliklər intensiv əvəzliklər də adlanır. Digər mənbələrdə isə intensiv əvəzliklərin də mübtəda ilə əlaqəli olar biləcəyi deyilir [3, s.75]: *He had uttered a mad wish that he himself might remain young* [27, s.74].

Hind-Avropa dillərində qayıdış əvəzliklərinin kökü Proto-Hind-Avropa dilinə gedib çıxır. Bəzi dillərdə obyekt halında olan şəxs əvəzliklərinə qaydış əvəzlikləri arasında fərq yalnız üçüncü şəxsdə özünü göstərir: *I like me* və ya *I like myself* cümlələrinin ikincisi emfatik xarakter daşıyır. Bu cümlələrdə tamamlıq və mübtədanın eyni şəxs olmasına dair heç bir şübhə yoxdur. Lakin *they like them (selves)* cümləsində tamamlığın kimə aid olduğu şübhə doğurur.

Bəzən qayıdış əvəzlikləri cümlədə antisedant olmadan da işlənə bilir. Bu zaman qayıdış əvəzliyi yenə emfatik xarakter daşıyır [6, s.10]: *... he was doubtless as violent in his abuse of me to others, as in his reproaches to myself* [22, s.137]. Nümunədə *myself* qayıdış əvəzliyi obyekt halında olan *me* əvəzliyinin yerində işlənərək cümləni daha da emfatik edir.

Törəmə qrammatikada qayıdış əvəzliyi antisedantla əlaqədə olan anafora kimi qəbul edilir.

2) Feilin xəbər şəklində *do və did* sözlərindən istifadə etməklə indiki və keçmiş zaman formalarını vurğulamaq mümkündür. Bu cür zaman formaları ingilis dilində "emfatik zamanlar" adlanır [17]: *I do belive him (indiki zaman) – I did believe him (keçmiş zaman).*

Eləcə də *do* köməkçi feilindən bir şeyin düzgün olub-olmamasını yoxlayarkən istifadə edirik. Bu zaman ayırıcı sualdan istifadə edilir: S*he does like banana, dosen't she? He did phone you, didn't he?*

3) Tarixən *will və shall* formaları arasında fərq olmuşdur*: I shall try again – I will try again* [20, s.99]. Verilmiş nümunələrdən ikincisi emfatik xarakter daşımışdır. İkinci şəxsdə isə bunun əksi mümkündür: *You shall tell me on your marriage morning* [25, s.207]. Məlumdur ki, gələcək zaman işlədərkən ikinci şəxsdə *will* köməkçi feilindən istifadə edilir.

4) İngilis dilində insanlar təklif, xahiş, xəbərdarlıq və ya əmr edərkən daha nəzakətli olmaq məqsədi ilə əmr cümlələrini sual cümlələri ilə əvəz edirlər. Lakin bu cümlələr ton baxımından zəif olurlar. Cümlələrin daha güclü effekt yaratmasını istəyənlər birbaşa əmr cümlələrindən istifadə edirlər. Feilin əmr şəklini daha da vurğulamaq üçün *do* köməkçi feilindən istifadə edilir: *Now, Mr. Rivers, do come* [23, s.388]. *Do excuse me* [23, s.388].

5) Emfatik sifətlər vasitəsi ilə. Bu cür sifətlər bir şey barəsində hissləri emfatikləşdirmək üçün istifadə edilir. Məsələn, *complete, absolute, entire, mere, sheer, total, utter* və s. bu cür sifətlərin bir çoxu bağlayıcı feillərdən *(ing. link verbs)* sonra işlənmir [7, s.132]. Məsələn: *Our team lost the game. It was a total failure (the failure was total- səhvdir).*

6) *many a/an+noun* ifadəsi many sifətini əvəz edib onun mənasını emfatikləşdirir. Bu ifadə da çox bədii əsərlərdə və qəzet dilində işlənir. *Many*-dən fərqli olaraq *many a/an* isimi təkdə tələb edir və feil də təkdə işlənir. Məsələn: *Many a politician has promised to make changes [=many politicians]* [21].

7) İngilis dilində davam edici zaman *always, ever, constantly, forever və continually zərfləri* ilə işləndikdə emfatik xarakter daşıyır. Murphy-nin fikrincə indiki davam edici zaman yalnız hərəkətin danışıq anında icra edildiyini bildirmək və ya gələcəyə istinadən işlədilmir [10, s.6]. Qeyd edilən zərflərlə işləndikdə arzu olunmaz hərəkətin davamlı olaraq icra edildiyini emfatikləşdirir: *Bingly was sure of being liked wherever he appeared, darcy was continually giving offence* [27, s.12]. *... they are always quarreling* [23, s.93]. *Zillah is constantly gadding off to Gimmerton since papa went...* [24, s.198].

8) Müasir ingilis dilində emfatikliyin ifadə vasitələrindən biri də məchul növdür. Bir çox diskursiv situasiyalar hərəkəti icra edən *(ing. agent)* və üzərində icra ediləndən *(ing. patient)* ibarətdir. Məlumdur ki, adətən cümlələr hərəkəti irca edənlə başlayır. Lakin əgər cümlələr *patient*-lə başlayırsa, onda məchul növdən istifadə edilir, bu zaman cümlənin sonunda işlənən elementlər daha emfatik olur. Bu cür söz sırasından nə baş verdiyi daha çox önəmli olduqda istifadə edilir [14, s.387-388]. Passiv konstruksiyalar məlum olan informasiyanı cümlənin əvvəlində, yeni informasiyanın isə cümlənin sonunda verilməsinə imkan verir [7, s.48].

Bieber və başqaları iki tip məchul konstruksiya ayırd edirlər: qısa passiv *(ing. short passiv)* və uzun passiv *(ing. long passives).* Birinci tip konstruksiyalrda hərəkətin icra edicisi əhəmiyyətli olmadığından *agent* işlənmir. İkici tip konstruksiyalarda isə hərəkətin icra edicisi *by* və ya *with söz önülü ifadə* ilə təqdim edilir.

9) *It's high/about time + feilin Sabcanktiv II* forması vasitəsi ilə. Bu tipli təyin budaq cümlələri Azərbaycan dilinə artıq *vaxtdır ki, vaxt gəldi* və s. kimi təcümə edilir: *It's high time they stopped working.*

Müasir ingilis dilində emfatikliyin sintaktik ifadə vasitələri. Emfatikliyin digər ifadə vasitələri sintaktik vasitələrdir. Sintaktik vasitələrə cümlənin mənasını qüvvətləndirən bəzi cümlə strukturları aiddir. Bu cür strukturlar oxucuların və ya dinləyicilərin diqqətini cəlb edir, maraqlarını artırır və cümləyə rəngarənglik qatır.

1) Sintaktik vasitələrədən biri inversiyadır. Məlumdur ki, ingilis dilində normal söz sırası SVO – yəni mübtəda, xəbər və tamamlıqdır. İnversiya zamanı cümlə üzvlərinin normal sırası pozulur. İngilis dilində inversiyadan daha çox iki məqsəd üçün istifadə edilir: sual vermək və fikiri vurğulamaq üçün. Birinci tip inversiya qrammatik, ikinci isə retorik hesab edilir. Biz burada retorik inversiyada bəhs edəcəyik, çünki retorik inversiya oxuyucuların diqqətini cəlb edir. Quirk və Qrinbaum *mübtəda-xəbər* (sadə xəbər) və *mübtəda-operator* olmaqla inversiyanın iki növünü müəyyən edirlər verir [12, s.413-414].

1. Mübtəda-xəbər inversiyası.

a) Zaman və məkan zərfləri cümlənin əvvəlində gələrsə, mübtədə və xəbər öz yerini dəyişir və bu zaman cümlənin mənası qüvvətlənir. Bu cür hallara daha çox bədii əsərlərdə rast gəlmək mümkündür [5, s.406-407]: *In came the teacher. Down pours the rain. On the hill-top above sat the rising moon* [23, s.116].

b) Con İstvud "Oxford Guide to English Grammar" əsərində formal və ya boş sözlərinin *(ing. empty) – there və it* sözlərinin cümlənin əvvəlində işlənib mübtəda-xəbər inversiyası əmələ gətidiyini qeyd edir: *There were the two wings of the building; there was the garden; there were the skirts of Lowood; there was the hilly horizon* [23, s.87]. *It is hard work to control the working of inclination, and turn the bent of nature…* [23, s.384].

2. Mübtəda-operator inversiyası.

Bieber və başqalarının fikrincə bu zaman bütöv xəbər deyil, xəbərin operatoru xəbərdən əvvələ keçir [5, s.407]. Deməli, yalnız operator xəbərdən əvvəl işlədilir. Onlar həm də qeyd edirlər ki, bu cür inversiya *such, so, neither* və *nor* sözləri ilə işləndikdə baş verir [5, s.407-408]. Hewings (2005) də bu fikirlə razılaşır [7, s.198]. Mübtəda-operator inversiyasının aşağıdakı növlərinə rast gəlmək mümkündür:

a) *Such, so, neither* və *nor* sözlərindən sonra: *So keen was it; yet so cold…* [23, s.347]. *They contained no actual complaint, nor was there any revival of past occurrences? Or any communication of present suffering* [27 s.128].

b) *Hardly…when, scarcely…when* və *no sooner…than* korrelyativ bağlayıcıları ilə: *... no sooner had he left them than her feelings found a rapid vent.* [22, s.88]. *Scarcely had they met when the Telegraph Avenue car came along ans stopped to take on a crowed of afternoon shoppers* [26, s.452].

Liç və Svartvikin fikrincə cümlədə operator olmadıqda *do/does/did* köməkçi feillərindən istifadə edilir. Bu zaman bu feillər inkar mənalı sözlərlə - *few, little, seldom, rarely, never, (not) only* – sözləri ilə işlənir [9, s.162]: *Little does he know how much suffering he has caused.*

c) Budaq cümlələrdə inversiya. Bu elə bir inversiyadır ki, bu zaman budaq cümlələrdə mübtəda-xəbər / mübtəda-operator sırası dəyişir. Bu cür inversiya geniş yayılmamışdır. Lakin bu cür hallara qeyri-real şərtli cümlələrin budaq cümlələrində rast gəlmək mümkündür: *Should anyone call, take a note. Had I been a mere cold, I would neither have desired to write, nor would you desired me for a husband* [26, s.448].

2) Sintaktik inversiyanın emfatik xarakter daşıyan digər növü klozlarda xəbərdən sonra işlənən elemenlərin xəbərin əvvəlinə keçməsidir *(ing. fronting)* [5, s.400]. Nəinki xəbərdən önə keçən elementlər, hətta cümlənin sonunda işlənən elementlər də emfatik olur:

a) Tamamlığın önə keçməsi. Bu zaman tamamlıq emfatik xarakter daşıyır: *No Catherine could I discover up-stairs, and none below* [24, s.204].

b) Predikativin önə keçməsi. Michael Swana görə bu zaman sifətlər *be, seem, look* bağlayıcı feillərindən önə keçir [14, s.23]. Lakin Bierber və başqalarına görə bu sifət birləşməsi, ismi birləşmə və söz önülü birləşmə də olar bilər. Bu cür birləşmələr bəzən mübtədə və ya tamamlıq komplementi də adlandırılır [5, s.50]: *So deep and sensitive was his aversion, that he refrained from going anywhere he was likely to see or hear of Heathcliff* [24, s.153].

c) Feilin təsriflənməyən formalarının önə keçəsi. Bu zaman biz təsriflənməyən formaların 3 tipinin xəbərdən əvvəl işlənməsinin şahidi oluruq*: to hissəciksiz məsdər, -ing və -ed ilə bitən feili sifətlər.*

- To hissəciksiz məsdərin öndə işlənməsi [13, s.8]: *I had said he would come down and come down he did.*
- -ing və -ed ilə bitən feili sifətlər. Bieber və başqalarının fikrincə -ing və -ed ilə bitən feili sifətlər cümlədə uzun mübtəda işləndikdə önə keçir [5, s.404]. Uzun mübtəda dedikdə isə ön və ya arxa pozisiyada təyin edicilərlə işlənən mübtəda nəzərdə tutulur. Bu zaman həm də mübtəda-xəbər inversiyası baş verir [4, s.906]: *Tacked over the bed was a yellowed, deckel-edged photograph. Standing on the sand is a beach hut built like a mini-mosque* [8, s.1048].

d) Nida cümlələrində bəzi elementlərin öndə işlənməsi. Nida cümlələrində elemetlərin məcburi və qeyri-məcburi formaları vardır. Nida cümlələrində *wh* –ilə başlayan sözlərin öndə işlənməsi məcburidir. *Such* ilə başlayan nida cümlələrində isə bu məcburi deyil. Məsələn: *What a desirable thing it would be for your papa to spend a few weeks at a watering-place* [24, s.291] nümunəsində inversiya edib *what* sözünü xəbərdən sonra işlətmək qeyri-mümkündür. Lakin bu cümlədə *what* sözünü *such* sözü ilə əvəz etsək, onda *such* həm xəbərdən əvvəl, həm də xəbərdən sonra işlənə bilər: *Such a desirable thing it would be for your papa to spend a few weeks at a watering-place = it would be such a desirable thing for your papa to spend a few weeks at a watering-place.*

e) Budaq cümlələrdə müəyyən elementlərin öndə işlənməsi. Budaq cümlələrdə predikativ *as və though* bağlayıcılarının önündə işlənə bilər [14, s.66]: *Such as it was, directed me only to the fact that we did not love each other as man and wife should...* [23, s.432]. Bu nümunədə vurğu *such* sözünün üstünə düşür, çünki normal halda predikativ olaraq *such* elementinin yeri bağlayıcı feildən sonradır.

3) *It is...Who/that* strukturu. Bu sturkturdan mübtəda, xəbər, tamamlıq və zəflikləri vurğulamaq üçün istifadə edilir: *It is Jarvis Lorry who has replied to all the previous questions* [25, s.541]. *...perhaps it was that circumstances that drew us so very near – that knit us so very close* [23, s.481].

4) Ellipsis. Ellipsis cümlədə müəyyən elemetləri təkrar etməkdənsə, onların ixtisar edilməsidir. Bu zaman bütöv cümlə yerinə onun müəyyən fraqmentləri işlədilir. Bəzən cümlələr uzun-uzadı işlədilərkən təsir gücünü itirir. Məhz buna görə də bəzi elementləri ixtisar etməklə digər elementləri daha emfatik göstərmək, diqqəti həmin elementlərin üzərinə yönəltmək lazımdır. Qeyd etmək lazımdır ki, elliplis daha çox dialoqlarda işlənir:

"You are happy, my dear father?"

"Quite, my child." [25, s.284]. Verilmiş nümunədə *I am quite happy, my child* cümləsi ellipsisə uğrayaraq *quite, my child* formasında işlənmiş və *quite* sözü vurğulanmışdır.

Tədqiqatdan aydın olur ki, müasir ingilis dilində emfatikliyin ifadə vasitələri müxtəlifcinslidir və dilin müxtəlif səviyyələrində rast gəlinəndir. Məqalədə qrammatik səviyyədə emfatikliyin ifadə vasitələri tədqiq edilmiş, morfoloji və sintaktik olaraq iki yerə ayırılmış, daha sonra isə emfatikliyin morfoloji və sintaktik ifadə vasitələri üzə çıxarılıb təhlil edilmişdir.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

Azərbaycan dilində

1. Hüseynov, A. İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu / A.Hüseynov. - Bakı: Mürtəcim, - 2015. -376 s.

İngilis dilində

2. Agamaliyeva, J. English adjectives and adverbs / J. Agamaliyeva. - Bakı: Elm və Təhsil, - 2017. - 151 pp.
3. Batko, A. When Bad Grammar Happens to Good People: How to avoid common errors in English / A. Batko. - The Career Press, - 2004. - 256 pp.
4. Bieber, D et al. Longman Grammar of Spoken and Written English / D. Bieber. - Longman, - 1999. - 1204 pp.

5. Bieber, D., Conrad, S., & Leech, G. Student Grammar of spoken and written English / D. Bieber, S. Conrad, G. Leech. - Harlow: Longman, - 2002. - 140 pp.
6. Hajizade, A. Pronouns in the English Language / A.Hjizade. - Bakı: Elm və Təhsil, -2014. - 206 pp.
7. Hewings M. Advanced Grammar in Use. / M.Hewings. Cambridge University Press, – 2013. - 294 pp.
8. Kim, J-B., Kim, J-Y. English Predicate Inversion: Towards Data-driven Learning // English Language and Literature, - 2010, Vol. 56 No. 6, - pp. 1047-1065.
9. Leech, G., & Svartvik, J. a Communicative Grammar of English / G. Leech, J. Svartvik. - Harlow: Longman, -1989. - 304 pp.
10. Murphy, R. English Grammar in Use. Cambridge University Press, 2004, 390 pp.
11. Quirk, R. Et al. A Grammar of Contemporary English / R.Quirk. - London: Longman, -1972. - 1120 pp.
12. Quirk, R., & Greenbaum, S. A University Grammar of English / R. Quirk. - Harlow: Longman, -1973. - 484 pp.
13. Rychtarik, S. Grammatical Ways of Expressing Emphasis in English / S. Rychtarik. - Plezen, - 2011. - 53 pp.
14. Swan, M. Practical English Usage / M. Swan. - Oxford University press, - 2005.- 658 pp.

Rus dilində

15. Балли, Ш. Французская стилистика [Текст] / Ш. Балли. – [вступит. ст. Р. А. Будагова]. – М. : Изд-во иностр.лит., 1961. – 393 с.
16. Гридин, В. Н. Экспрессивность [Текст] // Лингвистический энциклопедический словарь / В. Н. Гридин. – М. : Советская энциклопедия, 1990. – 591 с.

İnternet resursları

17. http://www.michellehenry.fr/emphasize.htm
18. https://engblog.ru/ways-to-emphasize-speech
19. https://examples.yourdictionary.com/examples-of-double negatives.htm
20. https://studfile.net/preview/4295265/page:5/
21. https://www.learnersdictionary.com/qa/the-difference-between-many-and-many-a

Bədii ədəbiyyat siyahısı

22. Austin, J. Pride and Prejudice. – Wordsworth Editions, – 1992, – 376 pp.
23. Bronte Ch. Jane Eyre. – New-York: Carleton, Publisher, 413 Broadway, – 1864, – 483 pp.
24. Bronte, E. Wuthering Heights. – London: Smith, Elder & Co., 15, Waterloo Place, – 1870, – 446 pp.
25. Dickens, Ch. A tale of two cities. – 1st World Library - Library society, – 2004, – 580 pp.
26. London, J. Matin Eden. – The Floating Press, – 2009, – 438 p.
27. Wilde O. The Picture of Dorian Gray. – Wordsworth Classics, – 1992, – 194 pp.

Пюстаханум Юсифова

ЭМФАЗ И ЕГО СРЕДСТВА ВЫРАЖЕНИЯ НА СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

РЕЗЮМЕ

В каждом языке есть такие лексические и грамматические средства, которыми можно выразить определенное слово, выражение или предложение. В словесном общении мы стараемся выделить определенные элементы предложения с помощью эмфаза.

Со второй половины XX века эмфаз стал в центре внимания философов и считался риторическим, прозодическим, стилистическим, коммуникативно-когнитивным и синтаксическим феноменом. Эмфатичность связана с выразительностью языка, то есть писатель или говорящий использует выразительные средства, чтобы сделать речь более выразительным. В статье исследуются средства выражения эмфатики в современном английском языке, т.е. лексические, морфологические и синтаксические средства. Представленные аргументы объясняются на примерах художественной литературы. В статье также упоминаются различные научные труды, работы на азербайджанском, русском и английском языках, а также Интернет-материалы. В качестве лексических средств особое внимание уделялось различным словам и словосочетаниям в устной и письменной английской речи. Однако в качестве грамматических средств предметом исследования были различные части речи, а также инверсия и многоточие. Также подчеркивается, что английский язык в современный период имеет богатую систему.

Ключевые слова: выразительность, экспрессивность, английский язык, лексические средства, морфологические средства, синтаксические средства.

Pustakhanim Yusifova

EMPHASIS AND ITS MEANS OF EXPRESSION IN MODERN ENGLISH LANGUAGE

SUMMARY

Every language has such lexical and grammatical means that make it possible to empathize a certain word, expression or sentence in the language. In verbal communication, we try to emphasize certain elements of the sentence, using emphasis.

Beginning from the second half of the XX century, emphasis became the focus of the researchers by philosophers and was considered a rhetorical, prozodic, stylistic, communicative-cognitive and syntactic phenomenon. Emphaticity is related to expressiveness in the language, that is, a writer or speaker uses emphatic means to make speech more expressive. The article underlines means of expressing emphasis i.e. lexical, morphological and syntactical means in modern English. The arguments presented in the article are explained on the basis of examples provided from the fiction. The article also refers to various scientific works in Azerbaijani, Russian and English, as well as internet materials. As lexical means, special attention was given to various words and word combinations in spoken and written English. However as grammatical means, various parts of speech, as well as, inversion and ellipsis were the object of reseach. It is also emphasized that the English language has a rich system in the modern period.

Key words: emphasis, expressiveness, the English language, lexical means, morphological means, syntactic means.

Redaksiyaya daxil olma tarixi: 17.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Filologiya üzrə fəlsəfə doktoru Süleymanova Xatirə Etibar qızı capa tovsiyə etmişdir.

ƏDƏBİYYATŞÜNASLIQ

VÜQAR TEYMURXANLI,
filologiya üzrə fəlsəfə doktoru
ADPU-nun Quba filialı,
Quba, Fətəli xan küçəsi 4
Email: vüqar.teymurxanli@mail.ru

KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA MİLLİ KİMLİK VƏ AZƏRBAYCANÇILIQ

Açar sözlər: Azərbaycan ədəbiyyatı, vətən, milli kimlik, azərbaycançılıq
Key words: Azerbaijani literature, homeland, national identity, azerbaijanism
Ключевые слова: Азербайджанская литература, родина, национальная идентичность, азербайджанство

Azərbaycan klassik ədəbiyyatının Şərq ədəbiyyatı kontekstində mövcudluğu onun fərqli mövzu, forma və problem ətrafında inkişafını şərtləndirirdi. Yəni bu dövrün ədəbiyyatında işlənən mövzular Şərq xalqlarının ümumi mövzuları olur, qəhrəmanlar müştərək olurdu. Bununla yanaşı, bu dövrdə yaranmış ədəbiyyatda məhəlli mövzulara, milli düşüncəli mövzulıara da yer verilirdi. Şairlər yeri gəldikcə yaxın tarixi hadisələrə və şəxsiyyətlərə aid müəyyən hekayətlər, yaxud beytlər də yazır, bu şəxsiyyətlərin obrazını ədəbiyyata gətirirdi. Bu əsərlərdə islam dininin təbliği ilə yanaşı, şairin mənsub olduğu yerin adına və onun tərənnümünə də rast gəlirik. Bu cür poetik passajlarda milli düşüncənin ilk əlamətləri sezilirdi. Ərəb istilasına qarşı Babəkin iyirmi il mübarizə aparması bu və ya digər şəkildə ədəbi prosesə də öz təsirini göstərmişdir. Bizə gəlib çatmasa da, şübhə etmək olmaz ki, yazılı ədəbiyyatda ərəb istilasına qarşı poetik parçalar və etirazlar olmuşdur. Hər halda, o dövrün tarixçilərində bununla bağlı müəyyən fikirlər olmuşsa, ədəbiyyatda da öz əksini tapdığını güman etmək olar. Ərəb istilasının ilk illərində bu dildə yazıb yaradan şairlərimizin yaradıcılığında bu işğala qarşı etirazın rüşeymlərini də görmək mümkün idi. Məvali şairlərin yaradıcılığında bunun izləri vardır. İsmayıl İbn Yasar və Musa Şəhavatın ərəb dilində yazıb yaratması, öz yaradıcılıqlarında həmişə haqqın tərəfində durması, ərəb millətçiliyinə qarşı olmaları yeri gəldikcə vətən amilini formalaşdıran amillərdən olurdu.

X əsrdən başlayaraq saray ədəbiyyatının inkişafı kontekstində Azərbaycan şairləri fars və ərəb dilində paralel olaraq yazıb yaratmışlar. Onların yaradıcılığında ölkədə baş verən tarixi hadisələr təsvir edilir, hökmdarlar və saray əyanları tərənnüm olunur, bir çox hallarda isə fəxriyyələr və həcvlər yazılırdı. Hər halda sarayda yazıb

yaradan şairlərin yaradıcılığında ölkədə baş verən hadisələr və hökmdarların tərənnümü başlıca yer tuturdu.

Saray ədəbiyyatının görkəmli nümayəndələrindən biri Qətran Təbrizinin (1012-1081) şeirləri içərisində Təbrizin təsviri də yer alır. Burada dünyada gözəllikdə, varda və yaxşılıqda tayı-bərabəri olmayan Təbrizin keçmişi və bugünü təsvir olunurdu. Şeirdə şair Təbriz rəiyyəti, ordu başçısı, elmli-bilikli adamlarını tərənnüm edilirdi. Lakin bu şəhərin zəlzələ nəticəsində dağılması şairi mütəəssir etmişdir. Bu təsvirlərdən görünür ki, şair vətənini çox sevmiş və şeirlərində də bu sevgini çatdırmaq istəmişdir. Q.Təbrizinin təbiət təsvirlərində insan, həyat, gözəllik, məhəbbət haqqında da poetik duyğular vardır. Bir müddət Gəncəyə gəlib sonra yenidən Təbrizə qayıdan şairin ana dilində şeirlər yazdığını, hələ fars dilini o qədər yaxşı bilmədiyi haqqında məlumatlar var. Şair özünü türk adlandırır və buraya gəlişinin səbəbini poetik şəkildə belə ifadə edirdi:

Ey türk, hardan düşdün Gəncəyə, söylə!
Canımda bir sevinc oyatdın böylə.
Sərxoş olan dəmdə bir busə verdin,
Arzum budur: daim sərxoşluq eylə! (1, 122)

Görünür ki, Gəncədə qaldıqda doğma şəhəri Təbrizin həsrətini çəkmiş və buna görə də Gəncə hakiminə aşağıdakı poetik məktubunu yazmışdır:

Məndə doğma Təbrizi görmək arzusu oyandı,
Deyəsən canıma yandırıcı bir od düşdü.
Elə ki, Təbrizə getmək məqsədilə yola çıxdım
Dərhal Təbrizin küləyi bədənimə dəydi (1, 198).

Q.Təbrizinin milli düşüncəsi doğma şəhərinin təsvirində də özünü göstərir. Şair Təbrizi tərənnüm edərkən onun mal-dövlətdə digər şəhərdən üstünlüyünü yazırdı. Lakin Təbrizdə baş verən zəlzələ bu gözəl şəhəri bir müddət xarabaya çevirmişdir:

Dünyada gözəllikdə, varda və yaxşılıqda
Təbrizdən gözəl şəhər yox idi.
Orda əmir, rəiyyət, ordu başçısı, elmli, bilikli adamlar
Hər kəs öz istəyi kimi yaşayır.
Bəzisi Allaha, bəzisi xalqa xidmət edir, kimi sərvət dalınca
Kimi ad dalınca gedirdi (1, 201).

Qətran Təbrizinin şeirlərində oğuzların Azərbaycana bir neçə yürüşü öz əksini tapmışdır ki, həmin məlumatlar indi bizim üçün böyük əhəmiyyət daşıyır. Onun şeirləri içərisində azərbaycan dilində çoxlu sözlər, atalar sözləri və zərbi-məsəllər işlətmişdir. Onun "Divan"ında bu cür sözlərə, ifadələrə rast gəlmək mümkündür:

Tək başına hakim (qazı) yanına gedən şad qayıdar.
Qapıdan qovub, bacadan çağırar.
Min belə bayram görsən, ip gəlib həmişə doğanaqdan keçər.

Örkən nə qədər uzun olarsa, yenə gəlib doğanaqdan keçər.
Ömrü boyu kimsəni ilan çalsa, daima alaçası
onun gözlərinə ilan görünər.
Günəşi palçıqla suvarmaq olarmı?
Cidanı çuvalda gizlətmək olmaz.
Yaxşılıq edib Ceyhuna afsanda bar verəcək.
Sən yaxşılıq edib dənizə at, balıq bilməsə, xalıq bilər.
Zülm edən hər kəsə zülm yetər.
Zülm ilə abad olan axırı viran olar.
Sən birdəfəlik mənim gözümdən düşdün.

Xətib Təbrizinin (1030-1109) həyatı və yaradıcılığının özünün bir vətənpərvərlik nümunəsi olduğunu demək olar. Təbrizdə yoxsul bir ailədə doğulsa da, ilk təhsilini doğma Təbrizdə aldıqdan sonra bilik dalınca xurcun dolu kitablar belində piyada Təbrizdən Şama qədər yol getmişdir. Burada Əbü-l-Əla Məəridən (973-1057) ədəbiyyatşünaslıq, tənqid, dilçilik elminin sirlərini öyrənmək istəyirdi. Müəlliminin savadı və istedadı qarşısında "Görəsən, ərəblər elə bir söz deyiblərmi ki, onu Əbu-l-Əla bilməmiş olsun",-deyə heyrətini gizlədə bilməmişdi. Müəlliminin vəfatından sonra vətənə qayıdan X.Təbrizi yenidən Misirə, Suriyaya gedərək görkəmli alimlərlə görüşmüş və ünsiyyət qurmuşdur. 1067-ci ildə görkəmli tənqidçi və ədəbiyyatşünas Bağdadda ömrünün sonunadək "Nizamiyyə" mədrəsəsində çalışmışdır. O, burada vəfat etmiş və dəfni böyük bir izdihamla müşaiyət edilmişdir.

X.Təbrizi yaradıcılığında mətnünaslıq, şərhçilik, tənqid və poetika kimi sahələrə yeni elmi prinsiplər gətirmişdir. Şairlərin mədhiyyə ilə məşğul olmalarını tənqid etmiş və bunun səbəbini yoxsulluqda görmüşdür. Burada ən çox toxunduğu məsələlərdən biri üslub, qafiyə, vəzn və bədiilik məsələləri idi. Əsərdə fikri, ideyanı poetik sənətin əsas xüsusiyyətlərindən biri hesab edirdi. Bunun üçün ən mühüm faktor həyat həqiqətinin təsvirini götürürdü. Tənqidçi üçün yalan bədii əsərdə yolverilməzdir: "Yalanlardan ilham alan bir şairin yaratdığı əsərlər onun öz evinin divarlarından kənara çıxa bilməyəcək, dərhal ölüb gedəcəkdir. Həyat həqiqətlərinə sadiq qalan poeziyanın isə ömrü əbədi, bədii təsir gücü ölçüsüzdür" (2, s. 93).

Xətib Təbrizinin milli düşüncəni təmsil etməsi və azərbaycançılığı yaşatması onun həyatı ilə bağlı bir faktda özünü ən yaxşı şəkildə əks etdirir. Onun həyatı ilə bağlı bir hadisə nə qədər dilini və xalqının sevməsi ifadə olunur. əsərlərinin birində bu hadisəni təvir edən məşhur alimin yazdığına görə,bir gün məsciddə müəllimi Əbülüla Məərri ilə söhbət edərkən təbrizli qonşularından biri yanlarından keçirmiş. Bunu görən Xətibin halında müəyyən dəyişiklik olur, həyəcanlanır. Ona görə ki, iki ilə qədər vaxt ərzində vətəndən heç kimi görmürdü, vətəndən xəbər tutmurdu. Tələbəsinin həyəcanlandığını görən Məərri həyəcanın səbəbini öyrəndikdən sonra icazə verir ki, həmyerlisi ilə söhbət etsin. Xətib Təbrizi yazırdı: “Əbülüla sevincimin səbəbini soruşdu. Dedim ki: “Təbriz qonşularımızdan biri gəlib”. Dedi ki: “Dur, şəhərindən və adamlarından xəbər öyrən”. Söhbətdən sonra Əbülüla soruşdu ki, bu

hansı dildir ki, danışırdınız? Dedim: “Azərbaycan dilidir”. Dedi ki: “Sizin dili anlamıram, amma nə ki, danışmısınız, əzbərlədim. O, danışdıqlarımızı hərfi-hərfinə təkrar etdi... Mən onun qüvveyi-hafizəsinə təəccüb etdim” (2, s.73) . Burada diqqət çəkən X.Təbrizinin vətəninə, elinə və dilinə bağlı olmasıdır. Şöhrətli alim Azərbaycan dili (bəzi mənbələrdə azərbi dili) adını ilk dəfə burada adını çəkir. Bu fakt göstərir ki, X.Təbrizi Bağdadda olmasına baxmayaraq xalqını təmsil edir və vətəni, dili ilə fəxr edirdi.

Nizami Gəncəviyə qədərki Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndəsi Xaqani Şirvani (1120-1199) gənc yaşlarından bir müddət sarayda yaşayıb yaratsa da, burada baş verən hadisələr və şairlər arasındakı çəkişmələr onu burada uzaqlaşdırır. Xaqani yazdığı mədhiyyələrdən peşman olmuşdu. Sonralar bu barədə "Töhfətül-İraqeyn" əsərində yazırdı:

Əvvəllər şahları mədh etdiyimçün
Dilim bulanmışdı çirkaba bütün.
Həyatım bir müddət divlərlə soldu,
İyirmi iki il ömrüm puç oldu.
Elə ki özümü qapına saıdım,
O ötən ömrümü geriyə aldım.
Anladım səhvimi oldum peşiman,
Rədd etdim o keçən mənliyi, inan (3, 79).

Xaqaninin bu hərəkəti böyük bir vətəndaşlıq nümunəsi idi; şair milli düşüncəni, xalq taleyini hər şeydən üstün tutmağa çalışır, yaradıcılığında da bunu gözləyirdi. Şərin inkarı və Xeyirin gözəlliyinin təsviri qəsidələrində mühüm yer tuturdu. Qəsidələrində dövr, həyat haqqında ictimai, fəlsəfi düşüncələrini əks etdirirdi. Ədəbiyyatşünas X.Yusifli yazır: "Xaqaninin bu tipli qəsidələri əsrin başı üzərində şimşək kimi çaxır, ildırım kimi gurlayır. Ümmanda başlayan güclü bir tufan kimi səslənir. Belə şeirlərdən biri "Mədain xərabələri" adı ilə məşhur olan qəsidədir" (4, s. 7). Əslində Xaqani burada İranın keçmiş paytaxtının ürək dağlayan sarsıdıcı mənzərələrəsindən dəhşətə gəlir. “Щяр бцлбцлц бир байгуш, щяр няьмяни бир нювщя,// Изляр бу ъащан ичря, олма буна эял щейран.////Сордун щара эетмишдир инди о бюйцк шащлар, //Бир щамилядир торпаг, чох удмуш о, шащ, хаган”, deyərkən şair nəinki öz ölkəsini, hətta yad bir ölkəni belə bu şəkildə görmək istəmir. Xaqani bu mənzərələri seyr edərkən zalım hökmdarlara "Biz ədl sarayıykən zülm ilə xərab olduq, Zalımlar olan qəsrə gör neyləyəcək dövrün?",-deyə xəbərdarlıq edirdi.

Xaqani doğulduğu yeri çox sevirdi, onun insanlarını, təbiətini daim tərənnüm edirdi. Baxmayaraq ki, onu burada incidir, siyasi cəhətdən o qədər də qəbul etmirdilər. Lakin şair bundan o qədər də rəncidə olmur, vətəninin həsrətini çəkir və onu belə təsvir edirdi. “İraqa, İrana eyləsəm səfər,//Başıma yağış tək yağar simu-zər. //Şahlar qarşımda diz çökər mənim, Başıma tabaqla zər tökər mənim”,-deyə vəyənini yenidən xatırlayaraq yazırdı:

Lakin üzüm gülməz, gözlərim ağlar
Qəlbimdə dağ təki ağır intizar.
Vətən həsrətilə töküb göz yaşı
Ah vətən söylərəm hər qədəm başı (3, 83).

Xaqani özünün mövcud durumdakı vəziyyətini iki yol arasında qalmasını da yaddan çıxarmırdı. Şamaxıdan ayrılan şair bunun nə demək olduğunu yaxşı bilirdi və qoynunda xaniman qurduğu şəhəri minnətdarlıqla yad edirdi. Bu poetik parça milli poeziyada doğulduğu yeri ilk tərənnüm edən parçalardan biridir:

Şamaxı! Ey mənim sevimli yurdum
Mən sənin qoynunda xaniman qurdum
İndisə ümidim Təbrizdir, Təbriz
Bu şəhər də mənə doğmadır, əziz.

Atasından küsən körpə bir uşaq
Anası qoynunda uyuyar ancaq (3, 396).

Başqa bir qəsidəsində isə yenə də şirvamı xatırlayır və özünün bu ahlında Arazın od tutub yandığını metaforik şəkildə təsvir edirdi:

O köc günü ki, mən etdim vida Şirvana.
Təəssüf eylədi qəlbim, ciyər alovlandı

Yanıb fəraq oduna, mən Arazla üzləşdim,
Araz görüb halımı, od tutub o da yandı. (3, 402).

Ədəbiyyatşünas Y.Qarayev klassik ədəbiyyatda milli düşüncə orbitindən bəhs edərkən yazırdı: "Milli bədii düşüncə... konkret məqsəd və amal mövqeyindən dərkə can atır, o, mifdən və folklordan, "Xəmsə"dəki sadə adamlardan və "Dədə Qorqud"dan, Nizaminin "insan cəmiyyətindəki", M.F.Axundzadənin

"Təmsilat"ındakı, H.Cavidin və C.Cabbarlının dramaturgiyasındakı "xalq" anlayışına qədər zəngin bir inkişaf yolu keçir" (5, 181). Bu cəhətdən X.Şirvani doğma yurdu Şamaxını, Şirvanı dönə-dönə tərənnüm etmişdir. "Şamaxı, ey mənim sevimli yurdum, Mən sənin qoynunda xaniman qurdum",-deyə onu vəsf etmişdir. "Töhfətül-İraqeyn" əsərində isə "Şirvanın tərifi" adlı ayrıca bölüm yazaraq vətənini hər şeydən yüksəkdə tutur/

“Şirvan ki var, hər cəhətdən ülviyyətin anasıdır,/Onun hər cür səhər yeli dərdl ərimin dəvasıdır”,-deyə şair doğulduğu diyarı müqəddəs hesab edərək vətəninin insanlarının zəhmətkeş və alicənab olmasını bildirir:

Mən vətənə qurban olum, qurulmuşdur sədaqətdən,
Bağdadı da dolandıran onun bollu qidasıdır.
Şirvan əhli alicənab yaranmışdır, başdan-başa
O yer gözəl təbiətli bir lətafət məvasıdır.
Bağdad isə bir əlillər ölkəsidir, orada, bax,
Hər tərəfi çulğalayan ahü nalə sədasıdu-.

Vətənimin fəqirləri dözümlüdür hər zəhmətə,
Gözləri tox, ürəkləri sanki kərəm dəryasıdır (3, 408).

Demək lazımdır ki, vətənin bu cür tərifi və tərənnümünə yalnız maarifçi və maarifçi-romantik şairlərin yaradıcılığında rast gəlmək olur. Bu da onu göstərir ki, Xaqani vətənin tərənnümündə bir maarifçi kimi çıxış etmiş, vətənini çox sevmiş və oxucusina da bunu açılamağa çalışmışdır.

N.Gəncəvi yaradıcılığında insanın ali keyfiyyətlərinin türkə məxsus olması, islami düşüncənin müqəddəsliyi kimi fikirlər poetik şəkildə əksini tapır. "Sirlər xəzinəsi" poemasında ayrı-ayrı məqalət və hekayətlərində torpağa, vətənə bağlılıqla, ədalətlə, halal yaşmaqla bağlı bir çox təsvirlər yer alır. “Sultan Səncər və qarı” hekayətində isə zülmə qarşı münasibət bildirilir. Şair Sultan Səncəri ”Dağ kimi ucalmışdı bir zaman Türk dövləti, /Sarmışdı məmləkəti ədaləti, şəfqəti./ Sən yıxdın o şöhrəti, batıb getdi o ad-san, /Demək, sən türk deyilsən, yağmaçı bir hindusan”,-deyə ittiham edərək bunu türk hökmdarına yaraşdırmırdı.

Şairin "İskəndərnamə" poemasında Makedoniyalı İskəndəri Azərbaycana gətirməsi, burada milli adət-ənənə ilə tanış etməsi və s. milli özünüdərketmənin təzahür formalarındadır:

Bərdə nə gözəldir, necə qəşəngdir,
Yazı da, qışı da güldür, çiçəkdir.
İyunda dağlara lalələr səpər,
Qışını baharın nəsimi öpər.
O yaşıl meşəsi cənnətə bənzər,
Şən ətəklərinə bağlamış kövsər...
Səssizlik içində dincəlir gülşən,
Torpağı silinmiş qayğı, kədərdən (6, 205).

Əsərin maraqlı və əhəmiyyətli yerlərindən biri müəllifin İskəndəri Azərbaycana gətirməsi və Nüşabə ilə görüşdürməsidir. Ona görə ki, indiyədək İskəndər haqqında yazılan əsərlərdə onun Azərbaycana gəlişi haqqında heç bir məlumat verilməmişdi. Nüşabə qədim Bərdə hökmdarı kimi verilir. Nüşabə obrazı da böyül səxavətlə yaradılıb. Nüşabə mələk təbiətıli və ağıllıdır, iradəli, həyalı və namusludur. Onun ölkəsində ədalət var; cəmiyyətdə qadınların rolu böyükdür. Ona görə ki, bu ölkədə kişilər ancaq vətənin müdafiəsi məsələləri ilə məşğul olurlar. Burada qadınlar, o cümlədən Nüşabə vətənpərvərdir, vətənini çox istəyir. Şairə görə İskəndərin Bərdənin gözəllikləri haqqında eşitdikləri öz təsdiqini tapır. Nüşabənin ədalətli idarə etməsi sayəsində Bərdə yer üzünün ən gözəl guşələrindən birinə çevrilib. Bərdənin gğzəlliyində təbiət təsvirləri başlıca yer tutur; onun yaşıl meşələri cənnəti xatırladır, yayında isə lalələr, gül-çiçəklər onu daha da gözəlləşdirir. İskəndərin Nüşabə ilə görüşü tarixi əhəmiyyət daşıyır; burada Nüşabənin ağıl və idrakı tərənnüm olunur. Elçi paltarında saraya gələn İskəndəri Nüşabə tanıyır və ipək parçaya çəkilmiş İskəndər obrazını ona təqdim etməklə öz ağlını nümayiş etdirir. İskəndər tarixi şəxsiyyət kimi göstərilir. Burada da yenə şairin ideal hökmdar

axtarışları davam edir. Əsərdə insan xoşbəxtliyi və azadlığı ideyası da verilir ki, bu da İntibah ədəbiyyatının əsas xüsusiyyətlərindən biri idi.

Nüşabə qədim Bərdənin (Hərum) ölkəsinin hökmdarı kimi əfsanəvi bir azərbaycanlı qızı kimi təsvir edilir. O, bir hökmdar, insan kimi ali duyğularla yaşayır və idarə edir. O, çox gözəldir, ağıllı və iradəlidir, həyalı və namusludur. Məhz bu səbəbdən də şair Bərdəni mərdlər və gözəllər yurdu olaraq təsvir edir.

Nizami Gəncəviyə qədər İskəndər haqqında yazılan əsərlərdə onun Azərbaycana gəlişi ilə bağlı məlumatlar verilməmişdi. Nizami bunu etməklə yaşadığı Azərbaycanı bir daha ucaltmağa çalışmışdır. İskəndərin Azərbaycana yola düşməzdən əvvəl bu ölkə haqqında topladığı məlumat onun tarixi varlığını ortaya qoymuş olur. Nüşabə ilə İskəndərin qaarşılaşması və söhbətləri bu azərbaycanlı qızın nə qədər ağıllı olduğunu bir daha sübut edir. Nüşabənin İskəndəri qarşılayarkən "Mənim evim sənin evindir, mən də hər yerdə olsam sənin kənizinəm", cavabını verməsi onun nə qədər ağıllı olduğunu göstərir. O, İskəndərin gücünü görür və bu güc haqqında söhbətlərinə qarşı öz ağılı ilə cavab verir:

Erkək tinətliyəm, olsam da qadın,
Hər işi bəllidir mənə dünyanın.
Mən də bir insanam, düşünsən bir az,
Aslanın erkəyi, dişisi olmaz.
Qara bulud kimi gurlasam kinlə,
Qılınc tüstüsündən yanar su belə.
Aslanlar buduna basaram mən dağ,
Nəhənglər yağından yaxaram çıra (6, 296).

Nizami İskəndər kimi fatehin əlindən öz yurdunu ağılı, cəsarəti sayəsində xilas edir. Şair bu iki obrazı qarşılaşdırmaq və Nüşabəyə üstünlük verməklə Azərbaycanı və onun başında duran Nüşabəni göylərə qaıdırır. Bu ağlı və cəsarəti ilə Nüşabə Makedoniyalı İskəndərin şəxsində Azərbaycana bir dost qazandırmış olur.

"İskəndərnamə" poemasında ərəb istilası zamanı atəşkədələrin dağılması məsələsinə münasibət bildirərək, onların atəşpərəstlərin bütün nişanələrini məhv etməyə çalışdıqlarını yazır. Bunu şair İskəndərin atəşkədələrin qalan izlərinin də İskəndər tərəfindən dağıdıldığını təsvir edərkən xatırlayır. Şair bununla əslində Azərbaycan mədəniyyətinin nə qədər qədim olduğunu göstərmək istəmiş və bu mədəniyyətin tarix boyu məqsədli şəkildə yadellilər tərəfindən dağıdılmasını göstərir. Azərbaycanın bu maddi mədəniyyəti içərisində təkcə atəşpərəst məbədlərini məhv etmir, həm də qədim kitablarını, əlyazmalarını yandırırdı. Şair Makedoniyalı İskəndərin atəşkədələri yandırdığını təsvir edərkən ərəblərin də istilasını xatırlayırdı.

Bununla şair Azərbaycanın qədim bir diyar olduğunu və burada atəşkədələrin çoxluğunu, təbii qazların mövcudluğunu göstərir. Eyni zamanda ərəblər kimi

İskəndərin də xalqın maddi və milli mədəniyyətini məhv etməsinə qarşı çıxırdı. Şair bununla xalqın milli düşüncəsini formalaşdırmağa çalışmaqla yanaşı, özünün də milli mövqeyini ifadə edirdi. Ümumiyyətlə, Q.Təbrizi, X.Təbrizi, X.Şirvani, N.Gəncəvi yaradıcılığında millilik, azərbaycançılıq müxtəlif şəkildə təzahür edir. Bunların bir çoxu simvolik şəkildə olmuş, bir çoxu isə sətiraltı mənalarda ifadə edilmişdir. Tədqiqatçı Z.Göyüşov maarifçilik ideyalarının rasionalizm şəklində hələ orta əsr Azərbaycan mütəfəkkirlərinin əsərlərində öz əksini tapmasını təqdir edərək yazırdı: "Azərbaycanda maarifçiliyin birinci mərhələsi XII-XVII əsrləri əhatə edir. Bu dövrün maarifçilik ideyaları Xaqani Şirvani, Nizami Gəncəvi, Əvhədi Maraği, Məhəmməd Füzuli və s. orta əsr mütəfəkkirlərinin əsərlərində yaranmışdır. Ona görə də bu mütəfəkkirləri tam hüquqlu orta əsr maarifçiləri adlandıra bilərik" (7, s. 146).

Beləliklə, klassik Azərbaycan ədəbiyyatında vətənpərvərliyin, milli düşüncənin və azərbaycançılığın müxtəlif təzahür formalarına rast gəlirik. Q.Təbrizi, X.Təbrizi, X.Şirvani, N.Gəncəvi yaradıcılığında milli kimliyin bu şəkildə təsviri onalrın vətənini, xalqını çix sevməsindən irəli gəlirdi. Xüsusilə, X.Şirvani və N.Gəncəvi yaradıcılığında vətənin və onun insanlarının tərənnümü milli düşüncənin ədəbiyyatda xüsusi yer tutduğunu göstərir.

Ədəbiyyat

1. Təbrizi Q. Divan. Bakı, 1967, s. 122
2. Malik Mahmudov, "Piyada Təbrizdən Şama qədər", Bakı, 1982, s.93
3. Xaqani Ş. Seçilmiş əsərləri. Bakı, Lider, 2004
4. Yusifli X. Ön söz / Xaqani. Seçilmiş əsərləri. Bakı, s. 7
5. Qarayev Y. Seçilmiş əsərləri. 5 cilddə, V c., B., Elm, 2015
6. Gəncəvi N. İskəndərnamə (Şərəfnamə). B., Lider, 2004
7. Göyüşov Z. Azərbaycan maarifçiliyinin etik görüşləri. Bakı, 1960

VÜQAR TEYMURXANLI

KLASSIK AZƏRBAYCAN ƏDƏBIYYATINDA MILLI KIMLIK VƏ AZƏRBAYCANÇILIQ

XÜLASƏ

Məqalədə Azərbaycan klassik ədəbiyyatında milli düşüncənin formalaşması problemləri araşdırılır. Göstərilir ki, Azərbaycan klassik ədəbiyyatı uzun müddət Şərq ədəbiyyatı kontekstində inkişaf etdiyindən işlənən mövzular ümumi mövzuları olurdu. Bununla yanaşı, bu dövrdə yaranmış ədəbiyyatda milli düşüncəli mövzulara da yer verilirdi. Şairlər yeri gəldikcə yaxın tarixi hadisələrə və şəxsiyyətlərə aid müəyyən hekayətlər, yaxud beytlər də yazır, bu şəxsiyyətlərin obrazını ədəbiyyata gətirirdi. Bu əsərlərdə islam dininin təbliği ilə yanaşı, şairin mənsub olduğu yerin adına və onun tərənnümünə də rast gəlirik. Beləliklə, klassik Azərbaycan ədəbiyyatında vətənpərvərliyin, milli düşüncənin və azərbaycançılığın müxtəlif

təzahür formalarına rast gəlirik. Qətran Təbrizi, Xətib Təbrizi, Xaqani Şirvani, Nizami Gəncəvi yaradıcılığında milli kimliyin bu şəkildə təsviri onların vətənini, xalqını çix sevməsindən irəli gəlirdi. X.Şirvani yaradıcılığında Şirvanın mədhi milli və vətən kimliyini ifadə edir. N.Gəncəvi yaradıcılığında vətənin və onun insanlarının tərənnümü milli düşüncənin ədəbiyyatda xüsusi yer tutduğunu göstərir. Şairin Makedoniyalı İskəndəri Azərbaycana-Bərdəyə gətirməsi şairin bu vətənə mənsubluğunu göstərir. İskəndərlə Nüşabənin görüşündə azərbaycanlı qızın böyük fateh qarşısında özünü ləyaqətli aparması milli kimliyin təzahrü kimi verilir. Klassik ədəbiyyatın araşdırılması və öyrədilməsi zamanı bu konteksti önə çıxarmaq həm ədəbiyyata yeni yanaşmanı üzə çıxarır, həm də gənclərdə ədəbiyyata marağı artırmış olur.

VUGAR TEYMURKHANLI

NATIONAL IDENTITY AND AZERBAIJANISM IN THE CLASSICAL AZERBAIJANI LITERATURE

ABSTRACT

In the article the issues on formation of national thought in classical Azerbaijani literature are investigated. It is shown that as Azerbaijani classical literature has long developed in the context of Oriental literature, the topics developed were common. At the same time, the literature of this period included themes on national thought. Poets also wrote stories or verses about recent historical events and personalities, brought the image of these personalities to the literature. In these works, along with the propagation of Islam, we come across the name of the place where the poet belongs to. So, in classical Azerbaijani literature we come across various manifestations forms of patriotism, national thought and Azerbaijanism. Description of national identity in Qatran Tabrizi's, Khatib Tabrizi's, Khagani Shirvani's and Nizami Ganjavi's creative work in this form was due to his love for his homeland and people. Kh.Shirvani expresses national and homeland identity and praise of Shirvan in his works. N.Ganjavi shows that

The praise of the homeland and its people in N.Ganjavi's works shows that national thought has a special place in literature. The fact that the poet brought Alexander the Great to Azerbaijan-Barda shows that the poet belongs to this country. At the meeting between Alexander and Nushaba, the Azerbaijani girl's behaviour before the great conqueror is given as a manifestation of national identity. Bringing this context to the fore in studying classical literature reveals a new approach to literature and increases the interest of young people in literature.

ВУГАР ТЕЙМУРХАНЛЫ

НАЦИОНАЛЬНАЯ ИДЕНТИЧНОСТЬ И АЗЕРБАЙДЖАНСТВО В АЗЕРБАЙДЖАНСКОЙ КЛАССИЧЕСКОЙ ЛИТЕРАТУРЕ

Резюме

В статье исследуются проблемы становления национальной мысли в классической Азербайджанской литературе. Отмечается, что в течение длительного времени с момента развития классической Азербайджанской литературы в контексте восточной литературы разрабатываемые темы были обобщенного характера. В то же время в литературе этого периода присутствовала национальная тематика. По возможности поэты, также писали определенные рассказы или сочиняли стихи о недавних исторических событиях и личностях, привнося образы этих личностей в литературу. В этих произведениях, наряду с пропагандой ислама, мы также встречаем название мест, которому принадлежит поэт, которую он воспевает. Таким образом, в классической Азербайджанской литературе мы встречаем различные формы патриотизма, национальной мысли и азербайджанства. Такое описание национального самосознания в произведениях Гатрана Тебризи, Хатиб Тебризи, Хагани Ширвани, Низами Гянджеви объясняется их любовью к своей Родине и народу. В творчестве Х. Ширвани восхваление Ширвана выражает национальную и отечественную идентичность автора. Прославление Родины и ее народа в творчестве Н. Гянджеви показывает, что национальная мысль занимает особое место в его произведениях. Тот факт, что поэт привез Александра Македонского в Азербайджан - Барду, свидетельствует о принадлежности поэта к этой Родине. На встрече Искандера (Александр Македонский) и Нушабы, поведение азербайджанской девушки перед великим завоевателем трактуется как проявление национальной идентичности. Выделение этого контекста на передний план при изучении и преподавании классической литературы открывает новый подход к литературе и повышает интерес молодежи к отечественной литературе.

Redaksiyaya daxil olma tarixi: 14.01.2021
Capa qəbul olunma tarixi: 06.02.2021
Rəyci: Filologiya elmləri doktoru, professor Bədirxan Əhmədli
capa tovsiyə etmişdir.

Tahir ORUCOV
AMEA Folklor İnstitutu,
Filologiya üzrə fəlsəfə doktoru, dosent
email: tahiroruclu@gmail.com

BƏHLUL BƏHCƏT: TANINMIŞ FOLKLORŞÜNAS, ƏDƏBIYYATŞÜNAS VƏ ZƏNGƏZURUN SONUNCU QAZISI

Xülasə

Bəhlul Bəhcət ədəbi fikir tariximizdə tanınmış ədəbiyyatşünas, folklorşünas, islamşünas, tarixşünas və tərcüməçi kimi tanınmışdır. B. Bəhcət Azərbaycan folklorşünaslığı tarixində özünəməxsus yeri olan tədqiqatçılardan biridir. "Bəhcət" onun yaradıcılıq imzasıdır. Bəhlul Bəhcətin 1920-30-cu illərdə Azərbaycan folklorunun daha da inkişafında mühüm xidmətləri olmuşdur.

B. Bəhcət Türkiyə və İranda dini təhsil almışdır. Təhsilini başa vurduqdan sonra vətənə qayıdan Bəhlul Bəhcət Zəngəzur qəzasında dini fəaliyyətlə məşğul olmuş, Zəngəzurun sonuncu qazısı kimi dini fəaliyyət göstərmişdir. O, bu vəzifədə 1918-ci ildən- 1920-ci ilə qədər qədər çalışıb. Bəhlul Bəhcət dövrünün bir çox tanınmış ziyalıları kimi, Sovet imperiyasının repressiya qurbanlarından olmuşdur. O, Azərbaycan xalq ədəbiyyatına, klassik Şərq mədəniyyətinə yaxından bələd olub.

Bəhlul Bəhcət Quranı, Firdovsinin "Şahnamə"sini Əmin Abidlə birlikdə orijinaldan dilimizə tərcümə edib edib. B.Bəhcət əvvəlcə Tehranda fars dilində, sonra isə Azərbaycan dilində nəşr edilən "Məhəmməd Peyğəmbərin və ailəsinin tarixi" kitabının, eləcə də, "Qarabağ tarixi", "Nizami və Qafqaz folkloru" kitablarını yazmışdır. Bəhlul Bəhcət Sarı Aşıq, Nəbati yaradıcılığını toplayıb tədqiq və nəşr etdirib. B.Bəhcət həm də "Qaçaq Nəbi" dastanını toplamış və nəşrə hazırlamışdır.

Mütərəqqi bir ziyalı olan B. Bəhcət 1937-ci ilin avqustunda həbs olunur və NKVD üçlüyünün qərarı ilə 15 mart 1938-ci ildə quraşdırılmış, saxta ittihamlar əsasında güllələnir. 20 ildən sonra Azərbaycan SSR Ali Məhkəməsinin 5 noyabr 1958-ci il tarixli qərarı ilə ona bəraət verilir.

Açar sözlər: Bəhlul Bəhcət, Zəngəzur qəzası, Qubadlı, Dondarlı, ədəbiyyatşünas, folklorşünas alim, repressiya qurbanı.

Məsələnin qoyuluşu: Azərbaycan folklorşünaslığının daha da inkişaf etdirilməsində xüsusi xidmətləri olan folklorşünaslardan biri də Bəhlul Bəhcət olmuşdur. Buna görə də B. Bəhcətin folklorşünaslıq fəaliyyəti geniş şəkildə araşdırılmalıdır. Bəhlul Bəhcətin folklorşünaslıq sahəsində fəliyyətinin əsas ideya ağırlığını təşkil edən kitabları və məqalələri geniş tədqiq edilməlidir. Onun folklorşünaslıq fəaliyyətini müxtəlif aspektlərdən araşdırmaya cəlb etmək Azərbaycan folklorşünaslığı qarşısında duran başlıca problemlərdəndir.

İşin məqsədi: Geniş yaradıcılığa malik olan Bəhlul Bəhcətin bir folklorşünas kimi fəaliyyətinin folklorda öz əksini tapmasını müəyyənləşdirmək və bu sahədə əhatəli tədqiqatlar aparmaq araşdırmanın əsas məqsədidir.

Bəhlul Bəhcət tanınmış folklorşünas, islamşünas, tarixşünas və ədəbiyyatşünas, tərcüməçi kimi tanınmışdır. B. Bəhcət Azərbaycan folklorşünaslığı tarixində özünəməxsus yeri olan tədqiqatçılardan biri olmuşdur. "Bəhcət" onun yaradıcılıq imzasıdır. Bəhlul Bəhcətin 1920-30-cu illərdə Azərbaycan folklorunun tədqiqində böyük xidmətləri olmuşdur.

Dövrünün mütərəqqi ziyalılarından biri olan Bəhlul Bəhcət bir çox tanınmış ziyalıları kimi, Sovet imperiyasının repressiya qurbanlarından olmuşdur. “Bəhcət” onun yaradıcılıq imzasıdır. Ərəbcə "sevinc", və "gözəllik" mənalarını ifadə edən "Bəhcət" təxəllüslü Bəhlul Bəhcət Azərbaycan xalq ədəbiyyatına, klassik Şərq mədəniyyətinə yaxından bələd olub.

Bəhlul Bəhcət 1885-ci ildə Zəngəzur qəzasının Qubadlı rayonunun Dondarlı kəndində anadan olub. İlk təhsilini atası Mustafa Əfəndidən və gələcək qaynatası Hacı Çələbidən almışdır. Sonra Nuxa (indiki Şəki-T.O.) şəhərində mədrəsə təhsilini tamamlayır və atasının məsləhəti ilə təhsilini davam etdirmək üçün Türkiyə və İrana getmiş, orada dini təhsil almışdır.Təhsilini başa vurduqdan sonra vətənə qayıdan Bəhlul Bəhcət Zəngəzur qəzasında dini fəaliyyətə məşğul olub, Zəngəzurun qazısı kimi dini fəaliyyət göstərib. O, bu vəzifədə 1918-ci ildən-Azərbaycanda Demokratik Cümhuriyyət qurulduqdan 1920-ci ilə qədər-Sovet hakimiyyəti qurulana qədər çalışıb.

Bəhlul Bəhcət Türkiyədə-İstanbulda ali ruhani təhsili alarkən, eyni zamanda İstanbulun dini rəhbərləri və siyasi qüvvələri ilə yaxından tanış olur. B. Bəhcət təkcə din xadimi kimi deyil, dünyəvi elmlərdən də baş çıxaran bir ziyalı kimi yetişirdi. Dini biliklərlə yanaşı, dünyəvi elmlərə də dərindən yiyələnməsi onda mütərəqqi düşüncə tərzi və dünyagörüşü formalaşdırmışdır. O, bu keyfiyyətləri ilə böyük nüfuz qazanmış, 1915-ci ildə təhsilini başa vurduqdan sonra vətənə qayıtmşdır. Onun Zəngəzurun qazısı işlədiyi müddətdə-1917-1920-ci illərdə Zəngəzur qəzasında aclıq olur. Həmin illərdə Bəhlul Bəhcət Bakı milyonçularından ağ neft və ərzaq məhsulları alıb camaata paylamışdır. (1, 5)

Azərbaycanın müstəqilliyi uğrunda antisovet təbliğatı aparan B. Bəhcət Azərbaycanda Demokratik Cümhuriyyətini öz coşğun fəaliyyətilə dəstəkləyənlərdən biri olub. Azərbaycanda bolşevizm bərqərar olduqdan sonra , B. Bəhcət rus bolşeviklərinə və erməni daşnaklarına qarşı mübarizəyə qalxmış, əhalini silahlı üsyana səsləyən şəxsiyyətlərdən biri olmuşdur. Bundan sonra onun həyatının ağır günləri başlayır. Süni quraşdırılmış bir ittiham əsasında Bəhlul Bəhcət ilk dəfə olaraq 23 aprel 1924-cü ildə Azərbaycan SSR Fövqəladə Komissiyası (Az.FK) tərəfindən həbs edilir. Həbsinə səbəb isə antisovet təbliğat aparması, 1922-ci ildə özünün nüfuzundan istifadə edərək Türkistan qəzası-nın əhalisini sovet hakimiyyətinə qarşı

silahlı üsyana çağırması, üsyan yatırıldıqdan sonra İrana qaçaraq oradakı əkinqilabi Azərbaycan mühacirəti və türk konsulluğu ilə əlaqə yaratması olmuşdur. (2, 76)

B. Bəhcət 1918-ci ildə Milli Demokratik Respublika yaradılandan sonra isə onun Zəngəzur qəzasında dayaq nöqtəsi oldu. Sovet hakimiyyəti qurulandan sonra Zəngəzur mətbuatında Bəhlul Əfəndinin ünvanına çoxlu tənqidi yazılar yazılmağa başlandı. Azərbaycanın müstəqil dövlət olmasını istəməyənlər Azərbaycan ziyalılarını təqib etməyə başladılar. Böyük Ermənistan arzusu ilə yaşayan erməni daşnakları: Abramyan, Şaumyan, Akopyan və Mikoyan kimi cəlladlar müsavatçı və din xadimlərini məhv etmək üçün Şamaxıda, Qubada, Zəngəzurda, Qarabağ, Laçın, Cəbrayıl və s. yerlərdə kütləvi qırğına başladılar. Bu vaxt B.Bəhcətə qarşı iki cəbhə vuruşurdu. Birinci Azərbaycan kommunistləri, ikinci isə Zəngəzur İcraiyyə Komitəsinin sədri Saak Ter Ayrapetyan. Onlar B. Bəhcəti real təhlükə hesab edərək, onu aradan götürmək istəyirdilər. Əslində o vaxt Azərbaycanın taleyi HKBD-də işləyən ermənilərin əlində idi. Ermənilər B.Bəhcət haqqında Mircəfər Bağırova yalan məlumatlar verirdilər. Guya B. Əfəndi Sovet hakimiyyətinə qarşıdır. Erməni-lərə inanan Mircəfər Bağırov rus polkunu götürüb Zəngəzura gəldi və bununla da Azərbaycan Demokratik Respublikasının axırıncı dayaq nöqtəsi məhv edildi. (1, 32)

26 iyul 1924-cü ildə Azərbaycan Fövqəladə Komissiyası (Az.FK) kollegiyası tərəfindən Bəhlul Bəhcətə ölüm hökmü kəsilməsinə baxmayaraq, həmin cəza Azərbaycan ərazisindən çıxarılmaqla 5 il müddətinə inzibati sürgünlə əvəz olunmuşdur. Sonra cəza yenidən dəyişdirilmiş və o, 3 il müddətinə islah əmək düşərgəsinə göndərilmişdir.

"B.Əfəndiyev cəza müddətini başa vurduqdan sonra, onun yenidən antisovet qrupla əlaqələrinin mövcudluğu məlum olmuş, qrup aşkarlandıqdan və məhv edildikdən sonra o, İrana mühacirət etmək məcburiyyətində qalmışdır. Həmin materiallar əsasında B.Əfəndi 1926-cı ildə yenidən həbs olunmuş və 22 may 1928-ci ildə antisovet təbliğatı aparmaqda, eləcə də millətçilikdə müqəssir bilinərək 8 il müddətinə azadlıqdan məhrum edilmişdir." (3, 270-271)

Bəhlul Bəhcət həbsdən qayıdandan sonra 1934-1937-ci illərdə əvvəlcə Azərnəşrdə, sonra isə Az.FAH-nın ədəbiyyat bölməsində işlədi. Bu elm ocağı Bəhlul Bəhcətin son iş yeri olur. 1937-ci ilin avqustunda y Bəhlul Bəhcət yenidən həbs olunur. Bəhlul Bəhcət 1937-ci ilin avqustunda yenidən həbs olunur, 15 mart 1938-ci ildə quraşdırılmış ittihamlar əsasında güllələnir. (4, 8; 5, 92)

Şərq ədəbiyyatını, Şərq dillərini eləcə də, Şərq tarixini gözəl bilən B.Bəhcətin bizə gəlib çatmış əsərləri onun görkəmli ədəbiyyatşünas, folklorşünas və islamşünas olduğunu göstərir. Bəhlul Əfəndi Quranı Azərbaycan dilinə tərcümə etmiş, 1922-ci ildə İranda, ötən əsrin əvvəllə-rində isə Türkiyədə işıq üzü görən "Təşrih və mühakimə" əsərini yazmışdır. (6) Bəhlul Bəhcət həmin əsərdə, eləcə də digər məqalələrində sünni-şiə məsələlərini araya atanlara tutarlı cavab vermişdir. Həm dünyəvi elmlər, həm də siyasət ilə məşğul olan Bəhlul Bəhcət Sarı Aşığın bayatılarını kitab halına salmış, "Nizami və Qafqaz folkloru" mövzusunda elmi əsər

yazmış, 1923-cü ildə Təbrizdə olarkən "Məhəmməd peyğəmbərin ailəsinin tarixi" əsərini çap etdirmişdir. "Təşrih və mühakimə" əsəri İran və Türkiyədə çap olunduqdan, təxminən, bir əsr sonra- 2014 cü ildə Azərbaycanda Həmdulla Əfəndiyev tərəfindən nəşr olunmuşdur. Əsərin İran nəşri bizə gəlib çatmamışdır. Lakin "Təşrih və mühakimə" əsərinin əlimizə çatan Türkiyə nəşri diqqəti daha çox cəlb edir. Mənbələrin verdiyi məlumata görə «Ali Məhəmmədin tarixində təşrih və mühakimə» əsəri ilk dəfə 1924-ci ildə Tehranda fars dilində nəşr edilmişdir.

Kitaba yazılmış ön sözdən də aydın olur ki, həmin əsərə böyük ehtiyac olduğundan o bir neçə dəfə təkrar nəşr edilmişdir. Sonra həmin əsər 2003-cü ildə İstanbulda Cəfər Bəndidərya və Abbas Akyüz tərəfindən latın əlifbası ilə nəşr edilmişdir. Göründüyü kimi, B. Behcət folklorşü-nas və ya ədəbiyyat tarixçisi olmaqla yanaşı həm də din tarixçisidir. Onun «Məhəmmədin ailəsinin tarixi», eləcə də dini dəyərlərimizə dair yazdığı digər əsərləri din tariximizi öyrənmək baxımından mükəmməl bir mənbədir. Müəllifin bu istiqamətdə apardığı tədqiqatlar aydın şəkildə göstərir ki, B. Behcət adi qazilərdən olmamış, dini dəyərlərimizi fundamental şəkildə öyrənən və öyrədən, eyni zamanda müdafiə və mühafizə edən yaradıcı din xadimi olmuşdur. (7, 115)

Bəhlul Behcətin "Təşrih və mühakimə"əsərini yazmaqda məqsədi İslam aləminin parçalanmasına səbəb olan, islam ümməti arasına nifaq salan ixtilaflardan, qarşıdurmalardan, onları yaradan səbəblərdən söz açmaq, fikir ayrılıqlarına aydınlıq gətirməkdir. Onun fikrincə bütün dünya müsəlmanlarının arzuladığı bir şey var , o da islam aləminin vəhdəti, fikir və düşüncələrinin birləşməsidir. Buna görə də Bəhlul Bəhcət Zəngəzur bölgədəki şiə və sünni məzhəbli əhali arasında vəhdət, ideya birliyi yaratmışdı. Bəhlul Əfəndi tarixi mükəmməl bilirdi. Onun xəbəri var idi ki, sünni-şiə problemi müsəlmanlardan çox, onların düşmənləri tərəfindən hazırlanıb ortaya atılıb. O, İmam Cəfəri Sadiqin islamda atdığı mütərəqqi addımlardan xəbərdar idi və böyük bir qəzanın qazısı – dini işlər üzrə hakimi olan Bəhlul Əfəndi Şərqin və türk dünyasının böyük fatehi Nadir Şah Əfşarın sünni-şiə məsələsini çox böyük şücaətlə həll etmək istəyində olduğunu da bilirdi.

İslam dəyərlərinin gerçək daşıyıcısı və əsl vətənpərvər ruhani olan Bəhlul Əfəndi doğma yurdun dar günlərində soydaşlarını tək qoymamış, "Cihad bəyannaməsi" yazaraq əhalini silahlı savaşa çağırmışdır. Bəhlul Bəhcət ermənilərin Zəngəzurda törətdikləri qırğınların qarşısının alınmasında misilsiz xidmətlər göstərmişdir. Sovet hökuməti Azərbaycan Xalq Cümhuriyyətini devirdikdən sonra bolşeviklərə arxalanan erməni daşnakları silaha sarılaraq Azərbaycan kəndlərini yandırır, qadınlara, uşaqlara belə divan tuturdular. Buna görə Bəhlul Bəhcət bütün Zəngəzur əhalisi içərisində təbliğat aparmağa başlayır. O, bölgənin sanballı adamlarla – Sultan bəy, Qaçaq Fərzalı, Hacı Qasım Çələbi, Xosrov Sultanov və digərləri ilə yazışır, görüşür və erməni qətliamının qarşısını almaq üçün tədbir tökürdü. Bəhlul Əfəndi bir qazı kimi Zəngəzur camaatına öz əli ilə yazdığı müraciətində düşmənlərə qarşı açıq

mübarizəyə çağırırdı. Müraciət bu sözlərlə bitirdi: «Ya qazi, ya şəhid olaq!» Bununla Bəhlul Əfəndi xalqı mübarizəyə səsləmişdir.

Nəticədə, Bəhlul Bəhcət sadiq müridlərdən ibarət din ordusu-böyük bir silahlı dəstə formalaşıra bildi. Buna görə Rus bolşevikləri və yerli satqınlar Bəhlul Əfəndini nə vasitə ilə olursa-olsun aradan götürmək istəyirdilər. Nəzər Heydərov yazır ki, Bəhlul Behcətin 400-dən artıq yaxşı silahlanmış dəstəsi vardı. Sovet hökumətinə qarşı çıxışlar edən bu dəstəyə qaçaqlar da qoşulurdu. Onların silah-sursatını Bəhlul Əfəndi verirdi. Nəhayət, 1922-ci ilin payızından başlayaraq Bəhlul Əfəndi-nin dəstələri açıq fəaliyyətə keçdilər. Mərkəz Xanlığa yaxın kəndlər – Dağtumas, Sirik, Qazanzəmi, Maşanlı, Çaytumas, Əfəndilər, Usubbəyli kəndləri tam onun adamlarının nəzarətində idi.(8;13)

Bəhlul Bəhcət 1922-ci ildə İrana getmək və Cənubi Azərbaycanda yaşamaq məcburiyyətin-də qalır. Bəhlul Əfəndi burada da boş dayanmır. «Məhəmməd Peyğəmbərin ailəsinin tarixi» əsərini çap etdirir. Hətta burda jurnal buraxdığı və «Qarabağnamə" adlı əsər yazdığı da deyilir. Lakin vətən, yurd həsrətinə dözməyən bu vətənpərvər ziyalı 1923-cü ilin payızında geri qayıdır və həbs olunaraq on il müddətinə azadlıqdan məhrum edilir.

Əzablı həbs və sürgün həyatını başa vurduqdan sonra Stalinə müraciət edir və bildirir ki, mən cəzamı çəkmişəm. Mənim Vətənə qayıdıb işləməyimə yardım edin. Stalin M.C.Bağırova tapşırır və Bağırov Bəhlul Əfəndiyə yataqxanada yer, Azərnəşrdə korrektor işi verir. Burada işlədiyi illərdə Bəhlul Bəhcət Quranı, Firdovsinin "Şahnamə"sini Əmin Abidlə birlikdə orijinaldan dilimizə tərcümə edib edib. B. Bəhcət əvvəlcə Tehranda fars dilində, sonra isə Azərbaycan dilində nəşr edilən "Məhəmməd Peyğəmbərin və ailəsinin tarixi" kitabının, eləcə də, "Qarabağ tarixi", "Nizami və Qafqaz folkloru" kitablarını yazmışdır. Bəhlul Bəhcət Sarı Aşıq, Nəbati yaradıcılığını toplayıb tədqiq və nəşr etdirib. Sonra B. Bəhcət "Qaçaq Nəbi" dastanını toplayır və nəşrə hazırlayır.

Hüseyn Cavid, Hənəfi Zeynallı, Salman Mümtaz, Əmin Abid, Əliağa Vahid, Əhməd Cavad, Mikayıl Müşfiqlə dostluq edən və bir çox müasirləri ilə sıx ünsiyyətləri olan, ziyalılar arasında adı hörmətlə "Bəhlul Əfəndi" deyə çağırılırdı. Amma Bəhlul Əfəndini gözü götürməyənlər get-gedə çoxalırdı. "Azərnəşr"də çalışdığı zaman Bəhlul Əfəndi bədbin həyat tərzi sürmüş, həmişə Sovet işğalına qarşı barışmaz mövqe tutmuşdur. İşlədiyi müddətdə Bəhlul Əfəndi əyin-başına, saç-saqqalına fikir vermir. Üzü-başı həmişə tük basmış vəziyyətdə olur. Yerli satqılardan biri, NKVD casusu bir gün alimə özünə fikir verməməsini, saçının uzunluğunu irad tutaraq Bəhlul Bəhcətdən soruşur:

- Bəhlul Əfəndi, üzünə-başına niyə qulluq eləmirsən?

O isə cavabında "bu baş ki, düşmənə xidmət edir, mən ona qulluq etmərəm" cavabını verir. Elə həmin gün B.Bəhcətin bu cavabını lazımı yerinə-NKDV-yə çatdırılar. Beləliklə, bu gözəl qələm sahibini, nəcib üləmanı və qorxmaz qazını1937-ci ildə yenidən həbs edirlər. Şübhəsiz ki, nə Sovet rəhbərliyi, nə də daşnak ermənilər

bu dönməz, mübariz ziyalının bu sözünü və "keçmiş səhvləri"ni bağışlaya bilməzdi. Beləcə, Zəngəzurun son qazısı, ərəb, fars, rus dillərini mükəm-məl bilən, böyük zəka sahibi Vətəninə qəlbən bağlı olan Bəhlul Əfəndi erməni-daşnak, sovet-bolşevik müstəntiqlər tərəfindən mühakimə olunaraq ölümə məhkum edilmişdir.

Şöbənin əməkdaşı Məmmədov 824 №-li orderlə Bəhlul Əfəndinin evində axtarış aparıb. Protokolda göstərilir ki, evdən 16 müxtəlif kitab, 4 qovluq müxtəlif əlyazması, 3 ədəd fotoşəkil, bir çamadan müsadirə olunmuş kitab və əlyazmalar tapılıb. Həmin əmanətlər qonşusu olam bir rusa verilir. Göründüyü kimi bu böyük insanın vəzncə yüngül, məzmunca ağır olan əmlakı, daha doğrusu əlyazmaları yad millətdən olanları ixtiyarına buraxılıb. (9)

Azərbaycan tarixini, folklorunu dərindən bilən görkəmli islamşünas alim Bəhlul Əfəndi Behcət dövrünün böyük idrak sahibi kimi tanınmışdır. Bəhlul Behcətin həyat və yaradıcılığına nəzər saldıqda göz önündə fədakar alim, milli-dini dəyərlərimizə sadiq, cəmiyyətə öz sağlam mövqeyi ilə töhfələr vermiş din xadimi obrazı canlanır. Qabaqcıl dünyagörüşünə malik din xadimi kimi, o həm də milli istiqlal ideyasının daşıyıcısı olmuş, Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlətçiliyimizə xüsusi sədaqəti ilə seçilmişdir.

Alimin böyüklüyünü göstərən amillərdən biri də onun İslam dini dəyərlərinə məzhəb təəssübkeşliyi çərçivəsində deyil, daha geniş prizmadan yanaşması və cəmiyyətdə birləşdirici mövqe tutması olmuşdur. Zəngəzur qəzasına erməni daşnaklarının hücumu zamanı düşmənə qarşı birgə mübarizənin öncüllərindən və ideoloqlarından olan bu böyük şəxsiyyət elin yaddaşında həm də vətənpərvər və mübariz ziyalı kimi qalmışdır. Bu böyük alimin yaradıcılığı çoxşaxəliliyi ilə seçilir. Onun irsində tərcümə mühüm yer tutur. Hətta, məhbəs illərində də bolşevik rəhbərliyi onun elmi imkanlarından istifadə etmiş, bir çox elmi-fəlsəfi, siyasi ədəbiyyatlardan tərcümələr etməsinə şərait yaratmışdır. Elmi əsərləri, tərcümələri ilə yanaşı, Bəhlul Əfəndi "Behcət" təxəllüsü ilə gözəl şeirlər müəllifi kimi də tanınmış, müasirləri onu hörmətlə "Bəhlul Əfəndi" çağırmışlar.

B.Bəhcətin yaradıcılığında Azərbaycan folkloru, xalq ədəbiyyatı geniş yer tutub. O, xalq yaradıcılığı ilə bağlı fundamental tədqiqatlar aparmış, Sarı Aşığın həyat və yaradıcılığının öyrənilməsində, onun bədii irsinin toplanmasında xüsusi xidmətlər göstərmişdir.(10)

"Qaçaq Nəbinin tarixi" adlı tədqiqat əsəri Bəhlul Bəhcətin yaradıcılığında əhəmiyyətli yer tutur. (11) Kitabın mətnini hazırlayan və ona "Ön söz" yazan müəllif görkəmli folklorşünas İsrafil Abbaslı olmuşdur.(12)

Ümumiyyətlə, bu kitab tariximizin çox mürəkkəb bir dövrü ilə bağlı samballı tədqiqat əsəri kimi çox qiymətlidir. Azərbaycan xalqının yetirdiyi ən məşhur qəhrəmanlardan olan Qaçaq Nəbi əldə silah vəfalı ömür-gün yoldaşı qoçaq Həcərlə birlikdə fasiləsiz olaraq o taylı-bu taylı Azərbaycanda yadelli rus-erməni, eləcə də fars zülmünə qarşı mübarizə aparmışdır.

"Bəhlul Bəhcət həm də Nəbinin şəninə xalqın qoşduğu çox sayda şeirlərin də ilk toplayıcısı olub, bu qəhrəmanların xalq tərəfindən bu qədər çox sevilməsini, adına çox miqdarda şeir, mahnıların qoşulmasını da həm igidliyi, həm də kəndlilərə qəlbən yaxınlığı, xeyirxahlığı ilə bağlayır". (14; 15)

XX əsrin iyirminci illərin əvvəllərindən başlayaraq Sovet imperiyasının tələbi ilə yazılı ədəbiyyatda olduğu kimi, şifahi yaradıcılıqda da müəyyən "meyarlar" meydana gəldi. Ziyalıların, şair və yazıçıların, elm adamlarının, eləcə də folklorşünasların "panislamist", "pantürkist" kimi ifadələrlə damğalanma dövrü başlandı. Belə ziyalılarımızdan biri də Bəhlul Bəhcət oldu. Bütün bu təqib və təzyiqlər özünün zirvə məqamına 37-də çatmış və B.Bəhcətin növbəti həbsi onun ölümü ilə yekunlaşmışdır. 3 iyul 1937-ci il, Azərbaycan Xalq Daxili İşlər Komissarlığı Dövlət Təhlükəsizlik İdarəsinin (XDİK DTİ) 4-cü şöbə 2-ci bölməsinin rəis köməkçisi leytenant Q.Nikolayev B.Bəhcətlə bağlı aşağıdakı məzmunda arayış hazırlamışdır: "Əfəndiyev Bəhlul Əfəndi Mustafa oğlu 1868-ci ildə (açıq mənbələrdə onun 1885-ci ildə doğulduğu qeyd edilir) Qubadlı rayonunun Dondarlı kəndində anadan olmuş, hazırda Bakı şəhəri, Poçt küçəsi, ev 111 ünvanında yaşayan, azərbaycanlı, SSRİ vətəndaşı, 1921-ci ildə Sovet hakimiyyətinə qarşı silahlı üsyanın təşkilatçısı kimi sürgünə göndərilmiş, qayıtdıqdan sonra isə Zəngilan və Qubadlı rayonlarındakı əksinqilabi elementlərlə və Bakı şəhərində yaşayan əksinqilabi ruhlu ziyalılarla yenidən əlaqə yaratmışdır.

Sovet hakimiyyətinə qarşı silahlı üsyanda iştirak etmək üçün kadrlar hazırlanmasının ilhamvericisi və təşkilatçısıdır. Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarındakı əksinqilabi millətçi təşkilatlara rəhbərlik edir. Bu məlumatların əsasında hesab edirəm ki, Əfəndiyev Bəhlul Əfəndi Az.SSR CM-in 72 və 73-cü maddələri ilə cinayət məsuliyyətinə cəlb edilsin və Az.XDİK-in həbsxanasında nəzarət altında saxlanılsın". (9)

1937-ci ilin avqustunda yenidən həbs olunur və sovetləşməyə qarşı olduğuna, Zəngəzur camaatını cihada çağırdığına görə NKVD üçlüyünün qərarı ilə 15 mart 1938-ci ildə quraşdırılmış, saxta ittihamlar əsasında güllələnir. 20 ildən sonra Azərbaycan SSR Ali Məhkəməsinin 5 noyabr 1958-ci il tarixli qərarı ilə bəraət verilir.

Bəhlul Bəhcət həm dünyəvi elmlərlə, həm də dini elmlərlə məşğul olsa da, bütün ömrü boyu Azərbaycan xalq ədəbiyyatına qırılmaz tellərlə bağlı olmuşdur. Onun yazdığı elm və dini əsərlər bu gün də öz aktuallığını saxlayır.

İşin elmi nəticəsi: Bəhlul Bəhcət Azərbaycan folklorşünaslıq elmi tarixində xüsusi yeri olan folklorşünaslardandır. Araşdırmada böyük təfəkkürə malik olan B. Bəhcətin bir folklorşünas kimi Nizami və Qafqaz folkloru haqqında, eləcə də Sarı Aşıq və"Qaçaq Nəbi" dastanı haqqında, eləcə Azərbaycan folklorunun müxtəlif məsələləri haqqında fikirləri yer almışdır.

İşin elmi yeniliyi: Tədqiqatın əsas elmi yeniliyi onun mövzusunun aktuallığı ilə müəyyən olunur. Bəhlul Bəhcətin bir folklorşünas alim kimi Azərbaycan

folklorşünaslığı tarixində yeri, onun folklora aid fikirləri ətraflı çəkildə öyrənilərək tədqiqata cəlb edilmişdir. Araşdırmada həmçinin B. Bəhcətin çağdaş dövrümüzdə də öz elmi aktuallığını saxlayan bir çox fikirlərinə və onların əsas müddəalarına geniş yer verilmişdir.

İşin tətbiqi əhəmiyyəti: Araşdırma Azərbaycan folklorşünaslığında xüsusi yeri olan tanınmış folklorşünas Bəhlul Bəhcətin folklorşünasığımızda göstərdiyi fəaliyyətinin təcəssümünü müəyyən etmək baxımından mühüm elmi əhəmiyyət daşıyır.

ƏDƏBİYYAT

1. Bəşiroğlu Ə. İşıqlı şəxsiyyətlər unudulmur, Bakı: 2006, 137 səh.
2. Qasımov C. Məhbus tərcümeyi-halı. Bakı: Səda, 2003, 181 səh.
3. Qasımov C. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı: Nurlan, 2011, 600 səh.
4. Mükərrəmoğlu M. "Qaçaq Nəbinin tarixi" Xalq qəzeti, 4 dekabr, 2011, səh. 8.
5. Umudov Q. Folklorşünaslığımızın tarixindən.(1920-1941-ci illər). Bakı: Təbib, 1995, 112 s.
6. Behlül B. E. Âl-i Muhammed Tarihinde Teşrih ve Muhakime" İstambul: Revak Kitabevi, 2012, 160 seh.
7. Qasımov C. Azərbaycan folklorşünasları(1920-1950). Bakı: Elm, 2015, 456 səh.
8. Qaradərəli A. Sovet hökumətinə etiraz olaraq saçlarını uzadan - Bəhlul Behcət. ru.azadinform.az/news/a-60007.html
9. MTN-in arxivi. B.Bəhcətin istintaq qovluğu, PR 30693.
10. Bəhcət B. Sarı Aşığın bayatıları. Transliterasiya və "Ön söz"ün müəllifi Rza Xəlilov, elmi redaktoru İsrafil Abbaslı, Bakı, "Səda", 2006
11. Mükərrəmoğlu M. "Qaçaq Nəbinin tarixi", Xalq qəzeti.- 4 dekabr, 2011 səh. 8
12. Qaçaq Nəbi. /"Ön söz"ün müəllifi İsrafil Abbaslı. Bakı:"Lider nəşriyyat", 2005, 96 səh.
13. Heydərov N. Zəngəzur dağlarında. Bakı:"Şərq-Qərb", 2016, 242 səh.
14. Nərimanoğlu H. "Zəngəzurun sonuncu Qazısı Bəhlul Behcət və onun "Qaçaq Nəbi tarixi" kitabı.
15. Behcət B. Qaçaq Nəbinin tarixi.(vəsiqə və sənədlər üzrə) /"Ön söz"ün müəllifi İsrafil Abbaslı. Bakı: Çıraq, 2011, 288 səh.

Tahir Orujov

BAHLUL BAHJAT: WELL-KNOWN FOLKLORIST, LITERARY CRITIC AND THE LAST JUDGE OF ZANGAZUR

SUMMARY

Bahlul Bahjat is known in the history of literary thought as a well-known literary critic, folklorist, Islamic scholar, historian and translator. B. Bahjat is one of the researchers who has a special place in the history of Azerbaijani folklore. "Bahjat" is his creative signature. Bahlul Bahjat had important services in the further development of Azerbaijani folklore in 1920-30.

B. Bahjat received religious education in Turkey and Iran. After completing his education, Bahlul Bahjat returned to his homeland, engaged in religious activities in Zangazur district, and served as the last judge of Zangazur. He served in this position from 1918 to 1920. Bahlul Bahjat, like many prominent intellectuals of the period, was a victim of repression in the Soviet Empire. He was closely acquainted with Azerbaijani folk literature and classical Eastern culture.

Bahlul Bahjat translated the Qur'an and Firdovsi's "Shahnameh" together with Amin Abid from the original into our language. Bahjat first wrote the book "History of the Prophet Muhammad and his family", published in Persian in Tehran, and then in Azerbaijani, as well as "History of Karabakh", "Nizami and Caucasian folklore". Bahlul Bahjat Sari Ashig, collected, researched and published Nabati's works. B.Bahjat also collected the epos "Fugitive Nabi" and prepared it for publication.

B. Bahjat, a progressive intellectual, was arrested in August 1937 and shot by the NKVD trio on March 15, 1938, on false charges. After 20 years, he was acquitted by the decision of the Supreme Court of the Azerbaijan SSR dated November 5, 1958.

Keywords: Bahlul Bahjat, Zangazur district, Gubadli, Dondarli, literary critic, folklore scholar, victim of repression.

Тахир Оруджов

БАХЛУЛ БАХДЖАТ: ИЗВЕСТНЫЙ ФОЛЬКЛОРИСТ, ЛИТЕРАТУРНЫЙ КРИТИК И ПОСЛЕДНИЙ СУДЬЯ ЗАНГЕЗУРА

РЕЗЮМЕ

Бахлул Бахджат известен в истории литературной мысли как известный литературный критик, фольклорист, исламский ученый, историк и переводчик. Б. Бахджат - один из исследователей, занимающих особое место в истории азербайджанского фольклора. «Бахджат» - его творческая подпись. Бахлул Бахджат сыграл важную роль в дальнейшем развитии азербайджанского фольклора в 1920-30 годах.

Б. Бахджат получил религиозное образование в Турции и Иране. После завершения образования Бахлул Бахджат вернулся на родину, занялся религиозной деятельностью в Зангезурском районе и был последним судьей

Зангезура. На этой должности он служил с 1918 по 1920 год. Бахлул Бахджат, как и многие выдающиеся интеллектуалы того времени, стал жертвой репрессий в Советской империи. Он был близко знаком с азербайджанской народной литературой и классической восточной культурой.

Бахлул Бахджат вместе с Амином Абидом перевел Коран и «Шахнаме» Фирдовси с оригинала на наш язык. Бахджат первым написал книгу «История пророка Мухаммеда и его семьи», изданную на персидском языке в Тегеране, затем на азербайджанском языке, а также «История Карабаха», «Низами и кавказский фольклор». Бахлул Бахджат собрал, исследовал и опубликовал работы Сари Ашига и Набати. Бахджат также собрал эпос «Качак Наби» и подготовил его к публикации.

Б. Бахджат, прогрессивный интеллектуал, был арестован в августе 1937 г. и был застрелен троицей НКВД 15 марта 1938 г. по ложному обвинению. Спустя 20 лет он был оправдан постановлением Верховного суда Азербайджанской ССР от 5 ноября 1958 года.

Ключевые слова: Бахлул Бахджат, Зангезурский район, Губадлы, Дондарлы, литературовед, фольклорист, жертва репрессий.

Redaksiyaya daxil olma tarixi: 22.01.2021
Capa qəbul olunma tarixi: 07.02.2021
Rəyci: Filologiya elmləri doktoru, professor Seyfəddin Rzasoy capa tovsiyə etmişdir.

NAİLƏ ƏSKƏR
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
İçərişəhər, 8-ci Kiçik Qala döngəsi, 31
qaracantali@live.com

TARİXİLİK MÜSTƏVİSİNDƏ "KOROĞLU" DASTANI

Xülasə

Türk xalq ədəbiyyatının başlanğıcı olaraq qəbul edilən, həcminə və söyləyicilik ənənəsinə görə şifahi ədəbiyyatın ən böyük və geniş epik növü olan dastanların kökü qədim türk mifologiyasının dərin qatlarına qədər enir. Dastançılıq mərhələsi kimi qəbul olunmuş qədim türk xalq söyləyicilik ənənəsinin yayıldığı dövrə nəzər salsaq, bu ənənənin keçdiyi uzun bir yoldan bəhs etməliyik. Həmin yol türklərin qədim həyat tərzi və inanc sisteminə uyğun şəkildə mifologiyadan qəhrəmanlıq dastanlarına, daha sonra islam dininə keçid prosesi ilə də bağlı olaraq yavaş-yavaş qəhrəmanlıq mövzularından məhəbbət mövzularına keçmişdir.

Belə qədim qəhrəmanlıq dastanlarımızdan biri də türk xalqlarının və onlara qonşu xalqların folklor mirası olan "Koroğlu" dastanıdır. "Koroğlu" dastanı geniş əraziyə yayılmış, iki böyük versiyaya bölünmüş, çox sayda variantı olan qədim bir folklor mirası və eyni zamanda bu gün də aşıqlar tərəfindən icra olunaraq yaşayan bir epik əsərdir. Bir çox tədqiqatçı alimlərin fikrinə görə dastan türkmənlər tərəfinfən yaradılmış və zamanla bütün Türküstan coğrafiyasına yayılmışdır. Dastanın bu qədim laylarının Orta Asiya coğrafiyasında şöhrət qazandığı və buradan türk boylarının köçləri ilə qərbə və cənuba doğru genişləndiyi fikri mövcuddur. Lakin bununla yanaşı dastanın orta əsrlərdə Cənubi Azərbaycanda və Anadoluda Cəlalilər hərəkatı ilə başladığı fikri də mövcuddur. Koroğlunun tarixi şəxsiyyət olduğu, bu hərəkatda fəal iştirak etdiyi və məşhurlaşdığı da irəli sürülən müddəalar arasındadır. Bundan başqa, Anadoluda haqqında olan şikayətlərə görə adı sənədlərə düşmüş quldur Koroğlu və eyni zamanda Osmanlı ordusunda vəzifə tutmuş və qoşun ilə səfərə çıxdığı sənədlərlə təsdiq olunmuş saz şairi Koroğlu da mövcud olmuşdur.

Bu məqalədə "Koroğlu" dastanı haqqında qısa məlumat verilir, bu epik əsərin tarixilik məsələləri haqqında mütəxəssislərin fikirlərinə yer verilir, dastanın yaranma, yayılma, variantlaşma mövzuları araşdırılır.

Açar sözlər: ***"Koroğlu" dastanı, variant, tarixilik, qəhrəmanlıq, türk, epik***

Qədim türk ənənələrinə görə hökmdar döyüşə gedərkən ordusunun ön sıralarında ozanları götürmüşdür. Ozanlar qəhrəmanlıq havaları ilə orduya ruh yüksəkliyi verməklə yanaşı, həm də döyüş vaxtı döyüşçülərin şücaətinə şahid olaraq bunu sənədləşdirirdi. Bu baxımdan qədim türk qəhrəmanlıq dastanları türkün tarixi, hərb salnamələridir. Bu qəhrəmanları tərənnüm edən dastanların, demək olar ki,

hamısı hələ qəhrəman yaşayarkən yayılmağa, dildən-dilə dolaşmağa başlayırdı. Ən kiçik folklor nümunələrindən ən böyüyünə – epik əsərlərə, dastanlara qədər şifahi ədəbiyyatımızın mövzusu olan hadisələrdə türk qövmünün tarixi şifrələnmişdir. Dastanlarımız bu məsələdə digər folklor növlərinə görə daha öndədir. Türk xalq ədəbiyyatının epik növü olan dastanlar dünya mədəniyyət tarixinə bir çox dəyərli söz abidələri hədiyyə etmişdir.

"Latındilli qaynaqların qoruduğu bilgiyə görə ozanlar Atilla dövründən və Atilla sarayından başlayaraq Səlcuqlar da daxil omaqla XV yüzilliyə kimi qopuzları ilə saraylarda şənlik və törənlərdə tarixi hadisələri, müxtəlif bahadırları tərənnüm etmiş, onları tanıdıb yaşatmışlar" (1, s.132).

Qədim türk dastanları qəhrəmanlıq mövzusundadır və əsasən döyüşçü, hökmdar və ya igidlik göstərmiş hər hansı bir qəhrəman haqqındadır. Təsvir qisimlərində epik söyləyicinin dilindən danışılmış, amma o özü hadisələrə qarışmamışdır. Əsasən dastan məşhurlaşdıqdan sonra ilk söyləyicinin kimliyi unudulardı, o, məçhul bir ozan və ya şamandır. Qəhrəmanlıq, igidlik, qorxmazlıq, cəsarət, vətənpərvərlik, mərdlik, dürüstlük, ədalət kimi yüksək bəşəri dəyərlər bu dastanların ortaq mövzulardır. Qədim türk ənənələrinə bağlı olan bütün dastanlarımız bu məsələlərdə bir-birinə sıx bağlıdır. Eyni zamanda bu dastanlar özbaşına müstəqil əsərlər olmaqla yanaşı quruluşca da bir-birindən fərqlənirlər.

"Epos həmişə beynəlxalq xarakterindəki əlamətlərinə görə seçilir: o bir qəbilənin başçısı ilə mübarizəni tərənnüm edir, buna görə də həmin mübarizədən danışan hekayə döyüşən hər iki tərəf üçün maraqlı olur. Buradan da bəlli ibarə meydana çıxır ki, epos qəbilələrin toqquşmasından yaranır" (12, s.476).

Dastan sözü dilimizə fars dilindən keçmişdir. Bu söz Azərbaycan dilində hekayət, nağıl mənasında epik və ya epik-lirik janra verilmiş addır. Türkmən türkcəsində bu söz "dessan" şəklində tələffüz olunur.

Müxtəlif türk xalqları arasında qəhrəmanlıq dastanlarına ta qədimdən hazırkı dövrədək "comaq", "cır", "olonqho" və ya "ərtəgü" deyildiyi də məlumdur. Başqırdlarda isə bu mənada "kobayır" sözü istifadə olunur. Türk boylarının geniş coğrafiyaya yayılması, müxtəlif siyasi, dini, mədəni və s. təsirlərə məruz qalması, xalqlar arasında əlaqələrin zəif olması bu qədər çox temrinin meydana gəlməsinə səbəb olmuşdur. Bundan başqa, yenə siyasi, ideoloji, mədəni əlaqələrin zəifliyi ortaq terminlərin yaradılmasına və işlədilməsinə mane olan səbəblərdən biri olmuşdur.

"Qədim türk dastanı əsasən e.ə. I minilliyin ortalarında meydana çıxmışdır. Lakin epos ənənəsinə uyğun olaraq, daha qədim dövrlərin hadisələri, ictimai, etnik, estetik əhval-ruhiyyəsi də onlarda öz əksini tapmışdır" (1, s.15-16).

Qədim türk qəhrəmanlıq dastanları ənənəvi söyləyicilik tərzinə malikdir və demək olar ki, bütün dastanlar bu qəlibə uyur. "Qədim türk cəmiyyətində dastan anlayışı istisnasız olaraq alplıq fikrinin xarakterləşməsinə yönləndiyi üçün bu mərhələyə aid olan epik ənənənin özəyində qəhrəmanlıq motivi və bu motivin ifadəsi olan müxtəlif qəhrəmanlıq süjetləri durur" (8, s.255-256).

Qədim eposlarının mövzusu qəhrəmanlıq, sücaət, qəhrəmanı isə alp, döyüşçü-hökmdarlar idi. E.Meletinski bu eposların yaranma, yayılma və yaşama prosesini araşdırmış, bu prosesin ilkin qaynağını "mədəni qəhrəman haqqında mifologiyalar"dan (15, s.30) aldığını qeyd etmişdir.

Türk xalq ədəbiyyatının başlanğıcı olaraq qəbul edilən, həcminə və söyləyicilik ənənəsinə görə şifahi ədəbiyyatın ən böyük və geniş növü olan dastanların kökü qədim türk mifologiyasının dərin qatlarına qədər enir. Dastançılıq mərhələsi kimi qəbul olunmuş qədim türk xalq söyləyicilik ənənəsinin yayıldığı dövrə nəzər salsaq, bu ənənənin keçdiyi uzun bir yoldan bəhs etməliyik. Həmin yol türklərin qədim həyat tərzi və inanc sisteminə uyğun şəkildə mifologiyadan qəhrəmanlıq dastanlarına, daha sonra islam dininə keçid prosesi ilə də bağlı olaraq yavaş-yavaş qəhrəmanlıq mövzularından məhəbbət mövzularına keçmişdir.

V.Jirmunskinin də ifadə etdiyi kimi, "epik üslub həyatı dərk etmənin geniş hüdüdlarını müəyyənləşdirdi, ağız ədəbiyyatında böyük və ənənəvi hadisə yaratdı" (13, s.213). Bu da şifahi ənənəli söyləyiciliyin inkişafına və buna bağlı olaraq epik janrın, dastan yaradıcılığının yaranmasına səbəb oldu.

Türk xalqlarının və onlarla qonşu xalqların yaddaşında özünə dərin iz qoymuş epik folklor mətnlərinin başında "Koroğlu" dastanı gəlir. Dastan çox geniş əraziyə yayılmışdır, buna görə də iki böyük versiyaya və beş yüzdən çox varianta bölünmüşdür. Bu gün "Koroğlu" dastanı, Xəzər dənizi əsas götürülərək, Qərb və Şərq versiyalarına ayrılmışdır. Araşdırdığımız Azərbaycan və Türkmən versiyaları da Qərb və Şərq versiyalarını təmsil edərək, demək olar ki, dastanı tam olaraq əhatə edir. Dastan versiyalar daxilində də fərqli və ortaq cəhətlərinə görə variantlaşmışdır. Bu eposun Orta Asiya coğrafiyasında yayılmış ən məşhur versiyalarından biri də türkmən "Goroğlu" dastanıdır. Türkmən xalqının "Goroğlu" dastanı Şərq veriyası arasında ən böyüyü və mükəmməli hesab olunur.

M.Köprülüzadə, Ə.Z.Vəlidi və s. folklorşünaslar "Koroğlu" dastanının mifoloji köklərinin hələ Göytürklər dövründə Orta Asiya oğuzları arasında yarandığı və yaşadığı fikrini müdafiə etmişlər. Bu fikirlə P.N.Boratav da razılaşmışdır: "Bu nəzəriyyəyə görə, "Koroğlu" dastanı, islamiyyətin türklər arasına girməsindən əvvəl Mavərayi Bəhri-Xəzər oğuzları arasında Oğuz-İran mücadiləsindən bu şəkildə ortaya çıxdıqdan sonra, islamiyyəti qəbul etmiş oğuzların Xorasandan İran, Azərbaycan və Anadoluya gəldikləri dönəmdə bu ərazilərə gətirilmişdir. Sonralar özbəklərlə türkmənlərin sıx münasibətdə olduğu zamanlarda özbəklərə, onlardan qazaxlara keçmişdir. Digər tərəfdən də Anadoluda və Azərbaycanda intişar etmiş, şəklini dəyişmiş, yeni bir dastan mahiyyətini almışdır" (6, s.138).

Qədim türk dastanları yaradılış, varoluş və həyat düşüncələrinə geniş yer vermiş, fəlsəfi-mifoloji və estetik baxışla hadisələrə baxmış, bəzən bütövləşmə, müdrikləşmə, zənginləşmə yolu qət edərək təkamül yaşamışdır. Cəmiyyətin sosio-mədəni quruluşunun və inkişafının təsirində qalaraq həm mövzu, həm quruluş olaraq dəyişmələrə məruz qalmış dastanlarımızın keçdiyi yol xəritəsini belə göstərmək

mümkündür: "Köçərilikdən oturaq həyata keçişin ilk məhsullarından olub; məhəbbət, qəhrəmanlıq və b. buna bənzər mövzuları işləyən; qaynağı türk, ərəb-islam və hind-İran olan, böyük miqdarda aşıqlar və məddahlar tərəfindən söylənilən nəzm nəsr qarışığı mətnlərdir" (3, s.7).

Dastanlarımız nəsr və nəzmli quruluşa malikdir, təsvir və şeir hissələrində qəlibləşmiş üslub və ifadələrə rast gəlirik, əsasən qəhrəmanlıqdan və məhəbbətdən bahs edir, bəzən iki mövzu da bir yerdədir.

Koroğlunun tarixi şəxsiyyəti və dastanın yaranması məsələlərində bir-birinə ziddiyyət təşkil edən bir çox fikir və mülahizələr mövcuddur. Tarixi hadisələri və coğrafi koordinatları misal gətirərək dastanın türklərin İslamı qəbulundan əvvəl Türküstanda yarandığını və buradan köçlərlə yayılaraq variantlaşdığını düşünənlərlə yanaşı, dastanın son üç-dörd əsrdə Qafqazda və ya Anadoluda yarandığını və Xorasan bölgəsindən baxşılar vasitəsi ilə türkmənlərə keçdiyini və buradan da Türküstanda variantlaşdığı fikrini müdafiə edənlər də vardır.

Dastanı Göytürk- Sasani, İran-Turan, sünnü-şiə qarşıdurmalarına bağladıqları kimi, faktlar və sənədlərlə Cəlalilər hərəkatı ilə əlaqləndirib ilk rüşeymlərinin buradan yarandığına bağlayanlar da vardır. Sovet dövrü ideologiyası daha çox Cəlalilər üsyanı fikrini ön plana çıxararaq qəhrəmandan sosial cəmiyyət uğrunda vuruşan inqilabçı obrazı yaratmaq məqsədi güdürdü. Koroğlunun tarixi şəxsiyyət olduğunu ilk dəfə qeyd edən sovet tarixçisi İ.Petruşevski olmuşdur, amma sonrakı yazılarında o bu fikirdən yayınmış kimidir: "Ola bilər ki, Cəlalilər hərəkatının başçılarından biri daha qədim əfsanələrlə şöhrətlənmiş olan Koroğlu adını sonralar öz üstünə götürmüşdür" (16, s.85). Bu fikir Cəlalilər hərəkatı vaxtı mübarizə aparan Koroğlu adlı bir liderin olduğunu bildirir, amma onun bu adı daha sonra xalq arasında məşhur olan dastan qəhrəmanı Koroğlunun adından alıb-almadığını dəqiq demək mümkün deyil.

"Nəzərə almaq lazımdır ki, epos təhkiyəsinin daha əvvəlki tarixi hadisə əlamətlərini sonrakı oxşar tarixi hadisələr üzərinə, daha əvvəlki tarixi şəxsiyyətin keyfiyyətlərini sonrakı tarixi şəxsiyyətlər üzərinə köçürmək, onlan uyuşdurmaq, eyniləşdirmək və ya fərqli tarixi zamanda mövcud olanları bir-birinin müasiri etmək keyfiyyəti orada yer alan obrazlarm, hadisələrin tarixi prototipini müəyyənləşdirməyə imkan vermir. Təsadüfi deyil ki, "Koroğlu" eposu qəhrəmanının tarixi prototipi ilə bağlı, təxminən 10-a yaxın real tarixi şəxsiyyətin adı hallandırılır: Cəlali Koroğlu, Aşıq Koroğlu, Sultan Xosrov Koroğlu, II Arşak, An Lu-şan, Babək və b. Yenə həmin dastanın min illik arada cərəyan etmiş Göytürk-Sasani, türk-Çin, türk-ərəb, Osmanlı-Səfəvi mücadilələri, Cəlalilər üsyanı və digər hadisələrlə bağlılığı haqqında müxtəlif fikirlər mövcuddur" (2, s.51).

P.N.Boratav (7, s.188) dastanın qaynağını Cəlalilər üsyanlarından aldığını və qolların XVI əsrdə Boluda təşəkkül etdiyini hesab edir. Z.V.Toğan (4, s.65) dastanı variantlardakı toponimlər və şəxs adlarına əsasən oğuzların (Göytürklər) Sasanilərlə Xarəzm-Astrabad bölgəsindəki münaqişələr dövrü ilə əlaqələndirir. Onun fikrincə, Daha sonra Orta Asiyadan Xorasana, oradan Azərbaycana və Anadoluya köç edən

türklər "Koroğlu" dastanını da yanlarında gətirmişlər. Bu mülahizəni M.F.Körpülüzadə və Z.Gökalp müdafiə etmiş, dastanınn təşəkkül dövrünü Göytürklər dövrü olaraq qəbul etmişlər. Z. Gökalp "Eski Turklerde İçtimai Teşkilat İle Mantıki Tasnifler Arasında Tenazur" adlı yazısında (9, s.89) Koroğlunu Sultan Mahmud Qəznəvi prototipinə bənzədərək Eyvaz adının da Eyaza çox yaxın olduğuna diqqət çəkmişdir.

M.Hatəmi "Koroğlu surətinin mənşəyi haqqında" (10, s.16-17) adlı məqaləsində V.Xuluflunun fikirlərini xarakterizə edərək, onun Alı kişi və Koroğlunu od, işıq və qığılcım ünsürləri ilə bağladığını bildirir. V.Xuluflu XVI-XVII əsrlərdə Koroğlu adının yaranması fikirlərinə etiraz edir və yazır: Əldə olan sənədlər göstərir ki, "Koroğlu" adı ən əski dövrlərdən bəri türkdilli xalqlar arasında mövcud olmuşdur. Bu haqda müəllif öz mülahizələrini belə yekunlaşdırır: Zevsin oğlu Herakl kimi ölü qadından doğulan Koroğlunu/Goroğlunu reallaşdırmaq, tarixiləşdirmək ağlasığmazdır.

Bundan başqa, Anadoluda haqqında olan şikayətlərə görə adı sənədlərə düşmüş quldur Koroğlu və eyni zamanda Osmanlı ordusunda vəzifə tutmuş və qoşun ilə səfərə çıxdığı sənədlərlə təsdiq olunmuş saz şairi Koroğlu da mövcud olmuşdur.

"Koroğlu İran şahı Şah Abbas və Türkiyə sultanı Sultan Muradın hakimiyyəti dövründə çoxsaylı atlıların başında duraraq yollarda ağalıq edirdi; bəzən keçən tacirləri soyur, bəzən də onlardan razılıqla pul alırdı" (14, s.10).

Fikrimizcə, dastan qəhrəmanının tarixi şəxsiyyət olduğunu araşdırmaq və tarixiliyi ön plana çıxarmaq folklor araşdırmacısının işi olmamalıdır. Koroğlunun tarixi şəxsiyyət olub-olmaması, tarixi şəxsiyyətdirsə hansı dövrdə yaşaması və ya hansı türk qövmünə mənsub olması onun qəhrəmanlıq dəyərlərindən heç nəyi götürmür.

Türküstandan Kiçik Asiyaya qədər məsafədə iqdisadi, siyasi və sosio-mədəni fərqliliklər qəhrəmanın fərqli statsus və mövqeyini təmsil edir. Köçəri həyat şərtlərinə görə yaşayan qövümlər üçün yağma və basqınlar iğidlik olaraq dəyərləndirilərkən, oturaq və ya yarıoturaq həyatda bunlar quldurluq hesab edilmişdir. Bu cəhətdən Koroğlunun məcəraları haqqında müxtəlif fikirlər yaranmışdır, amma V.Proppun da yazdığı kimi, dastanın əsas qəhrəmanı müasir mənada cəmiyyətin əxlaq dəyərlərinə uyğun gəlməyə bilər: "Eposda bütün əsas qəhrəmanlar müsbətdirlər və milli idealları təcəssüm etdirirlər. Lakin bununla belə, folklor qəhrəmanı heç də həmişə nəyin etik, nəyin isə qeyri-etik olduğu barədə müasir təsəvvürlərə cavab vermir" (17, s.100).

X.Bəşirova dastanın genezisinə fəqli (fikrimizcə doğru) yanaşma nümayiş etdirmişdir. Alimin fikrincə, dastanın kökləri çox qədimdir və Orta Asiya oğuzları arasında yaranmış və zamanla Oğuz türkmən tayfalarının qərbə köçü nəticəsində Qafqazlara və oradan da Anadoluya gəlmişdir. Dastana daha çox bir folklor əsəri kimi baxılmasının lazım olduğu, onun tarixilik xüsusiyyətlərinin ön plana çıxarılmasının doğru bir tendensiya olmaması mülahizələrini müdafiə etməsi də alimin "Koroğlu" dastanına yanaşma tərzi haqqında gəldiyi ümumi qənaətlərdən biridir.

"Dastana daha çox tarixi hadisələrin bədii əksi mövqeyindən yanaşan tədqiqatçılar "Koroğlu"da mifoloji zaman kəsiyini görə bilməmiş, onu XVI əsr Cəlalilər hərəkatı ilə bağlamağa çalışmışlar. Bu tədqiqatçılar dastanın bir sıra obrazlarının – Koroğlunun, Eyvazın, Dəli Həsənin, Giziroğlu Mustafa bəyin, Bolu bəyin, Həsən paşanın tarixi prototiplərini axtarıb tapmış, bununla da dastanın folklor əsəri olduğunu o qədər də nəzərə almamışdır" (5, s.22).

"Koroğlu" dastanı qollarının geniş əraziyə yayılması bir tərəfdən dastanın və onun ətrafında təşəkkül tapmış rəvayətlərin məşhurluğunu göstərir, digər tərəfdən isə dastanla bağlı bir çox qarışıqlığa da səbəb olur. Bu gün "Koroğlu" dastanının variant və versiyalarının genezisi, təşəkkül dövrü, tarixiliyi, yeri, yayılma istiqaməti, mövzusu, əsas qəhrəmanların milli mənsubiyyəti, dini etiqadı və s. kimi məsələlər haqqında çox tədqiqatlar aparılmış, tezislər irəli sürülmüşdür. Bu tədqiqatların bir çoxu faydalı olmuşdur, lakin bu işlərin hələ də lazimi səviyyəyə çatmadığı məlumdur. Təəssüf ki, türk xalqları arasında ortaq "Koroğlu" tədqiqatları aparmaq, müqayisəli təhlillər etmək məsələsi bu gün də öz həllini tapmamışdır.

Ədəbiyyat

1. Abbaslı, İ. Folklorşünaslıq axtarişları. İki cilddə, II cild. Bakı: Elm nəşriyyatı. 2009.
2. Abbasov, E. "Koroğlu": poetik sistemi və strukturu (Paris nüsxəsi əsasında). Bakı: Nurlan nəşriyyatı. 2008.
3. Alptekin, A. B. Halk Hikâyelerinin Motif Yapısı. Ankara: Akçağ Yayınları. 2009.
4. Anadol, C. (1993). Köroğlu. Ankara: Türkmen kitabevi. 2007.
5. Bəşirova, X. "Koroğlu" dastanı: tarixi-mifoloji gerçəklik və poetika. Bakı: Elm nəşriyyatı. 2000.
6. Boratav, P. N. Köroğlu Destanı. İstanbul: Adam yayıncılık. 1984.
7. Boratav, P. N. Halk Hikâyeleri ve Halk Hikâyeciliği. İstanbul: Tarih Vakfı Yayınları. 2002.
8. Cəfərov, N. Eposdan kitaba. Bakı: Maarif. 1999.
9. Gökalp, Z. Eski Turkler'de İçtimai Teşkilat İle Mantıki Tasnifler Arasında Tenazur // Makaleler III (Milli Tetebbular Mecmuasındaki Makaleler). Haz. M.O.Durusoy. Ankara: Gündüz Matbaası, 1977. s. 17-90.
10. Hatəmi M. Koroğlu surətinin mənşəyi haqqında // Azərbaycan EA Xəbərləri (dil, ədəbiyyat, incəsənət seriyası) 1983, №3. s. 14-21.
11. Təhmasib, M. Seçilmiş əsərləri. 2 cilddə, I cild. Bakı: Mütərcim. 2010.
12. Весоловский, А. Историческая поэтика, Ленинград: Гос. Изд-во худ. лит. 1940.
13. Жирмунский, В. Тюркский героический эпос. Ленинград. 1974.
14. Каррыев, Б. Эпические сказания о Кер-оглы у тюркоязычных народов. Москва. 1968.

15. Мелетинский, Е. Происхождение героического эпоса: Ранние формы и архаические памятники. Москва: Вост. лит. 2004.
16. Петрушевский, И. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI–XIX вв. Ленинград: изд. Ленинградского Государственного Университета. 1949.
17. Пропп, В. Фольклор и действительность. Москва: Наука. 1976.

Н.АСКЕР

“КЕРОГЛУ” В ИСТОРИЧЕСКОЙ СФЕРЕ

РЕЗЮМЕ

Признанные началом турецкой народной литературы, корни эпоса, самого большого и наиболее распространенного эпического типа устной литературы с точки зрения объема и повествовательной традиции, уходят в самые глубокие слои древнетюркской мифологии. Если мы посмотрим на период, когда распространилась древнетюркская народная традиция повествования, которая была принята как этап повествования, мы должны говорить о долгом пути этой традиции. В соответствии с древним образом жизни и системой верований турок, этот путь постепенно сместился от тем героизма к темам любви в связи с переходом от мифологии к героическим эпосам, а затем и к исламу. Одним из таких древних героических эпосов является эпос “Кероглу”, являющийся фольклорным наследием тюркских и сопредельных народов. Эпос “Кероглу” - это древнее фольклорное наследие, распространенное на обширной территории, разделенное на две большие версии, с множеством вариантов, и в то же время эпическое произведение в исполнении ашугов. По мнению многих исследователей, эпос была создана туркменами и распространилась по всему Туркестану. Существует мнение, что эти древние пласты эпоса получили известность в географии Средней Азии и отсюда расселение тюркских племен расширилось на запад и юг. Однако есть также идея, что сага началась с движения Джалали в Южном Азербайджане и Анатолии. Кероглу - исторический деятель, он принял активное участие в этом движении и прославился. Кроме того, был бандит Кероглу, имя которого фигурировало в документах из-за жалоб на Анатолию, а также сазовый поэт Короглу, служивший в османской армии и подтвержденный документами, что он путешествовал с армией. В статье дается краткая информация об эпосе “Кероглу”, мнения специалистов по историческим вопросам этого эпоса, происхождения, распространения и вариации эпоса.

Ключевые слова: ***эпос “Кероглу”, вариант, история, героизм, тюркский, эпос***

N.ASKAR

SUMMARY
"KOROGLU" IN THE HISTORICAL SPHERE

Accepted as the beginning of Turkish folk literature, the roots of epics, the largest and most widespread epic type of oral literature in terms of volume and narrative tradition, go back to the deepest layers of ancient Turkish mythology. If we look at the period when the ancient Turkish folk tradition of storytelling, which was accepted as a stage of storytelling, spread, we must talk about the long way of this tradition. In line with the ancient way of life and belief system of the Turks, this path gradually shifted from the themes of heroism to the themes of love in connection with the process of transition from mythology to heroic epics, and then to Islam. One of such ancient heroic epics is "Koroglu" epos, which is the folklore heritage of the Turkic peoples and neighboring peoples. The epos "Koroglu" is an ancient folklore heritage with a large number of variants, divided into two large versions, and at the same time a living epic work told by ashugs today. According to many researchers, the saga was created by the Turkmens and spread throughout Turkestan. There is an opinion that these ancient layers of the saga gained fame in the geography of Central Asia and from here the migration of Turkic tribes expanded to the west and south. However, there is also the idea that the saga began with the Jalali movement in South Azerbaijan and Anatolia. It is said that Koroglu was a historical figure, took an active part in this movement and became famous. In addition, there was the bandit Koroglu, whose name appeared in the documents due to complaints about Anatolia, and also the saz poet Koroglu, who served in the Ottoman army and was confirmed by the documents that he traveled with the army.

This article gives brief information about the "Koroglu" epos, the opinions of experts on the historical theme of this epic work, the origin, spread and variation of the epos.

Keywords: ***"Koroglu" epos, variant, history, heroism, Turkish, epic***

Redaksiyaya daxil olma tarixi: 29.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: filologiya elmləri doktoru Əfzələddin Əsgər
capa tovsiyə etmişdir.

ƏHMƏDOVA AYTƏN ARZULLA QIZI
Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim
Gəncə Dövlət Universiteti
83-aytan@mail.ru

"DASTANİ- ƏHMƏD HƏRAMİ" ƏSƏRİNDƏ QOŞMALARIN YARATDIĞI ÇALARLAR

Xülasə

"Dastani – Əhməd Hərami" əsəri təsdiq edir ki, Azərbaycanda XIII yüzillikdə artıq ana dilində epik şeirlər, məsnəvilər və dastanlar yaranmışdır.

"Dastani – Əhməd Hərami" əsərinin morfoloji xüsusiyyətlərini araşdırdıqda köməkçi nitq hissələrinin, o cümlədən, qoşmaların tarixi inkişafına rast gəlirik. Türk dillərində səbəb bildirən, qədim tarixə malik qoşmalardan biri olan "***üçün***"nün abidələrin dilində, o cümlədən, "Dastani- Əhməd Hərami" poemasında *için, çün, çun və üçün* formalarında işləndiyini müşahidə edə bilirik: Həramilər üçün, bunlar çün, dügün için və s.

Müasir dövrdə dialektlərimiz üçün xarakterik olan *yana* qoşması klassik poeziyamızda məhsuldar, işlək olmuşdur. Bu qoşmanın yalnız XIV-XVIII əsrlərdə bəzi sənədlərin və bədii əsərlərin dilində rast gəlindiyini, səbəb və məqsəd çalarları yaratdığını göstərilir. Araşdırmalar göstərir ki, bu qoşmanın XIII əsrdə, az da olsa işlədilmişdir. Məsələn, "Dastani-Əhməd hərami"də verilir: *Xəzinədən **yana**, aslanlardan yana və s.*

Əsərdə işlədilən qoşmalardan biri də ***içrə*** qoşmasıdır. Sahə, yer çaları bildirən *içrə* qoşması, əsasən, klassik ədəbi dildə fəal işlədilməkdədir. Bu söz müasir Azərbaycan dilində işlək deyil, amma tarixən, xüsusən bədii əsərlərin dilində bu sözün özündən əvvəlki sözlə birlikdə işlənmə faktları vardır. ***İçrə*** qoşması müasir dövrdə öz işləkliyini itirmək üzrədir.Əsərdə *cahan **içrə**, məlamət **içrə**, saray **içrə** və s.* şəklində işlənmişdir.

Azərbaycan dilində istiqamət məzmunlu qoşmalardan biri də ***"qarşı"*** sözüdür. Tədqiqatçılar bu qoşmanın müxtəlif məna çalarları yaratdığını qeyd edirlər: 1) heç bir ziddiyyət, qarşılıq bildirmədən mütəqabillik məzmunu ifadə edir. 2) heç bir ziddiyyət bildirmədən istiqamət-yönəlmə məzmunu ifadə edir. 3) tam ziddiyyət bildirir. 4) müqabillik məzmunu ifadə edir. 5) ziddiyyətli yönəltmə məzmununu bildirir. Bəzi əsərlərdə isə həmin qoşmanın yalnız qarşılaşdırma, ziddiyyət məzmunu yaratdığı göstərilir. Gözünə qarşu, qıza qarşu və s.

Açar sözlər: Dastani- Əhməd Hərami, səbəb, məqsəd, sahə, istiqamət, qoşma, təhlil

"Dastani – Əhməd Hərami" əsəri ana dilində yazılmış ilk epik şeir öynəyidir. Əsər 1928-ci ildə türk alimi Tələt Onay tərəfindən aşkarlanıb, çap olunmuşdur. Eyni zamanda o, əsərin Azərbaycan türkcəsində olduğunu da qeyd etmişdir.

XIII yüzillikdə Nizaminin kiçik bir çağdaşı belə dəyərli sənət incisi yaradaraq tarixi bir xidmət göstərmişdir. Ancaq təəssüf ki, onun müəllifi bəlli deyil. Şair öz adını əsərində açıb bildirməmişdir. "Dastani – Əhməd Hərami" əsəri təsdiq edir ki, Azərbaycanda XIII yüzillikdə ana dilində epik şeirlər, məsnəvi və dastanlar yaratmaq ənənəsi təşəkkül tapmışdır. Dastanda hadisələr məclislər (6 məclis) şəklində qurulmuşdur. Xalq nağıl və dastanlarını nəzmə çəkib yayan şair hər məclisin əvvəlində və sonunda dinlyicilərə üz tutur. Görünür ki, əsərin müəllifi nağılçı və qissəxan kimi fəaliyyət göstərmiş, xalq incilərini nəzmə çəkib yaymışdır. Dahi sənətkar Nizami Gəncəvinin mövzularının dəbdə olduğu bir vaxtda "Dastani – Əhməd Hərami"nin müəllifi yeni bir mövzu seçib işləmişdir.

"Dastani – Əhməd Hərami" əsəri ideya- bədii baxımdan dəyərli bir əsərdir. Şair öz əsərində şərə, zülmə qarşı fəal mübarizə aparmağı təbliğ edir, bunun əksinə olaraq həramiliyə, oğurluğa, kin- küdurət saxlamağı pisləyir. O, Əhməd Hərami ilə

Güləndamın timsalında xeyirlə şərin mübarizəsini qələmə almış, xeyrin qələbəsini alqışlamışdır.

"Dastani – Əhməd Hərami" məsnəvisi əruzun həzəc bəhrində yazılmışdır. Şair həzəc bəhrini ilk dəfə anadilli epik şeirə gətirmişdir. Əsərin bədii dili aydın və təravətlidir. Əsərin dilində Azərbaycan dilinin möhtəşəmliyini müşahidə edirik. Bu dilin orta əsrlərdə artıq formalaşmış bir dil olduğunu, elm və poeziya dili kimi işləndiyini görmək olar.

"Dastani – Əhməd Hərami" əsərinin morfoloji xüsusiyyətlərini araşdırdıqda köməkçi nitq hissələrinin, o cümlədən, qoşmaların tarixi inkişafına rast gəlirik. Köməkçi nitq hissələrindən biri olan qoşma sözlər arasında əlaqə yaratmaqla yanaşı, müəyyən semantik funksiyanı da yerinə yetirir, daha doğrusu, qoşulduğu sözə müəyyən məna çaları aşılayır, yaxud buradakı mənanın dəqiqləşməsinə xidmət edir. Qoşmalar sözlər arasında semantik-qrammatik əlaqələrin formalaşmasında fəal rol oynayır. Qoşmalar ismin hallarına qoşularaq müxtəlif çalarlar yaradır. Azərbaycan dilində altı hal vardır və bunların ifadə etdiyi məzmunlar da dardır. Qoşmalar özləri çox olduğu kimi, onların qoşulduğu sözlərə aşıladığı məna çalarları da zəngindir. Qeyd edildiyi kimi, bir qoşma əlaqəyə girdiyi sözlərin xarakterindən, o cümlədən semantikasından asılı olaraq, müxtəlif məna çalarları formalaşdıra bilir. E.A.Bokarev göstərir ki, qoşmaların yaratdığı məzmun halın məzmununa yaxındır, lakin qoşmaların məzmunu tam halda hallarla ifadəsini tapa bilmir, yəni qoşmaların yerinə yetirdiyi funksiya leksik-qrammatik baxımdan daha dərindir [11, 236].

"Dastani – Əhməd Hərami" əsərində *üçün, ilə, ayrı, içrə, birlə, qarşu, sarı, yana, görə, ucdan,-dək, -ca* və s. kimi qoşmalara rast gəlirik. Araşdırarkən bu qoşmaların bəzilərinin tarixən dilimizdə işləndiyini, müasir qrammatikada artıq öz fəallığını itirdiyini müşahidə edirik.

Səbəb və məqsəd çaları yaradan qoşmalar. Potensiyasında semantik məzmun olan, lakin mücərrədləşmə istiqamətində daha sürətlə inkişaf edən qoşmalardan biri səbəb-məqsəd bildirənlərdir. Azərbaycan dilçiliyində "*üçün, ötrü, görə*" sözləri səbəb-məqsəd qoşmaları kimi təqdim olunur və bu da məntiqidir, ona görə ki, doğrudan da, bu qoşmalar birləşdikləri sözlərlə birlikdə, əsasən, səbəb və məqsəd məzmunlarını ifadə edir. Lakin müasir dilimizdə bu sözlərlə işlənən ifadələr bəzən digər çalarları, hətta fərqli məzmunları yaradır. Bəzən isə başqa qoşmaların səbəb məzmunu yaratdığını da müşahidə etmək olar.

Türk dillərində səbəb bildirən, qədim tarixə malik qoşmalardan biri "***üçün***" sözüdür. Abidələrin dilində *üçün* qoşması *içün, çün, çun və üçün* formalarında işlədilməkdədir. *Üçün* qoşması həm sözlərə bitişik həm də ayrı yazıla bilir. Məsələn, *Bunların xatırıy**çün** ol da endi, Görüşdi tez gerü atına mindi* [3,3]. *Qamu bəylər gəlir anda irişir, Dügün **içün** yaraq edib duruşur [3,53]. Nigari nabəkara oldu çün seyd. Düzər Əhməd Hərami yol **için** qeyd* [3,6]. "Dastani – Əhməd Hərami" əsərindən götürülmüş hər üç nümunədə *"üçün"* qoşmasının müxtəlif yazılış formalarını görürük.

Qədim abidələrdə bu qoşma, əsas etibarilə, üç məna çaları yaradır: səbəb, məqsəd və aidlik [7, 444]. Sonrakı dövrlərdə Azərbaycan dili abidələrində də bu qoşmanın məhsuldar olduğu, daha çox söz və birləşmə ilə əlaqəyə girmə imkanına malik olduğu özünü göstərir [8, 31].

"*Üçün*" qoşmasının müxtəlif məna çalarlarını yaratması, bir tərəfdən, bu sözün mənşəyi ilə, digər tərəfdən, qoşulduğu sözün semantik-qrammatik xüsusiyyətləri ilə əlaqədardır. Hətta eyni söz müxtəlif qrammatik formalarda eyni qoşma ilə işləndikdə fərqli məna çalarları meydana çıxır. Belə ki, bu qoşma "*oxu*" feilinin məsdər formasına artırıldıqda məqsəd, feili sifət formasına artırıldıqda isə səbəb məzmunu meydana çıxır: *gəlmək üçün, gəlmədiyi üçün.* Məsələn: *Qardaşı gəlmədiyi üçün Sərvər də geri qayıtmaq istəyirdi* (V.Sultanlı); *Qısa yolla gəlmək üçün yerli əhalidən tanış adam lazım idi* (F. Kərimzadə).

Burada bir qanunauyğunluq da özünü göstərir ki, ümumiyyətlə, səbəb qoşmaları feili sifətlə işləndikdə cümlədə səbəb, məsdərlə işləndikdə isə məqsəd zərfliyini formalaşdırır.

Qeyd edək ki, "*üçün*" qoşmasının işlənmə arealı və imkanları genişdir. Məlumdur ki, qoşmanın əsas xüsusiyyətlərindən biri onların isimlə və ya substantivləşən digər nitq hissələri və söz birləşmələri ilə əlaqəyə girə bilir. Qoşmanın əlaqəyə girdiyi sözün hansı nitq hissəsi olması, leksik-semantik özəllikləri, qrammatik forması və s. onun yaratdığı məna çalarına təsir edir. "*Üçün*" qoşması dilimizdə isim, feili sifət, məsdər, üçüncü şəxs cəmdə işlənən şəxs və işarə əvəzliklərinə qoşulduqda onların adlıq halda olmasını tələb edir, digər şəxs əvəzlikləri ilə işləndikdə isə onları yiyəli halda idarə edir. Bu hal dilimiz üçün təbii sayılmalıdır, ona görə ki, əvəzlikləri məzmun etibarilə ümumilik bildirdiyindən bunlar müvafiq məzmunda hal şəkilçisiz işlənə bilmir.

Qeyd edək ki, bu gün müəyyən dialektlərimiz üçün xarakterik olan *yana* qoşması klassik poeziyamızda məhsuldar, işlək olmuşdur. Ə.Şükürov bu qoşmanın yalnız XIV-XVIII əsrlərdə bəzi sənədlərin və bədii əsərlərin dilində rast gəlindiyini, səbəb və məqsəd çalarları yaratdığını göstərir [8, 44]. Lakin bəzi tədqiqatlarda bu qoşmanın XIII əsrdə, az da olsa, işlədildiyi göstərilir və "Dastani-Əhməd hərami"dən belə misal verilir: *Xəzinədən **yana** əzm etdilər çün* [2, 60] və ya başqa nümunədə: *Aslanlardan **yana** yüz tutdu getdi, Qaçan kim anların qatına yetdi* [3, 99]. Dastandan götürülmüş birinci nümunədə ***yana** üçün* qoşmasını əvəz etmişdisə də, ikinci nümunədə isə səbəb məzmunu bildirən *görə* qoşmasının yerində işlənmişdir.

Üçün qoşmasının mənşəyi ilə bağlı fikir müxtəlifliyinə rast gəlinir. O.N.Bötlinqə görə, üçün qoşması ***iç,*** sözündən əmələ gəlmişdir. A.U. Elove ***üçün*** qoşmasını intiqam anlamlı ***öc*** sözü ilə əlaqələndirmişdir. Əzizxan Tanrıverdiyə görə isə *üçün* qoşması ***uc, ucu*** sözündən törəmişdir. [9, 336].

Səbəb və məqsəd çaları yaradan *üçün* qoşmasının ***ucundan*** variantına həm abidələrin dilində, həm şifahi xalq ədəbiyyatı nümunələrində, həm də dialekt və şivələrimizdə rastlaşırıq. Məsələn, 1. *Ol **ucdan** mənzilə irəməyəvüz, Ögümüz, usumuz dərəməyəvüz [3, 31].2. Bənim ucumdan ol şahzadəyə bir, Ələm irişdi, budur fikri-tədbir [3, 84] 3. Bağban ağlar bar **ucundan**, Alma, heyva, nar **ucundan**, Ələsgərtək yar **ucundan**, Batıbdı yasa tellərin.(A.Ələsgər). 4. Sə:n **ucbatınnan** işdən qaldım (İmişli dialekti).*

Səbəb-məqsəd məzmunu yaradan qoşmalardan biri də ***"görə"*** sözüdür. Bu qoşma "*üçün, ötrü*" qoşmaları ilə sinonim olub, eyni başlıq altında birləşdirilsə də, onlardan daha çox fərqlənir. Yəni bu qoşma məqsəd çaları yaratmır. Digər türk dillərində bu qoşma çıxışlıq halda olan sözlə işlədilə bilsə də, müasir Azərbaycan dilində onun yalnız yönlük hallı sözü idarə etdiyi məlumdur. Həm də məqsəd mənası ilə yanaşı, müqayisə, uyğunluq, isnad, çıxış nöqtəsi məzmunlarını da yaradır. Səbəb məzmunu bildirdikdə bu qoşma ismə, şəxs əvəzliyinə, ismi birləşmələrə, xüsusən də *-dığı*[4] şəkilçili feili sifətlərlə birləşir. Məsələn: *Mübarək dügün edib başlayavuz, Ana (ona) **görə** işimiz işləyəvüz* [3, 44]; *Sürücü gecikdiyinə **görə** özü piyada yola düşməli oldu* (İ.Şıxlı).

Sahə, yer və iç məzmun çaları bildirən qoşma. Buraya ***içrə*** qoşması daxildir. Sahə, yer çaları bildirən *içrə* qoşması, əsasən, klassik ədəbi dildə fəal işlədilməkdədir. Bu söz müasir Azərbaycan dilində işlək deyil, amma tarixən, xüsusən bədii əsərlərin dilində bu sözün özündən əvvəlki sözlə birlikdə işlənmə faktları vardır. Məsələn: *Bir göl içrə üzürdü bir yekə qaz*. ***İçrə*** qoşması müasir dövrdə öz işləkliyini itirmək üzrədir. Məlumdur ki, "*içrə*" sözü "*iç*", yaxud *"içəri*" sözünün yönlük hal formasıdır; burada –rə qədim yönlük hal şəkilçisi kimi qəbul edilməlidir. Yuxarıda verdiyimiz misalda "i*çrə*" sözü əslində yerlik hal funksiyasındadır; yəni "*göl içrə*" ifadəsinin bu gün "*gölün içində üzürdü*" kimi işlədilməsi məntiqi görünmür, ona görə ki, üzmək prosesi gölün başqa yerində yox, məhz içində olur. Həmin məzmun müasir dilimizdə "*göldə üzür*" şəklində ifadə

olunur.

Bu qoşmanı bəzi dilçi alimlər, o cümlədən, M. Hüseynzadə qeyri-müəyyən yiyəlik halında, bəziləri (Ə.Tanrıverdi) isə adlıq halda işlənən sözlərə qoşulan qoşmalar içərisində verirlərlər. "Dastan- Əhməd Hərami" əsərindən seçilmiş nümunələrdə adlıq hala qoşulduğunu müşahidə edirik: "*Dönüb dedi: əya məsturi-aləm, Ki, sənsən cahan* ***içrə*** *xubi-aləm". "Güləndam qıldı şöylə zari- tənha, Məlamət* ***içrə*** *qaldı dəngi- şeyda". "Qumaş karvan saray* ***içrə*** *doldu, Oturub hər biri arayim qıldı".*

Bəzi əsərlərdə bu qoşmanın klassik Azərbaycan və türkmən ədəbiyyatı üçün səciyyəvi olduğu göstərilsə də [6, 113], Ə.Rəcəbli bu sözün hətta göy türk abidələrinin dilində qoşma kimi işləndiyi qeyd edir [7, 452]. Maraqlıdır ki, türk dillərinin çoxunda belə bir qoşmanın varlığı göstərilmir. A.N.Kononov bu qoşmanın arxaikləşdiyini yazır [12, 91]. F. Zeynalov da bu fikirdədir ki, "*içrə*" sözü tarixən dilimizdə qoşma kimi işlənmişdir, həm də ədəbi dil faktı olmuşdur [10, 95].

Klassiklərin dilində, xüsusilə M. Füzulinin dilində bu söz ayrılıqda deyil, məhz əvvəlki sözə qoşulmuş şəkildə işlənir ki, bu da onun tam müstəqil olmadığını göstərir.Bu misalların bəzilərində "*içrə*" sözünün semantikası konkretdirsə, başqa nümunələrdə mücərrədləşmə özünü göstərir. Məsələn: *Qatı könlünə bağrı daşların düşmüş qəmi eşqin // Bir oddur eşqi- dilsuzun ki, daşlar içrə pünhandır; Hər necə ki, şöhreyi-cahansan // Eşq içrə sərəmədi-cahansan.*

Azərbaycan dilində istiqamət məzmunlu qoşmalardan biri də "*qarşı*" sözüdür. Bu qoşma haqqında danışarkən onu "Müasir türk dillərində *doğru/sarı* qoşmalarının vəzifəsini ifa edən, müəyyən obyektə tərəf yönəlmiş istiqaməti bildirən qoşmalardan biri" kimi adlandırırlar [10, 119]. Bu söz qoşma kimi türk dillərində, o cümlədən Azərbaycan dilində nisbətən sonradan formalaşmışdır. Türkoloqların əksəriyyəti bu sözün tarixən "*kara*" (bax) feilindən yaranmışdır.

Tədqiqatçılar bu qoşmanın müxtəlif məna çalarları yaratdığını qeyd edirlər: a) heç bir ziddiyyət, qarşılıq bildirmədən mütəqabillik məzmunu ifadə edir; b) heç bir ziddiyyət bildirmədən istiqamət-yönəlmə məzmunu ifadə edir; c) tam ziddiyyət bildirir; ç) müqabillik məzmunu ifadə edir; d) ziddiyyətli yönəltmə məzmununu bildirir [4, 225-226]. Bəzi türk dillərində hətta zaman və mücərrəd anlayış bildirdiyi qeyd olunur [10, 121]. Bəzi əsərlərdə isə həmin qoşmanın yalnız qarşılaşdırma, ziddiyyət məzmunu yaratdığı göstərilir [5, 341]. Məsələn, Gözünə *qarşu* bunı öldürəyin, Bənə etdigin işi bildirəyin. Gəlincə xocalar cavın eşitdi, Qamu atlandı ana *qarşı* getdi. ("Dastani- Əhməd Hərami"dən).

Bu izahlardan belə görünür ki, *"qarşı*" qoşması yalnız bir məzmunda – istiqamət məzmununda qeyd edilən digər qoşmalarla sinonimlik təşkil edir. Lakin onu demək lazımdır ki, "*qarşı*" qoşmasının "heç bir ziddiyyət bildirmədən istiqamət-yönəlmə ifadə etməsi" digərlərinin istiqamət məzmunu bildirməsindən fərqlənir. Belə ki, digər qoşmalarda istiqamət məzmunu, bir qayda olaraq, məkanla bağlıdır. Ona görə də ilk üç qoşma bir-birini əvəz edə bilir. Məsələn: *Sadiq əsəbi halda qapıya*

doğru *(sarı, tərəf) addımladı* (H.İbrahimov).

"*Qarşı*" qoşmasının istiqamət bildirməsi faktına aid bu tip misallar göstərilir: *Maya Pərşanın sözlərində Şirzada* ***qarşı*** *qəribə bir ərk və tənə olduğunu hiss etdi* (M.İbrahimov); *Şirzadın Salatına sərt cavab verməsi Rüstəm kişiyə xoş gəldi, ona* ***qarşı*** *hörmətini artırdı* (M.İbrahimov) [4, 225-226].

Deməli, istiqamət bildirmə baxımdan sinonim kimi təqdim olunmuş həmin dörd qoşma məzmun qoşulduqları sözə verdiyi məna çalarına görə tam sinonim hesab edilə bilməz; belə ki, "*tərəf, doğru, sarı*" qoşmaları həm funksional, həm də yaratdığı məna çalarına görə bir-birini əvəz edə bilən sinonimlər olduğu halda, "*qarşı*" qoşmasının digər qoşmalarla sinonimliyi tam deyil. Onlar funksional cəhətdən sinonim bir qrupda birləşsələr də, semantik baxımdan sinonim ola bilmir.

Lakin "*qarşı*" qoşmasının bəzən "*əvəzinə*" qoşmasını əvəz etməsi faktı ilə rastlaşırıq. Bu fakta diqqəti cəlb edən M.Adilov bunun ədəbi dilin digər sahələri üçün deyil, yalnız qəzet dili üçün xarakterik olduğunu və rus dilini təsiri ilə meydana çıxdığını qeyd edir və belə misal verir: *Nizami adına kolxozda 72 hektara qarşı 10 hektar, Sabir adına kolxozda 106 hektar əvəzinə 10 hektar, M.S.Ordubadi adına sovxozda 115 hektardan 98 hektar şum qaldırmışdır* [1, 204]. Hətta bir cümlə daxilində sinonimik münasibətdə "*qarşı*" və "*əvəzinə*" qoşmalarının işlədilməsi məqbul hesab edilir. Lakin bu cür əvəzlənmə məhz bu məqamda ola bilir, başqa halda bu mümkün deyil və qoşma ilə bağlı heç bir əsərdə bu qoşmaların sinonim münasibətdə olduğu qeyd edilmir.

ƏDƏBİYYAT SİYAHISI

1. Adilov M. Əsərləri. I cild, Bakı: Elm və Təhsil, 2010, 308 s.

2. Cəfərova C.M. XIII-XIV əsrlərin yazılı abidələrində qoşmalar / Azərbaycan dili tarixi məsələləri. Bakı: ADU nəşriyyatı, 1989.

3. Dastani- Əhməd Hərami, Bakı: "Şərq- Qərb", 2004, 119 s.

4. Hüseynzadə M. Müasir Azərbaycan dili. III hissə, morfologiya, Bakı, Şərq-Qərb, 2007, 280 s.

5. Kazımov Q. Müasir Azərbaycan dili, morfologiya. Bakı: Elm və təhsil, 2010, 400 s.

6. Oğuz qrupu türk dillərinin müqayisəli qrammatikası, II hissə, Morfologiya. Bakı: Elm, 1986, 135 s.

7. Rəcəbli Ə. Göytürk dilinin morfologiyası. Bakı: BU nəşriyyatı, 2002, 475 s.

8. Şükürov Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: APİ nəşri, 1981, 100 s.

9.Tanrıverdi Ə. Azərbaycan dilinin tarixi qrammatikası. Bakı: Elm və təhsil, 2014, 458 s.

10. Zeynalov F. Müasir türk dillərində köməkçi nitq hissələri. Bakı: Maarif, 1971, 312 s.

11. Бокарев Е.А. О категории падежа применительно к дагестанским языкам – ВЯ, 1954, №1-2, с.236-255

12. А.Н.Кононов. Грамматика современного узбекского литературного языка. Изв. АН СССР, Москва-Ленинград, 1960, 295 с.

Ph.D on philology Ahmadova Aytan Arzulla
Ganja State University

SHADES OF POSTPOSITIONS IN THE WORK OF "DASTANI-AHMAD HARAMI"

Key words: "Dastani - Ahmad Harami", cause, purpose, field, direction, postposition, analyze

Summary

The work of "Dastani - Ahmad Harami" confirms that in the XIII century in Azerbaijan there were epic poems, masnavi and epics in the native language.

When we examine the morphological features of the work of "Dastani - Ahmad Harami", we come across the historical development of auxiliary speeches, including postpositions. We can observe that in Turkish languages the postposition "üçün" (for) is used as "içün, çün, çun and üçün" in the language of monuments, as well as in the poem "Dastani- Ahmad Harami": "Həramilər üçün"(for robber), "bunlar çün"(for them), "dügün içün"(for wedding) and etc.

The postposition "yana" (for) which is characteristic for our dialects in modern times has been productive and effective in our classic poetry. This postposition was found only in the language of some documents and fiction in the 14th and 18th centuries, involves cause and purpose meaning. Studies show that this postposition was used in the 13th century though not enough. For example, the "Dastani-Ahmad Harami" is given as follows: "Xəzinədən yana"(for treasure), "aslanlardan yana" (for lions) and etc.

One of the postpositions used in the work is the postposition "içrə". The postposition "içrə" which means field, location is mainly used in the classical literary language. This word is not used actively in the modern Azerbaijani language, but there is a history of the word, especially in the language of literary works, that the word is used as conjunction with previous word. In the modern era the postposition "içrə" is about to lose its functionality. It was used in the work as "cahan içrə"(in the world), "məlamət içrə"(in the slander), "saray içrə"(in the palace) etc.

One of the postpositions in the Azerbaijani language meaning direction is the word "qarşı"(against). Researchers note that this postposition creates different meanings: 1) expresses the content of competitiveness without any contradictions. 2) express direction-oriented content without any contradictions. 3) it refers compeletely contradiction. 4) expresses the content of competitiveness. 5) refers conflicting redirection. In some works it is shown that this postposition means the

content of confrontation, contradiction. “Gözünə qarşu” (against your eyes), “qıza qarşu”(against the girl) and etc.

Кандидат филологических наук Ахмадова Айтан Арзулла
Гянджинский Государственный Университет

ОТТЕНКИ ПОСЛЕЛОГОВ В РАБОТЕ «ДАСТАНЫ- АХМАД ХАРАМИ»

Ключевые слова: «Дастани Ахмед Харами», причина, цель, поле, направление, послелоги, анализ.

Резюме

Работа « Дастани Ахмед Харами» подтверждает, что ещё в XIII веке в Азербайджане были созданы эпические поэмы, месневи и эпосы на родном языке.

Когда мы анализируем морфологические особенности произведения «Дастани Ахмед Харами», мы сталкиваемся с историческим развитием вспомогательных речей, в том числе послелогов. Мы можем наблюдать, что в турецких языках послелог «üçün» (для),означающий причину и имеющий древную истрию, используется как «içün, çün, çun и üçün» в языке памятников, а также в поэме «Дастани Ахмед Харами»: «Həramilər üçün» (для грабителей), «bunlar çün» (для этих), «dügün içün» (для свадьбы) и т. д.

Послелог “yana” (для), которая характерна для наших диалектов в современное время, была продукцией нашей классической поэзии и была эффективной. Этот послелог был найден только на языке некоторых документов и литературных прозизведений 14--18-ых веков, создающий эффект причины и цели. Исследования показывают, что этот послелог использовалсья в 13 веке, хоть и маловато. Например, в «Дастани Ахмед Харами» дается следующим образом: «Xəzinədən yana» (для сокровищы), «aslanlardan yana» (для львов) и т. д.

Одной из послелогов, использованных в произведениях, является послелог «içrə». Послелог «içrə», что означает поле, местоположение, в основном активно используется в классическом литературном языке. Это слово не используется в современном азербайджанском языке, но есть исторические факты,что это слово, особенно в языке литературных произведений используется в сочетании с предыдущим словом. Послелог «içrə» теряет свою современную функциональность. В произведении он использовался как “cahan içrə” (в мире), “məlamət içrə” (на клевете), “saray içrə” (во дворце) и т. д.

Одним из послелогов в азербайджанском языке, означающим направление, является слово "qarşı" (против). Исследователи отмечают, что этот послелог создает разные значения: 1) выражает содержание конкурентоспособности без каких-либо противоречий. 2) выражает

направленное содержание без каких-либо противоречий. 3) озночает полное противоречие. 4) выражает содержание конкурентоспособности. 5) выражает пртиворечивое содержание направленности. А в некоторых произаедениях показаны, что этот послелог означает противоречивое,встречающое содержание. «Gözünə qarşı» (против ваших глаз), «qıza qarşı» (против девушки) и т. д.

Redaksiyaya daxil olma tarixi: 17.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Filologiya elmləri doktoru, professor Mübariz İmran oğlu Yusifov capa tovsiyə etmişdir.

CƏLAL ALLAHVERDİYEV
ADİU
İstiqlaliyyət küç, 6
filologiya üzrə fəlsəfə doktoru, dosent
celalallahverdiyev1980@gmail.com

MƏTBUAT TARİXİMİZDƏN: "ZƏNGİ" QƏZETİ

XÜLASƏ

Məqalədə İrəvanda Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Zəngi" qəzetindən bəhs edilir.

Milli mətbuat tarixinin şərəfli bir səhifəsini təşkil edən "Zəngi" qəzetinin araşdırılması olduqca zəruri və aktualdır. "Zəngi" qəzeti və onun yaradıcı heyəti barədə indiyədək heç bir araşdrma aparılmamışdır. Qəzetin İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai-siyasi mühitin inkişafındakı xidmətləri araşdırılıb öyrənilməmişdir. Məqalədə erməni şovinizmi əhatəsində qəzetin üzləşdiyi problemlər də müəyyən qədər işıqlandırılmışdır. Qəzetdə milli maarifimizin inkişafı, savadsızlığın aradan qaldırılması məsələləri kifayət qədər öz əksini tapmışdır. Qəzetdə yeni əlifbanın təbliği və tədqiqi məsələləri də xüsusi yer tutur. Qəzet səhifələrində İrəvanda fəaliyyət göstərən Azərbaycan teatrının və qadınlar klubunun fəaliyyəti də müntəzəm işıqlandırılmışdır. Qəzetin davamlı nəşr edilməsində "Zəngi"nin redaktorları olmuş Bala Əfəndiyevin və Mustafa Hüseynovun böyük xidmətləri olmuşdur.

"Zəngi" qəzetində İrəvan Yeni Əlifba Komitəsinin fəaliyyəti, komitənin fəal əməkdaşları B.Əfəndiyevin, M.Hüseynovun, M.Muradovun, M.Kazımovun, Q.Fərhadovun və başqalarının yeni əlifba ilə bağlı dərc olunmuş silsilə məqalələri və türkoloji düşüncə tariximiz baxımından olduqca əhəmiyyətlidir. Qəzet mövcud olduğu dövrdə Ermənistanda yaşayan azərbaycanlı əhali arasında geniş yayılmışdır.

Qəzetin və onun fədakar kollektivinin erməni şovinizmi əhatəsində azərbaycanlı əhalinin hüquqlarının qorunmasında da xidmətləri danılmazdır. Qəzetin İrəvanda yaşayıb yaradan azərbaycanlı ədəbi qüvvələrinin yaradıcılığının inkişafında da böyük rolu olmuşdur.

Yuxarıda qeyd etdiyimiz məsələlər, fikirlər "Zəngi" qəzetinin araşdırılmasını zəruri edir və məqalənin aktuallığını şərtləndirir.

Açar sözlər: Irevan,Türk,Zənği,mətbuat, əlifba

1920-ci il noyabrın 29-da Ermənistanda sovet hakimiyyəti quruldu. Hakimiyyət başına kommunist-beynəlmiləlçi cildinə girmiş daşnaklardan daha məkrli, daha siyasətbaz adamlar gəldi. Onlar özlərinin anti-türk siyasətini bolşevik maskası alrında daha incə üsullarla həyata keçirməyə başladılar. Amma iqtisadi cəhətdən Azərbaycandan tam asılı olduqları üçün öz çirkin məqsədlərini açıq şəkildə həyata keçirə bilmirdilər. Bunu sosial-siyasi həyatın bütün sahələrində görmək olardı.

Bütün respublikalarda olduğu kimi, Ermənistanda da ilk növbədə kommunist-bolşevik mətbuatı yaratmaq məsələsi zəruri idi. Bu səbəbdən də İrəvanda 1921-ci ildə Azərbaycan dilində "Kommunist" qəzeti nəşr edilməyə başlandı. Aparılan araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycan dilində "Kommunist" qəzeti 1921-ci ilin yanvarından fevral ayının 8-nə qədər nəşr olunmuşdur. 1921-ci ilin fevral ayının ortalarında erməni daşnakları İrəvanda yenidən tüğyan edərək, azərbaycanlı əhaliyə qarşı terror, qətliamlar və total qırğınlar, dağıntılar törədərkə Azərbaycan dilində yeganə mətbuat orqanı olan "Kommunist" qəzetinin redaksiyasını yandıraraq məhv etmişlər. Bununla da qəzetin fəaliyyəti dayandırılmış və azərbaycanlı oxucular bir ildən artıq müddətdə ana dilli mətbuat orqanından məhrum edilmişdir.

1922-ci ildə EK(b) MK-nin nəzdində yaradılmış "Azsaylı xalqlar" şöbəsinin müdiri Bala Əfəndiyevin təşəbbüsü və redaktorluğu ilə "Rəncbər" adı ilə həftədə bir dəfə yeni bir qəzet nəşr edilməyə başladı. "Rəncbər" qəzeti də davamlı nəşr olunmadı. 1922-ci ilin dekabrında "Rəncbər" qəzetinin də nəşri dayandırılır. Bununla da azərbaycanlı əhali yenidən ana dilli mətbuat orqanından məhrum edilir. İrəvanda yaşayan azərbaycanlı əhalinin isə qəzet nəşrinə olan tələbatı günü-gündən artırdı. İrəvan ziyalıları mədəni həyatda köklü dirçəlişin həyata keçirilməsi üçün Azərbaycan dilli mətbuatın yaranmasının zərurət olduğunu isə aydın şəkildə dərk edirdilər.

Bir qrup İrəvan ziyalıları, xüsusən "Azsaylı xalqlar" şöbəsinin müdiri Bala Əfəndiyev dəfələrlə EK(b)P MK-ya Azərbaycan dilində mətbu orqanın yaradılması haqqında rəsmi şəkildə müraciət etsələr də, erməni şovinist dairələri buna icazə verməmişdilər. Amma Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Murtuza Muradovun, Mehdi Kazımovun siyasi iradəsi, qətiyyəti, uzunmüddətli gərgin mübarizəsi sahəsində Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsi tərəfindən 1924-cü ilin noyabr ayının əvvəlində qəzetin "Zəngi" adı ilə nəşr olunmasına icazə verilir. "Zəngi" qəzeti bu haqda yazır: "Ermənistanda şura hökuməti qurulduğu zamanda İrəvanda "Kommunist", bilaxirə "Rəncbər" adında qəzetlər çıxmaqda idi. Fəqət qəzetlərin davam etdirilməsi üçün ən ziyadə maddi cəhətin olmaması ikinci məsələyə də mane olurdu. Cumhuriyyətimizin təsərrüfatı artmış və Ermənistanda yenidən bir türk qəzetinin çıxmasını meydana atmışdır. Buna görə də Ermənistan K(b)P MK naşiri əfkarı olmaq üzrə "Zəngi" adında qəzeti nəşrə başlamışdır" (4).

Araşdırmalar nəticəsində məlum olur ki, bu qəzetin də nəşr edilməsinə 1922-ci illərdə Ermənistan Xalq Maarif Komissarı, 1924-cü ildən isə EK9b) MK-nin katibi

olmuş Aşot Ohanesyan mane olurmuş. Amma "Zəngi" qəzeti bu haqda yaza bilmirdi. "Zəngi"nin xələfi olan "Qızıl şəfəq" qəzeti 1937-ci ildə yazır: "Ölkənin siyasi-iqtisafi inkişafı, kütlələrin və o cümlədən azərbaycanlı kütlələrin siyasi aktivliyinin yüksəldilməsi Türk (Azərbaycan) dilində qəzet nəşr etmək məsələsini yenidən irəli sürmüşdür. ÜİK(b)P Zaqafqaziya Ölkə Komitəsi millətçi konturrevkulyasioner Aşot Ohanesiyanın millətçi fikrini rədd edərək 1924-cü ildə "Zəngi" qəzetini nəşr etməyi qərara aldı" (1).

29 noyabr 1924-cü ildə 2 səhifədən ibarət olan "Zəngi" qəzetinin ilk sayı işıq üzü görür. Qəzetdə "Zəhmətkeş" adı ilə nəşr edilmiş "İki bayram" adlı məqalədə "Zəngi" qəzetinin nədənsə 1925-ci il noyabr ayının 29-da işıq üzü gördüyü qeyd edilmişdir. Apardığımız araşdırmalardan və "Zəngi" qəzetinin əldə etdiyimiz ilk nömrəsindən aydın olur ki, qəzet 1925-ci ildə deyil, 29 noyabr 1924-cü ildə Bala Əfəndiyevin redaktorluğu ilə işıq üzü görmüşdür. Yeri gəlmişkən, onu da qeyd edək ki, B.Əfəndiyev İrəvan şəhərinin ictimai-siyasi həyatında fəal iştirak etmiş, burada yaşayan azərbaycanlıların mənəvi atası olmuşdur. Onun İrəvanda yüksək vəzifələrdə çalışması da ona dövlət idarələri qarşısında azərbaycanlı əhalinin problemlərini qoymağa və bu problemlərin həllinə nail olmağa imkan yaratmışdır. O, Azərbaycanda başlanan latın əlifbası hərəkatının İrəvanda rəhbəri olmuş, teatrın anadilli mətbuatın, azərbaycanlıların savadlanması və yeni türk əlifbasının həyata keçirilməsi işində tükənməz bir enerji ilə çalışmışdır.

Ermənistanda sovet hakimiyyətinin qurulmasının 4-cü il dönümü günü nəşrə başlayan "Zəngi" qəzeti Bakıda nəşr olunan qəzetlər kimi yarab ərəb əlifbası, yarı latın qrafikası ilə nəşr edilirdi. "Redaktor"qrafası yerində "Heyəti təhririyyə" yazılırdı.

"Zəngi" qəzetinin ilk nömrəsinin çapdan çıxması münasibətilə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Qəzənfər Musabəyov, Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin sədri Qafar Babayev, 1924-cü ildə İrəvandan Zaqafqaziya Kommunist Universitetində təhsil almağa göndərilmiş Rza Vəlibəyovun təbrikləri də qəzetdə işıqlandırılmışdır.

Araşdırılmalardan məlum olur ki, "Zəngi" qəzeti 29 noyabr 1924-cü ildən 1927-ci ilin dekabr ayının sonuna qədər həftədə bir dəfə nəşr olunmuşduur. 1928-ci ilin yanvar ayının 1-dən etibarən isə həftədə iki dəfə nəşr edilmişdir. Qəzetin ilk və sonrakı bir neçə nömrəsi Bala Əfəndiyevin, Mustafa Hüseynovun, Murtuza Muradovun böyük əməkdaşlığı və səyi ilə araya-ərsəyə gəlir. Onlar bütün qüvvə və bacarıqlaını qəzetin vaxtı-vaxtında, yüksək keyfiyyətlə çıxmasına sərf edirdilər. Yeri gəlmişkən onu da qeyd edək ki, Murtuza Muradov qəzetin ilk fotoqrafı (rəssamı) olmaqla yanaşı həm də qəzetin texniki şöbəsinin müdiri kimi çalışmışdır. Ümumiyyətlə M.Muradovun da İrəvanda Azərbaycan ədəbi-mədəni mühitinin tərəqqisindəki fəaliyyəti diqqətə layiqdir. Qəzet səhifələrində onun xeyli sayda felyetonları, dəyərli məqalələri dərc olunmuşdur.

Qəzetin keyfiyyətli və qüsursuz, sanballı nəşri üçün təcrübəli mütəxəssis kadrlarla isə böyük ehtiyac olduğundan Bala Əfəndiyevin, Mustafa Hüseynovun şəxsi təşəbbüsü və yardımı sayəsində redaksiyanın əməkdaşları peşə ixtisasını artırmaq məqsədilə Moskva, Leninqrad, Xarkov, Rostov və digər şəhərlərdə nəşr olunan "Pravda", "İzvestiya" kimi qəzetlərin redaksiyalarında iş təcrübəsi keçirməyə göndərilirdilər.

"Zəngi" qəzetinin nömrələrini ardıcıl izlədikdə burada "Molla Nəsrəddin" satirik jurnalının təsiri daha çox nəzərə çatır. "Molla Nəsrəddin" jurnalındakı "Lağlağı", "Mığmığa", "Bacadan baxan", "Cırcırama", "İki müxbir", "Hərdəmxəyal", "Ruçka" və s. bu kimi imzalara "Zəngi" qəzetinin səhifələrində tez-tez rast gəliməsi, felyetonların, karikaturaların oxşarlığı, satirik məzmunlu yazıların üslubu özünü daha çox göstərir. Görünür vaxtilə "Molla Nəsrəddin" satirik jurnalı İrəvanda özünə daha möhkəm yer tutmuşdu. Yeri gəlmişkən onu da qeyd edək ki, görkəmli publisist yazıçı Eynəli bəy Sultanov bir müddət "Zəngi" qəzetində tərcüməçi kimi çalışmalıdır.

Qəzetin sütunlarında həkim məsləhətləri, kənd təsərrüfatının yeni üsullarla qurulması, aqronom məsləhətləri və s. kimi məsləhət və göstərişlər verən məqalələr dərc olunurdu. Qəzet Ermənistanda yaşayan azərbaycanlı əhalinin qarşılaşdıqları problemlərin həll edilməsində, hüquqlarının pozulmasında çox böyük rol oynayırdı. "Zəngi" qəzeti azərbaycanlı əhali arasında savadsızlığın aradan qaldırılmasına, maarif və təhsilin inkişafına, yeni türk əlifbasının həyata keçirilməsinə xüsusi diqqət yetirirdi.

"Zəngi" qəzeti bir qrup azərbaycanlı ziyalılar tərəfindən təşkil olunmuş İrəvan Yeni Türk Əlifba Komitəsinin fəaliyyətini, yeni əlifbanın təbliği və tətbiqi məsələlərini müntəzəm işıqlandırmışdır. Qəzetdə 1926-cı il fevral ayının 22-də İrəvan Yeni Türk Əlifbası Mərkəzi Komitəsinin Konfransında 163 nəfər nümayəndənin iştirak etdiyi konfransı İrəvan Yeni Əlifba MK-nin sədri Bala Əfəndiyevin açdığı, Səmədağa Ağamalı oğlu, Lunaçarski, Kalininin konfransın fəxri sədri seçilməsi, konfransın "Yaşasın türk-tatar zəhmətkeşlərini birəşdirəcək asand və ümumi ədəbiyyat təməlini yaracaq yeni türk-tatar əlifbası əsas olacaq Türkoloji Qurultay" (2) belə bir şüarla yekunlaşdırdığı haqda yazılara da rast gəlinir.

"Zəngi" qəzetində Türkoloji qurultayın yekunları 7 səsə qarşı 101 səslə yeni əlifbanın qəbul edilməsi Bala Əfəndiyevin Bakıda olarkən "Zəngi" qəzetini bütünlüklə latın əlifbası ilə çap etmək üçün Səməd bəy Ağaoğlu və başqalarının köməyi ilə 15 pud latın şrifti çap dəzgahı alaraq İrəvana gətirməsi ilə bağlı yazılar da öz əksini tapmışdır (3).

"Zəngi" qəzeti Türkiyədə də yeni əlifbanın həyata keçirilməsi işinə Atatürkün bilavasitə rəhbərlik etməsi haqqında geniş xəbərlər dərc edirdi.Belə xəbərlərdən birində deyilirdi: "Bu günlərdə Mustafa Kamalın sədrliyi ilə jurnalist nümayəndələrin, ictimai işçilərin, mütəxəssislərin iştirakı ilə yeni əlifbanın qəbulu üçün seçilmiş komissiyanın məruzəsi eşidildi və qəbul olundu" (4).

Əslində "Zəngi" qəzeti Türkiyədə latın əlifbasına keçidin dövlət səviyyəsində müdafiə edildiyini yazmaqla İrəvanda bu işin sürətlənməsinə kömək etmiş olurdu. Araşdırmalardan məlum olur ki, "Zəngi" qəzeti latın əlifbasına keçid uğurunda müarizəni sona qədər davam etdirmiş, İrəvanda latın əlifbasına keçilməsində böyük xidmətləri olmuşdur.

İrəvanda mədəni inqilabın eninə və dərininə inkişaf etməsində böyük və danılmaz xidmətləri olan türk qadınlar klubunun da fəaliyyətini "Zəngi" qəzeti müntəzəm öz səhifələrində işıqlandırırdı.

Sosial həyatın elə bir sahəsi yox idi ki, "Zəngi" qəzeti həmin sahəyə nüfuz etməsin. Azərbaycan dilində yeganə mətbuat orqanı olan bu qəzet İrəvanda yaşayıb yaradan azərbaycanlı ziyalılar üçün bir növ tribun rolunu oynayırdı.

Qəzet nəşr oldunduğu ilk günlərdən azərbaycanlı oxucularda böyük maraq doğurduğundan, getdikcə qəzetin ətrafına çoxlu sayda müxbirlər, yaradıcı insanlar toplaşmağa başlayır. Qısa zaman içərisində Savalan Şirinov, Umud Süleymanov, Mehdi Bəşirov, Qasım Əliyev, Qulam Fərhadov, Məcid Sultanov, Əli Rəhimov, Qəşəm Şahbazov və başqa ziyalılar qəzetin işində fəal iştirak edərək onun ən aktiv müxbirlərinə çevrilmişdilər. Qeyis Münşiyeva, Fatma Əfəndiyeva qəzetin ən fəal qadın müxbirləri idi.

"Zəngi" qəzetinin gündən-günə artmaqda olan nüfuzu, geniş oxucu kütləsinin ruporuna çevrilməsi, onun kiçik formatda, həftədə bir dəfə çıxması, azərbaycanlı əhalinin mətbuata artan tələbatını ödəyə bilmirdi. Bu tələbat qəzetin böyük formatda gündəlik çıxmasını labüd etsə də, redaksiyanın kollektivi tərəfindən EK(b)P MK-ya edilən müraciətlər öz həllini tapmırdı.

Amma buna baxmayaraq, 1926-cı ilin ortalarında qəzetin məsul redaktoru vəzifəsində çalışan Mustafa Hüseynovun milli və siyasi iradəsi sayəsində "Zəngi" qəzeti həftədə iki dəfə nəşr edilməsinə nail olur. Qəzet 15 oktyabr 1927-ci ildən etibarən həftədə 2 dəfə 4 səhifədən ibarət olmaqla nəşr edilməyə başlayır.

Hər həftə bazar və cümə günləri çıxan "Zəngi" qəzetinin nüfuzu getdikcə daha da artmaqda idi. 1924-cü ildə qəzetin tirajı 400, 1926-cı ildə 550, 1927-ci ildə 1040 idisə, 1928-ci ilin martında 2400 olmuşdu. Qəzet azərbaycanlı oxucular tərəfindən böyük maraq və rəğbətlə qarşılandığından tirajın sürətlə artmasına müvəffəq olurdu.

Bütün bunlara baxmayaraq "Zəngi" qəzeti çoxlu məhrumiyyətlərlə üzləşməli olurdu. Belə ki, redaksiyanın daimi binası olmadığı üçün ünvanlar tez-tez dəyişir, kağız problemi ortaya çıxır, həm də onun abunəçi məsələsi çox vaxt problemə çevrilirdi. Amma redaktordan tutmuş mürəttibə qədər hamı fədakarlıqla çalışır, əlindən gələni edirdi ki, qəzet müntəzəm nəşr olunsun. Bunun üçün redaksiya heyəti Bakı, Naxçıvan, Şəki və başqa şəhərlərdən də abunəçilər cəlb edirdi. Məsələn, "Zəngi" qəzeti "Həlli çatmış məsələ" rubrikası adı altında "Şərq qapısı" (Naxçıvan), "Şəki fəhləsi" (Şəki) qəzetlərinin işi haqqında və onların məqalələrini təkrar verirdi. Hər üç qəzet "gənclər səhifəsi" açaraq bir-biri ilə əlaqə yaradırdılar. Bu ənənəni sonrakı illərdə də qəzetlər davam etdirirdi. "Zəngi" qəzeti Bakıda "Komminist",

Türkiyədə “Cumhuriyyət”, “Hakimiyyəti milliyyə”, Rusiyada nəşr edilən “Pravda”, “Zarya Vostoka” və s. qəzetlərdəki aktual məqalələri çap etməklə İrəvan ziyalılarını elm, maarif, mədəniyyət sahəsində müxtəlif ölkələrdə və dünyada gedən proseslərlə öz oxucularını tanış edirdi. Digər tərəfdən isə qəzet müxtəlif problemlərə həsr olunmuş məqalələri götürüb öz səhifələrində çap etməklə həm də oxucularının intellektual inkişafına kömək etmiş olurdu.

“Zəngi” qəzeti Azərbaycanla əlaqələrə çox böyük önəm verirdi. Buna görə də bu qəzet ilk növbədə Naxçıvanda özünə geniş və daimi oxucu auditoriyası tapmışdı. Bakıda Məhəmməd Zəki, Naxçıvanda Qulam Səgərov, Şərurda İbrahim Qazıbəyov, Ordubadda Səfa Əylisli, Gəncədə isə Məhərrəm Əliyev qəzetin ən fəal müxbirləri və təbliğatçıları idilər. Belə ki, 1928-ci ildə qəzetin Naxçıvanda hökumət kinoteatrlarında 23, istehlak cəmiyyətində 83, Ordubadda 27 nüsxə abunəçisi var idi. Bu abunəçilər İrəvanda və bütün Ermənistanda baş hadisələrdən xəbərdar olurdular. Bundan əlavə naxçıvanlılar özləri də bu qəzetin daimi müxbirləri idilər. Başqa sözlə, naxçıvanlılar da öz növbəsində, öz problemləri haqqında qəzetə yazır və “Zəngi”nin köməkliyi ilə həmin problemləri həll edirdilər.

Getdikcə bölgədə aparıcı qəzetə çevrilən bu qəzet 1928-ci ilin dekabr ayının 31-nə kimi “Zəngi” adı ilə fəaliyyət göstərmişdir.

Ədəbiyyat siyahısı:

1.Allahverdiyev C.İrəvan ədəbi mühiti. Bakı, Elm və təhsil, 2010.
2.Ermənistan Yeni Türk Əlifba təşkilatlarının fövqəladə konfransı. “Zəngi” qəzeti, 24 fevral 1926.
3.Fəhradov Q. Aramsız gözətləyirlər. “Zəngi” qəzeti , 16 aprel 1926, № 46.
4.Zəhmətkeş. İki bayram. “Zəngi” qəzeti ,1927, № 46.

ДЖАЛАЛ АЛЛАХВЕРДИЕВ

ИЗ ИСТОРИИ НАШЕЙ ПРЕССЫ: ГАЗЕТА “ЗЕНГИ”

РЕЗЮМЕ

В статье говориться о газете “Зенги”, единственной азербайджаноязычной газете в Ереване. Очень необходимо и актуально изучить газету “Зенги”, которая является словной страницей истории нашей национальной печати.

Газета “Зенги” и её творческий состав до сих пор не исследованы. Необходимо изучить вклад газеты в развитие литературной, культурной и общественно-политической среды Азербайджана в Иреване.

В статье также в определенной степени освещены проблемы газеты в контексте армянского шовинизма. На её страницах также регулярно освещалась деятельность азербайджанского театра и женского клуба. Действующих в Иреване, редакторы “Зенги” Бала Эфендиев и Мустафа

Гусейнов имели большие заслуги в постоянном выпуске газеты, о деятельности Иреванского комитета по новому алфавиту в газете “Зенги”. В газете отражены вопросы развития нашего национального образования и ликвидации неграмотности.

Особое место в газете занимает вопросы применения и продвижения нового алфавита. Активный сотрудник комитета Бала Эфендиева цикл статей опубликованный М.Гусейновым, М.Мурадовым, М.Кязымовым и другими о новом алфавите и с точки зрения тюркологии, очень важен для нашей истории.

Газета за время своего существования получило широкое распространение среди азербайджанского населения, проживающего в Армении. Неоспоримы заслуги газеты и её самоотверженного коллектива в защите прав азербайджанского народа перед лицом армянского шовинизма.

Вышеупомянутые проблемы требуют расследования газеты “Зенги” и определяют актуальность статьи.

Ключевые слова: *Иреван, Тюрк, Зенги, печать, азбука, издательство*

CALAL ALLAHVERDIYEV

FROM OUR PRESS HISTORY: THE NEWSPAPER “ZANGI”

SUMMARY

The article refers to the “Zangi” newspaper, the only Azerbaijani-language newspaper in Irevan. It is very necessary and relevant to investigate the “Zangi” newspaper, which is a glorious page in the history of the national press.

“Zangi” newspaper and its creative staff have not been investigated so far. The newspaper’s contribution to the development of the Azerbaijani literary, cultural and socio-political environment in Irevan has not been studied.

The article also highlights the problems faced by the newspaper in the field of Armenian chauvinism. The issues of development of national education and elimination of illiteracy are sufficiently reflected in the newspaper. Issues of promotion and application of the new alphabet have a special place in the newspaper.

The editors of “Zangi” Bala Efendiyev and Mustafa Huseyinov had a great contribution to the continuous publication of the newspaper. “Zangi” neqspaper the activity of the new alphabet committee of Irevan was carried out by the active employees of the committee Bala Efendiyev, M.Huseyinov, M.Muradov, M.Kazimov’s and other’s series of articles on the new alphabet and Turkology are very important from the point of view of our history. The newspaper was widely spread among the Azerbaijani population living in Armenia during its existence. The services of the newspaper and its selfless staff in protecting the rights of the Azerbaijani people in the face of Armenian chauvinism are undeniable.

The newspaper also played an important role in the development of the creativity of the Azerbaijani literary forces living and creating in Yerevan.

The above-mentioned issues necessitate the research of "Zangi" newspaper and determine the relevance the article.

Key words: *Irevan, Turkish, Zangi, newspaper, alphabets, press*

Redaksiyaya daxil olma tarixi: 28.01.2021
Capa qəbul olunma tarixi: 05.02.2021
Rəyci: siyasi elmlər üzrə fəlsəfə doktoru, doesnt Pərvanə İbrahimova
capa tovsiyə etmişdir.

ЛЕЙЛА ЭМИНОВА
ЛЯМАН АХУНДОВА
Азербайджанский Технический Университет
Старшие преподтаватели кафедры “Иностранных Языков“
пр.Г.Джавид 25.
leylalaman@gmail.ru

ОБ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКО-АНГЛИЙСКИХ ЛИТЕРАТУРНЫХ СВЯЗЕЙ
АННОТАЦИЯ

Книга Ш.Халилли «Классическая поэзия и литературные связи» не первый опыт научных изысканий ученого. Его перу принадлежит изучение азербайджанско-английских литературных связей на основе творчества Джеймса Олдриджа, фольклорных материалов и многие переводы английского на азербайджанский язык. Все это - свидетельство кропотливых поисков, формирование взгляда ученого на историю развития и усиления азербайджанско-английских литературных связей.

Правомерен в своих суждениях проф.В.Арзуманлы, отметивший в предисловии к книге, что первооснову неизученной сферы азербайджанского литературоведения еще в 80-е годы XX века заложил проф.А.Гаджиев, опубликовавший сборник материалов, посвященных азербайджанско-европейским литее-ратурным связям.

Предметом изучения Ш.Хал ил л и переводы азербайджанской классической поэзии на английский язык с XIII по XVIII в. отношение к ним английских востоковедов, а также вопросы влияния на творчество основателя английской поэзии Джеффри Чосера, Кристофер Марло, В.Шекспира и д.р.(1-с.400)

Опираясь на труды английских востоковедов Э.Гиббе «История османской поэзии», Э.Брауна «История литературы Ирана» в 4-х томах и др., в книге выявлены характерные особенности истории развития азербайджанского языка, так как в продолжение длительного времени арабо-язычная и фарсоязычная литература мешали верному освещению английским востоковедам творчества выдающихся азербайджанских поэтов и писателей, ошибочно представляли их как представителей фарсоязычной литературы. В этой связи указывается схожесть с историей развития английской литературы, «...когда англичане вынуждены были писать на протяжении веков на латыни, немецком, французском языках». В качестве примера отмечается творчество Джеффри Чосера, автора «Кентерберийских рассказов» (XIV в.) - шедевра Первой английской письменной литературы, написанной на среднеанглийском языке, в которых отразилась также история И культура Востока, имена

восточных правителей:Аттилы, Кира, Дарий I, Второго Шапура и др. и культура Востока, имена восточныхправителей: Аттилы, Кира, Дарий I, Второго Шапура и др. Опираясь на источники литературные параллели, авторов дано поэтапное развитие азербайджанско-английских литературных связей, высоко оценена роль созданной в начале XIV в при Оксфордском университете профессуры по арабскому языку,проявившей интерес также к его литературе и культуре.

Ключевые слова:литература,развития,религия,история,култура,поэзия

К числу достоинств относятся внесенные с точки зрения истории развития азербайджанской литературы поправки в периодизацию представленную английским востоковедом Э.Брауном. По мнению ученного, наиболее интенсивным периодом

развития является XVII в., когда «...родоначальником английского востоковедения Вильяме Джонсоном был осуществлен перевод прозой поэмы Низами «Сокровищница тайн», которая была издана в Лондоне в 1804 году...».

Один из разделов первой главы монографии всецело посвящается изданному в 1929 году в Лондоне на английском языке труду Хади Гасана «Фелеки Ширвани: Эпоха, жизнь и труды». Изучив отношение азербайджанских ученых -Г.Араслы, З.Буниятова, А.Рустамовой к данному изданию и отметив, что в нем отразились суждения Е.Бертельса и А.Крымского о жизни и творчестве Ф.Ширвани, приоритет Щ.Халилли отдает исследованию А.Рустамовой, хотя он вносит некоторые поправки в связи с датой рождения и смерти поэта, по-разному интерпретируемые учеными, и вместе с тем считает правомерным суждение А.Рустамовой, что «...лирика Ф.Ширвани способствует всестороннему исследованию светской поэзии азербайджанской литературы XI-XII вв.».

Исходя из утверждения Х.Гасана, что в истории восточной литературы существовало трое под именем «Ф.Ширвани» в монографии особое внимание уделено каждой личности, дана этимология слов «Фелеки» и «Ширван», освещена история издания «Дивана».(2.с.220)

Особого внимания заслуживает то, что все цитаты с английского языка представлены в подстрочном переводе самого автора, благодаря чему высвечиваются доселе неизвестные научной общественности факты из жизни и лирики Ф.Ширвани, которого Х.Гасан не представил как азербайджанского поэта, но, тем не менее, правомерен в своем утверждении автор книги, что им проделана огромная работа по сбору материалов о полной противоречий жизни поэта, издание «Дивана», благодаря которому они стали достоянием европейской научной мысли.

Значительная часть книги посвящена анализу параллелей творчества английского драматурга XVI века Кристофера Марло, создателя пьесы

«Великий Тамерлан - восточная легенда» и пьесы созданной азербайджанским драматургом Г.Джавидом в 1925 году «Хромой Тимур», а также «Истории лением Веры человека в Бога.трагедии доктора Фауста» и трагедией Г.Джавида «Демон» (Иблис),

Обращает на себя внимание вторая глава книги, состоящая из двух разделов, посвященных освещению азербайджанской классической поэзии на английском языке. В разделе «Изучение английским востоковедением азербайджанской классической поэзии ХШ-ХУИ вв.» предметом изучения явилось творчество видных представителей азербайджанской литературы, произведения которых переведены, были на английский язык и отразились в трудах английских ученых-востоковедов. Говоря об этом, автор монографии акцентирует внимание на переведенные Р.А.Никольсоном избранные стихи из «Дивана» Шамси Тебризи, видного представителя суфизма азербайджанской литературы XIII века, жизнь и творчество которого освещены в трудах Э.Брауна, «...личность и богатое наследие, сыгравшие значительную роль в формировании мировоззрения поэтов-философов Ближнего и Среднего Востока, в т.ч. тюркского народа, но не нашедших своего полного освещения в нашем, азербайджанском литературоведении».

В подобном же ракурсе прослеживается история азербайджанской классической поэзии сефевидского периода, жестокого правителя Тееймурленгом, по-разному освещенной английскими учеными (4-с.296,раздел 2).

В орбиту исследования вовлечена книга Роджера Сейвори «Иран под властью сефевидской власти», где отмечается его возражение с мнением Э.Брауна, охарактеризовавшего этот период деградацией литературы, отсутствия поэтов, что сказалось на развитии поэзии вредом. Опираясь на суждения английского востоковеда Р.Сейвори,л а также азербайджанского ученого Г.Араслы значительное место в книги он уделил анализу деятельности «выдающегося государственного деятеля и замечательного-, поэта – Шах Исмаила Хатаи, при дворе которого азербайджанскую поэзию развивали такие поэты Хабиби, Шахи, Сюрури, Кищвери. Подводя итоги исследованиям Ш.Халилли, отметим, что книга представляет научный интерес, как для азербайджанской научной мысли, так и для европейских ученых. Поэтапное изучение азербайджанско-английских литературных связей, завершенное хронологически XVIII веком, нам кажется, дает право автору расширить рамки своих изысканий в освещении одной из важных проблем азербайджанского литературоведения.

Статья посвящена литературе в современной Великобритании. В нем говорится, что детская литература имеет свою давнюю историю. Детская литература охватывает книги, написанные для детей. Детская литература также включает в себя книги, посвященные дружбе, первой любви, уважению к старому, хорошему отношению к родителям, следованию обычаям и т. Д. В

статьях освещаются периоды процветания детской литературы. Начало детской литературы упоминается в статье как XVIII век. В статье, в частности, приводится некоторая информация об авторах, которые писали детские книги того периода. Отец детской литературы также упоминается в статье. В статье анализируется важность написания книг для детей. В статье обсуждается причина называния «Золотого века детской фантастики» в конце XIX века и начале XX века. Статья также дает некоторую информацию о работах того времени. Статья написана всесторонне, и в статье использовано достаточно научной литературы.

Азербайджанский язык обычно относят к юго-западной (огузской) группе тюркской ветви алтайской языковой семьи. Вместе с тем, существует множество вариантов классификации языков огузского ареала и перечень составляющих её близкородственных идиомов.(5-p.144)

В «Обозрении российских владений за Кавказом» 1836 года азербайджанский язык относится к «чигатайскому корню», то есть юго-западной ветви[20]. Первую научную классификацию тюркских языков дал востоковед И. Н. Березин, выделивший 5 языков в турецкую (западную) группу: азербайджанский, анатолийский, дагестанский, крымский и румелийский[21]. Востоковед-тюрколог XIX века В. В. Радлов (1882) со своей стороны выделил азербайджанский вместе с турецким и туркменским языками и некоторыми южнобережными говорами крымскотатарского языка в южную группу тюркских языков[22].

34. Министерство Культуры Азербайджанской Республики. В Ташкенте состоялась международная конференция «Творчество Гусейна Джавида вершина мировой драматургии» http://kultura.gov.az/ru/obshie-novosti/v-tashkente-sostoyalas mezhduna rodnaya-konferentsiya-tvorchestvo-guseyna-dzhavida-vershina-mirovoy-dramaturgii-daskendde-huseyn-cavidin-eserleri-dunya-draminin-zirvesi-adli-beynelxalq-konfrans-kecirildi

35. Национальный музей Азербайджанской литературы имени Низами Гянджеви. Произведение «Иблис» великого драматурга Гусейна Джавида впервые было издано на монтенегрийском языке. 28.10.2019. 11:23/ Важные события/ https://nizamimuseum.az/ru/news/1848

36. Пашазаде И. Поэтические особенности русских переводов произведений Гусейна Джавида. Баку, «Огуз Ели» – 2013, 192 с.

37. Пашазаде И.Т. Поэтические особенности русских переводов произведений Гусейна Джавида:дис.канд.филол.наук(10.01.01; 10.01.08). – Баку,2006. – 160 с.

38. Рамазанова Б.И. Идеи патриотизма в творчестве Гусейна Джавида. Збірник наукових праць «Гілея: науковий вісник». Філософські науки. Випуск117,2017. С.159-162.

39. Рамазанова Б.И. Об идейных источниках философских взглядов Гусейна Джавида. Актуальні проблеми філософіі та соціолоіі, 2017. С.81-83.

40. Расули И.К. Турецкая тема в творчестве Гусейна Джавида («Бездна» пьеса). Проблемы педагогики, 2019. С.10-12.

41. Расули И.К._Философские аспекты в творчестве Гусейна Джавида // International scientific review, 2020 (№ LXXIII). С.68-71

42. Шариф А. Гусейн Джавид – поэт и драматург, репрессирован/ Энциклопедия/ «Неизвестные» бакинцы https://www.baku.ru/enc-show. php?id=65240 &cmm _ id = 276

43. Эфендиев Т.И. Драматургия Гусейн Джавида (1910-1920 гг.): автореф.дис.на соиск.учен. степ. канд.филол.наук(10.01.03). – Баку,1973. – 29 с.
44. Юсифова Х.Р. Темы и мотивы русской литературы в творчестве азербайджанских писателей начала XX века (Дж. Мамедкулизаде и Г. Джавид):дис.канд. филол.наук(10.01.03; 10.01.01). – Баку,2007. – 131 с.
45. Ягубова Т.Т. Сопоставительная типология западноевропейского и восточного романтизма: Байрон и Джавид: дис.канд. филол. Наук (10.01.03; 10.01.05). – Баку,1997. – 158 с.

MALIKA NADIR QIZI ADIGÖZƏLOVA

XÜLASƏ

Məqalə böyük Azərbaycan dramaturqu Hüseyn Cavidin yaradıcılığının qavranılması və öyrənilməsi probleminə həsr olunmuşdur. H. Cavidin yaradıcılığının öyrənilməsinə həsr olunmuş elmi ədəbiyyatın qısa icmalı əsasında Azərbaycanda və Özbəkistanda tədqiqatçıların diqqət mərkəzində olan əsas problemlər təqdim edilmişdir. H. Cavidin öz əsərlərində müxtəlif janrların, obrazların, dünyagörüşlərin və mədəniyyətlərin elementlərini sintez etmək bacarığının əsas aspektləri nəzərdən keçirilmişdir. Bu baxımdan dramaturqun yaradıcılığı haqqında daha maraqlı fikirlər səsləndirilib. H. Cavid ədəbiyyatşünaslıqda dramaturgiyanın «Cavid teatrı» adlı xüsusi ədəbi məktəbinin yaradıcısı kimi müdrik filosof, dahi şair kimi tanınmışdır. Onun şeirlərində romantik dram və faciə yaratmaq, «Şərq Şekspiri» titulunu qazanmış «xarakter dramaturgiyası»nın yaradılması, onun yaradıcılığının əbədi bəşəri problemlərə toxunmuş aktuallığı və müasirliyi kimi nailiyyətləri qeyd olunmuşdur. H. Cavidin yaradıcılığı ilə bağlı dissertasiya tədqiqatlarında irəli sürülən ədəbiyyatşünaslıq problemlərinin siyahısı təqdim edilib. Vurğulanmışdır ki, yazıçının yaradıcılıq dühasının mədəni açıqlığı sayəsində onun irsi əsasında Şərq və Avropa ədəbiyyatlarının sintezinin öyrənilməsi üçün zəngin material ola bilər.

Açar sözlər: Hüseyn Cavid, humanist şair, romantik dramaturq, «Azərbaycanın və Şərqin Şekspiri», mütərəqqi romantizm, Azərbaycanda şer romantik dramın yaradıcısı, sintez, «Cavid teatrı».

MALIKA NADIR QIZI ADIGEZALOVA

TO THE PROBLEM OF PERCEPTION AND STUDY OF CREATIVITY HUSEYNA JAVIDA

SUMMARY

The article is devoted to the problem of perception and study of the work of the great Azerbaijani playwright Huseyn Javid. On the basis of a brief review of the scientific literature devoted to the study of G. Javid's work, the key problems that have already been in the focus of attention of researchers in Azerbaijan and Uzbekistan are presented. The main aspects of G. Javid's skill, manifested in his

ability to synthesize elements of various genres, images, worldviews and cultures in his works, are considered. The most interesting statements about the work of the playwright are mentioned. In literary studies, G. Javid is recognized as a wise philosopher, a brilliant poet and playwright-the creator of a special literary school in drama – «Javid's Theatre». Such achievements as the creation of romantic drama and tragedy in verse, the creation of «dramaturgy of characters», which won for him the title of «Shakespeare of the East», the relevance and modernity of his work, which touched on eternal universal problems, are noted. A list of literary problems put forward in dissertation research on the work of G. Javid is presented. It is emphasized that, due to the cultural openness of the creative genius of the writer, his legacy can become a rich material for studying the synthesis of Eastern and European literature on its basis.

Key words: Huseyn Javid, humanist poet, romantic playwright, «Shakespeare of Azerbaijan and the East», progressive Romanticism, creator of poetic romantic drama in Azerbaijan, synthesis, «Javid's Theatre».

Redaksiyaya daxil olma tarixi: 14.01.2021
Capa qəbul olunma tarixi: 08.02.2021
Rəyci: Filologiya üzrə elmlər doktoru, dosent Zamirə Qasımova
capa tovsiyə etmişdir.

HƏSƏNOVA NURANƏ VƏLİ QIZI,
Bakı Dövlət Universiteti
Zahid Xəlilov, 23
quliyeva.nurane@gamil.com

1980-ci İLLƏRİN SONU 90-cı İLLƏRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA İCTİMAİ-SİYASİ VƏZİYYƏT

Xülasə

XX əsrin sonları Azərbaycanda milli intibah, siyasi oyanış, müstəqillik və istiqlal uğrunda mübarizə ilə xarakterikdir. Bu tarixi dövr ərzində Azərbaycanda vüsət alan milli-azadlıq hərəkatı 1991-ci ildə müstəqil Azərbaycan Respublikasının yaranmasına gətirib çıxardı.

Məqalədə 1980-ci illərin sonu 90-cı illərin əvvəllərində bəşər tarixinin ən mühüm hadisəsi hesab olunan Sovet Sosialist Respublikası İttifaqının dağılmasına və onun dağılması ərəfəsində Azərbaycanın ictimai-siyasi vəziyyətinə diqqət yetirilir. Həmin dövrdə erməni separatçılarının əsassız ərazi iddiaları, yuxarı dairələrin ermənipərəst mövqeyi, Dağlıq Qarabağı Azərbaycandan ayırmaq cəhdləri, bu bölgədəki azərbaycanlı əhaliyə qarşı etnik təmizləmə siyasəti vəziyyəti getdikcə ağırlaşdırırdı. Bundan əlavə, 1990-cı il yanvarın 20-də Sovet dövlətinin müasir silahlarla Bakıda əliyalın xalqa qarşı qırğını, Azərbaycan ərazisinin 20%-nin erməni vandalları tərəfindən işğalı, milyondan çox soydaşımızın köçkün düşməsi xalqın həyatında həlledici rol oynadı.

Məhz XX əsrin sonlarında dövrün mətbuat nümunələrində milli müstəqilliyin əldə edilməsi, tarixi yaddaşımızın bərpasına xidmət edən, siyasi dövlətçilik məsələləri ilə bağlı materialların xalqa təqdim edilməsi məsələləri gündəmə gəldi, mətbuat milli-ictimai şüurun bərpasına çalışdı.

Açar sözlər: XX əsrin sonları, SSRİ, milli azadlıq hərəkatı, Dağlıq Qarabağ, müstəqillik, mətbuat

1980-ci illərin sonu 90-cı illərin əvvəlləri böyük qurbanlar hesabına da olsa öz mübarizə ruhunu, tarixi ləyaqətini, mənəvi dəyərlərini qoruyub saxlayan Azərbaycan xalqının milli ideyalar, siyasi azadlıq uğrunda mübarizə dövrünün əsas mərhələsini təcəssüm etdirən dövr kimi xarakterizə olunur. Bu mənada XX əsrin əvvəlləri və sonlarında baş verən hadisələrə nəzər saldıqda Azərbaycanın siyasi həyatında özünü göstərən bəzi amillərin - imperiya siyasətinə qarşı narazılıq, milli azadlıq uğrunda mübarizə kimi oxşarlıqları sezmək mümkündür. Məhz bu hadisələrin fonunda 1918-ci ildə Azərbaycan milli dirçəlişini əldə edərək müstəqil Azərbaycan Xalq Cümhuriyyətini yaradıb. 1991-ci ildə isə Sovet imperiyasının dağılması ilə Azərbaycan xalqı öz milli müstəqilliyini bərpa etmək imkanını əldə edib. Əlbəttə, bu dövrlər arasında milli-əqidə eyniliyi yaşansa da, zaman başqa zamandır və hadisələrin gedişatını, müstəqilliyə doğru gedən yolu şərtləndirən amillər müxtəlifdir.

1920-ci ildə varlığının ikinci ildönümünü qeyd etməyə hazırlaşan Cümhuriyyətimizin işığını söndürərək Azərbaycana daxil olan, yeddi on illik ərzində xalqı əsarət altında saxlayan Sovetlər İttifaqının mövcudluğunun son dövrü XX əsrin 80-ci illərinə təsadüf edir. Tədqiqatçılar əsrin əvvəllərindən ictimai-iqtisadi sistem kimi meydana gələn sovet sosialist sisteminin iflasa uğramasını olduqca ziddiyyətli şəkildə qiymətləndirirlər. 1985-ci ildə SSRİ-nin baş katibi Mixail Qorbaçovun hakimiyyətə gəlməsi, onun tərəfindən başlanan "yenidənqurma" siyasəti tərkibində olan xalqlar üçün həbsxanaya çevrilən SSRİ imperiyasının dağılmasının ilk mərhələsi kimi qeyd olunur. "Sosializmi yaxılaşdırmalı" olan, ölkənin həm iqtisadiyyatı, həm də ideologiyasında ciddi dəyişikliklər yaradacaq bu yenidənqurma siyasəti adı altında aparılan islahatlar uğursuzluqla nəticələndi. 1980-ci illərdə sovet dövlətinin ictimai-siyasi, iqtisadi və mədəni həyatında yaşanan böhran açıq-aydın hiss edilirdi. Bundan əlavə, daxili problemlərlə yanaşı, xarici amillər, "soyuq müharibə" ciddi problemlərin yol açmasına səbəb oldu. XX əsrin 80-ci illərinin axırlarındakı demokratikləşmə və aşkarlıq Sovet İttifaqında milli problemlərin müzakirəsinə şərait yaratdı. "Yenidənqurma" və "aşkarlıq" adı altında görülən saxta addımlar cəmiyyətləri açıq siyasət aparmağa cəsarətləndirdi və bu da Sovet imperiyasının vəziyyətini daha da mürəkkəbləşdirdi. "Aşkarlığın işığı düşən üfüqlərdə qaranlıqlar aydın görünür, çirkin faktlar üzə çıxıb özünün iyrənc sifətini biruzə verir"di.(3, s.41) ABŞ-ın Sovet İttifaqının dağıdılmasına yönəldilmiş planlı, məqsədyönlü strategiyasının nəticəsi Amerikanın "soyuq müharibə"də qələbəsi ilə yekunlaşdı.

Dünyanın siyasi xəritəsinin dəyişməsində mühüm tarixi zaman hesab olunan XX əsrin sonlarında baş verən hadisələr heç şübhəsiz ki, Azərbaycandan da yan ötmədi. "70 ilimizin tarixini vərəqlədikcə biz Lenin prinsipinin tam əksini – xalqın kütləşdirilməsinin şahidi oluruq. Məlumdur ki, ölkənin iqtisadiyyatı böhran vəziyyətindədir. Xalq təsərrüfatında itkilər həddindən artıqdır. Bu vəziyyət respublikamızada aiddir. Nəticədə xalqın həyat səviyyəsi son dərəcə aşağıdır." (3, s.39)

Əsrin əvvəllərindən bəri Sovet hakimiyyəti yeni quruluşdan narazı olanları, müstəqillik uğrunda mübarizə aparanları, siyasi təşkilatların və cərəyanların liderlərini, ziyalıları təqib etmiş, onları saxta ittihamlarla günahlandırıraraq cəzalandırmışdı. Azərbaycan xalqı keçdiyi mürəkkəb tarixi yolda böhranlı, bir çox həlli çətin problemlərlə qarşılaşıb. Ölkədə siyasi durumun getdikcə dərinləşdiyi bir zamanda Azərbaycana keçmişdən yara olan ərazi problemləri qalmışdır. XX əsrin müxtəlif dövrlərində ortaya çıxan ərazi mübahisələri içərisində Dağlıq Qarabağın adı tez-tez çəkilirdi. XX əsrdə öz müstəqilliyini itirən, Rusiya tərəfindən müstəmləkə vəziyyətinə salınan Azərbaycan erməni problemi ilə üz-üzə qalmışdı. XX əsrin əvvələrindən etibarən məqsədlərinə doğru irəli addımlar atmağa çalışan erməni siyasəti Azərbaycan əraziləri hesabına öz torpaqlarını xeyli genişləndirmişdi. Təbii

ki, onlar əsrin əvvələrində əsas havadarı olan Çar Rusiyasının, sovetlər dönəmində isə SSRİ-nin himayəsindən istifadə ediblər.

XX əsrin 80-ci illərinin ortalarında ermənilərin ərazi iddiaları yenidən baş qaldırdı və onlar 1988-ci ildə öz istəklərinə nail olaraq 250 min azərbaycanlını ermənistandan deportasiya etdilər. "Onların ilk qurbanları yüzlərlə azərbaycanlı – Ermənistandakı bacı və qardaşlarımız oldu. İki yüz mindən çox didərginimiz isə ev-eşiyin, mal-dövlətini atıb bizə pənah gətirdi. Bolluca yağlı dil ilə onları aldadıb yayın istisində, payızın-qışın yağışında və qarında açıq səma altında ac-yalavac qoydular. Nə Yerəvan, nə Moskva onlara bir qəpik də pul vermədi. Odur ki, xalq öz hirsini nifrətə çevirib meydanlara çıxdı."(3, s.4) Xalqın yeganə ümidi özünə, öz həqiqi birliyinə qalmışdı.

Bakıdakı gərginliyin artmasının daha bir səbəbi Ermənistanın aliminium zavodu üçün Şuşanın Topxana meşəsini qırmaq oldu. Qarabağ münaqişəsinin alovlanması nəticəsində milli şüurun oyanması, Azərbaycanın azadlığı uğrunda başlanan milli-azadlıq hərəkatı 1988-1989-cu illərdə mitinq və çıxışların başlanmasına səbəb oldu. "XX əsrin 80-ci illərinin sonunda torpaq qəsbkarlığı geniş forma aldı. Bu dəfə ermənilər bütün Azərbaycan torpağını özlərininki elan etdilər və hələlik Dağlıq Qarabağ Muxtar Vilayətini bizdən qoparmağa girişdilər. Xalq gördü ki, daha həna o həna deyildir. Yox, belə gedə bilməzdi, xalq ayağa qalxdı və yumruq kimi birləşdi."(3, s.3)

Bütün baş verən bu hadisələr Azərbaycan xalqının birləşməsi uğrunda mübarizənin ilk qığılcımları oldu. "Bizi oyadan və birləşdirən yalançı demokratiya yox, torpaq eşqi oldu, Qarabağ harayı oldu!". (3, s.3) Hər bir millətin, xalqın həyatında müstəqilliyin nə qədər zəruri, yüksək bir mərhələ olduğunu bildirmək üçün şair Sabir Rüstəmxanlı qələmin poetik gücündən yararlanaraq yazır:

Müstəqillik! İlk inamım, ilk həsrətim!
Müstəqillik! Xalqın məslək bayrağıdır.
Müstəqillik – hər ölkənin, məmləkətin
Zülm, əsarət orbitindən çıxmağıdır!(5)

Milli azadlıq hərəkatının ən yüksək zirvəsi 17 noyabr - 5 dekabr günlərində baş verən, torpaqlarımızın müdafiəsini və ərazi bütövlüyümüzü təmin etmək məqsədilə təşkil olunan, istiqlal mübarizəmizin əsas mərhələsi hesab olunan Meydan hərəkatı oldu. "Mixail Qorbaçovun başlatdığı yenidənqurma Azərbaycanda da geniş vüsət aldığı zaman cəmiyyətdə inqilabi dəyişikliklər baş verdi. Dağlıq Qarabağ hadisələrinin başlanması, xalqın "Azadlıq" meydanına toplanması cəmiyyətdə gedən prosesləri daha da sürətləndirdi".(4)

Sovet İttifaqı Qafqazda baş qaldıran milli-azadlıq hərəkatını da yetmiş il əvvəl olduğu kimi yenidən boğmağa təşəbbüs göstərirdi. Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi birbaşa M.Qorbaçovun əmri ilə dinc əhalini ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutaraq azərbaycan xalqına qarşı dəhşətli cinayət olan "Qanlı yanvar"ı yaşatdılar. Bu hadisə Azərbaycan

milli kimliyinin formalaşmasına həlledici təsir göstərdi. 20 yanvar faciəsi dirçəlişə gedən yolun birinci mərhələsinə yekun vurdu və bundan sonra xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda gördü.

Artıq 1988-ci ildən bəri Cümhuriyyətin bizə yadigarı olan üçrəngli şanlı Azərbaycan bayrağı meydanlarda dalğalanmağa başladı, əsrin əvvəllərində gerbimiz, himnimiz hüquqi status aldı, müstəqilliyimiz dünya dövlətləri tərəfindən tanındı.

XX əsrin sonlarında baş verən hadisələr - qanlı 20 yanvar faciəsi, Azərbaycan xalqına qarşı törədilən ən qəddar, qanlı cinayət sayılan Xocalı soyqırımı bizlərə sovet imperiyasının işğalçılıq siyasətinin dəhşətini yaşatdı. 1988-1994-cü illər arasındakı dövrdə Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və bölgənin ətrafındakı 7 rayon cinayətkar erməni vandalları tərəfindən işğal edilərək xalqımızın qan yaddaşına çevrildi. Lakin bu gün qürurla deyə bilərik ki, Azərbaycan 44 günlük Vətən müharibəsində yenilməz müzəffər ordumuzun əzmi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, siyasi iradəsi və diplomatik bacarıqları sayəsində hərbi-siyasi zəfər əldə edərək müstəqilliyimizin ilk illərindən düşmən əsarətində olan ərazilərimizi geri qaytardı, itirilmiş qədim torpaqlarımızı işğalçılardan təmizləyib, ərazi bütövlüyünü bərpa etdi.

Azərbaycan mətbuatının XX əsrin son illərindəki fəaliyyəti də xüsusi diqqət tələb edən tarixi mərhələ kimi araşdırılmalıdır. Sovet hakimiyyəti illərində Azərbaycan jurnalistikasının nəzəri konsepsiyası əvvəlki mərhələlərdən fərqlənmiş, jurnalistikanın funksiyaları, prinsipləri və dəyərləri baxımından geriləmələr mövcud olmuşdur. Kommunist rejimin hökm etdiyi illər ərzində senzuranın, "Qlavlit" deyilən Baş idarənin ədəbi, elmi inkişafa hansı əngəllər törətdiyi hamıya məlumdur. "Yenidənqurma illərində sovet düşüncə tərzindən fərqlənən mətbuat orqanlarının yaranması jurnalistikaya təzə ab-hava gətirdi. Köhnə mətbuat orqanlarında, radio və televiziyada fərqli baxışların yer alması bu prosesi xeyli sürətləndirdi".(1)

Azərbaycanda milli azadlıq hərəkatının başlanması ilə müxtəlif məzmun və formalı mətbuatın yaranmasına geniş imkanlar açıldı. "Mövcud AXC nəşrləri istisna olmaqla yayım orqanlarını belə qruplaşdırmaq mümkündür. 1. Yeni yaranmaqda olan siyasi təşkilatların və cəmiyyətlərin gizli nəşrləri; 2. Müstəqil olaraq gizlin nəşr edilən yayınlar; 3. Dövlət qeydiyyatından keçmiş müstəqil və ya müxtəlif qurumların yayımları".(6)

Bu dövrdə klassik ənənələrə qayıdış, mətbuatımızın yaradıcılarının ədəbi irsinin aşkarlanması, öyrənilməsi, təbliği və nəşri baxımından əhəmiyyətə malikdir. Mətbuatda yeniliklərin bolluğundan faydalanan qələm sahibləri ziddiyyətlərin kəskinləşdiyi bir zamanda həqiqət qapısını döyərək gerçəklikləri xalqa çatdırmağa çalışırdılar. Məhz XX əsrin 80-cı illərinin sonu 90-cı illərinin əvvələrində milli-ictimai fikir və mübarizə yolunun inkişaf tarixinin öyrənilməsi, sovet ideoloji rejiminin təzyiq, təsiri altında baş verən təhriflərin aradan qaldırılması üçün mühüm tarixi əhəmiyyətə malik olub. 1988-ci illərin sonlarından etibarən hər bir mətbuat orqanının məzmununda, hadisələrə obyektiv baxış bucağından yanaşılmasında

mühüm addımlar atılıb. “Sovet hakimiyyəti illərindən fərqli olaraq indi publisistikada və bədii ədəbiyyatda ictimai-siyasi mətləb və məqsədlər açıq planda söylənir, xalqın illərdən bəri arzuladığı müstəqillik haqında düşüncələr operativ şəkildə ictimaiyyətə çatdırılırdı”. (2)

Beləliklə, bütün bu faktlar sübut edir ki, XX əsrin 80-90-cı illərində baş verən hadisələr Azərbaycanın ictimai-siyasi həyatında dönüş nöqtəsinə çevrilərək müstəqilliyin əldə edilməsi və azad vətəndaş cəmiyyətinin, demokratik dövlətin formalaşmasının əsasını qoymağa tarixi şərait yaratdı.

Ədəbiyyat

1. Abasov A. “Mətbuat və ədəbiyyat” (1920-1930) – Bakı, 1986
2. Əzimova Aygün, Müstəqillik dövrü Azərbaycan bədii publisistikası – Bakı, 2018
3. Gənclik jurnalı, 1990, №3
4. Məmmədli Cahangir, Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi – Bakı, 2013
5. Rüstəmxanlı Sabir, Seçilmiş əsərləri – Bakı, 2004
6. Yaqublu Nəsiman, Azərbaycan milli azadlıq hərəkatı ensiklopediyası – Bakı, 2018

Нурана Гасанова

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКАЯ СИТУАЦИЯ В АЗЕРБАЙДЖАНЕ В КОНЦЕ 1980-Х - НАЧАЛЕ 1990-Х ГОДОВ

РЕЗЮМЕ

Конец 20-го века характеризуется национальным возрождением, политическим пробуждением, борьбой за независимость и суверенитет в Азербайджане. Национально-освободительное движение, которое получило широкий размах в Азербайджане в этот исторический период, привело к созданию независимой Азербайджанской Республики в 1991 году.

В статье рассматривается важнейшее событие в истории человечества в конце 1980-х - начале 1990-х годов - распад Советской Социалистической Республики, а также социально-политическая ситуация в Азербайджане накануне ее распада. В то время ситуацию усугубляли необоснованные территориальные претензии армянских сепаратистов, проармянская позиция высших кругов, попытки отделения Нагорного Карабаха от Азербайджана, политика этнической чистки в отношении азербайджанского населения в регионе. Кроме того, решающую роль в жизни народа сыграли учинение советским государством расправы над мирным населением с применением современного оружия 20 января 1990 года в Баку, оккупация 20% территории Азербайджана армянскими вандалами, вынужденное переселение более миллиона наших соотечественников.

Именно в конце XX века в образцах прессы того периода на повестку дня вышли вопросы обретения национальной независимости, представления народу материалов, посвященных служению восстановления нашей исторической памяти, политической государственности. Пресса прилагала усилия для восстановления национального и общественного сознания.

Ключевые слова: конец XX века, СССР, национально-освободительное движение, Нагорный Карабах, независимость, пресса

Nurana Hasanova

SOCIO-POLITICAL SITUATION IN AZERBAIJAN IN THE LATE 1980S AND EARLY 1990S

SUMMARY

The end of the XX century is characterized by a national renaissance, political awakening, struggle for independence and sovereignty in Azerbaijan. The national liberation movement that scoped in Azerbaijan during this historical period led to the establishment of the independent Republic of Azerbaijan in 1991.

The paper focuses on the collapse of the Soviet Socialist Republic, the most important event in human history in the late 1980s and early 1990s, and the socio-political situation in Azerbaijan on the eve of its collapse. At that time, the groundless territorial claims of the Armenian separatists, the pro-Armenian position of the upper circles, the attempts to separate Nagorno-Karabakh from Azerbaijan, the policy of ethnic cleansing against the Azerbaijani population in the region were aggravating the situation gradually. In addition, the massacre of the disabled by the Soviet state in Baku on January 20, 1990 with modern guns, the occupation of 20% of Azerbaijan's territory by Armenian vandals, the displacement of more than a million of our compatriots, played a crucial role in people's lives.

Namely, at the end of the XX century, presenting materials to the people concerning to the issues of gaining national independence, serving the restoration of our historical memory, and political statehood were on the agenda, and the press tried to restore national and public consciousness.

Keywords: end of XX century, USSR, national liberation movement, Nagorno-Karabakh, independence, press

Redaksiyaya daxil olma tarixi: 14.01.2021
Capa qəbul olunma tarixi: 05.02.2021
Rəyci: Bakı Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru
Aygün Əzimova tərəfindən çapa tövsiyə olunmuşdur

ZÜMRÜD FƏRZƏLİYEVA
BDU
ZUMRUDF@HOTMAIL.COM

REKLAM MƏTNLƏRİNİN JANRLARI

XÜLASƏ

Gündəlik həyatımızda hər gün rastlaşdığımız mətn tiplərindən biri reklam mətnləridir. Reklam mətnləri digər mətnlərdən bir sıra xüsusiyyətlərə görə fərqlənir.

Məqalədə reklam mətnlərinin janrları müzakirə edilir. Əvvəlcə, "janr" termininin təhlili aparılır, daha sonra reklam anlayışına aydınlıq gətirilir.

Məqalədə reklam mətnlərinin 3 janra bölünməsi əks olunmuşdur: **informasiya (və ya informativ) janrı, analitik janr və jurnalistika janrı.**

İnformasiya (və ya informativ) janrı özü də bir neçə reklam yazı tipini özündə birləşdirir: *reklam qeydi*, *reportaj*, *hesabat. Analitik janra* reklam yazışmaları, reklam məqalələri, reklam rəyləri, reklam şərhləri, reklam araşdırmaları (icmal) daxildir. 3-cü janr olan *jurnalistika janrı* isə yalnız *reklam eskizi və reklam essesinə ayrılır.*

Qeyd edək ki, reklam mətnləri üçün vacib bir tələb, minimum sözdən, maksimum məlumatdan ibarət olmasıdır. Reklamın uğluru olması, hər şeydən əvvəl, bacarıqlı şəkildə qurulmuş bir kompozisiya və semantik yükdən asılıdır. Bundan əlavə, reklam mesajı reklam mətninin üslub prinsiplərinə uyğun olmalıdır.

Gündəlik həyatımızda hər gün rastlaşdığımız mətn tiplərindən biri reklam mətnləridir. Reklam mətnləri digər mətnlərdən bir sıra xüsusiyyətlərə görə fərqlənir. Məqalədə reklam mətnlərinin janrları müzakirə edilir. Əvvəlcə, "janr" termininin təhlili aparılır, daha sonra reklam anlayışına aydınlıq gətirilir. Məqalədə reklam mətnlərinin 3 janra bölünməsi əks olunmuşdur: **informasiya (və ya informativ) janrı, analitik janr və jurnalistika janrı.**

İnformasiya (və ya informativ) janrı özü də bir neçə reklam yazı tipini özündə birləşdirir: *reklam qeydi*, *müsahibə, reportaj/hesabat. Reklam qeydləri* məhsulun başlıca keyfiyyətlərini vurğulamaq, reklam olunan məhsulun xarakterik cəhətlərini ətraflı nəzərdən keçirmək və məhsulun əlverişli görüntüsünü yaratmaq kimi xüsusiyyətləri özündə birləşdirir. *Müsahibə* istehsal etdiyi məhsulunu (xidmətini) reklam edən şəxslə müsahibə verən şəxs arasında dialoq şəklində formalaşan bir söhbəti ifadə edir. Müsahibənin də bir neçə növü vardır: müsahibə-dialoq, müsahibə-monoloq, reportaj-mesaj, reportaj-eskiz, reportaj-rəy, kollektiv reportaj/müsahibə, anket, müsahibə mesajı, ərizə. *Reportaj/hesabat* müəyyən bir hadisə və onun inkişafı ilə sıx bağlı olub onu ətraflı şəkildə şərh edən reklam mətnidir.

Analitik janra *reklam yazışmaları, reklam məqalələri, reklam rəyləri, reklam şərhləri, reklam araşdırmaları (icmal) daxildir*. *Reklam yazışmaları* faktların konkret təhlili, reklam olunan məhsul, fikir və ya xidmətlə əlaqəli yerli vəziyyəti əhatə edən reklam yazısıdır. *Reklam məqalələri* dərindən təhlil və ümumiləşdirmələrin genişliyi ilə xarakterizə olunan reklam obyektinin hərtərəfli öyrənilməsinə həsr olunur. *Reklam rəyləri* isə reklam olunan obyektin mahiyyətini ətraflı şərh etmək vasitəsilə onu təhlil etmək məqsədinə xidmət edən bir reklam janrdır. *Təqdimat şərhi* reklam olunan məhsula (xidmətə) münasibət ifadəsini ehtiva etdiyi halda, *reklam araşdırması* bir hadisə çərçivəsində bir neçə reklam hadisəsinin və ya mövzunun təsvirini birləşdirən bir reklam janrı hesab edilir.

3-cü janr olan ***jurnalistika janrı*** isə yalnız *reklam eskizi və reklam essesinə ayrılır. Reklam eskizi* malların (xidmətlərin) istifadəsi vəziyyətini təsvir edir, *reklam essesi isə* yalnız reklam olunan məhsul (obyekt və ya xidmət) haqqında danışmaqla yanaşı, reklam olunan obyektin bədii və jurnalistik obrazının yaradılmasını da özündə birləşdirir.

Qeyd edək ki, reklam mətnləri üçün vacib bir tələb, minimum sözdən, maksimum məlumatdan ibarət olmasıdır. Reklamın uğluru olması, hər şeydən əvvəl, bacarıqlı şəkildə qurulmuş bir kompozisiya və semantik yükdən asılıdır. Bundan əlavə, reklam mesajı reklam mətninin üslub prinsiplərinə uyğun olmalıdır.

Açar sözlər: reklam, reklam mətnləri, janr, rekalm tipləri, məhsullar, xidmətlər

Müasir dövrümüzdə reklam mətnləri artıq həyatımızın ayrılmaz bir hissəsinə çevrilmişdir. Oxuduğumuz qəzet və jurnallarda, baxdığımız TV kanal və proqramlarda, sosial şəbəkələrdə, küçədə və ya yolda, hər addımımızda reklamlrala qarşılaşırıq. Bu baxımdan gündəlik həyatımızı reklamsız təsəvvür etmək çətindir.

Reklamlar əsasən marketinqə xidmət etdiklərinə baxmayaraq, dillə sıx bağlıdır. Reklamların tipləri, növləri, formaları, janrları tədqiqat obyektinə çevrilmişlər və onlar hələ də tədqiq olunmaqdadır. Bu məqalədə əsasən rekalm mətnlərinin janrlarının təhlil olunması planlaşdırılmışdır.

Əvvəlcə janr termininin müxtəlif mənbələrdə izahını nəzərdən keçirək.

*Azərbaycan dilinin izahlı lüğəti*ndə **janr** aşağıdakı kimi izah edilmişdir: "Janr müəyyən bədii xüsusiyyətlərə, özəl tərz və üsluba malik bədii əsərlər növüdür" [1].

Etimologiya lüğətində isə janr sözü belə şərh edilir. "Janr Fransız sözü olub, "cins" deməkdir. Misal üçün, Dram cinsdir, komediya, faciə və s. onun növləridir." [2].

Jurnalistika terminləri lüğətində janra belə tərif verilmişdir: "Yaradıcı sənət sahələrində gerçəkliyi ifadə etməyin tarixən formalaşmış və təkrarlanan, özəl əlamətlərə malik növlərə bölgü sistemi" [3].

Vikipediyada isə janr müxtəlif cürə xarakterizə edilir: "Müəyyən məzmun və forma xüsusiyyətlərinə görə tarixən formalaşmış əsər tipi" [11].

"Janr (fr. *genre*) - bədii yaradıcılığın tarixən formalaşmış həyatın müxtəlif cəhətlərini əks etdirməsi ilə əlaqədar ədəbiyyat və incəsənətdə müxtəlif janrlar yaradılmışdır. Ədəbiyyatda da hər bir ədəbi növ janra ayrılır. Məsələn, dastan, roman, povest, hekayə, komediya və s. Təsviri incəsənətdə mövcud olan janrlar bakal, portret, mənzərə, natura və s.dən ibarətdir. Musiqidə - isə simfoniya, üvertüra və s. janrları geniş yayılmışdır".

"Janr - prioritet məzmuna, ideyaya aid olduğu məzmun və formanın üzvi birliyidir. Janrda mövcud gerçəklik hadisələri özünəməxsus şəkildə əks olunur, burada müəllifin təsvir olunanlara münasibəti özünü göstərir".

Rusdilli mənbələrdə janr bu və ya digər süjet və üslubi əlamətlərlə xarakterizə edilən hər hansı bir incəsənət sahəsində yazılmış əsərlər növü kimi başa düşülür [9].

Digər mənbədə isə janr dedikdə formal, struktur və məzmun xüsusiyyətlərinin ümumiliyi ilə xarakterizə edilən incəsənət əsərlərinin məcmusu nəzərdə tutulur.

Daha bir rusdilli mənbədə janr aşağıdakı kimi xarakterizə edilir: "Janr əsərin ədəbi skletidir və əsərin daxilində fərdiləşir və transformasiyaya məruz qalır."000000000000000 [5]

Janr tam müəyyən bir formanın bütövlüyü, obrazlı vasitələrin struktur və sisteminin sabit tipidir [7].

Janr anlayışı mətn anlayışı ilə sıx bağlıdır və janr barədə fikir yürütmək yalnız müzakirə edilən mətnin hüdudları çərçivəsində mümkündür. Janrın vizual modifikasiyası barədə danışmaq olar, lakin, şübhəsiz ki, janrın bazası rolunda həmişə mətn çıxış edir. İndi isə reklam mətnlərin aid olduğu janrları nəzərdən keçirək.

Reklam — insanların hər hansı bir məhsulu almağına, xidmətdən istifadə etməyinə təsir etmək üçün olan bir vasitədir. Bundan savayı, reklam hər hansı bir siyasi namizədi və ya onun ideyasını dəstəkləmək üçün təsiretmə xarakterli məlumatlandırma vasitəsidir.

Reklam oxuculara bir sıra vasitələrlə çatdırıla və ya ötürülə bilər: qəzet, jurnal, vebsaytlar, radio, TV, bilbord və s. Reklam mətnləri üç növ janrı əhatə edir: **informasiya, jurnalist və analitik** [4].

1. İnformasiya (və ya informativ) janrı. Bu janrın fərqləndirici əlaməti kimi onun *nə? harada? nə vaxt? iştirakçılar kimlərdir?* kimi suallara cavab verməsidir. Bu janr əsasən *reklam qeydi*, *reportaj*, *hesabat* tipli reklam yazılarını əhatə edir.

a) ***Reklam qeydləri.*** Ən geniş istifadə edilən reklam növü kimi ***reklam qeydlərini*** göstərə bilərik. Bu reklam növü mallar və ya xidmətlər üçün ən sadə və ən çox istifadə olunan reklam növüdür. Reklam qeydləri aşağıdakı xüsusiyyətləri özündə birləşdirir: məhsulun başlıca keyfiyyətlərini vurğulamaq, reklam olunan məhsulun xarakterik cəhətlərini ətraflı nəzərdən keçirmək və məhsulun əlverişli görüntüsünü yaratmaq. Onu da qeyd edək ki, reklam qeydindəki başlıqlar məcburi deyildir (tələb olunmur) və onlar istehsalçının istəyindən asılı olaraq verilə bilər. edənlərin kim olduğunu bildirərək adresi istiqamətləndirir.

b) Reklam müsahibəsi. Adından da məlum olduğu kimi, ku tip reklam növü istehsal etdiyi məhsulunu (xidmətini) reklam edən şəxslə müsahibə verən şəxs arasında dialoq şəklində formalaşan bir söhbətdir. Məlumdur ki, müsahibə formaca sual-cavab bloklarından ibarət olur və o, ortaq bir planla birləşdirilmiş bitmiş bir mətnin yaranması ilə nəticələnir. Müsahibənin də bir neçə növü vardır: müsahibə-dialoq, müsahibə-monoloq, reportaj-mesaj, reportaj-eskiz, reportaj-rəy, kollektiv reportaj/müsahibə, anket, müsahibə mesajı, ərizə.

Reklam xarakterli müsahibələr bir qayda olaraq aşağıdakıları əhatə edir: istehlakçını məlumatlandırmaq, məhsulun (xidmətin) əsas üstünlüklərini izah etmək, istehlakçıları qiymətləndirmək və istehlakçılara tövsiyələr vermək, məhsulu satın almaq, hər hansı bir sosial problem və ya məsələ barədə ictimai rəy yaratmaq və s. Bu tip müsahibədə müəllifin üzərinə böyük vəzifə düşür; o, həmsöhbətinin təbii olması və ya görünməsini təmin etməlidir və onun rahatlığa nail olmasına şərait yaratmalıdır. Qeyd olunanların parlaq və uğurlu reklam görüntüsünün formalaş-masına yardım edəcəyi şübhəsizdir.

c) Reklam hesabatı və ya reportajı. Bu tip reklam mətni müəyyən bir hadisə və onun inkişafı ilə sıx bağlı olub onu ətraflı, detallı bir şəkildə şərh etməyə hesablanmışdır. Reklam hesabatı və ya reportajında reklam olunan mallar (xidmətlər) sadalanır, reklam olunan malları, obyektləri (xidmətləri) rəqabətdə fərqləndirən üstünlükləri və onlara xas olan bənzərsiz xüsusiyyətləri diqqətə çatdırılır.

İstehlakçılar, təsirini artırmaq üçün reklam hesabatında müxtəlif nüfuzlu və istehlakçı rəylərindən istifadə edilə bilər: nüfuzlu mənbələrə bağlantılar, reklam olunan məhsul haqqında mütəxəssislərin fikirləri, maraqlanmayan şəxslərin fikirləri, istifadəçi rəyləri və s. Arqumenti dəstəkləmək üçün, reklam hesabatında statistik məlumatlar və müxtəlif faktiki materiallar fəal istifadə olunur. Reklam hesabatı xronoloji qaydada deyil, seçici şəkildə - reklam verənin tapşırıqlarına uyğun olaraq qurula bilər. O, diqqəti müstəqil ekspertlərin və səlahiyyətli şəxslərin nitqlərinin qurulduğu reklam obyektinə yönəldir.

Bu tip reklam mətnində müəllif reklam olunan obyekti yaxşı dərk etməli, potensial istehlakçılara bəyəndiyi məhsulu tövsiyə etmək bacarığına malik olmalıdır. Reklam hesabatının müəllifi müəyyən hərəkətlərə ehtiyac olduğunu inandırıcı şəkildə sübut edə bildiyi halda, oxucu aktiv istehlakçıya çevrilmək şansı əldə edəcəkdir. Hesabat janrı sayəsində potensial istehlakçı və ya müştəri, reklam olunan obyektlə (xidmətlə) əlaqədar olan fəaliyyətin birbaşa iştirakçısına çevrilir.

2. Analitik janr. Bu janra xas olan suallar, bir qayda olaraq, aşağıda verilmiş suallardan ibarət olur: ***nə? harada? nə vaxt? iştirakçılar kimlərdir? niyə?*** Bu janra aşağıdakı tiplər və ya bölmələr daxildir: reklam yazışmaları, reklam məqalələri, reklam rəyləri, reklam şərhləri, reklam araşdırmaları (icmal) [6].

a) Reklam yazışmaları faktların konkret təhlili, reklam olunan məhsul, fikir və ya xidmətlə əlaqəli yerli vəziyyətin öyrənilməsini əhatə edən bir reklam yazısıdır. Reklam yazışmalar yalnız faktların nəzərə alınması ilə məhdudlaşmır, burada həm də

onlar təhlilə məruz qalır. Reklam yazışmaları müəllifin sözügedən faktları qiymətləndirməsi ilə xarakterizə olunur. Müəllif mübahisələrə və faktların təhlilinə müraciət edərək izləyicilərin diqqətini reklam obyektinə cəlb etməklə müsbət təcrübəni təbliğ edir və ya izləyicilərin nəzərinə çatdırır. Reklam yazışmalarının ən geniş yayılmış iştiralçıları və ya qəhrəmanları qismində siyasətçilər, tanınmış dövlət xadimləri və məşhur insanlar çıxış edir.

b) Reklam məqaləsi - dərindən təhlil və ümumiləşdirmələrin genişliyi ilə xarakterizə olunan reklam obyektinin hərtərəfli öyrənilməsinə həsr olunan reklam yazısıdır. Məqalədə reklam olunan məhsul, obyekt (və ya xidmət) ilə bağlı faktlar geniş şəkildə açıqlanır və ümumiləşdirilir. Reklam məqaləsinin məzmunu mövzuya müvafiq, etibarlı, əlçatan, həqiqətə uyğun və konkret olmalıdır.

Reklam məqaləsinin janr xüsusiyyətləri, hər üç sahənin – informasiya, analitizm və jurnalistikanı özündə cəmləşməsidir. Reklam məqaləsi bir araşdırma nümunəsi kimi də çıxış edə bilər və yaxud da hər hansı bir şirkətin ayrı bir istiqamətinə və ya tək bir məhsula (obyektə, xidmətə) həsr olunmuş xarakterlə daha seçilən ola bilər. Reklam məqaləsinin əsas vəzifəsi istehlakçıda mal və xidmətlərin müsbət imicini formalaşdırmaqdan ibarətdir. Bu halda istehlakçı öz üstünlükləri barədə müstəqil olaraq nəticə çıxarmaq imkanı ədə edir.

Təsvirə əsaslanan reklam məqalələrində firmalar öz apardıqları siyasətlərini aydınlaşdırmağa, əsasən də, xalqın (istehlakçıların) rəğbətini qazanmağa çalışırlar. Buna ən ümdə misal, bəzi şirkətlərin xeyriyyəçilik fəaliyyətləri barədə hesabat verirmələrini göstərmək olar.

Reklam məqalələrindən, bir qayda olaraq, fəaliyyətlərini ətraflı, hərtərəfli və çox izahat tələb edən reklam verənlər istifadə edirlər (misal üçün, yuyucu vasitələrin, kosmetik vasitələrin, tikinti materiallarının reklamı). Bu cür reklamın effektivliyi qeyd edilən məhsulun həyat dövründən çox asılıdır. Təbii ki, məhsul istehlakçıya (istifadəçiyə) nə qədər az məlum olursa, bu barədə daha çox məlumata ehtiyac duyulur. Malların bazara çıxarılması bir reklam məqaləsinə və ya bir sıra məqalələrə müraciət etməyin ilk səbəbidir.

c) Reklam icmalı - reklam olunan obyektin mahiyyətini ətraflı şərh etmək vasitəsilə onu təhlil etmək məqsədinə xidmət edən bir reklam janrdır. Reklam araşdırması, reklam olunan obyektin (xidmətin) qiymətləndirməsini aparan, istehlakçını müəyyən bir hərəkəti etməyə təşviq edən bir araşdırmadır. Bu tip reklam yazılarında əsas məqam reklam obyektində hədəf auditoriyasından gizlədilən istehlakçı faydalarını görməyə kömək etmək imkanıdır. Bu səbəbdən də, reklam icmalında hərtərəfli işlənmiş reklam görüntüsünü təqdim etmək çox mühümdür. Reklam icmalı istehlakçını reklamverənə lazım olan nəticələrə sövq etməlidir.

d) Təqdimat şərhi reklam olunan məhsula (xidmətə) münasibət ifadəsini ehtiva edir. Bu janrda mütəxəssislərin və ya məşhur şəxslərin rəyindən geniş istifadə olunur. Bu, yalnız reklam olunan obyektin rəqabət üstünlüklərini vurğulamaqla yanaşı, bu və

ya digər istifadəçinin şəxsi münasibətini də vurğulaya bilər. Qeyd edək ki, reklamda bir məhsul (xidmət) haqqında istifadəçi rəyi çox vacibdir.

e) Reklam araşdırması - bir hadisə çərçivəsində bir neçə reklam hadisəsinin və ya bir neçə mövzunun təsvirini birləşdirən bir reklam janrdır. Bu janra misal olaraq, kənd təsərrüfatı məhsulları sərgisinin icmalını, bir tərəfdən onun keçirilməsinin bir neçə gününün təsviri və təhlilini, digər tərəfdən isə əsas sərgi iştirakçılarının təsviri və təhlilini göstərmək olar. Başqa bir nümunə, müəllifin şərhləri ilə bir şirkətin məhsul çeşidinə baxmasıdır. Reklam araşdırması bir sorğu ilə davam edə bilər.

3. Jurnalistika janrı. Bu janrda digər iki janrdan fərqli olaraq bu suallardan istifadə edilir: **nə? harada? nə vaxt? iştirakçılar kimlərdir? necə? neçə?** Qəzet jurnalistikasının demək olar ki, bütün janrları reklam məqsədilə istifadə olunur [8].

Bu janr gizli reklamı olan materialların hazırlanmasında ən geniş istifadə olunan janrdır. Bu janra **reklam eskizi** və **reklam essesi** daxildir.

a) Reklam eskizi. Bu tip reklam mətnləri malların (xidmətlərin) istifadəsi vəziyyətini təsvir edir. Bu tipli reklamda əsas vurğu fəaliyyət göstərən malların üstünlüklərinə edilir.

b) Reklam essesi. Bu tip reklam mətnləri yalnız reklam olunan məhsul (obyekt və ya xidmət) haqqında danışmaqla yanaşı, reklam olunan obyektin bədii və jurnalistik obrazının yaradılmasını da özündə birləşdirir. Reklam essesi reklam olunan məhsulun (xidmətin) xeyrinə təkcə rasional deyil, eyni zamanda emosional arqumentlərdən də istifadə edir. Reklam esselərində müəllifin reklam məhsulunda (obyektində və xidmətində) əks olunması da mümkün ola bilər. Bu janr məntiqə, nəticələrə əsaslanır və nitqin məzmun-konseptual məlumatları ilə əlaqələndirilir. Bu janrda düşüncə müəllifin fikirlərini ifadə edir, oxucuları nitq prosesinə cəlb etməyə və mühakimələrin doğruluğunu sübut etməyə imkan verir. Bu, oxucuların diqqətinin artmasına səbəb olur və onlarda məzmuna maraq yaradır. Buna görə də, bu janrda, müəllif reklam obyekti üzərində düşünməkdə davam edir və onu oxucularla müzakirə edir [10].

Sonda onu da qeyd edək ki, reklam mətnləri üçün vacib bir tələb, minimum sözlər vasitəsilə maksimum məlumatın verilməsidir. Mesajdakı sözlərin sayı elə olmalıdır ki, alıcı heç bir çətinlik çəkmədən onu bir baxışla əhatə etsin. Bu baxımdan reklam mətni orijinal, bənzərsiz, maraqlı, əyləncəli, hazırcavab olmalıdır. Reklamın uğuru, hər şeydən əvvəl, bacarıqlı şəkildə qurulmuş bir kompozisiya və semantik yükdür. Bundan əlavə, reklam mesajı reklam mətninin üslub prinsiplərinə də uyğun olmalıdır.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan dilinin izahlı lüğəti. Şərq-Qərb nəşriyyati. Bakı, 2006. 744 səh.

2. Əhmədov B. Etimologiya lüğəti. Araşdırmalar, mülahizələr. Bakı, Altun Kitab. 2015. Etimologiya lüğətində.

3. Məhərrəmli Q., Şıxlı E. Jurnalistika terminləri lüğəti. Bakı, Altun Kitab, 2016. 272 səh.

4. Имшинецкая И.А. Жанры печатной рекламы или сундук с идеями для копирайтера. М.: РИП-холдинг, 2003. 128 с.

5. Саморукова И.В. Художественное высказывание как литературоведческая категория. Постановка проблемы // Научные доклады и лекции Самарского Государственного Универ-ситета. Самара, 2000.

6. Ульянова Т.А. Реклама как объект социологического анализа: дис. канд. социол. н., М., 1995. 145с.

7. Ученова С.А., Шомова С.А., Гринберг Т.Э., Конаныхина К.В. Реклама: палитра жанров. М., 2004.

8. Фещенко Л.Г. Структура рекламного текста: Учебно-практическое пособие. СПб.: Изд-во «Петербургский институт печати», 2003.-225 с.

İNTERNET MƏNBƏLƏRİ

9. https://kartaslov.ru/значение-слова/жанр

10. https://optno.ru/az/zhanry-reklamy-materialy-dlya-press-konferencii/

11. https://en.wikipedia.org/wiki/Genre

ZUMRUD FARZALIYEVA

GENRES OF ADVERTISMENT TEXTS

SUMMARY

In everyday life, one of the text types that we come across is advertisment texts. Advertisment texts differ from other texts for their some characteristics. In the given article, genres of advertisment texts are discussed. Firsly, the term “genre” is discussed, then the notion of advertisment is clarified. In the article 3 genres of advertisment texts are given: information genre, analitical genre and journalistic genre.

The information genre includes some types of advertising, such as advertisment notes, reportage, report. Advertisment notes combine functions such as highlighting the main qualities of a product, a detailed overview of the characteristics of the advertised product, and creating a favorable product image. A reportage is a conversation that takes the form of a dialogue between a person advertising a product (service) and an interviewer. There are several types of interviews: interview-dialogue, interview-monologue, report-message, report-feature, report-opinion, collective report / interview, questionnaire, message of interview, attachment. A report is an ad text that is closely related to a specific event and its development and describes it in detail.

The analytical genre includes advertising correspondence, advertising articles, advertising reviews, advertising explanations, advertising research (outline). Advertising correspondence is an advertisement that covers a specific analysis of the facts, local situation related to the advertised product, idea or service. Advertising articles are devoted to a comprehensive study of the object of advertising, which is characterized by deep analysis and a wide range of generalizations. An advertising review is a type of advertising that serves to analyze the advertised object, explaining in detail its essence. Advertising explanation is a genre of advertising that combines descriptions of several advertising events or topics within the framework of an event, and presentation research contains an expression of attitude towards the advertised product (service).

The 3rd genre – journalism genre is divided into advertisment sketch and advertisment essay. An advertising sketch describes the use of goods (services), and an advertising sketch not only tells about the advertised product (object or service), but also combines the creation of an artistic and publicistic image of the advertised object.

It should be noted that the very important requirement for advertisment texts is that they should include mimimum words, maximum information. The sucess of the advertisment, first of all, depends on the composition, which is built very sucessfully and semantic load. Besides, advertisment messages should be appropriate to the stylistic principles of advertisment texts.

Key words: advertisment, advertisment texts, genre, advertisment types, products, services

ЗУМРУД ФАРЗАЛИЕВА

ЖАНРЫ РЕКЛАМНЫХ ТЕКСТОВ

РЕЗЮМЕ

В повседневной жизни одним из типов текстов, с которыми мы сталкиваемся, являются рекламные тексты. Рекламные тексты отличаются от других текстов некоторыми характеристиками. В данной статье обсуждаются жанры рекламных текстов. Во-первых, обсуждается термин «жанр», затем уточняется понятие рекламы. В статье приведены 3 жанра рекламных текстов: информационный жанр, аналитический жанр и журналистский жанр.

Информационный жанр включает в себя некоторые виды рекламы, такие как рекламные заметки, репортаж, отчет. Рекламные заметки сочетают в себе такие функции, как выделение основных качеств продукта, подробный обзор характеристик рекламируемого продукта и создание благоприятного имиджа продукта. Репортаж - это разговор, который принимает форму диалога между лицом, рекламирующим продукт (услугу), и интервьюером. Существует не-

сколько типов интервью: интервью-диалог, интервью-монолог, отчет-сообщение, отчет-очерк, отчет-мнение, коллективный отчет/интервью, анкета, сообщение интервью, приложение. Отчет - это текст объявления, который тесно связан с конкретным событием и его развитием и подробно описывает его.

Аналитический жанр включает рекламные корреспонденции, рекламные статьи, рекламные обзоры, рекламные объяснения, рекламные исследования (наброски). Рекламная корреспонденция - это реклама, охватывающая конкретный анализ фактов, местной ситуации, связанной с рекламируемым продуктом, идеей или услугой. Рекламные статьи посвящены всестороннему изучению объекта рекламы, для которого характерен глубокий анализ и широкий спектр обобщений. Рекламный обзор - это вид рекламы, который служит для анализа рекламируемого объекта, подробно разъясняя его суть. Рекламное объяснение - это жанр рекламы, сочетающий в себе описания нескольких рекламных мероприятий или тем в рамках мероприятия, а исследование презентации содержит выражение отношения к рекламируемому продукту (услуге).

3-й жанр - жанр журналистики делится на рекламный эскиз и рекламный очерк. Рекламный эскиз описывает использование товаров (услуг), а рекламное очерк не только рассказывает о рекламируемом продукте (объекте или услуге), но и сочетает в себе создание художественного и публицистического образа рекламируемого объекта.

Следует отметить, что очень важным требованием для рекламных текстов является то, что они должны включать минимальное количество слов, максимальное количество информации. Успех рекламы, прежде всего, зависит от композиции, в которой очень удачно выстроена и смысловая нагрузка. Кроме того, рекламные сообщения должны соответствовать стилистическим принципам рекламных текстов.

Ключевые слова: реклама, рекламные тексты, жанр, типы рекламы, продукты, услуги

Redaksiyaya daxil olma tarixi: 08.01.2021
Capa qəbul olunma tarixi: 01.02.2021
Rəyci: filologiya elmləri doktoru, professor Azad Məmmədov capa tovsiyə etmişdir.

RƏNA BAHADURZADƏ
Lənkəran Dövlət Universiteti
bahadurzade.rena@mail.ru

ABBASQULU AĞA BAKIXANOVUN LİRİKASINDA ƏXLAQ MƏSƏLƏLƏRİ

Açar sözlər: lirika,tərbiyə,əxlaq,hörmət,qayğı,vətən,ailə,cəmiyyət,dini pərdə

Ədəbiyyatımızın parlaq simalarından hesab edilən Abbasqulu ağa Bakıxanov demək olar ki, yaradıcılığı boyu bu gün də aktuallığını qoruyan nəsihətlər,ibrətamiz fikirlər aşılayan epik,lirik əsərlər müəllifi kimi bir sıra tədqiqatçılar tərəfindən araşdırılmışdır.

Bakıxanov epik əsərləri ilə yanaşı, lirik əsərlərində də mövzu rəngarəngliyi ilə seçilmiş, ziddiyyətli fikirlərə baxmayaraq, mütərəqqi yol tutaraq həmişə xalqın tərəfində olmuşdur.Şair tüfeyli həyat sürən, "ruzunu Allah verəcəkdir" deyibən,hərəkət etməyən insanları ifşa etmiş,namuslu əməyi səadətin açarı hesab etmişdir.Müəllif "iş insanın cövhəridir", "insanı əmək ucaldır" kimi atalar sözlərini özünəməxsus şəkildə misralara düzmüşdür:

Əməksiz bil,bu aləmdə iş aşmaz, ruzi bəxş olmaz,
Bizimdir hər əməl,hər iş,bizə bunlar müyəssərdir. (3,15)

Dövründə haqsızlığın,yalanın,əyriliyin baş alıb getdiyini dərəbəyliyin hökm sürdüyünü təsvir edən şair insanları elmə,kitaba meyillənməyə çağırır,elmə yiyələnməyin faydalarından söhbət açır.A.Bakıxanov sanki bugünümüzdə yaşayırmış kimi elmin,təhsilin dövrün əsasını təşkil etdiyini vurğulayır,bir sıra şeirlərində dəfələrlə qabardır. Sanki öz dövrü üçün vacib olan təhsilin gələcək nəsillərin həyatında da böyük rol oynayacağını hiss edir Qüdsi:

Hər kəs nə istəyir eləyir,yox sənəd,sübut,
Guya ki,ən zəif şey imiş dünyada kitab.

Şöhrət adıyla hökm edilir,ədlə yox baxan,
Düzlüklə əyrilik qarışıb,artmış iztirab. (3,273)

"Hər qaranlıq gecənin bir nurlu sabahı var" fikrinə inanan şair aşağıdakı misralarda gələcəyə ümid və arzularını ifadə etməyə çalışmışdır.Bakıxanov gəncliyi, həmişə təhsilli,dünyagörüşlü, açıq fikirli,haqq-ədalət tərəfdarı kimi görmək istəyir və bunu həm lirik,həm də epik əsərlərində dəfələrlə vurğulamaqdan çəkinmir:

Xəzan xoşdur,ardınca vardır bahar ümidi,
Sən şadsan ki,gül gəldi,son qoyuldu xəzanə. (3,279)

Balığı sudan çıxardıqdan sonra ona edilən nəvazişlərin faydasız olduğunu söyləyən Bakıxanov həyatı puç olmuş insanın sönük düşüncələrini,ümidsiz baxışlarını belə təsvir və eyni zamanda müqayisə etmişdir:

Gər zaman bundan sonra gülsə mənə mənası yox,
Bir balıq çıxsa sudan başqa nəvaziş nə edər? (3,282)

Şair gənclərə,oxuculara müraciət edərək onları dolaşıq işlərdən kənar gəzməyə,özünü dərk edərək anlamağa,hörmət etməyə çağırır.Mən bu fikirlərlə bir gənc tədqiqatçı olaraq razıyam. Fikrimcə insan ilk növbədə özünü "Mən" olaraq tanımalı,dərk etməli, onu əhatə edənlərdən öncə özünə hörmət qoymalı,daha sonra isə ətrafındakı insanları düşünərək onlara hörmətlə,nəvazişlə yanaşmalıdır:

Səndədir hər şeyin əsil mənası,
Özünü dərk elə,əzizim göz aç!

Həmişə dolaşıq işdən kənar ol,
Ox atan heç daşı edərmi amac? (3,287)

Aşağıdakı misralarda isə cəmiyyətin bəlası olan nəfsimizə qalib gəlməyə,ona uymamağa çağırır müəllif bizləri.Həqiqətən də insan, bəşəriyyət yarandığı gündən nəfs də onun xilqətində yaranıb və onunla bərabər yaşayır.Nəfsə uymamaq isə hər kəsə nəsib olmur.Bunun üçün gözütox olmaq lazımdır.Doğrudan da nəfsə uyan kəslərin sonu uçurumdur.Mən Bakıxanovun bu çağırışını xüsusilə dəstəkləyir və özüm daxil olmaqla bütün gəncləri, nəfsimizə hakim olmağa, tamahkarlıqdan, riyakarlıqdan uzaq durmağa çağırıram:

Qüdsi,təbin pozular,nəfsinə uysan,ayıq ol,
Su tapıb çirki təmizlə,elə bu nəfsini ram. (3,291)

"Dünya malı, dünyada qalar" ifadəsinin doğruluğu başqa müəlliflər kimi A.Bakıxanovun da dilindən bir sıra misralarda qabardılır.Həqiqətən də Sultan Süleymana qalmayan dünya heç kəsə qalmır.Bunları düşünərək yaşamalıdır insan.Axirətə köçən insanlar haqqında danışdıqda hər kəs onların hansı əməllər ilə yadda qaldığını söyləyir.Yəni bu dünyada insan ləl-cəvahirat, var-dövlətlə deyil, hansı əməllərlə yaşayırsa,elə də yaddaşlara həkk olur. İnsanların əmələ deyil,ləl-cəvahirata meyl etdiyindən aşağıdakı kimi şikayətlənir Qüdsi:

Hünərə heç kəsdə bir rəğbət yoxdur,
Cəmaət axtarır ancaq simuzər. (3,298)

Dostu düşməndən ayıra bilməyən gənclərə müəyyən yol göstərən Bakıxanov hiyləgər insanlardan,dost kimi görünüb düşmən olanlardan uzaq gəzməyə çağırır bizləri.Bu tarixən xalqımızın başqa millətlərlə münasibətində də özünü biruzə vermişdir.Xüsusilə ermənilərlə azərbaycanlıların münasibətində bu problem qabardıla bilər.Belə ki, vaxtı ilə bizə dost hesab edilən,qonşu olaraq evimizə dəvət etdiyimiz,süfrəmizin başına əyləşdirdiyimiz insanların (ermənilərin) vaxt gələcək bizə düşmən olacaqlarını heç düşünməmişdik.Bu da bizim humanist

düşüncələrimizin,mülayim rəftarımızın nəticəsində yaranmış münasibətdən sui istifadə idi. Yəni bir zamanlar özümüzə dost hesab etdiklərimiz vaxt gəldi ki, bizə ən böyük düşmən oldular və "dilbər guşəmiz" hesab edilən Qarabağı nə az, nə çox düz 27 il tapdaq altında saxladılar.Bu baxımdan Bakıxanovun fikirləri biz gənclərə xüsusilə örnək olmalıdır.Yəni istər ailədə,istər cəmiyyətdə,istərsə də daha böyük kollektivlərdə dostu düşməndən ayırmağı bacarmalıyıq. Kiminlə dost, kiminlə düşmən kimi davranacağımıza xüsusi diqqət yetirməliyik.Humanist davranışlarımızı çərçivəyə almalıyıq.

Sən, ey Qüdsi,uzaş cəncəl bu dostlardan uzaq ol,
Nəhayət,ömrünü badə verər bu hiyləgər düşman. (3,318)

Xalqı yalnız onun içindən çıxan kəslər anlaya bilər.Bu fikir həqiqətən də doğrudur.Bu motiv böyük drammaturq M.F.Axundovun "Aldanmış kəvakib" povestində də Yusif Sərracın simasında da çox gözəl şəkildə ümumiləşmişdir: Xalq içində hörmət tapmağın yolu haqdan keçir Qüdsiyə görə:

Mən özüm də bilmirəm işlər nə cür əncam tapar?
Xalq içində hörmətim yox,həm də haqdan şərmsar.

Hər kəs haqdan əl üzə, hərgiz qovuşmaz xalqa o,
Xalq ilə birləşə olmaz heç zaman haqdan kənar. (3,328)

Yuxarıdakı misralardan da görünür ki, Bakıxanov gəncləri xalqla birlik olmağa, onunla birgə addımlamağa çağırır. Bu yoldan kənar gəzənlərin haqq yolundan kənarlaşdıqlarına işarə edir.

Qəzəllərinin birində Bakıxanov çox maraqlı bir fikirə toxunur.O, qoca cavan ayrılığını yaratmaq tərəfdarı deyil.Qoca hümməti,cavan qüdrəti,gücü,qüvvəsi ilə birləşərsə,böyük uğur əldə etmiş olar müəllifə görə.Mənim fikrimcə də, yaşca böyük insanların nəsihətləri,ağıllı fikirləri, düşüncələri biz cavanlar üçün hər zaman örnək olmalı,doğru yolu göstərmək üçün cığır hesab edilməlidir:

Əqil,ixtiyar,iş görən bir deyil,
Ki,tədbirə yox,heç kəsin cürəti.

Nə xoşdur əgər bir yerdə olsa cəm,
Qoca hümmətilə,cavan qüdrəti. (3,329)

"Könlü balıq istəyənin quyruğu suda gərək" misalının şərhini Bakıxanov özünəməxsus şəkildə təsvir edir:

Vəslinin incisini ağlamayanlar tapmaz,
İnci tapmaz dənizə cummayan aləmdə tamam. (3,340)

Yəni məqsədinə nail olmaq istəyirsənsə,bitmədən,yorulmadan,usanmadan ona doğru addımlamalısan.O,haqq-ədalətin həmişə qalib gəlmədiyi həqiqətini də unutmamış,bəzən layiq olmayanların irəlidə getdiyini aşağıdakı misralarda söyləmişdir.Lakin bunlar bizləri həvəsdən salmamalıdır şairə görə:

Eşqdir əsl qərəz, bəzən olur bu yolda,
Xas olan dalda qalır,öndə gedir məstü avam. (3,340)

Vətən sevgisi,Qürbətdə keçən sıxıcı günlərin təsvirinə qəzəllərində yer verən Qüdsi gənclərə bu sevgini aşılamağın vacibliyini vurğulayır və bədii sualdan istifadə etməklə bu mövzunu işıqlandırır.Fikrimcə,bu mövzu bizlər üçün ən ümdə məsələ olmalıdır.Çünki hal-hazırda vətənimizdə yaşadığımız vəziyyət,keçirdiyimiz hisslər,gördüklərimiz (II Qarabağ müharibəsi) bunun nə dərəcədə vacib olduğunu bizə daha yaxşı izah edir.Torpaqlarımız anaların yetişdirdiyi vətənpərvər ruhlu qəhrəmanlar,şəhidlər,qazilər hesabına öz azadlığını əldə etmişdir.Həmin şəhidlərin,qazilərin ölməməsi,yaşaması eyni ruhda gənclərin yetişməsi üçün bizlərin üzərinə böyük vəzifə düşür:vətənpərvər ruhlu gənc nəsil yetişdirmək:

"Vətən",- deyib,gəzirəm qürbət eldə avarə,
Bu qürbət ölkə mənə oldu xaniman nə edim?

Düşür bu dəhrdə hər şəxsə dərd,qədrincə,
Bu sirri dostlara bəs etməyim əyan,nə deyim? (3,357)

Qüdsi gəncləri möhkəm,səbrli dözümlü olmağa çağırır:

Möhkəm dayanıb səbr et,
Qüdsi,çətin işlərdə.
Qüdsi,çətin işlərdə,
Möhkəm dayanıb səbr et! (3,377)

A.Bakıxanovun müxəmməslərində də gənclərə nəsihət şəklində verilmiş misralara rast gəlinir.O, sevgisinə naxələf çıxan vəfasızları,başqalara yar olan insafsızları belə təsvir edir:

Səngdil rəhm elə ki,könlüm olub şişə mənim,
Salmısan şamü səhər başımı təşvişə mənim,
Dövrü dönmüş fələk,et halımı əndişə mənim,
Bilmədin qədrimi ey şuxi cəfapişə mənim.
Axırı üzü dönük oldu düçar özgələrə (3,392)

Həzrət et,sərzənişi-xəlqdən ey bisərü pa,
Gəzmə əğyar ilə sən bəsdir usan,eylə həya,
Qüdsiya,sən biləsən yoxdu gözəllərdə vəfa,
Lənət olsun buların zatına hər şamü səba,
Ki,mənim sirr sözümü eylədi car özgələrə. (3,392)

Bakıxanov ağ-qara kimi simvolik əksliklər, təzadları həyat hadisələri üzərində tətbiq edərək maraqlı müqayisələr yaratmış və bu əksliklər fonunda ibrətamiz fikirlər aşılamışdır:

Əgər ağlığından mənə düşsə xal,
Mənim gözəlliyim məhv olar dərhal.

Xalq məni şüursuz bilib hər zaman,
Böyük bir nifrətlə qaçar yanımdan.

Ağarmaz bilirəm qara bədənim,
Barı ağaraydı taleyim mənim! (3,398)

Məclislərdə təkəbbürlü olan,alçaq,rəzil,vətənə xidmətdən çəkinən kələkbazları şair tənqid atəşinə tutur,bu mənfi xüsusiyyətləri özümüzdən uzaqlaşdırmalı olduğumuzu söyləyir.Eyni fikirlər XIX əsrdə yazıb-yaratmış Q.Zakir yaradıcılığında da xüsusi yer almışdır:

Məclisdə xudnümalıq adət olmuş hər kəsə,
Təkəbbürlü öyrənmək qəribə bir halətdir (3,402)

Özgənin zərərində axtarar öz xeyrini,
Alçaqlıq və rəzalət onlara bir adətdir.

Hamı özündən keçib millətə xidmət edən,
Kimin işi göstərin vətəninə xidmətdir?! (3,403)

Həyatını eyş-işrətdə,içki məclislərində puç edən insanları tənqid atəşinə tutan Qüdsi onlara "insan" deməkdən belə çəkinir.Bu mövzu bu günümüz üçün də çox aktualdır. Belə ki,hal-hazırda da ailəsini,evini,varını,dövlətini içki məclisində məhv edən, içkini ailəsindən,övladından,daha üstün hesab edən tüfeyli,avara insanlar da hal-hazırda mövcuddur.Onları heç bir söz,heç bir əməl tutduqları yoldan çəkindirmir,nəfslərinə hakim ola bilmirlər.Yalnız ən dəyərli hesab olunan ailəni itirdikdən sonra peşiman olaraq doğru yola qayıdır,amma çox vaxt sonrakı peşimançılıq fayda vermir:

Ey özünə insan deyib öyünən,
Nə öyrəndin bu dünyada: iki şey,

Biri bada verib varı,dövləti,
Əyyaş kimi səhər,axşam içdim mey,

O biri də hərzə,yüngül qadınla,
Oynayaraq öz dalını atdın hey! (3,404)

"Çox bilən az danışar" ifadəsini əsas gətirən Bakıxanov az bilib çox danışanları "arif" deyil, "axmaq" adlandırır:

Az bilən,çox danışan axmaqdır,arif deyil,
Bənzəyər qamışlıqda küləyə sözləri bil! (3,405)

Qüdsi iradəli insanları tərif edir,qorxaqlıqdan heç kəsə xeyir gəlməyəcəyini söyləyir və hər işdə tənasüb olmasının vacibliyini vurğulayır,hətta ağıldan belə qədərində istifadə olunmalıdır deyir. Bu yerdə N.Gəncəvinin "bir inci saflığı varsa da suda, artıq içiləndə dərd verir o da" ifadəsi yada düşür.Həqiqətən də insan həyatının

ən vacib hissəsini təşkil edən suyun belə dəyərindən çox içilməsi böyük fəsadlara gətirib çıxarır.Ona görə də hər şey qədərində,çərçivədə istifadə olunsa,daha gözəl və ürəyəyatımlı olar:

İradə çox olsa,təəssüb artar,
Qorxaqlıq çox olsa,gedər ixtiyar.
Ağıllı odur ki,ifrat etməsin,
Hər şeyə bilməli bir tənasüb var. (3,408)

Qurandan gətirilmiş ayəylə şair; yaxşılıq eyləyən yaxşılığa çatar misalının tərəfdarı kimi çıxış edir:

Yaxşılıq sevməyir dünyada riya,
Hünərlə eyb-ki,birləşməz əsla.
Quranda müvafiq bir ayə vardır,
Yaxşılıq eyləyən çatar yaxşıya. (3,409)

Xeyir və şər,şadlıq və qəm hər zaman yan-yana irəliləyir.Düzgün yolu seçmək və bu yolda addımlamaq isə ağılın süzgəcindən keçir.Ağılla atılmış hər bir addım müsbət nəticələnir,əks halda edilmiş bütün cəhdlər nəticəsiz qalır:

Dünyada bir yerdə olur şadlıq,qəm
Şadlıq kədər ilə bağlanmış möhkəm.
Şadlıq keçən kimi qəm edər zühür,
Şadlıq zühür edər,qəmlər keçər dəm. (3,413)

A.Bakıxanov alleqorik şeirlərində də heyvanları dilləndirmək,danışdırmaqla müəyyən hadisələr fonunda ibrətamiz fikirlər aşılayır.Oxucularında müəyyən əxlaqi keyfiyyətləri,müsbət xüsusiyyətləri görmək istəyir.

Qoyunu şikar etməyə çalışan tülkünün hiyləgərliyi və öz qazdığı quyuya düşməsi "Tülkü və qoyun" şeirində əks olunub.Sonda hiyləgərliklə əldə olunan məğrurluğun heç olduğunu söyləyir Qüdsi.Gücsüz,rəhmsizlə aparılan mübarizə sonda məğlubiyyətlə nəticələnir şairə görə:

Qüdsi,sən işlədib hiyləvi zur,
Olma heç öz nəvan ilə məğrur.

Gücsüzə rəhmsizə zülm etsən,
İntiqamı alar bir it səndən. (3,421)

"Qurd və ilbiz" şeirində isə şöhrətpərəstlik,lovğalıq kimi mənfi keyfiyyətlər pislənir,sadəlik təbliğ olunur.Hətta əldə olunan böyük uğurlar,qazanılan şöhrət,məşhurluq belə sadə insanı yolundan döndərməməli,bünövrəsinin,ilkinin nə olduğunu hər zaman yada salmalı,hansı kökdən, hansı vəziyyətdən bu hallara gəldiyini heç vaxt unutmamalıdır.Bir sözlə keçmişini unudanın gələcəyi olmaz:

İlbiz ahəstə dedi: "Budur şöhrətin sonu,
Yersiz öyünmək,qürur məhv etdi axır onu".

İnamın bu ilbizə,bir hikmət söyləyim mən,
Öz yurduma sığınmaq yeydir sarsaq ölümdən. (3,422)

"Yersiz iftixar" şeiri müasir dövrümüzlə çox səsləşir.Belə ki,hal-hazırda kiməsə arxalanaraq zirvələr fəth edənlər sonradan həmin insanları unudur,özünü ondan üstün hesab edir,qınından çıxıb onu bəyənməyən tısbağalar kimi bu yola çatanadək keçdiyi həyat yolunu,yəni keçmişini unudurlar.Eynilə bu şeirdəki küdü kimi:

Çinar gülüb dedi öyünmə sən də,
Hünər məlum olar xəzan əsəndə. (3,423)

Cahilliyin gətirdiyi mənfi sonluqlar Bakıxanovun Krılovdan tərcümə etdiyi "Eşşək və bülbül" şeirində də təsvir edilib.Göründüyü kimi Bakıxanovun seçdiyi tərcümə əsərlərində belə əxlaqi mövzular təbliğ olunur,gənclərə müsbət keyfiyyətlər aşılanır.

A.Bakıxanovun açıdığı cığır bu günümüzədək bir sıra müəlliflərin yaradıcılıq yolu olmuş,bir çox əsərlərin ərsəyə gəlməsinə təkan vermişdir.Məhz bu baxımdan A.Bakıxanov dühası biz gənclərin yaddaşında silinməz iz buraxmalı, unudulmamalı,gələcək nəsillərə ötürülməlidir.

Ədəbiyyat

1. Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi "Maarif", Bakı, 1966.
2. Bakıxanov A. Seçilmiş əsərləri, "Yazıçı",1984.
3. Bakıxanov A. Seçilmiş əsərləri, "Avrasiya press", Bakı, 2005.
4. Azərbaycan yazıçılarının həyatından dəqiqələr, "Gənclik", Bakı, 1979.
5. www.anl.az/down/medeniyyet/2020/iyul/715402.htm.

Rəna Bahadurzadə

ABBASQULU AĞA BAKIXANOVUN LİRİKASINDA ƏXLAQ MƏSƏLƏLƏRİ

XÜLASƏ

XIX əsr Azərbaycan ədəbiyyatının parlaq simalarından olan A.Bakıxanov yaradıcılığı boyu oxuculara əxlaqi,tərbiyəvi fikirlər aşılamağa çalışmışdır.Dövrünün haqsızlıqlarına,ədalətsizliklərinə göz yuma bilməyən Qüdsi gəncləri mübarizliyə səsləmişdir. Bu yolun əsasını isə təhsilin təşkil etdiyini söyləmişdir.Dini pərdə altında gizlənən ikiüzlü,fırıldaqçı insanları tənqid etmiş,hər kəsi onlardan uzaq gəzməyə səsləmişdir.Cəmiyyət tərəfindən hörmət edilməyi istəyən kəsləri ilk növbədə özünə hörmət etməyə çağırmışdır.Bəşəriyyətin bəlası hesab edilən nəfsin tənqidi A.Bakıxanov lirikasında da yer almışdır.Dost kimi görünən düşmənlərə nifrət etdiyini açıq-aydın qələmə alan müəllif,bizləri onlardan yan gəzməyə çağırmışdır. Ağılla hərəkət edənlərin hər zaman qazanacağına inanmışdır A.Bakıxanov. Məqsədli şəkildə irəliləyənlərin sonda uğur əldə edəcəyinə inanmışdır Qüdsi.

Sevgisinə naxələf çıxan vəfasızları həm lirikasında,həm də epik əsərlərində tənqid etmişdir. Həyatını eyş-işrətdə,içki məclislərində keçirənlər xüsusilə tənqid olunur. Xeyir və şər yolunda hər zaman xeyirə istiqamətlənən insanların çox olmağı ümidi təsvir olunur.Şöhrətpərəstlik, lovğalıq,təkəbbürlük kimi mənfi xüsusiyyətlər heyvan obrazlarının vasitəsi ilə pislənir.Az bilib çox danışanları "axmaq" adlandırır Bakıxanov.Göründüyü kimi A.Bakıxanovun toxunduğu bütün mövzular bugünümüz üçün də aktual və keçərlidir. Bu da Abbasqulu ağa Bakıxanov qələminin qüdrətindən xəbər verir.

РЕНА БАХАДУРЗАДЕ

НРАВСТВЕННЫЕ ПРОБЛЕМЫ В ЛИРИКЕ АББАСКУЛИ АГА БАКИХАНОВА

РЕЗЮМЕ

Являющийся одним из ярких лиц Азербайджанской литературы XIX века А.Бакиханов,на протяжении всего творческого пути,старался привить своим читателям идеи нравственного воспитания.Кудси не мог закрывать глаза несправедливость своей эпохи и поэтому призывал молодежь к борьбе.Он говорил,что в основе этого пути,лежит образование.Он критиковал лживых людей,скрывающихся под религиозной занавесью и призывал всех сторониться их.Людей,которые хотели быть уважаемыми в обществе, призывал в первую очередь уважать себя.Победа души, считающаяся бичом человечества, также вошла в лирику А.Бакиханова.Автор,открыто писавший,что ненавидит врагов, призывал избегать их.Он верил,что те кто действует с умом,тот кто двигается целенаправленно,то он в конце концов добъется успехов.Кудси критиковал неверных своей любви,как в лирике,так и эпических своих произведениях.Особенно критиковал тех, кто проводил все свое время разгульной жизнью,пьяных компаниях.Описанно,что на пути дабро и зла,есть надежда на то,что всегда будет много людей,стремящихся к добру. Отрацательные черты характера,как высокомерые,гордость и самомнение, очерняются в описаниях образами животных.А.Бакиханов называет глупыми тех,кто мало знает, много болтает.Как видно,все темы затронутые.А.Бакихановым,актуальны на сегодняшний день. В этом проявляется,сила пера Аббаскули ага Бакиханова.

Ключевой слова: текст песни, воспитание, нравственность, уважение, родина, семья, общество

RANA BAHADURZADA

SUMMARY

MORAL ISSUES IN BAKIKHANOV'S LYRICS

A.Bakikhanov one of the brightest figures of Azerbaijani literature of the XIX century,tried to educate moral and educational ideas in readers throughout his literary activities.He called on the youth to fight,who couldn't suffer the injustice, unfairness of his time.He also said that education is the basis of this path.He criticized the hypocritical,deceitful people hiding under the veil of religion and called on everyone to stay away from them.He called on people who want to be respected by society to respect themselves first of all.He openly wrote that he hated enemies who looked like friends and called us to stay away from them.He believed in those who behaved wisely will always win. He believed that those who made an objectively progress would eventually succeed.He criticized the unfaithful to their Qudsi's love in his lyrics and epics.

Those who spend their lives at rattling and drinking parties were especially criticized.It describes the hope that there will be many people who turn to good in the way of good and evil. Negative traits such as pride,arrogance,conceit are condemned through animal images.Those who speak too much but knows little are called foolish.Apparently,all the issues touched upon by Bakikhanov are still valid today this shows the power of Bakikhanov's pen.

Key vvords: morality, respect, care, homeland, family, society, religious veil

Redaksiyaya daxil olma tarixi: 12.01.2021
Capa qəbul olunma tarixi: 06.02.2021
Rəyci: LDU, filologiya elmləri doktoru, professor Yədulla Ağazadə
capa tovsiyə etmişdir.

NƏRMİN NAMİQ QIZI NƏBİYEVA
E-mail: narmin.n.noqte@gmail.com
Bakı Dövlət Universiteti
Bakı şəh., Z.Xəlilov küç., 23

SƏNƏDLİ TELEVİZİYA FİLMLƏRİNDƏ İSTİFADƏ OLUNAN SİNTAKTİK KONSTRUKSİYALARA VERİLƏN TƏLƏBLƏR

XÜLASƏ

Sənədli telefilmin (STF) məzmunu daha dolğun ifadə olunsun deyə, ayrı-ayrılıqda dil materialı, mətn, danışıq kifayət etmir. Bunun üçün TV triadasının hər 3 elementinin (təsvir, söz, səs) birləşərək ekran kontekstini yaratması vacibdir. Dil vasitələrinin fəaliyyətinin spesifik xüsusiyyətləri yalnız onların ekran konteksti ilə zəruri sintezi sayəsində müəyyənləşə bilir. Ekranda dil vasitələrinin mənalılığı, ilk növbədə, sözün təsvir konteksti ilə birləşməsindən asılıdır. Bilavasitə nitq kontekstində auditoriya ilə ünsiyyətdə olan STF-nin ssenari müəllifinin, yaxud ümumilikdə onun yaradıcı kollektivinin ekran dilinə və bütövlükdə nitq mədəniyyətinə necə yiyələnməsi də önəmli faktorlardandır. STF-də sözün (kadrarxası mətn) rolu məsələsi bir çox faktorlardan, o cümlədən filmin janrından (xronika, mənzərə, portret) asılıdır. Sənədli telefilmlərdə kadrarxası mətn yığcam, dəqiq və aydın olmalıdır. Təsvir vasitəsilə çətinliklə ötürülən informasiyanı təqdim etməyi bacarmalıdır. Hər şeydən əvvəl bilmək lazımdır ki, görüntü – hərəkət edən təsvir sənətidir və buna görə də söz obrazı dəyişdirməməlidir. Kadrarxası mətn, bu mətndə işlədilən cümlə növləri və onlara verilən sintaktik tələblər olduqca mürəkkəb, çoxşaxəli və dəyişkəndir. Dil inkişaf etdikcə, dildə dəyişikliklər baş verdikcə bunlar bilavasitə televiziyanın dilində və dolayısı ilə ekran publisistikasının bir qolu olan sənədli televiziya filmlərinin dilində öz əksini tapır. İstənilən STF-də həm söz, həm təsvir vasitəsi ilə daha statik və daha dinamik qəhrəman, obraz yaratmaq mümkündür. Film üçün mətn yazılan zaman yaradıcı heyət əvvəlcə hansı mesajı ötürmək istədiyini, gerçəkliyin ekran həllini necə gördüyünü müəyyənləşdirməlidir. Çünki informasiyanın ünvanlandığı subyektin – seyrçinin müəllif yozumunu, mövzunun qayəsini düzgün anlaması, gerçəkliyin ekran həllinin hədəf auditoriyasına dəqiq çatdırılması üçün istənilən dil vasitəsinin məhz bu mərama xidmət etməsi əsas meyar olmalıdır.

Açar sözlər: *sənədli televiziya filmi, ekran publisistikası, sintaktik konstruksiyalar, cümlə növləri, sadə cümlələr, mürəkkəb cümlələr, sintaktik-üslubi xüsusiyyətlər.*

Sənədli televiziya filmlərinin (STF) sintaktik-üslubi xüsusiyyətlərini tədqiq edərkən informasiyanın qavranılması prosesində sintaktik konstruksiyaların düzgün seçilməsi və ayrı-ayrı sintaktik vahidlərə verilən tələblər "STF üçün yazılmış kadrarxası mətn necə olmalıdır: sadə, yoxsa mürəkkəb cümlələr?" sualı şəklində üzə çıxır. Bir qrup tədqiqatçı bu suala cavab olaraq, mürəkkəb cümlələri fikirləri ağırlaşdıran, eləcə də informasiyasının qavranılması prosesini çətinləşdirən sintaktik vahid kimi dəyərləndirdiyi halda (7, s. 95), digərləri hesab edir ki, sadə və mürəkkəb sintaktik quruluşların seçimi məlumatın mövzusundan asılıdır (2, s. 93; 6, s. 69; 9, s. 120). Kembell isə qeyd edirdi ki, söz və informasiya nə qədər çox olarsa, cümlə bir o qədər çətin başa düşülər. Cümlə ixtisardan yalnız qazana bilər (8, s. 12). Bəzi tədqiqatçılar isə sadə cümlələr üzərində qurulan nitqi sosial-psixoloji tələbat kimi qiymətləndirirlər (5, s. 155). Deməli, bu və ya digər halda STF-də səs-görüntü obrazının mənalılığı sözün obrazlılığından, həcmindən və quruluşundan asılı olur (4, s. 176; 3, s. 327). Bir sözlə, məhz filmlərin vizual situasiyası STF-də sintaktik vahidlərin ümumi mənzərəsini birbaşa və ya dolayı yolla formalaşdırır. 2005-ci ildə ekranlaşdırılmış "Muğanna İsa Hüseynov" sənədli televiziya filmində kadrarxası mətn qəhrəmanın dilindən, lakin müəllifin səsi ilə verilir:

Kadrarxası m tn (mü llif): Y ni bu q d r uzundur? S n gözümüzün qabağında böyüm mis n?

Kadrarxası m tn (q hr manın dilind n, mü llifin s si il): *"Cism n, lb tt , sizin qarşınızda böyümüş m. Siz bilirsiniz ki, m n 1920-ci ild Qazax rayonunun Muğanlı k ndind anadan olmuşam".*

Görüntü sırası: Təbiət təsvirləri, peyzaj-mənzərə kadrları bir-birini montaj sırası ilə əvəzləyir.

Kadrarxası mətn (qəhrəmanın dilindən, müəllifin səsi ilə): *"1948-ci ildən yazmağa başlamışam. Daha bir neçə rəqəm, daha bir neçə fakt. Və bütün bunlar, doğurdan da, sizin üçün gözünüz qarşısında böyümüş adamın tərcümeyi-halı olar. Lakin məsələ bundandır ki, mənim ruhumun necə böyüdüyünü, hansı məktəblərdə, hansı institutlarda oxuduğunu hətta ailəmin üzvləri də bilməyib və duymayıblar".*

Nümunədə verilən sonuncu kadrarxası mətni müşayiət edən təsvirlərdə yazıçının rayonda böyüdüyü evi, onun həyətini görürük. Bu cür kadrarxası mətnlər informativ monoloqu daha dinamik edir, onu quruluqdan, sıxıcılıqdan xilas edir. İnformasiya nə qədər çox olsa da, kadrarxası mətnin vasitəli nitq şəklində verilməsi ona təbiilik qatır. Həm də buradakı cümlələrdə yığcamlıq nəzərə çarpır. Prof. İ. Məmmədovun qeyd etdiyi kimi, bu yığcamlıq mətləbi dinləyiciyə müxtəlif şəkildə çatdırmağa xidmət edir. Belə sintaktik quruluşa radio və TV dilinin çox ehtiyacı vardır (5, s. 153). Bu o deməkdir ki, efir mətni çevikliyi, fikrin aydın və yığcam dillə ekrana gətirilməsini sevir və tələb edir. Sintaktik vahidlər və cümlə konstruksiyaları barəsində danışdığımız nəzəri tələblər sənədli telefilmlər üçün yazılan kadrarxası mətnlərdə də özünü göstərir.

2013-cü ildə ekranlaşdırılmış "Azərbaycan xalçaları - Naxçıvan qrupu" sənədli televiziya filmindən nümunəyə nəzər salaq:

Kadrarxası mətn: *"Xalça təkcə bədii-estetik zövqün təcallası deyil, həm də qan yaddaşının vizual göstəricisi, zaman körpüsü, milli-mənəvi dəyərlərin, mədəni təşəkkülün, xalq təfəkkürünün ilmələrdə pıçıltısı, dünəndən sabaha salnaməsidir. Naxçıvan xalçaçılıq məktəbini araşdırarkən, heç şübhəsiz, bu ilmələri vuran, naxışların harmoniyasını quran insanların mütəşəkkil prosesinin, keçdikləri epoxanın sosial-fəlsəfi mahiyyətini yurdun tarixi-etnoqrafik, mədəni xəritəsini bilmək gərəkir".* Vahid kontekstdə məna, forma və intonasiya ilə birləşən bu cümlələr konkret bir informasiyanın çatdırılmasına xidmət edir. Struktur etibarilə sintez olunmuş bu cümlələrdə ifadə (leksik) mürəkkəbliyinə rast gəlirik. Müəllif Naxçıvanın qədim xalçaçılıq məktəbi olmasını bədii təsvir üsulları ilə ekrana yad, ədəbiyyata, publisistikaya xas şəkildə daha mürəkkəb və dolaşıq dildə ifadə etmişdir. 2016-cı ildə "Carçıfilm" Yaradıcılıq Birliyində ekranlaşdırılmış "Şəhidlər ölməz. Pəncəli Teymurov" sənədli televiziya filminə nəzər salaq:

Kadrarxası mətn: *"Aprel ayında baş verən dörd günlük döyüşlərdə xüsusi təyinatlı qüvvələrin bölmələri yaxından iştirak edib. Döyüşlər zamanı şəhidlər verilsə də, qarşıya qoyulan tapşırıqlar icra olunub. Əlbəttə, uğur itkisiz əldə olunmur. İndiyə qədər vətən uğrunda 86 şəhid verən Astara igidlərinin sırasına qəhrəman övladımızın (film aprel döyüşlərində şəhid olan Pəncəli Teymurov haqqındadır –* ***N.N.****) da adı əlavə olundu".*

Bu nümunədə isə kadrarxası müəllif mətnində istifadə olunmuş cümlələrin strukturu sadə, fikir və məzmun anlaşıqlı, nitq isə rəvandır. Bu təhkiyədə bir neçə sadə cümlə yanaşı işlədilib. Frazaların heç birində tabeli mürəkkəb cümlələrə rast gəlinmir.

Kadrarxası mətnlərdə iki cür cümlə növündən istifadə olunur: 1) Müstəqil (sərbəst) cümlələr; 2) Qeyri-müstəqil, asılı cümlələr. Müstəqil cümlə o cümlələrə deyilir ki, kadrarxası mətnin "ağırlıq mərkəzini" təşkil edən cümlələrdən ibarətdir. Müstəqil cümlə tiplərinə isə 1) adlıq cümlələr; 2) qapalı cümlələr - əsas mətn daxildir (5, s. 186). Mətnin ilk cümləsi adlıq giriş cümlədir. Bu cümlə mətndəki başqa cümlələrdən asılı deyil. Lakin burada olan informasiya ümumi xarakter daşıyır. Adlıq cümlələr keçid-əlaqələndirici cümlələr tələb edir (5, s. 186-187). Təsvir böyük məna və emosional informasiya daşıdıqda, müşayiət edən mətnin sözləri minimuma endirilir, daha çox adlıq cümlələrdən və ya söz cümlələrdən istifadə olunur (6, s.71). "Şuşa" (*ssenari – rej. Şahəddin Elxan, 2001*) adlı sənədli telefilmdən bir hissəyə nəzər salaq: *"Şuşa... Hər daşı canlı bir tarix olan bu qədim yaşayış məskəninin əsası 1750-ci ildə Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulmuşdur".* Bu, adlıq cümlə olduğu halda, ondan sonra gələn cümlə ilə birinci cümlədəki ümumilik dağılır və konkretləşmə baş verir. Bu cür cümlələr qeyri-müstəqil (giriş-keçid) cümlələr adlanırlar. Qapalı cümlələr isə mətndəki məna yükünün ağırlığını öz üzərinə götürür. Belə cümlələr həm zaman, həm də şəxsə görə yerdə qalan

cümlələrdən asılı deyil (5, s. 187). Amma yan-yana işlənən bu cümlələrdə intensiya müşayiət olunur. Qeyd edək ki, instensiya bir cümlə üzvünün digər cümlə üzvünə can atmasıdır (1, s. 243). "Can bazarı" (2016, *ssenari:* A. Telmanqızı, *rej.* O. Hüseynli) adlı veriliş estetikalı sənədli telefilmdən bir hissəyə nəzər salaq: "*Səbinə Türkiyəyə gedərkən alver edəcəyini, Türkiyədən paltar gətirəcəyini düşünmüşdü. Özünün alver predmeti olacağını, onu inandıran qadının alətinə çevriləcəyini düşünməmişdi. Amma onun əvəzinə bunu düşünən olmuşdu. Nailə adlı qadın Səbinə və onun kimi onlarla qadını aldadaraq əxlaqsızlığa yuvarlatmaqla onların hesabına çirkli, həm də başgicəlləndirici məbləğdə pullar qazanmağı düşünmüşdü*". Bu nümunədən göründüyü kimi, mətndə əsas fikrin izahı üçün bəzən bir neçə cümlənin işlədilməsi tələb olunur. Fikir qapalı-bazis cümlələrdə verilir, lakin onun izahına ehtiyac duyulur. Bu ehtiyacı və vəzifəni mətndəki izahedici cümlələr yerinə yetirir. İzahedici cümlələr mətnin mənasının təqdim olunmasında həlledici rol oynayır (5, s. 189). Yuxarıda göstərdiyimiz nümunədə ilk cümlədə Səbinənin başına nə gəldiyi, niyə aldadıldığı bizə məlum deyil. Sonrakı izahedici cümlə isə onun insan alverinin qurbanı olduğunu açır və ilk cümlədəki qeyri-müəyyənlik dağılır. Kadrarxası mətnlərin son cümləsi – nəticə-yekun cümlələr isə həm mövqe, həm də məqamına görə məzmuna xitam verməklə yekunlaşdırıcılığı öz üzərinə götürür (5, s. 189). Məsələn, "Bal arısı" sənədli televiziya filmində yekunlaşdırıcı cümləyə nəzər salaq: *"Balda şəfa vardır. 70 peyğəmbər bal üçün Allaha dua etmişdir. Həzrəti-peyğəmbərimiz hədisi-şəriflərindən birində belə buyurur: "Bədəni 3 şey bəslər – bal yemək, qumaş geymək və xoş qoxu sürmək".* Maraqlıdır ki, filmin giriş cümlələri də bal ilə bağlı hədisdən nümunə gətirilərək başlamışdır. Bu cür yekunlaşdırıcı cümlə fikir olaraq tamaşaçını filmin əvvəlinə aparır və film boyu mövzu ilə bağlı gəlinən qənaəti ümumiləşdirir. STF-nin kadrarxası mətnlərində əsas məlumatları qabartmaqla, tamaşaçıları deyilənin daha mühüm elementini mənimsəməyə hazırlayan e*kspressiv qabartma* adlanan konstruksiyalardan da istifadə olunur. Bu zaman spesifik intonasiya deyilənin birləşdirilən hissələrini məntiqi cəhətdən qabartmağa imkan verir. 2016-cı ildə ekranlaşdırılmış "Qaraçılar" sənədli telefilminə nəzər salaq:

"*Onlar bizim aramızda yaşayırlar. Amma aralarına bizlərdən kimsəni buraxmazlar. Onlar hər kəsdən uzaq gəzirlər. Fərqlidirlər. Hamı kimi deyillər. Onlar qaraçıdırlar. Qara sözü təkcə rənglərinə görə yox, qara əməllərinə, bəlkə də, qara talelərinə görə verilib onlara*".

Verilən bu nümunədə tamaşaçı hissə-hissə, tədricən və təkrarla çatdırılan fikir açıqlamasını düşünür, fikirləşir və asanlıqla qavrayır. Bu cür sintaktik quruluşların əsasını qəlibə salınmış hazır formalar yox, təbii, fikir axını boyu formalaşan nitq təşkil edir (5, s. 171).

Kadrarxası mətnlər üzərində apardığımız araşdırmalar belə bir qənaətə gəlməyə əsas verir ki, bu mətnlərdə işlədilən cümlə növləri və onlara verilən sintaktik tələblər olduqca mürəkkəb, çoxşaxəli və dəyişkəndir. Dil inkişaf etdikcə, dildə dəyişikliklər

baş verdikcə bunlar bilavasitə televiziyanın dilində və dolayısı ilə ekran publisistikasının bir qolu olan STF-nin dilində öz əksini tapır. Bundan əlavə, gerçəkliyin yaratdığı situasiyanın gedişatından asılı olaraq kadrarxası mətn yazılan zaman onun təsviri tamamlaması, görüntü situasiya ilə birlikdə ideyaya xidmət etməsi, təsvirlə sintezi nəticəsində gerçəkliyin ekran həllinə yeni yozum, yeni məna qazandırması, eyni zamanda, fikrin, müəllif qayəsinin yazılan cümlələr arasında dəqiq və düzgün şəkildə paylaşdırılması əsas şərtlərdəndir.

ƏDƏBİYYAT

1. Abdulla K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri (2-ci nəşr). Bakı: MTM – İnnovation, 2016, 359 s.
2. Babazadə O.Ə. Ekranda söz. Bakı: Elm və Təhsil, 2012, 136 s.
3. Məhərrəmov Q.M. Audiovizual nitq. Bakı: Elm, 2000, 444 s.
4. Məhərrəmli Q.M. Kütləvi Kommunikasiya və dil. Bakı: Çaşıoğlu, 2004, 208 s.
5. Məhərrəmli Q.M. Televiziya dili. Bakı: Elm, 2002, 304 s.
6. Məhərrəmli Q.M. Televiziya jurnalistikasının əsasları. Bakı, 2005, 144 s.
7. Məhərrəmli Q.M. Radio verilişlərinin dili və üslubu. Bakı: Elm və təhsil, 2011, 204 s.
8. Кембелл Р. Организация работы отдела новостей. М: Интерньюс, 1998, 36 с.
9. Стреков И. Документальный фильм. М.: Искусство, 1960, 163 с.

Araşdırılmış sənədli televiziya filmlərinin siyahısı:

1. "Azərbaycan xalçaları - Naxçıvan qrupu" (*ssenari*: Hafiz İmamnəzərli, *rej*. Nizami Süleymanlı). Azərilmə, 2013.

2. "Bal arısı" (*ssenari*: Taleh İsmayıl, *rej*. Rauf Sultanov). Azərbaycan televiziyası, 2000.

3. "Can bazarı" (*ssenari*: Afət Telmanqızı, *rej*. Orxan Hüseynli). ANS, 2016.

4. "Qaraçılar" (*ssenari*: Afət Telmanqızı, *rej*. Orxan Hüseynli). ANS, 2016.

5. "Muğanna İsa Hüseynov" (*ssenari*: Əhməd Oğuz, Şahəddin Elxan, *rej.* Şahəddin Elxan). Azərbaycantelefilm, 2005.

6. "Şəhidlər ölməz. Pəncəli Teymurov" (*ssenari*: Nurlan Məlikzadə, *rej.* Samir Şirvanzadə). İctimai televiziya, "Carçıfilm" Yaradıcılıq Birliyi, 2016.

7. "Şuşa" (*ssenari – rej.* Şahəddin Elxan). Azərbaycantelefilm, 2001.

Н.Н.НАБИЕВА

ТРЕБОВАНИЯ К СИНТАКСИЧЕСКИМ КОНСТРУКЦИЯМ, ИСПОЛЬЗУЕМЫЕ В ДОКУМЕНТАЛЬНЫХ ТЕЛЕФИЛЬМАХ

РЕЗЮМЕ

Для того, чтобы сделать содержание телевизионных документальных фильмов более полным, одного языка, текста и речи недостаточно. Надо, чтобы все три элемента телевизионной триады (изображение, слово, звук) объединились для создания экранного контекста. Специфика языковых средств может быть определена только путем необходимого синтеза с контекстом экрана. Значение языка на экране зависит, прежде всего от сочетания слова с контекстом экрана. Важно то, как сценарист или его творческий коллектив, общаясь с аудиторией в контексте речи, воспринимают экранный язык и культуру речи в целом. Роль слова (закадрового текста) в документальных фильмах зависит от многих факторов, в том числе от жанра фильма (хроника, живопис, портрет). В документальных фильмах закадровый текст должен быть кратким, точным и ясным. В то же время слово должно уметь передавать информацию, которую трудно передать через изображения. Прежде всего, необходимо знать, что изображение - это движущееся искусство, и поэтому слово не должно изменять образ. Закадровый текст, типы предложений, используемые в этом тексте, и синтаксические требования к ним очень сложны, многогранны и вариативны. По мере развития и изменения языка все это прямо отражается на языке телевидения и, косвенно, на языке телевизионных документальных фильмов, одной из ветвей экранной журналистики. В любом документальном телефильме можно создать более статичный и динамичный портрет героя с помощью слов и изображений. При написании текста для фильма команда должна сначала определить, какое сообщение они хотят передать и как они видят отражение реальности на экране. Потому что главным критерием для субъекта - зрителя к которому адресована информация, является правильное понимание авторской интерпретации, идеи темы, а для того, чтобы точно донести отражение реальности на экране до целевой аудитории, главным критерием должно быть то, что любой языковой инструмент служит этой цели.

Ключевые слова*: документальный телефильм, экранная публицистика, синтаксические конструкции, типы предложений, простые предложения, сложные предложения, синтактико-стилистические особенности.*

N.N.NABIYEVA

REQUIREMENTS FOR SYNTACTIC STRUCTURES USED IN TV DOCUMENTARIES

SUMMARY

Language, text and speech alone are not enough to make the content of TV documentaries more complete. To do this, it is important that all three elements of the TV triad (image, word, sound) combine to create a screen context. The specific features of language tools can be determined only through their necessary synthesis with the screen context. The meaning of language on the screen depends primarily on the combination of the word with the screen context. It`s important how the scriptwriter, or their creative team, communicating with the audience in the context of speech, assume the screen language and the culture of speech as a whole. The role of the word (off-screen text/ voice over) in TV documentary depends on many factors, including the genre of the film (chronicle, pictorial, portrait). In documentaries, the off-screen text (voice over) should be concise, accurate and clear. At the same time, the word must be able to present information that is difficult to transmit through the image. First of all, it is necessary to know that the image is a moving art, and therefore the word should not change the character. Off-screen text, the types of sentences used in this text and the syntactic requirements given to them are very complex, multifaced and variable. As language develops and changes, all these are reflected directly in television language and, indirectly, in the language of documentary television, one of the branch of screen journalism. It is possible to create a more static and more dynamic portrait of the hero, in any documentary TV film, through both words and images. When writing the text for a film, the creating team must first determine what message they want to convey and how they see the screen resolution of reality. Because the main criterion for the subject to which the information is addressed - the spectator is to correctly understand the author's interpretation, the idea of the topic, and in order to accurately convey the screen resolution of reality to the target audience, the main criterion should be that any language tool serves this purpose.

Key words: *television documentary, television publicity, syntactic structures, types of sentences, simple sentences, complex sentences, syntactic stylistic features.*

Redaksiyaya daxil olma tarixi: 10.01.2021
Capa qəbul olunma tarixi: 05.02.2021
Rəyci: prof.Qulu Məmmədqulu oğlu Məhərrəmli
capa tovsiyə etmişdir.

MÜNDƏRİCAT

KƏMALƏ MEHDİXANLI
INGILIS DİLİNDƏ NKARLIQ KATEQORİYASININ AZƏRBAYCAN DİLİNDƏ LEKSİK VƏ SEMANTİK XÜSUSİYYƏTLƏRİ.....3

ФАТМА АТАКЛЫ САЧАК
ИННОВАЦИОННЫЕ ТЕХНОЛОГИИ В ОБУЧЕНИИ РКИ В ВУЗЕ 10

NİGAR HƏSƏNOVA
ŞƏFİQƏ ƏLİYEVA
ÜMUMDİLÇİLİK SİSTEMİNDƏ TƏRCÜMƏ PROSESİNDƏ KALKA ÜSULU İLƏ SÖZ YARADICILIĞI (İngilis və Azərbaycan dilləri materialları əsasında) 23

NURİYYƏ RZAYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏSDƏR VƏ MƏSDƏR TƏRKİBLİ CÜMLƏLƏRİN LİNGVİSTİK TİPOLOJİ XÜSUSİYYƏTLƏRİ.....30

İRADƏ VƏLİYEVA
KƏMALƏ HÜSEYNOVA
İNGİLİS DİLİNDƏ METAFORIZMLƏR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ TRANSPOZİTİV İFADƏ ÜSULLARI.....37

YEGANƏ QURBANOVA
ZİBAHƏT NƏSİROVA
İNGİLİS DİLİ MƏNŞƏLİ SÖZ VƏ TERMİNLƏRİN ALMAN DİLİNİN LEKSİKONUNDA SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ.....44

PAKİZƏ MƏMMƏDZADƏ
İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ ANTROPONİMİK UNİVERSAL SİSTEMİNDƏ SEMANTİK TƏHLİL VƏ İXİİSAS, ŞƏXS ADLARININ TUTDUĞU MÖVQE 51

SEVİNC HÜSEYNOVA
INGILIS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FONETİK HADİSƏLƏRİN FƏRQLİ VƏ OXŞAR XÜSUSİYYƏTLƏRİ,RABİTƏLİ NİTQİN BƏZİ AMİLLƏRİ.....58

СЕИДОВА НАРГИЗ РАМИЗ ГЫЗЫ
ТРАДИЦИОННО-РИТУАЛЬНЫЕ БЛАГОПОЖЕЛАНИЯ ВО ФРАНЦУЗСКОМ ЯЗЫКЕ 65

SEVİNC BAĞIROVA
İNGİLİS DİLİNİN AMERİKAN VARİANTINDA FRAZEOLOGİZMLƏRİN LEKSİK,SEMANTİK VƏ MORFOLOJİ XÜSUSİYYƏTLƏRİ HAQQINDA 79

ALLAHVERDİYEVA QƏNİRƏ
MURADOVA MEHRİBAN
QLOBALLAŞAN DÜNYADA İNGİLİS DİLİNİN AZƏRBAYCANDA ÖYRƏNİLMƏSİ VƏ ÖYRƏDİLMƏSİ MƏSƏLƏLƏRİ 86

ŞƏFİQƏ HEYDƏROVA
SEVİNC HACIYEVA
İNGİLİS DİLİNİN RƏSMİ-IŞGÜZAR ÜSLUBUNUN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ
VƏ İŞGÜZAR DAİRƏDƏ ONUN İŞLƏNMƏ MƏQAMLARI 93

AYTƏN HACIYEVA
XALİDƏ ZAMANOVA
İNGİLİS DİLİNDƏ SİFƏT,ONA XAS OLAN XARAKTERİK XÜSUSİYYƏTLƏR
VƏ AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ 100

ИРАДА БАДАЛОВА
ГЮЛЬНАРА ИСМАИЛОВА
ОСНОВНЫЕ АСПЕКТЫ ГЛОБАЛИЗАЦИИ АНГЛИЙСКОГО ЯЗЫКА
В СОВРЕМЕННОМ ЭТАПЕ РАЗВИТИИ МЕЖДУНАРОДНЫХ ОТНОШЕНИЙ 107

LALƏ HÜSEYNOVA
İNGİLİS DİLİNDƏ İSTİQAMƏT, YER, MƏKAN MƏNALI PAREMİOLOJI
VAHIDLƏRIN LEKSİK SEMANTIK TƏHLİLİ.....114

GÜNEL BABANLI
FEİLİN SUBSTANTİVLƏŞMƏSİ 121

ШАФИЕВА РОЗА ШАКИР ГЫЗЫ
СЕМАНТИЧЕСКИЕ ИЗМЕНЕНИЯ В ЗАИМСТВОВАНИЯХ.....127

İRADƏ ƏLİYEVA
PREDİKATİVLİK KATEQORİYASININ AZƏRBAYCAN VƏ İNGİLİS
DİLLƏRİNDƏKİ MÜQAYİSƏLİ XARAKTERİSTİKASI.....134

MEHRİBAN ƏFƏNDİYEVA
LEKSİKOLOGİYA HAQQINDA ANLAYIŞLARIN ÖYRƏDİLMƏSİ 141

XƏYAL ƏSGƏRLİ
"BREYŞİT" KİTABININ LEKSİKASINDA EKSPRESSİV VAHİDLƏR.....150

PƏRVANƏ MÖVSÜMOVA FİRDOVSİ QIZI
DİSKURSUN TƏDQİQİNƏ DAİR BƏZİ QEYDLƏR.....158

ƏZİZOVA RÖYA TELMAN QIZI
MÜASİR İNGİLİS DİLİNDƏ MODAL
SÖZLƏR MODALLIĞIN İFADƏ VASİTƏSİ KİMİ.....169

ARİF KAZIMOV
TAPMACALARIMIZIN DİLİNDƏ İŞLƏNMİŞ BƏZİ SÖZLƏRİN
ETİMOLOGİYASINA DAİR YENİ BAXIŞ.....177

FƏRİD HƏSƏNLİ
ƏRƏB ƏDƏBİ DİLİNDƏ LEKSİK PROBLEMLƏRƏ DAİR 199

TƏRANƏ ZEYNALOVA
BEYNƏLXALQ İŞGÜZAR YAZIŞMALARIN
LİNQVİSTİK ƏSASLARI (ingilis dili materialları əsasında) 207

SEVİNC NAMƏTOVA
İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ YAZI BACARIQLARININ FORMALAŞDIRILMASININ
SƏMƏRƏLİ YOLLARI.....215

GÜLXAR HÜSEYNOVA
ALMAN DİLİNİN TƏDRİSİNDƏ LEKSİK BACARIQLARIN FORMALAŞDIRILMASINDA
DİL MATERİALLARINDAN İSTİFADƏ İMKANLARI 223

TƏHMİNƏ ATAŞLI
M.KAŞĞARİNİN LÜĞƏTİNDƏ OĞUZLARA AİD EDİLƏN BƏZİ SÖZLƏRİN
AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ 231

VÜSALƏ KƏRİMLİ
MİR CƏLAL PAŞAYEVİN HEKAYƏLƏRİNDƏ MƏTNLƏRARASI
MÜNASİBƏTİN İZLƏRİ 239

PÜSTƏXANIM YUSIFOVA
MÜASİR İNGİLİS DİLİNDƏ EMFATİKLİK VƏ ONUN İFADƏ VASİTƏLƏRİ 249

ƏDƏBİYYATŞÜNASLIQ

VÜQAR TEYMURXANLI,
KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATINDA
MİLLİ KİMLİK VƏ AZƏRBAYCANÇILIQ 260

Tahir ORUCOV
BƏHLUL BƏHCƏT: TANINMIŞ FOLKLORŞÜNAS, ƏDƏBIYYATŞÜNAS VƏ
ZƏNGƏZURUN SONUNCU QAZISI.....270

NAİLƏ ƏSKƏR
TARİXİLİK MÜSTƏVİSİNDƏ “KOROĞLU” DASTANI 280

ƏHMƏDOVA AYTƏN ARZULLA QIZI
"DASTANİ- ƏHMƏD HƏRAMİ" ƏSƏRİNDƏ QOŞMALARIN
YARATDIĞI ÇALARLAR 288

CƏLAL ALLAHVERDİYEV
MƏTBUAT TARİXİMİZDƏN: "ZƏNGİ" QƏZETİ.....297

ЛЕЙЛА ЭМИНОВА
ЛЯМАН АХУНДОВА
ОБ ИСТОРИИ АЗЕРБАЙДЖАНСКО-АНГЛИЙСКИХ
ЛИТЕРАТУРНЫХ СВЯЗЕЙ 305

SONAXANIM İMANOVA
AZƏRBAYCANIN SİYASİ ƏDƏBİYYATINDA VƏ MÜSTƏQİL MEDİYA
SƏHİFƏLƏRİNDƏ CAR-BALAKƏN ÜSYANININ İŞIQLANDIRILMASI 312

МАЛИКА НАДИР ГЫЗЫ АДЫГЕЗАЛОВА
К ПРОБЛЕМЕ ВОСПРИЯТИЯ И ИЗУЧЕНИЯ ТВОРЧЕСТВА
ГУСЕЙНА ДЖАВИДА.....319

HƏSƏNOVA NURANƏ VƏLİ QIZI,
1980-ci İLLƏRİN SONU 90-cı İLLƏRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA
İCTİMAİ-SİYASİ VƏZİYYƏT.....330

ZÜMRÜD FƏRZƏLİYEVA
REKLAM MƏTNLƏRİNİN JANRLARI.....336

RƏNA BAHADURZADƏ
ABBASQULU AĞA BAKIXANOVUN
LİRİKASINDA ƏXLAQ MƏSƏLƏLƏRİ 345

NƏRMİN NAMİQ QIZI NƏBİYEVA
SƏNƏDLİ TELEVİZİYA FİLMLƏRİNDƏ
İSTİFADƏ OLUNAN SİNTAKTİK KONSTRUKSİYALARA
VERİLƏN TƏLƏBLƏR 354

«Elm və təhsil» nəşriyyatının direktoru:
Filologiya elmləri doktoru, professor Nadir MƏMMƏDLİ

Dizayn: Kamran İbrahimov

Çapa imzalanmış 24. 12. 2020
Şərti çap vərəqi 23,5 Sifariş № 598
Kağız formatı 60x84 1/8. Tiraj 300.

Jurnal "Elm və təhsil nəşriyyat-poliqrafiya" müəssisəsində
hazır elektron nüsxə əsasında çap olunmuşdur.
E-mail: elm. ve. tehsil@mail. ru
Tel: 497-16-32; 050 -41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.